
ÇARMIXIN KÖLGƏSİNDƏ

Təqibin və Şagirdliyin Müqəddəs Kitab Teologiyası



Qlenn M. Penner

ÇARMIXIN KÖLGƏSİNDƏ

Təqibin və Şagirdliyin Müqəddəs Kitab Teologiyası

Qlenn M. Penner

In the Shadow of the Cross:
A Biblical Theology of Persecution and Discipleship
Published by
Living Sacrifice Books
P.O. Box 2273
Bartlesville, OK 74005-2273

© 2004 by Glenn M. Penner. All rights reserved. No portion of this publication may be reproduced, stored in a retrieval system, translated or transmitted in any form or by any means—electronic, mechanic, photocopy, recording, or any other—except for brief quotations for review or research purposes without permission in writing from the copyright holder.

© 2012 for the Azeri edition.
Translated by permission. All rights reserved.

Çarmıxın kölgəsində: Təqibin və Şagirdliyin Müqəddəs Kitab Teologiyası

Müqəddəs Kitab © MKŞ 2009

Bütün müəlliflik hüquqları qorunur. Bu kitabın heç bir hissəsi yenidən işlənib hazırlana bilməz, axtarış məlumat sistemində saxlanıla bilməz, elektron, mexaniki, şəklinin çəkilməsi, üzünün köçürülməsi və ya başqa vasitələr ilə tərcümə və ya ötürülə bilməz. Təkrar və ya araşdırma məqsədləri ilə müəlliflik hüququnu qoruyan şəxsdən icazə olmadan qısa sitatlar gətirmək istisna olunur.

ÖN SÖZ

"Şagirdlik Məsihin əzabına sadiqlikdir və buna görə də heç təəccüblü deyil ki, məsihçilər əzab çəkməyi dəvət etməlidirlər."
- Dietrix Bonhoeffer

Əzab, şəhidlik və şagirdlik arasında əlaqə mənə demək olar ki, on beş illik tədqiq ərzində tədricən aydın görünməyə başlayan bir şeydir. Mən seminariyanın ilk ilində əzab və çətinlik dövrünə cavab verərək bu tədqiqə bir vəzçi kimi başladım, bu vaxt Allahın çağırışına itaət edərək, gənc ailəm və mən hər gün ehtiyaclarımızın ödənilməsi üçün yalnız imanla yaşayırdıq. Biz bilirdik ki, Allah oxumaq üçün bizi Manitobaya getməyə çağırıb. Amma dövrümüzün bir çox insanları kimi həqiqətən başa düşmürdük ki, Məsihə itaət etmək çox vaxt əzab çəkmək və qurban verməkdir. İllər keçdikcə biz bunu Allahın lütfü ilə öyrəndik. Mən həmin il ərzində cənubi Manitobada müxtəlif məbədlərdə danışarkən Allahın Öz Kəlamı vasitəsilə bizə nə öyrətdiyini, Fransiz və Edit Şaeffer və Çarlz Olriçin yazılarını və dr. Ed. Nyufeld kimi seminariya professorlarının təlimini bölüşürdüm. Seminariyanın üçüncü ilində ilahi hissiyyatsızlıq təlimini öyrənərkən mənim təfəkkürüm dərinləşdi. Mən həm də qardaşımın və həyat yoldaşının sadiqliyindən danışdım, onlar ciddi şikəstliyi olan oğullarını böyüdərkən xoş məramlı "dostlarının" (Əyyubun dostları hələ də sağdır!) şərhlərinə və ittihamlarına baxmayaraq Allaha etibar edərək möhkəm qalıb mübarizə aparmışdılar. Həmin vaxt mən cənubi Manitobada məbədin pastorlar heyətinə qoşulmuşdum. Mənim üçün öyrəndiklərimi toplantı ilə bölüşmək imkanı yarananda gördüm ki, Allahın xalqı bu həqiqətlər üçün ac idi və onlar qismən agah olduqları əqli, emosional və ruhani boşluqları doldurmağa kömək etdi. Onlar əzab çəkmək barədə daha geniş mənzərə əldə

etdikcə, sanki mozaikanın *(böyük mənzərəni göstərən xırda hissələrdən ibarət tapmaca, tərcüməçinin qeydi)* hissələri yerinə düşdü.

Mən 1997-ci ildə *Şəhidlərin Səsi* təşkilatının Kanada ofisindəki heyətinə qoşuldum, bu təşkilat dünyada təqib olunan məsihçilərə kömək etməyə həsr olunub. Mənim cavabdehliklərimin içərisində məbədlərdə və konfranslarda missiyaların baş natiqi olmaq rolu da var idi, həm də dünyanın hər bir yerində təqib olunan məsihçilərə baş çəkmək imtiyazım da var idi. Mən ŞST-nın Kommunikasiya Direktoru kimi vəzifəmi yerinə yetirərkən Allah Kəlamını öyrəndikcə mənə daha çox aydın oldu ki, əvvəlki tədqiqlərimdə heç vaxt görmədiyim və məruz qalmadığım əzabların cəhətləri var. Kolumbiyada əzab çəkən məsihçi rəhbərlərə təqib barədə Kəlamdan təlim keçməyi məndən xahiş edəndə aşkar etdim ki, əvvəlki illərdə öyrəndiklərimin və öyrətdiklərimin çoxu tələblərə cavab vermir, uyğunlaşmır. Mənə daha da çox aydın oldu ki, Əhdi-Cədid, xüsusilə əzab çəkmə sualına ümumiyyətlə, cavab verməyə maraq göstərmir (yəni, əzab çəkmə günaha batmış dünyada yaşamağın nəticəsidir). Bu güman edilir. Daha çox Əhdi-Cədiddə əzab çəkmə ilə əlaqəli olan parçaların əksəriyyəti *salehliyə* görə əzab çəkmədən danışır. Mən əzab çəkmə barəsində çoxlu klassik kitablar oxuyarkən fikir verdim ki, bu çox da vurğulanmayıb. Belə də güman edilir, mənim fikrimcə Qərbdəki məsihçilərin təqiblə əlaqədar təcrübələri çox azdır və ya heç yoxdur. Amma mənə elə gəlir ki, bu günün vəzçilər axını Kəlamın mətnini müasir dünyanın qayğılarına (xoş məramlı) tətbiq etmək üçün praktiki yollar axtaranda çox vaxt Kəlamın ciddi tədqiqində və müəlliflərin çatdırmaq istədiyi əsl mənanı düzgün başa düşməkdə ilişirlər. Hörmətli lüteran alimi Krister Stendal belə demişdir:

> Ciddi Müqəddəs Kitab dərsləri üçün onun "həyatda tətbiq edilməsini" güclü surətdə tələb etməkdən böyük təhlükə yoxdur. Bizim əsl mənanı dinləyib tapmağımız üçün səbrimiz və kifayət qədər imanımız olmalıdır. Əgər bu edilməsə, Müqəddəs Kitab dərsi əzab çəkir, əslində yanlış və səhv nəticələr, eləcə də şərhlər yaranır.

Təqib barəsində Müqəddəs Kitabın mətnləri az təqib olan və ya olmayan yerlərdə asanlıqla tətbiq oluna bilmədiyindən vəzçilərin ümumi fiziki, psixoloji və ruhani əzablar olan vəziyyətlərə bu parçaları səhv tətbiq etməyə meylləri var. Bu səhv tətbiq nəticədə mətnin özündə dəyişilir. Bu səbəbdən də tətbiq şərhə təsir göstərir, Qərbdə yaşayan və Müqəddəs Kitabı öyrənən tələbə heç vaxt fikirləşmir ki, ağrı və əzab haqqında danışılan mətnlərdə günaha görə əzab çəkmək deyil, salehliyə görə əzab çəkməkdən danışılır.

Teoloji və Kəlam dərsləri barədə Qərb hegemonluğu, eləcə də nəşr olunmuş ədəbiyyat təqib və şagirdlik arasında ruhani əlaqənin bu nəzərdə tutulmamış səhv anlayışını və ya etinasızlığını yalnız böyüdüb və yayıb. Mən təqibin normal hal olduğu cəmiyyətlərdə məbəd rəhbərləri ilə görüşərkən bu mənim üçün daha çox aydınlaşdı. Qərbli oxşarları kimi onlar çox vaxt bu mövzu barədə ruhani təlimləri anlamaqda böyük çatışmazlığın şahidi olurlar. Onlar belə cavabları məndən gözləyirdilər, halbuki bu cavablar teoloji biliyim və təlimimə əsasən məndə yox idi. Amma əzab çəkmə barədə əvvəlki tədqiqim mənə haradan başlayacağımı göstərdi.

Sizin əlinizdə olan mətn, təqib və şagirdlik barədə Kəlamın təlimini daha aydın başa düşmək üçün ehtiyacı ödəməkdə olan səyimdir. Bu əsasən dini cəhətdən məhdudiyyətlər qoyulmuş ölkələrdəki məbəd rəhbərləri üçün yazılıb ki, onlar öz toplantılarına daha da effektli surətdə xidmət edə bilsinlər. Daha sonra bu dini azadlıq olan cəmiyyətlərdəki imanlılar üçün yazılıb ki, Kəlamın mətninin səhv başa düşülməsində düzəlişlər etsin və daha ümumi qəbildən olan əzab çəkənlərə pastorluq köməyini təmin etsin. Mənim belə əzab çəkənlərə ürəyim yanır. Mənim özümə 2002-ci ildə xroniki, sağalmaz leykemiya diaqnozu qoyuldu. Təqib olunanı dəstəkləyən Allahın eyni vaxtda bütün övladlarını ehtiyac anlarında dəstəklədiyini etiraf etməyi öyrəndikcə bu tədqiq mənə kömək etdi ki, Allahın lütfünü daha böyük dərəcədə qiymətləndirim. Mən inanıram ki, bu müvafiq tətbiqdir. Amma biz Kəlamın mətninin orijinal məqsədini nəzərdən qaçırmamalıyıq. Müqəddəs Kitab (xüsusilə Əhdi-Cədid) təqib olunan imanlılar tərəfindən təqib olunan imanlılar üçün yazılmışdır. Bizim Müqəddəs Kitabı necə oxumağımız və onu tətbiq etməyimiz, eləcə də şəxsi və ümumi

şəkildə Məsihin ardınca getməyimiz üçün olduqca inkar mənalar olmadan bu mətn rədd edilə bilməz. Mən mətnin kənarlarında əlavə məlumatlar olan xeyli haşiyələr daxil etmişəm, ümid edirəm ki, bu oxucunun mövzu üzrə biliyini genişləndirəcək. Onlar əsas mətnin bir hissəsi olmadığı üçün oxucular onlara məhəl qoymaya bilərlər və ya sonra oxumaq üçün kənara qoya bilərlər.

Bu tədqiq Allahın padşahlığına yardım edərsə və Onun planlarını yerinə yetirməkdə carçılarını təmin edərsə, mən Allaha minnətdarlığımı bildirərəm. Bu qəbildən olan tədqiqdə qaçılmaz olduğu üçün oxucunun etiraz etdiyi müəyyən nəticələr çıxarıla bilər. Mən aydınlaşdırmalıyam ki, bu təhlildə ifadə edilən fikirlər Şəhidlərin Səsi təşkilatının rəsmi teoloji mövqeyi deyil. ŞST denominasiyasız iman missiyasıdır və ona görə də bu tədqiqdəki xüsusi doktrinalı meyli əks etdirən istənilən şərh yalnız mənimdir.

Mən Kanadada olan Şəhidlərin Səsi təşkilatının Direktorlar Heyətinə və İcraçı Direktoru Klaas Brobbelə minnətdarlığımı bildirməsəm, diqqətsizlik etmiş olaram. Onlar mənə icazə verdilər ki, normal cavabdehliklərimdən bir az uzaqlaşaraq Oklahomanın Bartlesville şəhərindəki Oklahoma Ueslian Universitetində (OUU) Din və Fəlsəfə üzrə professor kimi qısa müddət xidmət edim. Mən bu müddət ərzində mövzu üzrə mühazirələr hazırlayarkən bu tədqiqə kifayət qədər vaxt həsr edə bildim. Mən Oklahoma Ueslian Universitetinin müavini Dr. Qraham Ualkerə universitetdə dərs keçməyə dəvət etdiyi və bu işdə məni ruhlandırdığı üçün minnətdarlığımı bildirməyə borcluyam. Eləcə də Nelli Brobbelə və Tom Uayta bu əlyazmanın çox hissəsini redaktə etdikləri və bəzi məqamları aydınlaşdırmaqda çoxlu dəyərli məsləhətlər verdikləri üçün təşəkkürümü bildirirəm. Yaradılış Qrupunun redaktoru Linn Kouplendə öz dərin təşəkkürümü bildirirəm. Mənə deyilib ki, əgər yazıçı redaktora qulaq assa, onun ən yaxın dostu ola bilər. Linnin işi buna sübutdur. Məni 2003-cü ilin yayında bu mövzu üzrə danışmağa dəvət edən Şri-Lankanın Kolombo şəhərindəki Kolombo Teoloji Seminariyasının müəllimlərinə və işçilərinə də təşəkkürümü bildirirəm. Əgər bu iki məktəb tərəfindən dəvət olunmasaydım, inanmıram ki, bu tədqiq üçün lazımi qədər vaxt həsr edə bilərdim. Mən bu tədqiqə həvəslə və ruh yüksəkliyi ilə cəlb olunan OUU

və KTS-dəki tələbələrimə minnətdarlığımı bildirirəm. Mən əminəm ki, onlar kursa yazılanda nə öyrənəcəklərini bilmirdilər. Mən dua edirəm ki, Allah onların arasından mərkəzində çarmıx olan Müjdənin çarmıx daşıyan carçılarını qaldırsın. Sonda mən həyat yoldaşım Denitaya, övladlarım Coel, Rebekka və Davidə minnətdarlığımı bildirməkdə borcluyam. Onların dəstəkləri və məhəbbəti düşündüklərindən daha çox kömək edib. Mənim Təqib olunmuş Məbəd ilə xidmətim ailəmdən çox vaxtlar uzaq olmağı tələb edir. Onlar Allahın Padşahlığı uğrunda daha çox qurban veriblər. Qoy onların mükafatı göylərdə böyük olsun.

1-Cİ FƏSİL

ƏHDİ-ƏTİQƏ NƏZƏRƏN BAXIŞ

BAŞLANĞICDA TÖVRATDAN ANLAYIŞLAR

Yaradılış başlanğıc kitabdır. Bu əsas anlayışları təqdim edir, bu anlayışların üzərində Kəlamın qalan vəhyləri qurulur. Bu həm də təqib və şagirdlik mövzusu üçün doğrudur. Xüsusilə, Yaradılışın ilk fəsilləri insan hüquqlarının və dini azadlığın, eləcə də təqibin səbəblərinin vacibliyi barədə Kəlama nəzərən əsası təmin edir.

İnsan hüquqları və dini azadlıq üçün Kəlama nəzərən əsas

İnsan hüquqlarına və dini azadlığa məsihçi baxışı Kəlamın sübut olunmuş xüsusi mətnlər toplusuna deyil, bəşəriyyətin Kəlama nəzərən baxışına əsaslanıb. Müqəddəs Kitab insanların Allahın surətində yarandığını özünəməxsus şəkildə təsvir edir (Yaradılış 1:26, 27). Burada məsihçilərin insan hüquqlarına necə baxdığı barədə dərin mənalar var.

1. Allah hüquqları verən və qoruyandır

Allahın surətində yaradılan insan öz təbiətinə görə Allah qarşısında Ona itaət etməyə və Onunla ünsiyyətdə olmağa cavabdehdir. Allah da öz növbəsində insanın xeyrinə hərəkət etməyi və bəşəriyyət ilə ünsiyyətdə olmağı seçir. Onun xasiyyəti qanunlar və dəyərlər üçün təməl yaradır ki, ilahi surəti daşıyan insan qarmaqarışıqlıq olmadan azadlıq əldə etsin.

Belə azadlıq ilahi əmrləri sadəcə yerinə yetirməklə başa gəlmir. Başlamaq üçün yer "bunu Kəlam deyir, ona görə də biz itaət etməliyik" faktı deyil. Əlbəttə, biz Allahın Kəlamda açdığı vəhyə ciddi yanaşmalıyıq. Amma Allahın vəhyi hər şeydən öncə Özünün zühurudur. Kəlamın bütün əmrlərinin əsası Allahın xasiyyətidir. Biz surəti daşıyanlar kimi Onun xasiyyətini əks etdirməliyik. Allah bizə qarşı necə hərəkət edirsə, bizim də başqalarına qarşı elə hərəkət etməyimizi istəyir.

Hətta Kəlamın səthi tədqiqi aşkar edir ki, Allah zəif qrupa aid olan insanların minimal vətəndaşlıq hüquqları ilə xüsusilə maraqlanır. Məsələn, Musanın Qanunu vətəndaşların sosial vəziyyətinə baxmayaraq hamısına qarşı bərabər və ədalətli təsdiqinə görə başqa müasir vətəndaşlıq məcəllələrini üstələyir. Hər insan həyatının haqqı var ki, təhlükəsiz olsun, bu haqq insan həyatı üçün əsasdır, çünki biz qandan və ətdən ibarət olan bədəndən yaradılmışıq. Şəxsi əmlakın oğurlanmasından, fiziki zorakılıqdan, abortdan və girov götürülmədən müdafiənin Kəlama əsasən dəstəyi var, çünki bunlar Allahın yaratdığı insanlar üçün ədalətin tələbləridir.

Ona görə də insan hüquqlarına məsihçi baxışı onları çərçivəyə salır, burada Allah cavabdehliyi verən və hüquqları qoruyandır. İnsanların hüquqları var, çünki Allah onların qayğısına qalır, müdafiə edir və onlardan ədalət tələb edir. Bu mənada O bizə hüquqlar verir və onları qoruyur.

2. Hörmət olunmaq hüququ

Allahın surətini daşıyan insanlar kimi biz günaha batmış olsaq da fərdlər hörmətə layiqdir və ləyaqətə malikdirlər. Surəti daşıyan insana hörmətsizlik etmək surəti təmsil edən Şəxsə hörmətsizlik etməkdir (Yaqub 3:9). Bu Kəlama nəzərən dünyagörüşü və insan hüquqlarına məsihçi baxışı üçün əsasdır. İnsan hüquqları üçün əsasa baxarkən biz Paul Marşalın qeyd etdiyi kimi azad və daxili ləyaqəti və ya iradə, səbəb yaxud vicdan kimi insan xüsusiyyətlərinin hüzurunu axtarmalı deyilik. Əksinə biz birinci öz vəziyyətimizə Allahın yaratdığı varlıqlar kimi baxmalıyıq.

Digər tərəfdən nə islam, nə də kommunizm insanın Allahın surətində yaradıldığını qəbul etmir. Bu səbəbdən də onların insanların iman azadlığının nəyə görə olduğunu təyin etmək üçün əsasları yoxdur və ona görə də bu hüquqları qoruya bilmirlər və ya qorumaq istəmirlər. Belə sistemlərdə azadlıqlar bəşəriyyətə xas hüquqlar kimi qəbul edilən hüquqlardansa fərdlərə və ya qruplara verilən hüquqlara çevrilir. Məsihçi dünyagörüşündə hüquqlar hansısa insan təşkilatları tərəfindən verilməyib, onlar Allah tərəfindən verilən hüquqlar kimi qəbul edilir və qorunur.

3. Səhv olmaq hüququ

Çıxış 22:21-də biz görürük ki, Rəbb İsrailə əmr edir ki, qəribi sıxışdırmasınlar. Bu zəruridir ki, Rəbb xəbərdarlıqdan dərhal sonra başqa allahlara ibadət edənləri məhv etmək barədə əmr verir. İlk baxışda bu ziddiyyətli görünə bilər. Amma burada aydın görünür ki, israillilər qəriblərin ilahi varlıqlarına ibadət etməməli olduqları halda qəriblərin özlərini sıxışdırmamalı idilər. Yalnız qəriblərin uşaq qurban gətirmək kimi dəhşətli dini ayini həyata keçiriləndə bu dini azadlıq məhdudlaşdırılmalı idi (Lev. 20:2). Allahın xalqı həmin dövrdə özünü bu yanlış dini sistemdən uzaq saxlamalı idi, amma həmin qərib insanların hüquqlarını pozmamalı idilər.

Marşall ***Dini azadlıq üçün məsihçinin müdafisəsi*** kitabında qeyd edir ki, İsrailə heç vaxt öz sərhədlərindən kənarda yad xalqlara qarşı yürüşlər və ya müqəddəs müharibələr aparmaq əmr edilməyib. Sonralar bütpərəstliyin kökünü kəsmək əmrləri İsrailin özünün etdiyi ayinlərə qarşı verilmişdi. Başqa xalqlar dini həyatlarını yaşamaqda azad idilər, baxmayaraq ki, onların imanları və ayinləri xüsusilə və qəti şəkildə yanlış ibadət adlandırılmışdı. Biz yadda saxlamalıyıq ki, İsrail bütün xalqlar üçün ruhani xeyir-dua mənbəyi olmalı və Allahın həqiqətini nümayiş etdirməli idi.

Yanlış dini imanların müvəqqəti olaraq cəzalanmamasına Yaradanın yol verməsi nümunəsi ilə məsihçilər fərdin və ya qrupun səhv olmaqda hüququnu saxlayır. Burada müjdəçilik və tövbə arasında fərq var. Dini məcburiyyət insanın öz iman sistemini seçməsi üçün Allahın ona verdiyi hüququ pozmaqdır. Hətta dini

ayin səhv, əxlaqi baxımdan iyrənc, həm də Allahın ümumi və xüsusi vəhyinə zidd görünsə də, başqalarının hüquqlarını pozmadığı üçün mane olmaq lazım deyil.

Bu apoloqetikanın və müjdəçiliyin vacibliyini inkar etmir. Biz Allahın surətini daşıyanlar kimi Onun carçılarıyıq, fərdlərin öz Yaradanları ilə düzgün ünsiyyətini bərpa etməyə can atırıq. Amma Allahın surətini əks etdirərək, biz bunu məcburiyyətlə deyil, inandırmaqla edirik. Allahın surətinə bənzər yaradılmaqla O istəyir ki, biz başqaları öz imanlarını qoruyub saxlamaqda inadkarlıq edirlərsə, səhv olmalarında hüquqlarına hörmət edən metodlardan istifadə edək.

Tarixən güclü məsihçi dünyagörüşünün (və xüsusilə protestantlıq) təsirinə məruz qalmış ölkələr vətəndaşları üçün dini azadlığın yüksək səviyyəsini saxlayıblar. Əlbəttə, belə azadlıqlar müntəzəm olaraq müdafiə olunmayıb. Reformasiya dövründə anabaptistlərin qəddarcasına təqibi yeganə faciəvi nümunədir. Bu nümunə göstərir ki, məsihçilər dini azadlığın Kəlama nəzərən baxışını müntəzəm olaraq izləməyiblər. İmanlılar Efiopiyada Efiopiya Ortodoks Kilsəsi adından təqib olunduqları kimi Latın Amerikasının bəzi yerlərində hələ də Roma Katolik Kilsəsi adından təqib olunurlar. Qərbi Avropada yeni inkişaflar məsihçiləri çox narahat etməlidir, Belçika, Avstriya, Almaniya və Fransa kimi ölkələr yeni, qeyri-ortodoks dinlərin və ya "sektaların" mövcudluğunu və fəaliyyətlərini məhdudlaşdıran qanun çıxarıblar. Onların bu yeni imanlara qarşı nifrəti və saymazyanalığı bu cəmiyyətlərin çoxunda müjdəçi azlıqları həqiqətən təhlükəli qruplar ilə bir sıraya qoymağa meyl edir. Şərqi Avropada hökumətlər tarixən öndə gedən məbədin hegemonluğunu şübhə altına salan dini qrupların mövcudluğunu və fəaliyyətini olduqca məhdudlaşdırır. Amma bu təsdiq olunmalıdır ki, belə hərəkətlər Kəlama nəzərən insan hüquqlarının bəhrəsi deyil, onların pozulmasıdır. Məsihçilik onun ziddiyyətli davamçılarının hərəkətləri ilə qiymətləndirilməli deyil, onun Yaradanının hərəkətləri, təlimləri və açıqlanmış xasiyyəti ilə qiymətləndirilməlidir.

4. Fərdi müstəqilliyin çatışmaması

Fərd Allahın surətində yaradıldığı üçün müstəqil deyil, çünki Allah Kəlamda üçlük kimi Özünü göstərib: Ata, Oğul və Müqəddəs Ruh. Fərdlərin Allahın surətində yaradılması üçün nəticələr budur ki, bir-birini tamamlayan ünsiyyətlər insan olmağın nə olduğu üçün əhəmiyyətlidir, bu ünsiyyətlər Allahın aşkar olunmuş ilahiliyi Üçlüyün üzvləri arasında bir-birini tamamlayan ünsiyyətlərdən təşkil olunduğu kimi təşkil olunub. Eynilə insan fərdi olaraq müstəqil ola bilməz. Allahın surətində yaradılmaq əlaqəli şəkildə mövcud olmaqdır. Ona görə də insan hüquqlarının hər bir anlayışına insanın asılı bir varlıq olması kontekstində baxmaq lazımdır. Biz başqalarına məhəl qoymadan istədiyimiz kimi hərəkət edə bilmərik. Hüquqlar sadəcə fərdi deyil, ünsiyyətlərdə olan fərdlər ilə əlaqəlidir.

5. Ümumi ünsiyyətlər üçün hüquq

İnsan üçlük Allahın surətində yaradıldığı üçün başqaları ilə ümumi ünsiyyətlərdən məhrum edilə bilməz. Xüsusilə, din təbiətinə görə ümumidir, çünki bu Allahın prinsipidir ki, insanlar başqaları, dünya və öz Allahları ilə ünsiyyətdə yaşasınlar. İnsanların tək olması yaxşı deyil (Yaradılış 2:18). Din məcburiyyətlə fərdiləşəndə artıq hüquq kimi tanınmadı və dini azadlıq tarixən başqa köklərdən birinci hüquq hesab olundu.

6. Bərabərlik üçün əsas

Allahın surətində yaradılmaq bərabərliyin həqiqi təbiəti barədə gerçək anlayışları verir. Qadınların kişilər ilə bərabərliyi Allahın surətinin təsdiqində qurulub. Bütün insanlar Allaha ibadət etsələr də, etməsələr də bərabər olaraq Onun surətinin əksləridir. Bizim təbiətimiz Orvelian anlayışına ziddir, onun anlayışına görə "hamı bərabərdir, amma bəziləri digərlərindən daha bərabərdir."

7. Fərqlilik üçün əsas

Amma bu bərabərlik Üçlüyün surətinin kontekstində başa düşülməlidir. Ata, Oğul və Müqəddəs Ruhun bərabərliyi olduğu üçün onların da Üçlüyün daxilində bir-birini tamamlayan rolları və bir-biriləri arasında ünsiyyətləri var. Bu üçlüyün arasındakı ünsiyyət o demək deyil ki, bir-birindən fərqlənmirlər. Bərabərlik bərabər eynilik deyil. Üçlü Allahın surətində yaradılmaq hər bir insanı özünəməxsus edir. Bütün insanlar bərabər olsalar da, eyni olmalı deyillər.

8. Azadlıq üçün əsas

Üçlüyün təbiəti də azadlığı əks etdirir; məsələn, Üçlüyün üzvləri bir-birini sərbəst şəkildə sevirlər. Getsemani bağında aşkar olunan hadisələrin Müjdələrdəki təsvirindən biz görürük ki, Oğul Ataya itaət edib etməməyi seçim edir. O mübarizə aparır. Ölmək Onun arzusu deyil, amma O, sərbəst şəkildə doğru bildiyini seçir. Seçim azadlığı bizim əsl, yaradılmış statusumuzun bir hissəsi olduğu üçün günaha batmış insanlar kimi biz artıq həqiqi "sərbəst iradə"mizi əldə edə bilmərik. Paul Romalılar 1-ci fəsildə deyir ki, biz müntəzəm olaraq səhv seçim edirik və hətta seçdiyimiz doğru seçim də çox vaxt gizli məqsədlərimiz ilə ləkələnir. Bəziləri mübahisə edə bilərlər ki, bu Allah tərəfindən qarşısı alınmaz hərəkəti tələb edir, mənə elə gəlir ki, yaxşı izahat "öndə gedən lütf" kimi təsvir edilən bir anlayışdadır, bunun nəticəsində Allah bizim iradəmizi azadlığa buraxır ki, biz Ona itaət edək və Onun ardınca getməyi seçək. Bu səbəbdən də mən inanıram ki, daha dəqiq desək, bu "azad iradə" deyil, "azad edilmiş iradə"dir. "Azad edilmiş iradə tam izzəti Allaha verir; "azad iradə" günaha kifayət qədər ciddi yanaşmır və belə səslənir ki, ağıl günaha batmaya görə toxunulmaz qalır.

Amma biz azadlıq üçün can atırıq, belə ki bu imanın məhdudlaşdırılmamış ibadəti və imanın yayılması üçün şərait yarada bilər və yaratmalıdır. Biz irəlidə tədqiqimizdə görəcəyik ki, günaha batmış dünyada azadlığın bu ifadəsi çox vaxt rəqiblər tərəfindən bizim dini azadlığımızın məhdudlaşdırılmasına və təqibin artmasına gətirib çıxarır. Bütün sahələrdə yuxarıda təsvir olunduğu

kimi insan hüquqlarının və dini azadlığın tam ifadəsinə günaha batma dərin təsir göstərib. Bu o demək deyil ki, Edendəki ideal rədd edilməlidir. İnsanın imanlarının azad ifadəsi qorunmalı və dəstəklənməlidir, çünki bu Allahın Öz surətində yaratdığı insanlar üçün nəzərdə tutduğu planıdır. Qeyd etdiyimiz kimi məsihçiliyin ümumi normalara və dəyərlərə böyük təsir etdiyi cəmiyyətlərdə biz Edenin idealına ötəri nəzər salırıq. Amma oralarda da bu azadlıq müntəzəm olaraq hədələnir və həmişə mümkün olmur. Biz Yaradılış 3-cü fəslin müzakirəsində gördüyümüz kimi Allahın yaratdıqlarının onun nəzərdə tutulduğu vəziyyətə bərpa edilməsi prosesi münaqişələrdən biri olacaq. Əslində dini azadlıq yaxşı şeydir. Amma bu günaha batmış dünyada dini təqibin yoxluğu belə bir əlamət ola bilər ki, bərpa prosesi yavaşıyıb və ya Allahın carçıları düşmənçilik olan dünyada Onun barışdırma xidmətçiləri olmağı dayandırıblar. Buna görə də məsihçilər dini azadlığı qurmaq və onu qorumaq üçün çalışmalıdırlar. Bu Allahın idealıdır, özümüzün rahatlığımız üçün və müjdəçilik səyimizin hesabına deyil.

Yuxarıda deyilənlərdən görünür ki, kimlərsə insan hüquqlarını yüksək səviyyədə hiss etməlidirlərsə, bunlar Kəlama inanan məsihçilər olmalıdırlar. Kədərlidir ki, biz çox vaxt hiss etmirik. Əslində bəziləri insan hüquqları anlayışını bütünlüklə itirməyə hazırdırlar, bunu anlamayıb edəndə insan Allahın surətində yaradılmağın nə olduğunun əsl təbiətini pozur.

Ən yaxşı halda insan hüquqları mövzusu müjdəçilərin uzaqlaşdıqları bir şeydir. Başqalarının hüquqlarını müdafiə etmək nə üçünsə qeyri-ruhani görünür. Həm də bunu da vurğulamaq yaxşı olar ki, məsihçilər Məsih bədən alıb yer üzünə gəldiyi kimi öz hüquqlarını əldən verməyə çağırılıblar (Filip. 2:3-11). İsa Məsihin davamçılarının öz şəxsi hüquqları uğrunda vuruşmasını görmək (xüsusilə bir-biriləri ilə) Məsihin Bədənini nüfuzdan salır. Müşahidə edən dünya "Görün onlar bir-birini necə sevirlər" demək əvəzinə çox vaxt istehzalı gülüşlə "Görün bir-biriləri ilə necə dalaşırlar" deyirlər. Skeptik cəmiyyətə müsbət, alternativ şəhadətlik edərək bu uğursuz vəziyyətə əlac axtaran bəzi məsihçilər belə nəticəyə gəliblər ki, bizim vuruşmaq üçün qanuni hüquqlarımız yoxdur.

Mən inanıram ki, şəxsi və ictimai hüquqların arasında məhəl qoyulmayan fərqi təsdiq edən daha münasib metod olmalıdır. Şəxsən məsihçilər məhkəmənin səlahiyyətini öz əllərinə götürməli deyillər (Matta 5:38-42). Amma bu o demək deyil ki, dövlət Allahın verdiyi vəzifəni, yəni ölkənin müdafiəsi üçün olan qanunları pozanları cəzalandırmamalıdır (Roma. 13:4).

Eləcə də məsihçilər öz hüquqlarından əl çəkə bilərlər, amma bu o demək deyil ki, hüquqlar qanuni deyil və başqaları onları qoruya bilməz (və yəqin ki, qorumalıdır). Bu həm də bizə başqalarının hüquqlarını qorumamaq üçün bəraət qazandırmır. Elə vaxtlar var ki, (yəqin ki, bizim rahatlıqla icazə verdiyimizdən daha çox vaxtlar) Məsihin ardınca getmək və Onun surətinə uyğunlaşmaq bizdən tələb edir ki, qanuni baxımdan malik olduğumuz hüquqları inkar edək. Əgər bizim hüquqlarımız olmasa, bəzilərinin dediyi kimi onda onları inkar etmək mənasız olar. Qanunsuz hüquqları əldən vermək çətin ki qurban hesab edilsin.

Buna oxşar olaraq, şəxsən bu hüquqları inkar etdiyimizə görə başqalarının hüquqlarını qorumaqdan imtina etmək ədalətsizlikdir və zəifi müdafiə etmək və sıxışdırılan insanın xeyrinə danışmaq barədə Kəlamın əmrlərini birbaşa pozmaqdır. Bu sözləri deyən qəddar insandır: "Mən öz hüquqlarımdan imtina etdiyim üçün səni də öz qərarıma bağlayacağam, sənin təklikdə əzab çəkmənə yol verərək, sənə kömək etmək üçün barmağımı belə qaldırmayacağam."

Şəxsi və ictimai hüquqların ayrılması bildirmir ki, məsihçilər bəzən öz hüquqlarını vətəndaş kimi müdafiə etməli deyillər. Həvari Paul bunu öz hüquqlarından imtina etmək və ya onlardan istifadə etməkdə özünü azad hiss edərkən təsvir edib. Lukanın yazdığına görə ən azı üç dəfə Paul öz dini imanlarını müdafiə etmək üçün Roma vətəndaşı kimi öz hüquqlarından istifadə edir. Allahın Padşahlığının irəliləməsi Kəlamın meyarı kimi görünür, bu meyar insanın öz hüquqlarını inkar etməsi, yoxsa qorumasıdır. Əfsus olsun ki, bizim əsasən tətbiq etdiyimiz meyar çox vaxt bizim şəxsi məsələlərimizin irəliləməsi ilə əlaqəlidir. Bu səbəbdən də aydın başa düşülməlidir ki, bütün başqa insanlar ilə birlikdə həmin məsihçiləri dəstəkləməyin özünəməxsus, ayrılmaz insan hüquqları var ki, bu da xudbin, öz mənafeyini güdən davranışa bəraət qazandırmır. Əslində bunun

əksi doğrudur. Bəşəriyyətə Kəlama nəzərən baxış bizim məsihçi yoldaşlarımıza olan qayğımızı artırmalıdır, bu həmin məsihçilərdir ki, məhz İsa Məsihin davamçıları olduqlarına görə əzab çəkirlər. Sadəcə imana görə günahsız kişilərin, qadınların və uşaqların ölənədək işgəncə verildiyini eşitmək bizi qanunsuzluq və ədalətsizlik hissi ilə doldurmalıdır və onlara qoşulub deməliyik: "Ey müqəddəs və haqq olan Pərvərdigar, nə vaxta kimi mühakimə etməyib yer üzündə yaşayanlardan qanımızın qisasını almayacaqsan?" (Vəhy 6:10).

Digər tərəfdən biz Məsihdə bacı və qardaşlarımız olanların dini azadlığı üçün qayğımızı məhdudlaşdırmamalıyıq. Biz qeyri-məsihçi qruplarının məsələn, İeqova şahidlərinin, Mormonların, Hari Krişnanın və Sayentoloqların təqibləri barədə eşidəndə narahat olmalıyıq, çünki bir çox hallarda müjdəçi məbədlər qanunvericilərin və ictimaiyyətin fikrində oxşar qruplar kimi səhv qəbul olunur. Amma bu qruplar və onların Şimali Amerikadan olan eyni imana məxsus yoldaşları nadir hallarda təqibdən əziyyət çəkirlər. Məsihçilər isə dünyanın bir çox yerlərində çox vaxt həqiqətən naməlumluqda və anonimlikdə əziyyət çəkirlər.

Bu, məsihçilərin digər dini qruplardan az təqib olunduqlarına görə deyil. Əslində bu əksinədir. 2003-cü ildə təqribən 166000 məsihçi İsa Məsihə iman və şəhadətlik etdiklərinə görə öldürülüblər. Başqa dini qruplar heç bir yerdə bu sayda insanın öldüyünü iddia edə bilməz. 1998-ci ildə dünyada öldürülən insanların 82 % məsihçi dini etiqadına malik olduqları üçün öldürülüblər. Dünya Müjdəçilik Təşkilatı hesablayır ki, dünyada 200 milyon məsihçi imanlarına görə gündəlik həbs, işgəncə və ya edam təhlükəsi altında yaşayır. Bundan əlavə 400 milyon insan məsihçiliyə qarşı ayrı-seçkilik yaradan qanunlar olan cəmiyyətlərdə yaşayır.

Təqib çox vaxt Bahai, Mormonlar və İeqova şahidləri kimi qeyri-ortodoks dini qruplar tərəfindən dinin həqiqiliyinin əlaməti kimi qeyd olunur. Əgər bu əsaslı sübutdursa (və mən buna əmin deyiləm), məsihçiliyin bu baxımdan heç bir yaxın rəqibi olmaz.

Şimali Amerikanın çoxlu müjdəçi məsihçiləri tərəfindən dünyada olan bacı və qardaşlara qarşı göstərdikləri əsaslı qayğının çatışmaması çaşdırıcıdır. Çoxlu səbəblər sadalansa da, mən

əminəm ki, səbəbin bir hissəsi müjdəçi cəmiyyətdə dini azadlıq və insan hüquqları barədə ətraflı düşünmənin azlığından birbaşa irəli gəlir. Biz öz əsas məbədimizin oxşarlarına imkan veririk və onlar dini tolerantlıq ilə dini dəstəyi səhvən çaşdıranda onları (və bu məsələnin özünü) mühakimə edirik. Postmodernist düşüncəsinin cəmiyyətdə yayılması və bir çoxlarının ağlında, hətta imanlıların arasında əxlaqi və obyektiv həqiqətin zəifləməsi ilə Kanada kimi müxtəlif mədəniyyətli cəmiyyətlərdə məsihçilər üçün yaraşmayan hərəkətlər kimi apoloqetikanın və müjdəçiliyin rolu olduqca alçaldılır. İmanlılar çətin işi-mirasımızın bir hissəsini, yəni insan hüquqları sahəsini yenidən tələb etməyə başlamalıdır.

Yaradılış 1 və 2-ci fəsillərdə insan hüquqları və dini azadlıq üçün təməl qoyulduqdan sonra biz Yaradılış 3-cü fəsli oxumalıyıq, burada izah olunur ki, nəyə görə hər şey olmalı olduğu kimi deyil.

İSLAMIN ALTINDA DİNİ AZADLIQ

Danimarka Avropa Missiyasının baş katibi, Henrik Ertner Rasmussen tərəfindən

(www.daneu.dk)

Forum 18 Nyus Servisə təqdim olunan bu şəxsi şərhdə Danimarka Avropa Missiyasının baş katibi Henrik Ertner Rasmussen müsəlman dünyasında islamın dini azadlığı necə anladığını öyrənmək üçün orada yaşadığı və tədqiq etdiyi vaxtlarda əldə etdiyi həyat təcrübəsini təsvir edir. O inanır ki, müsəlmanların dini azadlığa baxışı Dimmitudenin (islam hakimiyyəti altında olan qeyri-müsəlmanların statusu, tərcüməçi qeydi) anlayışı ilə formalaşıb, bu anlayışa əsasən qeyri-müsəlmanların müsəlmanlara müjdəçilik etməsi qadağan edilib və yəhudilər və məsihçilər məhdudlaşdırılmış hüquqlar ilə ikinci dərəcəli vətəndaşlar olublar. O qeyd edir ki, müxtəlif məhsullardan və markalardan ibarət olan azad seçimli

"dini supermarket" müsəlman dünyasına təqdim edilməyib. Amma o, ümidin əlamətlərini görür, belə ki müsəlman dünyasında ziyalılar və dini rəhbərlər yeni ideyaları açıqcasına müzakirə edir və daha böyük dini azadlığa gətirib çıxaran dəyişikliklər təklif edirlər.

Məsihçi-müsəlman dialoqu üzrə konfransda dini azadlıq haqqında sual ortalığa çıxdı. "Bizim ölkəmizdə müsəlmanlardan daha çox məsihçilərin dini azadlığı var"- deyə bir müsəlman rəhbər dedi. "Çünki onların tövbə etməyə hüquqları var, amma müsəlmanlarda bu yoxdur". Başqa bir konfransda mövzu müzakirə olunarkən qrupların birində müsəlmanlar məsihçilər ilə razılaşdılar ki, dini azadlıq mütləq olmalıdır. "Müsəlmanların məsihçilər qədər başqa dinə keçməyə hüquqları var?" sualını verən bir məsihçi nümayəndəyə müsəlman belə cavab verdi: "Əlbəttə, yox!"

İslam altında dini azadlıq barədə sual tarixən Dimmitudenin anlayışı ilə əlaqələnib. Məhəmməd peyğəmbərin ölümündən sonra müsəlmanlar tərəfindən işğal olunmuş ərazilərdə "Kitab əhli" adlanan yəhudilərə və məsihçilərə məbəd binalarının və sinaqoqlarını çoxunu saxlamağa icazə verildi. Həm də onların öz ibadətlərini və başqa dini fəaliyyətlərini, buraya öz adətlərinə görə dəfnlər də daxil olmaqla həyata keçirməyə icazələri var idi. Onlar kanonik qanun altında müəyyən azadlıqla əlaqəli məsələlərdə hüquqlarından istifadə edirdilər. Onlar *jizya (islam hakimiyyəti altında olan qeyri-müsəlmanlardan adambaşına tutulan vergi, tərcüməçi qeydi)* ödəməklə müsəlman hakimiyyəti onların təhlükəsizliyini təmin edirdi.

Amma müsəlmanlar qeyri-müsəlmanlar ilə hər hansı qanuni bir müzakirəyə qoşulsaydılar, şəriət və ya islam qanunları tətbiq edilirdi. Qeyri-müsəlmanlara ibadət azadlığı verilmişdi, amma müjdəçilik fəaliyyətinə icazə verilməmişdi. Müsəlmanlar arasında müjdəçilik qadağan olunmuşdu.

Dimmitude anlayışı əsrlərlə müsəlman dünyasının bir hissəsi olan cəmiyyətlərdə güclü və dərin təsirə malik olmuşdur. Qeyri-müsəlmanların öhdəçiliklərinə qarşı ayrı-seçkilik salan zahiri qaydalar çoxdan yoxa çıxsa da, bu təsir bu gündə hiss olunmaqdadır. Bu qaydalar altında məsihçilər və yəhudilər onları

müsəlmanlardan asanlıqla fərqləndirən xüsusi geyimlər geyinməli idilər. Onlara icazə verilmirdi ki, at və ya eşşək sürsünlər, özlərini sadə və yazıq aparmalı idilər.

İslamdan başqa dinə keçməyi islam qanunu adətən qadağan edir, bunu dönüklük adlandırırlar. Peyğəmbərin dediklərindən və hərəkətlərindən ibarət olan hədisdə deyilir: "Əgər insan öz dinini dəyişirsə, onu öldürün." Sonralar ənənələr bəzi şərtlər əlavə etmiş və geniş surətdə bu anlayışı qəbul etmişdilər. Dindən dönən kişini üç dəfə inandırmaq lazımdır ki, o islama qayıtsın, əgər o qayıtmasa, onda öldürülməlidir. Dindən dönən qadını da üç dəfə inandırmaq lazım idi ki, islama qayıtsın, əgər dönməsə, onda həyatı boyu bağlı qapı arxasında qalmalıdır. Misirdəki böyük müsəlman alimlərinin bölüşdükləri daha müasir baxışlar budur ki, dindən dönmüş insana bütün həyatı boyu tövbə etməyə və islama qayıtmağa icazə verilir. Bu müddət ərzində hakimiyyət həmin insan üçün həyatı mümkün qədər çətinləşdirməyi çalışır.

Beynəlxalq İslam Şurası tərəfindən 1981-ci ildə qəbul edilmiş İnsan Hüquqlarının Universal İslam Bəyannaməsi din azadlığı barədə bölmələr daxil edib, amma ingilis mətnindən bir neçə yerdə fərqlənən ərəb mətni islam cəmiyyətini tərk etməyə qarşı ənənəvi qadağanı daxil edir. Bu bölmə ingilis mətnində verilməyib.

Dini azadlıq mövzusu islam dünyasının bir çox yerlərində geniş şəkildə müzakirə edilib və bəzi alimlər ən azı nəzəriyyədə Quranın mətnindən birbaşa götürülmüş anlayışı dəstəkləyiblər, burada deyilir: "Dində məcburiyyət yoxdur" (2:256). Bunun mənası belədir ki, insan öz dini kimi islamı qəbul etməyə məcbur edilə bilməz. Bəziləri mübahisə edirlər ki, daha geniş mənada bunun mənası islamı tərk edən insan geri qayıtmağa məcbur edilə bilməz. Bu anlayış heç nəyə güzəştə getməyən Quranın başqa ayələrindən (9:12; 29; 36; 123) götürülmüş islam anlayışı ilə ziddiyyət təşkil edir. "İmansızlar ilə vuruşun" ifadəsi bütün bu ayələrdə əsas fikirdir. "İmansızlar" sözü güzəştə getməyən islamçılar tərəfindən bütün qeyri-müsəlmanlar nəzərdə tutulur. Amma adi və müasir alimlər deyəcəklər ki, bu ayələr müəyyən xüsusi vəziyyətlərdə tətbiq

oluna bilər, yəni qeyri-müsəlmanlar müsəlmanlara qarşı təcavüz göstərəndə tətbiq oluna bilər. Bu baxışa əsasən bu ayələrin heç biri qeyri-müsəlmanlar ilə vuruşmaq üçün ümumi qayda kimi başa düşülə bilməz. Habelə müasirlərin fikrincə, dönüklük daxili dini mühakimə mənasında deyil, siyasi və hərbi satqınlıq mənasında başa düşülməlidir.

Əslində keçən əlli və ya daha öncə illər ərzində islamdan dönüklük üçün ölüm hökmünün bir neçə nümunəsi qeydə alınıb. Qeyri-müsəlmanlar ilə əlaqəli köhnə qanunların tətbiqləri qüvvəsini itirib. 1950-ci ildə bütün Yəmən yəhudiləri ölkədən çıxarılana qədər Yəməndə yalnız bu qanunlar hələ də qüvvədə idi. Müjdəçilikdə səylər daxil olmaqla islam dünyasında məsihçi müjdəçilik işi 19-cu əsrdən bəri müstəmləkə hakimiyyəti səviyyəsində böyük miqyasda aparılıb, amma belə qayda 1940-1950-ci illər ərzində qurtardığı üçün artan məhdudiyyətlər ilə qarşılaşıb.

Dönüklük məsələsi barədə qanunvericilik ümumiyyətlə, aydın olmayıb. Məsələn, Misirdə insanın dinini dəyişməsini qadağan edən bir qanun yoxdur, amma islamdan məsihçiliyə keçən insanın imanı barədə aşkar edildikdə həbs olunmaq təhlükəsi yaranır. Qanun ilə başqa dinə (yalnız islam, məsihçilik və iudaizm qanuni dinlər hesab olunur) keçmək istəyən insan cəmiyyətdə dini səlahiyyəti olan insan, ya kahin, ya ravvin və ya da imam ilə görüşməlidir, həmin səlahiyyətli şəxs əmin olmalıdır ki, din məcburi olaraq dəyişilmir və hətta çalışmalıdır ki, din dəyişmək fikrindən əl çəkməkdə və öz dinində qalmaqda həmin şəxsi inandırsın. Amma bu qanun həmişə tətbiq edilmir və məsihçiləri müxtəlif yollar ilə ruhlandırırlar ki, islamı qəbul etsinlər. Məsihçi öz adını rəsmi olaraq müsəlman adına dəyişə bilər və asanlıqla yeni şəxsiyyət vəsiqəsi əldə edə bilər, amma müsəlman üçün məsihçi olmaq və ya rəsmi olaraq adı dəyişmək qeyri-mümkündür. İslam dünyasının bəzi başqa ölkələrində dönüklüyə qarşı ölüm cəzası daşıyan aydın qərarlar var.

Şəriətin milli və yerli qanunun əsası kimi qəbul olunduğu, hətta şəriətə sadiqliyin cəmiyyət daxilində norma kimi qəbul edildiyi yerlərdə dini azadlığın tam ideyası İnsan Hüquqlarının

Universal Bəyanatının 18-ci bəndində təsvir olunduğu kimi problemlidir. Şəriət ənənəvi olaraq 18-ci bənddə ifadə edilən ideyalara zidd gedir. Amma ənənəvi olaraq müsəlman dünyasına məxsus olan elə ölkələr var ki, dini tolerantlığın uzun tarixi hətta müsəlmanlar arasında 18-ci bəndin ideyalarını qəbul etməyi asanlaşdırıb. Ən yaxşı nümunə İndoneziyadır, hətta İndoneziyada da qanunverici prosesə hal-hazırda köhnəlik tərəfdarı olan islamçı proqramlar güclü surətdə təsir göstərir.

Müsəlman dünyasının tarixən bir hissəsi olan keçmiş Sovet ölkələrində müsəlmanın öz dinini seçməkdə azad olması ideyasına birbaşa ittiham olmasa da, çox vaxt şübhə ilə yanaşırdılar. İslamdan dönüklük iman və ya ruhani əminliyə görə deyil, mədəniyyətə görə müsəlman olan müsəlmanların nöqteyi-nəzərincə satqınlıq ilə bərabərdir.

Burada əlbəttə, Yaxın Şərq müsəlmanlarının fikrincə təkcə dini mətnlər tərəfindən deyil, eləcə də səlibçilərin təqiblərinin uzun tarixi tərəfindən bildirildiyi kimi onlar avropalılar və ya ruslardır. Məsihçiliyə keçmək düşmənə qoşulmaq kimi görünür.

Bu deyilənlərə əsasən narahat olmağa səbəb var, çünki biz hamımız böyük dəyişikliklə xarakterizə oluna dünyada yaşayırıq, buraya hüquqların və vəzifələrin köhnə cəmiyyətə əsaslanmış anlayışlarından daha fərdi anlayışlara doğru dəyişməsi də daxildir. Bu dəyişiklik kütləvi media vasitələrinin irəliləyişləri tərəfindən edilən qloballaşmanın təsirlərindən irəli gəlir. Hətta köhnəlik tərəfdarı olan, Ərəb yarımadasının qəbilə ideyalı cəmiyyətlərində cavanlara Şərq və Qərb, Şimal və Cənubdan, peyk antenalarından və internetdən gördükləri və eşitdikləri təsir edəcək və mədəniyyət toqquşması qaçılmazdır. Bu toqquşmaya səbəb budur ki, ümumiyyətlə, islam qanunu ictimai dəyişikliyin daha dərin qatlarını nəzərə almayan qaydalar ilə tətbiq olunmaqda davam edir və "qanun məktublarını" dəyişmək üçün yollar görməyən insanlar həmin dəyişikliklərə uyğunlaşırlar.

Misirin tarix professoru Dr. Nasr Hamid Abu Zaid 1995-ci ildə Quranda dəqiq müəyyən edilmiş islamın miras qanunlarına dəyişikliklər təklif etdiyi üçün Misir məhkəməsi tərəfindən imanına dönük çıxan biri kimi ittiham olunub. Dr. Abu Zaidin

fikri Quranın mətninə əsaslanmışdı, belə ki bu qadın hüquqları üçün böyük bir addım idi, çünki qadınlar mərhum atalarından miras əldə etmək hüququna malik deyildilər, amma bu fikrə əsasən onlara qardaşların miras aldıqlarının yarısını əldə etmək hüququ verilirdi. Nəticədə qadınlar – cəmiyyətdə böyük surətdə mövqeləri dəyişənlər əslində ərləri ilə birlikdə ailə başçılarıdırlar. İndi əvvəllər ailə başçısı hesab edilən kişilər ilə bərabər miras əldə etmək hüququ onlara da verilməli idi. Ona görə də kişilər bacılarının miras aldığı payın iki dəfə artığını əldə etməli idilər. Etiraf edən müsəlman imanına dönük çıxmış insan kimi ittiham olunanda insan düşünür ki, məsihçiliyə görə imandan dönən müsəlmanın baxışı necə dəyişir. Qruplarla Misir gənclərinin Qahirənin küçələrində Hari Krişnanın ayin nəğmələrini oxuduğunu görmək hələ də ağlasığmaz bir şeydir. İeqova şahidləri bütün Ərəb ölkələrində və müsəlman dünyasının əksər yerlərində qeyri-qanuni hesab edilir. Yalnız təkallahlığı təbliğ edən üç ənənəvi dinə rəsmi şəkildə mövcud olmağa icazə verilir. Əvvəllər Misirdə mövcud olmayan xarici və heç bir birliyə daxil olmayan məbədlər ölkənin mövcud denominasiyalarından biri tərəfindən qəbul ediliblərsə, yalnız onda missiyalar təşkil edə bilərlər. Məsələn, Pentekost denominasiyasının missiyası Amerikada Allahın cəmiyyətləri ilə uyğunlaşmasa da Misirdə mövcud olmaq üçün ona oxşar olan Allahın cəmiyyətləri ilə qeydiyyata düşməlidir.

Mənim nümunələrimdə demək olar ki, diqqəti Misirə cəmləmişəm, amma oxşar vəziyyətlər Yaxın Şərqin hər bir yerində var. Ərəb yarımadasında vəziyyətlər ümumiyyətlə, daha pisdir. Xüsusilə Səudiyyə Ərəbistanında hökumət nümayəndələri dəfələrlə bildiriblər ki, məsihçi məbədləri və ya islamdan əlavə başqa imana aid cəmiyyətin binaları ölkənin heç bir yerində heç vaxt tikilməyəcək. Dövlətin hansısa bir naziri şəxsi evlərdə məsihçi ibadətinin yol verilən olduğunu söyləmişdir, amma mövhumatçı dini polislər "Muttava" bunu başqa cür yozur. Onlar şəxsi evlərdə məsihçilərin dua toplantılarını pozublar və iştirakçıları həbs ediblər. Onlar bu hərəkətə Ərəb yarımadasında islam başqa dinlər ilə birlikdə mövcud ola bilməz deməklə peyğəmbərin sözlərini sitat gətirərək bəraət qazandırıblar.

Müsəlman dünyasının əksər ölkələrində olduğu kimi nəzəriyyə baxımından dini azadlıq daxil olmaqla, insan hüquqlarını qoruduqlarını iddia edirlər. Hətta iddia edirlər ki, islam insan hüquqlarını kodifikasiya edən ilk dindir. Aydındır ki, onların dini azadlıq anlayışı ümumi qərb anlayışından olduqca fərqlidir. Müxtəlif məhsullardan və nişanlardan ibarət sərbəst seçimli "dini supermarket" dünyanın bu yerinə hələ tanış edilməyib və hökumətlər bunu tanış etmək marağında deyillər, yəqin ki, sabitlik və proqnozlaşmanı təhlükə altına salan hansısa bir şeydən qorxurlar.

Hökumətlər həm də öz vətəndaşlarını, xüsusilə savadsız və ya az savada malik olanları qorumağa böyük ehtiyac olduğunu hiss edirlər. Onları öz valideynlərindən "miras aldıqları" dinə məxsus olmayan yeni ideyalardan qorumağa çalışırlar. Amma əsas səbəb budur ki, islam başlıca həqiqət kimi görünür və onun peyğəmbəri Məhəmməd "peyğəmbərlərin möhürü"dür. Bunun mənası budur ki, axırıncı peyğəmbər bəşəriyyət üçün son və kamil vəhy gətirib. İslam dünyasında hökumətlər özlərini həqiqi imanı qoruyanlar kimi görürlər və bu rolu oynamaq üçün kifayət qədər iş görmədiklərini günahlandıran islamçılar həmin rolu öz üzərlərinə götürməyə hazırdırlar.

Kədərlidir ki, müsəlman dünyasında dini azadlıq sahəsində çox şeylər edilməlidir. Əgər hökumətlər və onların agentlikləri beynəlxalq sazişlərə sadəcə boş sözlər kimi deyil, daha dərindən yanaşsalar, çox şey əldə olunar. Xüsusilə, onların təhsil sistemləri insan hüquqlarına hörməti öz tələbələrinə tələqin etsəydi, yaxşı olardı. Həm də müsəlman ölkələrinin yerli və mədəni irsinə məxsus olan dini ənənələrə hörmət ilə birlikdə fərdin şəxsi inamlarına hörmət artmalıdır.

Eyni vaxtda ümid nişanələrinin olduğu vurğulanmalıdır. Müsəlman dünyasının ziyalıları və dini rəhbərləri bu mövzuları açıqcasına müzakirə edirlər və daha böyük dini azadlığa gətirib çıxaran dəyişikliklər təklif edirlər.

Təqib üçün Kəlama nəzərən əsas

Bu diqqətəlayiqdir ki, Yaradılış 1 və 2-ci fəsillərin sonunda biz görürük ki, Allah yaradılışın "yaxşı" olduğunu bəyan edir. Amma 3-cü fəslin birinci ayəsində görürük ki, yaxşı deyil:

> *Rəbb Allahın yaratdığı bütün çöl heyvanlarının ən hiyləgəri ilan idi. İlan qadına dedi: «Doğrudanmı, Allah sizə, "bağda olan heç bir ağacın bəhrələrindən yeməyin" deyib?»*

İki ilkin müşahidələr diqqətəlayiqdir:

1. Sualın növündən aydındır ki, ilan (şeytan) artıq Allaha qarşı üsyan edir.

2. Şeytanın üsyankar olması və yaradılışın hələ də Allah tərəfindən "yaxşı" hesab edilməsi faktı bizə deyir ki, şeytan bizim indiki dünyamıza cavabdeh deyil. Şeytan dünyanın "yaxşı olmaması" üçün təqsirləndirilən yeganə varlıq deyil.

Bu müşahidələr sonrakı ayələrdə aydınlaşır:

> *Qadın ilana dedi: «Bağdakı ağacların bəhrələrindən yeyə bilərik. Amma bağın ortasındakı ağacın meyvələri barədə Allah deyib: "Ondan yeməyin və ona toxunmayın, yoxsa öləcəksiniz!"» İlan qadına dedi: «Yox, əsla ölməzsiniz. Əksinə, Allah bilir ki, o meyvələrdən yediyiniz gün gözləriniz açılacaq və xeyirlə şəri bilərək Allah kimi olacaqsınız». Qadın gördü ki, ağacın meyvəsi yemək üçün yaxşıdır, gözə xoş görünür və bu ağac insana dərrakə verməyi vəd edir. Buna görə də o həmin meyvədən dərib yedi. Sonra yanında olan ərinə də verdi, o da yedi. O vaxt ikisinin də gözləri açıldı və çılpaq olduqlarını bildilər. Buna görə də əncir yarpaqlarını bir-birinə hörüb özlərinə fitə düzəltdilər.* (Yaradılış 3:2-7)

İnsan Gerçəkliyi əvəz edərkən Allah və Onun surətində yaradılmış insanlar arasında ünsiyyət qırıldı. Yaradan ilə özünəməxsus ünsiyyətdən və Allahın onlara verdiyi məhdudlaşmamış girişdən zövq almaqdansa, onlar indi gizlənirdilər. Eden təcrübəsində dini azadlıq artıq yox idi. Amma Allah hələ də ünsiyyət qurmaq istədiyi varlıqları axtarır.

> *Onlar günün sərinliyində bağda gəzişən Rəbb Allahın səsini eşitdilər. Adəm və onun arvadı Rəbb Allahın hüzurundan qaçıb bağdakı ağacların arasında gizləndilər. Rəbb Allah Adəmi səsləyib dedi: «Haradasan?» O cavab verdi:*
>
> *«Bağda səsini eşitdim və çılpaq olduğum üçün qorxdum, ona görə də gizlənmişəm». Rəbb Allah dedi: «Kim sənə bildirdi ki, çılpaqsan? Sənə yeməyi qadağan etdiyim ağacın meyvəsindən yeməmisən ki?»*. (Yaradılış 3:8-11)

İtaətsizliyin gerçəkliyini görən və çaşqınlığa düşən Adəm və Həvva günahlandırmaq üçün kimisə axtarırlar.

> *Adəm dedi: «Mənimlə birgə olmaq üçün verdiyin qadın o ağacın meyvəsindən verdi, mən də yedim». Rəbb Allah qadına dedi: «Sən niyə belə etdin?» Qadın dedi: «İlan məni yoldan çıxartdı, mən də yedim»* (Yaradılış 3:12, 13).

Kişi qadını və dolayı yolla Allahı günahlandırdı (*"mənimlə birgə olmaq üçün verdiyin qadın*"). Qadın ilanı günahlandırdı. Mənim seminariya professorlarımdan birinin bu hissədən danışarkən qeyd etdiyi kimi ilanın dayanmaq üçün ayağı yox idi. Həqiqətdə isə şeytan qadını aldatmışdı, qadın ilana qulaq asmışdı və kişi qadına qulaq asmışdı – amma heç kim Allaha qulaq asmamışdı. Nəticədə Allah ilana (14, 15), qadına (16-cı ayə) və kişiyə (17-19-cu ayələr) mühakimə və qurtuluş sözünü peyğəmbərlik edir.

Rəbb ilana deyir:

«Sən bunu etdiyin üçün
Bütün ev heyvanları və çöl heyvanları arasında
Lənət qazanırsan.
Qarnın üstündə sürünəcəksən,
Bütün ömrün boyu torpaq yeyəcəksən.
Mən sənlə qadın arasına,
Sənin balanla onun övladı arasına
Düşmənçilik salıram.
Bu övlad sənin başından vuracaq,
Sən də onu dabanından sancacaqsan».
(Yaradılış 3:14, 15)

Diqqət yetirin ki, Allah təbiətin ilana görə lənətləndiyini söyləmir, amma ilan təbiətin qalan üzvlərindən daha çox lənətli olacaq. İlan qadının qələbə gətirən nəsli tərəfindən məğlub olacaq və alçaldılacaq. İnsan vasitəsilə həyata keçən şeytanın mühakiməsi qadının nəslinə qurtuluş gətirəcək, amma bu zədələnmə və ağrı prosesi ilə olacaq. Qurtuluş ilanın başını əzməklə gələcək, amma onu əzən daban zədələnəcək. Ağrı prosesində bu qurtuluşun əsas mövzusu qadın və onun əri üçün olan sözlərlə təkrarlanır.

Sonra Allah ilan tərəfindən aldanan qadına müraciət edir:

Sonra Rəbb Allah qadına dedi:
«Hamilə olanda sənə
Çox əziyyət verəcəyəm,
Uşaqlarını ağrı içində doğacaqsan.
Ərinə meylli olacaqsan,
O sənə ağalıq edəcək».
(Yaradılış 3:16)

Qadın üçün olan lənətin təbiəti onun günahının təbiətində kök salmışdır. Reymond Ortland qeyd etdiyi kimi qadının lənəti ikiqatdır. Birinci o bir ana kimi uşaqlarına görə əzab çəkəcək.

O, uşaq dünyaya gətirə biləcək. Bu, ilan üzərində Onun ölüm hökmünü yerinə yetirəcək vasitəni təmin edən

Allahın mərhəmətidir. Amma indi qadın uşaq doğarkən əzab çəkəcək. Bu, qadının günahı üçün Allahın sərtliyi idi. Onun həyat təcrübəsində yeni element uşaq doğması deyil, uşaq doğarkən ağrısıdır.

İkinci, bir qadın kimi öz ərinə münasibətdə əzab çəkəcək. Ortland şərh edir: "Qadının nikahda əzab çəkməsinin dəqiq məğzi iki cür müəyyən edilə bilər. Ya o öz əri ilə münaqişədə əzab çəkəcək, ya da ərinin onun üzərində ağalıq etməsindən əzab çəkəcək." Burada məni iki amil yekun fikrə gətirir, belə ki əvvəlki izahat üstün tutulmalıdır. Birinci, növbəti fəsildə elə bir hissə var (4:7) ki, əslində 3:16-ya oxşayır. 4:7-də Qabilə deyilir ki, günah onu arzulayır, amma o, günaha qalib gəlməlidir. Günahın arzusu Qabili idarə etmək və onu özünə bağlamaq idi. Həqiqətən oxşar sözlər 3:16-da var və qadının ərinə olan "arzusunu" izah etməyə kömək edir. Allah qadına deyir ki, əri və onun arasında ünsiyyət ya münaqişə, ya da idarəçilik olacaq. Allah qadına ərini idarə etmək, ona bağlanmaq və ruhani rəhbərliyi məşq etdirmək arzusu verir (ilan onu günaha sövq edəndə hərəkət etdiyi kimi), amma onun əri buna yol verməməlidir. O öz rolunu başçı kimi qəbul etməlidir. Bu şərh 4:7-də olan fikrə çox yaxın olmalıdır. Bu şərhi dəstəkləməyimdə ikinci səbəb budur ki, bu, ilanın lənətini göstərir, ümid barədə fikirdən sonra bildirilir. Qadın və onun əri arasında gərgin ünsiyyətin ümidi günaha batmanın nəticəsində olan rəqabətdə deyil, əvvəllər onlarda olan ünsiyyətin bərpasındadır. Bu ünsiyyətə əsasən kişi ruhani başdır və qadın onun köməkçisi və həmkarı kimi fəaliyyət göstərir.

Allaha kişiyə belə deyir:

«Arvadının sözünə qulaq asdığın üçün,
Qadağan etdiyim, "meyvəsini yemə" dediyim
Ağacdan yediyin üçün
Sənə görə torpaq lənətlənir.
Ömrün boyu zəhmətlə
Torpaqdan yemək əldə edəcəksən.
O sənə tikan və qanqal bitirəcək,

Sən də çöldəki ot-ələfi yeyəcəksən.
Alın tərinlə çörək yeyəcəksən.
Axırda torpağa qayıdacaqsan,
Çünki oradan götürülmüsən,
Ona görə ki yerin torpağısan,
Torpağa da qayıdacaqsan».
(Yaradılış 3:17-19)

Bu ayələrdən biz nəhayət görürük ki, nəyə görə yaradılış artıq "yaxşı" deyil. Dünya üzərində nəzarətçiliyi əldə edən Adəm indi öz işinin ağrılı olduğunu görəcək. Uşaq doğmaq qadının lənəti olmadığı kimi, kişinin işi də onun lənəti deyil. İş, Allahın surətində yaradılmağın nə məna daşıdığının bir hissəsidir. Amma indi günaha batmaya görə kişinin işi ağrılı və müvəqqəti olacaq. O, bütün həyatı boyu torpağın üzərində çalışmalıdır, yalnız həyatının sonunda torpağa qayıdacaq.

Əslində o bunun üçün yaradılmamışdı. Uğursuzluq və ağrı bizim "insan" olmağımıza görə deyil, "günahlı" olduğuna görədir. Günah yaradılışda, Allahda və ya hətta şeytanda deyil. Bu dünyanın vəziyyətinə cavabdeh olan günahkar Allahın surətində yaradılmış insandır, o düşünmüşdü ki, surəti daşımaq kifayət deyil. Allahın surəti Allah ilə bərabərliyi axtardı.

Amma insan ümidsiz deyil. 22-ci ayədə Allah lütf göstərərək, onu bağdan qovur *"Qoy indi əlini uzadaraq həyat ağacının meyvəsindən dərib yeməsin və əbədi yaşamasın!*" Günaha batmaya görə ölməzlik günah kimi dözülməz olacaq, fərdin və bütün cəmiyyətin həyatında idarə olunmadan artacaq. Bu səbəbdən də ölüm vacibdir, çünki şərin davam etməsinə imkan vermir.

Amma insanın "ölümü" sadəcə fiziki deyil. O, ruhani olaraq da ölüdür və bu da Allahın müdaxiləsini tələb edir – ilanın başını əzməklə Allah ilə ünsiyyət bərpa olundu və ruhani "sağlıq" yenidən canlandı. Məhz bu qadına vəd olunmuşdu.

Adəm qadının nəsli barədə Allahın sözləri olan vədi xatırlayır, bu vədə əsasən qadının nəsli ilanın başını əzəcək. Ona görə də 20-ci ayədə biz oxuyuruq:

Adəm arvadının adını Həvva qoydu, çünki o, yer üzündə yaşayanların hamısının anası oldu.

Adəm ruhani baş olmaq rolunda qadına Həvva (*havvah*) adını verir, "həyat" (*hay*) ondan gələcəkdi. Burada cinas əhəmiyyətlidir və məqsədlədir. Qadının nəslində ümid var. Adəm "adamah"dan yarandığı kimi (ibrani dilində "torpaq"), həyat (*hay*) Həvvadan (*havvah*) gələcək. Ortland yazır:

> Bu taleyin qorxulu, amma ümidverici peyğəmbərlikləri vasitəsilə (3:14-19) Allah bizim bu gün hər birimizin bölüşdüyü mövcudluğu formalaşdırır. Bu şərtlər altında ağrımız bizi böyük həqiqət üçün oyadır: Bu həyat bizim həyat keçirdiyimiz şeylər deyil. Bu həyat son həyat təcrübəsi deyil. Bizim ağrımız və məhdudiyyətimiz bizi əbədi, hüdudsuz və həqiqi həyata keçirdiklərimiz olan Allaha doğru istiqamətləndirir.
>
> Məncə Adəm bu həqiqəti anlayır. Allahın ədalətinin maneələrindən qəzəb və kədərlə üz çevirmək əvəzinə Adəm həyat yoldaşına deyir: "Mən Allahın vədinə inanıram. Bizi özbaşına buraxmayıb. O bizə düşmən üzərində son qələbəni verəcək və biz yenidən Allahda həyatın zənginliyindən və dolğunluğundan zövq alacağıq. Sən həqiqətən yaşayacaq insanların anası olduğuna görə mən sənə yeni ad verirəm – Yaşayan biri, Həvva. Mən Allaha inanıram və sənə hörmət edirəm." 12-ci ayənin qəddar, kəskin sözlərinə əks olaraq, Adəm Həvvaya sevgi ilə yanaşır, onlar imanda və ümiddə bir-biriləri ilə birləşirlər.

Amma fikir verin ki, insanın günaha görə əzabının həlli əzab *vasitəsilə* gələcək. Dabana zərbə vurulacaq. İlanın əzmək prosesində qadının nəslindən olanın dabanı əziləcək. İlan və qadın arasında münaqişə Vəhy 12-ci fəsildə əks-səda verir. Yaradılış 3-cü fəsildə biz Allahın xalqının gələcəkdə təqibi üçün əsası görürük. Yaradılışın öz Yaradanı ilə barışması üçün ödənilən məbləğ əzab və münaqişə məzmununda baş verəcək.

İnsanın yaranmasından və ona ilahi tapşırığı verəndən, yəni bəhrəli olub artmağı söyləyəndən və yer üzünü zəbt etmək, eləcə də Onun surətini daşıyanlar kimi hökmranlıq etmək deyiləndən sonra (1:22, 26, 28) Allah bəyan edir ki, Onun yaranma işi tamamlandı (şabat) (2:3). Yaradılışın bu kamillik vəziyyətinə bərpa olunması işində Allah Öz işinin "tamamlandığı" üçün başqa iki bəyanat verir. İkinci dəfə qurtuluş vəd olunanda çarmıxda qurtuluş tamamlanır (Yəhya 19:30). Üçüncü dəfə Vəhy 21:6-da Allahın işi bir dəfə və hamı üçün tamamlananda bəyan edilir. Təkcə günahın cəzası və ödənişi tamamlanacaq, həm də günahın hüzuru yoxa çıxacaq və tam bərpa əldə olunacaq. Amma Allahın bərpa planı sanki gözlənilməz bir şey kimi günaha batma zamanı başlamadı. Lap başlanğıcdan Allah Öz yaradılışının bərpası üçün yeri planlaşdırmışdı, burada o yenidən "yaxşı" bəyan ediləcəkdi.

Kəlamdan aydındır ki, Allah insanı yaradanda onun üsyan edəcəyini bilirdi və ona görə də günahın nəticələri üçün diqqətli planlar hazırlamışdı. Bu əvvəlcədən bildirilmə Allahı günaha batma üçün cavabdeh etmir, belə ki O, yaradılışda insana həqiqi azadlıq vermişdi ki, Onun sevgisini sərbəst şəkildə seçsin və ya rədd etsin. Allahın surətində yaradılmaqla insan həqiqi sərbəst seçim edə bilərdi və Allah kimi həqiqi sevməyi bacarardı. Tamamilə sərbəst iradə həqiqi sevgi üçün lazım olan şeylərdir. Məcburi və ya əvvəlcədən təyin edilmiş məhəbbət heç məhəbbət deyil. İnsanı yaradarkən Allah Onun sevgisinin rədd olunması imkanına (əslində, qaçılmaz idi) yol verməli idi ki, Onun lütfünə cavab verənlər bunu səmimi tərzdə etsinlər. Erkən məbəd ataları başa düşdüyü kimi məcburiyyət Allahın əlaməti deyil. Bəşəriyyəti Öz surətində yaratmaq, amma Allahı sevməkdə və Ona etibar etməkdə azadlıq verməmək Onun xasiyyətinə əks bir şey olardı. Allah dünyanın yaradanda bilirdi ki, Onun nümayəndələri Onu rədd edəcəklər, yaradılışını məhvə uğradacaqlar. Amma O, sona qədər bunu etməyi qərara aldı ki, Onun izzəti və xasiyyəti bərpa işində kamil surətdə görünsün və həyatlarında Onun lütfünü qəbul edənlərdən zövq alsın. Bunu bilərək, O, Kəlamda deyildiyi kimi Öz planını hərəkətə gətirir. Öz yaradılışına bərpa və tamlıq gətirmək üçün dünyanın yaranmasından bəri hər bir şey etdi.

Amma bu tam bərpanın yolunda Yaradılış 3:15-də peyğəmbərlik edildiyi kimi münaqişə, ağrı və zədələnmə olacaq. Bu münaqişənin aşkara çıxması üçün çox vaxt çəkmədi.

Qabil və Habil

Qeyd etmək maraqlıdır ki, Müqəddəs Kitabda təqibin ilk vəziyyəti ibadət yerində başlayır. Rəbb qarşısında rəsmi ibadətin ilk qeyd edildiyi vaxtda Yaradılış 4-cü fəsildə biz görürük ki, Adəm və Həvvanın oğulları Rəbbə təqdimlər gətirirlər:

> *Habil çoban oldu, Qabil isə əkinçi. Bir müddət keçəndən sonra Qabil torpağın bəhrəsindən Rəbb Allaha təqdim gətirdi. Habil də sürüsündə ilk doğulan heyvanlardan bir neçəsini və onların piyini təqdim etdi. Rəbb Habili və onun təqdimini qəbul etdi, Ancaq Qabili və onun təqdimini qəbul etmədi. Buna görə də Qabil bərk qəzəblənib qaşqabağını salladı.* (Yaradılış 4:2-5)

Bizə dəqiq deyilməyib ki, nəyə görə Qabilin təqdimini Allah qəbul etmədi, amma Habilin təqdimini qəbul etdi. Habil sadəcə öz məhsullarından bir pay gətirmişdi, amma Habil ən yaxşısını gətirməyi bilirdi. Ona görə də Habil iman və minnətdarlıq göstərdi, amma Qabil yalnız borcunu yerinə yetirdi.

Bizə Allahın Qabilin təqdimindən narazı qaldığını necə ifadə etdiyi barədə deyilməyib, amma bu elə tərzdə edilmişdi ki, Qabil başa düşmüşdü və Allahın onun təqdiminə belə münasibət bəslədiyinə hirslənmişdi. Rəbb Qabilin cavabını rədd etmir və lütfdə onu tövbəyə çağırır.

> *Rəbb Qabilə dedi: «Niyə qəzəblənmisən? Niyə qaşqabağını sallamısan? Əgər yaxşı iş görürsənsə, Mən qəbul etmərəmmi? Əgər yaxşı iş görmürsənsə, günah qapının ağzında durub. Onun meyli sənədir, ancaq sən ona üstün gəlməlisən».* (Yaradılış 4:6, 7)

Qabil Allahın çağırışına diqqət yetirmir ki, onun hirsini idarə etsin və əksinə hirsinə imkan verir ki, ona sahiblik etsin. Qabil Allah qarşısında diz çökməkdən imtina edir və qərara gəlir ki, dini rəqibindən, hətta öz doğma qardaşı olsa da, ondan canını qurtarsın. Bu yerdə biz dini təqibin ilk hadisəsinin şahidi oluruq:

> *Sonra Qabil qardaşı Habilə bir söz dedi və onlar çölə getdilər. Orada Qabil qardaşı Habilin üstünə hücum çəkib onu öldürdü.* (Yaradılış 4:8)

Aydındır ki, Əhdi-Cədid Habilin ölümünə qardaş rəqabətinin və ya nəzarətdən çıxan ailə mübahisəsinin nəticəsindən daha böyük bir şey kimi baxır. İsa həvari Yəhya (1 Yəhya 3:12) kimi Habilin ölümünü aydın surətdə şəhidlik kimi görür (Matta 23:35). Yəhya izah edir ki, Habilin ölümü Qabilin hərəkətlərinin şər, Habilinkinin isə saleh olduğuna görə olub. Dünya və Allaha məxsus olanlar arasındakı münaqişə nəticəsində (1 Yəhya 3:13) Habilin ölümü şəhidlik məzmununda aydın şəkildə görünür.

İsa bu sözləri deyəndə görəsən bu hadisə barəsində düşünürdü?

> *Düşünməyin ki, yer üzünə sülh gətirməyə gəlmişəm.*
> *Mən sülh deyil, qılınc gətirməyə gəlmişəm.*
> *Çünki Mən oğulu atasından, qızı anasından, gəlini də qayınanasından*
> *ayırmağa gəlmişəm.*
> *"İnsanın düşməni öz ev əhli olacaq."*
> (Matta 10:34-36)

Bu dini dözülməzliyə görə təkcə təqib başlamadı, həm də evdə baş verdi. Bu, ilk ailəni parçaladığı kimi Allaha sadiqlik çox vaxt ailələri parçalayır. Gəlin bu gün dünyada məsələn, Pakistanda və Hindistanda cavan qızların Məsihi qəbul edərkən qohumları tərəfindən güllələndiyini eşidəndə təəccüblənməyək. Mən Efiopiyada Məsihi qəbul edəndən sonra küçədə dilənmək üçün evlərindən qovulan yeniyetmələrlə görüşmüşəm. Biz müsəlman cəmiyyətlərində Məsihi qəbul edən qızların doğulacaq uşaqlarının

müsəlman olması üçün ataları tərəfindən bəzən müsəlman oğlanlara məcburi olaraq ərə verildiyini aşkar edəndə ürəyimiz parçalanır. Biz bu şeylərin şahidi olanda aşkar edirik ki, bunlar qadının toxumu ilə ilan arasındakı münaqişənin qəddar gerçəkliyinin tam nümayişləridir. Ailələr bizim inkişafımız və təhlükəsizliyimiz üçün nə qədər vacib olsalar da, həm də dəhşətli zorakılıq yerləridir.

Rəbbin Habilin qətlinə cavabı bizim üçün öyrədicidir. O deyir ki, Habilin qanının səsi "torpaqdan Mənə fəryad edir" (4:10). Burada "fəryad etmək" üçün istifadə olunan söz ***(saaq)*** sözüdür və tez-tez ədalətsizlikdən əzab çəkən və onların xeyrinə müdaxiləni tələb edən fərdin və ya qrupun qışqırığını təsvir etmək üçün Əhdi-Cədiddə istifadə olunur. Bu çox vaxt sıxıntıda olanların fəryadlarını eşidən Allaha aiddir, belə insanlara ədalət göstərilməyib və qanunsuz təzyiqdən və istismardan özlərini müdafiə edə bilməyiblər. Yaradılış 18:20-də sözün istifadəsi barədə Gerhard von Rad belə şərh verir: söz xüsusi hüquqi termindir və böyük ədalətsizlik qışqırıqlarından əzab çəkən insanın çağırışını bildirir.

> Biz hətta bilirik ki, qışqırıq "qanunsuz hərəkət!" adlanır (*hamas*, Yeremya 20:8; Habaqquq 1: 2; Əyyub 19:7). Kömək üçün belə qışqırıqla (köhnə alman "*Zeterruf*" sözünə uyğunlaşır), insan qanuni cəmiyyətdən müdafiə istəyir. Amma eşidilməyən və ya yardım göstərilməyən qışqırıq birbaşa bütün qanunları qoruyan Yahvenin qarşısına çıxır. Ona görə də Yahve Sodomu cəzalandırmaqda narahat deyil, amma vəziyyət araşdırıldıqda onun ciddiliyi aşkar olunur. Sonrakı hadisələr beləcə açıqlanır...

Allahın ədaləti tələb edir ki, O, Qabili öz qardaşını öldürdüyünə görə cəzalandırsın. Amma ona hökm verməklə Allah Qabili qaçaq və sərgərdan olmağa ittiham etmir. Qabil bundan qorxur (4:14). Allah Öz mərhəmətində Qabilin səhvən öldürülməsindən müdafiə olunması üçün onun üzərinə əlamət qoyur (Yaradılış 4:8-17).

Qabil şikayət etdi ki, Allahın hüzurundan və ya üzündən gizlənər, qorxdu ki, Allahın qanuni müdafiəsindən məhrum olar. Allahın hüzurundan və ya üzündən gizlənməyin təsvirinə Kəlamda çox rast

gəlinir, mənası nəyəsə diqqət yetirməkdən imtina etmək və bununla da ona cavab verməməkdir. Rəbbin cavabı bir sübutdur ki, hətta qatil kimi Qabil Allahın mərhəmətindən və müdafiəsindən kənarda deyil. Qabilin həyatı Habilin və bütün insanların həyatları kimi Allaha məxsusdur və O, onları tərk etməyəcək. Həyat üçün hüquq, hətta ona layiq olmayan adamlar üçün də Allah tərəfindən qorunur.

Nuh

Qabilin hekayəsindən sonra Əhdi-Cədid hekayəsində Nuh böyük diqqət yetirilən növbəti əsas surətə çevrilir. Amma bizim müzakirəmizin mərkəzi Allahın yaratdıqlarının qorunmasında Onun aləti kimi istifadə olunan Nuhda deyil, 9:5, 6-da insan həyatının qorunması ilə əlaqədar Allahın verdiyi təlimatlardadır. Allah deyir "hər bir insandan...əvəzini alacağam" (9:5b). Amma Allahın birbaşa hakim kimi qarşıya çıxdığı Qabil və Habilin vəziyyətindən fərqli olaraq bu hekayə artıq Allahın tək müstəsna cavabdehliyi deyil. Bu indi insanlara da verilib. Bu 6-cı ayədə yenidən təkrarlanır:

"Kim insan qanı töksə,
Onun da qanı
İnsan əli ilə tökiləcək.
Çünki Allah insanı
Öz surətinə görə yaradıb."

Bu hissədə Allah bəyan edir ki, Allahın ədalət alətləri olmaq və əsas insan hüquqlarını qoruyanlar olmaq cavabdehliyi bəşəriyyətə həvalə olunub. Onlardan ilahi əvəzi və ya müdaxiləni gözləmək tələb olunmur. Bu, Kəlamın başqa hissələrində aydın olduğu kimi üsyankar ədalətin istifadəsinə bəraət qazandırmır. Allahın aləti olmaq cavabdehliyi mülki orqanların əlinə qoyulub, hüquqlar fərdlərə deyil, onlara verilib. Amma Onun surətini daşıyan yoldaşımızın hüququnu qorumaq və dəstəkləmək cavabdehliyi ilahi tapşırıqdır. Ədalət üçün qışqıranlar surəti daşıyan yoldaşları, xüsusilə İsa

Məsihin işi vasitəsilə Allahın tam surətinə yeniləşənlər tərəfindən laqeyd sükut divarı ilə qarşılaşmamalıdırlar.

Lut

2 Peter 2:7-də biz oxuyuruq ki, Lut "pozğun insanların əxlaqsız həyat tərzindən əziyyət çəkən" bir insan idi, o, Allahın qasidlərini evinə qəbul edəndə bu əxlaqsız insanlar onun Sodomda olan evinin qapısını sındırmağa çalışırdılar (Yaradılış 19:9).

Salehliyə ən yaxşı nümunə olmaqla Peter Lutun Sodomdan qurtuluşunu təqibdən can qurtarma kimi görür:

> *Pozğun insanların əxlaqsız həyat tərzindən əziyyət çəkən saleh Lutu isə qurtardı. Çünki onların arasında yaşayan bu saleh insan günbəgün onların qanunsuz əməllərini görüb-eşidib öz saleh ruhunda iztirab çəkirdi. Əlbəttə ki, Rəbb möminləri sınaqdan necə qurtarmağı, haqsızları isə qiyamət gününə kimi cəza altında necə saxlamağı bilir.* (2 Peter 2:7-9)

Lutun nümunəsindən bir şey öyrənmək olar ki, təqib təkcə yetkin imanlılar və ya ruhani nəhənglər üçün deyil. Allahın davamçısı olduğunu deyən hər bir kəs şübhəsiz ki, hansısa bir məqamda mövqeyini bildirməlidir. Lut həyatının qalan vaxtlarında güzəştə getməklə xarakterizə olunsa da, çətin tapşırıq qarşısında öz mövqeyindən möhkəm yapışmışdı.

İbrahim

Kəlamda kimisə "iman atası" kimi adlandırmaq lazım gəlsə, həmin insan yəqin ki, İbrahim olacaq. Bütpərəst keçmişi olan İbrahim çağırılır, ona hər şeyini yığışdırıb öz ata evini tərk etmək və Allahın ona göstərəcəyi torpağa getmək deyilir. Ona vəd edilir ki, Allah ondan böyük xalq və bütün dünya üçün xeyir-dua mənbəyi törədəcək.

Allah dünyanı öz əvvəlki vəziyyətinə bərpa etmək planını aşkar edərkən İbrahim əsas rol oynayır (Yaradılış 12:1-4; 15:5, 6).

Amma onun çağırıldığı iman yolu heç də asan deyil. O, bütün həyatı boyu köçəri kimi çadırda yaşayır. İbranilər 11-ci fəsildə İbrahim haqqında danışılanda belə təsvir olunur: *"İman vasitəsilə vəd edilmiş ölkədə bir qərib kimi məskunlaşdı. O eyni vədin həmvarisləri olan İshaq və Yaqubla birlikdə çadırlarda yaşadı. Çünki İbrahim memarı və banisi Allah olan bünövrəli şəhəri gözləyirdi"* (İbr. 11:9, 10).

Allah ona oğul vəd edir və sonra onu həyata keçirməzdən əvvəl demək olar ki, İbrahimin bütün həyatı boyu gözləyir. Əslində Allah demək olar ki, həddən artıq gec olana qədər və İbrahim ümidini itirənə qədər gözləyir.

Sonra Allah Öz vədini yerinə yetirəndən sonra O, dəhşətli bir bəyanat verir. Bu bəyanata əsasən İbrahim öz oğlunu dağa aparmalı və öldürməli idi. İbrahimin hiss etdiyi böyük ağrını təsəvvür edə bilərsinizmi? Çaşqınlıq? Bəli, hətta şübhələr?

Amma İbrahim itaət edir. Və ən son anda Allah müdaxilə edir və qoyun formasında əvəzedici təmin edir. Sonra O yenidən Öz əvvəlki vədini bildirir. Bu vədə əsasən İbrahim itaət etdiyinə görə bütün xalqlar üçün xeyir-dua mənbəyi olacaq (Yaradılış 22:15-18).

İbrahimin sadiq itaəti ağrısız deyildi. Bu, peşmançılıq, ağrı və göz yaşları olan bir yol olub. Bu elə bir yol idi ki, onun yaşadığı müddətdə Allahın vədlərinin tam yerinə yetdiyi görünmürdü. İbranilər 11:16-da deyildiyi kimi: *"Amma əslində onlar daha yaxşı bir ölkəni, yəni səmavi vətəni arzu edirdilər. Buna görə Allah Özünü onların Allahı adlandırmaqdan utanmır, çünki O onlar üçün şəhər hazırlamışdır."*

Allahın dünyanı Özü ilə barışdırma planına insanı öz doğma vətənindən, yaxın ünsiyyətlərdən və rahatlıqdan çıxarmaq, qərib torpağa, səhraya sürgün etmək, əzab və vədə aparmaq daxil idi. İbrahimin həyatından biz dəyərli dərslər öyrənirik, belə ki həqiqi imanın əzab çəkməsi, qurban verməsi və ümid etməsi labüddür.

İshaq

İshaq İbrahimin irsini davam etdirir. Allahın ona verdiyi torpaqda evini qurarkən o, həyatında Allahın xeyir-duaları olduğuna görə yaşadığı yerdə fələstinlilərin və başqalarının düşmənçiliyindən əzab çəkir. Onlar onun quyularını doldururdular və ya müsadirə edirdilər, məcbur edirdilər ki, o, sürülərinə su vermək üçün başqa ərazilərə köçsün. Nəhayət, düşmənləri gördülər ki, Allah onun həyatına xeyir-dua verməkdə davam edir və İshaq onlardan qisas almır. Buna görə də onunla sülh bağladılar, təqibə son qoydular (Yaradılış 26:12-33). Amma İshaq göstərir ki, Allahın xeyir-duasını əldə edib yaşamaq böyük müqavimət və çətinliklə nəticələnə bilər. Allahın çağırışı budur ki, insan düzlüyü qoruyub saxlamaq üçün özünü könüllü surətdə inkar etsin və başqaları qarşısında şəhadətlik etsin.

İsrailin Misirdəki əsarəti

Kəlamda İsrailin Firon və misirlilər tərəfindən "sıxışdırıldığı" təsvir olunur (Çıxış 1:11, 12). Onlar fərdi və ya müştərək günahlarına görə əzab çəkmirlər, sadəcə bir xalq kimi kimliklərinə görə əzab çəkirlər. Rəbb bəyan edir ki, onların əzab çəkməsi Onu narahat edir və onları misirlilərin zülmündən qurtarmaq istəyir (Çıxış 3:7-10). Zülmkarın evində xilaskarı böyütməklə Onun arzusu və narahatçılığı konkret şəkildə ifadə olunur.

Çıxış 2:15-də Musa yəhudi soydaşını döyən mühafizəçini öldürür və nəticədə Firon onu axtaranda səhraya qaçmaq məcburiyyətində qalır. İbraniləri yazan müəllif bu hərəkətə gətirib çıxaran səbəb barədə şərh edir. Onun dediyinə görə Musa çətin bir seçimlə qarşılaşır. O, sarayda qala bilərdi və "günahdan müvəqqəti zövq ala" bilərdi və ya sarayı tərk edib "Allahın xalqı ilə birlikdə əzab çəkməyi üstün tuta" bilərdi (11:24-26).

Biz Çıxışda qeyd edilən hekayədən bilirik ki, Musa ikinci qərarı seçir, həyatını öz xalqını əsarətdən azad etməyə və Allaha xidmət edəcək xalqın formalaşmasına həsr edir. Bu seçim Musanın həyatında ömrü boyu çətinlik, əziyyət, göz yaşları və təhlükələr ilə nəticələndi. O, həm iman ailəsinin, həm misirli zülmkarların, həm də xalqın qarşıdurması ilə üzləşir. İbranilərin müəllifi Musanın

hərəkətlərini "Məsih uğrunda" təhqir kimi qeyd edir, çünki o, misirli zadəgan kimi zövq almaqdansa, irəlidə olan daha böyük mükafata gözünü dikmişdi (11:26). Allahın məqsədlərinə görə qurban vermək Məsihin keçirdiyi təhqirlərə bənzəyir.

Səhrada dolaşarkən təkcə Musa əzab çəkmir. Qan. Tək. 30:7-də Rəbb İsraili incidənləri "onları təqib edənlər" adlandırır.

Qanunun Təkrarında Xeyir-dua və Lənət

Qanunun Təkrarı kitabı Allahın Sinay dağında İsrail xalqı ilə bağladığı əsl əhdin yeniləşməsidir. Qırx il səhrada dolaşmaq həqiqətən bitmişdi və İsrail Vəd olunmuş Torpağa daxil olmağa hazır idi, bu dəfə itaət etməyə və Allahın onlara vəd etdiyi torpağı götürməyə hazır idilər. Qanunun Təkrarı 28-ci fəsildə Musa İsrailin yeniləşdirdiyi xeyir-dua və lənət əhdini onların qarşısına qoydu.

Allah xeyir-dualar (1-14-cü ayələr) və sonra lənətlər sırasını verməyə başladı. Lənətlər xeyir-dualarɪ üstələyir və hər biri İsrailin itaətkarlığı ilə şərtləşdirilmişdi (1, 15-ci ayələr). Əgər onlar itaət etsələr, həyatlarının hər bir sahəsində xeyir-dua gözləyə bilərlər. Bu, Qanunun Təkrarındakı teologiyanın qısa məzmunudur. Amma bu gerçəkliyin və Allahın bütöv vəhyinin həddən artıq sadələşməsidir. Habaqquq və Əyyub peyğəmbər Qanunun Təkrarının bu hissəsi barədə sual verirlər. Habaqquq Allahdan soruşur: "Bəs xəyanətkarlara necə baxa bilirsən? Pis özündən daha salehin başını yeyəndə axı niyə susursan?" (Habaqquq 1:13). Əyyub "kamil, əməlisaleh, Allahdan qorxan və özünü şərdən uzaq saxlayan bir adam" olduğu üçün əzab çəkirdi (Əyyub 1:1, 8).

Bəzi alimlər hətta belə şərh edirlər ki, Qanunun Təkrarı kitabının teologiyasının sadə şərhini sual qarşısında qoymaq üçün Əyyub kitabı yazılmışdır. Qanunun Təkrarını diqqətlə oxumaq xeyir-dua və lənətləri yalnız əxlaqi davranışlar baxımından şərh etməyin ağılsızlığını aşkar edir. 8:2, 3-də Musa İsrailə xatırladır ki, Allah onları səhrada hansısa xüsusi bir günaha görə deyil, onları öyrətmək və sınamaq üçün alçaltmamışdı. 8:18-də deyilir ki, sərvət əldə etmək gücünü İsrailə Allah vermişdi. Bu səbəbdən də onların var-dövlətləri Ondan hədiyyədir, onu dəqiq itaətkarlıqlarına görə

qazanmamışdılar və itaətsizliklərinə görə itirməmişdilər. 9:4-6-da Allah bəyan edir ki, O, İsrailə torpağı salehliklərinə görə vermir. Əslində onlara torpaq lütf kimi verilmişdi, çünki onlar inadkar xalq idi (9:6) və həm də Allah "ata-babaları İbrahimə, İshaqa və Yaquba" vəd vermişdi (9:5). Allahın qəzəbindən qurtulmağa yeganə səbəb Musanın onların xeyrinə danışması oldu (9:25-29).

Əhdi-Ətiqin qalan hissələrindən aydındır ki, xeyir-dualar və lənətlər şərtsiz vədlər kimi tənqidsiz qəbul olunmur. Biz bu kitabın təlimlərini Kəlamın başqa bütün yerləri ilə nizamlamalıyıq. Tarixi kitablar özləri qarışıq mənzərəni təqdim edir. Müharibədə qılınc insanı başqa insanlar kimi tələf edir (2 Şamuel 11:25), günahsız təqsirkar ilə birlikdə əzab çəkir. 1 Şamuel 22:18, 19-da Novun tamamilə günahsız kahinləri doğru olanı etdikləri üçün qılıncdan keçirildilər. İsrailin tarixində Allahın qanununu pozan pis padşahların zəngin həyatlarına sadəcə baxmaq kifayətdir. Bu aydın görünür ki, şər heç də həmişə bu həyatda cəzalandırılmır, nə də saleh həmişə xeyir-dua əldə edir. Bu, Yeşaya 53-cü fəsildə Allahın "*əzab çəkən qulu*" və peyğəmbərlərin üzləşdiyi təqiblə aydın təsvir olunur.

Ona görə də bütün yaxşı şeylərin və bütün pis şeylərin Allahın insanın hərəkətlərinə cavabı olub-olmadığı sualı üçün beş nəticəyə gəlmək olar:

1. Hər yaxşı hədiyyə Allahdan gəlir.

2. Bir çox xeyir-dualar və lənətlər insanın Allaha olan cavabının nəticəsidir.

3. Bəzi xeyir-dualar və lənətlər Allahın insan üçün olan planlarının nəticəsidir.

4. Əgər biz Allahı izzətləndirməsək, xeyir-dualar lənətə çevrilə bilər.

5. "İnsan nəyi əkərsə, onu da biçəcək" (Qalat. 6:7) təlimi uzun müddət ərzində doğru olacaq ümumi bir prinsipdir, amma elə

vaxtlar olacaq ki, bu yanlışlıq kimi görünəcək (xüsusilə, qısa müddət ərzində).


TARİXİN NÜMUNƏSİ: TARİXİ KİTABLARDAN ANLAYIŞLAR

Tarixə əhdi-ətiqə nəzərən baxış

Qədim dünyanın insanlarının tarixə necə baxdıqları barədə tədqiq çox heyranedicidir. Tam araşdırmanın zənginliyini burada yazmağa kifayət qədər yer olmadığından bunu demək dəqiq olar ki, yəhudilər tarixin harayasa getdiyi barədə unikal baxışa malik idilər.

E. A. Spiser dərin müşahidəsində qeyd edir ki, Müqəddəs Kitab yazılmağa layiq olan çoxlu xronoloji hadisələr və fikirlər, həm də əhəmiyyətli hadisələrin *şərhi* deyil. Ona görə də Müqəddəs Kitab "əsasən tarixin fəlsəfəsidir." İsrailin tarixə baxışı, xüsusilə də qarşılıqlı ünsiyyətdə olan iki nüfuzlu mədəniyyətin: Misir və Mesopotamiyanın müqayisəsində heyrətləndiricidir.

Aşağıdakı təsvir mesopotamiyalını, misirlini və tarixin Kəlama nəzərən baxışını təqdim edir. İzahat onun ardınca verilib.



Mesopotamiya mədəniyyətləri tarixi qarmaqarışıq əyrilik kimi görürdü, istənilən an onlara hücum edə bilən şıltaq, etibarsız allahların nazlarından asılı idilər. Heç kim, hətta allahlar da tarixin haraya getdiyini bilmirdi. Heç bir allah tam güc və səlahiyyət mənbəyi deyildi. Əslində heç biri həqiqətən hər şeyə qadir deyildi. Ona görə də kainatda heç bir şey əbədi və mütləq deyildi; heç bir şey sübutsuz qəbul oluna bilməzdi. Tarix fəal idi, amma əvvəlcədən nə cür olacağı barədə heç nə deyilə bilməzdi. Fəlakəti və ya bədbəxtliyi uzaqlaşdırmaq üçün yeganə ümid allahları hansısa yolla rəhmə gətirməyə çalışmaq idi. Yəqin ki, buna ümid edilmişdi, hansısa əlverişli qərar qurban gətirən insanın xeyrinə yardım edə bilərdi. Allahlar şıltaq olduqları üçün bu heç vaxt dəqiq bir şey deyildi. Ona görə də keçmişdə nəyin "işlədiyini" axtarıb tapmaq vacib idi. Keçmişdə hansısa bir qurbanın və ya mərasimin effektli olduğu aşkar edilsəydi, bu, həmin dövrdə öz allahlarını razı salmaq üçün müəyyən açarı təmin edirdi.

Ona görə də keçmişdə baş verən fəlakətlərin yenidən baş verməsinə qarşı bir yoxlama kimi keçmiş dövr çox vacib olmuşdu. Ümid edilirdi ki, allahları necə razı salmağı öyrənməkdə keçmiş dövr açarlar verə bilərdi. Ona görə də müntəzəm ehtiyatlılıq və olduqca dəqiq mərasim üçün ehtiyac var idi. Spiser qeyd edir: "Kosmos bir sözlə, həyata əxlaqi yanaşma üçün həqiqi əsası verə bilmədi. Həcmdənsə forma göyün şıltaqlıqlarına qarşı ən yaxşı müdafiəni vəd edir."

Mesopotamiyalılar yaşama uğrunda mübarizələrində göy ilə yer, ölməzlik ilə fanilik arasında əlaqəni yaratmaq üçün ziqquratlar (qədim Mesopotamiyada kultların pilləkənli piramida qülləsi, *tərcüməçi qeydi*) tikirdilər, bunlar onların ümidlərinin əsas nümunəsidir. Ziqquratlar həm də Mesopotamiya dünyagörüşünün başqa cəhətini əks etdirir: allahların cəmiyyətinin dəqiq surəti olan insan cəmiyyətinin imanı ziqquratlar ilə birlikdə iki şey arasında əlaqə rolunu oynayır. Heç bir allah tam ilahi səlahiyyəti iddia edə bilmədiyi kimi istənilən insan hökmdarı üçün belə hüquqları iddia etmək qeyri-mümkündür. İlahi hökmdar anlayışı Mesopotamiya düşüncəsi üçün qəribə bir şey idi. Padşahın səlahiyyəti ona görə də məhdud idi. Spiser bunu belə göstərir:

Digər tərəfdən, onun tapşırığı allahlardan irəli gəlib, hər hərəkətinə görə onlar qarşısında cavabdeh idi. Başqa bir tərəfdən isə allahların rəhbəri öz səmavi toplantısının arzuları ilə məhdudlaşdırıldığı kimi padşah da öz ağsaqqallarının yığıncağının iradəsinə tabe idi.

Fani hökmdarın səlahiyyəti barədə bu iki ölçü – biri kosmik, o birisi isə ictimai – Mesopotamiyanın dövlət anlayışına birbaşa təsir göstərmişdir. Bu vəziyyətlərdə dövlət bir növ demokratiya kimi inkişaf edə bilər. Şura tərəfindən idarəçilik və hökmdarın məhdud səlahiyyəti çətin ki, nəyəsə gətirib çıxara bilər. Əsas fayda fərd üçün idi, onun hüquqları qanun tərəfindən qorunurdu. Daha xüsusi mənada kosmik, dəyişilməz və obyektiv qanun (*kittum)* adlanırdı, təxminən (*emets)* ibrani sözünün sinonimidir. Hökmdar (*kittumun)* təvazökar qulluqçusu idi, onun heç vaxt ağası deyildi. Yazıların olması hökmdar tərəfindən təhqirlərə və ya təhriflərə qarşı sonrakı ehtiyat tədbiri idi.

Fərdin hüquqlarını qoruyan bu qanunlar Mesopotamiyanın arxeoloji qazıntılarında tapılmışdır. Tarixə belə canlı baxış cəmiyyətlərin inkişafı ilə nəticələnsə də, əksər yerlərdə qanunun idarəçiliyi tərəfindən tam səlahiyyətin çatışmazlığı qanunların tamamilə doğru və ya əxlaqi olduğunu təyin etməyi qeyri-mümkün etdi. Heç bir dəyər axıra qədər davam etmirdi. Assuriya və Babil imperiyalarının dağılması düşmənlərinin üstün olmasına görə deyildi, daxili strukturun dağıdıcı ağırlığına görə idi, onlar öz dünyagörüşlərinin qarmaqarışıqlığında forma və təhlükəsizlik axtarırdılar. Mesopotamiyalılar təcavüzkar siyasəti genişləndirənlər idilər, dünyagörüşlərinə görə mütərəqqi insanlar idilər, qorxu ilə çiyinlərindən kənara baxırdılar. Tam standartlar çatışmadığına görə onlar formada və ayində təhlükəsizlik axtarırdılar, bunlara da əməl etmək olduqca çətin idi. Qarmaqarışıq kainatda təhlükəsiz yaşamaq üçün yol axtarmağa çalışmaq nəhayət, onların dağılmasına gətirib çıxardı.

Digər tərəfdən misirlilər tarixə sabit baxışla nəzər salırdılar. Misirlilərin kainatı tək yaradıcı prosesin nəticəsi idi, bu

mesopotamiyalıların (və Kəlamdakı) yaranma hekayəsindəki hadisələrin inkişafından fərqli idi. Misirlilərin də arasında *kittum* anlayışı yox idi. Onun yerində isə Fironda tam şəxsi qanun, yaradanın təcəssümü var idi. Padşah allah idi, onun dünyası Nilin ahəngi və günəşin daimi parıltısı kimi sabit və dəyişməz idi. Tarix ilahi padşahın hökmranlığında bağlı qalmışdı. Mesopotamiyada olduğu kimi qanun kodeksi yox idi. Fironun sözləri ağzından çıxan kimi qanun olurdu. Fironda sabitlik və qayda-qanun var idi. G. Herbert Livinqston belə qeyd edir:

> Firon taxt-taca çıxanda o, allah olmadı; o sadəcə allah kimi aşkar olundu. Kultda Firon baş kahin idi; hökumətdə onun idarəçiliyi hüdudsuz idi; müharibədə o, ordu idi; o, Misiri rəmzləşdirirdi. Firon öz səlahiyyətini başqalarına həvalə edə bilərdi və bəzi vaxtlar onun tabeçiliyində olan vəzifəli şəxslər ondan daha güclü görünürdü; amma onun səlahiyyəti təkrarən yenidən vurğulanırdı. Ona qarşı nə vaxtsa xalqın əsl üsyan etdiyi barədə dəqiq sübut yoxdur. Hətta işğalçılar Fironun aliliyi anlayışını qəbul etmişdilər və dərhal geriyə çəkilmişdilər.

Padşahlıq olduqca vacib olduğu üçün misirlilər taxt-tacla birbaşa əlaqəli olmayan hadisələri qeyd etməyə az diqqət yetirmişdilər. Yazılar Fironun sələfləri və xələflərindən danışmır; tarix Fironun hökmranlığıdır. Təqvim onun taxt-taca gəlməsindən başlayır və onun ölümü ilə bitir. Davam edən era ilə vaxtın xətti anlayışı Misir dünyagörüşü üçün tamamilə yad bir şey idi. H. Frankfort qeyd edir:

> Misirlilər üçün tarixin keçmişi və gələcəyi çox az məna daşıyırdı. Çünki onlar dünyanı əsasən sabit və dəyişməz təsvir edirdilər. Dünya Yaradanın əlindən tam şəkildə çıxıb. Ona görə də tarixi hadisələr qurulmuş qaydanın səthi narahatlıqlarından və ya heç vaxt dəyişməyən mənanın təkrarlanan hadisələrindən başqa bir şey deyil. Keçmiş və gələcək – narahatçılıq yaradan məsələ olmadan – indiki dövrdə tamamilə gizli idi... Heyvanların, padşahların, piramidaların,

> mumiyalaşdırmanın ilahiliyi, eləcə də Misir mədəniyyətinin zahirən əlaqəli olmayan cəhətləri və mədəniyyətin əxlaq qaydaları, poeziya və nəsrə məxsus formaları hamısı əsas imanın nəticəsi kimi başa düşülə bilər, bu əsas imana görə yalnız dəyişməyən həqiqətən əhəmiyyətlidir.

Hamıya məlumdur ki, Misir tarixini yenidən qurmaq çox çətindir. Çox vaxt şəxsi və iş sənədlərinin padşaha aid sənədlərdən daha etibarlı olduğu sübut olunur. Həmin dövrdə yazılmış Qərbi Asiyadan olan yazıların – başqa mədəniyyətlər ilə Misirin bağladığı diplomatik, ticarət, müharibə müqavilələrinin və başqa müqavilələrin çox vaxt Misirin əsl sənədindən daha aydın olduğu sübut olunur.

Min illər ərzində bir-biriləri ilə tez-tez ünsiyyətdə olan, amma ictimai və dini baxımdan köklü surətdə fərqli olan iki mədəniyyətin bir-birinə belə yaxın qonşuluqda necə mövcud olduğunu dərk etmək çətindir.

Həm tarixi, həm də coğrafi baxımdan yaxın ünsiyyətdə olan İsrailin Mesopotamiya və ya Misirin tarixi baxışı ilə oxşarlığının olduğunu Müqəddəs Kitab göstərirmi? Cavab həm, bəlidir, həm də xeyrdir.

Spiser sübut edir:

> Bu gün tam aydındır ki, həmin ərazidəki mədəniyyətin iki əsas mərkəzi uzaq Mesopotamiya və İsrailə dərin mədəni iz qoyan qonşu olmayan Misir olub. Belə də güman edilirdi. Birincisi, əcdadların kökləri Fərat çayından o taydakı torpaqda idi, ikincisi isə Misirin yolu hərəkətsiz və ayrı idi, amma Mesopotamiyanın yolu hərəkətli və geniş idi – təbii olaraq, İsrail də daxil olmaqla başqa ölkələrə getməyə əlverişli idi...
>
> Bundan başqa qanunun müstəqil sübutu vurğulayır ki, Mesopotamiya və İsrail arasında mədəni uyğunluğun geniş sahəsinə baxanda əsl padşahlıq halları ilə üzləşəcəyik, bu sadəcə üst-üstə düşmə deyil. Hər iki cəmiyyətdə qanun laqeyd və ali idi; padşah onun qulluqçusu idi və onun mənbəyi və ağası deyildi. Bundan başqa müvafiq qanuni qaydalar

> xırdalıqlarda çoxlu fərqlərə qarşı durmadan anlayışda və tərkibdə bir-biriləri ilə yaxından əlaqəlidir. Hər iki ölkədə cəhətlərin çoxu eyni olduğuna görə Mesopotamiyanın lap başlanğıcını izləyir, İsrail bu baxımdan Mesopotamiyanın mədəni kökü hesab edilməlidir.

Onların oxşarlıqlarına baxmayaraq, Mesopotamiya və İsrailin tarixə baxışları arasında böyük fərqlər var. Məsələn, mən Spiserin İsraildə qanunun laqeyd olması fikri ilə razılaşmıram. Bu vacib fərqdir. İsrailin qanunu, öz xasiyyəti və iradəsi qanunda əks olunan şəxsi, əhd bağlayan Allahdan idi. Bu, Mesopotamiyadakı (*kittum)* dan çox fərqli idi. Əhdə görə İsrail tarixə tək, hər şeyə qadir Ağanın nəzarəti altında olan bir şey kimi baxırdı. O, hər şeyi yaradıb, hər şeyi əlində saxlayır və tarixin gedişinə nəzarət edir. Tarix məqsədli görünürdü, Mesopotamiya baxışında olduğu kimi şıltaq allahların nazlarına meylli deyildi, Misir baxışında olduğu kimi ilahi iddiaları olan hökmdarların totalitar səlahiyyətinə meylli deyildi. Kəlama nəzərən baxışdan insana cavabdehlik, ləyaqət və ümid bəxş edilib. Həqiqi mənada Kəlama nəzərən baxış həm Mesopotamiyanın, həm də Misirin tarixə baxışlarını birbaşa inkar edir. Tarixin mənası var (Misirin baxışına əks olaraq), amma bu nəzarətdən kənar deyil (Mesopotamiya baxışına əks olaraq). Bu səbəbdən də biz tarixin kulminasiya nöqtəsinə, yəni Kəlamın müəlliflərinin qeyd etdiyi kimi "Rəbbin Gününə" doğru irəlilədiyini gördüyümüz üçün imanlının həm ümidi, həm də təhlükəsizliyi var.

Sonralar yəhudilər yunanların baxışları ilə qarşılaşacaqdılar, yunanlar tarixə irəliyə və aşağıya doğru gedən bir şey kimi baxmağa meylli idilər. Qızıl əsr keçib getdi və zaman ölümə, qaranlığa və əzaba doğru irəliləyirdi. Yəhudilər bilirdilər ki, ən yaxşı hələ qarşıdadır.

Onlar əzab və sıxıntının bitəcəyi və ədalətin üstün gələcəyi günü imanla gözləyirdilər. Onlar bilirdilər ki, dünyanın indiki vəziyyəti anormaldır. Onlar dərk etmişdilər ki, dünya elə bundan ibarət deyil. Bu səbəbdən də mən inanıram k, onlar Mesopotamiyanın, Misirin və Yunan mədəniyyətlərinin dağılmasına səbəb olan durğunluqdan uzaqlaşmışdılar.

İsrail öz tarixində onları və bütün dünyanı son məqsədə doğru aparan Allahın əlinin işini görmüşdü. Əzab və sıxıntı həmin planın bir hissəsi idi, çox vaxt günahların cəzası kimi təsvir olunurdu. Bu vasitə ilə Allah xalqını Özü ilə ünsiyyət üçün bərpa etmək istəyirdi, digər tərəfdən isə Öz xalqının həyatında ruhani yetkinliyi inkişaf etdirmək və aşkara çıxarmaq istəyirdi.

Bəzən Allahın düşüncəsində əzabın yalnız Özünün bildiyi dəyəri var və bu cəza yaxud tərbiyələndirmə vasitələri kimi başa düşülməli deyil. Belə hallarda Allahın övladı üçün Onun, hətta qaranlıq və naməlum yollarda nəzarət etdiyini bilmək kifayətdir (Məzmur 23:4). Biz Yaradılış 3:14-də gördüyümüz kimi Allahın bərpa üçün planları münaqişə, əzab və Öz xalqının əzilməsini tələb edir. Doğrudur, biz İsrailin tarixinə baxanda görürük ki, Allah insanları cəzalandırmaq və onları ünsiyyət üçün bərpa etməyə görə bəzən əzabdan istifadə edir. Bəzən O bundan xalqının ruhani təlimi üçün istifadə edir. Amma başqa vaxtlarda Allahın xalqı yalnız Ona məlum olan səbəblərə görə əzab çəkir, amma bu Onun məqsədlərini tarixdə effektli surətdə həyata keçirməyə yardım edir.

Gerstenberger və Şreyc düzgün surətdə göstərirlər ki, Əhdi-Ətiqdən əzab üçün bir məna çıxarmaq mümkün deyil. Belə labüdlüyü tapmaq səyləri boşa çıxır, çünki səy özü Allaha etibarın çatışmazlığını nümayiş etdirir. Əzab çəkən üçün çağırış problemi və ya ehtiyacı Ona həvalə etməkdir, O, hamıdan güclüdür və hər bir şeyi anlayır.

Əzab bir tərbiyələnmə kimi


Biz bu yerdə fasilə verməli və Kəlamın "tərbiyələnmə" mövzusunu müzakirə etməliyik, çünki insanlar məhz burada səhvə yol verirlər. Biz "tərbiylənmə" sözünü eşidəndə ilkin olaraq cəza barədə fikirləşməyə meyl edirik.

Məsələn, Sudanda məsihçilər çox vaxt öz əzablarını Allahdan günahlara görə cəza kimi görürlər. Onlar həmin günahın nə olduğuna əmin deyillər, amma onlar çox vaxt əzabları haqqında bu məzmunda danışırlar. Əmin olmaq üçün deyim ki, tərbiyələndirməyə

cəza daxildir, amma bu tam mənzərə deyil. Amma gəlin tanış olandan başlayaq və sonra tanış olmayana keçək.

Tərbiyələnmə bir cəza kimi

İsrailin tarixi boyunca Allahın xalqı Rəbbin Gününə doğru irəlilədikcə aşağıdakı çevrə və ziddiyyətlər meydana çıxır:



Allahın xalqı Onun xeyir-dualarını əldə etdikcə onların həyatları dəbdəbə və bolluq ilə seçilirdi. Amma Allah onlara xəbərdarlıq etdikcə (Qan. Tək. 6:10-12), onlar Onu yaddan çıxardılar və öz uğurları kimi görünən şeylərdə qürurlandılar.

Biz tarixi kitablara baxanda Allahın məhəbbətlə tərbiyələndirdiyini görürük, Öz xalqını ünsiyyətə (və ya "xeyir-duaya") qaytarmaq üçün O, xeyir-duasını geriyə götürür, aclıq, təbii fəlakət və ya işğalçı düşmənlər formasında üzərilərinə bəla gətirir.

İnsanlar Allahla ünsiyyətdə olarkən dəbdəbənin əksi olaraq əzab çəkirlər. Onlar indiki həyatlarını əvvəllər bildikləri həyat ilə müqayisə edəndə qürurdan tövbəyə keçirlər. Onda Allah onları Öz əhdinə görə olan xeyir-dualarına bərpa edir.

Tarixlərinə baxarkən israillilər başa düşdülər ki, əzab günahdan və onun nəticələrindən qurtulmaq üçün katalizator ola bilər. Ona görə də əzab Allahın izzəti ilə nəticələnə bilər. Lev. 26:18, 24, 28-də biz xüsusilə, görürük ki, Allah günahdan tərbiyələndirmək üçün istifadə edir.

Beləliklə biz İsrailin tarixində görürük:

1. Günah və əzab əbədi deyil (tarix harayasa gedir).

2. Günah davam edən günahın bəhrəsi ola bilər.

3. Əzab Allah tərəfindən tövbəyə və sonda Allaha izzət gətirmək üçün istifadə oluna bilər.

Yalnız bu məzmunda Allahın xalqının əzabına baxmaq Allahın tam vəhyi ilə bir araya sığışmır.

Tərbiyələnmə ruhani yetkinlik üçün vasitə kimi

Allahın tərbiyələndirməsinin ruhani yetkinlik üçün vasitə ola bilməsi anlayışı yəqin ki, Əhdi-Cədiddə daha aydın görünür, amma bu Əhdi-Ətiqdə də var.

Qanunun Təkrarı 8-ci fəsildə insanların səhrada əzab çəkməsi insanların ürəyindəkiləri aşkar etmək üçün "tərbiyələnmə" kimi qeyd olunur (8:2). Onlar bununla öyrənməli idilər ki, insan təkcə çörəklə deyil, Rəbbin ağzından çıxan hər bir şeylə yaşayar (8:3). Bununla onlar bilməli idilər ki, Allah onları ata oğlunu tərbiyələndirdiyi kimi tərbiyələndirir (8:5).

Əhdi-Ətiqdə hər yerdə biz bu təsviri, yəni Allahın öyrətdiyini, səhvi düzəltdiyini, istiqamətləndirdiyini və Ata kimi uşaqları üçün təmin etdiyini görürük. Tərbiyələnmə oğulluq üçün əminlik verir, övladın həyatında Allaha tuşlanmış həyat tərzi yaratmağa çalışır, bu həyat tərzi itaətdə və etik davranışda özünü əks etdirir.

Məzmur 94:12-14-də bu Allahın Kəlamını öyrənməklə Onun tərbiyələndirməsidir, bu sübut edir ki, Rəbb Öz xalqını tərk etməyib:

> *Ya Rəbb, bəxtiyar o insandır ki, ona təlim vermisən, Öz qanununu öyrətmisən! Pislər üçün qəbir qazılanadək onu dar gündən çıxarıb dinclik verəcəksən. Çünki Rəbb xalqını Özündən ayırmaz, irsini Öz əlindən verməz.*

Xüsusilə Allah uğrunda əzab

Əhdi-Cədidin tarixi kitabları həm də bizim çox vaxt təqib kimi başa düşdüyümüz hadisələri qeydə alır: yaxşı iş görməyə görə əzab və ya daha xüsusi mənada insanın canlı Allaha sadiqliyinə görə əzab. Biz bu məzmunda artıq Qabilin Habili öldürməsindən və əcdadların əzabından danışmışıq. Bütün Əhdi-Cədid boyunca biz çoxlu sayda başqa nümunələr tapırıq:

- Musa xalqın suyu qurtaranda daşlanmaqla hədələnmişdi (Çıxış 17:1-7).
- Davud Allahın ürəyinə yaxın bir insan kimi təsvir olunmuşdu (Həv. İş. 13:22). Amma biz oxuyuruq ki, Şaul "Davudu öldürmək niyyətində" idi (1 Şamuel 20:33; 1 Şamuel 18-27). Amma Davud Allah tərəfindən müdafiə olundu (1 Şamuel 18-27; Məzmur 31:13; 59:1-4).
- Novun səksən beş kahini Şaul və Doeq tərəfindən öldürüldü (1 Şamuel 22).
- Peyğəmbərlər padşahın arvadı İzevel tərəfindən axtarıldı və öldürüldü. Onlardan yüzü gizlədildi və öz qaydalarını birbaşa pozaraq saray rəisi Avdiya tərəfindən yedizdirildi (1 Pad. 18:3, 4).
- İlyas Axav və İzevel tərəfindən təqib olunaraq səhraya qaçdı (1 Pad. 18:10-19:2).
- Peyğəmbərlər (İlyasın yoldaşları) padşahın arvadı İzevel tərəfindən öldürüldü (1 Pad. 19:10, 14).
- Mikeya peyğəmbər padşah Axav tərəfindən həbs olundu, Rəbbin adından peyğəmbərlik etməkdənsə, problem yaradan olmaqda ittiham olundu (2 Salnamə. 18:12-26).
- Elişa padşah tərəfindən ölüm ilə hədələndi (2 Pad. 6:31).
- Peyğəmbər Xanani Asa padşah tərəfindən həbs olundu (2 Salnamə. 16:7-10).
- Zəkəriyyə peyğəmbər padşah Yoaşın əmri ilə edam olundu (2 Salnamə. 24:20-22).
- Bizə deyildi ki, "Menaşşe...çoxlu günahsız qan töküb Yerusəlimi başdan-başa qana buladı" (2 Pad. 21:16).
- Yeremya dövlət məmurlarının əlindən əziyyət çəkirdi

(Yeremya 15:15; 17:18; 20:11; 37:15, 16; 38:4-6). Yalançı kahinlər və peyğəmbərlər Yeremyanın öldürülməli olduğunu düşünürdülər, onların fikrincə o onlara qarşı peyğəmbərlik edirdi (Yeremya 26:11).

- Qiryat-Yearimli Uriya Yeremya kimi eyni xəbəri vəz edirdi və o, Misirə qaçdı Yehoyaqim öz adamlarını göndərib onu Misirdən Yerusəlimə gətirdi və öldürdü (Yeremya 26:20-23).
- Şadrak, Meşak və Aved-Neqo padşahın qoyduğu qızıl heykələ səcdə etməkdən imtina etdikləri üçün qızmar sobaya atıldılar, möcüzəli surətdə oradan qurtuldular (Daniel 3).
- Daniel şirlər olan quyuya atıldı, möcüzəli surətdə Allah tərəfindən qurtuldu (Daniel 6).
- Esterin kitabında Fars padşahı Axaşveroş yəhudiləri təqib etdi. Haman Mordokaydan zəhləsi gedirdi (Ester 3:1-12; 5:14).
- Matta 23:29-35-də İsa qeyd edir ki, İsrail Allahın göndərdiyi hər bir peyğəmbəri necə rədd etmiş və təqib etmişdir.

ŞAİRLƏR VƏ FİLOSOFLAR: HİKMƏT ƏDƏBİYYATINDAN ANLAYIŞLAR

Əyyub

Əyyub kitabı Müqəddəs Kitabın ən çətin, ən az başa düşülən kitablarından biridir. Əgər mən kitabı tamamilə başa düşdüyümü söyləsəm, yalan danışmış olaram. Mən tam başa düşmürəm. Mən etiraf edirəm ki, mətndə çoxlu sayda xırdalıqlar var ki, onlar barədə suallarım var. Bu kitab barədə verəcəyim şərh yerin azlığına və mövzunun məhdudiyyətlərinə görə olduqca səthidir. Amma mən şübhə etmirəm ki, Əyyub kitabında bizim öyrənəcəyimiz çoxlu

dəyərli dərslər var, hətta bu gözəl kitaba qısa baxış böyük fayda verir.

Kitabın quruluşu ilk iki fəsildə sadə, ibrətamiz dildə verilib. Birinci biz əsas surət olan Əyyub ilə tanış oluruq. Bizə başlanğıcdan bildirilir ki, o, günahsız və saleh insandır (1:1). Bu fikri kitabı oxuyarkən yadda saxlamaq vacibdir. Sonra bizə onun ailəsi və həyatdakı vəziyyəti barədə danışılır. Əyyubun həyatı sakit, dinc mənada təsvir edilir – bu kişi üçün həyatda hər şey yağ kimi gedir.

1:6-da səhnə yer üzündən göylərdəki saraya keçir. Burada biz görürük ki, şeytan Allahın qarşısına gəlir ki, insanların yer üzündə etdikləri bütün günahlı şeyləri Ona desin (1:6, 7). Həvari Yəhya şeytanı Vəhy 12:10-da qardaşları ittiham edən biri kimi təsvir edəndə o, təsviri Əyyub 1:6-11 və Zəkəriyyə 3:1-dən gətirib çıxarır. Belə görünür ki, şeytana Allahın hüzuruna çıxmağa imkan verilib, burada o, Allaha deyir ki, Onun xalqı Onu həqiqətən sevmir və Ona etibar etmir.

Cavabında Allah Əyyubu şeytanın ittihamlarına təslim olmayan insan kimi göstərir. Amma bundan razı düşməyən şeytan Əyyubun xasiyyəti barədə şübhə toxumu səpmək istəyir. O deyir ki, Əyyub Allaha xudbin səbəblərinə görə xidmət edir. "Onun həyatını rahat və təhlükəsiz edən bütün şeyləri həyatından götür" – deyə şeytan istehza etdi. "Onda Əyyub səni inkar edəcək."

Əyyubun ürəyini bilən Allah şeytana icazə verir ki, onun ittihamlarının doğru olduğunu sübut etsin və biz bu məzmunda Əyyubun əzablarının anlamalıyıq. Əyyubun salehliyinə görə əzab çəkməsinə icazə verildi.

O malik olduğu hər bir şeyi: var-dövlətini, dolanmaq üçün vasitələrini, övladlarını və evini itirir. O xəstələnir. O, arvadının gözündə hörmətdən düşür. O məcbur olur ki, şəhərdən kənarda zibillikdə, camaatdan təcrid edilmiş halda yaşasın. O tamamilə tənhadır. Amma Əyyub Allaha etibar etməkdə və Ondan asılı olmaqda davam edir (1:21, 22; 2:3, 10).

Sonra Əyyubun bir neçə dostu gəlib dostlarının başına gələn bədbəxtliyə özləri şahid olurlar. Onlar heyrətə gəlirlər və yeddi gün bir söz demədən onunla zibillikdə otururlar. Mətndə bu deyilməsə də, onların gəlişi Əyyuba çoxlu təsəlli bəxş etmişdi. Ailəsi tərəfindən

atılmış, düşmənləri tərəfindən lağa qoyulmuş Əyyub üçün onların hüzuru böyük ehtiyacı olduğu şəfqəti gətirmişdi.

Kədərli burasıdır ki, onlar bunu ağızlarını açmaqla xarab etməli oldular.

Pastorluq səviyyəsində biz burada diqqət yetirsək, dəyərli dərslər öyrənərik. İnsanlar əzab çəkəndə çox vaxt məsləhət sözlərinə, hətta dostlarından və əzizlərindən olsa belə ən az ehtiyacları olur. Onlara bizim hüzurumuz lazımdır. Əzab çəkən insan üçün əzab çəkərkən onun mənasını tapmaq az əhəmiyyətlidir, onun əzabına şahid olan insan üçün bu əhəmiyyətli ola bilər. Dostumuzun və ya əzizimizin əzab və ehtiyac içində olduğunu görərkən biz çox vaxt hiss edirik ki, ruhlandırma sözü demək yaxud vəziyyət üçün mümkün həll tapmaq məcburiyyətindəyik. Çox vaxt xoş məramlı sözlər əzab çəkənin keçirdiyi ağrını və kədəri gücləndirir.

Əyyubun vəziyyətində belə idi. 2-ci fəsildən sonra kitab Əyyub və onun yaxşılıq etmək istəyən, amma məsləhətləri tamamilə səhv olan dostları arasında gərgin söhbəti geniş surətdə qeyd edir. Onlar Əyyubun nəyə görə əzab çəkdiyini başa düşmürdülər, amma hər biri hiss etmişdilər ki, bu vəziyyəti şərh etməlidirlər.

Birinci dostun adı **Elifaz** idi. O, filosof və bacarıqlı bir insan idi. O diqqətli və mehriban insan olmaqla öz fikirlərini həyat təcrübəsinə əsaslandırmışdı. O inanırdı ki, Allah salehdir və şəri cəzalandırır. Əgər sən günah etsən, əzab çəkəcəksən. 4:8-də o deyir: *"Mənim gördüyümə görə şər sahəsini belləyən, əzab toxumu səpən insanlar əkdiyini biçər."* 5:17-də o, Əyyuba belə deyir: *"Allahın tərbiyə etdiyi insan nə bəxtiyardır! Sən Küllü-İxtiyarın tərbiyəsinə xor baxma."*

Başqa sözlə, mehriban və həlim tərzdə Elifaz Əyyuba deyir: "Allah səni tərbiyələndirir. Sən yəqin ki, günah etmisən və O sənə kömək etmək istəyir."

Belə izahat təkcə yaxşı səslənmir, həm də Kəlama uyğundur, elə deyilmi? Amma bu səhvdir.

Əyyubun ikinci dostunun adı **Bildadır.** O, ənənəni sevən tarixçidir. Onun mübahisəsi 8:8-də əla surətdə yekunlaşır: *"Gəl indi əvvəlki nəsillərdən soruş, ata-babaların sınağından keçənlərə yaxşı nəzər sal."*

Nəzakətli Elifazdan fərqli olaraq Bildad mübahisə etməyi xoşlayır və inadcıl insandır. O inanır ki, Allah qanunları dəyişilə bilməyən ciddi hakimdir. O Əyyuba deyir: "Sən yəqin ki, günah edirsən". "Günah əzaba aparıb çıxarır. Ona görə də əgər sən əzab çəkirsənsə, deməli günah işlədirsən."

Bu çox məntiqi faktdır. Bu da həddən artıq Kəlama uyğun səslənir, elə deyilmi? Amma Allah deyir ki, o səhvdir.

Üçüncü dostu kobud kişidir, adı **Sofardır.** Onun Əyyubun günahsızlıq fəryadlarını dinləməyə vaxtı yoxdur. O deyir: "Sən günah işlədirsən." "Allah ciddidir və mərhəmətsizdir, şər adama sərf etməyə vaxtı yoxdur. Şər insanın həyatı qısa və kədərlidir. Özünə bax. Sən əzab çəkirsən. Sənin həyatın bədbəxtdir. Ona görə də sən günah işlətmisən. Buna şübhə yoxdur."

Sofarın həyata baxışı çox sadədir. Belə görünür ki, onun Allah barədə çox səmimi, düzgün baxışı var. Amma Allah deyir ki, Sofar səhvdir.

Dördüncü kişi də var, bu kişi bütün söhbətlərdə iştirak edir, bir söz demədən qulaq asır. Mətndə o, Əyyubun "dostu" adlanmır və bu yəqin ki, o birilərdən çox cavan olduğuna görədir. Onun adı **Elihudur.** O, teoloqdur və ziyalıdır. O, məntiq, elm və təfəkkürün səsidir. O olduqca zəkalıdır. O bilir ki, üç nəfərin baxışları sadədir, amma o da belə sözlər deyir. Elihunun həqiqətən deməyə yeni sözü yoxdur. O əsasən başqaların dediklərini təkrarlayır, amma "bər-bəzəkli" dildə danışır.

Dörd nəfər bir yekun qərara gəldilər ki, Əyyub günaha görə əzab çəkir. Onlar Əyyubu ruhlandırırlar ki, imanını itirməsin və onlar inanırlar ki, Əyyub dərsini öyrənəndən və tövbə edəndən sonra taleyi bərpa olacaq. Onların teologiyasına əsasən Allah həmişə istəyir ki, şər insan məhv olsun, yaxşı insan isə çiçəklənsin.

Amma bu sözlər Əyyub üçün boş görünür. Siz təsəvvür edirsinizmi ki, onların sözləri necə də Əyyub üçün dəhşətli səslənirdi? Siz onun bu sözləri deyib ağladığını eşidə bilərsiniz: "Siz deyirsiniz ki, mənim uşaqlarım şər insanlar olduqları üçün ölüblər? Siz demək istəyirsiniz ki, mən şər insanam və ona görə də bu şeylərin başıma gəlib? Bu necə ola bilər? Mən həyatım boyu

Allaha sadiq olmağa çalışmışam. Mən nə pis iş görmüşəm ki, belə taleyə layiq olduğumu mənə söyləyirsiniz?"

Əyyub kamil olduğunu iddia etmir, amma bilir ki, buna çalışıb. Əgər Allah bu kişilərin dediyi kimi Allahdırsa, onda belə Allah çətin ki sevən Allah olar. Əksinə insanları güdən və hər dəfə nəsə səhv edərkən vurmağa hazır olan Allahdır.

Bir çox insanlar Allaha bu gözlə baxırlar, elə deyilmi? Doğrudur? Sizcə bu düzgün teologiyadır?

Əyyub kitabını oxuyarkən verilən əsas sual aydındır ki, bu sualdır: "Əyyub nəyə görə əzab çəkir?" Amma kitabı oxuyarkən yadda saxlamalıyıq ki, bizə Əyyubun malik olmadığı baxış verilib. Əyyubun bizim kimi göylərin pərdələrinin yarığından baxmağa imkanı yox idi. Biz Əyyubun nəyə görə əzab çəkdiyini bilirik. O isə bilmirdi. Onun dostları da bilmirdi. Həmin vaxt yalnız Allah, mələklər və şeytan bilirdi. Yalnız Ona məlum olan səbəblərə görə Allah Əyyuba demir.

Allahın bizə icazə verdiyi baxışla Əyyubun həyatına baxanda, göylərin sarayında olan pərdələrin yarığından boylananda və Allahın şeytanla söhbətini eşidəndə biz öyrənirik ki, əzabda çox vaxt sirr, cavab verilməmiş suallar və əbədiyyətin bu tərəfində heç vaxt başa düşməyəcəyimiz şeylər var. Bizim heç vaxt bilməyəcəyimiz şeylər baş verir. Əyyub bilmirdi ki, Allah onun sadiqliyini sübut etmək üçün şeytana icazə verib ki, ona toxunsun. Bizim bildiyimizə görə Allah Əyyubun ömrü boyu ona heç vaxt bunu açıqlamadı.

Əzabda bu çox vaxt sirr olaraq qalır. Burada sual budur ki, insan imanda qalacaqmı? (Luka 18:8). Bizim "niyə" suallarımıza cavab verməyən Allaha etibar edəcəyikmi? Bizlərdən çoxunun oxşar vəziyyətlərdə olarkən soruşduğu kimi Əyyub da çox istəyirdi ki, nəyə görə belə ciddi surətdə əzab çəkdiyinin səbəbini bilsin. Amma Allah cavab verəndə O, 38-41-ci fəsillərdə Əyyubun nəyə görə əzab çəkdiyinin səbəblərini demir, Özü barədə vəhyləri açıqlayır. Əslində O özünün kim olduğunu açıqlamaqla, Əyyuba xatırladır ki, ədalətsiz əzabın qarşısında imanlı üçün əsas axtarış "niyə" sualına izahat yox, "kim" sualına cavabdır. Əyyuba Allahın gücü, hikməti və yaradılış üzərində idarəçiliyi xatırlanır. Əslində Allahın Əyyuba cavabı budur: "Mən belə Allaham. Mən nə baş verdiyini bilirəm,

amma sən bilmirsən. Sənin həyatın mənim qayğım və nəzarətim altındadır. Mənə etibar edəcəksən?" Bu cavab Əyyub üçün kifayət qədər yaxşı bir cavab olmalı idi.

Əyyub kitabı həm də bizə əzabın heç də həmişə günahın nəticəsi olmadığını başa düşməyə kömək edir. Hətta bunun Allahın bizi təmizləmək və öyrətmək üçün bir üsul olduğunu "Əzab bir tərbiyələnmə kimi" bölməsində görürük. Əyyubun dostları özlərini bu cavab üçün məhdudlaşdırmışdılar və bu səbəbə görə də Allah onları ittiham etdi (Əyyub 38:2; 42:8). Bundan əlavə Allahın əzabdan tərbiyələndirmə kimi istifadə etməsi barədə diqqətli tədqiq bu fikri təsdiqləyir: əgər insan səmimi tərzdə Allahın onun nə üçün tövbə etməli olduğunu aşkar edə bilmirsə, onda həmin vaxt bunun Allahın məqsədi olduğu yəqin deyil. Sözsüz ki, Allah günahı göstərmədən cəzalandırmır. Günah göstərilmədən cəza etirafdan və tövbədən sonra cəza kimi qisas almaq ola bilər.


Əzab çəkənlərə mənim məsləhətim budur ki, Allahın qarşısına gedəsiniz, səmimi tərzdə Onun üzünü axtarasınız və Onun Ruhundan xahiş edəsiniz ki, ürəyinizi və həyatınızı tədqiq etsin. Əgər Allah sizə hansısa bir günahı göstərmirsə və ya səmimi tövbə və etiraf vəziyyəti həll etmirsə, onda mənim fikrimcə belə demək düzgün olar ki, bu vəziyyətdə başqa amillər iş görür. Belə halda Onu sevməkdə və Ona etibar etməkdə davam etmək gərəkdir, bu hərəkət şeytanın ittihamlarının yalan olduğunu aşkar edəcək.

Əyyubun dostları məntiqi səhvə yol vermişdilər-əgər əzab çəkmə Allah tərəfindən bəzən Öz övladını tövbə olunmamış günaha görə cəzalandırmaq üçün istifadə edilibsə, onda belə qərara gəliblər ki, bütün əzab çəkmələr Allahın cəzasıdır. Bu, Əyyubun kitabında həddən artıq dar düşüncə kimi aşkara çıxır və Allahın xasiyyətini şübhə altına salır. Bunu Allah rədd edə bilməz. Kitabın sonunda gözlənilmədən və istehzalı bir tərzdə Əyyubun dostlarından tövbə etmək tələb olundu, halbuki eyni tərzdə onlar Əyyubdan tövbə etməyi tələb etmişdilər. Bu da qəribə deyilmi ki, tövbəyə ehtiyacı olan bu kişilər öz günahlarına görə əzab çəkmirdilər, amma Allah haqqında düzgün danışan Əyyub isə onlar qarşısında əzab çəkən bir vəziyyətdə oturmuşdu? Allahın qeyri-iradi olaraq "səbəb və

nəticə" prinsipi ilə hərəkət etdiyinə səhvən inanmaqdan bu fakt bizi saxlamalıdır.


Elifazın, Bildadın, Sofarın və Elihunun təlimlərinə oxşar olan çoxlu müasir təlimlər olan bir dövrdə biz yadda saxlamalıyıq ki, *Əyyubun əzabı birbaşa Allaha sadiqliyinin nəticəsi idi*. Bu fikir sadiqliyin həmişə maddi xeyir-dua, fiziki sağlamlıq və şəxsi sülh ilə nəticələndiyini söyləyən məşhur çiçəklənmə və İman sözü təlimlərinin iddialarına qarşı durur. Bu həddən artıq sadə dünyagörüşüdür və həmin vaxtda nəyə görə əzab çəkdiyini bilməyən və imanına görə əzab çəkən saleh insanın aydın hekayəsinə əhəmiyyət vermir.

Əzab çəkmə və Allahın planı barədə Kəlama nəzərən baxışı axtararkən mən çox vaxt həyatlarımızı *mozaika* ilə eyniləşdirməyi faydalı görürəm. Ayrı-ayrı hissələrdən ibarət olan hissələr təklikdə heç bir əhəmiyyət daşımır, amma birlikdə onlar gözəl mənzərəni yaradırlar.



Bizim məhdudluğumuzda və günahlılığımızda qarşılaşdığımız problem budur ki, biz hal hazırda hissələrin, həyatlarımızda olan ayrıca hadisələrin və vəziyyətlərin necə uyğunlaşdığını görə bilmirik. Biz böyük mənzərəni görmək üçün hər şeyi bilmirik və həyatlarımız hələ bitməyib. Həyatlarımızın hər bir anında edə biləcəyimiz ən yaxşı şey hissələrə bir-bir baxmaqdır və yalnız bir

hissəyə baxmaqla bütün mənzərənin necə görünəcəyini dəqiq təsvir etmək mümkün deyil.



Bizim həyatlarımızda da belədir. Əgər biz hər ayrıca hissədə və ya həyatlarımızın hər bir vəziyyətində məna tapmağa çalışsaq, mütləq səhv nəticələr çıxarmış olacağıq. Bir hissəyə ayrıca baxmaqla həyat məna verə bilməz.

Bizə təsəlli verən fikir budur ki, biz "böyük mənzərəni" görə bilməyəndə Allahın onu gördüyünü bilirik. Əyyub kimi biz də yadımıza sala bilərik ki, Allahın xəbərdar olmadığı heç bir şey həyatımıza gələ bilməz. O bilir ki, həyatımızın hər bir hissəsi nəyə görə oradadır və onsuz həyatımız necə natamamdır. Əyyub kimi bizim çağırışımız Ona etibar etməkdir, hətta hal hazırda başa düşməsək də, bilməliyik ki, həyatımıza gələn hər bir şey əvvəlcə Allahın gözəl əllərindən keçir.

Məzmurlar

Məzmurlar kimi kitabların təlimlərini aşkara çıxarmağa və çatdırmağa çalışarkən problem məlumatın azlığında deyil. Əksinə çoxluğundadır. Məzmurlar müxtəlif üslubları və mövzuları olan bədii ədəbiyyatın böyük bölməsidir. Bizim təqib barədə Kəlama nəzərən teologiyamızın inkişafında hansı Məzmurun yardım edəcəyini müəyyən etmək çətindir, çünki Əhdi-Cədidin müəllifləri Əhdi-Ətiqin başqa kitablarından daha çox Məzmurlardan sitat gətirirlər.

Erkən məbədin Müqəddəs Kitabının demək olar ki, Əhdi-Ətiqdən ibarət olduğunu yadda saxlamaq vacibdir. Əhdi-Cədidin yazıları

tədricən meydan çıxmağa başladı, amma Əhdi-Cədidi yazanlar müqəddəs Kəlama əsaslanmalı idilər, ona görə də onlar Əhdi-Ətiqdən sitat gətirmişdilər. Bundan əlavə Əhdi-Cədidi yazanlar yəhudilər idilər və ibrani müqəddəs yazıları uşaqlıqdan onlarda kök salmışdı. Onlar izzət və mərsiyə dualarını kimi Məzmurları əzbərdən bilirdilər və həyatlarına tətbiq edirdilər. Ona görə də təəccüblü deyil ki, onlar təqibin alovlarından keçəndə əvvəllər dəfələrlə dua etdikləri ümumi və fərdi mərsiyələr olan məzmurları yadlarına gətirməklə imanın alovunu yanar saxlaya bildilər.

Bu səbəbdən də birinci əsrin yəhudiləri İsanın və öz əzablarına şəhadətlik etdilər, yəhudi xalqının min illik tarixindən və həssas faciəsindən istifadə etdilər. Onlar gördülər ki, mətnlər yeni həyata başlayır, yenə də Məzmurlarda ifadə edildiyi kimi salehlər şər insanların əlindən əzab, ölüm və ədalətsizliklə qarşılaşır. Onlar keçmiş dövrdə əzab çəkən müqəddəslər ilə indiki əzablarının davam etdiyini gördülər. Əhdi-Cədidi yazanların Məzmurlardan sitatlar gətirməsi sadəcə teologiyanı dəstəkləmək və ya ayələrdən ikinci dərəcəli sitatlar kimi istifadə etmək deyil. Məzmurlar ilkin mənbələr kimi işlənir, Əhdi-Cədidin sözlərini təsdiq və səlahiyyətlə çatdırır. İsanın iztirabları barədə yazılarda Məzmurlardan müxtəlif sitatlar daxil etməklə müəlliflər Məsihin əzabını baş verdiyi yerdən yüksəyə qaldırmış və onu əzab çəkən qulluqçunun daha geniş ölçüləri ilə eyniləşdirmişdir.

Tədqiqimizə diqqəti cəmləmək üçün biz ilk öncə təqiblə əlaqədar Əhdi-Cədiddə xatırlanan məzmurlara baxacağıq. Həm də erkən məbədin təqib və şagirdliyin müzakirəsində məzmurlardan necə istifadə etdiyinə nəzər salacağıq. Biz lənət məzmurlarını qısa müzakirə ilə yekunlaşdıracağıq.

Təqiblə əlaqədar Əhdi-Cədiddə istifadə olunan məzmurlar

Əhdi-Cədiddə Məzmurların yorucu tədqiqinə başlamamış Əhdi-Cədidin müəlliflərinin istifadə etdiyi şərh prinsiplərini qısaca müzakirə etmək vacibdir. Çox vaxt yazıçılar əbədiyyən göylərdə qurulmuş və Kəlamın bütün hissələrində olan ümumi gerçəklikləri

yenidən təsdiqləmək üçün Məzmurlardan sitatlar gətirirdilər. C. H. Dodd təsdiqləyir ki, Əhdi-Cədidin müəllifləri məzmurlardan və Əhdi-Ətiqin başqa kitablarından sitat gətirəndə istəyirdilər ki, bu ayələrin ilkin qarşıya çıxdığı bütöv məzmun üçün onlardan göstəricilər kimi istifadə etsinlər. Oxucu sadəcə tək ayəyə sanki teologiyanı dəstəkləyən bir fakt kimi baxmalı deyildi, o, sitat gətirilmiş ümumi məzmuna baxmalı idi.

Əhdi-Cədidin müəllifləri həm də birinci əsrin mühitinə uyğun olan mətndən ikinci dərəcəli gizli mənaları çıxarmaq üçün Məzmurlardan istifadə edirdilər. Kəlamın mətnlərinin ikinci dərəcəli mənalarının olduğunu anlayan müəlliflər özlərini həmişə mətnin əsas mənasının əsl məzmununda məhdudlaşdırmırdılar. Əhdi-Cədidin müəllifləri həm də hərdənbir öz yazılarında Məzmurlarda olan oxşar sözlərdən və anlayışlardan istifadə edirdilər, əsl mətni tamlığı ilə təqdim etməyə və ya onu yeni məzmuna tətbiq etməyə çalışmırdılar.

22-ci Məzmur

Aydındır ki, 22-ci Məzmur əsas Əhdi-Ətiq hissələrindən biridir, erkən məbəd Allahın təyin etdiyi planın aşkar edilməsi və Müjdənin faktları üçün ona şəhadətlik kimi baxırdı. Matta, Mark, Yəhya, Paul və İbranilərə məktubun müəllifi bu məzmura istinad edirlər. 1 və 18-ci ayələrdən xüsusi tərzdə sitat gətirilib və 6, 21 və 22-ci ayələrə istinad edilib.

Çarmıxda asılarkən Atanın Onun xeyrinə iş görməyəcəyini bilən İsa uşaqlıqdan öyrəndiyi duanı xatırlayır, bu iztirablı qışqırıq Allahın başqa bir qulluqçusunun sınaq zamanı ürəyindən çıxmışdı:

> *Ey Allahım, Allahım, niyə məni tərk etdin?*
> *Niyə ah-zarımdan uzaq durursan, mənə imdad etmirsən?*
> *(22:1)*

İsanın 22-ci Məzmurdan istifadə etməsi əhəmiyyətlidir. Biz bilirik ki, yəhudilərin gündə üç dəfə müntəzəm, rəsmiləşmiş ibadəti var idi, onlar Qanun və Peyğəmbərlərin kitablarını və Məzmurların mahnılarını oxuyurdular. Məzmurlar onların himn kitabı idi və ən

sadiq yəhudilər məzmurları əzbərləyərdilər. "Ey Allahım, Allahım" 22-ci Məzmurun başlanğıcıdır və çarmıxın aşağısında dayanan yəhudilər bunu bilirdilər. Onlardan bəziləri 22-ci Məzmurun məğlubiyyət və ya faciə ilə başladığını, amma qələbə ilə bitdiyini bilirdilər. Şübhəsiz ki, bəziləri belə demişdilər: "İnsan necə şən sonluğu olan ayədən sitat gətirə bilər, axı həyatı əlindən gedir – Məzmurda deyilən ümid haradadır?" Matta Müjdəsində qeyd edildiyi kimi bəziləri "Eli, Eli" arami sözlərini səhv başa düşmüş və İsanın Onu xilas etməsi üçün İlyası çağırdığını düşünmüşdülər.

İsa ilə qalan davamçıları bu hadisənin axırının necə yaxşı sonluqla bitəcəyini bilmək istəyirdilər. Matta Müjdəsində yazıldığı kimi aydındır ki, bəziləri ətraflarına baxarkən 22-ci Məzmurun ortasında verilmiş peyğəmbərliklərin həyata keçdiyini görürdülər: *"Məni parçalamaq üçün ağızlarını açırlar... Ayaqlarımı, əllərimi deşdilər... Onlar baxırlar, gözlərini mənə zilləyirlər! Aralarında paltarlarımı bölüşdürürlər, Geyimim üçün püşk atırlar.*" İsanın sözlərini eşidərək və ətraflarında baş verən hadisələrə baxaraq, çarmıxın yanında durmuş sadiq yəhudilərin fikirlərindən yəqin ki, bu məzmur keçirdi, bu zaman İsanın davamçılarının əksəriyyəti qaçıb gizlənmişdilər. Yəhya İsa çarmıxda ikən əsgərlərin Onun geyimi üçün püşk atdıqlarını yazarkən Məzmur 22:18-də yazılan acınacaqlı vəziyyət ilə oxşarlığı görür:

"Aralarında paltarlarımı bölüşdürürlər,
Geyimim üçün püşk atırlar."

Məzmurda qeyd edildiyi kimi şər insan laqeydlik və qəddarlıq ilə salehi soyur. Günahsız zərərçəkən çılpaq vəziyyətdə köməksiz qalır.

Yeşaya 53:3 ilə birlikdə Məzmur 22:6: *"Lakin mən torpaq qurduyam, insan deyiləm, adamların tənə hədəfiyəm, xalq mənə xor baxır*" Mark tərəfindən sitat gətirilir. Mark 9:12-də bu fakta *"Bəs Bəşər Oğlu barəsində nə üçün yazılıb ki, O, çox əzab çəkib alçaldılmalıdır?*" əsaslanır. 22-ci Məzmur bütövlükdə bunu dəstəkləmək üçün əsas mənbədir.

Allen qeyd edir ki, Məzmur 22:21-ə Paul 2 Timotey 4:17-də istinad edir, burada o, Neronun qarşısında ilk dəfə özünü müdafiə etməsindən danışır, o bundan sonra azadlığa buraxılmışdı.

Məni aslanın ağzından xilas et!
Çöl öküzləri məni buynuzlayarkən mənə cavab ver.

Nero qarşısında ilk qanuni dinlənməsindən əvvəl və həmin müddətdə Paul 22-ci Məzmurun mərsiyə bölməsindən dua edir və yaxşı cavabı əldə etdikdən sonra o "xahişini minnətdarlığa çevirir, yəni Allahın müdaxilə etdiyini bildirir". İndi o, ikinci məhkəmə qarşısındadır, birinci məhkəmədəki nəticəni əldə edəcəyini düşünmür, amma Allahın bacarığına əmindir ki, onu hər bir şər hücumdan azad edə bilər və Allahın əbədi padşahlığına salamat gətirib çıxara bilər (2 Timotey 4:18).

22-ci ayənin sözləri: "İsmini qardaşlarıma elan edəcəyəm, camaat arasında Sənə həmd söyləyəcəyəm" İbranilər 2:12-də sitat gətirilib. İsanın çəkdiyi əzablara görə Onun başına izzət tacı qoyulub ki, bu da bütün bəşəriyyətə paylanmalıdır. Məzmur 22:22-də bu haqda danışılır. Məzmurda göründüyü kimi Məsihin çəkdiyi əzablar izzət ilə nəticələndi, bu da Onun qardaşları adlandırmaqdan utanmadığı insanların hamısına paylanacaq (İbr. 2:11).

31-ci Məzmur

Ruhumu Sənin əlinə verirəm,
Ya Rəbb, sadiq Allah, Sən məni azad et. (3:15)

Luka bunları İsa çarmıxda ölərkən Onun son sözləri kimi yazır (Luka 23:46). İsanın son sözləri dəhşətli təqibdə, hətta ölüm anınadək Allahın davam edən sadiqliyinin etirafıdır. Dalqliş kəskin surətdə yazır:

> Bu məzmur şikayət barədə fərdi məzmurdur, yazıçının öz düşmənlərinin nifrəti ilə necə vuruşduğunu, amma kədərinin çoxlu dəyişkən hallarında Allahın sülhünü necə hiss etdiyini

göstərir. Bu, Yeşaya 53:7-də, xüsusilə ifadə edilmiş əzab çəkən qulluqçunu təsvir edir.

31:13b-nin sözləri "hamı əleyhimə əlbir olub, canımı almaq üçün qəsd qurub" Matta 26:3, 4-də Mattanın "Sanhedrinin sui-qəsdi barədə yazdığı fikirlərinin formalaşmasına" kömək edib. Saleh insan (Məsih ilə nümunə göstərilib) şər insanın gizli niyyətlərindən müdafiə olunmayıb. Amma buna baxmayaraq o, Allaha etibar etməkdə davam edir (31:14).

Məzmur 34

34-cü Məzmurun 19-cu ayəsində *"salehlər çox bəlaya düçar olar"* desə də əsasən izzət məzmurudur, bu, Allahdan qorxan insanların pislik etmək istəyən insanların əlindən qurtuluşu üçün şükürlərdir.

Aşağıdakı ayələr Əhdi-Cədiddə tapılıb:

- Məzmur 34:8 – 1 Peter 2:3
- Məzmur 34:10 – Luka 1:53; 6:24, 25
- Məzmur 34:12-16 – 1 Peter 3:10-12
- Məzmur 34:20 – Yəhya 19:36
- Məzmur 34:22

Yəhyanın Məzmur 34:20-dən istifadə etməsi xüsusilə maraqlıdır. Dalqliş şərh edir:

> Sümüklər bədən üçün skelet gövdəni təmin edir. İbranilərin düşüncə tərzinə görə onlar sağlamlığın göstəricisi hesab edilirdi və insan üçün sinonim idi. Əhdi-Ətiqin sərt dünyasında bu qəribə mənzərə deyildi, saleh insanın sümüklərinin dəfələrlə sınmasından (Mikeya 3:2) danışılırdı, amma ölümün özü xatırlanmırdı. Məsələn təsdiq etdiyi ziddiyyətli fikir budur: Həyatda salehin xasiyyətini oğurlaya bilən və ya onun düzlüyünü parçalaya bilən faniliklər yoxdur, amma o öz mübarizəsində sümükləri sına bilər.

Müjdəçi İsanın ölümündən sonra bədəninin əsgərlər tərəfindən yoxlanılmasını təsvir edir və onu yazıya belə daxil edir: Bunlar ona görə oldu ki, Müqəddəs Yazıdakı "Onun bir sümüyü də qırılmayacaq" sözü yerinə yetsin (Yəhya 19:36).

Sitat Pasxadan ibadət çalarları ilə böyük səhnəni bəzəyir; bu sözsüz şəkildə İsanı Allahın Quzusu kimi göstərir. Amma o Onu ləyaqəti və düzlüyü ləkələnməmiş şəhid kimi təsvir edir. Diqqətli oxucu bu yerdə dayanır və Allahın Quzusunun rəmzi və Şəhidin bütövlüyü üzərində düşünür.

1 Peter, xüsusilə Məsihi tanıdıqlarına görə əzab çəkənlərə yazıldığı üçün 34-cü Məzmurun 1 Peterdə istifadəsi həm də aydınlıq gətirir. Bu hissələrdə də insanın öz düzgünlüyünü saxlamaq çağırışı sıxıntının içindədir. Əhdi-Cədidin müəllifləri aydındır ki, 34-cü Məzmurda qurtuluş vədlərini bütün pisliklərdən qurtuluşun vədləri kimi görmürdü, pozulmayan vədləri kimi görürdü.

35-ci Məzmur

Qoyma haqsız düşmənlərim mənə görə sevinsin,
Mənə nahaqdan nifrət edənlər bir-birinə göz vursun.
(Məzmur 35:19)

35-ci Məzmurdan Yəhya 15:25-də İsanın Öz şagirdlərinə çatdırdığı fikrin bir hissəsi kimi sitat gətirilib, burada İsa Özünün və Atasının dünyada hiss etdiyi nifrətdən danışır. Məzmur deyənə heç bir səbəb olmadan nifrət edildiyi kimi Ataya və Oğula da elə nifrət edildi. Oğul bu nifrətə layiq heç bir iş görməmişdi. Bundan əvvəlki ayədə İsa Öz şagirdlərinə xəbərdarlıq edir ki, *"əgər Məni təqib etdilərsə, sizi də təqib edəcəklər"* (Yəhya 15:20). Bu məzmur bir təlim kimi aydın görünürdü, yəni ədalətsiz nifrət saleh insan üçün yeni həyat təcrübəsi deyildi və bu günə qədər bu belə qalacaqdı.

41-ci Məzmur

Hətta etibarlı saydığım ən yaxın dostum,
Çörəyimi yeyən mənə xəyanət etdi. (Məzmur 41:9)

Əgər düşmən tərəfindən əzab çəkmək dəhşətlidirsə, yaxın dost tərəfindən ələ verilmək daha dəhşətlidir. Yəhudanın xəyanəti Yəhya 13:18-də bu növ dəhşətli satqınlıq kimi görünür.

42, 43-cü Məzmurlar

Dodd qeyd edir: "Bu əkiz məzmurlar bizim əvvəl tədqiq etdiyimiz məzmurlar kimi əzab məzmurları deyil, amma onlarda Allahın hüzuruna buraxılmayan insanın şikayətləri var, amma həmin insan ümid edir ki, yenə bu imkana malik olacaq." Üç dəfə bu sözlər eşidilir: "Mənim qəlbim, niyə qırılmısan?" (42:5, 11; 43:5). Septuaqint "*qırılmaq*" sözünü *"**(perilupo-ei)**"* kimi tərcümə edib, bu Mark 14:34-də aydın şəkildə öz əksini tapır. Habelə Yəhya 12:27 Məzmur 42:6-nın Sertuaqint tərcüməsini əks etdirir. Müjdənin yazıçıları aydın hiss etmişdilər ki, bu Məzmurlarda ifadə edilən emosiyalar İsanın iztirabları baxımından dəqiq surətdə əks olunub.

44-cü Məzmur

Biz gün boyu Sənin uğrunda öldürülürük,
Qurbanlıq qoyunlar sayılırıq. (Məzmur 44:22)

Paul Roma. 8:36-da Allahın qasidlərinin əzabından danışanda 44-cü Məzmur yadına düşür. İmanlı insanın düşmənçiliyin alovları içərisində möhkəm dayanması üçün Allah ona güc versə də (8:35, 37, 38), həvari Allahın yolu ilə gedən insanların ağrı və əzabla qarşılaşacağını da bilir. Onlar bundan azad deyillər.

Əzabdan güclü qışqırıqlar məsihçinin dodaqlarından israillilərin dodaqlarından çıxdığı kimi çıxır. Paul pastorluq

əhval-ruhiyyəsində çaşqınlıq barədə əzablardan daha geniş danışır. Bu, "Məsihin məhəbbəti" və "Məsih İsa da olan Allah məhəbbəti" ilə zərif şəkildə örtüldüyünü qeyd edən pastorluq qeydinə uyğunlaşır (35, 39-cu ayələr).

69-cu Məzmur

69-cu Məzmur erkən məbədin Müjdənin faktlarını və ya Allahın təyin etdiyi planı aşkar etmək üçün şəhadətlik kimi gördüyü Əhdi-Ətiqin əsas hissələrindən biridir. 69-cu Məzmur Matta 27:34-də (Məzmur 69:21), Mark 15:36; (Məzmur 69:21a), Yəhya 15:25 (Məzmur 69:4) və 19:28 (Məzmur 69:21b), Həv. iş. 1:20 (Məzmur 69:25) və Roma. 15:3 (Məzmur 69:9b) sitat gətirilib və ya xatırlanıb. Beş müəllifin, hətta sitat gətirmək üçün müxtəlif ayələrdən seçmələrinə baxmayaraq, bu məzmura istinad etmələri sadəcə təsadüf deyil.

Məzmur deyən çətin vəziyyətdə Allaha müraciət edir. O, Allaha görə çəkdiyi əzablarını və düşmənlərinin pis məqsədlərini təsvir edir, onların məğlubiyyəti və özünün qurtuluşu üçün dua edir və xilasa əminliyinə görə Allaha minnətdarlıq duası ilə tamamlayır. Şerlərin çoxuna baxarkən biz güman edirik ki, yazıçı öz fərdi həyatından danışır, amma hərdənbir aydın görünür ki, o daha böyük birliyi təmsil edir və sonda bəyan olunan Sionun xilasıdır. Əhdi-Cədidi yazanların niyyəti aydın şəkildə Məsihin əzablarından və tam qələbəsindən danışmaqdır.

91-ci Məzmur

Allah sənə görə mələklərinə əmr edər ki,
Gedəcəyin hər yerdə səni qorusunlar,
Səni əlləri üstündə aparsınlar,
Ayağın bir daşa dəyməsin. (Məzmur 91:11, 12)

İsanın ikinci dəfə sınağa çəkilməsində biz görürük ki, İsa məcbur edilir ki, Özünü Yerusəlimdəki məbədin qülləsindən aşağı tullasın və bununla Allah Oğlu olduğunu sübut etsin (Matta 4:6; Luka 4:10, 11). Bu məzmurdan sitat gətirməklə şeytan bildirir ki, Allah İsanı edəcəyi bir hərəkətdə qorumağı vəd edib.

Dalqliş göstərdiyi kimi bu sınağın təbiəti əxlaqidir: İsa Allahın məqsədlərinə nail olmaq üçün Onun ikimənalılıq, itaətkarlıq, anlaşılmazlıq, zəiflik vasitələrindən istifadə edəcəkdi, yoxsa bu alicənab sonluğu tamamlamaq üçün güc və ictimai şöhrət kimi Onun layiq olmayan vasitələrindən istifadə edəcəkdi? İsa Qan. Tək. 6:16-dan cavab verməklə şeytanın sınağını rədd edir, bu ayədə Rəbbi sınağa çəkməmək əmri verilib. İsanın sınağa çəkilməsində məqsəd Onu Allahın məqsədlərini həyata keçirmək üçün dünyəvi vasitələrdən istifadə etməyə vadar etmək idi.

Allahın qasidləri hələ də bu qayda ilə sınağa çəkilirlər. Amma İsanın təkzibi bildirir ki, 91-ci Məzmurun vədləri hər vəziyyətdə tətbiq olunmur; onlar vəziyyətin tam məzmununda və Kəlamın daha böyük istinadında şərh olunmalıdır. Əslində ayələrin məzmununu daha yaxından öyrənmək göstərir ki, məzmur deyən heç vaxt nəzərdə tutmayıb ki, məzmurlar sınağa çəkənin onlardan istifadə etdiyi tərzdə başa düşülsün. Bu, əslində Allahın kölgəsində yaşadıqca və Ona itaətdə, eləcə də məhəbbətdə gəzdikcə salehi azad etmək üçün olan vədidir (1, 14-cü ayələr). Saleh insan pusqu quran insanlar tərəfindən tamamilə məhv olmayacağına əminliklə Allahı çağıranda Onun köməyinə etibar edə bilər (15-ci ayə). Allahın övladı çətinliklərin içərisində Allahın köməyinə əmin ola bilər, amma o, müstəqil və ya Allahın yollarına və qaydalarına əks hərəkət edərsə, o, Allahın müdafiəsinə etibar edə bilməz. Bunu da qeyd etmək aydınlıq gətirir ki, İsa Məzmurlardan əminliyi elan edəndə bu Onun çarmıxda olan vaxtı idi (Məzmur 31:5; Luka 23:46).

116-cı Məzmur

"Mən çox əzab çəkirəm" deyərkən
imanımı itirməmişdim. (Məzmur 116:10)

116-cı Məzmurdan sitat gətirən Paul 2 Kor. 4:13-də Müjdə uğrunda çəkdiyi əzablardan danışır. Dalqliş qeyd edir:

> 116-cı Məzmur əsrlər boyunca əzab çəkməyin və imanın davam etdiyini...təsvir edir. Çətinliklərinin içərisində məzmur deyənin söylədiyi kimi həvari Paul da Müjdə uğrunda şəxsi əzabına yaxından nəzər salır, amma məzmur deyən kimi iman ilə öz taleyi üzərində qələbə çalmışdır.

Həvari zəifləsə də (16-cı ayə), ruhdan düşməkdən imtina edir, o, məzmur deyən kimi sıxıntının içərisində etibar etməkdə davam edir. İman pis vəziyyətlər yaranmazdan qabaq etibar etmək deyil; iman belə vəziyyətlərin içərisində etibar etməkdir.

118-ci Məzmur

Rəbb mənimlədir, heç qorxmaram.
İnsan mənə nə edə bilər? (Məzmur 118:6)

Müəllif İbr. 13:6-da Allahın Öz xalqını təqib zamanı heç vaxt tərk etməyəcəyinə və ya atmayacağına əminliyi ifadə edərkən Məzmur 118:6-dan sitat gətirir. Bu hissə oxuculara çatdırır ki, Allah insanın köməkçisidir və o, müstəqil heç bir şey edə bilməz. Allah salehin tərəfindədir və ya daha hərfi mənada "mənimlədir" tərcümə edilib. Məzmur deyən bu fikrə əmin idi ki, Allah onunladır, insan ona nə edə bilər?

İbranilərə məktubun məzmunu bizə bunu başa düşməyə kömək edir ki, "Allah bizim tərəfimizdədir" anlayışı bizə insanların əlindən heç bir pislik gəlməyəcəyinə zəmanət vermir. Tərəddüd edən imanlarını möhkəmləndirmək üçün yazıçı aşağıdakı ayədə (13:7) imanlılardan xahiş edir ki, müntəzəm olaraq (yenidən və yenidən baxmaq) "həyat tərzlərinin nəticəsinə" baxsınlar və onlara əmr edir ki, rəhbərlərinin imanını təqlid etsinlər. Təqibi uğurla qarşılayan və ona qalib gələnlərin şəhadətlikləri və nümunələri tərəddüd edənləri ruhlandırmalı və onlara ümid verməlidir. Müəllif

bunu aşağıdakı ayədə *"İsa Məsih dünən, bu gün və əbədi olaraq eynidir"* sözlərini xatırlatmaqla vurğulayır (13:8).

118-ci Məzmurun iyirmi ikinci və iyirmi üçüncü ayələri Məzmurların başqa ayələrindən daha çox sitat gətirilib.

Bənnaların rədd etdiyi daş
Guşədaşı olub.
Bu, Rəbbin işi idi,
Gözümüzdə xariqəli bir işdir.

22-ci ayə Luka 20:17-də, Həv. İş. 4:11 və 1 Peter 2:7-də sitat gətirilib, amma 22 və 23-cü ayələr birlikdə Matta 21:42 və Mark 12:10, 11-də sitat gətililib.

Bütöv məzmurun məzmununa baxarkən Məzmur 118: 22, 23-də məzmur deyənin nəyə əsaslandığını dəqiq müəyyən etmək çətindir. Bəziləri belə deyirlər ki, bu həmin dövrün məsəli olub, alçalma kimi görünən nəyinsə necə şərəfə çevrilməsini ifadə edir. Bu məzmunda bu, padşahın döyüşdə məğlubiyyəti qarşısında qələbəsinə aiddir. Dahud şərh edir ki, daş İsrailə aiddir, böyük imperiyalar tərəfindən əhəmiyyətsiz hesab edilsə də, Allahın padşahlığında şərəfli və vacib yeri əldə etmişdir. Sonralar iuadaizm bu ayəni təkcə padşaha deyil, həm də gözlənilən Məsihə aid etdi. Belə görünür ki, erkən məbəd də bu şərhi qəbul edib.

Ümumi Müjdələrdə və Həvarilərin İşlərində 118-ci Məzmurdan istinadlar İsanın güşədaşı kimi rədd olunmasında kimliyini ümumi şəkildə göstərir. Peter də ilk məktubunda İsaya belə müraciət edir (2:6-8), amma o daha başqa şeylər də izah edir. O qeyd edir ki, Məbəd bu rədd olunmuş guşədaşı üzərində tikilmiş evdir (2:4). Kitabın qalan hissəsinin məzmunu aydınlaşdırdığı kimi bu səbəbdən onlar da rədd olunublar.

Erkən məbəd Təqib və Şagirdliyi müzakirə edərkən Məzmurlardan necə istifadə etmişdir

Dördüncü əsrdə Afanasius yoldaşı Marsellinusa məktub yazmışdı, Marsellinus xəstəlikdən bərpa olurdu və Məzmurların

tədqiqinə başlamağı qərara gəlmişdi. Afanasius onunla bəzi fikirləri bölüşür, bu fikirləri "savadlı qoca bir insandan" eşitdiyini söyləyir. Bunun ya ədəbi vasitə, ya alçalma uğrunda səlahiyyətdən boyun qaçırma, ya da əsl fakt olduğunu demək qeyri-mümkündür. Bundan əlavə məktubun tarixi göstərilməyib. Tarix barədə yeganə fikir məktubun məsihçi həyatının normal elementi olan təqib dövrünə aid olmasıdır. Bu, b. e. 313-cü ilində şübhəsiz ki, doğrudur. Həm də b. e. 319-cu ilində baş vermiş Ariya büdəti barədə istinad yoxdur. Digər tərəfdən, bu məktubu ola bilsin ki, Afanasius imana görə dörd dəfə sürgündə olarkən, yəni b.e 335-366-ci illərində yazıb.

Bu məktub təqibdə olan insanların həyatlarında Məzmurların istifadəsi barədə böyük pastorluq məsləhəti verir. Başqa şeylərlə yanaşı o yazır:

> Mənim oğlum, Məzmurlar kitabını oxuyan hər kəs onda olanları Allahın ruhundan ilhamlanmış yazılar kimi qəbul etsin; bağdan meyvə dərən insan kimi qoy hər bir kəs onlardan, özünün ehtiyacı olduğu şeylərdən yığsın. Çünki mən düşünürəm ki, bu kitabın sözlərində bütün insanların həyatları, onların vəziyyətləri və düşüncələri gizlənib, insanda bunlardan başqa heç bir şey yoxdur. Nə axtarırsan axtar, istər tövbə və etiraf olsun, istər çətinlikdə və sınaqda və ya təqib zamanı kömək olsun, istər sui-qəsdlərdən və tələlərdən azadlıq əldə etmək olsun, əksinə, istər hər hansısa səbəbə görə kədərlisənsə, istər özünü inkişaf edən, düşmənini isə yıxılan görürsənsə, Rəbbə izzət gətirmək və Ona minnətdarlıq bildirmək istəyirsənsə, bütün bu şeylərin hər birində İlahi Məzmurlar sənə kömək edəcək, hər bir vəziyyətdə demək istədiyin sözlər orada yazılıb və sən onları öz sözlərin kimi deyə bilərsən.

Afanasius bütün məktubu boyunca Məzmurları təqdim edir ki, insan təqib zamanı dua edə bilsin. Məzmur deyən duaları təqdim edən biri kimi görünür, bu duaları zəif vaxtlarda Allahı şərəfləndirir.

Bu sözlər ilə onlar Allahı razı salmışdılar və həvari dediyi kimi onları söyləməklə padşahlıqları istila etmişdilər, salehik qazanmışdılar, vədləri əldə etmişdilər, şirlərin ağzını bağlamışdılar, alovu söndürmüşdülər, qılıncdan qurtulmuşdular, zəiflikdən güclənmişdilər, müharibədə qüvvətlənmişdilər, yadellilərin döyüş ordularını dəf etmişdilər, qadınlar ölülərini diri halda əldə etmişdilər.

Ona görə də hər Məzmuru oxuyan kəs tam əmin olsun ki, Allah onlar vasitəsilə ehtiyacı olanları dinləyəcək. Əgər insan çətinlikdədirsə, Məzmurları oxuyanda onlarda təsəlli tapacaq; əgər o sınağa çəkilib və ya təqib olunursa, sınağa dözə biləcək və həmişə bu sözləri söyləyənləri qoruyan Rəbbin müdafiəsini görəcək.

BİZİM MÜQƏDDƏS ATAMIZ, ALEKSANDRİYANIN YEPİSKOPU AFANASİUSUN MARSELİNUSA

Məzmurların şərhi barədə məktubu

Əziz Marselinus,

Sənin Məsihdə möhkəmliyin məni valeh edir. Təkcə hal hazırkı əzabla müşayiət olunan çətinliyində yaxşı dözmürsən, sən, hətta qanun altında yaşayırsan, sənin məktubunu daşıyanlar mənə deyirlər ki, indi xəstəliyinlə əlaqədar boş vaxtını Müqəddəs Yazıları, xüsusilə də Məzmurları tədqiq etməklə keçirirsən. Sən onların hər birində daxili gücü və mənanı başa düşməyə çalışırsan. Əla! Mən özüm Məzmurlara, eləcə də bütün Müqəddəs Kəlama həsr olunmuşam; və bir dəfə savadlı yaşlı bir insan ilə danışdım, o, Məzmurların tədqiqi üzrə çox zəhmət çəkmiş və bu barədə mənə böyük inamla və heyranlıqla danışmışdı. O, fikrini aydın şəkildə izah edirdi və danışarkən əlində bu barədə bir nüsxəni tutmuşdu. İndi onun mənə dediklərini sənə yazıram.

Oğlum, Kəlamın bütün kitabları, həm Əhdi-Ətiq, həm də Əhdi-Cədid yazıldığı kimi *Allah tərəfindən ilham almış və təlim üçün faydalıdır* (2 Timotey 3:16); onu həqiqətən tədqiq edənlərə Məzmur xüsusi xəzinə bəxş edir. Əlbəttə, Müqəddəs Kitabın hər kitabının çatdırmaq istədiyi öz fikri var: ilk beş kitab, məsələn, dünyanın başlanğıcından, əcdadların etdiyi işlərdən, İsrailin Misirdən çıxışından, Qanunun verilməsindən və çadır, eləcə də kahinlik barədə əmrlərdən danışır. Yeşua, Hakimlər və Rut kitabları mirasın bölünməsini, hakimlərin işlərini və Davudun əcdadlarını təsvir edir; Padşahlar və Salnamələr kitabları padşahların işlərindən, Ezra kitabı sürgündən qurtuluşdan, insanların qayıtmasından, məbədin və şəhərin tikilməsindən yazır; Peyğəmbərlər kitabı Xilaskarın gəlişindən danışır, bizim beynimizə əmrləri qoyur, qanunsuzluq edənləri məzəmmət edir və bütpərəstlər üçün xüsusi sözü qeyd edir. Gördüyün kimi bu kitabların hərəsi bir növ meyvə bəhrə gətirən bağa bənzəyir; əksinə Məzmurlar isə öz xüsusi meyvəsindən əlavə başqa meyvələrdən də bəzilərini bəhrə gətirir.

Məsələn, bizim Yaradılış kitabında oxuduğumuz yaranma haqqında 19-cu Məzmurda da danışılır, *Göylər Allahın əzəmətini bəyan edir, göy qübbəsi əlinin işini bəyan edir*. Yenidən 24-cü Məzmurda "Rəbbindir yer üzü və orada mövcud olanlar, dünya və orada yaşayanlar. O, yerin təməlini dənizlər üstündə qurdu, dünyanı sular üzərində yaratdı." Çıxış, Saylar və Qanunun Təkrarı kitabında qeyd edilmiş Misirdən çıxış 78, 106 və 114-cü Məzmurlarda gözəl surətdə oxunur. *İsraillilər Misirdən çıxanda, Yaqub nəsli başqa dildə danışan xalqdan ayrılanda Yəhuda Rəbbin müqəddəs məskəni oldu, İsrail Rəbbin səltənəti oldu*. 105-ci Məzmur bəyan edir, *Qulu Musanı, Həm də seçdiyi Harunu göndərdi. Xalqın arasında Rəbbin əlamətlərini, Ham ölkəsində Onun möcüzələrini göstərdilər. Rəbb qaranlıq göndərərək ölkəni zülmət etdi, Çünki Onun sözlərinə itaət etmədilər. Sularını qana çevirdi, Balıqlarını öldürdü. Ölkəyə qurbağalar qaynaşıb gəldilər, Padşahın otaqlarına belə, girdilər. Əmr etdi, topa-topa mozalan gəldi,*

Mığmığalar bütün ərazilərini bürüdü və beləcə bu Məzmur və növbəti Məzmur boyunca eyni şeylər nəzərdən keçirilir. Çadır və

kahinlik məsələlərinə gəldikdə isə 29-cu Məzmurda sitat gətirilir, bu məzmur Əhd sandığı daşınanda oxunmuşdu, (bu Məzmurun Septuaqintdə başlığı belədir: *Əhd sandığı daşınarkən Davudun Məzmuru*). *Ey Allah övladları, Rəbbə gətirin qoçlarınızı, izzəti və şərəfi Rəbbə gətirin*.

Yeşuanın, Nunun oğullarının və Hakimlərin etdikləri işlər də qeyd olunub, bu dəfə 105-ci Məzmurda, *Onlar üçün yaşamağa şəhərlər tikdilər, sahələr əkdilər və üzümlüklər saldılar,* çünki Yeşuanın rəhbərliyi altında vəd olunmuş torpaq onların əllərinə verildi. Biz həmin Məzmurda təkrarən oxuyuruq, *Onlar əzab içərisində olanda Rəbbə fəryad qopardılar və O onları əzablarından azad etdi,* burada hakimlər dövrünə aid edilir, onlar Allaha yalvaranda zülmkarlardan onları qurtarmaq üçün O, hakimlər yetirirdi. Bu yolla, 20-ci Məzmurda padşahlar haqda oxuyuruq, *Bəziləri döyüş arabaları, bəziləri atları ilə öyünür, bizsə Allahımız Rəbbin adı ilə öyünürük. Onlar büdrəyəcəklər, yıxılacaqlar, bizsə qalxıb dik duracağıq*. Sonuncu Məzmurlardan (119-133) olan 126-cı Məzmurda Ezranın dediklərindən danışılır, *Rəbb Siona bəxtəvər günlərini qaytaranda bizə röya kimi gəldi*. Eynilə Məzmur 122-də deyilir, *Mənə «Rəbbin evinə gedək» deyilərkən sevindim. Ey Yerusəlim, sənin darvazalarından keçdim. Torpağına qədəm qoydum. Bu, Yerusəlim şəhəridir, çox sıx tikilmişdir. İsrail üçün verilən şəhadət naminə qəbilələr, Rəbbin qəbilələri Rəbbin isminə şükür etmək üçün buranı ziyarət etməyə gəlirlər*.

Sən görürsən ki, tarixi kitablarda xatırlanan bütün mövzular həm də bir və ya digər Məzmurda xatırlanır; amma biz Peyğəmbərlərin dediklərinə gəldikdə görürük ki, bunlar demək olar ki, hamısında qarşıya çıxır. Xilaskarın gəlişi və Onun Allah olmasına baxmayaraq, necə bizlər arasında yaşamalı olduğunu 50-ci Məzmur bizə danışır, *Allahımız gəlir, sakit dayanmaz*; və 118-ci Məzmurda biz oxuyuruq, *Rəbbin ismi ilə gələnə alqış olsun! Sizə Rəbbin evindən xeyir-dua veririk. Rəbb Allahdır, O, üzərimizə nur saçdı*. Onunla gələn Atanın Sözüdür, 107-ci Məzmurda belə oxuyuruq, *Kəlamını göndərib onlara şəfa verdi və bütün sıxıntılarından onları azad etdi*. Gələn Allah həmin Atanın göndərdiyi Sözdür, Söz Atanın Səsidir, Allah Öz Oğlunu yaxşı

tanıyır, Məzmur deyən 45-ci Məzmurda yenidən oxuyur, *Qəlbim yaxşı sözlərlə çağlayır*; 110-cu Məzmurda, *Ana bətnindən, sübh tezdən Səni səsləyirəm*. Əslində insan Onun Sözünü və Hikmətini qorumaq üçün Allahın Öz Oğlundan başqa kimi çağıra bilər? İnsan yaxşı bilir ki, Allah Öz Sözü vasitəsilə demişdi, *Qoy işıq olsun, Qoy göy qübbəsi olsun. Qoy hər şey olsun,* (Yar. 1:3) yenidən 33-cü Məzmurda deyir, *Göylər Rəbbin sözü ilə, səma cisimləri Onun hökmü ilə yarandı*.

O, Məsihin gəlişindən xəbərdar olmadığından 45-ci Məzmurda birinci dəfə bu haqda qeyd edir, *Allahım, Sənin taxtın əbədidir, ədalət əsan Sənin padşahlığının əsasıdır. Ona görə də salehliyi sevib qanunsuzluğa nifrət edirsən: ona görə də Allah, sənin Allahın bütün yoldaşlarının arasından səni sevinc yağı ilə məsh edib*. Bundan başqa, heç kim düşünməməlidir ki, bu gəliş yalnız zahiri olacaq, 87-ci Məzmur göstərir ki, gəlməli olan Şəxs həm insan, həm də hər şeyin Yaradanı kimi gəlməlidir. *Ana Sion deməlidir, İnsan, insan doğulub onda: və O Özü, ən ucalarda Olan onu tapıb,* deyilir; *Kəlam Allah idi, hər şey Onun vasitəsilə yarandı və Kəlam bəşər oldu* (Yəhya 1:1, 2, 14). Məzmur deyən də Onun bakirə qızdan doğulacağı barədə səssiz durmur, o, 45-ci Məzmurda bunu birbaşa vurğulayır, biz bu yerdən sitat gətirmişdik. *Dinlə, ey qız, diqqət elə, sözümə qulaq as, öz xalqını, ata evini unut. Sənin gözəlliyin padşahı məftun etsin*. Bu Cəbrayılın dediyi sözlər kimi deyil, *Salam, ey lütfə nail olmuş qız, Rəbb sənindədir?* (Luka 1:28). Məzmur deyən Onu məsh olunmuş, yəni Məsih adlandırıb, dərhal Onun insan kimi doğulmasını bəyan edir, *Dinlə, ey qız,* görürsən, burada yeganə fərq budur ki, Cəbrayıl Məryəmə bədii təsvir vasitəsilə müraciət edir, çünki o, başqa nəsildən idi, amma Davud Məryəmi öz qızı adlandırır, çünki Məryəm Davuddan törəyəcəkdi.

Bu göstərir ki, Məsih insan formasında gələcək, Məzmur deyən bildirir ki, Məsih bədənlə əzab çəkəcək. Bu, yəhudilərin Ona qarşı qəsdlərini peyğəmbərik edir, 2-ci Məzmurda oxuyuruq, *Nə üçün millətlər belə vurnuxmaya düşür, ümmətlər boş şeylər düşünür? Dünya şahları yığışır, hökmdarlar Rəbbə və Onun məsh etdiyinə qarşı birləşir*. 22-ci Məzmurda Xilaskarın şəxsiyyəti barədə danışılaraq, Onun ölümü təsvir olunur. *Sən məni torpağa salıb*

ölüm verdin. Şər insanlar dəstəsi məni dövrəyə aldı, it sürüsü kimi yan-yörəmi bürüdülər, Ayaqlarımı, əllərimi deşdilər. Sümüklərimi saya bilirəm, onlar baxırlar, gözlərini mənə zilləyirlər, aralarında paltarlarımı bölüşdürürlər, geyimim üçün püşk atırlar – bu sözlər çarmıxdan başqa nə məna verə bilər ki? 88-ci və 69-cu Məzmur yenə də Rəbbin şəxsiyyətindən danışır, Onun bu əzabları Özünə görə deyil, bizə görə keçirdiyini söyləyir. Məzmur deyən yazır, *Sənin qəzəbin üstümə gəldi,* başqa birisi əlavə edir, *Mən heç vaxt götürmədiyim şeyləri verdim*. O, ölümə layiq bir insan kimi ölmədi: O bizim üçün əzab çəkdi və qanunsuzluqlarımızın cəzası olan qəzəbi üzərinə götürdü, hətta Yeşaya belə deyir, *O bizim zəifliklərimizi daşıdı* (Matta 8:17). 138-ci Məzmurda biz deyirik, Rəbb mənə görə qisas alacaq; və 72-ci Məzmurda Ruh deyir, *O kasıbların övladlarını xilas edəcək və şər insanı alçaldacaq, çünki güclü Olanın əli kasıb insanı azad edib, köməksiz insanı qurtarıb*. (Afanasius axırıncı bu iki sitatı, burada deyilməsə də Dirilməyə aid edir.)

Təkcə bununla bitmir. Məzmur deyən Xilaskarın bədənlə göylərə qalxmasını əvvəlcədən peyğəmbərlik edir, 24-cü Məzmurda deyir, *Ey darvazalar, başlarınızı qaldırın, ey qədim qapılar, açılın, əzəmətli Padşah içəri daxil olsun!* Yenidən 47-ci Məzmurda deyilir, *Allah nida ilə ucaldı, Rəbb şeypur səsi ilə yüksəldi*. Bölmənin özü də 110-cu Məzmurda bəyan edir, *Rəbb mənim Ağama dedi: "Mən düşmənlərini ayaqlarının altına kətil kimi salanadək sağımda otur*. 9-cu Məzmur şeytanın məhvini bəyan edir, *Taxtında oturub ədalətlə hökm etdin, Sən millətləri məzəmmət, pisləri yox etdin*. O, Atadan bütün ittihamları almalı idi, bunu da Məzmur bizdən gizli saxlamır, amma 72-ci Məzmurda hakim kimi gəlişini əvvəlcədən göstərir. *Ey Allah, padşaha ədalət ver, şah oğluna salehlik ver. Qoy Sənin xalqına salehliklə, məzlumlara ədalətlə hakimlik etsin*. 50-ci Məzmurda da biz oxuyuruq, *O yuxarıdakı göyü və yeri şahid çağırır, göylər ədalətini bəyan edir, çünki hakim Allahın Özüdür*. 82-ci Məzmur da buna oxşar olaraq deyir, *Allah Öz toplantısında durub, hökmünü verərək allahlar arasında deyir*. Bütpərəstlərin çağırışı həmin bu kitabın bir çox hissələrindən öyrənilə bilər, xüsusilə də 47-ci Məzmurun bu sözlərindən, *Ey bütün xalqlar əl çalın, cuşa*

gəlib Allaha nida edin; və yenə də 72-ci Məzmurda *Efiopiyalılar Onun qarşısında diz çökəcək, düşmənləri isə yerə vurulacaq. Tarşiş və adaların padşahları ona xərac gətirəcək, Səba və Seva padşahları ona bəxşiş gətirəcək*. Bütün bu şeylər Məzmurda oxunub; və onlar başqa kitablarda da ayrıca göstərilib.

Mənim köhnə dostum bunu vurğulayır ki, Məzmurlarda Xilaskar barədə tapdıqlarımız Kəlamın başqa kitablarında da bildirilib; o bu faktı vurğulayır ki, hamısı üçün bir şərh var və onların Müqəddəs Ruhda bir səsləri var.

Bundan əlavə, əks halda da hansısa dərəcədə doğru olduğunu bildirir; çünki Məzmurlar başqa bütün kitabların xüsusi mövzularını daxil etdiyi kimi eləcə də onlar çox vaxt Məzmurların xüsusi cəhətini özündə əks etdirir. Məsələn, Musa ilahi yazır; Yeşaya da eyni işi görür və Habaqquq ilahi formasında dua edir. Biz hər bir kitabda peyğəmbərliyə, qanunvericiliyə və tarixə bənzər kitab görürük; hər birində olan eyni Ruh, təbiətcə Yeganə və Bütöv olmaqla hər kəsə bütöv şəkildə verilib: amma O, bəşəriyyətə Özünü zühur etməkdə fərqlidir və bunları öyrənən və Onu qəbul edən hər kəs lazım olan anda Sözü çatdırır. Beləliklə də (əvvəl dediyim kimi) bəzən peyğəmbər və məzmurçu olan Musa və Peyğəmbərlər hərdənbir qanunlar verirlər (*Özünüzü yuyun, təmizləyin. Yerusəlim, ürəyini şərdən təmizlə*) (Yeşaya 1:16; Yeremya 4:14). Həm də onlar Daniel Şuşanna hekayəsini danışanda (Daniel 12) və ya Yeşaya Sanxerivin hekayəsini (36-37) nəql edəndə tarixi yazırdılar. Buna oxşar olaraq, sizə göstərdiyim kimi ilahilərdən ibarət olan Məzmurlar başqa kitablarda ətraflı verilən ilahilərdə ümumiləşirlər. Həm də bəzən qanunlar verirlər, məsələn, *qəzəbdən çəkin və narazılıqdan əl çək, ürəyini şərdən uzaqlaşdır və yaxşılıq et. Sülhü axtar və onu izlə.* Eləcə də İsrailin səyahətinin tarixindən bizə danışır və Xilaskarın gəlişindən peyğəmbərlik edir.

Sən görürsən, bir Ruhun lütfü hər bir yazıçıda və Kəlamın bütün kitablarında var, ifadə olunma yalnız lazım gələrsə və Ruh istəyərsə, onda fərqlənir. Ona görə də aydındır ki, yeganə vacib olan şey hər bir yazıçının şəxsən əldə etdiyi lütfü möhkəm saxlaması və öz fərdi tapşırığını gözəl surətdə həyata

keçirməsidir. Başqa kitabların içərisində Məzmurların çox xüsusi lütfü var, keyfiyyətin seçimi üzərində düşünməyə dəyər; çünki başqa kitablarla eyni olan xüsusiyyətlərindən əlavə özünün xüsusi möcüzəsi var ki, bu da Məzmurların daxilində təqdim olunur və insan qəlbinin böyük müxtəliflikdə olan hərəkətlərində təsvir olunur. Bu mənzərə kimidir, burada sən özünü görürsən, anlaya bilirsən və nəticədə orada verilmiş nümunəyə əsasən özünü formalaşdırırsan. Müqəddəs Kitabın başqa yerində siz Qanunun bunu və ya onu əmr etdiyini oxuyursan, Xilaskarın gəlişi barədə öyrənmək üçün Peyğəmbərlərə qulaq asırsan, yaxud padşahların və müqəddəs insanların işləri barədə öyrənmək üçün tarixi kitablara baxırsan; amma Məzmurlarda bu şeylərdən əlavə sən özün barədə öyrənirsən. Sən qəlbinin bütün hərəkətlərini, onun bütün dəyişikliklərini, ruhdan düşən və ruhlanan vaxtlarını, uğursuzluqlarını və bərpasını orada görürsən. Bundan başqa, sənin hər nə cür xüsusi ehtiyacın və ya çətinliyin varsa, bu kitabdan ona uyğunlaşan sözləri seçə bilərsən. Bu sözləri sadəcə eşidib üstündən keçmirsən, öz xəstəliyinə şəfa vermək üçün yolu axtarıb tapırsan.

Şər əməllərə görə qadağanlar Kəlamda olduqca çoxdur, yalnız Məzmurlar sənə bu əmrlərə necə əməl etməyi və günahdan çəkinməyi öyrədir. Məsələn, tövbə dəfələrlə əmr olunur; amma tövbə etmək günah etməyi dayandırmaqdır və Məzmurlar sənə tövbəyə necə başlamağı və hansı sözlər ilə tövbənin ifadə olunduğunu göstərir. Yenə də **müqəddəs Paul deyir, *əziyyətdən dözüm, dözümdən Allaha xoşa gəlmə, Allaha xoşa gəlmədən ümid yaranır, ümidimiz də boşa çıxmır* (Roma. 5:3, 5); amma biz əziyyətlərə necə dözmək, əzab çəkənin həm əzab anında, həm də sonra nə deməli olduğu barədə Məzmurlardan oxuyuruq: insanın sınağının bütün prosesi Məzmurlarda izah olunub və bizə dəqiq göstərilib ki, hansı sözlərlə Allaha ümidimizi ifadə edək.** Yaxud əmrləri qəbul et, hər vəziyyətdə şükür et (1 Salonik. 5:18). Məzmurlar təkcə bizə demir ki, minnətdar olaq, həm də minnətdarlıq üçün uyğun sözlərlə təmin edir. **Bizə başqa yazıçılar tərəfindən deyilib ki, Məsihdə mömin həyat yaşamaq istəyən təqibdən əziyyət çəkəcək; (2 Timotey**

3:12) yenə də Məzmurlar bizi elə sözlərlə təmin edirlər ki, onları təqibdən qaçan və təqibdən əziyyət çəkənlər Allaha münasib tərzdə müraciət etmək üçün istifadə edə bilərlər. Bu sözlərdən həm də təqibdən canını qurtarmış insanlar istifadə edə bilərlər. Bizə Müqəddəs Kəlamın başqa yerində buyurulub ki, Rəbbə xeyir-dua verək və Onu tanıyaq: burada Məzmurlarda bizə bunu necə etmək və nə cür sözlərlə Onun möhtəşəmliyini ifadə etmək barədə göstərilib. Əslində həyatın bütün vəziyyətlərində biz görürük ki, bu ilahi mahnılar bizə uyğunlaşır və hər dəfə qəlbimizin ehtiyaclarını ödəyir.

Burada Məzmurlar barədə başqa bir qəribə şey var. Kəlamın başqa kitablarında biz müqəddəs insanların sözlərinin yalnız onları deyənlərə məxsus olduğunu oxuyuruq və ya eşidirik, sözlərin sanki bizim olduğunu oxumuruq; və eləcə də orada nəql edilən işlər möcüzə üçün materialdır və izlənməli olan nümunələrdir, amma bunları özümüzün etdiyi işlər kimi başa düşməməliyik. Amma kimsə burada Xilaskarın gəlişi barədə peyğəmbərlikləri bu qaydada hörmət və ehtiramla oxusa da başqa Məzmurlarda sanki bu oxuyan insanın öz sözləridir; və eşidən hər bir kəsin ürəyi sevinclə dolur, sanki insanın ən dərin düşüncələrini ifadə edir. Bunu aydınlaşdırmaq üçün müqəddəs Paul kimi nəyisə özümüzün təkrarlamasından qorxmayaraq, gəlin bəzi nümunələr götürək. Əcdadlar bir çox şeylər danışmışdılar, onların hamısı özlərinə uyğun idi; Musa da danışmışdı və Allah cavab vermişdi; İlyas və Elişa Karmel dağında oturub Rəbbi çağırmış və demişdilər, *Önündə durduğum var olan Ordular Rəbbi* (İlyas üçün 1 Pad. 18:15, 19 və Elişa üçün 2 Pad. 2:25 və 3:14). Başqa peyğəmbərlər, xüsusilə Xilaskar barədə danışarkən bəzi vaxtlar özlərinə İsrail və ya bütpərəstlər kimi müraciət ediblər. Amma heç biri əcdadların sözlərini öz sözləri kimi deməyiblər və ya Musanın sözlərini yaxud İbrahimin İshaq, İsmayıl və evdə doğulmuş qul barədə sözlərini təqlid etməyə cürət etməyiblər. Nə də daha yaxşı şey arzusu ilə əzab çəkən insan Musanın dediyi kimi deməməlidir, *Özünü mənə göstər* (Çıxış 33:13) və ya *indi yalvarıram, onların günahlarını bağışla. Əgər belə etməsən, adımı yazdığın kitabdan sil* (Çıxış 32:32). Heç kim peyğəmbərlərin

şükran və ya günahlandırma sözlərini sanki öz sözləri kimi istifadə etməməlidir ya da belə deməməlidir, *Rəbb yaşayır, Onun gözləri qarşısında bu gün dayanmışam*. Həmin kitabları oxuyanlar aydın şəkildə öz sözlərini deyil, müqəddəs insanların sözlərini oxuyurlar; amma Məzmurlarda heyranedici şey budur ki, Xilaskar və bəzi bütpərəstlər barədə peyğəmbərliklər istisna olmaqla, oxucu bütün sözləri sanki öz sözləri kimi dilinə gətirir və hər kəs Məzmurları sanki öz xüsusi faydası üçün yazılmış kimi oxuyur və onları sanki başqasına deyilirmiş kimi və ya başqasının hissləri təsvir olunmuş kimi deyil, özü üçün olan sözlər kimi götürür və əzbərdən söyləyir, sözləri öz ürəyinin ifadəsindən Allaha təqdim edir, sanki bu sözləri o özü yazıb. Bu sözlərə əcdadların, Musanın və ya başqa peyğəmbərlərin sözləri kimi hörmət etmir: xeyr, o onları öz sözləri kimi götürməkdə cəsarətlidir və məhz onun üçün yazıldığını bilir. İstər o, Qanuna əməl etsin, istərsə də pozsun, onun etdiklərini Məzmurlar təsvir edir; hər kəs özünü onlarda tapır, istər sadiq insan, istərsə də günahkar olsun, hər biri orada özü barədə təsvirlər tapır.

Bundan əlavə mənə elə gəlir ki, güzgü kimi insana özünü göstərən Məzmurlarda o öz qəlbini görür. Bu məzmurları dinləyən insanlar da həmin hissləri özlərində görürlər. Bəzən 51-ci Məzmurun vicdanı oyadan sözləri kimi tövbə bu cür yaranır; başqa vaxt Allahın Ona ümid və etibar edənlərə necə kömək etdiyini eşitməklə dinləyici də sevinir və minnətdarlıqlar edir, sanki böyük yardım sanki artıq onunkudur. Başqa bir misalı götürək, 3-cü Məzmurda insan öz fikrində əziyyətlərini saxlayaraq mahnı oxuyur; 11 və 12-ci Məzmurlardan o öz imanını və duasını ifadə etmək üçün istifadə edir; və 54-cü, 56-cı, 57-ci və 142-ci Məzmurlarda mahnı oxuyur, o, sanki başqa birisi təqib olunurmuş kimi deyil, öz həyat təcrübəsindən Allaha izzət gətirir. Digər Məzmur da beləcə Ruhdan verilib və bəstələnib: güzgüdə olduğu kimi bizim qəlbimizin hərəkətləri onlarda əks olunub və sözləri əslində bizim öz sözlərimizdir, həm vəziyyətimizin dəyişikliklərini bizə xatırladır, həm də həyatlarımızın düzəlişləri üçün nümunə və model kimi xidmət edir.

Bu bizim Xilaskarımızın növbəti xeyirxahlığıdır, bizim uğrumuzda insan olmaqla hamını ölümdən xilas etmək üçün O təkcə Öz bədənini bizə görə ölümə təqdim etmədi, həm də bizə Öz səmavi və kamil həyat tərzini göstərmək istədi, bunu Özündə ifadə etdi. Şeytanın bizi necə asanlıqla aldada bildiyini bilən Allah ağlımıza sülh və xeyrimizə qalib gəldiyi qələbəsinin girovunu verdi. Amma O burada dayanmadı: O irəliyə gedib bizə əmr etdiyi şeyləri Özü həyata keçirdi. Ona görə də hər bir insan Onun dediklərini eşidir, eyni vaxtda Onun davranışında özü üçün nümunəni görür, çünki O Özü belə deməklə bizə buyurmuşdur, *Məndən öyrənin, çünki Mən həlim və qəlbən itaətkaram* (Matta 11:29). Rəbbin öz həyatından başqa heç bir yerdə daha kamil həqiqət təlimi yoxdur. Səbir, insanlara sevgi, yaxşılıq, cəsarət, mərhəmət, salehlik hamısı Onda var; və Məsihin bu insan həyatını dərindən düşünən insan üçün bu yaxşı xüsusiyyətlər daim onda olacaq. Müqəddəs Paul demişdi, *Mən Məsihdən nümunə götürdüyüm kimi siz də məndən nümunə götürün* (1 Kor. 11:1). Yunan qanunşünasları çoxlu qanunlar çıxarmışdılar; amma bütün işlərini dərindən düşünən Rəbb, hamının həqiqi Rəbbi təkcə qaydalar qoymamışdı, eləcə də həmin qaydaları necə həyata keçirməyi Özü bir nümunə kimi göstərmişdi ki, bütün Onu tanıyanlar təqlid edə bilsinlər. Ona görə də O bizim aramıza gəlməzdən əvvəl, bizim üçün bu kamil həyatın eskizini sözlər vasitəsilə çəkmişdi, bu sözlər Məzmurlardır; O Özünü kamil, səmavi İnsan olmaq üçün bədəndə zühur etdiyi kimi Məzmurlarda da yaxşı niyyətli insanlar həyat nümunəsini görə bilərlər, özləri üçün şəfa və bərpa tapa bilərlər.

Əgər bu faktı sübut etmək lazımdırsa, ilahi Kəlam bütövlüklə həqiqətin və həqiqi imanın müəllimidir, amma Məzmurlar ruhani həyatın mənzərəsini göstərir. Dünyəvi padşaha yaxınlaşan insan geyim, davranış və sözlərin düzgün formaları ilə əlaqədar rəsmiliyi müşahidə edir, bu şeylərdə səhv etsə, o tərbiyəsiz adam hesab ediləcək, beləcə də yaxşı həyatı yaşamaq və Xilaskarın bədəndə davranışı barədə öyrənmək istəyən insan müqəddəs kitabı oxumaqla öz qəlbinin vəziyyətini fikrinə gətirir və sonra uyğun sözlər ilə onu təchiz edir. Bu, əslində Məzmurlar kitabının

xüsusiyyətidir, çoxlu müxtəlif növlərdən ibarətdir. 73, 78, 114 və 115-ci Məzmurlar hekayə formasındadır; bəziləri öyüdverici formadadır, məsələn, 32, 97 və 103; bəziləri peyğəmbərlik formasındadır, məsələn, 22, 45, 47 və 110; bəziləri, bütövlükdə və ya qismən Allaha dualardır, məsələn, 6, 16, 54, 102; bəziləri etiraflardır, xüsusilə 51-ci Məzmur, bəziləri şəri ittiham edir, məsələn, 14; amma digərləri məsələn, 8, 98, 117, 125, bir çoxları minnətdarlıq, şükran və şadlıq məzmurlarıdır, 66-cı Məzmur Rəbbin dirilməsinə xüsusi istinad edir.

Ona görə də bizim üçün Məzmurlarda bütün vəziyyətlər üçün qayda və nümunələr ilə birlikdə təkcə öz qəlbimizin vəziyyətinin əksini tapmaq deyil, eləcə də həyatın hər bir vəziyyətində Rəbbi razı salmaq üçün uyğun sözlər, həm tövbə, həm də minnətdarlıq sözləri vardır ki, biz günaha düşməyək; çünki biz hakim qarşısında təkcə hərəkətlərimizə görə deyil, həm də hər bir boş sözə görə hesabat verəcəyik. Məsələn, kiminsə xeyir-dualı olduğunu bəyan etmək istəyirsənsə, bunu 1, 32, 41, 112, 119 və 128-ci Məzmurlarda necə etməyi görə bilərsiniz. Yəhudilərin Xilaskara qarşı olan qəsdlərini məzəmmət etmək istəyirsənsə, 2-ci Məzmuru oxuya bilərsiniz. **Əgər siz öz ailəniz tərəfindən və bir çoxları tərəfindən təqib olunmusunuzsa, 3-cü Məzmuru deyin; və sən əzablarının sonunda Allaha minnətdarlıq bildirmək istəyirsənsə 4, 75 və 116-cı Məzmurları oxuyun. Əgər sən şər insanın səni tələyə salmaq istədiyini görürsənsə və duanın Allahın qulaqlarına çatmasını istəyirsənsə, onda səhər tezdən yuxudan dur və 5-ci Məzmuru oxu; əgər özünü Onun narazılıq buludunun altında hiss edirsənsə, 6 və 38-ci Məzmuru deyə bilərsən. Axitofelin Davuda qarşı etdiyi kimi əgər sənə qarşı hansısa sui-qəsd varsa və kimsə sənə bu haqda deyirsə, 7-ci Məzmuru oxuyun və səni xilas edəcək Allaha etibar et.**

Bəşəriyyətin qurtuluşu və Xilaskarın universal lütfü barədə düşünərkən 8-ci Məzmuru Rəbbə oxuyun; bu məzmurla və ya 19-cu Məzmurla sən Ona lütfünə görə minnətdarlığını bildir. Düşmən üzərində qələbə və yaradılmış şeyləri qorumaq üçün izzəti özünə götürmə, amma bil ki, bütün şeyləri uğurlu nəticəyə gətirən

Allahın Oğludur, bu vaxt 9-cu Məzmuru deyin; və kimsə səni təşvişə salmaq istəyirsə, 11-ci Məzmuru oxumaqla yenə də Rəbbə etibar et. Əgər bu vəziyyət uzun müddət davam edirsə, sanki Allah sizi unudubmuş kimi ruhdan düşməyin, amma 27-ci Məzmurda Onu çağır. Başqalarının Allahın müdafiəsini günahlandırdığını eşidirsənsə, onların küfrlü hərəkətlərinə qoşulma, 14 və 53-cü Məzmurlardan istifadə edərək Allaha vəsatət duası et. Əgər sən ziddiyyətlə səmavi padşahlığın vətəndaşının nə cür insan olduğunu öyrənmək istəyirsənsə, onda 15-ci Məzmuru oxu.

Düşmənlərinə və səni sıxışdıranlara qarşı dua etməlisənsə, 17, 86, 88 və 140-cı Məzmurlar sənin bütün ehtiyaclarını ödəyəcək; və Musanın necə dua etdiyini bilmək istəyirsənsə, 90-cı Məzmuru oxu. (Septuaqintdə başlığı belədir: Musanın duası, Allahın adamı). **Düşmənlərdən və zülmkarlardan azad olanda 18-ci Məzmuru oxuyun;** yaradılışın intizamına, Allahın yaxşı müdafiəsinə və Qanunun müqəddəs qaydalarına heyran olanda 19 və 24-cü Məzmur sənin duanı ifadə edəcək; 20-ci Məzmur isə sənə təsəlli və çətinlikdə olan başqaları üçün dua sözləri verəcək. Sən Rəbb tərəfindən qidalandırılanda və idarə olunanda və bunu görəndə sevin, 23-cü Məzmur səni gözləyir. **Düşmənlər səni əhatə edibmi? Onda ürəyini Allahın qarşısına gətir və 25-ci Məzmuru oxu və günahkarların məğlub olduğunu həqiqətən görəcək. Əgər onlar belə davam edirlərsə, onların məhvedici niyyəti sönmürsə, onda qoy insanın ittihamı keçib getsin, 26, 35 və 43-cü Məzmurlardan istifadə edərək yeganə Saleh olan Allaha dua et, çünki, qanuna əsasən yalnız O ittiham edəcək. Əgər düşmənlərin səni daha da çox sıxışdırırlarsa və olduqca çoxalırlarsa, hələ məsh olunmamış kimi səni rədd edirlərsə, qorxma, amma 27-ci Məzmuru yenidən oxu.** (yunan dilində yazılıb ki, 27-ci Məzmurun başlığı Davudundur, o hələ məsh olunmamışdı. Məsihçi aləmində buna məsh olunma, yəni təsdiq kimi istinad olunur, bu erkən mədəd dövründə vəftiz ilə eyni ayinin bir hissəsi hesab olunur). **Nə öz insan zəifliyinə, nə də onların hücumlarının intensivliyinə diqqət yetirmə, 28-ci Məzmurdan istifadə edərək, Allaha aramsız fəryad qopar.** Allaha minnətdarlıq üçün Ona düzgün tərzdə yaxınlaşmaq

istəyəndə ruhani anlayış ilə 29-cu Məzmuru oxuyun. Nəhayət, evini, yəni Rəbbi qəbul edən qəlbini və ruhunun fiziki yaşadığı yeri, hisslərinin evini həsr edəndə minnətdarlığını bildir və sonuncu Məzmurlardan (119-133), 127-ci Məzmuru və 30-cu Məzmuru oxuyun.

Dostların və qohum-əqrəbaların Məsihə iman etdiyinə görə sənə nifrət edib təqib edəndə ruhdan düşmə, nə də onlardan qorx, həyatını davam et, 31-ci Məzmuru oxu. İnsanların bu şər dünyadan qurtulub vəftiz olduqlarını görəndə Allahın insanlara olan sevgisinə görə minnətdarlığını bildir və 32-ci Məzmuru oxu. Yaxşı və saleh insanlar olmaqla sizlərdən çoxu birlikdə oxumaq istəyəndə 33-cü Məzmurdan istifadə edin. **Sən düşmənlərin içinə düşüb, amma onların şər planlarından müdrikliklə imtina edərək canını qurtaranda müqəddəslər ilə yığışıb 34-cü Məzmuru oxu. Qanunsuzluq edənlərin şər əməllərində necə qızğın olduqlarını görəndə bəzi yanlış müəllimlərin dediyi kimi şərin onlarda anadangəlmə olduğunu düşünməyin, 36-cı Məzmuru oxuyun və görəcəksiniz ki, onlar özləri günahlarının müəllifləridir. Əgər siz bu şər insanların başqa şər əməllər ilə birlikdə zəifə hücum etdiyini görürsünüzsə və həmin bu şeylərə diqqət verməməyi, paxıllıq etməməyi zəiflərə demək istəyirsinizsə, həm özünüz, həm də başqaları 37-ci Məzmuru oxuyun, çünki şər insanlar tezliklə viran olacaqlar.**

Digər tərəfdən əgər düşmənlərin hücumlarına görə sizin təhlükəsizliyiniz sual altındadırsa və siz onlara qarşı hərəkət etmək istəyirsinizsə, 39-cu Məzmuru oxuyun; və əgər düşmən hücum edirsə, sən əzaba dözürsənsə, dözümün dəyərini öyrənmək istəyirsənsə, 40-cı Məzmuru oxuyun. Sən insanları kasıbçılıqda, çörək üçün dilənən görürsənsə və onların halına acıdığını göstərmək istəyirsənsə, artıq onlara kömək etmiş insanları alqışlaya bilərsən və 41-ci Məzmurdan istifadə etməklə başqalarının da belə işlər görməsinə həvəsləndirə bilərsən. Yenə də əgər siz Allah üçün yanırsınızsa, düşmənlərinizin təhqirlərindən narahat olmayın, amma belə arzunun gətirdiyi ölməz meyvədən agah olaraq, qəlbinizə təsəlli verin və Allaha ümid ilə ağrılarınızı yüngülləşdirin və 42-ci Məzmuru oxuyun. Allahın həm Misirdən

çıxış, həm də səhrada olan vaxtlar atalara göstərdiyi mərhəmətə ətraflı nəzər salmaq və Allahın necə yaxşı və insanlarınsa necə naşükür olmaları barədə düşünmək istəyirsənsə, 44-cü, 78-ci və 89-cu, 105-ci, 106-cı, 107-ci, 114-cü və 115-ci Məzmurları oxuyun. **Sən əzablardan qurtulandan sonra Ona minnətdarlığını bildirmək və sənə olan mərhəmətindən danışmaq istəyəndə 46-cı Məzmur ehtiyacını ödəyəcək.**

Amma indi güman et ki, günah işlətmisən və çaşqınlığa düşmüsən, tövbə edirsən və bağışlanmaq üçün yalvarırsan, belə halda etiraf və tövbə sözləri 51-ci Məzmurda var. Şər əməlli padşah qarşısında sizə böhtan atılanda və böhtançının öz əməlinə görə qürurlandığını görəndə kənara çəkilin və 52-ci Məzmuru oxuyun. Padşah Davuda edildiyi kimi onlar səni təqib edəndə və böhtan atanda (1 Pad. 23:13), narahat olma, 54-cü və 56-cı Məzmurdan istifadə edərək tam arxayınlıqla Allaha izzət oxu. **Əgər təqib səni izləyirsə və sənin həyatını məhv etmək istəyən gizləndiyiniz mağaraya girirsə (1 Pad. 24:3), siz yenə də qorxmamalısınız; hətta belə fövqəladə vəziyyətlərdə sənin üçün 57-ci və 142-ci Məzmurda ruhlanma var. Suiqəsdçi bəlkə əmr verib ki, sənin evinə nəzarət etsinlər, amma sən canını qurtara bilmisən; Allaha minnətdarlığını bildir, sonra qoy qurtuluşun abidəsi kimi 59-cu Məzmur ürəyinizdə yazılsın. Əgər təkcə düşmənlər səni didişdirmirsə, həm də dost fikirləşdiyin adamlar məzəmmət edir, böhtan atır və incidirsə, Allaha kömək üçün yalvara bilərsən, 55-ci Məzmurdan istifadə edə bilərsən. İkiüzlüləri və üzə gülənləri məzəmmət etmək üçün 58-ci Məzmuru oxuyun. Hətta həyatını əlindən almağa hazır olan düşmənlərə qarşı sən sadəcə Rəbbə itaətkarlığınla onlara qarşı dura bilərsən, heç qorxma, qəzəblərində şiddətləndikcə daha da çox Onun yollarına özünü təslim et və bunun üçün sözlərin 62-ci Məzmurda var. Təqib səni səhraya aparıb çıxarıbsa, sanki tək imiş kimi qorxma, çünki Allah sənindir və orada sübh çağı sən Ona 63-cü Məzmuru oxuya bilərsən. Hətta orada da səni düşmənlərdən qorxu və onların arasıkəsilməyən sui-qəsdləri izləsə, səni axtarmaqda nə qədər inadkar olsalar da, yenə də onlara təslim olma; sən 64, 65, 70**

və 71-ci məzmurları oxuyarkən uşağın oyuncaq oxu kifayət edər ki, onları yaralasın.

Allaha izzət ilahisi oxumaq istəyəndə 65-ci Məzmur sənin ehtiyacını ödəyəcək və kiməsə dirilmə barədə öyrətmək istəyəndə 66-cı Məzmuru oxu. Rəbdən mərhəmət istəyəndə 67-ci Məzmurla Ona izzət oxu. Şər insanın çiçəkləndiyini və sülhdə yaşadığını, amma yaxşı insanın əziyyət çəkdiyini görəndə bundan incimə və ya narahat olma, 73-cü Məzmuru oxu. Allah Öz xalqına hirslənəndə, 74-cü Məzmurda təsəllinin müdrik sözləri var. Allah barədə şəhadətlik etmək imkanı olanda 9, 71, 75, 92, 105-dən 108-ədək, 111, 118, 126, 136 və 138-ci Məzmurlar uyğunlaşır; 76-cı Məzmur məntiqlə istifadə ediləndə bütpərəstlər və küfr danışanlar üçün cavabı sizə verə bilər, bu Məzmur onlara göstərə bilər ki, Allahın biliyi onlarda heç yoxdur, yalnız Məbəd buna malikdir. **Düşmən sizin sığınacaq yerinizi ələ keçirəndə, hətta olduqca sıxışdıranda və narahat edəndə ruhdan düşməyin, amma dua edin: duaların eşidiləndə 77-ci Məzmurdan istifadə edərək Allaha minnətdarlıq et. Əgər onlar Allahın evini murdarlayırlarsa və müqəddəsləri öldürürlərsə, onların bədənlərini yırtıcı quşlara tullayırlarsa, belə qəddarlığa görə qorxma və əzilmə, əzab çəkənlər ilə əzab çək, 79-cu Məzmurdan istifadə edərək onlara görə Allaha yalvar.**

Bayramda Rəbbin başqa xidmətçiləri ilə birlikdə mahnı oxumaq istəsəniz, 81 və 95-ci Məzmurlar uyğundur; və düşmən yenə də ətrafına yığışıbsa, Allahın Evini hədələyirsə və Onun müqəddəslərinə qarşı qoşunlar yığırsa, nə onların sayından, nə də güclərindən qorxma, çünki 83-cü Məzmurda sənin ümid lövbərin var. Əgər bundan başqa, Allahın evini, Onun əbədi yaşadığı yeri seyr edirsənsə və həvari kimi onları arzu edirsənsə, onda 84-cü Məzmuru oxu; və nəhayət, onların qəzəbi yatandan və siz yenidən azad olandan sonra 85-ci və 116-cı Məzmurda minnətdarlığını ifadə et. Məbədlə dini təfriqə arasında fərqi görmək və təfriqəçiləri çaşqınlığa salmaq üçün 87-ci Məzmuru deyə bilərsən. Allahın qorxusunda özünüzü və başqalarını ruhlandırmaq və Ona ümid edən qəlbin necə qorxusuz olduğunu göstərmək üçün 91-ci Məzmuru oxuyun.

Rəbbin Günündə minnətdarlıq bildirmək istəyirsən? Onda 24-cü Məzmuru oxu; əgər bazar ertəsidirsə, 95-ci Məzmuru oxu; cümə günüdürsə, şükran sözlərin 93-cü Məzmurda var, çünki Çarmıxa çəkilmə bitəndə Allahın Evi tikildi. Bütün düşmənlər ona mane olmağa çalışırdılar, ona görə də qələbə mahnısını cümə günü oxumaq əlverişlidir, bu Məzmur həmin mahnını ifadə edir. Əgər Allahın Evi zəbt olunubsa və dağıdılıbsa, sonra yenidən tikilibsə 96-cı Məzmuru oxumaq münasibdir; və torpaq müharibədən dincəlirsə və sülh bərpa olursa, 97-ci Məzmurda *Rəbb Padşahdır* ilahisini oxu. Sən çərşənbə günü oxumaq istəyirsən? 94-cü Məzmuru oxu; bu, Rəbb ələ verilmə vasitəsilə iztirablarına daxil olduğu şənbə günündən dörd gün sonra idi, bu iztirabları ilə O bizi azad etdi və izzətli şəkildə qələbə çaldı (Bu Məzmurun Septuaqintdə başlığı belədir, Şənbə günündən dörd gün sonra Davudun Məzmuru). Sən Müjdədə çərşənbə günü yəhudilərin Rəbbə qarşı məsləhətləşmələri barədə oxuyanda, bizə görə şeytanın planlarını alt-üst etdiyini görəndə 94-cü Məzmurun sözlərini oxu. Yenə də Allahın hər bir şey üzərində səlahiyyətini və təminatını görəndə və başqalarına Ona iman etməyi və itaət etməyi öyrədəndə qoy əvvəlcə onlar 100-cü Məzmuru desinlər. Və sən özün ittihamda Onun gücünü hiss edəndə (çünki Onun ədaləti mərhəməti vasitəsilə nizamlanır) növbəti Məzmur (101) sənin ehtiyacını ifadə edəcək.

Əgər bədəninin zəifliyinə və həyatının gərginliyinə görə özünü bəzi vaxtlar ruhdan düşmüş və halsız hiss edirsənsə, təskinliyin üçün 102-ci Məzmuru oxu və Allaha minnətdarlıq duası ilə ürəyini doldurmaq üçün növbəti iki Məzmuru (103, 104) oxu, biz bütün vəziyyətlərdə Allaha izzət gətirməliyik. 105, 107, 113, 117, 135 və 146-dan 150-yədək Məzmurlar təkcə Allahın nəyə görə izzətlənməli olduğunu göstərmir, həm də onu necə etməyi söyləyir. Rəbbin əmr etdiyi kimi imanın var və etdiyin dualara inanırsanmı? Onda onuncu ayədən başlayaraq, 116-cı Məzmuru oxu. Sən hiss edirsənmi ki, həvari kimi sən də arxada qalanları unudub, qarşıda olana çatmaq üçün cəhd edə bilərsən (Filip. 3:14). Sonra irəliyə addımlamaq üçün on beş son Məzmurlar var (119-133).

Ola bilsin ki, başqa vaxt sən başqalarının fikirləri ilə yolundan azdığını görürsən, onda bunu anladığın vaxt günah etməyi dayandır, 137-ci Məzmurun sözlərindən istifadə edərək, onların Babil sularının kənarında etdiyi kimi otur ağla. İnsan sınağa çəkilməklə onun dəyəri sübut olunduğu kimi sağ-salamat sınaqdan çıxdığına görə 139-cu Məzmurla Allaha minnətdarlığını bildir. Əgər düşmən yenə də səndən yapışırsa və sən azad olmaq istəyirsənsə, onda 140-cı Məzmuru oxuyun. Dua və yalvarış üçün 5, 141-dən 143-ədək və 146-cı Məzmurları oxuyun. İnsanlara və sənə qarşı Qoliat çıxıb? Qorxma, amma Davud kimi Allaha etibar et və 144-cü Məzmurda onun sözlərini oxu. Sonra Allahın hər bir kəsə olan xeyirxahlığına və hamıya, eləcə də sənə olan qayğıkeşliyinə heyran olaraq yenə də Davudun sözləri ilə 105-ci Məzmurla Ona izzət ilahisi oxu. Ona ilahi oxumaq istəyirsən? 96 və 98-ci Məzmurları oxu. Əgər sən bir insan kimi qardaşlar arasında hansısa vəzifəyə təyin edilmisənsə, onlardan üstün imiş kimi qürurlanmamalısan, amma əksinə səni seçən Rəbbi izzətləndirməli və xüsusilə, Davudun Məzmuru olan 151-ci Məzmuru oxumalısan. Allaha izzət gətirən Məzmurların çoxunda Haleluya başlığı var, bunlar 105-dən 107-yədək, 111-dən 118-ədək, 135, 136, 146, 147, 148, 149 və 150-ci Məzmurlardır.

Əgər yenə də xüsusilə Xilaskar barədə Məzmurlar oxumaq istəyirsənsə, demək olar ki, onların hamısında nəsə tapacaqsan; amma 45 və 110-cu Məzmurlar, xüsusilə Onun Atadan yaranan İlahiliyi və bədəndə dünyaya gəlməsi barədədir, 22 və 69-cu Məzmurlar müqəddəs çarmıxı, Onun dözdüyü ağır sui-qəsdləri və bizim uğrumuzda çəkdiyi böyük əzabları əvvəlcədən bildirir. 3-cü və 109-cu Məzmur yəhudilərin tələlərini və cinayətkar qəsdlərini, eləcə də İskariyotun Ona xəyanət etməsini nümayiş etdirir; 21, 50 və 72-ci Məzmurlar Onun hakim kimi gəlişini və Onun bizim üçün bədəndə ikinci gəlişini əvvəlcədən söyləyir; onlar həm də bütpərəstlərə olan çağırışı göstərir. 16-cı Məzmur Onun bədəndə ölülərdən dirilməsini, 24 və 47-ci Məzmurlar isə Onun göylərə qalxmasını göstərir. Dörd Məzmurda, 93, 96, 98 və 99-da Xilaskarın iztirabları barədə əldə etdiyimiz bütün faydalar qeyd olunub.

Məzmurlar Kitabının xüsusiyyəti belədir və onlardan istifadə də belədir, onlardan bəziləri insanların düzgün yola qayıtmasına xidmət edir və bir çoxları indicə dediyim kimi Xilaskar İsa Məsihin insan formasında gəlişini əvvəlcədən söyləyir. Amma bu cür sözlərin nəyə görə sadəcə deyilməli deyil, melodiya və mahnı ilə ifadə olunmalı olduğunu izah etməliyik; çünki bizlərin arasında elə insanlar var ki, sözlərin ruhlandırıcı olduğuna baxmayaraq, hələ də düşünürlər ki, onları mahnı kimi oxumaq daha çox qulaqlar üçün xoşdur! Amma bu belə deyil; Müqəddəs Yazılar estetik zövqü razı salmaq üçün nəzərdə tutulmayıb, Məzmurlar insanın qəlbinin öz xeyri üçün mahnı kimi oxunur. Bu, iki səbəbə görə əsasdır. Birinci, müqəddəs yazıların Allahı həm nəsrdə, həm də poeziyada izzətləndirmələri münasibdir, çünki daha sərbəst, ayənin az məhdud forması, Məzmurlarda lirik poemalar və himnlər ilə (Burada Çıxış 15:1-18, Qan. Tək. 32:1-43 və Habaqquq 3-da olan himlərdən danışılır, onlar Septuaqintdə himnlər adlanır) birlikdə bölüşdürülüb ki, onlar vasitəsilə insanlar Allaha olan sevgilərini malik olduqları bütün var-qüvvələri ilə ifadə etsinlər. İkinci səbəb isə budur ki, birləşdirici təsir Məzmurları mahnı kimi oxuyan müğənninin üzərindədir. Məzmurları oxumaq insandan tələb edir ki, bütün varlığı ilə onlara diqqətini cəmləsin, bunu etməklə onun ağlının adi ahəngsizliyi və bədənin çaşqınlığına uyğunlaşması həll olunur, bu bir neçə fleytanın notlarının harmoniya ilə bir təsir yaratması kimidir; və beləliklə onu oxuyan insan artıq Pilat kimi yaxşı fikirləşib pis iş görmür, o, "Mən Onda heç bir təqsir görmürəm" desə də (Yəhya 18:38), yəhudilərə icazə verdi ki, öz istədiklərini etsinlər; pis fikirləşməsə də yaxşı işi görə bilmədi, dini rəhbərlərin Şuşannaya qarşı etdikləri günahlarında belə idi, bir günahdan özünü saxlayan insan, o biri günahı daha çox etmək istəyir. Ona görə də sözlər bizim düşüncələrimizi ifadə etdiyi kimi melodiyanın da bizim daxili ruhani harmoniyamızı ifadə edə bilməsi üçün Rəbb Özü əmr edib ki, Məzmurlar mahnı kimi oxunsun və nəğmələr kimi əzbərlənsin.

Bundan başqa bunu gözəl surətdə etmək ürəyin arzusu və sevincidir, yazıda belə deyilir: *Şadlanan varmı? Qoy ilahi oxusun!* (Yaqub 5:13) Əgər sözlərdə kobud, düzgün olmayan və ya sərt

nəsə varsa, ahəng onu hamarlayacaq, qəlbimizdə olan kədər də biz oxuduqca işıqlanır, *Mənim qəlbim niyə qırılmısan? Axı niyə bu köksümdə təlaşlanırsan?* İnsan, *Mənim ayaqlarım tamam yorulub* oxumaqla uğursuzluğunu bildirir və *Rəbb mənə yardım edəndir, heç qorxmaram. İnsan mənə nə edə bilər?* (İbr. 13:6) oxumaqla ümid yaranır.

Yazıları belə tərzdə oxumayanlar, yəni ilahi Mahnıları dərk edərək oxumayanlar, sadəcə özlərini razı salanlar günahkarlardırlar, çünki *izzət günahkarın dilinə yaraşmır*. Amma mən dediyim kimi oxuyanların qəlbinin ritmindən və Ruh ilə birliklərindən sözlərin melodiyası təbii şəkildə yaranır, onlar həm dilləri, həm də ağılları ilə oxuyurlar və təkcə özləri böyük fayda əldə etmirlər, onları dinləyənlərdə fayda əldə edirlər. Xeyir-dualı Davud Şaul üçün çalanda da belə idi: o, Allahı razı saldı və eyni vaxtda Şauldan onun dəliliyini və qəzəbini çıxardı və onun narahat ruhuna sülh gətirdi. Bu cür tərzdə kahinlər mahnı oxumaqla insanların ruhlarının sakitləşməsinə kömək etdilər və onları səmavi xoru idarə edənlərə qoşdular. Ona görə də Məzmurlar oxunanda burada məqsəd şirin musiqi deyil, qəlbdə əldə olunan daxili harmoniyanın zahiri ifadəsidir, çünki harmonik oxuma özlüyündə sülhpərvər və sakit ürəyin göstəricisidir. Allahı melodik tərzdə sinc və ya lira kimi alətlə izzətləndirmək bildiyimiz kimi zahiri işarədir, yəni bədənin üzləri və ürəyin düşüncələri özlüyündə musiqi alətləri kimidir, düzgün qaydada idarə olunanda hamısı birlikdə Ruhun çağırışı və nəfəsi ilə yaşayırlar və hərəkət edilər. Yazıldığı kimi: *Ruh vasitəsilə insan yaşayır və pis əməlləri öldürür* (Roma. 8:13), ona görə də mahnını yaxşı oxuyan insan qəlbini ahəngə qoyur, onun səhv ritmlərini dərəcələr ilə düzəldir ki, sonda həqiqətən təbii və bütöv olsun, onun heç nədən qorxusu yoxdur, amma bütün boş təsəvvürlərdən sülhdə azad olaraq özünü yaxşı şeyin gəlməsi üçün böyük arzuya tətbiq edə bilir. Çünki qəlbə müqəddəs sözləri oxumağa düzgün qaydada əmr edəndə o öz sıxıntılarını unudur və yalnız Məsihdə olan şeyləri sevinclə düşünür.

Ona görə də oğlum, qoy Məzmurlar Kitabını oxuyan hər kəs onda olan şeyləri sadəcə Allahdan ilhamlanmış kimi qəbul

etsin; və qoy hər kəs ondan özünün ehtiyacı olduğu şeyləri bağın meyvələri kimi seçsin. Çünki mən düşünürəm ki, bu kitabın sözlərində bütün insan həyatı, onun vəziyyətləri və düşüncələri əhatə olunub və insanda bunlardan başqa şey yoxdur. Nəyi axtarırsansa-axtar, istər tövbə, istər etiraf, istər çətinlikdə, sınaqda və ya **təqib altında kömək olsun, istərsə də sui-qəsdlərdən və tələlərdən azad olduğun vaxt olsun**, ya da əksinə hansısa səbəbə görə kədərlisənsə, özünü inkişaf edən, düşmənini yıxılan görürsənsə, sən Rəbbə izzət gətirmək və xeyir-dua vermək istəyirsənsə, **bu şeylərin hər birində İlahi Məzmurlar bunu necə etməyi sənə göstərir və hər vəziyyətdə istədiyin sözlər sənin üçün yazılıb və onları öz sözlərin kimi deyə bilərsən.**

Amma bir xəbərdarlıq sözü lazımdır. Heç kim icazə verməli deyil ki, Məzmurları yad mənalar ilə bəzəmək və ya özlərinə uyğun dəyişikliklər etmək və ya sözləri dəyişmək üçün onu hansısa faktla inandırsınlar. Onları yazıldığı kimi bütöv sadəlikdə oxumaq və əzbərləmək lazımdır ki, onları bizə verən müqəddəs insanlar öz sözlərini tanımaqla bizimlə birlikdə dua etsinlər və ən əsası isə müqəddəslər ilə danışan Ruh Özü ilham verdiyi sözləri tanısın və bizə qoşulsun. Çünki müqəddəslərin həyatları başqalarının həyatından daha gözəl olduğu üçün, onların sözləri də bizim sözlərimizdən daha yaxşıdır, faydalıdır, bunlar yalnız onların saleh ürəklərindən çıxıb. **Bu sözlər ilə onlar Allahı razı salıblar və onları ifadə etməklə həvari dediyi kimi, *padşahlıqları məğlub etdilər*, ədaləti icra etdilər, vədlərə nail oldular, aslanların ağızlarını bağladılar, şiddətli alovu söndürdülər, qılıncın ağzından qaçdılar, zəiflikdən qüvvətləndilər, döyüşdə güclü oldular, yadellilərin ordularını qovdular, qadınlar öz ölülərini dirilmiş geri aldılar.** (İbr. 11:33-36)

Ona görə də Məzmurları oxuyan hər kəsin böyük ümidi var, çünki onlar vasitəsilə Allah ehtiyac içində olanları dərhal dinləyəcək. **Əgər insan çətinlik içərisindədirsə, onları deyəndə böyük təsəlli tapacaq; əgər o sınağa çəkilirsə və ya təqib olunursa, sınağa dözmək üçün özündə güc tapacaq və həmişə bu sözləri deyənləri qoruyan Rəbbin müdafiəsini görəcək.**

Məzmurlar vasitəsilə insan şeytanı devirəcək və cinləri qovacaq. Əgər o günah işlədibsə, onları istifadə edəndə tövbə edəcək; əgər günah işlətməyibsə, o *çatdığı səviyyəyə uyğun həyat sürmək üçün* sevinəcək (Filip. 3:16), beləliklə Məzmurların gücündən istifadə edərək vuruşaraq qalib gələcək. Belə insan heç vaxt həqiqətdə laxlamır, amma onu aldadıb səhv yola aparmaq istəyənləri o, yalançı çıxaracaq; bunu bizə vəd edən insan müəllimi deyil, ilahi Kəlamın özüdür. Çünki Allah Musaya əmr etdi ki, böyük mahnı yazsın (Qan. Tək. 31:19) və insanları öyrətsin, təyin etdiyi rəhbərə həm də Qanunun Təkrarını yazmağı tapşırdı ki, onu oxuyub üzərində həmişə düşünə bilsinlər (Qan. Tək. 17:18, 19); çünki bunlar özlüyündə əhəmiyyətlidirlər, həm insanın fikrinə yaxşı cəhətləri gətirir, həm də səmimi tərzdə onların üzərində düşünənlərə kömək edir. Bu aydın faktdır ki, Nun oğlu Yeşua vəd olunmuş torpağa girəndə və bütpərəstlərin, eləcə də Amorlu padşahların ona qarşı duran cərgələrlə düzülmüş ordularını görəndə (Yeşua 8:9), bütün qılıncların və silahların qarşısında o, Qanunun Təkrarını oxudu, hamıya Qanunun sözlərini xatırlatdı və bununla xalqı silahlandırdı və qorxuya qalib gəldi. Yoşiya padşah da kitab tapılanda və hamıya oxunanda düşmənlərindən qorxmadı. (2 Pad. 22:8). Müharibə İsraili hədələyəndə Əhd sandığı xalqın qarşısında daşınırdı və bütün ordulara qarşı böyük kömək edirdi, onu daşıyanlar və ya xalq arasında riyakarlıq və ya günah burada istisna edilir; (Yeşua 3:2; 1 Pad. 2-4 (1 Şamuel 2-4) əgər Qanun insanın əhdlərinin yerinə yetirilməsində effektli birlik olmalıdırsa, iman və ağlın səmimi vəziyyəti həmişə vacibdir.

Qoca kişi dedi ki, müdrik adamlardan eşidib ki, qədim dövrlərdə İsraildə cinləri yalnız Kəlamı oxumaqla qovurdular və eynilə də onların insanlara qarşı olan gizli planlarını dağıdırdılar.

Bu səbəbə görə o, Kəlamı rədd edən, amma eyni zamanda cindarlıq məqsədi ilə başqa mənbələrdən təsirli sözlər istifadə edən insanları ittiham etdi. (Həv. İş. 19:14-16) Onun dediyinə görə bunu edənlər müqəddəs sözlər ilə oynayır və özlərini həmin yəhudilər kimi cinlərə təqdim edirdilər, onlar Efesdə bir kişidən cin çıxarmağa çalışmışdılar. Digər tərəfdən, cinlər müqəddəs insanların sözlərindən qorxurdular və onlara dözə bilmirdilər;

çünki Rəbb Özü Kəlamın sözlərindədir və Ona dözə bilmirlər, bunu onların Məsihə yalvardıqları zaman görmək olar, *Yalvarıram Sənə, mənə əzab vermə* (Luka 8:28; Matta 8:29). Paul da beləcə murdar ruhlara qadağan etmişdi (Həv. İş. 16:18) və cinlər həvarilərə təslim olmuşdular. (Luka 10:17) Rəbbin əli Elişa peyğəmbərin üzərində idi və o, çəng çalan adam Onun əmrinə əsasən çalıb ilahi oxuyarkən sular barəsində üç padşaha peyğəmbərlik etmişdi (2 Pad. 3:15). Bu gün də belədir: əgər kiminsə ürəyində əzab çəkənlərə marağı varsa, qoy bu sözlərdən istifadə etsin və bu həm özünə, həm də əzab çəkənə kömək edəcək, qoy o bu sözlərdən istifadə etsin, eyni zamanda öz imanının həqiqi və güclü olmasını sübut edəcək; beləcə Allah bunu görərək, yalvaran şəxsə kamil sağlamlıq verəcək. Məzmuru söyləyən müqəddəs insan 119-cu Məzmurda bu sözləri deyəndə yaxşı bilirdi, *Mən Sənin hökmlərin barədə düşünürəm: Sənin sözlərini unutmayacağam;* və yenə də *Sənin əmrlərin mənin evimdə ilahilərimdir*. Bu sözlər ilə onlar öz xilasları üçün çalışmışdılar, *əgər Sənin qanununu ürəyimdə düşünməsəydim, alçalaraq məhv olardım*. Paul da öz şagirdini bu sözlər ilə qüvvətləndirmişdi, *Bunların hamısına səy göstərərək özünü həsr et ki, sənin inkişafın hamıya aşkar olsun* (1 Timotey 4:15).

Marsellinus sən də Məzmurların üzərində düşünəndə və Ruh sənin bələdçin olmaqla onları dərk edərək oxuyanda hər birinin mənasını anlaya biləcəksən. Sən də Kəlamı birinci dəfə söyləyən müqəddəslərin həyatlarını təqlid etməyə çalışacaqsan.

Qarğış (Lənət) Məzmurları

Biz 58-ci Məzmurda düşmənlərin dişlərinin qırılması (6-cı ayə) və salehin ayaqlarının pis insanın qanına batması haqda oxuyanda (10-cu ayə) nə başa düşməliyik? Yaxud 109-cu Məzmurda pis insanın övladlarının yetim qalmasını və arvadının dul qalmasını arzu edən duanı necə qəbul edək (9-cu ayə)? 137-ci Məzmurun

müəllifinin Babildəki körpələrin daşlara çırpılıb öldürülməsindən sevinməsini necə anlamaq olar (9-cu ayə)? Bu Məzmurlar İsanın düşmənləri sevmək və bağışlamaq təlimləri ilə necə uyğunlaşa bilər?

Bir neçə şey nəzərdə saxlanılmalıdır. Birinci, yadda saxlamaq lazımdır ki, bunlar insan düşmənçiliyi üçün deyil, ilahi ədalət üçün olan dualardır. Xahiş edənlər Allahın hərəkət etməsini xahiş edirlər; onlar məsələləri həll etməyi öz əllərinə götürmək və öz düşmənlərini şəxsən cəzalandırmaq üçün güc istəmirlər, bu şeyləri etməyə onlara heç icazə də verilməyib. Bu xahişlərdə məzmurçular öz ağrılarını, qəzəblərini və incikliklərini tökür. Onların qarşılaşdıqları dəhşətləri ifadələri göstərir. Onlar bizi oyadır ki, bu sözləri hasil edən ümidsizliyi görək. Amma məzmurçular bu az "nəcib" hissləri bizdən və Allahdan və Onun aliliyindən gizli saxlamır, onlar ruhlanaraq bunları bizim xeyrimiz üçün yazıblar. Onların kanona daxil edilməsindən öyrənə biləcəyimiz dərslər içərisində bu fakt vardır ki, Allah bizdən az təəccüblənir, xahiş edən insanın sözlərindən daha çox onun ürəyinin dərinliklərinə baxır və bizim əzablarımızın hamısında narahatdır. Bu səbəbdən də Allahın xalqı öz ürəyini Onun qarşısında bütünlüklə tökəndə məmnun olur. Bundan əlavə qeyd olunmalıdır ki, düşmənlərin bağışlanmasına və Allahın baxışlarını əldə etməyə bu emosiyaları gizlətməklə nail olunmur, amma onları Allaha bildirmək lazımdır, bu müəlliflər də belə ediblər. Bonhoeffer yazır, "Əgər biz belə sıxıntıda Allaha səylə dua etməyi öyrənə bilsək, bu böyük məna daşıya bilər və qisası Allaha həvalə edən hər kəs özü qisas almaq fikrini başından çıxarır."

Düşmənlərin yıxılmasına sevinmək də Əhdi-Ətiqin dəqiq münasibəti deyil. Məsələn, Vəhy 18-də Babilin yıxılmasında lənət məzmurlarını xatırladan dil var. İsa Öz həvarilərinə öyrədirdi ki, onları qəbul etməyən şəhərləri lənətləsinlər (Matta 10:14). O Özü Bey-Sayda və Kefernahum barədə mühakimə etmişdi (Matta 11:21-24). Paul Rəbbi sevməyən (1 Kor. 16:22) və başqa İsanı vəz edən (Qalat. 1:8, 9) hər kəsə lənət söyləyir. Göylərdə şəhidlər onları öldürənlərdən qisas alınması üçün fəryad edirlər (Vəhy 6:9, 10). Bu

səbəbdən də ədalət görmək arzusu Məsihin vəhyində düzəldilmiş az lütflü Əhdi-Ətiq xüsusiyyətinin dəqiq əksi deyil.

Lənətlər olan Məzmurlar həm də oxucunu ruhlandırır ki, özü kifayət qədər rahatlıqda yaşasa da, əzab çəkən və sıxıntı içində olan insanlar ilə özünü bərabərləşdirsin. Onlar bizi başqaları üçün dua etməyə səsləyir, onlar bizi dünyada olan şərdən agah olmağı bildirir. Teyt bizə xatırlatdığı kimi onlar bizim hal hazırda dualarımız olmaya bilər, amma onlar insanlar və qüvvələr tərəfindən hədsiz tapdalanan qardaşlarımızın və bacılarımızın dualarıdır. Məsihçi məbəd bu Məzmurlara uzun müddət əzab çəkən və ehtiyac içində olanlar üçün Məsihin duaları kimi baxıb. Bonhoeffer bu qədim ənənəni *Məzmurlar: Müqəddəs Kitabın Dua Kitabı* adlı öz kiçik kitabında və 58-ci Məzmur barədə olan vəzində yeniləşdirib. Bədən almış Allah Oğlu bütün zəifliklərimizi bilərək bizim yerimizə Allah qarşısında dayana bilir və bizə görə bu duaları edə bilir. Bu səbəbdən də onlar həqiqətən həm bizim, həm də Onun dualarıdır. Allahın kamil Oğlu olmaqla O, günahsız olaraq bu duaları edə bilir, halbuki bu duaları biz edə bilmirik, çünki bizə öz günahımız xatırlanmalıdır və çox vaxt biz dua etdiyimiz insanlar kimi hərəkət edirik. Bu səbəbdən də bu Məzmurlar bizə öz dəhşətli günahlarımızı və başqalarına nifrətimizi, eləcə də etiraf və tövbə üçün ehtiyacımızı agah edir.

Vaiz

Günaha batmanın nəticələrindən viran olmuş dünyada yaşamağın gerçəkliyi ilə qarşılaşanda sövq olunma iki istiqamətdən biri ilə dəf edilməlidir: yanlış nikbinlik və ya ümidsiz bədbinlik. Bu iki şeyin nümunələrini sadalamaq çətin olmaz, amma bu tədqiqimizin məqsədi deyil. Vaiz bu müstəsnalıqlara qarşı durmaq üçün və möhkəm balanslaşmış və Kəlama müvafiq dünyagörüşü təmin etmək üçün yazılıb. Vaiz həyat sınaqdan keçmiş bir kitabdır.

Mən Vaiz kitabının sevimli kitabım olduğunu söyləyəndə bir çoxları heyrətlənirlər. Mən bu kitabın Kəlamın ən praktiki kitablardan biri olduğunu deyəndə insanların qaşları daha da çatılır.

Əfsus olsun ki, mən həm də düşünürəm ki, Vaiz olduqca səhv başa düşülür və heç də həmişə şərhçilər tərəfindən düzgün izah edilmir.

Vaizin məqsədi Allahın övladlarına xatırlatmaqdır ki, əgər onlar bu həyatda məna axtarırlarsa, məyus olacaqlar. Tərəzilər çox vaxt taraz olmur, düzgünlük həmişə üstün olmur və salehlik heç də həmişə mükafatlanmır. Birbaşa desək, Vaiz kitabının müəllifi bizə deyir, "Buna öyrəş. Günaha batmış dünyada yaşamaq bu deməkdir."

Vaiz kitabının diqqətlə tədqiqi bu faktı aşkar edir ki, kitab boyunca Yaradılış 3-cü fəslin əks-sədaları var. Ola bilsin ki, kitab üçün müvafiq başlıq "Günaha batmış dünyada həyat" ola bilərdi. Vaiz kitabının müəllifi olduqca səmimidir – yəqin ki, bizim olduğumuzdan daha səmimidir. O, bizim çox vaxt həyata baxdığımız çəhrayı rəngli eynəklərimizi çıxarır və gözlərimizə baxaraq deyir, "Gerçəkliklə yaşa. Həyat dünya günaha batdığına görə belədir. Əgər sən bu həyatdan məna çıxarmağa və özünə lazım olan zövqü almağa çalışsan, ya gerçəkliyi rədd edən yanlış nikbinliyə, ya da ümidsizliyə düşəcəksən."

Məsihçiliyin təqibinin aləmində biz Vaizin müəllifindən soruşa bilərik, "Biz məsihçilərin öldürüldüyünü görəndə dəhşətə düşməli deyilikmi?" O cavab verər, "Əlbəttə."

"Biz qəzəblənməliyikmi?" Bəli!

"Biz bu haqda nəsə etməliyikmi?" Bəli hansı yolla olursa olsun, etməliyik.

"Biz *təəccüblənməliyikmi*?!" Yox. Hətta məsihçilər kimi günaha batmış dünyada günaha batmış insanlar kimi yaşayırıq. Bu səbəbdən də mənəvi cəhətdən pozulmuş davranış mövcuddur.

Süleymanın Məsəlləri

Süleymanın Məsəllərində də qeyd edilir ki, saleh insan əzab və təqiblə üzləşə bilər. Sül. Məs. 29:10-da deyilir: *"Qana susayanlar kamil insana nifrət edirlər."* Derek Kidner qeyd edir ki, cəm halında olan ismin (*saleh*) və tək halında olan ismin (*bir*) qarışığı ibrani idiomudur, mənası "hər kəs" deməkdir. Allaha üsyan edən

dünyada saleh və kamil olmaq təhlükəsiz deyil, Əhdi-Cədid bunu daha aydın şəkildə göstərir.

Təqib və şagirdlik müzakirəsinə lazımi yardım bu anlayışdır ki, fərdlərin Süleymanın Məsəllərinə əsasən "hüquqları" var. Süleymanın Məsəlləri bu fikri dəstəkləyir ki, fərdlərin hüquqları var, Allah xalqı onları müdafiə etməyə və dəstəkləməyə çağırılıblar. Sül. Məs. 29:7-də deyilir: *"Saleh kasıbların haqqını görür, pis adam bunu dərk etmir."* Sül. Məs. 31:4, 5-də padşahlar və rəhbərlərdən tələb olunur ki, ayıq olsunlar *"içəndə qayda-qanunu unudarlar, bütün məzlumların haqqını pozarlar."* 31:8, 9-da oxuyuruq:

Dilsizə görə ağız aç,
Bütün möhtacların haqqını qoru.
Ağzını aç, ədalətlə hökm ver,
Məzlumların, fəqirlərin haqqını yerinə yetir.

Bu hüquqlar hansılardır? Əhdi-Ətiq Allahın idarəçiliyi altında cəmiyyətin ən zəif, ən müdafiəsiz üzvlər ilə necə münasibətdə olması barədə təlimlər ilə doludur. Praktiki kömək, müdafiə və ədalət üçün güclülər cəmiyyətin zəif üzvlərinin halına acımalıdır. Bu hüquqlar Allah tərəfindən təsis olunub və Onun surətində yaradılmış bütün insanlar buna malikdirlər.

Allahın ailəsi olmaqla bilirik ki, Allah bizi unutmayıb, bizimlə əhdi var ki, heç vaxt bizi tərk etməyəcək və buraxmayacaq. Allah bizi öz öhdəsinə götürüb. Belə lütfü almış bir insanlar kimi bizdən gözlənilir ki, onları öhdəmizə götürəndə başqalarına nümayiş etdirək. Qonşumuzu özümüz kimi sevmək, heç bir pislik etməmək Allahın qanunundur. Allahın sevgisi cəmiyyətdə yalnız Onun xalqı tərəfindən ifadə olunur, biz Allahın surətini daşıyanlar olmaqla Onun məhəbbətini başqalarına göstərdikcə və Allahın insanlara verdiyi hüquqları dəstəkləməklə və inkişaf etdirməklə buna nail oluruq.

Dövlət ilahi öhdəçiliyin altındadır. Dövlətin tapşırığı Barmenin Teoloji Bəyanatında aydın təyin olunub, "...hələ də qurtulmamış

dünyada ədaləti və sülhü saxlamaq". Bunu şərh edərək, Cunql qeyd edir ki, burada deyilən "ədalət və sülh" bunlardır:

> ...hələ də qurtulmamış dünyada şeylər insan həyatı üçün və bütün həyat üçün birlikdə *vacibdir*, amma aydın şəkildə hədələnən şeylər isə xüsusilə qorunmalıdır. Ədalət və sülh üçün belə qayğı vacib deyilsə, onda hələ qurtulmamış dünyada sülh və ədalət söz demədən keçib gedər və orada dövlətə ehtiyac olmaz. Amma sülh və ədalətə, xüsusilə diqqət yetirilməlidir, çünki insanda sülh və ədalət müntəzəm olaraq insanlar tərəfindən hədələnir.

BARMEN TEOLOJİ BƏYANATI

1. "Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz" (Yəhya 14:6). "Doğrusunu, doğrusunu sizə deyirəm, qoyun ağılına qapıdan girməyib başqa yerdən aşan oğru və quldurdur...Qapı Mənəm, kim Məndən girərsə, xilas olar" (Yəhya 10:1, 9).

İsa Məsih Müqəddəs Yazılarda bizə şəhadətlik etdiyi kimi Allahın yeganə Sözüdür, biz onu eşitməliyik, etibar etməliyik və həyatda və ölümdə itaət etməliyik.

Biz Allahın yeganə Kəlamından başqa mənbələrdən olan vəhylərdən ibarət yanlış təlimi rədd edirik.

2. "O bizim üçün ilahi müdriklik, salehlik, müqəddəslik və satınalınma oldu" (1 Kor. 1:30).

İsa Məsih Allahın bizim bütün günahlarımızı bağışlamasının təsəlliverici elanı olduğu kimi eyni ciddiliklə O bütün həyatımızda Allahın tələbini güclü surətdə bəyan edir. Onun

vasitəsilə bizə bu dünyanın allahsız bağlarından sevinc dolu azadlıq və yaratdığı varlıqlar üçün gözəl xidmət gəlir.

Biz həyatlarımızın İsa Məsihə deyil, başqa ağalara məxsus olduğu ərazilərinin ola bildiyini söyləyən təlimi rədd edirik, bu ərazilərdə bizim Onun vasitəsilə bəraətə və müqəddəsləşməyə ehtiyacımız yoxdur.

3. "Əksinə, məhəbbətlə həqiqəti yerinə yetirərək bədənin Başı olan Məsihə bənzəmək üçün hərtərəfli böyüyək" (Efes. 4:15).

Məsihçi məbədi qardaşlar cəmiyyətidir, burada Müqəddəs Ruh vasitəsilə Kəlamda və Məsihin Bədənində İsa Məsih yaşayır və Rəbb kimi fəaliyyətdədir. Həm imanı, həm də itaətkarlığı ilə, həm çatdırmaq istədiyi xəbər və qanun ilə məbəd günahları bağışlanmış insanların məbədi kimi günahlı dünyanın içərisində şəhadətlik etməlidir, Ona məxsus olduğunu göstərməlidir, Onun təsəllisi və yalnız Onun rəhbərliyi altında yaşamalıdır, Onun gəlişini gözləməlidir.

Biz bu yanlış təlimi rədd edirik ki, məbəd çatdırmaq istədiyi xəbərin formasını və qaydasını arzu etdiyi hər bir şeyə və ya günün hakimlik edən ideoloji və siyasi məsləklərinin faniliklərinə ötürmək icazəsi var.

4. "Bilirsiniz ki, millətlərin rəhbərləri onların üzərində hökmranlıq, əyanları da onlara ağalıq edir. Sizin aranızda isə qoy belə olmasın. Sizlərdən böyük olmaq istəyən xidmətçiniz olsun" (Matta 20:25).

Məbəddə müxtəlif xidmətlər bəzilərinin başqaları üzərində səlahiyyət tətbiq etməsinə imkan vermir, amma bu bütün cəmiyyətin həvalə etdiyi və yerinə yetirmək üçün tapşırdığı işləri görmək üçündür.

Biz yanlış təlimi rədd edirik ki, bu xidmətdən kənarda məbəd xüsusi rəhbərlərə idarəçilik edən səlahiyyət ilə rəhbərlik etməyə icazə verə bilər.

5. “Allahdan qorxun. Padşaha hörmət edin” (1 Peter 2:17).

Kəlam bizə deyir ki, ilahi vəzifə ilə dövlətin məbədin də yerləşdiyi hələ də xilas olmamış dünyada ədaləti və sülhü qorumaq tapşırığı var. Bu vaxta qədər bunu insan qabiliyyəti və bacarığı hədə-qorxu və güc tətbiq etməklə mümkün edir. Məbəd bunun faydasını, öz vəzifəsini minnətdarlıq və Allaha ehtiram ilə tanıyır. Bu, diqqətini Allahın Padşahlığına, Allahın əmrinə və ədalətinə və bununla da rəhbərlik edən və tabelikdə olan insanların cavabdehliyinə cəlb edir. Bu, Kəlamın gücünə etibar və itaət edir, Allah Öz Kəlamı vasitəsilə bütün şeyləri əlində saxlayır.

Biz yanlış təlimi rədd edirik ki, dövlət öz xüsusi tapşırığından kənar insan həyatının yeganə və tam qaydası olmalıdır və beləcə də məbədin çağırışını yerinə yetirməlidir və yerinə yetirə bilər.

Biz yanlış təlimi rədd edirik ki, məbəd öz xüsusi tapşırığından kənar dövlətə məxsus olan təbiəti, tapşırıqları və şöhrəti üzərinə götürməlidir və götürə bilər, beləcə özü dövlətin bir üzvünə çevrilə bilər.

6. “Budur, Mən dövrün sonuna qədər hər gün sizinləyəm” (Matta 28:20). “Amma Allahın kəlamı zəncirlənməmişdir” (2 Timotey 2:9).

Məbədin azadlığının təməli olan onun tapşırığı bundan ibarətdir: Məsihin yerinə və beləcə Onun Kəlamının və işinin xidmətində vəz və məbəd ənənələri vasitəsilə Allahın lütfünün xəbərini insanlara çatdırmaq.

Biz yanlış təlimi rədd edirik ki, insan şöhrətpərəstliyi ilə məbəd Rəbbin Kəlamını və işini insanın özünün seçdiyi arzulara, məqsədlərə və planlara xidmət etməklə əvəz edə bilər.

Alman Müjdəçi Məbədin Dini İcması bəyan edir ki, bu həqiqətlərin tanınmasında və bu səhvlərin rədd olunmasında Dini Məbədlərin ittifaqı kimi Alman Müjdəçi Məbədinin zəruri teoloji əsasını görür. Bu, məbəd və dövlət ilə əlaqəli bütün qərarlarda teoloji tapıntılara diqqət yetirmək üçün icmanın Bəyanatı

ilə həmrəylikdə dayananları səsləyir. Bu, imanda, ümiddə və məhəbbətdə birliyə qayıtmaq üçün bütün insanları cəlb edir.

Rəbbin Kəlamı əbədi yaşayır.

RƏBB BELƏ DEYİR: PEYĞƏMBƏRLƏRDƏN ANLAYIŞLAR

Yeşaya

Bir az əvvəl biz Allah xalqının həyatında əzabın necə təsvir olunduğunu müzakirə etmişik, Kəlamda əzab aşağıdakıların nəticələridir: 1) günaha görə cəza, 2) təlimləndirmə və maarifləndirmə məqsədilə tərbiyələndirmə və ya 3) insanın canlı Allah ilə ünsiyyəti və Ona sadiqliyi.

Yeşaya peyğəmbər əzab anlayışının dördüncü ölçüsünə diqqətini cəmləyir, bu, üçüncü ölçü üzərində qurulur və Yaradılış 3:14-də təqdim olunur: Allahın məqsədlərini yerinə yetirmək.

Yeşayanın peyğəmbərlikləri əzabı Allahın dünya üçün olan məqsədlərini yerinə yetirməkdə Onun istifadə etdiyi metod kimi aşkar edir. Əslində bu, Allahın Öz yaradılışını bərpa etmək iradəsini yerinə yetirməkdə əsas metoddur. Əzab, ağrı və ölüm probleminin həlli qəribə görünsə də, əzabda, ağrıda və ölüm anına qədər özünü qurban vermədə tapılıb.

Yeşayanın kitabında biz əzab və alçalma həyatını yaşamağa çağırılmış İnsan ilə görüşürük; O Öz günahları üçün deyil, insanların günahlarının dəhşətli nəticələrindən xilas üçün ölməyə çağırılmışdır – çünki Onun günahı yox idi. Qulluqçu könüllü surətdə başqaları üçün əzab çəkməyə və ölməyə çağırılıb, əmin idi ki, O "çəkdiyi əzabların bəhrəsini" (53:11) görəcək; O, həm də ən yüksək şərəfə nail olacaq.

Əzab haqqında bu vəhy bəşəriyyətin ən əsas problemini həll etməyin bir vasitəsi kimi Allah tərəfindən metod olaraq istifadə olunub, "yəhudi-məsihçi dininin ən vacib və ən əhəmiyyətli ideyası olub." 40-66-cı fəsillərdə Yeşaya bizi Allahın qulu adlandırdığı surət ilə tanış edir, Allah bu qulu vasitəsilə planını həyata keçirəcəkdi.

Yeşayanın peyğəmbərliyinin ətraflı tədqiqinə həsr olunmaq bizi bu tədqiqin dairəsindən kənara aparacaq. Bunu qeyd etmək əhəmiyyətlidir ki, Allah Öz məqsədlərini yerinə yetirmək üçün xüsusilə əzabdan və özünü qurban verməkdan istifadə edir; əslində Onun Öz əzab çəkən Qulu vasitəsilə istifadə etdiyi metoddan başqa metodu yoxdur. Yeşaya bildirir ki, bu əzab çəkən Qulun ardınca gedənlər özləri də əzab və özünü qurban vermək həyatına çağırılıblar. Ton qeyd edir:

> Allahın xüsusi Qulu bu planı həyata keçirəcək, amma Allahın bu Qulu yalnız təşəbbüskar, bani və novator olacaq, çünki Allahın qalan xalqı Qulun ardınca getməyə, Onu təqlid etməyə və Onun xidmətini həmin əzab və özünü qurban vermək metodundan istifadə edərək davam etməyə çağırılıb.

Yeşaya 50:6, 7-də ilk dəfə Allahın günahsız Qulunun keçirəcəyi əzab və rüsvayçılıq barədə bildirir. 10-cu ayədə vurğu Rəbdən qorxanlardan Qulu dinləyən və Onun səsinə itaət edənlərə keçir. Onlar Rəbdən qorxsalar da və Allahın həqiqi Qulunun səsinə qulaq assalar da qaranlıqda gəzirlər və nurdan məhrumdurlar. Yanq mübahisə edir ki, burada "gəzmək" üçün istifadə olunan fel keçmişə, etibar etdikləri vaxta aid deyil, əslində yaşadıqları indiki vəziyyətə aiddir. Belə ümidsiz və məyus vəziyyətdə Qulun davamçıları onları tərk etməyən və aldatmayan Rəbbə etibar etməli idilər. Yanq izah edir:

> Beləliklə, Rəbdən qorxanlar və Onun həqiqi Qulunun səsinə itaət edənlər qaranlıqda qalmayacaqlar. Qulun Özü kimi onlar da sıxıntılara təslim olmalı, əziyyətlər, ölüm və cəhənnəm vasitəsilə Rəbbin ardınca getməlidirlər ki, səmavi şəhərə gəlib çıxsınlar. Bu dünyada onların çətinlikləri

> olacaq; amma Qul bu dünyaya qalib gəlib və onlar bir şeyi etməlidirlər, Öz yolları və işləri ilə Özünü davamçılarına göstərən Rəbbə etibar etməlidirlər və onları heç vaxt tərk etməyən Allahlarının köməyinə arxalanmalıdırlar.

Ton mübahisə edir ki, Yeşaya 50:11 həm də Rəbbin Qulunun qulluqçularının keçirməli olduğu əzablara aiddir. Amma Yanqın ideyası, yəni alovun onu yandıranlara məxsus olması *("sənin alovun")* və məşəllərin isə onların yandırdıqları olması *("sənin məşəllərin")* faktında olan qrammatik vurğu nə qədər cəlbedici olsa da məni Tonun şərhindən uzaqlaşdırır. Mən bu ayəyə Qulu və Onun qulluqçularını təqib edənləri gözləyən cəzanın təsviri kimi baxmağa meyl edirəm. Onların Rəbbin Qulu üçün hazırladıqları məhv etmə planı onların özlərininki olur.

Amma bu Tonun 50:10 və 52:13 barədə olan təsdiqini azaltmır, burada Rəbbin Qulu yenidən xatırlanır, bölmənin bütün vurğusu əzab çəkən Qulun ardınca gedənlərin vəziyyətidir. Belə qaranlıqda Allah "xalqlara nur" (51:4) kimi Öz qanununu və ədalətini quracaq. Allahın xalqı rəqib dünyada olduqca az görünsə də, O Öz xalqına təsəlli verəcək (51:3, 12). Allah 51:2-də onları ruhlandırır ki, İbrahimə və Saraya baxsınlar, Allahın iki insanı necə götürüb böyük xalqa çevirdiyini xatırlasınlar. Qarşıdurma və məzəmmətlə üzləşərkən Rəbb Öz xalqını ruhlandırır ki, insanların məzəmmətindən qorxmasınlar və ruhdan düşməsinlər (51:7). Qulun düşmənləri məhv olduğu kimi (50:9), beləcə də Allahın xalqını təhqir edəcəklər (51:8). Ton yazır:

> Bunu qeyd etmək vacibdir ki, Allah bu xəbəri Öz qulluqçularına verməzdən əvvəl Qul Özü bəyan edir ki, döyülərkən geriyə çəkilmədi, rüsvayçılıqdan və alçaldılmadan qaçmadı. İndi qulluqçunun növbəsidir. İndi qulluqçunun eyni cür xidmət üçün eyni rəftar ilə qarşılaşması vaxtıdır.

Öz zəifliklərinə diqqəti cəmləməkdənsə, insanlar Allahın gücünə arxalanmaq üçün ruhlandırılırlar, O onların səhralarını məhsuldar sahəyə çevirə bilər (51:3, 13, 15). Allah Öz Sözünü

onların ağızlarına qoyur və əlinin kölgəsi altında gizlədir, onları Öz xalqı adlandırır (51:16). Onlar hələ də sıxıntılardan əziyyət çəkəcəklər (51:17-21), amma vaxtında Allah baş gicəllədən piyaləni İsraildən alacaq və ona əzab verənlərin əllərinə verəcək (51:22, 23). Allah Öz xalqının taleyini bərpa edərkən (52:1-6), onların qurtuluşlarını bəyan etmək üçün qasidlərini göndərir (52:7-12). Yeşaya 52:13 Qulun əzab mövzusuna qayıdır, daha da canlı surətdə nümayiş etdirir ki, Onun əzabı və ölümü vasitəsilə dünyanı Allahla barışdıraraq Onun məqsədlərini yerinə yetirəcək.

Yeremya

Allahın heç bir qasidi Yeremya qədər təqiblə üzləşməyib. Yəhudeyanın padşahı olan Yoşiyanın hakimliyinin on üçüncü ilində peyğəmbərlik xidmətinə çağırılmış Yeremya öz xidmətinə yəqin ki, dini dəyişikliyin yenicə başladığı vaxtda, 18 yaşlarında başlamışdı.

Xidmətinin iyirminci illərində o, xalqı üçün böyük dini azadlığa şəhadətlik etmişdi. Torpaq peyğəmbərlər ilə dolu idi, onlar "Rəbbin sözü" adlandırdıqları şeyləri bəyan edirdilər. Amma Yeremyanın iti görən gözləri görürdü ki, dəyişikliyin çox hissəsi daha çox zahiri idi və ibadətin formasına aid idi. Rəbb Özü peyğəmbərə dedi: *"Yəhuda Mənə bütün qəlbi ilə deyil, hiylə ilə üz tutdu"* (3:10).

Əgər insanlar səmimi qəlbdən Rəbbə dönməsələr, onları nə gözləyəcəyini onlara xəbərdarlıq edən və tövbəni vəz edən Yeremyanın Yoşiyanın hökmranlığı dövründə qarşıdurma ilə üzləşdiyi barədə heç bir yazı yoxdur.

Baxmayaraq ki, Yerusəlim daha iyirmi iki il Yəhudeyanın paytaxtı kimi qalmalı idi,

Yoşiyanın ölümü cənub padşahlığının süqutunun başlanğıcını işarə etdi. Biz 2 Salnamə. 35:25-də oxuyuruq ki, Yeremya Yoşiya üçün yas tutdu.

Yehoaxaz, Yoşiyanın oğlu taxt-taca varis oldu, amma onun hökmranlığı yalnız üç ay çəkdi, Misir padşahı Neko Yəhudeyanı işğal etdi, Yehoaxazı əsir götürdü və yerinə qardaşı Yehoyaqimi qoydu. Yehoyaqim qəddar və pis insan idi, on bir il hökmranlıq etdi.

Yeremyanın çatdırdığı sözlərin çoxu onun hökmranlığı dövründə yazılmışdı.

Yeremya Allahın ona verdiyi tövbə mövzusunu vəz etməkdə davam edərkən Yehoyaqimin taxt-taca çıxdığı vaxtdan dərhal sonra Yeremyanın həyatına qarşı sui-qəsdlər başladı. Əvvəlcə, onun öz doğma yurdunun, Yerusəlimin yaxınlığındakı qəsəbənin, Anatot kəndinin sakinləri onu öldürmək niyyətinə düşdülər (11:18-23). Rəbb onların sui-qəsd fikirlərini Yeremyaya açanda o acı-acı şikayət etdi: "*Mənsə kəsilməyə aparılan müti quzu kimi idim, bilmirdim ki, onlar "...onu dirilər arasından yox edək ki, adı bir daha xatırlanmasın" deyərək mənə qəsd qururlar.*

O, Müqəddəs Kitab yazıçılarını çaşqınlığa salan bir sual verir: "Nə üçün pis adamlar əməllərində uğur qazanır, bütün xainlər dinc yaşayır?" (12:1). Rəbb buna cavab verdi ki, bu yalnız sadə başlanğıcdır.

> *Ey Yeremya, əgər sən piyadalarla qaçanda yoruldunsa, atlarla necə yarışa bilərsən? Əgər əmin-amanlıq olan torpaqda büdrəsən, İordan çayının kənarındakı sıx meşədə nə edəcəksən? (12:5)*

Başqa sözlə, "Yeremya, sən hələ heç nə görməmisən. Hər şeyin həqiqətən pis olacağı vaxtı gözlə. Sənin qardaşların, öz ata evin də sənə xəyanət edib" (12:6).

Atlarla yarış gec olmayacaqdı. Yeremyaya əmr edilmişdi ki, Yerusəlimə vəz etməyə getsin. O bu əmrə əməl edəndə, kahinlərin və peyğəmbərlərin yanlış təlimlərini və ikiüzlülüyünü ittiham edəndə dini rəhbərlər ona qarşı çıxırlar.

Nəhayət, 20:1-3-də məbədin nəzarətçisi onu həbs etdirir, döydürür və kündəyə saldırır. Kahin ailəsindən olan (1:1), dini rəhbərlərin ona qarşı çıxdığını görən Yeremya üçün yəqin ki, çox çətin idi.

Bunu qeyd etmək əhəmiyyətlidir ki, məbədin nəzarətçisi Paşxur Yeremyanı azad edəndə o çəkdiyi fiziki narahatçılıq barədə bir söz demir. Əksinə o, lağa qoyulmasından danışır və biz təsəvvür edə bilərik ki, yol kənarında şər iş görən bir insan kimi oturmuş

Yeremyanı məbədə ibadətə gələn Yəhudeyanın ən nüfuzlu adamları necə ələ salıblar. O deyir: "Bütün gün mənə gülürlər, hər kəs mənimlə əylənir" (20:7) ... Ömrümü rüsvayçılıqla keçirmək üçünmü (20:18)."

Bu ələ salmanı daha dözülməz edən onun haqsız olmasıdır. O, Allahın Kəlamını vəz etdiyi üçün lağa qoyulurdu. O şikayət edir: *"Rəbbin sözündən ötrü Mən bütün gün rüsvay oldum, təhqir edildim"* (20:8).

Əvvəlcədən peyğəmbərlik edilən bədbəxtlik gecikəndə insanlar ona rişxənd etdilər və dedilər: *"Rəbbin sözü hanı? Qoy yerinə yetsin!"* (17:15). Onlar onu dəli, başdan xarab kimi baxırdılar. Hətta onun dedikləri həyata keçməyə başlayandan sonra da onlar onu ittiham edirdilər ki, guya o özünü peyğəmbər edib (29:26, 27).

Yeremya bunlara baxmayaraq, hələ də xəbərini, xüsusilə də insanları yoldan azdıran xalqın dini rəhbərlərinə qarşı yaymaqda davam edir. 26-cı fəsildə o, yenidən xalqı tövbəyə çağıranda izdiham kahinlərin, peyğəmbərlərin rəhbərliyi altında onu tutdu və ölümünü tələb etdilər. Dövlət məmurları səs-küyü eşitdilər və nə baş verdiyini görmək üçün gəldilər. Kahinlər və peyğəmbərlər təkid etdilər ki, Yeremya öldürülsün, çünki o, Yerusəlimə və məbədə qarşı peyğəmbərlik etdi. Yeremya öz xəbərinin Rəbdən gəldiyini müdafiə edəndə və şəhər üçün böyük qayğı və sevgi ilə vəz edəndə məmurlar razılığa gəldilər ki, Yeremya ölümə layiq heç nə etməyib. Bəzi rəhbərlər insanlara xatırlatdılar ki, Mikeya həmin xəbəri 100 illər əvvəl peyğəmbərlik edib və Xizqiya padşah Mikeyanı ölümə təslim etməyib.

Dəyişkən izdiham bu fakta görə tərəddüd etdi və Yeremyanı dini rəhbərlərin qəzəbindən müdafiə etdilər, ona görə də ona toxunulmadı.

Amma Qiryat-Yearimli başqa peyğəmbər Uriya bizim Yeremya 26:20-23-də oxuduğumuz kimi uğurlu deyildi. Uriya da Yeremya kimi eyni xəbəri vəz edirdi və Yehoyaqimin adamları tərəfindən təqib olundu, həbs olundu və Yerusəlimə gətirilib edam edildi.

Yehoyaqimin hökmranlığı dövründə Yeremya həbs olunmadan, alçaldılmadan, işgəncədən və hədə-qorxulardan əzab çəkdi. Qırx

il o öz xalqının onun xəbərinə diqqət yetirmədiyini görərək ürək ağrısı keçirdi. Bu ona görə deyil ki, Yəhudeya dindar insanlar deyildi. Əksinə onlar çox dindar idilər. İnsanlar öz məbədləri ilə fəxr edirdilər. Onlar əmin idilər ki, məbəd Yerusəlimdə olduğuna görə düşmənlər tərəfindən işğal olunmayacaq. Onlar sülh və çiçəklənmə, həm də Allahın sevgisi və lütfü barədə xəbərləri vəz edən peyğəmbərlərə qulaq asmaq istəyirdilər. Amma onlar Yeremyanı təqib etdilər və rədd etdilər.

Yeremya öz peyğəmbərlik xidmətini atmağa sövq olunurdu. Ailəsi tərəfindən xəyanət, həmvətənləri tərəfindən rədd olunma, kahinlərin və peyğəmbərlərin nifrəti, şahzadələrin düşmənçiliyi, bunların hamısı onun üçün müntəzəm olaraq ruhdan salan mənbələr idilər.

Martin Lüter kimi o da çox vaxt özünə sual vermişdi: "Yalnız sən müdriksən?" Çoxlu sayda insanlar və belə nüfuzlu insanlar ona qarşı çıxanda yəqin ki, onda şübhələr və ruh düşkünlüyü var idi. O bütün sözlərinin yerə düşdüyünü və vəzlərinin heç bir şeyi həyata keçirmədiyini görəndə, əslində heyranedici bir şeydir ki, o sadəcə əllərini yanına salıb demədi: "Bunun nə faydası var?"

Yeremya nəyə görə davam etdi?

1. Öz xidmətinin başlanğıcından o bilirdi ki, xəbərinə qarşı müqavimət olacaq (1:18, 19).

2. Eyni vaxtda Allah ona vəd etmişdi ki, onunla olacaq: "'Səni qurtarmaq üçün Mən səninlə olacağam' Rəbb belə bəyan edir" (1:19). Neçə illər sonra O bu vədi yenidən təsdiqlədi: *"Bundan sonra mütləq səni xeyir üçün xilas edəcəyəm ... çünki Mən səninlə olacağam ki, səni qurtarıb azad edim*" (15:11, 20). Allahın hüzuru və Onun Öz xalqını heç vaxt tərk etməyəcəyi barədə vədi təqib və rədd olunma zamanı onlar üçün ruhlanma mənbəyi və güc mənbəyidir. Onlar bilirlər ki, unudulmayıblar.

3. Yeremya əmin edilmişdi ki, o, Allahın sözlərini vəz edir. Onun xidmətinin başlanğıcından o, əmri qəbul edir: *"Mən səni kimin yanına göndərsəm, gedəcəksən, sənə nə əmr etsəm, onu*

söyləyəcəksən." (1:7). Yeremya öz xəbərinə Rəbbin sözü kimi əsaslanır (1:4, 11, 13; 7:1; 9:20; 10:1; 11:1; 14:1-17; 16:1; 17:20; 18:1, 5; 19:3; 21:11; 25:3; 27:1; 28:12; və s.). Başqa peyğəmbərlər kimi o çox vaxt xəbərlərini bu ifadələr ilə təqdim edir, "Rəbb belə deyir" və ya "Rəbb dedi" (1:14; 2:5, 19, 22; 3:1, 6, 10, 12, 14; 4:3, 9, 27; 6:9 və s). O bilirdi ki, insanlar onun xəbərini və xidmətini rədd edəndə onlar onu deyil, bütünlüklə Allahı rədd edirdilər.

4. Yeremyanın insanlara olan dərin sevgisi ona stimul vermişdi. O bilirdi ki, dağılma baş verəcək. O onlar üçün ağlayır (9:1; 13:17; 14:17; Mərsiyələr 2:11; 3:48) və onlar üçün dua edir (14:17-22). O, 17:16-da deyir ki, rədd olunsa da, "Mən Sənin xidmətində çoban olmaqdan boyun qaçırmadım. Bəla gününün gəlməsini istəmədim."

Rədd olunmaya, təqibə və alçalmaya baxmayaraq, Yeremya Allaha qırx il sadiq tərzdə xidmət etməyə davam etdi. Qoy bizlərdən hər birimiz üçün deyilsin ki, biz də Allahımızın ardınca belə həsr olunma və həvəslə gedək. Biz Yeremya kimi Allahın ardınca getməyin dəyərindən qaçmağa sövq olunanda qoy bizə onun sözləri xatırlansın: *"Mən fikirləşdim: 'Daha Onu yada salmayacağam, Onun adı ilə danışmayacağam.' Onda Onun sözü sümüklərimdə həbs edilən, ürəyimdə yanan bir od oldu. Onu içimdə saxlamaqdan yoruldum, artıq bunu edə bilmirəm*" (20:9).

Daniel

Danielin kitabı həm teoloji izahat, həm də praktiki nümunə təmin edir. Bu əzab çəkməyə çağırış ilə əlaqədardır, belə ki Allahın məqsədləri tarix boyunca açıldıqca Allahın ardınca gedənlərdən çox vaxt xahiş olunur ki, bu qəbul edilsin.

Birinci fəsildən Daniel və onun üç dostu seçim ilə qarşılaşır: onların inancları ilə razılaşsınlar və padşahın məhkəməsinin

qaydalarını qəbul etsinlər, yoxsa valideynlərinin imanına və Allahın Qanununa sadiq qalsınlar?

Bu qərar möhtəşəm nəticələrə diqqət yetirmədən çıxarılmamışdı: onlar ilahi tapşırığa əsaslanmış imanlarına görə öz həyatlarını və başqalarının həyatlarını təhlükə altına salırdılar. Amma onlar qərara gəlmişdilər ki, özlərini padşahın yeməyi ilə çirkləndirməsinlər. Cavan oğlanlara imanlarını sınamağa imkan veriləndə onlar ilk dəfə gördülər ki, oğlanlar təkcə sağ çıxmayıblar, həm də gümrahlaşıblar, belə ki Allah Onun əhdinə sadiq qalanlara sadiqdir. Amma onların imanlarının sınaqdan keçirilməsi axırıncı dəfə deyildi.

Bir az müddətdən sonra bu üç dost öz imanlarını Babil padşahının qızıl bütü qarşısında diz çökməklə güzəştə getməkdən imtina etdi. Onlar bilirdilər ki, Allaha itaət etmələrinin qorxulu nəticələri ola bilər. Daniel 3:13-15-də biz oxuyuruq,

> *O zaman Navuxodonosor qızğın qəzəblə əmr etdi ki, Şadrakı, Meşakı və Aved-Neqonu gətirsinlər. Bu adamlar padşahın hüzuruna gətirildi.*
>
> *Navuxodonosor onlara dedi: "Ey Şadrak, Meşak və Aved-Neqo, bu doğrudur ki, siz mənim allahlarıma qulluq etmirsiniz? Mənim qoyduğum qızıl heykələ səcdə etmirsiniz?*
>
> *Yaxşı olar ki, indi şeypur, zurna, lira, arfa, səntur, tuluq zurnası və hər cür musiqi alətlərinin səsini eşidən zaman yerə əyilib düzəltdiyim heykələ səcdə edəsiniz. Əgər səcdə etməsəniz, o saat odla qızmış sobaya atılacaqsınız. O zaman sizi hansı allah mənim əlimdən qurtara bilər?"*

Bu oğlanların gözəl cavablarına baxın:

> *"Ey Navuxodonosor, bizim bu iş üçün sənin önündə özümüzü müdafiə etməyimizə ehtiyac yoxdur.Ey padşah, əgər belə olsa, qulluq etdiyimiz Allahımız bizi odla qızmış sobadan xilas etməyə qadirdir və sənin də əlindən qurtaracaq"* (3:16, 17).

Onlar bilirdilər ki, Allah onları azad etməyə qadirdir. Onlar əvvəllər bunu sınaqdan keçirmişdilər. Onlar həm də bilirdilər ki, O onları azad edəcəyini vəd etməyib, çünki biz aşağıdakı ayədə oxuyuruq:

> *"Sənə məlum olsun ki, ey padşah, əgər belə olmasa da, biz sənin allahlarına qulluq edən deyilik və sənin qoyduğun qızıl heykələ də səcdə etməyəcəyik"* (3:18).

Bu cavan oğlanlar Allahın onları necə xilas edəcəyini bilmirdilər. Onlar bu faktdan xəbərdar idilər ki, Allah nəyisə etməyə qadir olduğu üçün bu o demək deyil ki, O bunu *edəcək*. Amma onlar bilirdilər ki, nəticələrdən asılı olmayaraq Ona etibar etməli və ardınca getməlidirlər. İtaətlilik qurtuluşa əminlik barədə əvvəlcədən şərtləşdirilməyib.

Belə imtahan Daniel və onun dostları üçün davam etdi. Qoca vaxtlarında Daniel öz Allahına dua etməyi qadağan edən yeni qanuna itaət etməklə qarşılaşdı, o, nəticələrdən yaxşı agah olsa da bu qanuna itaət etməkdən imtina etdi. O, şirlər olan quyuya atılanda bunun nəyə görə baş verdiyini bilirdi. O bilirdi ki, Allah Öz xalqını xilas etməyə qadirdir. Amma həm də bilirdi ki, Allahın xalqının ağıllı *adamları "qılıncla öldürüləcək, yandırılacaq, əsir düşəcək və qarət ediləcəklər"* (11:33).

Daniel kitabının ən çətin hissələrinin bəzilərində o, gələcək barədə Allahın ona verdiyi bir neçə görüntünü qeyd edir. Ton Danielin tarixə baxışında qabarıq olan iki fikri göstərir və faydalı yekun təqdim edir:

1. Allah kainat və tarix üzərində alidir. O Öz məqsədlərini övladları ilə yerinə yetirəcək, hətta onlar bu yolda fəlakətlərlə qarşılaşsalar da O bunu edəcək.

2. Allah səlahiyyətini insan ilə bölüşür. O, insana Öz yaratdıqları üzərində səlahiyyət verir (Yaradılış 1:28), amma müəyyən fərdlərə isə (məs, Navuxodonosor) millətlər üzərində rəhbərlik etmək səlahiyyəti verib (2:37, 38). Əgər həmin fərd Allahın

aliliyini tanımırsa, həmin səlahiyyət əlindən alına bilər. Allahın məqsədi səlahiyyətdən düzgün istifadə edə bilən insanlar tapmaqdır, O, sonda bu insanlara Öz yaratdıqları üzərində təkcə sınaq üçün deyil, bütün əbədiyyət üçün hökmranlıq etməyin cavabdehliklərini verə bilər. Daniel 7:13, 14-də biz "insan oğlu"na bənzər birinə bu səlahiyyətin verildiyini oxuyuruq, İsa bunu Matta 26:67-də Özünə aid edir. Amma dərhal sonra (18, 21, 22, 27-ci ayələr) biz oxuyuruq ki, padşahlıqlar "Küll-İxtiyarın müqəddəslərinə" veriləcək. Bu hökmdarlar iki əsas şeyi edəcək: onlar Ona ibadət və itaət edəcək (28-ci ayə). Onların hökmranlıqları Onun hökmdarlığı altında keçiriləcək.

Amma bunlar baş verməzdən əvvəl onlar böyük əzab çəkəcəklər. Onlar sıxıntılara məruz qalacaqlar (7:25). Rəhbərliyi altında hökmranlıq etdikləri Məsh olunan həlak olacaq və bu özü üçün olmayacaq (9:26). Müqəddəs yerlər viran ediləcək və Allahın xalqı Danielin və onun dostlarının üzləşdiyi həmin qərarlar ilə üzləşəcəklər (11:31, 32).

Ton qeyd edir ki, Daniel 11:32-35 bütün kitab üçün açardır, həm Allahın xalqının başına nə gələcəyini, həm də niyə baş verəcəyini izah edir:

O, əhdə xəyanət edənləri yaltaqlıqla yoldan azdıracaq, lakin öz Allahını tanıyan xalq qüvvətlənib hərəkətə gələcək. Xalqın ağıllı adamları çoxunu öyrədəcək, ancaq bir müddət qılıncla öldürüləcək, yandırılacaq, əsir düşəcək və qarət ediləcəklər. Onlar məğlub olanda bir qədər kömək alacaqlar, ancaq çox adam riyakarcasına onlara qoşulacaq. Ağıllı adamlardan bəzisi həlak olacaq ki, qalanları axır zamana qədər paklanıb təmizlənsin və ləkəsiz olsun. Çünki axır zaman yenə də müəyyən vaxtda olacaq.

Müdrik olanlar Allahı tanıyanlardır; onlar Onun planlarını və yollarını bilirlər. Onlar başqalarını öyrədirlər və hətta həyatları bahasına sadiq qalırlar.

Ton 11:34-də xatırladır ki, səmimi olmayan bəzi adamlar Allahın xalqına qoşulacaq: "ancaq çox adam riyakarcasına onlara qoşulacaq." Qarşıdurma bəzi müdrik insanların tərəddüd etməsinə və ya büdrəməsinə səbəb olacaq. Düşmənçilik həqiqətən olacaq və bu ciddi olacaq.

Amma bu onları təmizləyəcək və saflaşdıracaq. Allahın sonuncu məqsədi kimi O, insana yaratdıqları üzərində hökmdarlıq səlahiyyətini verir, sadiqlik sınağı insanın Allahın ali səlahiyyəti altında qalıb-qalmayacağını müəyyən edir. O, çətin vaxtlarda və vədi olduqca uzaqda görəndə itaət edəcəkmi? Əgər o dözürsə, Danielin sonuncu ayəsi vəd edir ki, günlərinin sonunda sadiq qalan şəxs onun üçün ayrılan yeri və ya mirası alacaq (12:13). Təqib Məsh olunan ilə hökmranlıq edənlərin dəyərini sınaqdan keçirir; bu göstərir ki, onlar Onun aliliyini öz həyatlarında tanımağa hazırlaşıblar. Onların hər şey əllərindən çıxanda dözümləri Ona olan etibarlarının gerçəkliyini aşkara çıxarır.

Allah sonda millətlər üzərində hökmranlığı həvalə etmək üçün nə cür insanlar axtarır? Ton Danielin bu barədə təlimini yekunlaşdırmaqda gözəl iş görüb:

1. Allaha bütünlüklə itaət etmək barədə əsas qərarı çıxaran qadınlar və kişilər; onlar nəyin bahasına olursa olsun Onun qanunlarına əsasən yaşayacaqlar.

2. Sınaqlar, təqiblər və ölüm hədə-qorxusu ilə üzləşəndə bütün çətinliklərə, işgəncələrə və hətta şəhidliyə dözən qadınlar və kişilərin sadiq olduğu sübut olundu.

3. Allahın ali hökmranlığını bəyan etmək və Onu hər bir şeydə tanımaq üçün böyük həvəsi olan qadınlar və kişilər öz adlarına heç bir tərif götürməyərək həmişə bütün izzəti və şükranı Ona verirlər.

4. Başqalarına müntəzəm olaraq Allah haqqında danışmaqdan dolub daşan qadınlar və kişilər insanları Ona yönəldir və salehlik yolunu göstərir.

5. Tarixi aydın başa düşən kişilər və qadınlar müvəqqəti şeyləri itirməyin, hətta Allah uğrunda həyatın özünü itirməyin həqiqətdə itki deyil, qazanc olduğunu bilirlər. Müasir dövrdə olan cəld təminat əvəzinə onlar məqsədlərinə çatmaq üçün əbədiyyətə ümidlə baxırlar.

2-Cİ FƏSİL

ALLAHIN MƏSİHDƏ VƏHYİ

ALLAH ƏZAB ÇƏKƏN BİRİ KİMİ

1943-cü ilin aprel ayında cavan lüteran pastor Dietrix Bonhoeffer iki dostu ilə birlikdə Adolf Hitlerə qarşı sui-qəsddə iştirak etdiklərinə görə Alman Qestaposu tərəfindən həbs olundu. Flossenburqda edam edilməsindən doqquz ay əvvəl 1945-ci ilin aprelin 9-da Bonhoeffer dostuna məktub yazdı, bu məktubunda o, əzab və dünyada Allahın hüzuru barədə maraqlı mülahizə yürütmüşdü: "Yalnız əzaba Allaha kömək edir."

Con Stott bir hadisəni yadına salır, həmin vaxtda Almaniyanın başqa bir yerində Buçenvald həbs düşərgəsində ziyalı yəhudilər qrupu bir bazar günü Allahın Öz xalqını yaddan çıxardığına görə Onu məhkəməyə çəkməyi qərara aldılar. Həm müttəhim, həm də vəkil üçün şahidlər gətirildi. Ravvinlər hakimlər qismində iştirak etdilər. Hər iki tərəf iştirak etsə də, müttəhim üçün məhkəmə işi olduqca ağır idi. Bu məhkəmədə hakimlər ittihamçılar ilə razılaşdılar və cəza tədbiri tətbiq etməyi məsləhət gördülər.

Məhkəmə işləri təqdim ediləndə məhkəmə və hökm, uğursuz olsa da başa düşüləndir. Alman faşizminin dəhşətləri, ölüm düşərgələri, qaz kameraları, həyatların məhv edilməsi və belə qəddarlığın və ədalətsizliyin qarşısında Allahın sükutunu görmək bir çoxlarının imanını silkələdi. Bizim dünyamızda nəhəng şər, nəhəng əzab və nəhəng ədalətsizlik var. İyirminci əsrin ortalarında alman faşizmi bizim üçün aydın şəkildə təsvir olunub. Xmer Ruc 1970-ci ildə Kambocada Pol Potun rejimi altında eyni şeyi etmişdir. Sudan və keçmiş Yuqoslaviya dövlətləri tərəfindən törədilmiş vəhşiliklər


1990-cı illərdə bəşəriyyətin mənəviyyatının pozulmasının dəhşətli xatirəsini yaratdı.

Məsihçilik əzab çəkmə sualını başa düşməyə çalışarkən tənha olmayıb. Dünyada olan hər böyük dini sistem bu məsələ ilə hansısa dərəcədə mübarizə aparıb. Amma məsihçilik Allahın alicənablığını dəstəkləyərək gerçəklikdən uzaqlaşmaqdan imtina edir. Buddizmdən, Qnostisizmdən və Məsihçi Elmindən fərqli olaraq, biz əzabın, hətta onun bütün səbəblərini heç də həmişə anlamasaq da gerçəkliyini tanıyırıq. Biz dərk edirik ki, əzab çəkmək bütün vəziyyətlərə uyğunlaşan tək bir cavab ilə izah edilə bilməz. Bu o demək deyil ki, biz onu başa düşməyə çalışmırıq və ya həmişə düzgün cavablar tapırıq. Nə də biz demirik ki, mənanı tapmaq üçün axtarış bəhrəsizdir və ya ilahi imtiyazın pozulmasıdır. Amma məsihçilər etiraf edirlər ki, əzab gerçəkdir.

Əslində məsihçi imanının tarixi təqib və əzab tarixidir. Başlanğıcdan İsanın davamçıları işgəncə verənlərin əlində əzab çəkiblər, bu işgəncə verənlərin taktikaları ən azı faşistlərin vəhşilikləri ilə eynidir. ***Foksun Şəhidlər Kitabı*** və ***Şəhidlərin Güzgüsü*** kimi belə tarixi klassiklər nümunələr ilə doludur. Amma bizə belə uzağa getməyə ehtiyac yoxdur. Dünyanın bir çox yerlərində indiki zamanda məsihçilərin geniş yayılmış, qəddar təqibi və təhqiri hələ də baş verir.

Bir çox məsihçilər üçün əzabın ən narahat edən cəhəti bəzilərində bu ideyanın olmasıdır ki, Allah ağrımıza və ya Onun xalqının təqibinə qarşı laqeyddir. Bir neçə il bundan əvvəl mən böyük bir konfransda *Şəhidlərin Səsi* təşkilatını təmsil edirdim. Bizim sərgi yerimizin bir hissəsində bəzi məsihçilərin şəkilləri və şəhadətlikləri qoyulmuşdu, onlar imanlarına görə işgəncələrə məruz qalmış və Allahın lütfü ilə dözmüş imanlıların həyatları idi. Hekayələrdən biri Filip adlı sudanlı cavan oğlan idi.

Filip Sudan dövlətinə sadiq olan islamçılar tərəfindən əsir tutulmuş və məcbur edilmişdi ki, islama qayıtsın. Bir məsihçi kimi Filip imtina etmişdi. Onu bu fikirdən dönməyə məcbur edərək əsgərlər yanan çubuqları onun sinəsinə tutmuşdular, o biri əsgərlər isə onu başı aşağı saxlamışdılar. Filip əmin idi ki, o öləcək, amma qəti qərara gəlmişdi ki, Rəbbi inkar etməkdənsə ölsə daha yaxşıdır.



Möcüzəli surətdə o sağ qalmışdı və onun həyatı təqibdə Allahın gücünə şəhadətlik idi.

Konfransda hansısa bir məqamda orta yaşlı bir qadın sərgiyə gəldi. Başqaları ilə məşğul olsam da, onu görmə sahəmdə saxlamışdım ki, birdən sualı olsa ona cavab verə bilim. O, Filipin şəhadətliyini oxuyanda hiss etdim ki, imansızlıq içərisində başını yırğalayır. Mən ona yaxınlaşanda onun öz-özünə bu sözləri dediyini eşitdim: "Mən başa düşə bilmirəm. Mən sadəcə başa düşə bilmirəm." Ona yaxınlaşıb ehtiyatla sual verdim: "Bağışlayın xanım. Siz nəyi başa düşmürsünüz?" Gözlərini geniş açaraq Filipin şəklini göstərdi və dedi: "Mən başa düşə bilmirəm ki, Allah necə Öz xalqını belə unuda bilər!"

Mən onun fikri ilə razılaşmasam da, onun kimi düşünənlər çoxdur. Sonsuz görünən əzabların içərisində Allahı uzaqda, əzablarımızdan kənarda, səmavi taxtında oturmuş və dünyadan təcrid edilmiş görmək asandır. Heç vaxt əzab çəkməyən və ağrıdan azad Allah. Heç vaxt bizim yerimizdə olmayan və bizim qarşılaşdığımız şeylərlə qarşılaşmayan Allah. Con Stottun sözlərincə, "milyonlarla insan acından öləndə veyllənən, ola bilsin ki, səmavi şezlonqda mürgüləyən" Allah. Biz Onun haqqında düşünürük ki, O, kürsüdə tamaşaçı kimi oturub, dünyanın əzab çəkməsindən daxilən sevinir və öz azadlığından zövq alır. Biz bilmək istəyirik ki, O həqiqətən yerdə baş verənlərlə maraqlanırmı? Biz dünyada dəhşətli təqibləri, minlərlə insanın sadəcə məsihçi imanlarına görə öldüyünü, on minlərlə insanın həbs olunduğunu, kasıblaşdığını, yetim və dul qaldığını görəndə təəccüb içində oluruq...

O görmürmü? O eşitmirmi? Allah bizim ən qaranlıq anlarımızda haradadır? Sudanlı uşaq anasının qucağından qoparılanda Allah

haradadır? Onun övladlarının xüsusi orqanlarına ağrılı elektrik zərbələri vurulanda O haradadır? Rəbbin Süfrəsini saxta şəkildə yamsılamaq üçün məsihçi pastorlar öz bədən tullantılarını yeməyə və öz sidiklərini içməyə məcbur ediləndə O haradadır? Məbəd rəhbərlərinin üzərinə benzini töküb alışdıranda Allah haradadır? Səkkiz yaşlı qızın atasından Müqəddəs Kitabı murdarlamağı tələb edən qatilin qızın gözləri qarşısında arxadan onu öldürəndə O haradadır?

Əzab içərisində ən çətin dərk olunan şey fəlakətin özü, hətta onun ağrısı və ya ədalətsizliyi deyil. Əzabın əsl neştəri "Allahın unutması"dır. Biz fəryad qoparırıq, amma Allah elə bil ki, bizimlə maraqlanmır. Sanki Allah bacarmayanda, ya da bizim sıxıntılarımız barədə nəsə etmək istəməyəndə göylərin sükutu bizi incidir.

Həll nədir? Bonhoeffer: "Yalnız əzaba Allah kömək edir?" deyəndə nə demək istəyirdi? Bizim əzab və təqib barədəki suallarımıza cavabın bir hissəsi Allahı əzab çəkən Allah kimi görməkdədirmi?

Əlbəttə, hər şeydən öncə biz bunun Allahın düzgün ideyası (hətta qismən düzgün) olub-olmadığını özümüzdən soruşmalıyıq. Bu suala cavabı aşkara çıxarmaq bölməmizin məqsədidir. Allah hissiyyatsızdır (əzab çəkməyi bacarmır), yaxud O əslində ağrının nə olduğunu bilir? Allahın əzab çəkməsi ideyası Müqəddəs Kitaba əsasəndir? Əgər belədirsə, Kəlamda bu nə cür nümayiş edilib?

Bunlar əsas suallardır. Biz istədiyimiz tərzdə Allah barədə düşünməkdə azad deyilik, Onun Özünü bizə açdığı qədər biz düşünə bilirik. Yalnız Allah Allahı açıqlaya bilər. Başqa cür etmək və buna inanmaq öz surətimizə bənzər Allah yaratmaq günahına düşməkdir, bu bütpərəstlik adlanır.

Ona görə də bizim bu bölmədə cavab verməli olduğumuz sual budur: "Allah hissiyyatsızlıq sahəsində Özü barədə nəyi açıqlayıb?"

Hissiyyatsızlıq təlimi

Allahın həqiqətən əzab çəkə bilməsi sualı ənənəvi olaraq hissiyyatsızlıq adlanan təlimdə aşkara çıxır: "bu təlimdə deyilir ki, Allah hərəkət etməyi bacarmır və ya yaradılışda olan hər bir şey tərəfindən emosional təsirə məruz qalmır." Bu termin

(impassibilis) latın qrammatikasının sifətidir, mənası "əzab çəkməyi bacarmamaq" deməkdir və buna görə də "emosiyasız" mənasını verir. Buna ekvivalent olan *apathes* sözü yunan filosofları tərəfindən Allahı məmnuniyyətdən və ağrıdan yuxarıda olan biri kimi təsvir etmək üçün istifadə olunub. Dəyişikliyi özünə daxil edən belə emosiyalar kamil, dəyişməyən xasiyyət və ilahiliyin sakitliyi ilə zidd kimi görünür. Bu baxış vaxt keçdikcə erkən yunan məbəd ataları tərəfindən tamamilə tənqidsiz qəbul edilmişdi və nəticədə Stott düzgün tərzdə dediyi kimi onların Allah barədə təlimləri bəzən ibranidənsə yunan kimi səslənir. Onlar Əhdi-Ətiqdə Allahın məhəbbət, qısqanclıq, hirs, kədər və rəhm olan bütün təsvirlərini antropomorfizmin hakimiyyətinə salmışdılar, belə ki onlar hərfi başa düşülməməli idi, çünki onlar inanırdılar ki, ilahi təbiət heç bir emosiya tərəfindən hərəkətə gəlmir. Xalsedon (b. e. 451-ci ilində) Şurası ilahi təbiətin "boşboğazlıqlar" kimi əzab çəkə bilməsi ideyasını bəyan etmişdi və ona inananları ittiham etmişdi.

Məbədə ataları Məsihin, Allahın bədən almış Oğlunun əzab çəkdiyini etiraf edəndə onlar sübut etməyə çalışdılar ki, Allah Özü əzab çəkməyib; O hissiyyatsızdır və ya İngiltərə Məbədinin Otuz doqquz Məqaləsindən birinin təsdiqlədiyi kimi Allah "bədənsiz, üzvlərsiz və ya duyğusuz"dur. Vestminster iman etirafı (*The Westminster Confession of Faith)* açıq-aşkar təsdiqləyib ki, Allah "bədənsiz, üzvlərsiz və ya duyğusuz, dəyişməzdir."

Tarixi baxımdan bu hissiyyatsızlıq vəziyyəti məsihçilik düşüncəsində üstünlük təşkil edib. Tertullian, romalı Hippolitus, Avqustin, aleksandriyalı Kiril, Anselm, Akinas, Kalvin, Arminius və Uesli bu təlimi dəstəkləyiblər.

Amma üstünlük təşkil etmə ümumilik demək deyil. Məbəd tarixi boyunca Allah barədə olan bu baxışın Müqəddəs Kitaba əsasən olub-olmadığını araşdıran insanlar olub. Xüsusilə, iyirminci əsrdə ənənəvi hissiyyatsızlıq baxışında ümumi dönüşlər olub, çoxlu sayda nüfuzlu Müqəddəs Kitab alimləri, teoloqlar və məsihçi filosoflar səylə ilahi həssaslıq, ən azı hissiyyatsızlığın yenidən müəyyən edilməsi barədə mübahisə ediblər. Mən daha çox axırıncı fikir üçün mübahisə etməyə meyl edərdim.

Sözün düzü, erkən məbəd atalarının niyyəti əsasən düzgün idi. Stottun izah etdiyi kimi, "Onlar hər şeydən öncə Allahın kamil olduğu (belə ki, Ona heç nə əlavə oluna bilməz və ya çıxarıla bilməz) və Allahın dəyişilməzliyi (belə ki, heç bir şey Onu narahat edə bilməz) barədə həqiqətləri qorumaq istəyirdilər. Bu etiqadlar Müqəddəs Kitaba əsasən Allah barədə olan baxış üçün əsasdır. Ona görə də əslində bizə ilahi hissiyyatsızlığın nə məna daşıyıb və ya daşımamasını yenidən müəyyən etmək və ya yenidən aydınlaşdırmaq lazımdır.

Çox vaxt belə bir qorxu var ki, Allahın əzab çəkməsinə istinad etmək Ona elə bir xüsusiyyət verə bilər ki, bu Onun hər şeyə qadir olması və dəyişməzliyi ilə uyğunlaşmaz. Bəziləri üçün əzab çəkən Allah zəif və dilxor İlahi mənasını verir. Əslində bu belə deyil. Olriç düzgün şəkildə göstərir ki, "əgər biz fikrimizdə saxlasaq ki, Allah əzab çəkməyi *seçi*r, onda həssaslığa olan etirazlar itib gedər; əzab çəkən Allah passiv şəkildə ağrıya dözmür, fəal tərzdə onu qəbul edir." Dennis Ngien yazır: "Bizim məsihçi ulubabalarımız Allahın hissiyyatsız olması barədə düzgün yazıblar, əgər bu, Allahın emosional olaraq dəyişkən olmadığını və insanlar tərəfindən idarə olunmadığını bildirirsə, onda onlar düzgün deyiblər. Amma onlar Allahın heç bir duyğusunun olmadığını deməklə səhvə yol veriblər."

Əgər hissiyyatsızlıq bu mənanı verirsə, yəni Allah nə daxili, nə də xarici təsirlərdən Öz iradəsinə qarşı məcbur edilə bilməz və O heç vaxt vəziyyətlərin, hərəkətlərin və ya emosiyaların aciz qurbanı deyil, onda aydındır ki, bu, Kəlamda Allah barədə verilən vəhy ilə uyğundur. *Allah qeyri-iradi və ya könülsüz hərəkət edə bilməz*. Allah əzab çəkir, çünki O sevməyi seçir.

Biz həm də bunu əlavə etməyə tələsməliyik ki, hissiyyatsızlıq o deməkdir ki, Allah heç vaxt Öz xasiyyətinə və başqa aşkar edilmiş xasiyyətlərinə zidd hərəkət etməyə məcbur edilə bilməz. Uilyam Templ yazır: "Məsihin Allahı göstərdiyi kimi Onun 'duyğusuz' olmasında olduqca xüsusi məna var; çünki O Yaradandır və alidir, Öz razılığı olmadan nəyinsə Onun başına gəlməsi mənasında heç vaxt 'passiv' deyil; o həm də daimidir və külək kimi ora-bura əsmir." Amma hissiyyatsızlıq "əzab çəkməyi bacarmamaq"dırsa, onda

Templ təsdiqləyir ki, "bu mənada onun Allah barədə peyğəmbərliyi demək olar ki, bütünlüklə yanlışdır."

Hissiyyatsızlıq bu mənada Kəlamın şəhadətliyi ilə uyğunlaşmır, biz bunu tədqiqdə az sonra görəcəyik. Luisin dediyi kimi demək tamamilə Kəlama uyğundur, "Allah öz intellektual və iradi qüvvələrini kamil surətdə istifadə etdiyi kimi, O Öz emosional qüvvələrini də kamil surətdə istifadə edir ... Allah emosiyalar tərəfindən dəf olunmur, nəzarətsiz, taraz olmayan, yaraşmayan emosiyalara malik deyil...Müqəddəs Kitabda Allahın münasib, sağlam, idarə olunan emosional həyat təcrübəsi var."

İlahi hissiyyatsızlığın Müqəddəs Kəlama əsasən baxışı Allahın dəyişməzliyinə zidd getməkdənsə təsdiqləyir ki, Allah – düşündüyü, danışdığı və etdiyi hər şeydə-Öz xasiyyətlərinə və məqsədlərinə müvafiq tərzdə hərəkət edir. Bundan əlavə bu təsdiqləyir ki, Allah yalnız hüdudları aşan deyil, O həm də mütləqdir. Dəyərsiz və idarə olunmayan emosiyalardan və qeyri-iradi və ya könülsüz hərəkət etməkdən azad olsa da, Allah ağrıdan əzab çəkənlər ilə hər cəhətdən ünsiyyət qurmağı bacarır.

Ona görə də biz təsdiqləyirik ki, Allah dəyişməzdir və alidir. Amma biz bunu iki səhvi etmədən etməliyik, birinci səhv Allah o qədər bizim kimidir ki, biz Ona etibar edə bilmərik, ikinci səhv isə Allah o qədər bizə bənzəmir ki, O Öz xalqı ilə canlı, sevən ünsiyyətdə ola bilməz.

Antropomorfik metaforalar

Allahın əzab çəkib-çəkmədiyi məsələsinə bizə xatırlandığı kimi baxanda antropomorfik metaforalar məsələsinə toxunulmalıdır.

Antropomorfik metaforalar nədir? Sadəcə onlar Allahın hirs, kədər, qüssə və sevinc kimi insanabənzər emosiyaları keçirdiyini təsvir etmək üçün Kəlamda istifadə olunan bədii təsvir vasitələridir. Bizim cavab verməli olduğumuz sual budur ki, Allah bu emosiyaları bizim kimi eyni cür keçirir? Yaxud Müqəddəs Kitab sadəcə bizim başa düşdüyümüz tərzdə Allaha müraciət edir?

Bu fikir qəbul olunmalıdır ki, Allah bizim Onun üçün istifadə etdiyimiz istənilən dilin qeyri-kafi olması mənasında hər cəhətdən

təsvirolunmazdır. Buna oxşar olaraq, biz qəbul etməliyik ki, Müqəddəs Kitab Allahın insan emosiyaları keçirdiyini söyləyəndə bu ümumiyyətlə, antropomorfik tərzdə danışılır, "insan dairəsindən çıxmış bir dildə Allah danışır." Amma Allahın hisslərinin insan hissləri olduğunu demək o demək deyil ki, onlar həqiqi deyil. Con Stott yazır: "Əgər onlar yalnız mücərrəd olsa, onda Allahın bizim üçün qoyduğu şey mücərrədliklərin hədsiz aysberqidir."

G. R. Luis: "bütün bu antropomorfik ifadələr (Allahın emosiyaları ilə əlaqədar) məcazidir, amma bədii təsvir vasitələri məcazi olmayan şeyi təsvir edir" deməklə əsaslı bir mülahizə yürüdür. Frezeym bununla razılaşır: "Metaforalar Allah olan gerçəklik ilə əsaslı bütövlüyü aşkara çıxarır...Metaforalar 'təsvir olunan geçəkliklərdir."

Biz deyə bilərik ki, antropomorfizm əslində Allahı həqiqətən təsvir edə bilər; onlar dəqiqdir, tükənən deyil, Allah haqqında məlumatı daşıyır. Onlar tam təsviri olmasa da təsviri ola bilər, çünki Allah bizim təsvirlərimizin hər biri üçün məhdudlaşa bilməz. Amma onların çatdırmaq istədiyi məlumat həqiqidir və ciddi qəbul edilməlidir. Frensiz Şeffer bunu göstərməyə öyrəşmişdi ki, Allahın Özü barədə aşkar etdiyi şeylər təkcə bizim üçün deyil, həm də Onun üçün həqiqidir. Həqiqət doğru olmaq üçün tükənən olmamalıdır. Allah haqqında doğru olan nəyisə bilmək üçün bizə hər şeyi bilmək və ya hər şeyi bilmək bacarığı lazım deyil. Amma biz Müqəddəs Kitabın Allahına inanırıqsa, onda biz inanmalıyıq ki, Allahın Özü barədə aşkar etdiyi hər şey doğrudur və Allah barədə bu biliyə görə cavabdehik.

Beləliklə, əgər Allah Özünü əzab çəkən kimi aşkar edirsə, biz qeyri-iradi olaraq fikrimizdə güman etməli deyilik ki, Allah əslində əzab çəkməyib. Freteym yazır ki, əgər biz belə düşünürüksə, onda Allah ilə ünsiyyət qurmaq qeyri-mümkündür."

Əslində Müqəddəs Kitabın təsdiqlədiyi kimi əgər Allah hər şeyə qadirdirsə, belə güman etmək düzgündür ki, O, fani insana Öz xasiyyətinin cəhətlərini doğru və başa düşülən tərzdə çatdırmaq üçün hər cür bacarığa malikdir. Əgər həqiqəti çatdırmaq arzusu varsa, yəqin ki, Allah həm bunu çatdırmağı bacarır, həm də onun başa düşüldüyünə əmin olur.

Ona görə də ilahi hissiyyatsızlığın və antropomorfik metaforaların təliminə baxarkən "Allah əzab çəkə bilərmi?" sualına cavab belə görünə bilər: əzab çəkə bilən Allah ilə danışmaq bizlər üçün tamamilə mümkündür. Əslində bizim üçün belə etmək olduqca faydalıdır.

Bu uzun izahatdır, amma Allah əzab çəkir. Biz mümkünlüyə imkan vermişik. Biz indi Allahın Öz Oğlunda və Kəlamda vəhyinə baxmalıyıq ki, görək Allah həqiqətən əzab çəkir, əgər belədirsə, necə əzab çəkir.

Bədənlə əzab

Çarlz Olriç yəqin ki, *Əzab çəkən Allah* adlı öz kiçik gözəl kitabında yazarkən doğrudur, "Müqəddəs Kitabda ən narahat edən və ən qıcıqlandıran təlim budur ki, Nazaret şəhərindən olan adi dülgərin oğlu İsa Məsih, həqiqətdə bədəndə gəlmiş Allah idi."

Əhdi-Cədid məsihçiləri inanırdılar ki, Allah Özü bu dünyaya gəlib və onu İsa Məsihdə xilas edib. Allah və insan arasında boşluq birləşmişdir. Əhdi-Ətiqdə verilmiş ümid İsanın şəxsiyyətində həyata keçdi. Başqa bir təsvirdən istifadə edərək Allahın bəşəriyyəti xilas və bərpa etməsi üçün olan nəğmələri-Yaradılışda ilk notlar səslənib – Yeşayada həcmini artırmış, Danieldə və başqa peyğəmbərlərdə təkrarlanmış və İsanın zühurunda kulminasiyaya çatmışdır.

Allah Özünü insana Öz Oğlu vasitəsilə zühur edib.

O nə cür Allahdır?

Yeşaya 40:18-də peyğəmbər soruşmuşdu: *"Bəs onda Allahı kimə bənzədərsiniz?*

Onu nəyə oxşadarsınız?" Bildiyimiz kimi insanlar ilahi barədə ideyalarını təsvir etməyə cəhd göstərərkən dünyada olan hər bir din bu suala cavab verməyə çalışır.

İsraillilər üçün Yeşayanın sualı ritorik idi. Sadəcə Allahın müqayisə oluna biləcəyi heç kim yoxdur, heç bir surət (əqli və ya fiziki) Onun varlığını lazımi qədər əks etdirə bilməz. Hər bir surətin aldadıcı olduğu labüddür.

İsanın zühuru ilə bu qəfildən dəyişildi. Qəfildən Allah Öz surətini təmin etdi. "Allahı kimə bənzədərsiniz?" sualına qəfildən cavab tapıldı: İsa.

2 Kor. 4:4 və Kolos. 1:15-də İsa Allahın surəti və ya təsviri (*eikun*) kimi verilir. Büt və ya surəti təsvir etmək üçün həmin bu sözdən istifadə edilir. İsa, Allahın insanlara Özünü aşkar etməsi üçün seçdiyi nümayişidir. Daha açıq-aşkar terminlərlə İbr. 1:2, 3-ün müəllifi yazır ki, İsa Allahın təbiətinin (*karaktr*) və izzətinin nurunun "dəqiq surəti"dir. ***Karaktrın*** gücü (biz "xarakter" sözünü əldə edirik) "xüsusi formanın və ya quruluşun dəqiq yenidən hazırlanmasının nümayişidir."

Allahın kimə bənzədiyini bilmək istəyənlər Onu İsanın şəxsiyyətində görə bilərlər. Amma insanlar İsaya baxanda nə görürlər? O nə cür Allahı aşkar edir?

Yeşaya 53-də biz oxuyuruq: *"Adamlar ona həqarətlə baxıb rədd etdi. O, dərdli, xəstəlikləri görən insan idi, ... Əslində xəstəliklərimizi o çəkdi, dərdlərimizi öz üzərinə götürdü*" (Yeşaya 53:3, 4).

Yeşaya 53 Qulun bəşəriyyətin günahı uğrunda əzabını vurğulayır, İsa çarmıxa getməzdən ***qabaq*** Onun xidmətindən danışmaq üçün Matta bu ayələrdən sitat gətirir. Mattanın fikrində Yeşaya 53:3, 4-ün peyğəmbərlikləri İsanın günahları yumasındansa bədən almasında həyata keçmişdir.

Xüsusilə, Matta 8:17 yazır ki, İsanın şəfa xidmətinin nəticəsində (1-16-cı ayələr), Yeşaya 53:4-ün peyğəmbərlikləri yerinə yetmişdi: *"Əslində xəstəliklərimizi o çəkdi, dərdlərimizi öz üzərinə götürdü*."

Başqa sözlə, İsanın gəlib aramızda yaşaması ilə günaha batmış dünyada yaşamağın nə demək olduğunu hər tərəfli göstərdi. O, insanların əzabını görəndə Onun mərhəməti o qədər çox idi ki, əslində onların ağrılarını və zəifliklərini hiss etdi. O, bir çoxlarının daşıdıqları yükləri gördü, çiyinlərini yükün altına verdi və onu daşımaqda bizə kömək etdi.

Yer üzünə gəlməklə O bizim burada yaşadığımız şəraitlərə, kədərə, xəstəliyə və əzaba daxil oldu. Xəstəliyi və kədəri Özü həyatda yaşayaraq və insan əzabını anlayaraq, O, insanlara

şəhadətlik edəndə bu həyatın əziyyətlərini yüngülləşdirməyə başladı. Biz dəfələrlə bütün Müjdələrdə görürük ki, İsa insanların halına acıdığı üçün şəfa verdi. Dərin şəfqəti və hala acıması ilə İsa "xilas etməyə gəldiyi insanların kədərlərinə tamlığı ilə və fərdi şəkildə" daxil oldu. Bredin yazır: "O, insanları dəyişdirmək üçün onların qorxularına, ağrılarına, göz yaşlarına və narahatlıqlarına daxil olur."

Allah İsa Məsihin şəxsiyyətində insan olanda O, günaha batmış dünyada insan kimi tam ölçüdə fiziki əzabı yaşayır. Bədən alarkən O dərdli və xəstəlikləri tanıyırdı (Yeşaya 53:3). O acdı (Matta 4:2). O susadı (Yəhya 19:28). O yoruldu (Yəhya 4:6; Luka 8:23, 24). İbranilərə məktubun müəllifi göstərdiyi kimi O Özü əzab çəkməklə bəşəriyyətin əzabını anladı və onun halına acıdı. Biz belə Allaha xidmət edirik. Ponti Pilat döyülmüş və qanı axan İsanı göstərəndə və "Budur, sizin padşahınız" deyəndə daha çox təsəvvür etdi (Yəhya 15:14).

ŞƏFA GÜNAHLARIN YUYULMASINDADIRMI?

Yeşaya 53:4-dən birbaşa sitat gətirən Əhdi-Cədidin iki parçası var. Ən aydın görünən parça Matta 8:17-dir, amma Mattanın kontekstində bizim aşağıda görəcəyimiz kimi məsələ günahların yuyulması deyil, bədən almasıdır. Bir çoxları güman edir ki, 1 Peter 2:24 həm də Yeşaya 53:4-dən sitat gətirir, amma Erikson göstərir ki, bu fərziyyə bəzilərinin inandığı kimi aydın deyil. Peter Əhdi-Ətiq parçasından sitat gətirdiyinə heç bir əlamət göstərmir. Biz "**yazıldığı kimi**" və ya başqa oxşar formullar yaxud ifadələr tapmırıq. Əslində biz onun Yeşaya 53-ə bütünlüklə, xüsusilə 12-ci ayəyə istinad etdiyini görürük. Onda biz İsanın Yeşaya 53:4-ün peyğəmbərliklərini necə həyata keçirdiyini nə cür başa düşməliyik? Bu məqamda dərin araşdırma olduqca faydalıdır.

Yeşaya 53:4-də biz oxuyuruq: "Əslində xəstəliklərimizi O çəkdi, dərdlərimizi öz üzərinə götürdü". Birinci ismin əsas

mənası bəzi tərcümələrdə "kədərlər" (*çeyl*) kimi yazılıb, bu da "fiziki xəstəlik" və ya "naxoşluq" deməkdir, amma termin Yeşaya 1:5 və Huşə 5:13-dəki kimi ruhani xəstəlik mənasını da verir. Bəzi tərcümələr ifadə etdiyi kimi söz cümlədə vurğulu vəziyyətdə yerləşdirilib. *"Çəkdi"* felinin əsasən üç ayrıca mənası var: "qaldırmaq"; "daşımaq, aparmaq, saxlamaq"; "götürmək, götürüb aparmaq", amma üstünlük təşkil edən məna "qaldırmaqdır". Bir çox şərhçilər *"çəkdi"* felini bu kontekstdə "daşımaq" və ya başqasının yerinə "aparmaq" kimi ifadə edirlər və əslində bu termin başqasının yerinə daşımağa aiddir. Amma Erikson mübahisə edir ki, Broun, Drayver və Biqqs tərəfindən sadalanmış yüz ayədə məna "daşımaq, aparmaq"dır, yalnız altısı başqasının yerinə təqsiri daşımağa aiddir. Erikson bəyan edir ki, Yeşaya 53:4-də tərcümə daha çox "götürüb" deməkdir. Stott bildirdiyi kimi fel özü "cəzanı çəkmək" mənasını vermir. "Günah onun məqsədi olanda biz bunu belə tərcümə etməyə borcluyuq." Erikson əlavə edir: "Həm də qeyd olunmalıdır ki, Yeşaya feli vurğulu vəziyyətdə qoymur; belə görünür ki, vacib olan qulun əzabı necə çəkməsi deyil, hansı əzabı götürməsidir" (vurğu əlavə olunub).

Bu hissədə olan ikinci isim (*makov*) bütün Əhdi-Ətiqdə on altı dəfə qarşıya çıxır, bunların on biri əqli əzaba aiddir. Qesenius bunu "qəlbin ağrısı" adlandırır. Erikson deyir : "Söz ilə çatdırılan əsas ideya həyatın çətinliklərindən və həm də onun fiziki yüklərindən yaranan əqli ağrı, kədər və ya yorğunluqdur. Burada məna belə görünür ki, fiziki taqətsizliyin nəticəsində "kədər" və ya yorğunluqdur. İkinci fel (*sabal*) əsasən "ağır yük daşımaq"dır. Bu söz Əhdi-Ətiqdə doqquz dəfə qarşıya çıxır. Mərsiyələr 5:7 və Yeşaya 53:11 xüsusilə, başqasının yerinə daşımaq mənasını daşıyır. Qalan nümunələrdə (*sabal*) sadəcə "yük daşımaq" mənasını verir; burada kiminsə yerinə yük daşımaq mənası yoxdur. Yeşaya 53:4-də fel başqasının yerinə daşımaq ideyasını özündə əks etdirdiyi üçün onun bu mənada olduğunu tələb etməyə səbəb yoxdur. Erikson qeyd edir: "Burada yenə də birinci ifadədə olduğu kimi vurğu əzab çəkən qulun nəyi daşımasının üzərindədir, onu necə daşımasının üzərində deyil."

Etiraf edilir ki, bu ayənin başa düşülməli olduğu müxtəlif yollar var. Belə görünür ki, Yeşaya 53:4-də əsl fiziki və əqli nasazlıqlardan danışılır, burada başqasının yerinə daşımaq mənası dəqiq yoxdur və Erikson bildirir: "Mattanın bu hissədən gətirdiyi sitatda biz çox oxşar bir şey tapırıq." Mattanın Yeşaya 53:4-ü təqdim etməsi olduqca qeyri-adidir, çünki bu nə Yunan Septuaqinti, nə də Tövratı izləyir, bunların hər ikisi ibrani dilini ruhaniləşdirir. Karson bu fikri yürüdür ki, Matta 8:17 daha çox Mattanın Yeşaya 53:4-ü tərcümə etməsidir, həm Yunan Septuaqintdən, həm də Tövratdan zəruri dəyişiklikləri verir. Yunan Septuaqinti ilə (Matta tez-tez öz Müjdəsindən sitat gətirir) onun Yeşayadan sitatı arasında olan mühüm fərq onun Yeşayanın parçasının birinci ifadəsindəki felləri əvəz etməsidir. Yunan Septuaqintdə ifadə (***fero***) felindən istifadə edir, bu da "başqasının yerinə daşıyaraq" kimi tərcümə edilməlidir. Amma Matta (***fero)*** sözünü (***lambano***) sözü ilə əvəz edir, bu söz heç yerdə təqsiri başqasının yerinə daşımaq və ya buna oxşar məna daşıyaraq istifadə olunmur. (***Lambano***) az və ya heç bir teoloji məna daşımayan son dərəcə adi sözdür. Matta 8:17-də bu sadəcə "götürüb aparmaq" və ya "çıxarmaq" mənasını verir.

İkinci felin (***bastazonun sabala)*** çox yaxın mənası var, "daşımaq" və ya "aparmaq" deməkdir, amma onların istifadə olunduğu heç bir yerdə bu "başqasının yerinə daşımaq" mənasını vermir. Ola bilsin ki, burada çatdırılan məna bizim Qalat. 6:2-də gördüyümüz şəfqətli daşımadır. Robertson yazır: "Mattanın istifadə etdiyi hissənin günahların yuyulması təlimi ilə heç bir əlaqəsi yoxdur." Amma o əlavə edir: "İsa öz şəfqətini bizə göstərir. Məsihin əzab çəkənlərə olan şəfqəti o qədər böyük idi ki, o həqiqətən onların zəifliklərini və ağrılarını hiss etdi. Bizim yüklərimizdə İsa bizimlə birlikdə yükün altına girir və onu daşımağa kömək edir. Erikson bununla razılaşır: "Bizim burada göstərdiyimiz budur ki, həm Matta, həm də Yeşaya günahlardan deyil, əsl fiziki xəstəlikdən və əqli yorğunluqdan danışır. Erikson davam edir: "Belə görünür ki, onlar daha çox bu həyatın çətinliklərini şəfqətli surətdə daşımağa aiddir. Əgər bu əsl şərhdirsə, İsa günahların yuyulmasını təklif etməklə deyil,

bədənlə gəlməklə *"xəstəliklərimizi çəkdi, dərdlərimizi öz üzərinə götürdü."*

R. T. Frans qeyd edir ki, Matta üçün vacibdir ki, İsa Yeşayanın söylədiyi Rəbbin Qulu rolunu həyata keçirmək üçün görünsün. Amma Frans göstərdiyi kimi "qəribədir ki, bu hissələrin heç biri (Matta 8:17 və ya Yeşaya 53:4) nə sitat gətirilən xüsusi sözlərdə, nə də onların aid olduğu İsanın xidmətində xilasedici əzabın fərqli roluna aid deyil." "Matta xoşlayır ki, təkcə İsanın xilasedici xüsusiyyətini deyil, Onun həyatının və xidmətinin ümumilikdə göstərsin."

Biz bunu qeyd etməklə yekunlaşdırırıq ki, Yeşayanın peyğəmbərliklərinin necə həyata keçməsi barədə bu izahat günahların yuyulmasının hələ həyata keçmədiyi vaxtdan qabaq günahların yuyulmasının nəticələrinin əslində necə deyilməsinin xronoloji çətinliklərinə cavab verir. Əgər günahların yüyulması Matta 8:17-də diqqət mərkəzində olsa idi, Mattanın Məsihin ölümündən hansısa müddət əvvəl kontekstdə bu ayədən sitat gətirməsinə səbəbi izah etmək çətindir. Əgər burada (və Yeşaya 53:4) günahların yuyulması deyil, bədən alma diqqət mərkəzindədirsə, onda ümumiyyətlə, heç bir xronoloji çətinlik yoxdur. Bu baxış həm də kontekstə və hər hissənin sintaksisinə əla uyğunlaşır. Ona görə də biz yekun fikrə gəlirik ki, Matta 8:17 və Yeşaya 53:4-ün vurğusu günahların yuyulması deyil, bədən almadır.

İsa heç xəstələnibmi?

Mənim İsanın xəstəlik keçirməsi barədə ilk dəfə yazdığım vaxt yadımdadır. Mənim daxilimdə hansısa bir hissə bu ideyaya qarşı durmuşdu. Amma biz indicə etdiyimiz kimi bədən almaya ciddi yanaşsaq, bu nəticəyə gəlməli və "Niyə də yox?" sualını verməli oluruq. Əgər İsa günaha batmış dünyada yaşamağın başqa nəticələrindən əzab çəkmişdisə, xəstəliyin üstündən nəyə görə

xətt çəkək? Fərq nədir? Xəstəlik barədə nəsə xüsusilə günahlı bir şey varmı? Xəstəlik başqa bütün ağrılar və əzablar kimi günaha batmanın nəticəsində yaranmış və yalnız Məsihin ikinci gəlişində aradan qalxacaq nəticələr deyilmi? Əgər biz İsanın heç vaxt xəstələnmədiyi barədə mübahisə etsək, Onun bu günaha batmış dünyada başqa bütün təsirləri yaşadığını izah etməkdə çətinlik çəkəcəyik. Biz günahı onun nəticələri ilə qarışdırmamaqda diqqətli olmalıyıq.

Allah Məsihdə işgəncə, əzab və ölüm ilə qarşılaşarkən ağrıdan əzab çəkdi. Biz həqiqətən Getsemani bağında olan hadisələrə ciddi yanaşmalıyıq, burada biz İsanın çarmıxın dəhşətlərindən kənara çəkilmək istədiyini görürük. Mark bunu daha aydın verir: "Özündə bir həyəcan və narahatlıq hiss etməyə başladı" (14:33). Yaxın saatlarda qarşılaşacağı hadisələr Onu olduqca məcbur edirdi ki, çağırıldığı şeylərdən uzaqlaşsın.

O bunu arzulamamışdı, nə də Onun ideyası deyildi. O, Ata tərəfindən göndərilmişdi. Çarmıx Oğulun deyil, Atanın təşəbbüsü idi. Oğul təcrübəsiz halda çarmıxa gedir. Amma bağda O, hönkürtü ilə ağlayaraq və göz yaşları içərisində əzabı yaşayırdı. O, üç dəfə dua edir: "Ata, qoy bu kasa məndən ötüb keçsin", amma "Sən Məni nə üçün göndərmisənsə, onu edərəm." İbranilərə məktubun müəllifi İsanın əzablarından itaətkarlığı öyrənməsi haqda yazanda o bu hadisədən danışırdı (İbr. 5:7, 8). İsa çarmıxa sadəcə ona görə gedir ki, bu Atasının iradəsi idi.

Paul 1 Kor. 1:23 və 2:2-də deyir ki, onun çatdırdığı xəbərin əsas mövzusu Məsih və Onun çarmıxa çəkilməsidir. Müjdələr çarmıxın kulminasiyasına yaxınlaşır. Çarmıx bədən alma üçün əsas idi. Siz İsanı çarmıxda görəndə Allahın necə olmasının mükəmməl təsvirini görürsünüz. Çarmıxa çəkilmiş Məsihdə siz aşkar olunmuş Allahı görürsünüz. Nqien yazır: "Çarmıxa çəkilmiş İsa dünyanın bu vaxta qədər gördüyü Allahın yeganə dəqiq təsviridir."

O, çarmıxda qışqırır: *"Allahım, mənim Allahım niyə məni tərk etdin?"* Bu qışqırıq məzmur deyənin 22-ci Məzmurda hiss etdiyi ilahi ayrılığı dəqiq mənada ifadə edir. Amma dua etməklə O göstərir ki, həqiqətən və ya tamamilə Allah tərəfindən tərk edilmədiyini bilir. O həm də bilir ki, Atası Onu xilas etmək və ya

əzabını yüngülləşdirmək üçün Onun xeyrinə hərəkət etməyəcək. O, Allahın məqsədlərini yerinə yetirmək üçün Onun təyin etdiyi yoldan uzaqlaşmağa sövq olunurdu. Şagirdləri, dəyişkən izdiham tərəfindən tərk olunan İsanı hamı qoyub gedir və heç kim kömək etmir. Kirenalı Şimon İsanın çarmıxını daşıyanda o bunu Ona yazığı gəldiyi üçün etmədi, onu məcbur etmişdilər ki, onu daşısın. Əsgərlər müttəhim üçün heç bir şey daşımadılar, yalnız Onun gözəl libasını qənimət kimi götürdülər. İzdihamdan olan adamlar və kahinlər onu ələ salırdılar (Mark 15:29-32).

İsanın *"Mənim Allahım, Allahım niyə məni tərk etdin?*" deyə qışqırmağa məcbur edən Atasının Ona kömək etməməsidir. Birinci Pasxa bayramında Misirin üzərinə Allahın lənəti gələndə qaranlıq kəskin surətdə nümayiş olunduğu kimi Allahın günahsız Oğlu bizim üçün lənətə çevrilir (Çıxış 10:21, 22; Mark 15:33).

İnsanlar Allahın heç vaxt əzab çəkmədiyi üçün ona cavabı olmadığını söyləyəndə məsihçilər bilirlər ki, bu fikir nə qədər ağılsız bir fikirdir. Bədən alarkən Allah tamlığı ilə fiziki və emosional əzabı keçirib. Allah Özü bizim aramızda yaşamış, halımıza acımış, bizimlə əzab çəkmiş, bizim üçün əzab çəkmiş və nəhayət, bizim yerimizə ölmüşdür. Çarlz Ueslinin yazdığı böyük himnin sözləri ilə desək, "Heyranedici sevgi! Bu necə ola bilər ki, mənim Allahım mənim yerimə ölsün?"

Olriç Qraham Grinin ***Yorğun Vəziyyət*** romanından bir hekayəni xatırladır, burada doktor Kolin adlı qəhrəman katolik kahinlər və rahibələr tərəfindən idarə olunan cüzam düşərgəsində ağır xəstələr arasında işləyir. Amma doktor Kolin ateistdir. Romanın sonunda elə bir hadisə baş verir ki, çoxlu sayda xəstələrin əzablı və qəribə halda şikəstliyini müşahidə edən Kolin Ali Ata ilə söhbət edir. Ali Ataya tərəf çevrilən Kolin deyir ki, Allah dünyanın əzab çəkməsinə baxarkən yəqin ki, ağrı çəkir. Ali Ata ona cavab verir: "Sən balaca oğlan olanda sənə teologiyanı yaxşı öyrədə bilməyiblər. Allah peşmançılıq və ya ağrı hissləri keçirə bilməz." Kolin isə ona cavab verir: "Yəqin ki, buna görə Ona inanmaq məni maraqlandırmır."

Stott belə bir sual verir: "Gerçək ağrı dünyasında insan ağrıdan azad olan Allaha necə ibadət edə bilər?" Vəziyyətini təsvir etmək üçün o bizə müxtəlif Asiya ölkələrində olan Buddist məbədlərinə

səfər etməsindən danışır, həmin bütləri ayaqları çarpazlaşmış, qolları qatlanmış, gözləri örtülmüş, dodaqlarında azacıq təbəssüm hiss olunmuş, üzündə

kənar bir baxış olan, ətrafındakıların ağrısından və əzabından azad kimi təsvir edir. O yazır: "Mən əksinə öz təsəvvürümdə tənha, çarmıxda işgəncəyə məruz qalmış, ayaqlarından və əllərindən mıxlanmış, kürəkləri qamçılardan cırıq-cırıq olmuş, bədəni yara içində, qaşları tikanlardan qanamış, dodaqları quru və dözülməz dərəcədə susuz, Allahın tərk etdiyi qaranlığa daxil olan simaya tərəf çevrildim. Bu mənim Allahımdır!" Stott üçün uzaq, qayğı çəkməyən, ağrıdan təcrid olunmuş Allah barədə istənilən fikir, İsa Məsihin bədən alması və çarmıxa çəkilməsi ilə dağılıb gedir. Məsihdə Allah "ağrıya qarşı immunitetini kənara qoyur. O bizim bədən, qan, göz yaşları və ölüm dünyamıza daxil olur. O bizim üçün əzab çəkdi."

Episkop Uilyam Templın sözləri bu bölməni gözəl surətdə yekunlaşdırır:

> Səbəb deyəndəki "Bütün dünyanı yaradan Allahdır: Ona görə də O cavabdehdir; əzab çəkməli olan Odur", biz cavab veririk: "Bəli, əlbəttə; O əzab çəkir; çarmıxa bax!" Səbəb qışqırıb deyəndə: "Əgər Allah sizin dediyiniz sevgi Allahıdırsa, O, övladlarının əziyyətlərinə dözə bilməz, Onun ürəyi parçalanar"; biz cavab veririk, "Bəli, əlbəttə; parçalanır; çarmıxa bax!" Səbəb ucadan qışqıranda: "Allah qeyri-müəyyəndir və təsvirolunmazdır; Onu tanıdığımızı demək küfrdür; biz Onu tanıya bilmərik": biz cavab veririk, "Yox, tamlığı ilə yox; amma Onu sevmək üçün kifayət qədər tanıya bilərik; çarmıxa bax!"

Ünsiyyətlə əzab

Kəlamın tədqiqi göstərir ki, Allahın əzabı bədən almanın həyat təcrübələrindən uzaqlara gedir. Əhdi-Ətiq Allahın bəşəriyyət ilə ünsiyyətinin Ona necə ağrı verdiyi barədə nümunələr ilə doludur. Allahın Özünü yaratdıqlarından ayırmaması və bəşəriyyət ilə

ünsiyyətə daxil olmaq arzusu qarşılıqlı ünsiyyətdən və həmkarların maraqlarının toqquşmasından labüd şəkildə yaranan ağrını Onun qəbul etdiyini göstərir.

Gerstenberger və Şyrec qeyd edir:

> Allah Özünü "o biri dünyaya" və ya başqa ucqar yerə, nə səmaya, nə də müqəddəs yerlərə təcrid etmir. Şübhəsiz ki, "uzaq" Allah anlayışları var (1 Pad. 8:27; Məzmur 2:4). Amma O harada yaşayırsa yaşasın, üsyankar, paxıl və ya əzab çəkən insanın yanına gəlir (Yar. 11:5; 18:21; Çıxış 25:8; 2 Şamuel 5:24; Məzmur 12:5). O, insanlar ilə həm pis, həm də yaxşı vaxtlarında olmaq istəyir (Çıxış 3:7, 8; 33:14, 15; Say. 10:35, 36). Hətta Əhdi-Ətiqin Yahveni əlçatmaz etməyi üstün tutan ən savadlı teoloqları Onun insan tarixinin səhnəsində sözlər (Qan. Tək. 30:11-14), mələk (Çıxış 23:20-23), alov və bulud dirəyi (Lev. 9:23, 24; Çıxış 13:21), qasırğa (Əyyub 38:1) və ya zəlzələ (Məzmur 68:7, 8) formasında olmasına imkan veriblər. Allahın yaxınlığı Əhdi-Ətiqin əsl marağıdır; Onun möhtəşəmliyi və ucalığı Onun insanlara yaxınlığında həyata keçir. Bunun nəticəsi olaraq, Allah hətta insanların əziyyətlərində iştirak edir. Onun dünya üçün olan ağrısı heç vaxt kənardan baxan müşahidəçinin yazığı gəlməsi deyil, yoldaşının əzabını birbaşa hiss edən və yükün bir hissəsini öz üzərinə götürən həqiqi ağrıdır.

Yar. 6:6-da bizə deyilir ki, Allah bəşəriyyətin şərini görəndə insanı yaratdığına peşman oldu və "ürəyində kədərləndi." Məzmur 78:40, 41-də deyilir ki, Allahın xalqı Allahı yenidən necə kədərləndirdi və əzab verdi! Huşə 11:8-də İsrailə və Efrayimə mühakimə oxunandan sonra Allah qışqırır: *"Ey Efrayim, səni necə əldən verim?*

Ey İsrail, səni necə təslim edim? Admaya etdiyimi sənə necə edim? Səni necə Sevoyim kimi edim? Köksümdə ürəyim alt-üst oldu, mərhəmət hisslərim alovlandı." Mühakimənin görünüşü Allah üçün sevincli bir şey deyildi. İnsanlar mühakiməyə layiq olsalar da, Allah onları yenə də sevir. O kimlərə hirslənibsə,

onları daha çox sevir. Kitamori yazır: "Allahın 'ağrısı' qəzəbləndiyi insanları sevmək üçün Onun iradəsini göstərir." Allah Huşə 2:23-də bəyan edir ki, O, hətta onların vəfasızlıqları ucbatından yaralansa da, sevdiyi insanlara yazığı gələcək (Huşə 2:4, 5). Onun Öz xalqı ilə ünsiyyəti Onu məcbur edir ki, "qışqırsın" və ya "nərə çəksin" (Yeşaya 42:13, 14; Amos 1:2).

Kəlam Müqəddəs Ruhun Onun xalqının günahlarından "kədərləndiyini" söyləyir (Yeşaya 63:10; Efes. 4:30). İsa Yerusəlimin korluğunu və inadkarlığını görəndə Onun üçün ağladı (Luka 13:34, 35; 19:41-44; Matta 23:37-39).

Bu ayələrdən və başqalarından Frethaym yazır:

> Allah insanların inkarından tamamilə toxunulmamış qalan biri kimi göstərilmir, qırılmış ünsiyyətlərdən dərin yaralanmış biri kimi təsvir olunur. Allah və insanlar arasında qarşılıqlı ünsiyyət ona görə də sadəcə əqli səviyyədə və ya məhkəmədə baş vermir, qarşılıqlı ünsiyyət həm də emosional səviyyədə baş verir. Allah təkcə düşüncələrini bölüşmür, həm də hisslərini bölüşür. İnsanlar təkcə Allahın düşündüyünü bilmirlər, eləcə də Onun nə hiss etdiyini bilirlər. Bununla da, Allahın bütöv təsviri görünür. Allah hər bir insanın bütöv şəxsiyyəti ilə hər səviyyədə ünsiyyət qurur.

İnsan kimi bir-birimiz ilə qarşılıqlı ünsiyyətlərimizdə sevgimizin rədd edilməsinin və üzümüzə çırpılmasının nə olduğunu bilirik. Bu həm də insanın Allah ilə ünsiyyətinin hekayəsidir – bu, insanın inkarının və ilahi əzabın hekayəsidir.

Şəfqətlə əzab

Biz həm də Kəlamda görürük ki, Allah Öz xalqı *ilə* şəfqətlə əzab çəkir. "Bizim şəxsi əzablarımız Canlı Allahı cəlb edir." İsrail Misirdə əsarətdə olanda Allah təkcə onların acınacaqlı vəziyyətlərini deyil, həm də onların iniltilərini eşitdi (Çıxış 2:24), amma Yeşaya 63:9 deyir: *"Onlar əziyyət çəkdikdə O da əziyyət çəkdi."*

Rəbb Dəməşqin tozlu yolunda Tarşişli Şaul ilə qarşılaşarkən O bu insandan soruşdu ki, Onun xalqının arasında bu qədər əzabın olmasına kim səbəbkardır, *"Şaul, Şaul, niyə **Məni** təqib edirsən?"* (Həv. İş. 9:4). Bu fikrində İsa Öz Məbədi ilə həmrəyliyini bəyan edir. Bundan əlavə, Məbəd Onun bədənidir (Efes. 5:23).

Onun xalqı əzab çəkəndə O əzab çəkir. Bu, *şəfqət* sözünün mənasıdır. Şəfqət sadəcə kiməsə *görə* təəssüf hissi keçirmək deyil. Bunun mənası "başqasının hisslərini bölüşməkdir; ona görə də insanlar və ya şeylər arasında ünsiyyətdə birinə təsir edən o birisinə də təsir edir."

Daha doğru mənada Allah bizimlə əzablarımızda halımıza acıyır (İbr. 4:15). Con Stott bunu belə qeyd edir: "Bizim Məsihin əzablarını bölüşə bilməyimiz gözəldir; daha gözəl olan isə budur ki, O, əzablarımızı bizimlə bölüşür. Həqiqətən onun adı 'Emmanueldir', 'Allah bizimlədir'."

Allahın əzab çəkməsini bilməyin möcüzələrindən biri budur ki, biz həyatı heç vaxt tək qarşılamırıq. Əzab çəkənlər "Ay Allah, Sən haradasan?" deyəndə Allah "Emmanuel" adı ilə cavab verir. Biz bu tədqiqdə görəcəyik ki, Əyyubun kitabında təqdim olunanlar bütün Kəlam boyunca aydın görünür: Allah müntəzəm olaraq Özü barədə açıqlama ilə əzab sualına cavab verir. Tez-tez əzab çəkənlər mənalı "Niyə?" sualına cavab axtarırlar. Amma Allah bilir ki, əzab çəkənin əsl ehtiyacı "Kim?" sualına cavabı bilməkdir.

Allahın övladının həyatında ağrı probleminə gəldikdə Rəbb təkcə "bizə nəzarət edən" Allah deyil, daha böyükdür. O Emmanueldir. O, təkcə bizim halımıza acımır, ondan artıq şeylər bizim üçün edir. O bizim əzablarımıza daxil olur. Qan. Tək. 31:8-də deyilir: *"Başının üstündə Rəbb gedəcək. O sənin**lədir, səni atmaz və tərk etməz. Qorxub çəkinmə!"***

ALLAH ÖZÜNÜ VERƏN BİRİ KİMİ

Doktrina baxımından Allahın təkallahlıq təlimini dəstəkləməyin əlaməti Qan. Tək. 6:4-də deyilən etirafda əks olunub: "*Dinlə, ey*

İsrail! Allahımız Rəbb yeganə Rəbdir." Amma ənənə həm də Allahın üçlüyünü dəstəkləyir – Ata, Oğul, Müqəddəs Ruh – biz Matta 28:19-da oxuyuruq: *"Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin.*" "Allah üçlükdə birdir və üçlük birdir" deyə dördüncü əsrin teoloqu Nazianzenli Qriqori yekunlaşdırmışdı.

Allahın daxili həyatı barədə müzakirəsində Artur C. MakGil Üçlük ilə əlaqədar Afanasius və Arius arasında baş vermiş vacib doktrinal mübahisələri müzakirə edir. MakGil sübut edir ki, problemin kökü üçlüyün necə bir olmasını fikirləşib tapmağın daha çox güman edilən riyazi məsələsində deyil, ilahiliyin necə hasil olunub və ya yaranıb hələ də ilahiliyində qalmasındadır. Arius mübahisə edir ki, əgər Ata Oğlu dünyaya gətirirsə, Öz varlığını başqasına verirsə və Onun gerçəkliyi başqası tərəfindən qəbul oluna bilirsə, onda gerçəklik artıq Allahın gerçəkliyi olmayacaq. Ona görə də İsa əgər Allahdan törəyibsə və ya yaranıbsa onda həqiqi Allah ola bilməz. Allah bölünməzdir, heç kimdən asılı deyil, başqasından törənməyib, Özünü dəyişməyə, Özünü birləşdirməyə və ya törətməyə ehtiyacı yoxdur. Oğlun ilahi olduğunu sübut etmək Ariusun fikrincə Allahın həqiqi ilahiliyini pozar. Arius mübahisə edir ki, İsanın başlanğıcı var idi və Allahın ilk yaradılışı kimi yaradılmışdır və İsa vasitəsilə bütün başqa yaradılışlar yaradılıblar. Onun müstəqilliyini və qeyri-məhdudluğunu dəstəkləmək üçün Allah Öz yaratdıqları ilə birbaşa iştirak etmir, amma vasitəçi (İsa) tərəfindən ciddi şəkildə idarə olunur.

Arius ilə əlaqədar MakGil yazır:

> Məsihçiliyin bütün tarixində Allahın qeyri-məhdudluğu barədə Ariusun və onun davamçılarının yaratdığı kimi belə mürəkkəb, Kəlama əsaslanmış və radikal teologiya heç də çox olmayıb. Onların əsas məqsədləri Allahı Onun yaratdıqlarından fərqləndirərək hər şeydən uca qoymaqla Ona ehtiram etmək olub. Onlar Allahın yaratdıqlarına məxsus olan zəifliklərı və çatışmazlıqları Onun gerçəkliyindən ayıraraq bütün yaradılış üzərində tam sahibliyi Ona verməklə izzətini qorumağa çalışıblar.

Afanasius mübahisə edir ki, bu yüksək, mütləq, toxunulmayan və toxunulmaz, müstəqil Allah Müqəddəs Kitabın Allahı deyil. Belə Allaha ibadət etmək yanlış Allaha ibadət etmək olar. Allahın Özünü tamlığı ilə aşkar etdiyi kimi tanımaq Allahı üçlükdə tanımaqdır – bu üç ayrı birlik deyil, əksinə bir-biri ilə qarşılıqlı əlaqədə olan birlikdir.

Ariusun fikrinə zidd olaraq, Afanasius mübahisə edir ki, Oğul əbədi olaraq tamlığı ilə Atadan yaradılıb və ya törənib, Allah ilə tamamilə eynidir. Afanasius üçün Ata ilə Oğul arasında əlaqə bulaq və ondan axan axın arasındakı əlaqəyə bənzəyir: "Bulaqdan axan çay ondan ayrılmadığı kimi, burada iki forma və iki ad olsa da, Ata Oğul və ya Oğul Ata eynidir." Üçlüyün, eləcə də birliyin üzvləri arasında fərq var, bu "varlığın birliyi" mənasında ifadə olunur.

Bunu belə söyləmək qəribə olsa da, belə məna var ki, Üçlüyün üzvlərinin bir-birinə ehtiyacı var, bu ehtiyac onların həqiqi ilahiliyini azaltmır. Ata, Oğul və Müqəddəs Ruh arasında kamil birlik var. Roderik Lyupp yazır: "Hər biri o biri ikisini əla tanıyır və öz növbəsində onlar tərəfindən tamamilə tanınır." Oğul Atadan törənib. Ata ilahi həyatını monopoliya etmir, amma onu əbədi olaraq bölüşür. Ruh Oğul vasitəsilə Atadan törənir. Oğul bütün izzəti Ataya verir (Yəhya 14:13). Ruh bütün izzəti Oğula verir (Yəhya 16:14). Ruh Oğulun səlahiyyəti ilə danışır (Yəhya 16:13) və Oğul Atadan eşitdiklərini danışır (Yəhya 8:28). Ata nə edirsə, Oğul da onu edir (Yəhya 5:19). Atanın Özündə həyat olduğu kimi beləcə də onu Oğula verib (Yəhya 5:26). Ruhun gəlməsi üçün Oğul Atanın yanına getməli və Ruhu göndərməlidir (Yəhya 16:7), Ata dünyanı sevdiyi üçün Oğulu göndərdi (Yəhya 3:16). Üçlüyün üzvləri arasında ümumi və qarşılıqlı özünü-vermə mövcuddur. Ata Oğuldan heç nəyi əsirgəmir və Oğul Atadan heç nəyi əsirgəmir.

Əbədiyyətdə Ata Öz Oğlunu yaradılış üçün təqdim etməyə hazırlaşmışdı və Oğul əbədiyyətdə etibar və itaətdə bu plana təslim olmuşdu, bu plan İsa, Quzu Qolqofada çarmıxa çəkiləndə kulminasiya nöqtəsinə çatdı. Oğul dirilmədən sonra göylərə Atanın yanına qalxanda Müqəddəs Ruhu göndərdi ki, imanlıları bir-biriləri ilə birləşdirsin. Ruh həm də onları ruhlandırır ki, Allahın verdiyi qurbana şəhadətlik etsinlər. Onlar da Ruhun verdiyi həyata malik

olsunlar və qardaşları İsa vasitəsilə Atanın oğulları və qızları olsunlar.

Bir-birilərindən asılı olaraq və özlərini bir-birilərinə təqdim edərək bu vermək və almaq ünsiyyəti Müqəddəs Kitabın Allahını Arian anlayışından fərqləndirir, bu anlayışa əsasən Allah mütləq, tamamilə qeyri-məhdud, bütövdür.

Allahın üçlü təbiətində Onun yaratdıqları ilə necə ünsiyyətdə olması barədə dərin mənalar var. Onun hərəkətləri Onun xasiyyətinə əsaslanıb və Allahı verən və alan, xidmət edən və tələb edən biri kimi tanımaqla biz Onun əzaba cavabını və Özünü sevgidə təqdim edən biri kimi görəndə təəccüblənməməliyik. Onun planları güc və zorla əldə olunmur, məhəbbət və özünüvermə ilə həyata keçir. Çarmıx üçlü Allahın xasiyyətinin təbii ifadəsidir. Özünə zidd getməməklə Onun insanın ehtiyacı üçün başqa cavabı ola bilməzdi.

Naməlum bir məsihçinin təqribən b. e. 125-200-cü illərində yazılmış ***Dioqnetusa Məktubunda*** Allahın Öz Oğlunu necə göndərdiyi barədə sual verilir. Cavab isə belədir:

> Zülmkar kimi idarə etmək, dəhşəti və təəccübü ruhlandırmaq? Yox, O belə etmədi. Yox, O onu həlimlikdə və mülayimlikdə göndərdi. Padşah kimi Öz zadəgan Oğlunu göndərərkən əmin olmaq üçün Onu Allah kimi göndərdi. Amma Onu insanlara göndərəndə güc tətbiq etmək üçün yox, xilas etmək və inandırmaq üçün göndərdi. Güc tətbiq etmək Allahın xasiyyəti deyil.

MakGil yazır:

> "Güc tətbiq etmək Allahın xasiyyəti deyil" – bu Üçlük teologiyasının əsas prinsipidir. Allahın ilahiliyinə ətrafındakıları itələmək, məcbur etmək və sındırmaq, səmavi uzaqlığın təhlükəsizliyindən iradəsini təyin etmək və bütün dünya öz istədiyini edərkən öz əzəmətində oturmaq daxil deyil. Dünyanın üstündə dayanmayıb Öz izzətini oraya göndərir. Təyin etməkdən kənar olaraq, o dəvət edir və inandırır. Özünü yüksəltmək üçün insanlardan tələb etməyən

> bir xidmət ilə O öz həyatını insanlara verir ki, onlar yüksəlsinlər. Amma Allah bu yolla dünyaya tərəf yaxınlaşır, çünki Onun daxilində özünüvermə var.

Beləliklə, İsa Allahın vəhyi kimi yer üzünə gələndə qurban kimi gəlməsi heç təəccüblüdürmü? Bu, Allahın Özlüyündə kimliyi ilə tamamilə uyğundur. İsanın Özünü verməsi sadəcə sonluq üçün bir vasitə deyil, bu alicənab bir sonluqdur. Bu, Onun kimliyini aydın surətdə aşkar edir. Onun qurban vermə, xidmət etmə, sevmə və vermə hərəkətləri ilahiliyin hərəkətləridir. Onlar aşkar edir ki, O bizim aramızda-Emmanuel Allahın hüzurudur. Onlar həm də Allahın xalqının necə yaşaması barədə əmrləri təmin edir (Filip. 2:3-8-ə baxın).

"Allahın güc tətbiq etmək xasiyyəti deyil" açıqlaması da Allahın xidmətçilərinin Onun məqsədlərini necə yerinə yetirməsi barədə dərin mənaları verir. Onlar da inandırma, özünü qurban vermə və məhəbbət əsasında hərəkət edir. Onlar öz çatdırmaq istədikləri fikri o birilərin üzərində güc tətbiq edərək etmirlər. 2003-cü ildə Dünya Müjdəçilik İttifaqının baş katibi, yepiskop Geri Edmond müjdəçilik və imana gətirmək arasında fərqi təyin etmişdi, bu aşağıdakılardan ibarətdir:

> Müasir dünyamızda müjdəçilik ilə imana gətirmək arasında anlaşılmazlıq və səhv anlayış olduğu üçün Dünya Müjdəçilik İttifaqı bu sözlərin təyinatını vermək istəyir. DMİ imana gətirməni ciddi şəkildə rədd edir, amma Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları bəyanatına əsasən tam dini azadlığı dəstəkləyir (18 və 19-cu maddələr). Həmin azadlıq hər bir dinə məxsus insana hüquq verir ki, öz imanını bölüşsün, həm də hər bir kəsə icazə verir ki, öz seçiminə əsasən inanmağın vicdan azadlığına malik olsun.
>
> Dünya Müjdəçilik İttifaqına əsasən imana gətirmək və müjdəçilik etmək sinonim deyillər. Dr. Con R. U. Stottun sözlərindən sitat gətirərək: Onları fərqləndirməyin ən yaxşı üsulu imana gətirməni "dəyərsiz şəhadətlik" kimi başa düşməkdir. Dünya Məbədlər Şurası və Roma Katolik Məbədi

> 1970-ci ildə 'Ümumi şəhadətlik və İmana gətirmək' adlı faydalı tədqiq sənədi hazırladı. Bu imana gətirmənin üç cəhətini göstərmişdi. İmana gətirmə (1) bizim maraqlarımız dəyərsiz olanda (bizim marağımız Allahın izzətindənsə, öz izzətimiz olanda), (2) bizim metodlarımız dəyərsiz olanda (biz istənilən 'fiziki məcbur edilmə, mənəvi məcbur edilmə və ya psixoloji təzyiq' ə müraciət edəndə), (3) bizim çatdırmaq istədiyimiz fikir dəyərsiz olanda (biz başqa insanların imanlarını qəsdən səhv təqdim edəndə) baş verir. Buna əks olaraq, müjdəçilik etmək (Manila Manifestonun sözləri ilə desək) 'Müjdəni açıq və səmimi bildirməkdir, burada dinləyicilər bu haqda öz qərarlarını çıxarmaqda tamamilə azaddırlar. Biz başqa imanda olanlara həssas olmaq istəyirik və onları imanlarından döndərməyə çalışan hər bir metodu rədd edirik.'

Allahın bu xasiyyətinin açıqlanmasının başqa vacib bir bölünməsi məsihçilərin küfrə necə cavab verməsidir. Bu, məhdudiyyətlər qoyulmuş bir çox ölkələrdə böyük problemdir. 1925-ci ildə Rixard Bell Edinburq Universitetində verdiyi mühazirələrində on yeddinci əsrdə məsihçiliyin islamla qarşılaşarkən sürətlə dağılmasının səbəblərindən biri barədə ağıllı mülahizə yürütmüşdü. Bellin fikrincə dördüncü əsrdən altıncı əsrə qədər məbəd rəhbərlərinin Məsihin təbiəti və Üçlük barədə böhranlı döyüşlərə qoşulması bəzi vacib həqiqətləri itirdi.

> Həmin dövrlərin məsihçiləri həqiqətə sahib olduqlarına görə qürurlu idilər, səhv üzərində qələbə çalmaq üçün həqiqətin gücündə tamamilə imanlarını itirdilər və yoldaşlarına məhəbbət göstərmək isə hələ məsihçi yoldaşları demirəm, ümumi ənənənin həvəsində unuduldu.

B. e. 313-cü ilində Milan Məktubu ilə məsihçilik tədricən qanuniləşməklə siyasi gücə malik oldu, dünyəvi rəhbərlər məsihçi rəhbərləri müxtəlif məbəd şuralarının qərarlarına sadiq qalmağa məcbur edirdilər. Bu prosesdə belə görünürdü ki, onlar güc tətbiq

etməyin Allahın xasiyyəti olmadığını unutmuşdular, ona görə də bu xasiyyət Onun xalqının da xasiyyəti olmamalıdır.

Doktrinal ortoksallıq Məbəd üçün şübhəsiz əhəmiyyətlidir, amma bunun məcbur edilməsi Allahın xasiyyəti ilə uyğunlaşmalıdır. Bell qeyd etdiyi kimi altıncı əsrdə Məbəd ilə problem onun əqli fəaliyyətində və teoloji nəzəriyyədə deyil, Məbədin səbirsizliyindədir. Bu o demək deyil ki, səhv yoxlanılmamış qalmalıdır. Məbəd nizam-intizamı əslində zəruridir. Amma bu sıxılmış yumruqla deyil, göz yaşları ilə edilməlidir.

MƏSİH BARƏDƏ ÜMİDLƏR

Məsihin təyinatı

"Məsih" sözü ibrani nitq hissəsi olan sifətin və ***(maşiah)*** isminin tərcüməsidir, bu isim ***(masah)*** "məsh etmək, maye sürtmək" mənası verən feldən götürülmüşdür. Yağ əşyanın, bədənin üstünə sürtüləndə və ya ev rənglənəndə israillilər və qeyri-israillilər təsvir etmək üçün ***(masah)*** sözündən geniş istifadə edirdilər. Bu həm də ayin baxımından insanı və ya əşyanı xüsusi məqsəd və ya vəzifə üçün ayrıldığını bildirməyə görə istifadə olunurdu.

"Məsih" sözü özü xüsusi ayin məqsədləri üçün təyin edilmiş və ayrılmış "məsh edilmiş" əşyalar üçün istifadə olunmurdu, yalnız insanlar üçün istifadə olunurdu. "Məsh edilmiş" insanlar xüsusi vəzifələr və tapşırıqlar üçün seçilir, təyin olunur, məsh olunur, səlahiyyət verilir, ixtisaslaşır və təchiz olunurdular. Bu söz demək olar ki, müstəsna olaraq "padşah" üçün sinonim kimi istifadə olunurdu (1 Şamuel 12:3, 5), amma kahinlər (Lev. 4:5), əcdadlar (Məzmurlar 105:15), peyğəmbərlər (1 Pad. 19:16; Yeşaya 61:1) və hətta bütpərəst hökmdarlar (Yeşaya 45:1) hamısı "məsh edilmiş" hesab olunurdular.

Bəziləri mübahisə edirlər ki, "məsh edilmiş" və ya "məsh olunmuş" İbrani Müqəddəs Kitabında İsraili xilas edəcək gələcək Məsih üçün titul kimi birbaşa istifadə edilmir, amma burada inanmaq

üçün böyük səbəb var, belə ki 24-cü ayənin kontekstinə əsasən Daniel 9:26 vəd olunmuş Məsihdən başqa heç kimə aid deyil.

"Məsih" sözünün yunan dilində transliterasiyası **(*messia*)** yalnız iki dəfə Əhdi-Cədiddə yunan sözünün **(*kristo*)** izahı kimi qarşıya çıxır (Yəhya 1:41; 4:25). Əhdi-Cədiddə yunan sözü **(*kristo*)** linqvistik olaraq "məsh olunmuş biri" mənası verən söz ilə eyni olub.

Birinci əsrin iudaizminin gözlədikləri

Əgər biz birinci əsrin yəhudilərinin Məsih simasından nə gözlədiklərini ümumiləşdirməli olsaydıq, biz onun müxtəlifliyini dərhal qeyd edərdik. Yazıçıdan və ya cəmiyyətdən asılı olaraq, Məsih simasının təsviri padşaha, kahinə və peyğəmbərə aiddir.

İsanın dövründə ravin ənənəsi müxtəlifdir. Bir çox qruplar var idi ki, onların gözlədikləri şeylər fərqli idi, Kəlamın bəzi hissələrini fərqli şərh edirdilər və ya dəstəkləyirdilər.

Birinci əsrdə Məsih barədə üstünlük təşkil edən anlayışları bilmək üçün əsas mənbələr bunlardır:

- Septuaqint
- Apokaliptik yazılar və Apokriflər
- Yəhudi Apokrifləri
- Ölü dəniz Yazıları
- Ravinlərin yazıları, buraya aşağıdakılar daxildir:
    - Mişna, yəni Şifahi Qanunun kodifikasiya edilmiş toplusu Çıxış, Levililər, Saylar və Qanunun Təkrarı kitabları və başqa hüquqi materialların qanuni şərhləri ilə birlikdə.
    - Talmud, yəni ravin izahatları, Mişnanın şərhləri ilə birlikdə Şifahi Qanunun geniş toplusu.
- Tarqumlar, sinaqoq ibadətində istifadə üçün İbrani Yazılarının arami dilində şərhli tərcümələri.
- Filo və Cosefusun yazıları, xüsusilə o dövrdə Məsihin iddiaçıları barədə danışdıqları yazılar.
- Əhdi-Cədid

Ümumi sözlərlə desək, Məsih göylə yer arasında körpü kimi görünür. O, göylərin padşahlığının salehliyini yer üzünə gətirəcəkdi. O, Allahın xilasını gətirəcəkdi. Məsih İsraili günahlardan təmizləyəcəkdi, bu da insanları Allahın Qanununa gətirəcəkdi.

Bəziləri ideal gələcəyə baxaraq, Allahın xalqını idarə edəcək Davud kimi padşah və ya həm Davudun, həm də Musanın xüsusiyyətlərini özündə birləşdirən kahin gözləyirdilər. Başqaları Qan. Tək. 18:15-18-i oxuyaraq, Musa kimi yeni bir peyğəmbər gözləyirdi, digərləri Malaki 3:1 və 4:5-i oxuyaraq Allahın Özü üçün yol hazırlayacaq İlyasa bənzər simanı gözləyirdilər. Bəzi aprokriflər, məs, 1 Enoş və Yəhudanın Şəhadətliyi kitabları insanları əvvəllər mövcud olmuş, yarı ilahi olan bir insanı axtarmağa yönəldirdi, amma digərləri Məsihi müəyyən siyasi sima kimi görürdülər. Elə insanlar var idi ki, yer üzündəki padşahlardan gördüklərinə məyus olaraq Onu məhdudiyyətsiz Məsih kimi, fiziki padşahlıqdan ayrılmış biri kimi görürdülər.

Birinci əsrdə yaşayan hər bir yəhudinin Məsihi və ya birinci əsrin yəhudilərinin tamamilə Əhdi-Cədidin nümunəsini, yəni Allah-insan olan Məsihi həvəslə gözlədiklərini söyləmək səhv olardı. Amma eynilə belə də demək səhv olar ki, birinci əsrin yəhudiləri Məsih simasını gözləmirdilər və ya tamamilə təbii, insan, adi siyasi rəhbər gözləyirdilər. Orada Məsihin necə olacağı barədə heç bir "ənənəvi" anlayışı yox idi. İuadizm heç vaxt gələcəkdən nə gözləmək barədə razılığa gəlməyib, müstəsna hal budur ki, hamı Allahın əvvəl-axır Öz xalqını müdafiə edəcəyinə inanırdı. Bu, İsanın dövründə yəhudilərin bizim, yəni 2000 il sonra yaşayan məsihçilərin aydın başa düşdüklərini nəyə görə başa düşmədiklərini izah edə bilir.

Bizim təsdiq edə bildiyimiz budur ki, Məsih barədə gözlənilən şey (daha çox belə düşünürlər) həmin dövrdə ədəbi əsərlər yazan geniş yəhudi qruplarında təqdim olunurdu və onlardan bəzilərinin "Yaqubdan gələn xilaskar" üçün ümidləri güclü, teoloji baxımdan yüklənmiş, heyranedici tərzdə ətraflı idi.

Birinci əsrin Məsih barədə gözlədikləri şeylər geniş yayılmışdı. Bunlar kifayət qədər güclü idi ki, insan qruplarını müxtəlif fərdlərin Allah tərəfindən xalqını xilas etmək üçün göndərildiyini qəbul

etməyə yönəltsin. "Bu qarışıq ümidlər, əvvəlcədən fikirdə tutulan kateqoriyalar və əvvəlcədən qurulmuş hökm günü barədə təlimlər olan dünyada Nazaretli İsa "Allahın Padşahlığı yaxınlaşıb..." deyə bəyan etmişdi. Bu da qaçılmazdır ki, Onun tələblərini qəbul etməyənlər (hətta çoxlu sayda) olacaq.

Şagirdlərin gözlədikləri

Peter (Matta 16)

Tarixin səhifələrində dönüş nöqtələri var – qərarlar çıxarılmalı, hərəkətlər edilməli və ya sözlər deyilməli olan vaxtlar – bunlar bir fəslin sonunu, o biri fəslin isə başlanğıcını qeyd edən vaxtlardır. Matta 16-cı fəsil belə dönüş nöqtəsidir. İsa Öz şagirdlərini şimal bölgəyə, Filip Qeysəriyyəsinə aparanda onlara belə bir sual verir: "Adamların dediyinə görə Bəşər Oğlu kimdir?" (16:13).

14-20-ci ayələr aşağıdakı söhbəti qeyd edir:

> *Onlar da dedilər: "Bəziləri Vəftizçi Yəhya, başqaları İlyas, digərləri isə deyirlər ki, Yeremya yaxud peyğəmbərlərdən biridir". İsa onlara dedi: "Bəs siz nə deyirsiniz? Sizcə Mən kiməm?" Şimon Peter cavab verdi: "Sən var olan Allahın Oğlu Məsihsən". İsa ona cavab verib dedi: "Nə bəxtiyarsan, ey Yunus oğlu Şimon! Çünki bunu sənə bildirən ət və qan deyil, göylərdə olan Atamdır. Mən sənə deyirəm ki, sən Petersən və Mən cəmiyyətimi bu Qayanın üzərində quracağam. Ölülər diyarının qapıları ona qalib gələ bilməyəcək. Səmavi Padşahlığın açarlarını sənə verəcəyəm. Yer üzündə bağlayacağın hər şey göylərdə bağlanmış olacaq və yer üzündə açacağın hər şey göylərdə açılmış olacaq". Bu sözlərdən sonra İsa şagirdlərə qadağan etdi ki, Onun Məsih olduğunu heç kəsə danışmasınlar.*

21-ci ayə İsanın xidmətindəki dönüş nöqtəsini qeyd edir.

Bundan sonra İsa şagirdlərinə danışmağa başladı ki, Özü Yerusəlimə getməli, ağsaqqallar, başçı kahinlər və ilahiyyatçılar tərəfindən çox əzab çəkməli, öldürülməli və üçüncü gün dirilməlidir.

Peter dəqiq deyir ki, İsa Allahın "məsh edilmişidir", onun İsaya verdiyi cavabından aydındır ki, əzabın, rüsvayçılığın və ölümün necə Allahın planının bir hissəsi olduğunu anlamır. O, İsanı kənara çəkib deyir, *"Ya Rəbb, Özünə yazığın gəlsin! Bu əsla sənin başına gəlməyəcək*" (16:22).

İsa bu xəbəri əvvəl eşitmişdi. O, səhrada sınağa çəkilərkən şeytan onu sövq etdirmişdi ki, çarmıxdan yayınsın və ölmədən izzət qazansın. İndi O Öz şagirdlərinin birinin ağzından sövq olunma sözlərini eşidir. Necə ki səhrada şeytana qadağan etmişdi (4:10), eləcə də Peterə tərəf çevrilib deyir: "*Çəkil qarşımdan, Şeytan! Sən Mənə mane olursan. Sən Allahın işləri haqqında deyil, insan əməlləri barəsində fikirləşirsən*" (16:23).

Bizim dövrümüzdə insan ağlında belə bir iman açıq-aşkar görünür ki, məsihçi həyatında əzaba yer yoxdur. Bu öz yerini bu faktın təsdiqində tapır ki, təqib Məbədin və imanlının həyatında müdaxilədir və belə qarşıdurma nadir müstəsna haldır. İnsanlar çox vaxt belə düşünürlər ki, Allah əzab çəkənləri yaddan çıxarıb və ya təqib olunan insan nəsə səhv etdiyinə görə və ya həyatında günah olduğuna görə əzab çəkir.

Bu fəslin əvvəlində mən bir qadın haqqında danışdım, bu qadın anlaya bilmirdi ki, Allah Öz xalqını təqib zamanı necə tərk edə bilər. Kədərlidir ki, onun sualları məndə Allahın ağlını deyil, bütünlüklə insanın düşüncələrini canlandırdı.

Peterin düşüncəsində Allahın Məsihi üçün Onun planında əzaba yer yox idi. Onun Məsih barədə gözlədiyi fikirlərə Məsihin əzabı daxil deyildi. O, Allah kimi deyil, insan kimi düşünürdü.

İsa bu düşüncə tərzinə necə cavab verdi?

Sonra İsa şagirdlərinə dedi: "Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və çarmıxını götürüb ardımca gəlsin. Kim canını xilas etmək istəyirsə, onu

itirəcək, amma kim Mənə görə canını itirirsə, onu qoruyacaq" *(16:24, 25)*.

İsa Peterin bunu anlamasını istəyir: Onun indicə Öz həyatı və xidməti barədə dedikləri ilə O göstərirdi ki, Allah Onun planında olan hər bir kəsin həyatında dəqiq belə işləyəcək. Təkcə Məsih əzab çəkib ölməyəcək; bu həm də Onun ardınca gedən hər bir kəsin taleyi olacaq. Allah belə düşünür.

Peter İsanın kim olduğunu anlasa da, Allahın Məsihi olmağın mənasını anlamaya bilməmişdi. İsanın danışdığı şeylər Peterin Məsihin kimliyi barədə fikirlərinə uyğunlaşmırdı.

Vəftizçi Yəhya (Yəhya 1; Matta 11)

Əgər kimsə İsanın kim olduğunu bilirdisə, bu vəftizçi Yəhya idi. Yəhyaya İsanın yolunu hazırlamaq tapşırılmışdı, ilk dəfə o, İsanı "Allahın Quzusu" adlandırmışdı.

Qəribədir ki, Yəhya 1-ci fəsildə biz Yəhyanın İsanın kim olduğu barədə verdiyi sualı oxuyuruq:

Yəhudi başçıları Yəhyadan "Sən kimsən?" deyə soruşmaq üçün Yerusəlimdən kahinlərlə Levililəri onun yanına göndərdilər. O zaman Yəhya belə şəhadət etdi:

o, düzünü deyib inkar etmədi və "mən Məsih deyiləm" deyə bəyan etdi.

Onlar Yəhyadan soruşdu: "Bəs sən kimsən? Bəlkə İlyassan?" Yəhya "xeyr, o deyiləm" dedi. Soruşdular: "Bəlkə gəlməli olan peyğəmbərsən?" Yəhya "xeyr" söylədi. Sonra ona dedilər: "Bəs sən kimsən? Bizi göndərənlərə nə cavab verək? Özün barədə nə deyirsən?" Yəhya dedi: "Mən Yeşaya peyğəmbərin söylədiyi kimi

'Rəbbin yolunu düz edin' deyə səhrada nida edənin səsiyəm". Göndərilən bəzi fariseylər Yəhyadan soruşdu: "Bəs sən Məsih, İlyas yaxud gəlməli olan peyğəmbər deyilsənsə, nə üçün vəftiz edirsən?"

Yəhya onlara cavab verdi: "Mən su ilə vəftiz edirəm,

amma aranızda məndən sonra gələn tanımadığınız bir Nəfər dayanıb. Mən Onun heç çarığının bağını açmağa da layiq deyiləm". Bu hadisələr İordan çayının o tayında olan Bet-Anyada, Yəhyanın vəftiz etdiyi yerdə baş verdi. (Yəhya 1:19-28)

Müqəddəs Kitab bizə yazır ki, növbəti gün Yəhya *"İsanın ona tərəf gəldiyini görüb dedi: "Dünyanın günahını aradan götürən Allah Quzusu budur!*

'Məndən sonra bir Şəxs gəlir ki, məndən üstündür, çünki məndən əvvəl var idi'" deyib haqqında danışdığım Kəs budur" (Yəhya 1:29, 30).

Əgər "Sizcə İsa kimdir?" sualına dəqiq cavab verə bilən insan olsaydı, bu vəftizçi Yəhya olmalı idi.

Yəhya İsa haqqında göylərdən səs eşidəndə "*Bu Mənin sevimli Oğlumdur, Ondan razıyam*" (Matta 3:17), yəqin ki məmnun olmuşdu. Buna görə o, dünyaya gəlmişdi – onun xidməti yolu göstərmək, insanları günahın əsarətindən azad edəcək Allahın Quzusu Allah Oğlu üçün hazırlamaq idi.

İsanın vəftizindən sonra Yəhya yəqin ki, Allahın İsa vasitəsilə necə iş görəcəyini bilmək istəyirdi və vəd olunmuş xilası ümidlə gözləyirdi.

Yəhya tövbəni vəz etməkdə davam edir, axırda padşahı cəsarətlə günahda ittiham etdiyinə görə həbs olunur, padşah yaxın adamla evlənmişdi, bu isə Musanın Qanununa görə günah sayılırdı. Belə nikah qanunsuz və əxlaqsız bir hərəkət idi və Yəhya bunu ifşa etmişdi. Həm Hirodu, həm də Hirodun yeni arvadını qəzəbləndirərək Yəhya həbs olunur. İnsanlardan qorxan Hirod onu edam etmədi (Matta 14:3-5; Mark 6:17, 18).

Qaranlıq zindanda saxlanılan Yəhya dünyadan təcrid olunmuşdu. Amma bacardığı qədər o, dünyada baş verənlər barədə öyrənməyə çalışırdı. O, xalasıoğlu İsanın nə etdiyini bilmək istəyirdi. Amma onun eşitdiyi şeylər onu qorxuya salırdı.

Yəhya həyatda tərk-dünya yaşayırdı və birbaşa tövbəni vəz edirdi. Digər tərəfdən İsa günahkarlar ilə birlikdə yeyib içirdi. Onun danışdıqları hekayə formasında idi ki, bunu da insanlar

çətinliklə başa düşürdülər. Sanki O, insanların Allahın Müjdəsini qəbul etməsi üçün onu qəsdən çətinləşdirirdi.

Yəhyanın xidməti camaat qarşısında idi, böyük izdiham içərisində vəz edirdi. İsa hərdənbir böyük izdiham qarşısında danışırdı, amma əksər vaxtlar evlərdə kiçik qruplara danışırdı. O, möcüzə törədəndə insanlara dedi ki, başqalarına söyləməsinlər.

İsa Yəhyanın düşündüyü kimi hərəkət etmirdi. Yəhya düşünürdü ki, İsa qurtuluş xəbərini vəz etməyə gəlib. Amma indi Yəhya Allahın ona verdiyi tövbə və salehlik xəbərini vəz etdiyinə görə həbsdə idi. Yəhya İsanın etdikləri barədə nə qədər çox eşidirdisə, bir o qədər çaşqınlığa düşürdü. O, korların gözlərinin açıldığını eşidir. Cinə tutulmuş insan azad olur. Hətta belə xəbər eşidir ki, ölü insan dirilib! Amma Yəhya soyuq və qaranlıq zindanda oturub məhbus yoldaşlarının qışqırıqlarını eşidir. O indi təəccüblənir ki, nəyə görə diqqətdən kənardır.

O, Allaha sadiq olub. O, xalasıoğlunun xidməti üçün yol hazırlayıb. İndi isə Hirodun zindanında oturub həyatı xarab olur. Niyə? Allahı günahlandırmaq lazımdırmı? Ola bilsin ki,...bu onun xalasıoğlunun günahıdır.

Şübhə, bəlkə də inciklik onun qəlbini didib dağıtmağa başlayır. Artıq o dözə bilmir. O öz şagirdlərindən bəzilərini İsanın yanına sadə bir sual ilə göndərir, o ümid edir ki, bu xəbər İsanı Məsih olmaqla daha münasib hərəkətlər etməyə vadar edəcək. Biz Matta 11:2-6-da oxuyuruq:

> *Yəhya isə Məsihin işlərini zindanda eşidərək öz şagirdlərini göndərib*
>
> *Ondan soruşdu: "Gəlməli Olan Sənsənmi, yoxsa başqasını gözləyək?"*
>
> *İsa onlara belə cavab verdi: "Gedin, eşidib gördüklərinizi Yəhyaya bildirin: korlar görür, axsaqlar yeriyir, cüzamlılar pak olur, karlar eşidir, ölülər dirilir və yoxsullara Müjdə yayılır.* ***Kim Mənə görə büdrəməsə, nə bəxtiyardır****!"*

Bəzi tərcümələr bu axırıncı ifadəni *"Kim Mənə görə imandan dönməsə"* kimi tərcümə edirlər. İsa Allahın necə olmalı olduğu barədə bizim düşündüyümüz kimi və "bütlərimiz" kimi hərəkət etməyəndə bu düşüncələrimiz İsanın Müjdəsi və metodologiyası ilə alt-üst olur, İsanı öz düşündüyümüz və istədiyimiz kimi deyil, olduğu kimi qəbul edən insan xeyir-dualıdır. Əlamətlər və möcüzələr Məsihin kimliyi ilə uyğunlaşır, amma onlar Onun bütünlüklə kim olması deyillər. O, ehtiyacda olan insanın xeyrinə Öz kimliyinə görə hərəkət edir, bunu ona görə etmir ki, bu Onun məqsədlərini yerinə yetirmək üçün vasitələrdir.

İsa Yəhyanın şagirdlərinə deyir ki, bəzilərinin gözlərinin açıldığını ona bildirsinlər. Digərlərinin qulaqları açılır. Bəzi ölülər dirilir. Xoş Xəbər bir çox kasıblara çatdırılır.

Bütün korların gözləri açılırmı? Yox. Bütün kar insanların qulaqları açılırmı? Yox, İsanın yer üzündə xidməti bitəndən sonra İsraildə hələ də çoxlu kor və kar insanlar var idi. Ölülərin çoxu hələ də ölü idilər. İsa hamısını deyil, bəzilərini dirildir. Yəqin ki, heç də hamı Xoş Xəbəri hələ eşitməmişdi.

Belə görünür ki, İsa Yəhyaya deyir: "Yəhya, heç də hamı çətinliyindən azad olmur, sən də eləcə. Ruhdan düşmə. Həbsxananın qapıları bağlı qalsa da, Mənə etibar et."

Məşhur müjdəçilik kitabçası bu sözlər ilə başlayır: "Allah səni sevir və sənin üçün gözəl planı var." Bunun hər bir sözü doğrudur. Çox vaxt səhv başa düşülən isə "gözəl planı var" ifadəsinin mənasıdır. Biz güman edirik ki, bunun mənası sülh, çiçiəklənmə və güc-qüvvət və ya ən azı bunlardan hansısa biridir. Əgər Allah səni əzab, ağrı, anlaşılmazlıq dolu həyata çağırsa, onda necə? Nisbi anlaşılmazlıqda yaşamaq və xidmət etmək? Onu sevməkdə və Ona etibar etməkdə davam edəcəksinizmi?

Yəhya İsanın şagirdlərinə öyrətdiyini, yəni Onun ardınca getməyin nə olduğunu yaşayırdı. Məsihin yolu əzab, özünü qurban və etibardır. Başqaları Onun xidmətindən faydalansalar da, Onun ardınca gedənlər çox vaxt əzab və ölüm yolu ilə gedirlər. Heç də hamı bunu qəbul edə bilmir, amma xeyir-dualıdır o kəslər ki, İsaya görə büdrəmirlər.

Görkəmin dəyişilməsi (Matta 17; Mark 9; Luka 9)

Görkəmin dəyişilməsi üç Müjdədə qarşıya çıxır və hər biri eyni ardıcıllıqdadır:

1) İsanın Məsih olduğunu Peterin etiraf etməsi

2) İsanın bunu heç kimə deməmələri barədə şagirdlərinə tapşırığı

3) İsanın Öz əzabı, ölümü və dirilməsi barədə əvvəlcədən söyləməsi

4) Özünü qurban vermədə Onun ardınca getmək üçün şagirdlərini çağırması

5) Görkəmin dəyişilməsi

6) Dirilməyə qədər gördüklərini heç kimə deməmələrini İsanın əmr etməsi

7) İlyasın gəlməsi barədə müzakirə (Lukadan başqa)

8) cinə tutulmuş oğlanın sağalması

9) İsanın əzabları barədə ikinci dəfə peyğəmbərlik

Lifeld qeyd edir ki, "hekayənin və dialoqun bu qısa bölmələrinin hər biri İsanın kimliyi və nə üçün gəlməsi barədə məlumatları özündə daşıyır." Amma əsas hadisə Görkəmin dəyişilməsidir və bu bölmədə dərsimizin diqqət mərkəzidir.

Bir az əvvəl qeyd etdiyimiz kimi Mattanın Müjdəsində Görkəmin dəyişilməsi dönüş nöqtəsində qarşıya çıxır. 16:16-da Peter etiraf etmişdi ki, İsa Məsihdir, İsa ona demişdi ki, bu sözlər yalnız Allahın açıqlaması ilə gələ bilər (17-ci ayə). Ceyms Penner bildirir ki, Görkəmin dəyişilməsi hadisəsi bu etirafa 17:1-də "altı gün"ə olan müvəqqəti istinad və 17:5-də Allah tərəfindən edilən bəyanat və Peterin etirafının oxşarlığı vasitəsilə ilə bağlanır. İsanın kim olduğu

barədə tez-tez şübhələnən və ya səhv başa düşən şagirdlər (Peterin Məsihi etiraf etməsindən dərhal sonra etdiyi kimi) üçün Allahın bəyanatı Məsihin təbiətini aşkar edir, *Bu Mənim sevimli oğlumdur, Ondan razıyam, Ona qulaq asın*" (17:6). Görkəmin dəyişilməsi ilə Onun izzətinin açıqlanması bu tanınmaya əlavə edilir.

Bəziləri belə şərh edirlər ki, Atanın bəyanatı qismən İsanın təsdiqi üçün idi, amma bu, xüsusilə Mattanın Müjdəsində belə deyil. Mattanın Müjdəsində Görkəmin dəyişilməsi hekayəsində Allah bəyan edir: *"Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam*", bu sözlər 3:17-də İsanın vəftizində Onun təsdiqi üçün deyilən sözlər ilə eynidir. Bunu qeyd etmək maraqlıdır ki, Mark və Luka Müjdələrində qeyd edilən vəftizdə İsaya müraciət edən səs üçüncü şəxsdə deyil, ikinci şəxsdədir. Yalnız Mattada bu, 17:5-də olduğu kimi üçüncü şəxsdədir. Penner qeyd edir: "Matta üçün hər iki səda, vəftizdə auditoriya naməlum olsa da, şagirdlər üçündür. Bu, Mattanın şagirdlər üzərində vurğusunu göstərə bilər." Sözlər İsanın kimliyinin tanınması və Onun təbiətinin və məqsədlərinin təsdiqi kimi şagirdlərə istiqamətlənib.

İlyas və Musanın hüzuru, eləcə də İsaya qulaq asmaq əmri İsanın Allah Oğlu olduğunu aydınlaşdırdı. İsanın görkəminin dəyişilməsinə üç şagird şahid olarkən onlar Musanın və İlyasın Ona qoşulduğunu və Onunla danışdığını gördülər. Üç insanın birlikdə olması təsdiq edir ki, İsa Qanunun və Peyğəmbərlərin dediklərıdir, İsa Öz təlimində bunları vurğulamaqda diqqətli idi və bu göstərir ki, Əhdi-Ətiq İsa barədə şəhadətlik edir. Amma Peter bildirir ki, əgər İsa istəsə, o orada üç çadır qurar, *"biri Sənin, biri Musa, biri də İlyas üçün*" (4-cü ayə), Allah onu İsaya qulaq asmaq əmri ilə dayandırır. Penner yazır:

> Peterin üç çadır qurmaq təklifi əslində İsaya, Musaya və İlyasa hörmət məqsədi ilə idi, amma bu hər üçünü eyni səviyyəyə qoyurdu. İsanın səlahiyyətini Musanın və İlyasın səlahiyyəti ilə eyni kimi tanımaq kifayət deyildi. Ata ilə yaxın ünsiyyətə əsaslanmış İsanın səlahiyyəti daha böyük idi. Allahdan gələn bəyanat Peterin təklifinin məzəmmət oldunduğu kimi düşüncə tərzinin də məzəmməti idi.

"Qulaq asın" əmri həm də Qanunun Təkrarı 18:15-20-ni yada salır, burada onlara deyilir ki, "(*Musa) kimi peyğəmbər*"i dinləsinlər. Amma Allahın şagirdlərə dediyi sözlər bu faktı daha da möhkəmləndirir ki, İsanın Musa kimi peyğəmbər olmasına baxmayaraq, O, Musadan daha böyükdür və onların dinləməli olduqları Şəxs Odur.

Şagirdlərin nəyə "qulaq asmalı" olduqları aydın deyil. Penner bildirir ki, Mattanın Müjdəsində qeyd edilən Görkəmin dəyişilməsi hadisəsində İsa, Musa və İlyas söhbət edərkən İsanın ölümü xatırlanmadığı üçün "qulaq asın" əmri 16:21-də deyilən peyğəmbərliyə aid deyil, İsanın bütün təliminə aiddir. Mən bununla razılaşmıram. Mənim fikrimcə, kontekst bunu aydınlaşdırır. Görkəmin dəyişilməsi İsanın əzabı, ölümü və dirilməsi barədə təlim ilə dəstəklənir və belə düşünmək məntiqidir ki, bunu Ata Özünün "qulaq asın" əmrində xatırladır. Görkəmin dəyişilməsindən əvvəl Məsihin əzab çəkib ölməsi barədə güclü etirazlara malik olduqları kimi bu hadisədən sonra da şagirdlərin sualları var idi. Peterin Görkəmin dəyişilməsi zamanı İsanın kimliyi barədə səhv anlayışı tələb edirdi ki, İsa onlara Məsihin kim olduğunu və Allahın Onun vasitəsilə planlarının necə yerinə yetəcəyini izah edərkən o və başqa şagirdlər Ona qulaq assınlar. Şagirdlər dağdan enərkən İsa Özünün Məsih olduğunu onlara anlatdı və onlar dərk etdilər ki, vəftizçi Yəhya Malakidə Məsihin gəlişini müjdələyən qasid kimi vəd olunmuş "İlyas"dır.

Şagirdlərin İsanın kim olduğunu anlamamaları Mattanın Görkəmin dəyişilməsi hekayəsində aydındır. Amma Matta belə şagirdlər üçün 17:7-də ümid verir. İsa şagirdlərinin məzəmmət olunduğunu, qoxduğunu üzlərində görəndə onlara toxunub deyir: "Qorxmayın." Müjdələrdə "qorxmayın" ifadəsi başqa yerlərdə İsanın Öz şagirdlərinə olan qayğısı və şəfqəti ətrafında cəmlənib. Penner yazır:

> Şagirdlər İsanın həqiqi təbiətini tamamilə səhv başa düşmüşdülər, bu Peterin təklifindən görünür, bu təklifə Allah dərhal cavab vermişdi. Ata onları məzəmmət etmişdi, amma şəfqət və yəqin ki, ruhani, psixoloji "şəfa" da vermişdi.

Şagirdliyin qiymətini anlamayanlara, İsanın ardıcıllarından ölüm anınadək özünü qurban verməyi tələb edən anlayışı qəbul etməyənlərə İsa hələ də əlini uzadıb deyir: "Qorxma."

Markın Müjdəsi ən yığcam Müjdədir. Mark Müjdəsinin əsas fərqi Görkəmin dəyişilməsindən sonrakı müzakirədir. Mark Müjdəsində biz oxuyuruq ki, İsa şagirdlərinə deyir ki, "*Bəşər Oğlu ölülərdən dirilənə qədər*" gördüklərini heç kimə danışmasınlar (9:9). Amma şagirdlər Onun "*ölülərdən dirilmək*" (9:10) sözlərini heç cür anlamırdılar. Bu təəccüblü deyil. Şagirdlər İsanın təbiətini müntəzəm olaraq səhv başa düşürdülər və bu aydındır ki, hətta Görkəmin dəyişilməsi hadisəsi də bunu anlamağa onlara kömək etməmişdi.

Görkəmin dəyişilməsi hadisəsi Lukanın Müjdəsində xüsusilə əhəmiyyətli bir mənzərədə baş verir, Lifeld belə yazır:

> Peterin Məsih barədə etirafı (Luka 9:20) ardıcıllığın bir hissəsidir ki, Luka üç hadisəni bir-birinə Matta və Markda olduğundan daha yaxın yerləşdirmişdi: (1) İsa dənizi sakitləşdirir, bu, şagirlərdə sual doğurur: "Bu kimdir? O, hətta küləklərə və sulara əmr edir və onlar Ona itaət edir" (Luka 8:25); (2) Hiord Antipa İsanın möcüzələri barədə eşidir və deyir: "Bəs haqqında bu xəbərləri eşitdiyim Adam kimdir?" (Luka 9:9); (3) İsa şagirdlərindən Onun kim olduğunu soruşur, Peter belə cavab verir: "Allahın Məsihi" (Luka 9:20). Ona görə də İsanın kimliyi barədə sual vurğulanır.

Luka əhəmiyyətli hadisələri və Peterin etirafı olan dialoqu xiazm ardıcıllığında yerləşdirir. Xiazm ədəbi və ritorik vasitədir, müəllif iki və ya daha çox paralel fikirləri təqdim edir və sonra onları əks ardıcıllıqda təkrarlayır.

A – Luka 9:20 – İsanın *kimliyi* Peter tərəfindən bəyan edilir
B – Luka 9:22 – İsanın *ölümü* İsa tərəfindən bəyan edilir
C – Luka 9:26 – İsanın *gələcəyinin* izzətlə gələcəyi bəyan edilir

C¹ – Luka 9:29 – İsanın *izzəti* aydın nümayiş olunur
B¹ – Luka 9:31 – İsanın *ölümü* Musa və İlyas tərəfindən müzakirə edilir
A¹ – Luka 9:35 – İsanın *kimliyi* göylərdən gələn səs ilə təsdiq olunur

Lukanın Müjdəsi də İsa barədə səmadan gələn səsi fərqləndirir: "*Bu Mənim Oğlumdur, seçilmişimdir*" (9:35). Bu, Septuaqintdə (azacıq hərfi dəyişiklik ilə) Yeşaya 42:1-ə istinaddır, burada Allahın Qulu xalqlara ədalət gətirmək üçün Allahın seçilmiş aləti kimi təsvir olunub. Yeşayanın qeyd etdiyi Qul Allahın planını yerinə yetirmək üçün əzab çəkdiyi kimi eləcə də İsa və Onun ardınca gedənlər əzab çəkirlər (Luka 9:21-27).

Göylərə qalxma (Həv. İş 1; Matta 28)

Hətta İsanın ölümündən və dirilməsindən sonra da şagirdlərə Məsih barədə düşüncələrində təlimat lazım idi. Həv. İş. 1:6-da biz görürük ki, onlar İsadan soruşurlar: "*Ya Rəbb, İsraildə Padşahlığı indimi bərpa edəcəksən?*" Şagirdlər çox vaxt belə sualları İsanın xidməti müddətində verirdilər və aydındır ki, onlar hələ də fikirlərində bunu gözləyirdilər.

İsa cavab verir: "*Atanın hökmü ilə təyin olunan vaxtları və tarixləri bilmək sizin işiniz deyil. Amma Müqəddəs Ruh üzərinizə enəndə siz qüvvə alacaqsınız və Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək hər yerdə Mənim şahidlərim olacaqsınız.*"

Şagirdlərin tapşırığı bu idi ki, onlar padşahlığın gəlişi barədə narahat olmasınlar. Bu Atanın işidir. Onların tapşırıqları Ona şəhadətlik etməkdir. Şagirdlər bəşəriyyətin xilası üçün Allahın planına şəhadətlik etmişdirlər və bunu özləri üçün saxlaya bilməmişdilər. Allahın onların həyatında etdiklərini başqalarına danışmalı idilər. Əgər İsa şagirdlərin ümid etdikləri kimi padşahlığı bərpa etsəydi, Onun rəhbərliyi altında olan insanlar Onun kiçik davamçıları qrupundan ibarət olardılar. *Bu*, Allahın planı deyildi.

Bütün dünya üçün edilən bir şey dünyaya çatdırılmalıdır ki, başqaları da şagirdlərin əldə etdiklərini əldə etsinlər.

> *"Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək hər yerdə Mənim şahidlərim olacaqsınız."* (Həv. İş. 1:8)

Bu tapşırığı verəndən sonra İsa şagirdlərinin gözlərinin qarşısından çəkilir.

> *İsa bunları deyəndən sonra həvarilərin gözləri qarşısında yuxarı qaldırıldı. Bir bulud İsanı götürüb onlardan gizlədi.* (Həv. İş. 1:9)

Bir müddət tərəddüd içərisində qalan şagirdlər Yerusəlimə qayıdırlar, bir neçə gün sonra onlar şəhadətlik etmək üçün İsanın vəd etdiyi gücü qəbul edirlər.

Matta Müjdəsində verilmiş Məsihin son tapşırığında biz oxuyuruq ki, İsa Öz şagirdlərinə gedib bütün xalqlara öyrətməyi tapşırır və O vəd edir ki, onlar haraya getsələr dünyanın sonuna qədər onlarla olacaq. Burada və Həvarilərin İşləri 1-ci fəsildə şagirdlər nəhayət, Məsih İsanı tamlığı anlayırlar: O bizimlə olan Şəxsdir. Biz Onun Müjdəsini dünyaya çatdırdıqca, Padşahlığını genişləndirdikcə, yolunu azmış dünyaya bərpa xəbərini yaydıqca O bizim aramızda yaşayır.

İsanın strategeiyası

Biz İsanın xidmətinə baxarkən aydın olur ki, İsa Özünü Allahın "məsh edilmişi" kimi təqdim edir, amma O bilir ki, ölənə və ölülərdən dirilənə qədər şagirdlər sadəcə başa düşə bilmirlər ki, Məsih həqiqətdə necə olmalıdır.

Buna əsasən İsa dəfələrlə deyir ki, Onun Məsih olduğunu aşkar edən insanlar bu vəhyi özlərində gizli saxlasınlar. Biz bunu daha aydın Mark Müjdəsində görürük.

- İsa insandan murdar ruhu çıxaranda O, cinə əmr edir ki, Onun kimliyi barədə danışmasın (1:21-25).
- İsa cinlərə icazə vermədi, çünki "onlar İsanın kim olduğunu bilirdilər" (1:34; həm də 3:11, 12).
- O, cüzamlını sağaldanda "ciddi xəbərdarlıq" edir ki, heç kimə möcüzə barədə danışmasın (1:43, 44).
- İsa İairin qızını sağaldandan sonra eyni xəbərdarlığı edir (5:43).
- Çox vaxt Onun xəbərdarlıqlarına diqqət yetirmirdilər, O kar və pəltək adamı sağaldanda belə olmuşdu (7:31-37).
- Bəzi vaxtlar İsa, hətta olduğu yeri insanlardan gizlədirdi, adətən camaat Onu tapırdılar (7:24; 9:30, 31).
- İsa Bet-Saydadan kənarda kor insanı sağaltdıqdan sonra ona icazə vermir ki, kəndə getsin və sağaldığını söyləsin. Əksinə onu evinə göndərir. (8:22-26; bəzi əlyazmalar İsanın sözlərini belə qeyd edir, "Gedib kənddə heç kimə demə".)
- Peter İsanın Məsih olduğunu etiraf edəndə İsa ciddi xəbərdarlıq edir ki, şagirdlər "Onun haqqında heç kimə danışmasınlar" (8:29, 30).
- Bu tərzdə İsa istəmir ki, Görkəmin dəyişilməsi hadisəsini Onun dirilməsinə qədər camaat bilsin (9:2-10).

Məxfiliyə nəyə görə belə ehtiyac var idi?

Birinci, Allahın padşahlığı ilə əlaqədar İsanın "gizli" təlimi ümumi əhaliyə deyil, yalnız Onun seçilmiş şagirdlərinə aşkar olunmalı idi (Mark 4:10-12, 33, 34; 9:30, 31). Ümumi əhali İsanın dirilməsindən sonra Onun həqiqi kimliyini anlayacaqdı.

İkinci, bəşəriyyətin günahları uğrunda əzab çəkəcək və öləcək İsanın qulluqçu-Məsih kimi rolu Onun dövrünün insanlarının Məsih barədə gözəl düşüncələri ilə tam ziddiyyətdə idi. İsa qorxurdu ki, möcüzəli hadisələrə əsaslanmış Onun Məsih olması barədə bilik düzgün idarə olunmadan yayılsa, bu Onun istəmədiyi səhv ümidləri ruhlandırar.

Üçüncü, yuxarıda qeyd edilmiş doqquz nümunənin hamısı İsanın Yerusəlimdə öləcəyini bildirməsindən qabaq Mark 1:12-10:31-də

baş verir (10:32). Əksinə bundan sonra O, Yerusəlimə daxil olanda (iztirablarının başlanığıcında) izdihami sakitləşdirmir. O, xidmətinin kulminasiya nöqtəsinə yaxınlaşanda Onun Məsih olması daha da aydınlaşır, baxmayaraq ki, şagirdlər hələ də bunu anlamırdılar. Onun xidmətində vurğu möcüzəli gücünün nümayişindən (başqalarının əzabını yüngülləşdirməyə çalışarkən) Onun ölümünə keçir, burada vurğu Onun qubran verən sevgisi üzərindədir.

İsanın Xilaskar kimi xidməti Onun bədən almış Allah Oğlu olması üzərində qurulur. İsanın erkən "sirri" lazımi vaxtda – Onun ölümündə və dirilməsində tamlığı ilə aşkar olunur. Allahın bədən almış Oğlu kimi O Öz möcüzəli işləri vasitəsilə məhəbbət göstərir. Əzab çəkən Məsih kimi O Öz məhəbbətini əzab və özünü inkar vasitəsilə ifadə edir.

ŞAGIRDLIYƏ ÇAĞIRIŞ, ÇARMIXA ÇAĞIRIŞ

Bu ana qədər mənim məqsədim bunu göstərmək olub ki, təqib teologiyası aşkar olunmuş həqiqətdədir, yəni əzab Allahın məqsədlərinə və şəxsiyyətinə yad deyil, amma bu bizim aşkar etdiyimiz kimi əsas mövzudur.

Ona görə də İsa şagirdlərinə əzabın onların Allahdan aldıqları yeni həyatın bir hissəsi olduğunu öyrədəndə təəccüblənmək lazım deyil. İsa şagirdlərinə imana görə sınaqlarda nə etməyi və ailələri, kəndləri, dini və siyasi rəhbərləri tərəfindən qovulanda və ittiham olunanda necə cavab verməyi öyrədəndə təqib və şəhidlik məsələlərinə hədsiz diqqət yetirirdi. Sonralar həvarilərin yazacaqları və öyrədəcəkləri şeylər İsanın onlarla olanda eşitdiklərinə və gördüklərinə əsaslanır. Bunu fikrimizdə saxlayaraq, tapşırığımız İsanın ilk dəfə bu təlimləri verəndə nə demək istədiyini anlamaqdır.

Matta

Matta Müjdəsinin ən azı qismən şagirdlik barədə dərslik olduğuna az suallar var. Bütün əsas söhbətlər şagirdlərə tuşlanıb, həm təlimin hissələri aydın şəkildə şagirdlər üçün verilib, həm də söhbətlərdə İsaya suallar verənlər Onun şagirdləri kimi tanınıblar. Amma Mattanın diqqət mərkəzi şagirdlərin təlimə necə münasibət göstərməsində deyil, şagirdləri çağıran, öyrədən və Özünün etdiklərindən daha çoxunu etməyi tapşıran müəllim İsadadır. Şagirdlər kamil deyillər. İsanın onlara öyrətdiyini həmişə anlamasalar da, Matta İsanı güclü müəllim kimi təsvir etməkdə diqqətlidir, Onun təlimləri anlayışlar gətirirdi. Matta onları səmimi tərzdə həm Məsihlə ünsiyyətlərində uğur qazanan, həm də uğursuzluq qazananlar kimi təsvir edir, belə ki həvarilərə öyrədilmişdi ki, gedib şagirdlər etsinlər (28:19).

Matta 5:10-12

İsa Dağda Öz vəzində şagirdlərinə təlim keçməyə başlayır və beləcə biz də burada başlayacağıq.

O, şagirdlərində inkişaf etdirilməli olan xüsusiyyətləri sadalamaqla başlayır – bu xüsusiyyətlərə cəmiyyət zəiflik kimi baxır, amma O deyir ki, bu Allahın xeyir-dualarına işarədir, insanlar bu xüsusiyyətləri əldə etdiklərinə görə təbriklənməlidirlər. Kişi və ya qadın Allahın padşahlığının tələblərini qəbul edəndə, İsa Məsihin qarşısında Rəbb kimi diz çökəndə bu xüsusiyyətlər inkişaf etməyə başlayır. İsanın bütün həqiqi davamçıları onlara hansısa dərəcədə malik olurlar və onları qəbul etmək çağırışı isə daha dərindir.

Bu xüsusiyyətləri "vəzin" qalan hissəsində göstərmək çağırışı mövcuddur, amma bəxtiyarlıq artıq bu xüsusiyyətləri hansısa dərəcədə əldə edənlərə aiddir. İsa Onun ardınca getməyi qərara gəlməklə hər şeyi təslim edənlərə danışır. Biz sözlə, bu xüsusiyyətlər həqiqi tövbənin bəhrələridir. Bütün məsihçilər sadəcə kamil və ya xüsusi deyil, belə olmalıdırlar. Bu xüsusiyyətlər padşahlıqda olanlar ilə olmayanlar arasında bir xətt çəkir.

Əfsus olsun ki, bəxtiyarlıqlar o qədər bizə tanışdır ki, mən düşünərəm ki, onlar bizlərdən çoxumuz üçün əsl mənasını itirib. Gəlin yadda saxlayaq ki, İsa "bəxtiyar" o insanları adlandırır ki, dünya onları bədbəxt, hətta lənətli hesab edir. O, dünyanın yazığı gələn insanları təbrikləyir. O, dünyanın ruhdan saldığı-ruhda kasıb olanları, yas tutanları, zəifləri, salehlik üçün acıyıb susayanları, mərhəmətli, qəlbi təmiz, sülhpərvər olanları, onların davranışlarını və hərəkətlərini müdafiə edir.

İndi ola bilsin ki, biz bu yeddi xüsusiyyətin hər biri üçün müsbət cəhəti görə biləcəyik. Amma 10-cu ayədə İsa mənim fikrimcə heç kimin bəxtiyar saymadığı insanları "bəxtiyar" adlandırır. Bu insanlar doğru olan etdiklərinə görə əzab çəkirlər.

> *Nə bəxtiyardır salehlik uğrunda təqib edilənlər! Çünki Səmavi Padşahlıq onlarındır. İnsanlar Mənə görə sizi təhqir edib təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz nə bəxtiyarsınız! Sevinin və şadlanın! Çünki göylərdə mükafatınız böyükdür. Axı sizdən qabaq gələn peyğəmbərləri də belə təqib ediblər.* (Matta 5:10-12)

Qərbin bir çox ölkələrində insanlar təqibdən əzab çəkmədikləri üçün özlərini bəxtiyar hesab etsələr də, İsa təqib olunmağı bəxtiyarlıq adlandırır.

Təqib ilə əlaqədar beş prinsip vurğulanır:

1. Ən əsas, diqqətdən yayınmamalı olan prinsip budur ki, bu əzab mənə görə deyil. Bu Məsihə görədər. *Onun* xidmətində qadınlar və kişilər Onun məqsədlərini yerinə yetirmək üçün dünyada əzab çəkirlər, çünki onlar Onun tapşırıqlarına və standartlarına sadiqdirlər. Əsasən Allahın xalqı *imanlarına* görə əzab çəkmirlər; onlar *Ona* görə əzab çəkirlər.

2. İsa onların diqqətlərini peyğəmbərlərin, keçmiş dövrlərdə Allahın qasidlərinin taleyinə tuşlayır. O, şagirdlərini öyrətmək istəyir ki, onlar Onun kimi peyğəmbərlərin cərgəsindədirlər, bununla da onlar öz dövrlərində Allahın qasidləridirlər. Onlar, xüsusilə

bu məqsəd üçün seçiliblər, İsa tərəfindən onlara verilən Allahın xəbərini vəz etmək üçün göndəriliblər. İsa öldürüləndən sonra onlar Onun yerini tutacaq və peyğəmbər kimi Onun xidmətini və işini davam etdirəcəkdilər.

3. Şagirdlər təkcə başqaları onlara pislik edəndə möhkəm olmalı deyillər, həm də sevinib şadlanmalıdırlar. 39, 44, 45-ci ayələrdə öyrədilir ki, onları təqib edənləri sevsinlər. Şahidlər kimi onların rolları bu idi ki, təqib edənləri Allaha və xilasa gətirsinlər.

   Təqib olunan şəxs ona əzab çəkdirənə xidmət etməlidir. Ata Onu təhqir edən və sevməyənlərə günəş və yağış verdiyi kimi eləcə də Onun övladları onları lənətləyənlərə xeyir-dua verməlidirlər, yalnız pislik etməyi düşünənlərə yaxşılıq etməlidirlər.

4. Möhtəşəm keçmiş, indiki və gələcək vədlər var ki, təqib olunan şəxs onlardan yapışmalıdır. 10-cu ayədə təqib olunmuş şagirdlərə bəyan edilir ki, onlar "*ruhən yoxsullar*" kimi (3-cü ayə) səmavi padşahlığın sahibkarlarıdır. Bu iki şey arasında uyğunluq təsadüfi deyil. Allahın qulluqçusu tərəfindən Müjdə kimlərə vəz edilirsə "*ruhən yoxsullar*" onlardır (Yeşaya 61:1). Öz növbəsində onlara da Qulluqçu kimi nifrət ediblər və rədd olunublar, çünki onlar Qulluqçunun tapşırığını həyata keçirirlər: Müjdəni bütün xalqlara bəyan edirlər. Ona görə də onlar səmavi padşahlığın sahibkarlarına çevriliblər, Allah tərəfindən idarə olunan hakimiyyətdə iştirakçılardırlar. Bu padşahlıq artıq qismən mövcuddur, həyatlarını iman vasitəsilə Allahın hakimiyətinə təslim etmiş insanlar tərəfindən qismən yaşanır. Onun son kulminasiyası hələ də gələcəkdədir və bunu şagirdlər ümidlə gözləyirlər. Amma onlar başqalarını padşahlığa gətirməyə çalışarkən indiki zamanda onları ələ salırlar, təqib edirlər və böhtan atırlar (11-ci ayə).

   12-ci ayənin əlavə vədi Bəxtiyarlıq ayələrindən qabaqda gələnlərdən ona görə fərqlənir ki, o daha mürəkkəbdir. Qelriç

qeyd edir ki, 12-ci ayədə təqib olunan şəxs üçün vəd iki səbəb ifadəsində bəyan edilir. Birinci vəd irəliyə, səmada mükafata baxır; ikinci vəd isə geriyə, Allahın xilasedici planında peyğəmbərlərin yaşadığı əzabın nümunəsinə baxır. Şagirdlər inandırılırdı ki, onların Allaha xidmətlərinə görə mükafatı göylərdə veriləcək. Allahın gələcək padşahlığına görə daha yaxşı şeylərə ümid var. Əvvəl qeyd etdiyimiz kimi onlar həm də inandırılmışdılar ki, padşahlığa görə əzab qeyri-adi bir şey deyil; əslində bu Allahın bütün qasidlərinin həyat təcrübəsidir. Təqib olunan insan eyni həyat təcrübəli insanlar ilə birlikdədir və əmin ola bilər ki, Allahın hüzuru onunladır. Gələcək və keçmiş vədlərə görə onlar indiki zamanda sevinə bilərlər (12-ci ayə).

5. Təqib qaçılmaz olacaq. Burada istifadə olunan dil elə bir vəziyyəti təsvir edir ki, burada Onun ardınca getməyi qərara gələnlər üçün təqib norma hesab olunur. İsa istəyir ki, şagirdləri başa düşsünlər ki, Məsihin yolundan başlayan yol heç də həmişə asan yol deyil. Amma dünya bəzən ələ salıb, anlamasa da, rədd etsə də bu doğru yoldur, onlar təkcə Müjdəni susdurmağa çalışmırlar, qasidlərin hüzurunu ləğv etməyə çalışırlar.

Matta 10:16-42

İsanın təqib barədə təlimi Matta 10:16-42-də daha yaxından göstərilib. İsa şagirdlərini ilk "tapşırığı" yerinə yetirməyə göndərməzdən bir qədər əvvəl bu təlimi öyərdir. Vaxt bu faktı göstərir ki, İsa tapşırığın və təqibin bir-birindən ayrılmaz olduğunu şagirdlərinin bilmələrini istəyir. İsanın ruhunda ediləndə siz bunları bir-birindən ayıra bilməzsiniz. Məsihin ruhunda ediləndə tapşırıq həmişə çarmıxın kölgəsində baş verir.

Matta 10:16-18

"*Budur, sizi qurdlar arasına quzular kimi göndərirəm*", İsa 16-cı ayədə deyir.

Yeşaya Rəbbin təqibçilər ilə necə üzləşdiyini təsvir edir. Bunu Yeşaya 53:7-də görə bilərsiniz.

> *Ona zülm etdilər, O iztirab çəkdi, amma ağzını açmadı. Kəsilməyə aparılan quzu kimi, qırxımçıların qabağında dilsiz qoyun kimi ağzını açmadı.*

İsa Öz şagirdərini dünyada dəqiq həmin vəziyyətdə qoyur. Onları gözləyən hücumu dayandırmaqda müdafiəsiz olacaqlar. Canavar sürüsü qoyun sürüsünə hücum etdiyi kimi onlara hücum edəcəklər. Amma can qurtarmaq ilkin məsələ deyil. Onlar Allahın məqsədlərini, hətta bu onların ölümləri olsa da, yerinə yetirməyi qərara gəliblər. Canavarlar arasında qoyun olmaqla İsa onlar bu xəbərdarlığı edir: "*Ona görə də ilan kimi müdrik və göyərçin kimi məsum olun*" (10:16).

İsa deyir: "belə təhlükələrin içərisinə" sizi "*Mən* göndərirəm". O, ***(idou eqo)*** ifadəsindən istifadə edir, vurğulamaq istəyir ki, onları göndərən Odur. Belə vəziyyətlərdə şagirdlər özlərini Onun qasidlərinə çevrilən bir tərzdə aparmalıdırılar.

Təqiblə üzləşərkən özünüidarəetməni itirmək və səfeh işlər görmək – qorxu ilə cavab vermək və bununla da düşmənə güzəştə getmək asandır. Digər tərəfdən, cəsarəti səhv başa düşmək, səlahiyyətli insanları qıcıqlandırmaq və qəsdən təqibi cəlb etmək təhlükəsi də var. Nə etmək, harada dayanmaq və nə etməmək lazım olduğunu bilmək üçün hikmət lazımdır ki, əzab gələndə bu həqiqətən Məsihin uğrunda olsun, insanın öz səfehliyi uğrunda olmasın.

Şri Lankada bir çox məbədlər dini zorakılıqla üzləşdiklərinə görə oradakı Milli Məsihçi Müjdəçilik Birliyi məsihçilərə yardım etmək üçün qaydalar toplusu tərtib edib ki, canavarların içərisində qoyunlar olmaqla necə "*ilan kimi müdrik və göyərçin kimi məsum olsunlar.*"

- Toplantılar zamanı səsin səviyyəsinə qarşı həssas olmaq
- Cəmiyyətdən uzaqlaşmayaraq kəndlə bütövlük təşkil etmək

- Ətrafınızda olan cəmiyyətə qarşı davranışınızda mədəniyyət baxımından həssas olmaq, xüsusilə gənclər
- Xüsusi dini bayramlarda hamını cəlb edən bayram proqramlarından uzaqlaşmaq
- Müjdəçilik üçün "şirnikləndirici reklam" kimi (amma ünsiyyət və imkan üçün) olan xeyriyyə və ya sosial proqramlardan istifadə etməmək
- Sadə kəndli həyat tərzini qəbul etmək
- Ərazidə məsihçi rəhbərlər arasında birlik yaratmaq
- Əgər düşmənçilik davam edirsə, kiçik toplantılarda yığışmaq
- Xaricilərin və ya kənar adamların kənddə nəzərəçarpan rollarda irəliyə çəkilməsindən uzaqlaşmaq
- Bütün vaxtlarda başqa dini qruplar barədə hörmətsiz şərhlərdən qaçmaq

İndi növbəti ayələrdən (17, 18-ci ayələr) aydındır ki, insan nə qədər müdrik və təqsirsiz olmağa çalışsa da, İsanın xəbərinin əsas xüsusiyyəti bütün qarşıdurmalardan qaçmağı qeyri-mümkün edir. Şagird hələ də canavarlar arasında quzudur, bunun mənası çox vaxt həbs olunmaq, sorğu-suala tutulmaq və işgəncəyə məruz qalmaqdır. Bu, Məsihin davamçısı olmağın mənasının əsl xüsusiyyətidir. Amma şagirdlər canavarlara şəhadətlik etməyə göndəriliblər (18-ci ayə).

MƏSİHÇİ-MÜSƏLMAN ARASINDA DİALOQ ÜÇÜN QAYDALAR

Din və Demokratiya üzrə İnstitut
7 May, 2003-cü il

Məbədin daxilində məsihçi müsəlman əlaqələri mütəxəssislərdən ibarət kiçik qrupun böyük narahatçılığı olub. Hər şey 11 Sentyabr, 2001-ci ildə dəyişildi. Müsəlmanlar kimlərdir? Onlar nəyə inanırlar? Müsəlmanlar arasında hansı fərqlər var? Məsihçilər və müsəlmanlar eyni cəmiyyətdə birlikdə dinc yaşaya bilərlərmi? Bu və başqa suallar məsihçilər və müsəlmanlar arasında görüşlərə və təhsilə böyük marağı alovlandırdı.

İslam və müsəlmanlar haqqında xüsusi təhlükə ya müsbət, ya da mənfi tərzdə sadələşdirilib ki, bu da həqiqi dialoqa, həqiqi təhsilə və həqiqi məsihçi tapşırığına mane olur.

Din və Demokratiya üzrə İnstitut, xüsusilə Qərbdə müsəlmanlar ilə ünsiyyət qurmağa çalışan fərdlərə, məbədlərə və məsihçi təşkilatlara aşağıdakı qaydaları təklif edir:

Məsihçi-müsəlman dialoqunda bunları etmək münasibdir və zəruridir:

1. İslamı və müsəlmanları başa düşməyə çalışmaq. Amerikada məbədə gedən əksəriyyət insanlar islam haqqında çox az bilirlər. Əgər bizim məbədlərimiz Məsihin sevgisini müsəlman qonşularımıza (yaxında və uzaqda) təsirli surətdə çatdırmalıdırlarsa, biz səhv anlayışları atmalıyıq və müsəlman etiqadlarına və ayinlərinə qarşı dəqiq biliklər əldə etməliyik.

2. Biz cürbəcür və müxtəlif mövqelərə malik müsəlmanlarlar ilə söhbət etməyə özümüzü açmalıyıq. Əlbəttə, biz bilirik ki, bəzi müsəlmanlar dialoqa dəvəti rədd edəcək. Amma biz onlara imkan verməliyik ki, həmin seçimi etsinlər, güman edilən uyğunluqlarına görə potensial həmsöhbətlərimizi öz nöqteyi-nəzərlərimizin süzgəcindən keçirməməliyik.

3. İsa Məsihin Müjdəsinə şəhadətlik edin, çünki bunu etmək bizim borcumuzdur. Əslində Məsih Özü bizim müsəlman həmsöhbətlərimizə təqdim edə biləcəyimiz ən böyük xeyir-duadır. Anqlikan məbədinin gələcəyi barədə 2002-ci ilin Oksford konfransında qeyd edilmişdir: "Müqəddəs Paul dialoqdan istifadə edir və müqəddəs Luka müjdəçiliyi təsvir etmək üçün *dialogomai* yunan sözündən istifadə edir. Bu özünə mübahisəni, izahatı, sübutu, bəyanatı və inandırmanı daxil edə bilər (Həv. İş. 17:1-4, 17)" (konfransın hesabatarı barədə www.wycliffe.ox.ac.uk saytına baxın). Biz ümid edirik ki, çoxlu sayda müsəlmanlara qarşılaşdıqları məsihçilərin şəhadətlikləri böyük təsir göstərəcək.

4. Əmin olun ki, məsihçilər müsəlmanlar ilə dialoqa daxil olarkən məsihçi ənənəsinin əsas axınında olan ortodoks imanını yaxşı anlayırlar. Onların imanları dialoqda genişlənə və ya sual altına qoyula bilər, ona görə də məsihçi iştirakçılar imanın mərkəzinin və onun sərhədlərinin harada olduğunu bilməlidirlər. Məbədlər öz imanında arxayın olmayan, çaşmış, özünü təkzib edən və əsas həqiqətlər ilə öz fərdi baxışları arasında fərq qoya bilməyən məsihçi "nümayəndələri" göndərməklə müsəlmanların xeyrinə hərəkət etməməlidirlər.

5. Təkcə Amerika məbədlərinə deyil, eləcə də ümumi məsihçi cəmiyyətinə dialoqun məsihçi tərəfini təqdim etməyə çalışın. Yaxşı olar ki, islama Afrika və Asiya məsihçi nöqteyi-nəzərindən toxunan insanlar– xüsusilə, müsəlman xalqlarının içərisində azlıq təşkil edən qrup kimi yaşamış məsihçilər iştirak etsinlər. Əgər belə insanların iştirakı qeyri-mümkündürsə, bəzi vasitələr tapılmalıdır ki, onların nöqteyi-nəzərlərini fikirdə saxlasın. Yol verilməyən vəziyyət məsihçi-müsəlman dialoqunu başqa "Şimal-Cənub" üzləşməsi ilə azaldan vəziyyətdir, sanki məsihçilik "Şimal" ilə islam isə "Cənub" ilə ekvivalent olub. Əslində biz bilirik ki, dünyadakı məsihçilərin artan hissəsi "Cənub" da yaşayır və milyonlarla müsəlmanlar "Şimal"da yaşayır. Bu səbəbdən də istənilən

böyük dialoqun müsəlman tərəfi təkcə islamın inkişaf etdiyi xalqlardan olan müsəlmanları deyil, həm də qeyri-müsəlman xalqlarda azlıq təşkil edən qruplar kimi yaşayan müsəlmanları daxil etməlidir.

6. İslamın və məsihçiliyin oxşar olan teologiyasının və əxlaq qaydalarının bəzi cəhətlərini təsdiqləyin. Bunlar Roma. 1-2-ci fəsillərdə Paulun izah etdiyi kimi hər birimizə aşkar olunan "təbii qanunu" və ya "ümumu lütfü" təsvir edir. Bu təsdiq xüsusilə stratejidir, qərb cəmiyyətlərində dünyəvilər çox vaxt təbii qanun prinsiplərini ictimai sahəyə məxsus olmayan dar məsihçi təlimi kimi səhv təsvir edirlər.

7. İslam və məsihçilik arasında dərin fərqlərə toxunun. Əsasən bunlar bizim məsihçi imanımızın mərkəzində duran İsa Məsihin şəxsiyyəti ilə əlaqəlidir. Müsəlmanlar inanmırlar ki, O, bədən almış Allah olub və həqiqətən çarmıxda könüllü olaraq ölüb, eləcə də Onun ölümü bütün bəşəriyyətin günahı üçün yeganə qurban olub və O, əbədi həyatımız üçün həqiqətən ölülərdən dirilib. Bu fərqlərə toxunarkən məsihçilər öz məsihçi imanlarının müsbət təsdiqini vurğulayanda özlərini daha müdrik və daha şən göstərirlər. İslam etiqadları və ayinləri haqqında mənfi ittihamlar – baxmayaraq ki, bəzən bunlar zəruridir və çox vaxt təsdiqlərdə örtülüdür – dialoqda məsihçi iştirakçılarının əsas mövzusu olmamalıdır.

8. Bizim və onların oxşar maraqları olan müəyyən ictimai məsələlər barədə bəzi müsəlmanlar ilə birlikdə çalışın (məsələn, ABŞ-da din azadlığı, aborta qarşı müqavimət, qaçqınların köçürülməsinə yardım). Biz bunu ona görə edirik ki, məsihçilər yəhudilər, mormonlar və hətta ateistlər ilə işləməyə hazırlaşsınlar, biz ümumi maraqlarımız olan sahələrdə oxşar fikirləri bölüşürük.

9. Məbədlərimizin müsəlman qonşularımıza, burada ABŞ-da və dünyada xidmət etməklə Məsihin sevgisini göstərə

biləcəyi yolları axtarın. Biz müsəlman həmsöhbətlərimizdən cəmiyyətlərində olan ehtiyacları haqqında soruşmalıyıq.

10. Əksər müsəlman xalqlarının razılaşdıqları beynəlxalq müqavilələrdə bəyan edildiyi kimi demokratiya, insan hüquqları və din azadlığı anlayışlarını müzakirə edin. ABŞ-dakı məsihçilər bu anlayışların məsihçi imanımız ilə necə uyğunlaşdığı, qərb cəmiyyətlərinin bu anlayışları tarixi baxımdan necə inkişaf etdirdiyi və cəmiyyətlərimizə gətirdiyi faydalar barədə müzakirə etməlidirlər. Biz müsəlman həmsöhbətlərimizi ruhlandırmalıyıq ki, bu anlayışları islam kontekstində, onun tarixində və öz şəxsi həyat təcrübələrində nəzərdən keçirsinlər.

11. Dialoqda qarşı tərəfin qayğıları, qorxuları və şikayəti açıq ifadə etməsinə imkan verin. Qarşı tərəf o bir tərəfdə gördüyü problemlərə toxunmasa dialoq irəliləyə bilməz. ABŞ məsihçiləri müsəlmanlardan orta əsrlərin səlib yürüşləri, müasir qərb imperializmi və müasir Amerika cəmiyyəti barədə şikayətlər eşitməkdə hazır olmalıdırlar. Həmin şikayətlərin bəzilərinin həqiqətən olduğunu etiraf etmək düzgündür. Amma müsəlman dünyasında olan pisliklərin əksəriyyətinə görə Qərbi günahlandırmaq niyyətini qəbul etmək məsihçilər üçün nə tarixi baxımdan düzgündür, nə də faydalıdır. Tarixçi Bernard Luisin qeyd etdiyi kimi müsəlmanlar öz cəmiyyətləri üçün ilkin cavabdehliyi öz üzərlərinə götürməlidirlər.

12. Xüsusilə müsəlman ölkələrində yaşayan təqibdən və ya məhdudiyyətdən əzab çəkən məsihçi yoldaşlarınız (və başqa dini azlıq təşkil edən qruplar) üçün vəsatət edin. Xüsusi narahatlıqlar dini qəbul etmə və ya dəyişmək barədə qadağanlar, dini fəaliyyətləri məhdudlaşdırmağa və ya idarə etməyə çalışan dövlət, məsihçiləri şəriətə tabe etdirmək səyləri və məsihçiləri ikinci dərəcəli qeyri-müsəlman kimi hədələyən başqa qanuni və siyasi quruluşlar ilə əlaqəlidir. Məsihçilər həmsöhbətlərinə qarşılıqlı təsir əsasında müraciət

etməlidirlər. Müsəlman ölkələrində olan məsihçilər Qərbdə yaşayan müsəlmanlar kimi eyni azadlıqdan zövq almalıdırlar. Məsihçilər Amerikada müsəlmanların azadlıqlarını qoruduqları kimi eləcə də biz müsəlmanlardan tələb etməliyik ki, müsəlman ölkələrində yaşayan məsihçilər və başqa dini azlıqlar üçün dini azadlığı təmin etsinlər.

Məsihçi-müsəlman dialoqunda bunları etmək münasib deyil və xətər yetirir:

1. Məsihçiliyi və islamı birləşdirməyə çalışmaq, onların əsasən eyni təlimlərə malik olduğunu və onlar arasında fərqin sadəcə xırda teologiya məsələlər olduğunu iddia etmək.

2. Məsihin Bədəninin birliyinə oxşar birlikdə məsihçiləri və müsəlmanları birləşdirməklə yeni "makro-birləşdirmə"ni təmsil edən müxtəlif imanlardan ibarət təşkilatlar yaratmaq. Əgər məsihçilər müxtəlif imanlardan ibarət təşkilatlarda iştirak edirlərsə, bunlar sadəcə məhdud əməkdaşlığın dialoqu və mənbələri üçün müzakirələr olmalıdır – yanlış birliyi iddia edən birliklər olmamalıdır, çünki belə şey mövcud deyil.

3. İbadətin ümumi fəaliyyətlərini yaratmağa və onu qeyd etməyə çalışmaq. Rəbbimiz İsanın öyrətdiyi kimi Ata, Oğul və Müqəddəs Ruha ibadət edən məsihçilər olaraq Allahın həmin adları və anlayışları olmayan (müsəlmanlar üçün təhqiredici) hər bir ibadəti biz zənginləşdirən deyil, tükəndirən hesab edirik. Biz istəmirik ki, ibadətimizi elə yerə gətirib çıxaraq ki, müsəlmanlar onu qəbul etsinlər, nə də müsəlmanlardan tələb etmirik ki, ibadətlərini elə yerə gətirib çıxarsınlar ki, məsihçilər onu qəbul etsinlər. Müsəlmanlar ilə yanaşı ibadət etmək yaxşıdır, bu vaxt biz onların düzgün ibadət hesab etdiklərini müşahidə edə bilərik, eynilə də müsəlmanlar məsihçilərin necə ibadət etdiyini müşahidə edə bilərlər.

4. Məsihçi-müsəlman münaqişələrində bütün günahı konfransda iştirak edən tərəflərin üzərinə qoymaq. Bu fikri mənimsəmək üçün münaqişələr olduqca mürəkkəb və uzunsürəndir və dialoq olduqca natamamdır. Paul Marşal qeyd edir: "Dialoqda iştirak edən müsəlmanlar adətən qətldə, uşaq oğurluğunda və ya məsihçi qadınların zorlanmasında iştirak edənlər deyillər" (Onların qanları çağırır kitabından, səh. 220). Buna oxşar olaraq, Şərqi Ortodoks və ya Afrikalı məsihçilər səlib yürüşləri və Qərbi Avropa imperializmi üçün özlərini təqsirli hiss etməyə bilərlər. Əlbəttə, məsihçilər başqa məsihçilərin müsəlmanlara qarşı etdikləri zorakılıqlara görə peşmançılıq hissi keçirə bilərlər. Amma biz müsəlman həmsöhbətlərimizdən tələb edə bilmərik ki, üzr istəsinlər, nə də onlar dialoqda iştirak edən məsihçi iştirakçılardan üzr istəməyi tələb edə bilməzlər. Biz təsəvvür etməli deyilik ki, islam və məsihçilik arasında fərqlər xüsusi toqquşmayadək azala bilər.

5. Dünya haqqında sanki müsəlman və məsihçi (və başqa) təsir sahələrinə yaxşıca bölünmüş və sahələr arasında üst-üstə düşmə və ya hərəkət yox imiş kimi danışmaq. Yuxarıda qeyd edildiyi kimi müsəlman ölkələrində yaşayan milyonlarla məsihçi var, eləcə də əksinə. Azad cəmiyyətdə məsihçilər islama keçə bilər və eləcə də əksinə. Biz bu anlayışı qəbul edə bilmərik ki, "islam dünyası"na qərb məsihçilərinin "müdaxilə etməyə" hüququ yoxdur. Və əlbəttə, müsəlmanların qərb ölkələrində baş verənlərlə maraqlanmağa və onlara müdaxilə etməyə hər bir hüququ var.

6. İslamın "dərslik variantını" təqdim edən seçmə müsəlman alimləri və dini rəhbərlər ilə yalnız danışmaq. "Məşhur islamı" küçədə tətbiq olunduğu kimi tanımaq daha vacib ola bilər. Biz məsciddəki imamın yanına deyil, yerli müsəlman dükanına getməklə daha çox şeylər öyrənə bilərik və daha bəhrəli söhbət edə bilərik.

7. Biz məsihçilərin xoşladıqları rəhbərləri qaldırmaq və xoşlamadığımız rəhbərləri rədd etməklə müsəlman cəmiyyətinin daxilində siyasi oyunlar oynamaq. Müsəlman cəmiyyətində kimin həqiqi, kiminsə yalançı rəhbər olduğunu təyin etmək məsihçi kimi bizim işimiz deyil. Biz sadəcə danışmaq və əməkdaşlıq etmək istəyən hər bir kəs ilə danışmalıyıq və əməkdaşlıq etməliyik. Adətən bəzi müsəlmanlar digərlərindən daha çox danışacaq və əməkdaşlıq edəcəklər. Yəqin ki, bizim müsəlman həmsöhbətlərimiz daha "mülayim", daha dözümlü olacaqlar, həm də demokratiya, insan hüquqları və Qərblə yaxşı ünsiyyətlər ilə daha çox maraqlanacaqlar. Bu mübahisə edilməzdir ki, biz belə insanlara üstünlük veririk ki, adlarını çəkdiyimiz dəyərlərə görə müsəlman cəmiyyətinin daxilində daha çox təsir göstərsinlər. Amma bizim onları öz dini cəmiyyətlərində yüksəltmək qabiliyyətimiz olduqca məhduddur və belə də olmalıdır.

8. Dialoqun özünün məsihçilər və müsəlmanlar arasında teoloji və siyasi məsələlərin həlli olduğunu güman etmək. Dialoq əsl məsələləri aydınlaşdıra bilər və bəzi təsəvvür olunan məsələləri kənarlaşdıra bilər. Bu məsihçilərə və müsəlmanlara əməkdşalığın mümkün olduğu məsələlərdə asanlıqla birlikdə işləməyə imkan verir. Qarşılıqlı anlaşılmazlıq məsihçilər və müsəlmanlar arasında problemdir; amma bu ən dərin problem deyil. Paul Marşal qeyd edir: "Təqibdə iştirak edən qatı islamçı insanlar nə ağılsızdırlar, nə də savadsızdırlar.... Əgər biz düşünsək ki, bu sadəcə daha çox təhsil və boşboğaz konfranslar vasitəsilə həll olunmalı olan səhv başa düşmədir, onda biz təqibi anlamayacağıq" (Onların qanları çağırır kitabından, səh. 220).

Matta 10:19, 20

Canavarların içərisində quzu olmaq ümidsiz və faydasız vəziyyət kimi görünə bilər. Amma İsa bu möhtəşəm vədi 19, 20-ci ayələrdə belə vəziyyətdə olanlara verir:

> *"Onlar sizi təslim edəndə necə və ya nə deyəcəyiniz barədə qayğı çəkməyin. Nə deyəcəyiniz həmin vaxt sizə bildiriləcək, çünki danışan siz yox, sizdə danışan Atanızın Ruhudur."*

Dünyada olan imanlılar Onun uğrunda əzab çəkərkən Allahın onlara necə dəqiq sözlər verdiyini şəhadətlik etdikcə bu ayələrin həqiqətini təsvir edirlər. Onlar sözlərin necə gəldiyini, belə cəsarət və bəlağətlə necə danışa bildiyini izah edə bilmirlər, amma Allah Öz Ruhu vasitəsilə onlara lazım olan sözlər verdi ki, əzabın içində Məsihin həqiqətinə şəhadətlik etsinlər.

Ehtiyac anında Allah yardım edəcəyini vəd edir ki, İsanın şagirdləri sadiq şahidlər kimi qala bilsinlər. Amma biz 22-ci ayədə gördüyümüz kimi bu, Ruhun verdiyi yardımı istifadə etməkdə onların uğursuzluğa düşə bilmək imkanını inkar etmir.

YEPISKOP OLMAĞA SÖVQ OLUNMAQ

Pastor Rixard Vurmbrandın ümumilikdə on üç il Roma kommunistlərinin əlində əzab çəkməsi yəqin ki, ən çətin bir şey idi. Erkən illərdə zorakılıq əsasən fiziki idi. Amma sonrakı illərdə ona işgəncə verənlərin taktikaları dəyişdi. Narkotik maddələr, məhrum etmə və "beyinlərin yuyulması" idealogiyası məsihçi rəhbərlərin iradələrini sındırmaqda daha effektli görünürdü. Gecə və gündüz səs ucaldan cihazlar guruldayırdı:

Məsihçilik axmaqlıqdır.
Məsihçilik axmaqlıqdır.
Məsihçilik axmaqlıqdır.

Nəyə görə bundan əl çəkməyək?
Nəyə görə bundan əl çəkməyək?
Nəyə görə bundan əl çəkməyək?
Məsihçilik axmaqlıqdır.
Məsihçilik axmaqlıqdır.
Məsihçilik axmaqlıqdır.
Məsihçilik axmaqlıqdır.
Nəyə görə bundan əl çəkməyək?
Nəyə görə bundan əl çəkməyək?
Nəyə görə bundan əl çəkməyək?

Hədələr və vədlər arasında istintaq edənlər Rixardı sındırmağa çalışırdılar ki, imanından dönsün. Bəzən ona yaxşı yeməklər verilirdi, yəqin ki, yeməklərə narkotik maddələr qatılırdı. Digər vaxtlarda o acından ölürdü. Onu istintaq edənlər ilə görüşlərdə, görüşlərin birində ona onlarla mübahisə etmək imkanı verilmişdi; növbəti görüşdə onlarla razılaşmadığına görə cəzalandırılmışdı. Bütün bunlar ona görə nəzərdə tutulmuşdu ki, onun tarazlığını pozsunlar və bununla da onların iradəsinə tabe olsun.

Pastor Vurmbrandın yəqin ki, ən çətin sınaq ilə üzləşdiyi vaxt gəlib çatdı. Onu kamerasından çıxarıb gözləri bağlı halda mühafizəçilərin müşayiəti ilə həbsxananın ən uzaq yerinə apardılar. O düşündü ki, nəhayət onu edam etməyə aparırlar. Əksinə onu Rumıniyanın Daxili İşlər Nazirinin müavini general Negriya ilə danışmaq üçün bir otağa gətirdilər. Rixard öz sözləri ilə nə baş verdiyini danışdı:

Qapı açılanda məni general formasında geyinmiş bir kişinin qarşısına gətirdilər. Bu, Daxili İşləri Nazirinin müavini Neqriya idi, onun dərrakəsi güclü qaraçı sifətində yanan enerji ilə uyğunlaşırdı. Siyasi rəhbər və Buxarestdən olan bəzi məmurlar onun yanında oturmuşdular. Neqriya nəzakətlə dedi: "Cənab Vurmrand, mən sizin məhkəmə işinizi araşdırmışam. Məni sənin baxışların maraqlandırmır, amma mən öz silahından möhkəm yapışan insanı sevirəm. Biz kommunistlər də inadcılıq. Mən özüm dəfələrlə həbsdə olmuşam və öz fikrimdən məni döndərmək üçün çoxlu şeylər edilmişdi, amma mən möhkəm dayandım."

"Mən inanıram ki, indi güzəştə getmək vaxtıdır. Əgər sən çəkdiyin əzabları unutmağa hazırlaşmısansa, bizə qarşı etdiklərini unudarıq. Biz səhifəni çevirərik və düşmən olmaq əvəzinə dost olarıq. Öz inamına qarşı hərəkət etməkdənsə sən onlara uyğun hərəkət edə bilərsən və bəhrəli əməkdaşlıq dövrünə daxil ola bilərsən."

Kağızlar qabağında açıq şəkildə qoyulmuşdu. "Mən, hətta sənin vəzlərini oxumuşam. Müqəddəs Kitabın izahları gözəl surətdə qeyd edilib, amma sən bilməlisən ki, biz elmi əsrdə yaşayırıq."

"İndi nə?" Neqriya partiyanın elmi mühazirəsinə başlayarkən mən özümdən soruşdum. Mötəbər nazir buna görə 320 km-lik yolu gəlib?

Düzənliklərdə burulub dönən və nəhayət dənizə qovuşan Dunay çayı kimi onun nitqi də sona yetdi.

"Bizə sənin kimi insanlar lazımdır! Biz insanların imkana görə bizə qoşulmalarını istəmirik, keçmiş düşüncə tərzlərində səhvləri gördüklərinə görə qoşulmalarını istəyirik. Əgər sən mövhumata qarşı mübarizədə bizə kömək etməyə hazırlaşmısansa, sən yeni həyata dərhal başlaya bilərsən. Sənin yüksək maaşlı işin olacaq, ailən rahatlıqda və təhlükəsizlikdə yenidən ətrafında olacaq. Sən nə deyirsən?"

Mən cavab verdim ki, yaşadığım həyatda artıq sevinc tapmışam; əgər azadlığa buraxılsam, partiyaya kömək etmək işində yollar fikirləşib tapmışam.

Siyasi rəhbər ayağa durdu. Neqriya dedi: "Sən demək istəyirsən ki, bizim üçün işləyəcəksən?"

"Mən təklif edirəm ki, siz məni ən yaxşı Marksist müəllim ilə birlikdə kəndbəkənd və şəhərbəşəhər göndərəsiniz. Birinci mən biliksizliyimi və geriyə çəkilən məsihçi dinimin axmaqlıqlarını ifşa etməliyəm; sonra sizin Marksist müəlliminiz öz teologiyasını izah edə bilər və onda insanlar bu iki şey arasında öz qərarlarını çıxararlar."

Neqriya sərt baxışlarla baxdı. "Cənab Vurmbrand, sən bizi qıcıqlandırırsan. Mən bunu səndə xoşlayıram. Biz kommunistlər əvvəlki dövrlərdə müdirlərə belə cavab verərdik. Gəl, mübahisə etməyək. Mən sənə yaxşı təklif edirəm. Heç kimi sənin ateist

təbliğatçısı olmağını istəmir. Əgər sən həqiqətən köhnə imandan belə yapışmısansa – sözün düzü, mən mədəni bir insanın belə cəfəngiyyatı necə qəbul etdiyini anlaya bilmirəm – onda yapış ondan. Amma bunu yadında saxla ki, bizim də gücümüz var! Kommunizm dünyanın üçdə bir hissəsini işğal edib; Məbəd bizimlə razılığa gəlməlidir."

"Gəl, sirlərimizi açaq. Sözün açığı biz məbəd rəhbərlərindən bezmişik, onlar hər şeyi insanların gözləri qarşısında edirlər; onlar baş verənlər ilə artıq əlaqədə deyillər."

Neqriya bir-bir qalan yepiskopların adlarını çəkdi. O dedi ki, onların hamısı gücsüz və ya partiya adamlarıdır; və hər bir kəs bunu bilirdi.

"İndi sənin kimi bir insan yepiskop olsa, öz imanında qalıb rejimə sadiq qala bilərsən. Sənin Müqəddəs Kitabın deyir ki, rəhbərlər Allahdan olduqları üçün onlara tabe olmalısan, yaxşı bəs onda bizə niyə tabe olmursan?"

Mən heç nə demədim. Neqriya o biri məmurlardan xahiş etdi ki, bizi bir müddət tək qoysunlar. O əmin idi ki, mən onun təklifini qəbul edəcəyəm və bir şeyə görə mənə etibar etdi, ona görə də istəmirdi ki, bunu o birilər eşitsinlər.

"Partiya sizin Dünya Məbədlər Şuranıza hücum etməklə səhv edib" – deyə o başladı. Bu casus həlqəsi kimi başladı; amma pastorlar çox vaxt adi fəhlə sinfidirlər; daha doğrusu, onlar səhmdarlar deyillər, əla xidmətçilərdir. Belə insanlara qarşı durmaq əvəzinə biz onları öz tərəfimizə keçirməliyik ki, şura özü bizim alətimiz olsun."

O, yazı stoluna dirsəkləndi. "Cənab Vurmbrand, siz burada bizə kömək edə bilərsiniz, siz Dünya Məbədlər Şurası üçün işləmisiniz. Siz dünyada yaxşı tanınırsınız: biz sənin haqqında hələ də məlumatlar əldə edirik. Əgər sən yepiskop olsan, başqa DMŞ-larına (Dünya Məbədlər Şurası) kömək edə bilərsən ki, bizim üçün dayaq – ateizmin yox, sosializmin və sülhün dayağını yaratsınlar. Şübhəsiz ki, sən əməliyyatlarımızın arxasında bombanı və qanunsuz müharibəni qadağan etmək üçün universal idealizmi görürsən? Və sən ürəyinin istəyinə ibadət edə biləcəksən: oraya biz müdaxilə etməyəcəyik."

Mən bir anlıq fikirləşdim.

"Bu əməkdaşlıq nə qədər müddət davam edəcək? Keçmişdə sizinlə işləyən yepiskoplar öz kahinləri barədə sizə məlumat çatdırmalı idilər. Mən də bunu etməliyəmmi?"

Negriya gülməyə başladı. "Sən vəzifənə görə xüsusi heç bir öhdəçilik altında olmayacaqsan" – o dedi. "Dövlətə zərər vuran bilən hərəkətdən agah olan hər kəs onu edən şəxsi ifşa etməlidir və bir yepiskop kimi sən yəqin ki, belə şeylər eşidəcəksən."

"Rumıniyanın indiki lüteran yepiskopu çox qocadır. Sən əvvəlcə Rumıniyada öz məbədinin effektli rəhbəri olacaqsan, sonra yepiskop olacaqsan."

Mən Negriyadan xahiş etdim ki, düşünmək üçün mənə vaxt versin və o bununla razılaşdı.

"Mən Buxarestə getməzdən əvvəl sənin lə görüşəcəyəm ki, azadlığa buraxılmağın üçün sənədləri hazırlayım" – o dedi.

Mən təcrid olunmuş kamerama qaytarıldım və neçə saat oturub düşündüm. Mən köhnə bir yəhudi hekayəsini xatırladım, bu hekayədə bir kişi düşünmək üçün vaxt istəyir: o ravvindir, istintaq olunur və ondan tələb olunur ki, imanından dönsün. Növbəti səhər ravvin dedi: "Mən katolik olmayacağam, amma sonuncu bir xahişim var – mən dirəkdə yandırılmazdan əvvəl dərhal cavab verməmək üçün qoy dilim kəsilsin. Belə suala yeganə cavab 'Xeyrdir'."

Amma bu vəziyyətin bir tərəfi idi: digər tərəfdən isə mən bilirdim ki, kommunist ölkəsində rəsmi məbəd yalnız bəzi güzəştlər sayəsində canını qurtara bilərdi; hətta ateist dövlətə vergilər ödəməklə məsihçi güzəştə gedir. Məbədin "gizli" toplaşa bildiyini demək asan idi, amma gizli toplaşan məbədə öz işi üçün örtük lazımdır. Bu örtük olmadığından milyonla insan ibadət etmək üçün yer tapa bilməyəcək, vəz etmək üçün pastor olmayacaq, onları heç kim vəftiz etməyəcək, evləndirməyəcək, ölülərini basdırmayacaq –bu, təsəvvür olunmayan bir seçim idi, kollektivləşdirmə ilə razılaşdığını bir neçə sözlə ifadə etməklə bütün bu sadalanan problemlərdən uzaqlaşa bilər.

Həm də mən həyat yoldaşımı və uşağımı neçə illərdir ki, görmürəm; mən onların sağ olub-olmadıqlarını bilmirəm. Siyasi

rəhbər dedi ki, Sabina həbsxanadadır; əgər mən bu təklifi rədd etsəm, onun və Mixayın başına nə gələcək?

Mən yuxarıdan güc lazım idi ki, yox deyə bilim, belə etmək daha on bir il xidmət etmək, ailəmi qurban vermək və demək olar ki, dəhşətli vəziyyətlərdə dəqiq ölüm deməkdir; amma həmin an Allahın üzünü görmürdüm və imanım tükənmişdi. Mən qarşımda kommunizmin böyük şəklini görürdüm, o artıq dünyanın çox hissəsini örtmüşdü və qalan hissələri də örtəcəyini hədələyirdi; və mənim təsəvvürümə ölmək, dəfələrlə döyülmək, aclıq və həyat yoldaşımdan və oğlumdan məhrum olma təhlükəsi üstün gəlirdi. Mənim qəlbim gəmi kimi o tərəf bu tərəfə yellənirdi, şiddətli fırtına tərəfindən yırğalanırdı, bir anlıq dənizin dibinə baş vururdu, sonra Göylərə qaldırılırdı. Mən həmin saatlarda Məsihin kasasını içdim; bu mənim üçün Getsemani bağı idi. Və İsa kimi mən özümü yerə sərib qırıq-qırıq ağlayaraq dua etdim və Allahdan xahiş etdim ki, bu dəhşətli sınağa qalib gəlməkdə mənə kömək etsin.

Duadan sonra mən bir az rahatlandım. Amma hələ də qarşımda Nikefor Dayanu və Radu Qinda və imana zərər gətirən bir çox başqalarını, Patriarx da daxil olmaqla görürdüm; onlar minlərlə insanı əlavə etmişdilər və indi imanda zəif olan bir insana çevrilmişəm və bədənin zəifliyinə görə onlar kimi məni də udacaqdılar. Mən məsihçiliyin həqiqəti ilə mübahisə etdiyim bütün vaxtları diqqətlə düşünməyə başladım. Ən sadə sualları özlüyümdə təkrarladım. Məhəbət nifrətdən daha yaxşıdır? Məsih mənim çiyinlərimdən günahın yükünü və və şübhəni qaldırıbmı? O Xilaskardırmı? Nəhayət "Bəli" cavabını verməkdə heç bir çətinlik yox idi. Və mən bunu edəndə sanki böyük bir ağırlıq ağlımdan götürüldü.

Bir saata yaxın mən yatağımda uzanıb öz-özümə dedim: "Mən indi çalışacağam ki, Məsih barədə fikirləşməyim." Amma mənim səyim baş tutmadı: Mən başqa heç nə barədə fikirəşə bilmirdim. Məsihçilik olmadan ürəyimdə boşluq var idi. Axırıncə dəfə mənim fikrim Neqriyanın təklifinə yönəldi. Mən qəddar hökmdarları, yəhudilər üzərində padşah təyin edən Navuxodonosordan tutmuş Avropa üzərində öz marionetlərini qoyan Hitlerə qədər düşündüm. Mənim vizit vərəqəmin üstündə belə yazılacaqdı: "Rixard Vurmbrand,

Məxfi Polisin təyinatı ilə Rumıniyanın lüteran yepiskopu." Mən müqəddəs yerdə Məsihin yepiskopu olmayacağam, amma dövlət müəssisəsində polis cəsusu olacağam.

Mən yenidən dua etdim və sonra ürəyimdə sakitlik hiss etdim.

Növbəti gün mən yenidən çağırıldım. Kommendant Aleksandresku orada idi, Neqriyanın ətrafında bir neçə başqa adam da var idi və mən təklifi qəbul etməyəcəyimi söyləyəndə sual bütünlüklə yenidən müzakirə olundu. Yalnız biz Dünya Məbədlər Şurası mövzusuna çatanda Neqriya yenidən o birilərdən otağı tərk etməyi xahiş etdi. Sonra o məndən xahiş etdi ki, imtinaya bir daha nəzər salım.

*Mən dedim: "Mən özümü yepiskop olmağa layiq görmürəm – Mən pastor olmağa layiq deyildim və hətta sadə məsihçi olmaq da mənim üçün həddən artıq böyük idi. İlk məsihçilər '**Christianus sumi**", yəni – "**mən məsihçiyəm**" deməklə ölümə getdilər. Mən bunu etməmişəm; əksinə mən sənin biabırçı təklifin üzərində götür-qoy etmişəm. Amma mən onu qəbul edə bilmərəm."*

"Biz bunu qəbul edəcək başqa bir adamı tapacağıq" – deyə o xəbərdarlıq etdi.

Mən cavab verdim: "Əgər siz inanırsınızsa ki, mənim səhv olduğumu sübut edə bilərsiniz, onda öz ateist faktlarınızı gətirin! Mənim öz imanıma görə faktlarım var və mən yalnız həqiqəti axtarıram."

O məndən soruşdu: "Sən əlbəttə, bilirsən ki, bu sənin gələcəyin üçün nə deməkdir?"

"Mən yaxşı götür-qoy etmişəm və təhlükələri ölçüb-biçmişəm və əzab çəkmək üçün sevinirəm, çünki mən əminəm ki, bu sonuncu həqiqətdir."

Matta 10:21, 22

21-ci ayədə şagirdlər şübhəsiz ki, bunu öyrənməkdə qorxuya düşmüşdülər, belə ki təqib təkcə dövlət rəhbərlərindən gəlməyəcəkdi, hətta öz ailələri onları rədd edəcəkdi. Ailə sadiqliyi və valideynlərə hörmət çox vacib sayılan cəmiyyətlərdə (yəhudi cəmiyyəti kimi) bu sözlər yəqin ki, inanılmaz dərəcədə kobud səslənmişdi, əslində biz sözlər Mikeya 7:6-dan gəlmişdi: *"Qardaş qardaşı, ata övladını ölümə təslim edəcək. Övladlar ata-anasına qarşı çıxıb onları edam etdirəcək*" (Matta 10:21).

Bunlar bizim üçün də çətin sözlərdir. Əksər mədəniyyətlər ailənin üzərində ağla sığmayan dəyəri qoyurlar və ona görə də "ailə yer üzündə Allahın ən vacib təşkilatı deyil" həqiqətini eşitmək güclü bir şeydir. Ailə məsihçilərin xasiyyətini yaradan və formalaşdıran ən mühüm sosial təşkilat deyil. Ailə Allahın lütfünün və kədərdə olan dünya üçün xilasının əsas vasitəsi deyil."

Əksinə, Müqəddəs Kitaba əsasən baxışda məbəd Allahın ən yer üzündə ən vacib toplantısıdır. Məbəd Allahın dünyada əsas dəyişiklik vasitəsidir, İsa Məsihin həyatı, ölümü və dirilməsi vasitəsilə Allahın lütf və xilası barədə xoş xəbərinin əsas vasitəsidir. Con Kalvin yazdığı kimi "Allah bizi öz ailəsinə qəbul edəndən sonra bizi qulluqçular deyil, oğullar hesab edir, xeyirxah və can yandıran valideyn kimi hərəkət edir və bütün həyatlarımız boyu bizi qoruyur."

Brett Uebb-Mitçel yazır:

> İsanın Öz xidmətində etdikləri bizim özümüzü və bioloji tanış-bilişlərimizi necə anlamağımıza yenidən nəzər salmaqdan başqa bir şey deyil. Mark 3:31-35-də İsa qarşısında toplaşmış insanlara deyir ki, onun əsas ailəsi genetik əcdadlardan deyil, Onun itaətkar ruhunu bölüşənlərdən ibarətdir. Öz şagirdlərinə və davamçılarına qarşısında olanların artıq "anası, qardaşları və bacıları" olduğunu deməsi öz bioloji ailəsinin vacibliyini inkar etmək deyil. Əksinə, İsa bizim ailə barədə təsəvvürümüzü dəyişmək istəyirdi, O, diqqətimizi sadə bioloji və övladlığa götürmə mirasından uzaqlaşdırıb daha geniş məzmuna, Allahın ailəsinə yönəltmək istəyirdi.

> İsa bizim nəsil şəcərəmizi genişləndirir, bir-birimiz qarşısında müəyyən məsuliyyətlər və cavabdehliklər olan yeni ünsiyyətə cəlb edir.

Amma İsanın gözündə ailə nə qədər yaxşı olsa da, müqəddəs deyil. Əmlaklar, nüfuz və din kimi ailə də padşahlığın tapşırığına aydın şəkildə tabedir. Məsihin ardınca getməyin tələbləri və yeni ailəyə daxil olmaq insanın ailə sadiqlikləri üzərində gərginlik olacaq. Matta 5:10-12-də olduğu kimi İsa Öz şagirdlərinə 10:22-də xatırladır ki, *"Mənim adıma görə hamı sizə nifrət edəcək. Amma axıracan dözən xilas olacaq*."

Çox vaxt gərgin şəxsi nifrət və rədd olunmanın qarşısında şagirdlər şübhəsiz ki, imandan dönməyə və belə düşmənçilik və təhlükədən qurtulmağa sövq oluna bilərdilər. Amma İsa onlara xatırladır ki, əgər onlar dözsələr, azad olacaqlar. 22-ci ayədə "xilas olmaq" feli aydındır ki, fiziki həyatın və ya sağlamlığın qorunmasına aid olmaya bilər, çünki bəzi imanlılar imanlarına görə şəhid olublar. Bəs onda İsa burada nədən danışır?

Qrek Blomberq Matta kitabı barədə yazdığı şərhlərində qeyd edir:

> İsa xatırladır ki, imanımızın həqiqi rəngləri yalnız həyatlarımız göz qarşısında olanda görünə bilər (İbranilərə məktubun, həm də 1 Peter 1:1; Yaqub 1:2-4-ün oxucularının qarşılaşdığı vəziyyətdəki kimi). "Son" daha təbii olaraq əsrin sonuna aiddir, amma Məsihin gəlişini həyatda görməyənlər üçün ölüm anına da aiddir.

"Sona qədər" ifadəsi "tamamilə, bütünlüklə, bütövlüklə" sözləri üçün idiomatikdir – bütün düşmənçilik müddətinin sona yetəcəyinə aiddir. Həmin bu ifadə Mark 13:13 və Luka 21:19-da qarşıya çıxır. Lukada İsa deyir:

> *Hətta ata-analarınız, bacı-qardaşlarınız, qohumlarınız və dostlarınız sizi təslim edəcək və bəzinizi edam etdirəcək. Mənim adıma görə hamı sizə nifrət edəcək.*

Amma başınızdan bir tük belə, əskik olmayacaq. Dayanıb dözməklə canlarınızı qurtarın. (Luka 21:16-19)

İsa Luka 21-də qeyd edir ki, təqib şagirdləri həqiqətən Allahın qayğısından ayıra bilməz. Bu o demək deyil ki, onlar əzab çəkməyəcəklər, amma onlar tamamilə məhv olmayacaqlar. Dözmək sübut edir ki, insan Allaha etibar etməkdə davam edir. Luka 21:36-da yazıldığı kimi: *"Ona görə də baş verəcək bütün bu fəlakətlərdən qaçıb Bəşər Oğlunun önündə dura bilmək üçün hər an dua edərək ayıq olun."*

Bütün Müjdələrdə vurğu şagirdlərin sona qədər dözməsinin vacibliyindədir. Təslim olan və ya Allahın Ruhunun gücündən faydalanmayan insan xilas olmayacaq (Matta 10:19). Biz İsanın həqiqətən burada əsl şagiridin nə vaxtsa dözə bilməyəcəyini deyib-demədiyi barədə mübahisə edə bilərik. Şübhəsiz ki, təqib əqlən razılaşan insanın imanını ifşa edəcək.

Amma mənə elə gəlir ki, burada verilən xəbərdarlıq ondan daha güclüdür – imandan dönmə aydın görünən imkandır. İ. Hovard Marşall yazır: "Biz qabaqcadan yaranmış teologiyanın maraqlarına görə bunun mövcudluğunu inkar etmək hüququna malik deyilik." Əslində imanı olmayanlara dözməyi xəbərdarlıq etmək bir az düzgün səslənmir. İstər təqib olsun, istərsə də təqib olmasın, onlar onsuz da sonda xilas olmayacaqlar!

Bu hissədə təhlükə budur ki, İsanın şagirdlərinin qarşılaşdıqları təhlükə dözmək üçün o qədər çətindir ki, özlərini qorumaq üçün yeganə ümid təslim olmaqdır. İsa onlara xatırladır ki, bunun dəqiq əksi doğrudur.

Matta 10:23-25

23-cü ayədə İsa Öz şagirdlərinə deyir ki, təqibdən qaçsınlar. Bu bəzi insanları təəccübləndirir. Amma bu şagirdləri üçün seçimdir. 23-cü ayənin vədi budur ki, Məbəd heç vaxt itməyəcək. Cəhənnəmin qapıları ona üstün gələ bilməyəcək.

İsanın onlara həvalə etdiyi xəbərə görə əldə edəcəkləri düşmənçilik təəccüblü görünməməlidir:

"Şagird müəllimindən, qul da ağasından üstün deyil. Şagirdin öz müəllimi, qulun isə öz ağası kimi olması ona kifayətdir. Əgər ev sahibinə Baal-Zevul dedilərsə, onun ailə üzvlərinə bundan nə qədər artıq deyəcəklər!" (Matta 10:24, 25)

İsa Yəhya 15:20-də daha aydın şəkildə deyir:

"Mənim sizə söylədiyim sözü yadınıza salın: 'Qul ağasından üstün deyil'. Əgər Məni təqib etdilərsə, sizi də təqib edəcəklər, Mənim sözümə riayət etdilərsə, sizin də sözünüzə riayət edəcəklər."

TƏQİBƏ MÜQƏDDƏS KİTABA ƏSASƏN CAVABLAR

Müqəddəs Kitaba əsasən üç əsas cavab var ki, Rəbb Onun xalqı təqib olunanda icazə verir:

1. Qaçıb getmək

Təqibdən qaçmaq üçün Müqəddəs Kitaba əsasən icazə var (Matta 10:23; Həv. İş. 8:1; 9:25; 14:5, 6; 2 Kor. 11:32, 33- ə baxın). Amma qaçmağın dalında dayanan maraq vacibdir. Əgər bu əsasən əzabdan qaçmaqdırsa, onda bu yetərli səbəb olmayacaq. Bütün Əhdi-Cədid boyunca Allahın padşahlığının tapşırığı həmişə hər şeydən: ailədən, əmlakdan, şəxsi təhlükəsizlikdən üstündür.

Amma tapşırıq təqib tərəfindən hədələnirsə, geriyə çəkilməyə icazə verilir.

a) Matta 23:10: Müjdə yayılmaqda davam etsin deyə başqa şəhərə getmək (Həv. İş. 8:1)

b) Həv. İş. 9:25; 2 Kor. 11:23, 24; Korinflilərdə Paul bu qaçışa onun Məsih üçün əzabının bir hissəsi kimi baxır. Ona görə də qaçış əzabdan qaçış deyil, Məsihin tapşırığını yerinə yetirmək üçün qaçışdır. Allahın Kəlamı şəhidlik hekayəsi ilə təsirli surətdə yayıla bilsə də, bəzən insanların sağ qalması daha yaxşıdır ki, Müjdə bəyan edilsin (Həv. İş. 14:5, 6).

c) İsanın nümunəsi: İsa Özünü bəzi vaxtlar gizlətsə də (Yəhya 8:59; Matta 12:14, 15), bu gizlənmə "*vaxtı hələ çatmadığına*" görə idi (Yəhya 7:30; 8:20; 10:39). Amma onun əzabdan və ölümdən qaçması təxirə salmaq üçün idi. Onun tapşırığı qorunmalı idi (Matta 2:13-ə baxın), bu tapşırıq Onun əzabında və ölümündə zirvəyə çatır.

Bundan başqa İsa həmin dövrün dini rəhbərləri ilə qarşılaşmadan uzaqlaşmırdı. Onun xidməti "taktik hərəkətlər", güzəştə getmə, Müjdənin yumşaldılması və ya əzabdan uzaqlaşma ilə səciyyələnməmişdi. O, çətinlik vaxtı qaçıb aradan çıxan muzdur deyildi (Yəhya 10:12), O yaxşı çoban idi və əsas marağı Öz təhlükəsizliyi deyildi, başqalarının təhlükəsizliyi idi və Öz həyatını sürüsü üçün qurban verən çoban idi. Bu eynilə Onun davamçılarından da gözlənilir (Yəhya 15:13, 14).

Allahın əmrlərinə, Məsihin tapşırığına və başqalarını sevməyə əməl etməyin həyatı təhlükəyə saldığı yerlərdə qaçış qadağandır. Əzabdan və ağrıdan uzaqlaşmaq olduqca yaxşı deyil. Nəyin bahasına olursa, olsun itaətkarlıq yaxşıdır.

Təqib yarananda diqqətlə düşünmək gərəkdir ki, Allahın iradəsini yerinə yetirmək üçün əzabın lazım olub-olmadığını müəyyən edəsiniz.

2. Dözümlülük

İsanın Həv. İş 2-ci fəsildə "Yerusəlimdən kənara çıxmayın" əmrinə əməl etmək asan deyildi; Yerusəlim ən təhlükəli yer idi.

Dözümlülük aydındır ki, təqib üçün ən əsas cavabdır, amma başqalarından təcrid olunma kimi başa düşülməməlidir.

İmanlıların qaçmasından, ya vuruşmasından asılı olmayaraq, burada ifadə edilən münasibətlər onları təsvir etməlidir. Bəzi vaxtlar qaçış qeyri-mümkün, əlverişsiz və ya qeyri-münasib ola bilər. Bu vəziyyətlərdə Allahın xalqı olduqları yerdə möhkəm durmalıdır və hətta ölümədək sadiq qalmalıdırlar.

3. Vuruş

Elə vaxtlar var ki, insanın hüquqları uğrunda vuruşmaq münasibdir. Paul bir neçə vəziyyətdə belə etmişdi (Həv. İş.16:37; 22:24; 25:10, 11). Qaçış kimi vuruş da Allahın padşahlığının irəliləməsinə mane olmursa, yol veriləndir (bunun əksi olaraq, İsa ittiham olunarkən səssiz idi). Paulun vəziyyətində isə o, Allahın padşahlığının inkişafı üçün öz hüquqlarını qorumuşdu. Bunu da qeyd etmək vacibdir ki, hətta İsa da Özünü məhkəmə zamanı bir yerdə müdafiə etmişdi (Yəhya 18:23), O, əzabına etiraz etmədi, günahsızlığına şəhadətlik etdi.

Münasib qaydaların çərçivəsində mülki itaətsizlik də imanlı üçün seçimdir.

Matta 10:26, 27

İsa təqibin Onun şagirdləri olmağın bir hissəsi olduğunu xatırlatmaqla 26, 27-ci ayələrdə davam edir:

> *"Beləliklə, onlardan qorxmayın. Çünki elə örtülü bir şey yoxdur ki, aşkara çıxmayacaq və elə gizli bir şey yoxdur ki, bilinməyəcək.Sizə qaranlıqda dediklərimi gün işığında söyləyin və qulağınıza pıçıldananı damlardan bəyan edin."* (Matta 10:26, 27)

Bir neçə ayə əvvəldə Matta 10:22-də Rəbb Öz şagirdlərinə xatırladır ki, dünyanın nifrəti "*mənim adıma görədir*." Şagirdlərə

dünya nifrət edəcək, çünki onlar sadiqliklə Məsihin və Onun təlimlərinin ardınca gedirlər.

Onlar necə cavab verməli idilər? Qaçmaq bir seçim idi. Amma ölümlə üzləşərkən şübhəsiz başqa cavablar olmalıdır. Əlbəttə, məsihçi əyilib gizlənməyə və nəzərə çarpmamağa, sakit qalmağa və "ürəkdə" İsanın davamçısı olmağa və ya gizli məsihçi olmağa sövq oluna bilər.

Amma İsa şagirdlərinə bu əmri verəndə həmin imkana yol vermir: "*Sizə qaranlıqda dediklərimi gün işığında söyləyin və qulağınıza pıçıldananı damlardan bəyan edin*" (10:27).

Təqib edənlərin hədələrindən qorxmamaq çətin bir şeydir. "Mən məsihçi deyiləm" demək daha asandır. Sadəcə səssiz durmaqla və ya gizli vəziyyətdə dayanmaqla Məsihi inkar etmək daha asandır. Amma təqibin içərisində Məsihin davamçısı üçün yalnız iki seçim var: ya Onu etiraf etmək, ya da inkar etmək (ya fəal, ya da passiv şəkildə).

Qoyunlar canavarların arasına göndərildiyi kimi onların nəyə görə getdiklərini anlamaları olduqca zəruridir: onlar İsa Məsihin həyat dəyişdirən xəbərini yaymaq üçün gedirdilər. Onlar canların qurtarmaq üçün getmirdilər. Əslində ola bilsin ki, onlar canlarını qurtara bilməsinlər, amma bu əsas məsələ deyil. Onlar şəhadətlik etməyə gedirlər. Allahın qasidləri səssiz qala bilməzlər. Onlar susdurula bilərlər.

Əslində İsa növbəti ayədə dediyi kimi (28-ci ayə), insanın həqiqətən qorxmalı olduğu şey təqibçilər deyil.

Matta 10:28-32

> *"Bədəni öldürüb canı öldürə bilməyənlərdən qorxmayın. Həm canı, həm bədəni cəhənnəmdə məhv edə bilən Allahdan qorxun."* (Matta 10:28)

Bu parça ilə əlaqədar belə yazmışdır:

> Təhlükə insanların ittihamında deyil, Allahın ittiham etməsindədir, bədəndə ölümlə deyil, bədənin və canın

əbədi məhvindədir. Hələ də insanlardan qorxanlar Allahdan qorxmurlar və Allahdan qorxanlar isə insanlardan artıq qorxmurlar. Müjdəni vəz edən bütün vəzçilərin bu sözləri gündəlik yada salmaları yaxşı olar.

Bu hissədən İsanın davamçılarının öyrənməli olduğu iki vacib fakt var:

1. Öldürənlərin gücü məhduddur; onlar yalnız bədəni öldürə bilərlər. Sonda Allah bədəni yenidən həyata qaytaracaq, ona görə də təqibçilərimizin bizim üzərimizdə olan gücləri müvəqqətidir. Əsas budur ki, başımızda bir tük belə əskik olmayacaq (Yəhya 21:18).

2. Təqibin əsas hədəsi bizim əzab çəkib ölməyimiz deyil, Küll-İxtiyar Allahın bizi görmək istədiyi kimi ola bilməməyimizdir. Vyetnam pastoru bir dəfə iş yoldaşlarımdan birinə demişdi: "Əzab bizim başımıza gələ bilən ən pis şey deyil. Allaha itaətsizlik ən pis şeydir!" Bizim həqiqətən qorxmalı olduğumuz yeganə varlıq bütün yer kürəsi üzərində ən uca olan Allahdır, O, bütün yaradılışın qayğısını çəkir və qoruyur (29-31-ci ayələr). Əgər O bunu edə bilirsə, O sənin qayğına qala bilər (Əyyubun ifadəsi).

Matta 10:33-42

33-42-ci ayələrdə imanlının təqib zamanı üzləşdiyi dörd təhlükə var:

1. Məsihi inkar etmək təhlükəsi (33-cü ayə)

2. Ailəni Məsihdən daha çox sevmək təhlükəsi (34-37-ci ayələr)

3. İnsanın öz həyatını Məsihdən çox sevməsi təhlükəsi və bununla da onu Məsih naminə itirməyə hazır olmamaq (38, 39-cu ayələr)

4. Şəhadətlik etdiklərinə görə rəhbərlər və izdihamlar tərəfindən

axtarılanları qəbul etməkdən imtina etmək təhlükəsi (40-42-ci ayələr)

Təqib təhlükəli bir şeydir, amma daha təhlükəli olan isə Onu inkar etməklə Allahın bizi görmək istədiyi kimi ola bilməməkdir.

38-ci ayədə İsa ilk dəfə şagirdlərinə yeni elementi təqdim edir, mənim fikrimcə bu element şagirdləri heyrətə salmışdı. Əzab, qurban və ölüm haqqında danışmaq bir şeydir, amma İsa qəfildən bunu çox konkretləşdirir, O, birinci əsrdə heç kimin etmək istəmədiyi bir şeyi – *çarmıxı* xatırladır.

> *"Çarmıxını götürüb ardımca gəlməyən kəs də Mənə layiq deyil."* (Matta 10:38)

Matta 16:21-28

> *"Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və çarmıxını götürüb ardımca gəlsin."* (Matta 16:24)

Biz bu ayənin məzmununu bir az əvvəl müzakirə etdik və ona görə də biz bu müzakirəyə qayıtmayacağıq. Bizim qarşımızda dayanan əsas sual budur: *İsanın davamçılarının daşımalı olduğu çarmıx dəqiq nədir?*

Allahın planında imanlının çarmıxı nəyi həyata keçirir? Biz Məsihin çarmıxının nəyi həyata keçirdiyini bilirik – bu, günahlarımızın bağışılanmasıdır. Amma bizim çarmıxlarımız Allahın planının daxilində nəyi həyata keçirir?

Zəhmət olmazsa, yadda saxlayın ki, İsa bizdən *Onun* çarmıxını daşımağı istəmir. O istəyir ki, biz aşağı əyilib öz çarmıxımızı qaldıraq və Onun ardınca gedək. Amma biz öz çarmıxımızın mənasını anlamalı deyilikmi?

Çarmıxın mənası

Bunu qeyd etmək lazımdır ki, burada çağırış şagirdin çarmıx vasitəsilə ölümə hazırlaşması üçün sadəcə öyüd-nəsihət deyil. Əksinə L. U. Hurtado qeyd etdiyi kimi çarmıx "İsanın şagirdi olmağın dəqiq meyarı kimi götürülür." Çarmıx daşımaq həyatın həsr olunmasında səviyyə göstəricisi kimi təqdim olunur ki, bu da İsanın davamçısı olmaq üçün zəruridir.

Birinci əsrdə yaşayan hər bir insan çarmıxın nə olduğunu bilirdi – məhkum edilmiş cinayətkarlar üçün Roma imperiyasının işgəncə və edam aləti idi. Birinci əsrdə yaşamış yunan filosofu Plutarx yazırdı ki, "edam olunan hər bir cinayətkar öz çarmıxını daşıyırdı."

Əfsus olsun ki, məncə erkən məbədin bunu deyərkən nəzərdə tutduğu məna bu gün bizim həyatlarımızda itib. İmanlının "çarmıxı" dedikdə məna təhrifə uğrayaraq xoşagəlməz hər bir şeyə aid edilir. Amma İsa bu sözləri deyəndə bu mənanı nəzərdə tutmurdu!

"Çarmıx" peşmançılıq, xəstəlik, ölüm, kasıbçılıq və ona oxşar şeylər kimi sadə insan çətinlikləri və kədərləri deyil. Digər tərəfdən nə də "çarmıxı götürmək" ifadəsi bir çoxlarının etdikləri kimi tamamilə ruhaniləşdirilməli deyil. Heç vaxt təqibdən əzab çəkməyən bizlər ifadəyə bəzi sirli, gerçək məna veririk ki, bu da birinci əsirdəki məsihçiliyin gerçəkliyindən tamamilə kənarlaşdırılıb (və bununla dünyada təqib olunan məsihçilər qarşılaşır). Bunun üçün bəzi nümunələr çarmıxı daşımağa "özün üçün ölmək", "özünüinkar" və ya "hər şeyi Allaha vermək" kimi vacib anlayışlar ola bilər. Bu dərsdə bizim başa düşməli olduğumuz vacib şey budur: *İsa* nə demək istəyirdi və *şagirdlər* bunu necə başa düşmüşdülər?

Bizim bir az əvvəl öyrəndiyimiz parçada məzmuna əsasən İsa bəyan edir ki, O, Yerusəlimə getməli və ölməlidir ki, Allahın məqsədlərini həyata keçirsin. Şagirdlərin bu fikirə qarşı durduqlarını (xüsusilə Peter) görən İsa onlara tərəf çevrilib deyir ki, Allahın məqsədləri onlar ilə də beləcə həyata keçəcək.

Əgər onlar Onun ardınca getsələr, İsa onlara demişdi ki, şagirdlər özlərini inkar etməlidirlər, həyatda hüquqlarından imtina etməlidirlər, çarmıxlarını götürüb ölümə aparan eyni yolla Onun arxasınca getməlidirlər. Onlar öz Ağalarına sadiq qalaraq, hər gün ölümlə qarşılaşmaq üçün hazır olmalıdırlar, Onun nümunəsini

izləməlidirlər. Hətta bundan da artıq olaraq onlar özlərini Allahın məqsədlərinə elə dərəcədə atırlar ki, istənilən səviyyədə qurban norma kimi qəbul olunur. Bu Məsihin arxasına getməyin qiymətidir.

24-cü ayədə şagirdlər İsanın başladığı həmin xidməti həyata keçirməyə çağırılıblar. Əvvəlcə qeyd etdiyimiz kimi 16:21-də olan **(*apo tote hpxato o alhsou*)** ifadəsi 4:17-də istifadə olunan ifadə ilə uyğunlaşır, bu ifadə İsa şagirdlərini "adam tutan" (16:24-28) adlandırdıqdan sonra işlənmişdi. İsa şagirdlərinə adamları tutmağı əmr edəndən sonra O onlara onun qiymətini də öyrətmişdi – ittiham olunmuş cinayətkar kimi şəhidliyə hazır olmaq.

Birinci əsrin şagirdləri üçün çarmıx iki şey demək idi:

1. Çarmıxa çəkilmək dəhşətli, iyrənc, son dərəcə qorxulu və utandırıcı bir yolla ölmək idi. Roma filosofu Seneka güclü ağrılarla üzləşməkdənsə özünə sui-qəsdi məsləhət görürdü. Çarmıxı daşımaq Məsih uğrunda eyni cür tale ilə üzləşəməyə hazır olmaq idi.

2. Çarmıxa çəkilmək dövlətin cəza növü kimi müstəsna olaraq tətbiq olunurdu. Bu izdihamlar tərəfindən həyata keçirilmirdi, "lazımi proses"in nəticəsi idi. Ona görə də burada çağırış əzabdan daha böyük bir şey idi; bu, ciddi sosial nəticələr üçün hazırlığı nəzərdə tuturdu, təxribatçı və ya ən pis cinayətkar kimi ittiham olunma idi.

Bütün şagirdlərin çağırıldığı bu cür ciddi həsrolunmaya siz və mən də daxilik: İsanın arxasınca getməyin nəticələri hər nə cür olsa da və nəyin bahasına olsa da, ona hazır olmaqdır. Bu, İsanın arxasınca getməyin birinci meyarıdır.

Biz İsanın sözlərini çox hərfi götürməliyik. İsanın tələbi şəhidlik yoluna ayaq basmaqdır. O Öz şagirdlərini qoyunlar kimi canavarlar arasına göndərməzdən qabaq artıq onlara demişdi ki, xidmətlərini yerinə yetirərkən ölə bilərlər.

Öz məbədini tikmək üçün (16:18), 16:21-də göstərdiyi kimi Onun ölümü vacib idi. Bu təməldir. Məsihin ölümü olmadan xilas olmuş cəmiyyət yoxdur. Amma Məsihin çarmıxı Onun məbədini

qurmaq üçün lazım olduğu kimi bizim çarmıxlarımız da Onun məbədini tikmək üçün lazımdır. İsanın planını yerinə yetirmək, yəni Onun məbədini qurmaq üçün hər iki çarmıx lazım idi. Cozef Ton belə yazır: *"Məsihin çarmıxı günahların bağışlanması üçün idi. Bizim çarmıxımız yayılma üçündür."*

Məsihin çarmıxı bizə bu xəbəri verir ki, O bizi xilas edib və Ona etibar edənlərə yeni həyat təklif edir. Əgər biz bu xəbəri Onu və Onun Müjdəsini rədd edən düşmən dünyaya çatdırmalıyıqsa, bizim çarmıxımız zəruridir. Amma bizim ölümlərimiz vasitəsilə Müjdə yayılır. Buna görə İsa istəyir ki, biz əzab çəkib özümüzü qurban verək. Bu, şagirdin çarmıxının mənasıdır. Onun məbədini tikmək üçün İsaya öz çarmıxı, eləcə də şagirdlərinin çarmıxları, Öz ölümü, eləcə də onların ölümü lazım idi.

Bunu anlamaqla erkən məbədin dünyanı tərsinə çevirməsi təəccüblüdürmü? Onlar İsa Məsihin Müjdəsini dünyaya çatdırmaq üçün hər bir şeyi qurban verməyə hazır idilər, çünki onların Rəbbi həmin dünya üçün ölmüşdü. Müasir dövrün məzmununda belə səviyyədə həsrolunma ağıla kamikadze ilə müqayisəni gətirə bilər, amma belə müqayisəyə gəlib çıxmaq lazım deyil. Kamikadze ilə şəhidlik arasında fərqi böyükdür. Kamikadzelər başqalarını öldürmək üçün öz həyatlarını verir; şəhidlər isə başqalarına həyat vermək üçün ölürlər. Kamikadzelər sözün həqiqi mənasında şəhidlər adlana bilməzlər, şəhidlər isə talelərini qəbul edənlərdir; onları başqaları öldürür. Şəhidlik Allahın məqsədlərini həyata keçirənlərin başına gələn bir şeydir. Onlar bunu təhrik etmirlər. Kamikadzelər digər tərəfdən, öz məqsədlərini həyata keçirmək üçün ölümlərini axtarırlar. Amma hər ikisi ümdə məsələlərini həyata keçirmək üçün nəyin bahasına olursa, olsun ödəməyə, hətta öz həyatlarını verməyə belə hazırdırlar.

Biz erkən məbədin özünü qurban verərək Müjdəni dünyanın hər bir yerinə yaydığını oxuyarkən aydın görürük ki, şagirdlər Rəbbin sözlərini xatırlamaqla öz həyatlarından möhkəm yapışmayıblar:

> *"Kim canını xilas etmək istəyirsə, onu itirəcək, amma kim Mənə görə canını itirirsə, onu qoruyacaq. İnsan bütün dünyanı qazanıb canını itirərsə, ona nə xeyri var? Yaxud*

insan öz canının əvəzinə nə verə bilər? Çünki Bəşər Oğlu Atasının izzəti içində Öz mələkləri ilə gələcək və o zaman hər kəsə öz əməlinə görə əvəzini verəcək. (Matta 16:25-27)

Göylərdə mükafatlar

Bir çox protestant məsihçilərin narahat olduqları mövzulardan biri sadiqlik üçün mükafatlar anlayışlarıdır. Bəziləri düşünürlər ki, mükafatlandırılmaq lütfə zidd gedir və ya onu zəiflədir.

Amma imanlıların Allahdan mükafat alacaqları anlayışı Kəlam boyunca, xüsusilə təqib barəsində danışan parçalarda müntəzəm olaraq qeyd olunub. Bu bilik məsihçiləri böyük bir həvəs ilə ruhlandırır ki, Məsihin ardınca, hətta ölümə də getsinlər, onlar bilirlər ki, Allahın əlində həqiqi və böyük mükafat ilə mükafatlanacaqlar. Biz əminik ki, göylərdə sərvət yığdıqca bir gün biz həqiqətən onları əldə edəcəyik. Bizə miras vəd olunub, Allaha qurban verməyimiz və sadiqliyimiz nümayiş etdirib ki, biz etibarlıyıq, Allahın bizə göylərdə verməyi planlaşdırdığı cavabdehlikləri həyata keçirə bilərik.

Biz hamımız əbədi həyata daxil olacağıq, amma bizim əldə edəcəyimiz mükafatlar Ona xidmətimizdə nümayiş etdirdiyimiz dəyərə əsasən olacaq; O bizim sadiqliklə Ona xidmət edə biləcəyimizə etibar edəcək, çünki biz yer üzündə Ona müqayisədə az da olsa sadiqlik nümayiş etdirmişik. İndi çətinliklərə dözməklə biz əbədiyyətdə Allahın bizə etibar edəcəyi tapşırıqları yerinə yetirmək üçün təlimlər alırıq.

Xilas hələ də bütünlüklə lütfdür, çünki Allahın lütfü təkcə xilas edən lütf deyil; həm də səlahiyyət verən lütfdür; Allahın mükafatları Onun səxavətlə verdiyi lütfdən faydalananlara veriləcək. Bundan əlavə olaraq, Kennet Körk qeyd etdiyi kimi "İsa bəzi başqa marağa görə Onun ardınca getməyə və Ona itaət etməyə hazırlaşanlara yalnız müntəzəm olaraq mükafat vəd edir." Hətta Məsihin böyük vəzlərində hər şeydən imtina etmək və çarmıxı götürmək üçün imtina etməkdə maraq mükafat almaq üçün deyil, amma "*mənimlə Müjdə uğrundadır*" (Mark 10:29). Sadəcə mükafata görə bu dünyadan imtina etmək mükafatın özündən məhrum olmaq ola bilər.

Bu yalnız düşüncələri Allaha və Onun məqsədlərinə tuşlanmış və iki əks, amma eyni dərəcədə təhlükəli səhvlərdən qaçmağı bacaranlardır:

- Allahın lütfünü öz səyləri vasitəsilə və ya mükafat əldə etmək üçün özünü qurban verərək yaşamaqla qazanmağa çalışmaq səhvi
- Özünümüşahidə və özünənəzarət ilə Allahın lütfünü qazana bilməyi düşünmək səhvi

Çarmıx daşıyan məsihçinin diqqəti mərkəzi qurbanda, hərəkətin özünüinkarında, yaxud marağın paklığında deyil, Məsihin və Onun məqsədlərinin üzərindədir. Bu ruhda ediləndə imanlı öz hərəkətlərindən çox vaxt agah olmayacaq (Matta 25:31-46), yalnız öz borcunu yerinə yetirdiyinə inanancaq (Luka 17:10), Allahın lütfünə və səxavətinə görə Ona minnətdarlığını bildirəcək.

ÜZÜM BAĞINDA İŞLƏYƏN İŞÇİLƏRİN MƏSƏLİ

(Matta 20:1-16)

"Birinci olanların çoxu axırıncı, axırıncı olanlar isə birinci olacaq" (19:30; 20:16), fikrini kontekst sübut etsə də, bu məsəl çox vaxt göylərdə mükafatın dərəcələrinin olmayacağını, hər bir kəsin eyni mükfatı əldə edəcəyini "sübut etmək" üçün çox vaxt istifadə olunub. Amma İsanın bu məsəli birinci yerdə nəyə görə söylədiyinə baxarkən konteksi yada salın. Zəngin cavan rəhbər təzəcə uzaqlaşmışdı, çünki o, İsanın ardınca getməkdə qiymətin həddən artıq baha olduğunu düşünmüşdü. Digər tərəfdən isə Peter aşkar etdi ki, o və başqa şagirdlər zəngin cavanın edə bilmədiyini edə biliblər və ona görə də İsadan soruşdu ki, sonda onlara nə xeyri olacaq (19:27). İsa cavab verdi ki, hər şey yeniləşəndə O, izzətli taxtında oturanda onlar Onunla

birlikdə padşahlıq edəcəklər. Bundan əlavə "*mənim adım uğrunda ya evlərini ya qardaşlarını ya bacılarını ya atasını ya anasını ya uşaqlarını və yaxud tarlalarını atan hər kəs bundan yüz dəfə artıq alacaq və əbədi həyatı da irs olaraq alacaq. Amma birinci olanların çoxu axırıncı, axırıncı olanlar isə birinci olacaq* (19:29, 30). Sonra O, üzümlükdəki işçilərin məsəlini çəkir, "*Beləcə də axırıncılar birinci, birincilər isə axırıncı olacaq*" (20:16).

Məsəlin vurğusu – sahibin əliaçıqlığı sonuncu cümlədə verilib (20:15). Üzüm bağının sahibi şübhəsiz məsəlin əsas surətidir. Məsələ kontekstində baxanda mənə elə gəlir ki, şagirdər bütün günü çalışan işçilər deyillər, sonradan gələn işçilərdir. Şagirdlərə deyilmişdi ki, Allahdan alacaqları mükafat işlərinə görə layiq olduqları haqq olmayacaq, etdikləri xidmətdən yüz dəfə artıq olacaq. Üzüm bağının sahibi həddən artıq səxavətlidir və Öz malı ilə istədiyi kimi hərəkət etməkdə azaddır. Qurban verərək xidmət edənlərə O onların gözlədiklərindən qat-qat çox verəcək. Allah yalnız təyin edilmiş məbləğə əsasən işləyənlərə də ödəyəcək, çünki bu ədalətlidir, amma Allah təkcə ədalətli deyil, ondan daha böyükdür. O Öz mükafatlarında olduqca səxavətlidir. Ton yazır: "Son hesabda Onun hər bir işçinin işini qiymətləndirməsi qaydası belə olacaq, birinci görünən axırıncı olacaq, axırıncı görünən isə birinci olacaq."

Bəşər Oğlunu görməyincə ölümü dadmamaq

İsa Öz təlimini Müqəddəs Kitabda ən sirli vədlərindən biri ilə yekunlaşdırır. Amma təqib kontekstində baxanda mən inanıram ki, məna aydınlaşır:

> *"Sizə doğrusunu deyirəm: burada duranlardan bəzisi Bəşər Oğlunun Padşahlığı ilə gəldiyini görmədən ölməyəcək."* (Matta 16:28)

Bu ayənin çoxlu sayda şərhləri var. Bəziləri bunu İsanın tezliklə gəlişi vədi kimi görürlər (şagirdlərin həyat tərzində). Digərləri İsanın dirilmədən və ya Əllinci gündən sonra zühurları kimi baxırlar. Bəziləri bunu Yerusəlimin b.e. 70-ci ilində dağılmasının həyata keçdiyi kimi görürlər. Amma biz yadımızda saxlamalıyıq ki, bu bütün parça şəhidlik üçün təlim alanlara sistematik təlimdir, başqa daha əlverişli şərh mümkündür.

İsa hərfi mənada Onun və Onun Müjdəsi uğrunda öləcək insan qrupuna danışırdı. Yəhudadan başqa (və ənənə bizə Yəhyanı deyir), bütün şagirdlər dəhşətli təqibdən əzab çəkmiş və şəhid ölümü ilə ölmüşdülər.

Gec-tez şəhidlər kimi öləcək bu insan qrupuna danışmaqla O, müzakirəni möhtəşəm bir vəd ilə tamamlayır, yəni, "Siz şəhidliyə getməzdən əvvəl, Mən sizə vəd edirəm ki, Öz padşahlıq izzətimdə Özüm barədə açıqlama verəcəyəm."

Bu vəddən dərhal sonra Görkəmin dəyişilməsi hadisəsində İsa Öz səmavi izzətində görünür (17-ci fəsil) və ona görə də ola bilsin ki, O həmin hadisədən danışır. Daha yaxşı şərh bu vədin Göylərə qalxmada həyata keçməsinə baxmaqdır, Matta 28:18-də İsa Özünü şagirdlərinə göstərir və bəyan edir ki, *"Göydə və yer üzündə bütün səlahiyyət Mənə verilmişdir."*

Daha az məlum olan, amma müzakirəni təmin edən şərh İsanın vədinin Stefanın həyat təcrübəsində həyata keçdiyini görməkdir, Luka belə yazır: *"Müqəddəs Ruhla dolan Stefan isə gözlərini göyə dikib Allahın ehtişamını və Allahın sağında dayanan İsanı gördü. O dedi: 'Baxın, mən göylərin yarıldığını və Bəşər Oğlunun Allahın sağında dayandığını görürəm'* (Həv. İş. 7:55, 56).

Stefan şəhidlik anında Bəşər Oğlunu Öz padşahlıq əzəmətində görür. Həmin anda ona işgəncə verənlərin qəddarlığının artıq heç bir faydası yox idi. Əzab solmuşdu. Onun yeganə gördüyü İsa idi.

Ton dəqiq yazır:

> Əsrlər boyunca əzabın və şəhidliyin qorxulu mənzərələri ilə qarşılaşmış bir çox məsihçilərə İsanın izzətinin bu görüntüsü verilmişdi. Onların şəhadətlikləri bu faktı təsdiqləyir ki, bu

həyat təcrübəsi onların bütün baxışlarını dəyişdirdi və öz şəhidliklərini dözümlə, sevinclə və bəli hətta məhəbbətlə qarşılamağa kömək etdi.

Əlbəttə, O, hətta dünyanın sonuna qədər həmişə bizimlə olacaq!

Mark

Bunu yadda saxlamaq vacibdir ki, bu Müjdələrin hər biri yerə və vaxta görə müxtəlif vaxtlarda, xüsusi auditoriya üçün xüsusi vurğu ilə yazılıb. Ənənəyə görə Mark Müjdəsi Peterin təsiri ilə Romadakı insanlar üçün yazılıb. Markın Müjdəsi ilk yazılan olub və İsanın çarmıxa çəkilməsindən 30 il sonra və Romanın Yerusəlimi və Məbədi dağıtdığı vaxtlarda yazılıb.

Markın Müjdəsi şagirdliyi və onun qiymətini vurğulayır. İsaya inanmaq və Onun şagirdi olmaq İsanın sözlərini ciddi qəbul etmək, özünü inkar etmək və çarmıxı götürüb Onun ardınca getməkdir (8:34). Bu o deməkdir ki, həyatı xilas etmək onu itirməkdir və Müjdə uğrunda həyatı itirmək onu tapmaqdır (8:35-37). Davam edən hərəkətlər olan Müjdədə çarmıx və dirilmə İsanın hekayəsinin kulminasiyasidir. İsanın dediyi və etdiyi hər bir şey Onun iztirablarına aparıb çıxardı.

İsa üçün necə olmuşdusa, eləcə də Onun davamçıları üçün olacaq. Çarmıxa gedən yol onların da yoludur. Ağrı və sınaq izzətə gedən yeganə yoldur. İsa şagirdlərini istiqamətləndirir ki, çarmıxın tələblərini qəbul etsinlər. İsa şagirdlərinə cəmiyyətdə və mədəniyyətdə başqalarından tamamilə necə fərqlənməyi öyrədir. Onlar öz istəklərinə əsasən hərəkət etməməlidirlər və vəzifə axtarmamalıdırlar, amma İsa kimi xidmət etməli, çətinlikdə və ehtiyacda olanlara xüsusi diqqət yetirməlidirlər. Mark üçün İsanın, çarmıxa çəkilmiş Şəxsin davamçısı olmaq təhlükəsiz və asan deyil.

Matta və ya Lukadan fərqli olaraq, Mark bizi "uşaq hekayələrinin eyforiyası" ilə təmin etmir. O, səhrada qəfildən və sərt şəkildə vəftizçi Yəhya ilə başlayır, Yəhya qışqırır: "aranızda Müqəddəs Ruh ilə sizi vəftiz edəcək məndən güclü biri" var.

Sonra İsa vəftiz olmaq üçün qarşıya çıxır (1:9-11) və dərhal sınağa çəkilmək və vəhşi heyvanların təhlükələri ilə üzləşmək üçün səhraya göndərilir (1:12, 13).

Demək olar ki, dərhal sonra İsa üçün yol hazırlayan biri həbsxanaya atıldı (1:14). İsa Yəhyanın dayandığı yerdən başlayır, amma Yəhyanın dediyi vaxtda Onun xəbəri üfüqdə idi və indi çatmışdı. İsa Qalileyada görünür, Allahın xoş xəbərini bəyan edir: "İndi yazı gerçək olur...Allahın padşahlığı yaxındır. Həyatlarınızda dönüş edin və Müjdəyə iman edin." Mark Müjdəsi açıqlandıqca biz oxuyuruq ki, Yəhya öz çağırışına sadiq qalıb həbs olunduğu kimi İsa Öz çağırışına sadiq qalır və Ona qarşı duranlar tərəfindən çarmıxa çəkilir. Ölümündən sonra mələk Onun qəbrinə baş çəkmiş qadına görünür, qadın da gəlib şagirdlərə deyir: *"İndi isə gedin, Onun şagirdlərinə və Peterə belə söyləyin: "İsa Qalileyaya sizdən qabaq gedir. Sizə dediyi kimi Onu orada görəcəksiniz"* (16:7). Əgər kimsə Markın qısa sonluğunu qəbul edirsə, İsanın tapşırığı və xidməti Qalileyada başlayır və naməlum dərəcədə sona bitir.

Markın sonluğu ilə əlaqədar hərfi sübutlar üzərində çoxlu sayda müzakirələr olub. Markın ən erkən əlyazması 16:8 ilə, *"onlar qorxdular"* sözləri ilə tamamlanır. Qadınlar Müjdənin ikimənalı sonluğunu verərək səmavi qasidin təlimlərini izləyə bilmədilər. Biz biz təəccüb içərisində qaldıq: "Şagirdlər necə oldu?" Onlar Onun təlimlərinə əməl edəcəkdilərmi?" Əgər biz Markın nəzərdə tutduğu kimi qısa sonluğu qəbul etsək, o, yeni başlanğıcın kənarında bitir, amma biz bunun həqiqətən baş verib baş verməyəcəyinə əmin deyilik. Müjdə İsaya yolu göstərərək vəftizçi Yəhya ilə başlayır və qorxduğuna görə Onun haqqında başqalarına demək istəməyən qadınlar ilə bitir.

Bu qeyd olunmalıdır ki, bu ayələrdən sonra gələn müzakirə oxucunun Markın "qısa" sonluğunu qəbul etməsindən asılı deyil. Bizim aşağıda aşkar edəcəyimiz kimi qadınların 16:8-də hərəkətləri Markın Müjdədə şagirdləri təsvir etdiyi üsul ilə uyğunlaşır. Sonrakı əlyazmalarda qarşıya çıxan ayələrdə şagirdlərin təsvirləri (16:9-20) heç də şişirtmə deyil. Qadınlarda olan qorxu şagirdlərin göstərdikləri şübhə ilə uyğunlaşır. Şagirdlər müntəzəm olaraq inanmırlar (16:11, 13). İsa onları imanlarına və Onun dirilməsində şəhadətlik edənlərin

şəhadətliklərinə inanmadıqlarına görə məzəmmət edir (16:14). Bunu da qeyd etmək lazımdır ki, bu həm də bütün tarix boyunca məsihçilərin (və hətta bu günə qədər) təqibə necə münasibət bəslədikləri ilə uyğunlaşır. Bəziləri inanırlar, digərləri qorxurlar və heç nə demirlər, amma bəziləri də məsihçi cəmiyyətini bütünlüklə tərk edirlər.

Müjdəni yazan bütün yazıçılardan Mark şagirdlərin imansızlıq vəziyyətlərini daha yaxşı izah edir. Məsələn, Peter İsanı Məsih adlandırdı, amma birbaşa göstərdi ki, deyilənlərdən xəbəri yoxdur, Allahın məsh edilmişi olmağın nə olduğu və İsanın bunu necə həyata keçirməsi barədə öz fikirlərini söylədi. O, "şeytan" adlandırılaraq məzəmmət olundu (8:33). Peter uğursuzluq, qorxu və hətta Məsihin həqiqi mənasını rədd etməklə həyat təcrübələrindən öyrənməli idi.

Habelə başqa şagirdlər də Mark Müjdəsində zəif təsvir olunublar. Onlar yaxşı başlamışdılar. Əvvəlcə İsaya qarşı gedənlər Onun ailəsidir (3:21, 31-34) və sonra qanunun müəllimləridir (3:22-30). İsa gördü ki, heç də hər kəs Onun təlimini qəbul edə bilməyəcək (Onun 4:1-24-də əkinçi məsəlində izah etdiyi kimi) və bəziləri təqib zamanı dala çəkiləcək (4:17).

Şagirdlər 6:30-a qədər müsbət tərzdə müşahidə olunur, baxmayaraq ki, çətinliklər var idi (məs, 4:13; 4:38; 5:31). Amma hər hadisədən sonra İsa onlara öyrədir və qarşıya çıxan problem həll olunur. Amma vaxt keçdikcə aydın olur ki, onlar İsanın həqiqətən kim olduğunu anlamırlar. Yenə də onlar Onun dediklərinin mənasını anlaya bilmirlər (4:13; 6:51, 52; 7:18; 8:18, 21; 8:32, 33; 9:32). Onlar imanlarının və dualarının azlığına görə cinləri qova bilmirlər (9:19, 29). Onlar İsanın yanına uşaqları gətirmək istəyənləri qovmağa çalışırlar (10:13, 14). Onlar İsa ilə sadəlövh bir insan kimi rəftar edirlər (4:38; 5:31; 6:37). Onlar kimin böyük olması barədə mübahisə edirlər (9:33-36) və vəzifəyə can atırlar (10:35-41). Onlar öz qruplarından olmayan başqalarına İsanın adından istifadə etməyə qadağan edirlər (9:38). İsa Onun düşmənlərinin nümayiş etdirdiklərindən fərqli olaraq onların ürəklərinin bərkləşdiyini görməyə başlayır (3:5 və 6-nı, 6:52 və 8:17-ni ilə müqayisə edin). İsa onların görməsi və eşitməsi

bacarığını soruşur (8:18), O bunu kar və kor insanı sağaltdığı bir məzmunda edir (7:31-37; 8:22-26). Üç qayıq mənzərəsi şagirdləri qorxaq, İsaya etibar etməyən və özlərini düşünən insanlar kimi təsvir edir (4:40; 6:49, 50; 8:14-16). Onlar İsanın ən böyük ehtiyacı olan vaxtda bağda yuxuya gedirlər (14:37). Yəhuda Ona xəyanət edir, Peter Onu inkar edir və İsa həbs olunanda hamısı Onu tərk edir (14:50). Bu, 8:34-37-də əzabda Onun ardınca getmək çağırışına birbaşa itaətsizlikdir, 8:38-də bəyan edilən mühakiməyə şagirdləri cavabdeh edir. Həm də onların 14:31-də olan vədlərinə əməl etmədiklərini açıq-aşkar göstərir. 14:52-də çılpaq cavan oğlanın qaçması "şagirdlərin qaçışının rüsvayçılığını səhnələşdirir və şəhidlik üçün hazır olduqların söyləyən məsihçilərin iddialarını lağa qoyur." Tannehill qeyd edir:

> Bu şərh cavan oğlanın geyindiyi zərif kətana *(sindon)* istinad etmək üçün istifadə oluna bilər. Əhdi-Cədiddə başqa yerdə bu söz yalnız İsanın dəfn edildiyi parça üçün istifadə olunur (5:46-ə baxın). Əgər bu xırdalıq əhəmiyyətlidirsə, bu bildirir ki, həmin oğlan öz sadiqliyinə o qədər əmin idi ki, ölümü üçün geyinmiş halda gəlir, amma ölümün yaxın olduğunu görəndə qəfildən fikrini dəyişir. Onun çılpaqlığı onun qaçışının rüsvayçılığını vurğulayır.

Şagirdlərin uğursuzluğu başqalarının davranışları ilə ziddiyyət təşkil edir, bu insanlar onların etmədiklərini edir: Şimon İsanın çarmıxını "daşıyır" (15:21), çarmıxın yanına dayan yüzbaşı Peterin inkar etdiyi etirafı edir (15:21) və Arimateyalı Yusif İsanın dəfnini təşkil edir, halbuki Onun ən yaxın dostları və ailəsindən bu işi görmək gözlənilirdi (15:43-47).

Bir az əvvəl qeyd edildiy kimi, hətta dirilmədən sonra da şagirdlərdə səciyyəvi olan qorxu qalır (16:8). Əgər kimsə Markın qısa sonluğunu qəbul edirsə, hekayə tamamlanmamış qalır. Onlar İsa ilə görüşəcəklər? Əgər kimsə uzun sonluğu qəbul edirsə, sual fərqli deyil. Onlar qorxuya və şübhəyə qalib gəlib inanacaqdılar?

Tannehill şərh edir:

Hekayənin surətlərinin hər müsbət keyfiyyəti cəlb etsə də, oxucu öz vəziyyətinə uyğunlaşan surətləri asanlıqla və dərhal tanıyacaq.

Müjdənin ilk oxucularının əksəriyyətinin məsihçilər olduğunu güman edərək, onlar hekayədə İsaya müsbət cavab verən surətlər ilə asanlıqla və dərhal əlaqələnir. Şagirdlər on ikisi də daxil olmaqla, əsasən belə surətlərdir, ən azı əvvəlcə belə cavab verirlər və ona görə də bu məsihçi oxucunun özünüdərketməsində olan bu vacib keyfiyyəti bölüşürlər. Mən inanıram ki, Markın müəllifi bu cavabı öz oxucularından gözləyirdi. O öz hekayəsini elə yaradıb ki, şagirdlər ilə eyniləşmək üçün bu ilkin meyldən istifadə edərək şagirdlərin hekayələri vasitəsilə oxucu ilə dolayı danışa bilsin. Belə etməklə o, əvvəlcə şagirdlərin müsbət baxışlarını möhkəmlədir, bunu öz oxucularından da gözləyir, bununla da onlar ilə eyniləşəmək meylini gücləndirir. Sonra şagirdlərin İsaya cavablarının uyğunsuzluğunu aşkar edir, şagirdlərin İsa ilə vacib məsələlər barədə münaqişəsini təqdim edir və nəhayət şagirdləri olduqca uğursuz adamlar kimi göstərir. Şagirdlərin hekayəsinin gözlənilmədən mənfi tərzdə inkişafı oxucudan tələb edir ki, özünü onlardan və onların davranışlarından uzaqlaşdırsın. Amma ilkin eyniləşmənin nəyisə qalır, çünki ilkin oxucuların qarşılaşdığı problemlər ilə şagirdlərin problemləri arasında oxşarlıqlar var. Eyniləşmə və dəf etmə arasında olan bu gərginlik həssas oxucunu özü barədə olan olduqca müsbət baxışdan özünütənqid və tövbəyə gətirib çıxara bilər. Şagirdlərin hekayələrini danışan müəllif Mark öz oxucularını oyatmaq niyyətindədir ki, şagirdlər kimi onlar da uğursuzluqları görmək üçün oyansınlar və onları tövbəyə çağırır. Əvvəlcə İsanın və onun şagirdlərinin əsasən razılıqda olduğunu güman etməklə hekayə əsas münaqişə məqamlarını aşkara çıxarır. Oxucuya seçim verilir, bu seçim İsanın və şagirdlərinin yollarını fərqləndirməklə təqdim olunur. İsanın tələblərinə baxanda bu seçim asan deyil.

Markın Müjdəsinin yazıldığı dövrdə Romada məsihçilər Tit imperatoru tərəfindən təqib olunurdu. Bəziləri imanlarını atmışdılar və ya hətta başqalarına xəyanət etmişdilər. Markın dövründə məsihçilər şagirdlərin zəiflikləri, şübhələri və imansızlığı ilə tanış idilər. Amma onlar bu cəhətləri Allahın lütfünün və əfvinin əlaməti və hətta uğursuzluqdan sonra da İsanın addımları ilə getmək üçün ümid vasitələri kimi görə bilərlər. Aqusti Borell bildirir ki, Mark Peterin inkarını göstərərək istəyirdi ki, oxucuları öz davranışlarını və münasibətlərini sorğu-sual etsinlər ki, İsanın ölümünə Peterdən və başqa şagirdlərdən daha münasib tərzdə cavab verə bilsinlər. İsanın Peterin inkarı barədə əvvəlcədən söyləməsi Borellin fikrincə belədir ki, uğursuzluq şagirdlərlə bağlı sonuncu söz deyil və şagirdlər tamamilə hörmətdən düşməyiblər. Borell göstərir ki, İsa şagirdlərindən əvvəl Qalileyaya qayıtması haqqında danışanda (14:28), bu 16:7-yə aydın həlqə və yenidən birləşmə üçün aşkar dəvət kimi başa düşülməlidir. Qarşıdurma zamanı uğursuzluğa düşən Mark və Peter kimi insanlar üçün bu, möhtəşəm ruhlanmanı və ümidi təmin edə bilər.

13-cü fəsildə İsa Onu etiraf etməkdə uğursuzluğa düşənlər ilə bərpa olunmuş ünsiyyəti təmin edir. Gələcəyə baxaraq, O "oyaq olmağı" xəbərdarlıq edir (13:33-37), baxmayaraq ki, O, şagirdlərinin Getsemani bağında oyaq qalmayacağını bilir (14:37). O onları xəbərdar edir ki, Özü kimi onlar da "şuraya" təslim ediləcəklər (13:9). O onları xəbərdar edir ki, Özü kimi onlar da hökmdarlar və hakimlər qarşısına çıxarılacaqlar (13:9). Onun iztirabları zamanı şagirlər bu mümkün vəziyyətdən qaçsalar da, Mark düşünür ki, hər bir oxucu qarşılaşdığı təqibə necə cavab verəcəyini özü qərara gələcək. O qaçacaq, yoxsa tabe olacaq? O, Allaha etibar edəcək, yoxsa etməyəcək? Oxucuya seçim verilir. Bu hekayə necə bitəcək?

Luka

Müjdəni yazan o biri yazıçılardan daha çox Luka vurğulayır ki, həqiqi iman "qiyməti hesablamaqla" səciyyələnir. Şagird anlamalıdır ki, İsa ilə şagirdlik həyatına girmək üçün başqa bütün asılılıqlar qırılmalıdır, tam asılılıq rəhbər olan İsadan olmalıdır.

Əsas parça Luka 10:25-37-dir, cavan qanunşünas İsanın yanına gəlib əbədi həyatı necə əldə etməyi soruşur. İsa ondan qanunun nə söylədiyini soruşur, cavan Qan. Tək. 6:5 və Lev. 19:18-də sevmək əmrinə istinad edərək cavab verir. İsa bu cavabı təsdiqləyir, amma kədərlidir ki, cavan oğlan Allahın Kəlamının tələb etdiyi həsr olunmanı edə bilmir – Allaha tam sadiqlik imanın özəyidir. Məsihin ardınca getmək üçün insan Rəbbin addımları ilə gedərkən hər şeyini Allah və başqaları uğrunda qurban verməyə hazır olmalıdır.

Lukada təqib mövzuları

Luka Müjdəsi Həvarilərin İşlərində erkən məbədin həyat təcrübəsinin bir hissəsi olacaq təqibi aydın başa düşmək üçün məzmunu təqdim edir. O, təqibin aşağıdakı insanlara qarşı olduğunu göstərir:

1. **İsa.** Luka Müjdəsində təqib hər şeydən öncə İsaya qarşı yönəlib. Təqib erkən, yəni Şimeon məbəddə 2:34-də Onun həsr olunması haqqında peyğəmbərlik edərkən başlamışdı: "Bu Körpə İsraildə bir çox adamın yıxılmasının ya ucalmasının səbəbkarı və insanların rədd etdiyi bir əlamət olmaq üçün təyin olunub."

   İsa Özü rədd olunmasını və ölümünü əvvəlcədən deyir (Luka 9:22, 44; 17:25; 18:31-33). İsanın bütün xidməti bu peyğəmbərliklər tərəfindən rədd olunma kontekstinə qoyulub və Luka tərəfindən təqib kimi təsvir olunub. Onun xidmətinin ilk nümunəsində səhrada sınağa çəkiləndən sonra (4:1-13) İsa Nazaretə qayıdarkən rədd olunur, şəhərin adamları Onu qayadan aşağı atmaq istəyirlər (4:14-30). Bu rədd olunma Onun yer üzündəki xidməti boyunca davam edir, ölümündə kulminasiya nöqtəsinə çatır. Luka diqqətlə yazır ki, İsa Onun təlimlərini və iddialarını rədd edənlər tərəfindən öldürülən günahsız qurban idi.

2. **Onun şagirdləri**. Lukada təqib həm də İsanın şagirdlərinə tuşlanıb. İsa Öz şagirdlərini qasidlər kimi göndərəndə (9:5; 10:3,

8-16) təqibə necə cavab verməyi öyrədən zaman əsl təqib olsa da, şagirdlərin təqibinin əsas diqqət mərkəzi hələ də gələcəkdə idi. İsa əvvəlcədən deyir ki, Onun kimi onlar da rədd olunacaqlar və onlarla pis rəftar olunacaq. 6:22-də Luka Mattanın 5:11-də təqib barədə paralel parçada verdiyindən daha ətraflı qeyd edir, o yazır ki, Onun şagirdlərinə nifrət ediləcək, cəmiyyətdən qovulacaqlar, üzbəüz təhqir olunacaqlar və nüfuzları *"Bəşər Oğluna görə*" ləkələnəcək. Dərəcəsinə və ifadə olunmasına görə fərqlənsə də, şagirdlərin təqibləri gözlənilməli olan bir şeydir və onlar bu fakta görə sevinməlidirlər ki, əzabları mükafatlarının göydə böyük olduğunu sübut edir (6:23). Həm də sübut edir ki, onlar Allahın həqiqi qasidləridir və hər bir kəsin barələrində yaxşı danışdıqları yanlış peyğəmbərlərə birbaşa ziddirlər (6:26).

3. **Keçmiş peyğəmbərlər.** Mattada olduğu kimi keçmiş peyğəmbərlər Allahın keçmişdə qasidləri olmuş və həmişə İsrail tərəfindən rədd olunan və təqib olunan insanlar kimi təsvir olunublar (4:24; 13:34). "Belə ki onlar İsanın (4:24-30; 13:33, 34; 20:9-19), eləcə də şagirdlərin (6:22, 23; 11:49) əzab çəkəcəyini göstərən təqib nümunəsidir." İsanı və Onun şagirdlərini rədd edənlər peyğəmbərləri rədd edənlər tərəfindən yaradılmış eyni nümunəni izləyirlər.

Lukada təqibin teoloji təlimləri

Onun Lukada və Həvarilərin İşləri kitabında olan təqib teologiyasının vacib tədqiqində Skot Kaninqam altı əsas teoloji mövzunu Luka Müjdəsində göstərir:

1. **Təqib Allahın planının bir hissəsidir.** Əgər "İsa nəyə görə rədd olunmalı, təqibdən əzab çəkməli və ölümdən əzab çəkməli idi?" Luka belə cavab verərdi: "Bu Allahın planı idi." 2:34-də Şimeonun peyğəmbərliyində İsanın rədd olunmasına ilk işarədən Luka 24:44-49-da Müjdənin yekununa qədər İsanın ölümü və təqibi Lukaya əsasən Allahın planının idarəçiliyi altında qarşıya çıxmışdı.


Dəfələrlə deyilirdi ki, İsanın ölümü "vacibdir" (9:22; 13:33; 17:25; 22:37; 24:7, 26, 44). Luka tez-tez bəyan edir ki, İsanın ölümü Kəlamı həyata keçirdi (18:31-34; 22:37; 24:25-27, 44-46). Allahın iradəsi Kəlamda bildirilir və o yerinə yetməlidir. Luka əsl Kəlamın ayələrinə istinad etmir, baxmayaraq ki, Luka 20:17 və 22:37-də istinad edir. Onun Kəlamın ümumi təliminə istinadı budur ki, Qulluqçu-Məsih ölməlidir (24:25, 44). Luka üçün əsl parçalar İsanın yerinə yetirdiyi Kəlama uyğun nümunlər qədər vacib deyil. Təqibin necə Allahın planının bir hissəsi olduğunu görməklə oxucu əmin olur ki, İsanın şagirdləri və onların da necə təqib olunacaqları barədə etdiyi peyğəmbərliklər Allahın iradəsinin və planının daxilindədir.

2. **Təqib Allahın vasitəçilərinin rədd olunmasıdır.** Lukada Allahın vasitəçilərini təqib edənlər qəribədir ki, Allahın xalqı hesab edilənlərdir. İsanın rədd olunması əsas süjet xəttinin inkişafı kimi görünür, bu Onun məbəddə həsr olunması zamanı peyğəmbərlik edilmişdi; bu Onun Nazaretdə insanlar qarşısında xidmətə başladığı vaxtdan başlayır, hekayədə gərginliyi artırır və dini rəhbərlərin Onu öldürmək üçün sui-qəsdlərinin həyata keçməsinə keçid alır (22:2). Çarmıx İsanın bütün xidməti boyunca yaşadığı rədd olunmanın sonuncu gerçəkləşməsi kimi görünür. O daim çarmıxın kölgəsi altında yaşayır.

   Luka Müjdəsində İsa Öz rədd olunmasına belə baxır, Allahın vasitəçiləri ilə Allahın xalqı hesab edilənlər tərəfindən həmişə necə rəftar olunubsa, Onunla da elə rəftar olunur. O görür ki, bu nümunə şagirdlər dirilmədən sonra Onun xidmətini davam etdirdikcə izlənəcək. Əslində insan haqqında yaxşı sözlərin deyilməsi mühakimə üçün əsasdır, çünki yanlış peyğəmbərlərlə belə rəftar olunmuşdu (6:26).

3. **Təqib olunmuş insan Allahın peyğəmbərləri ilə bir yerdə durur.** Kaninqamın "təqib ilgəyi" adlandırdığı şey burada Lukadadır. Peyğəmbərlər, İsa və şagirdlər hamısı bir-biri ilə

təqibdə əlaqəlidir. Təqibin bu üçbucağı Müjdədə diqqətlə ifadə olunub.



İsa və şagirdlər onlardan əvvəl olan peyğəmbərlər kimi təqib olunurlar. Peyğəmbərlər Allahın qasidləri olmaqla İsa və şagirdlər kimi təqib olunmuşdular. Şagirdlər İsaya görə təqib olunurlar və İsa təqib olunduğu kimi şagirdlər də gələcəkdə təqib olunacaqdılar.

4. **Təqib İsanın arxasınca getməyin ayrılmaz nəticəsidir.** Luka 6:22-də İsa deyir ki, şagirdlər *"Bəşər Oğluna görə"* təqib olunacaqlar. Təqib İsanın şagirdlərinə Onunla ünsiyyətdə olduqlarına görə gəlmir, Onun Özünə görə gəlir. Belə təqib qaçılmazdır. İsa peyğəmbərlik edir ki "*Amma bütün bu hadisələrdən əvvəl Mənim adıma görə sizi yaxalayacaqlar, təqib edəcəklər, sinaqoqlara və zindanlara təslim edəcəklər, padşahların və valilərin qarşısına aparacaqlar*" (21:12).

Bir neçə ayə sonra O onlara xəbərdarlıq edir ki, müxtəlif mənbələrdən (hətta ailədən) təqiblər gələ bilər, ***"Mənim adıma görə*** *hamı sizə nifrət edəcək*" (21:14).

Luka 9:23 və 14:27-də çarmıxa istinad şagirdliyi "İsanın arxasınca getmək"lə əlaqələndirir. 9:23-də İsa deyir ki, şagird gündəlik, hətta öz ailəsinə də "yox" deməklə hərəkətlərini

yeniləşdirməlidir. Bu İsanın davamçısı olmağın nə tələb etdiyini göstərən meyardır. Bu "bir dəfə hamı üçün" qərarı deyil. Günbəgün davamçılar özlərini Məsihin yoluna yenidən həsr etməlidirlər, Onun uğrunda əzab çəkməyə hazır olmalıdırlar. Gündəlik insan Məsihə sadiqliyi üçün ölməyə hazır olmalıdır. İsanın arxasınca gedən insan Onun taleyini bölüşməyə hazır olmalıdır, Onun nümunəsini izləməlidir.

Luka Müjdəsində başqa qəribə bir dönüş tamamilə yad bir insan olan Kirenalı Şimondur, (baxmayaraq ki, o bu rol üçün könüllü qoşulmamışdı, bu işə o məcbur edilmişdi). O, İsanın arxasınca gedən, çarmıxını daşıyan (23:26) bir insan kimi, amma aparıcı rolu oynayan Peter isə bu işi görməyən biri kimi təsvir olunur (22:54-52).

Başqa iki əsas parçada İsa əvvəlcədən bildirir ki, Onun davamçıları gələcəkdə güclü təqiblə üzləşəcəklər (12:4-12; 21:12-19). Lukanın oxucuları İsanın öz əzabları barədə etdiyi peyğəmbərliklərin həyata keçdiyini gördükləri kimi onlar Həvarilərin İşlərini də oxuyanda düşünəcəklər ki, İsanın şagirdləri üçün etdiyi peyğəmbərliklər yerinə yetəcək. Bu, İsanın ardınca getməyin qaçılmaz və bölünməz hissəsidir.

5. **Təqib ilahi qələbənin hadisəsidir.** Təqib İsanın şagirdi olmağın bölünməz hissəsi olsa da, təqibin içində ilahi yardım da Luka Müjdəsində var. Mələk İsa çarmıxa getməzdən əvvəl İsanı qüvvətləndirir (22:43). 10:19-da O, şagirdlərinə deyir: "*Göydən bir mələk İsaya göründü və Onu qüvvətləndirdi*." Buna oxşar olaraq, 21:17, 18-də O deyir: "*Mənim adıma görə hamı sizə nifrət edəcək. Amma başınızdan bir tük belə, əskik olmayacaq*."

Bu vəd İsanın 21:12, 16-da etdiyi peyğəmbərliyə, yəni şagirdlərlə pis rəftar olunacağı və hətta ölümə məhkum olunacaqları barədə etdiyi peyğəmbərliyə əsasən şərh oluna bilər. Kanninqam yazır ki (mən dəqiq düşünürəm) Lukanın yəqin ki, ağlında iki fikir

olub: 1) Allah şagirdi çox vaxt fiziki zədələnmədən möcüzəli surətdə qoruya bilər və qoruyacaq, azad edə bilər və azad edəcək, amma Allahın vədi bunun üçün məhdud deyil. Biz həm də bu faktı anlamalıyıq ki: 2) Allah şər qüvvələrdən tam qurtuluş verə bilər. Şagird bədəni öldürənlərdən qorxmalı deyil, amma cəhənnəmə atmağa səlahiyyəti Olandan qorxmalıdır (12:4, 5). Şagirdlərin taleyi təqibçilərin əllərində deyil, Allahın əlindədir.

İctimaiyyətin rəhbərləri, istər dini (12:11-12), istərsə də mülki rəhbərlər olsun (21:10-15), onların qarşısında şagirdlərin müdafiəsi üçün ilahi yardım da vəd olunub:

"Sizi sinaqoqlara, başçıların və hökmdarların qarşısına gətirəndə özünüzü necə müdafiə edəcəyiniz və yaxud nə deyəcəyiniz barədə qayğı çəkməyin. Müqəddəs Ruh sizə o anda nə deməli olduğunuzu öyrədəcək" (*12:11, 12*).

"*Mənim adıma görə sizi... padşahların və valilərin qarşısına aparacaqlar. Bu işlər şəhadət etdiyiniz vaxt olacaq. Buna görə də ürəyinizdə qərara alın ki, özünüzü necə müdafiə edəcəyiniz barədə əvvəlcədən düşünməyəsiniz. Çünki Mən sizə elə danışıq qabiliyyəti və hikmət verəcəyəm ki, sizə qarşı çıxanların heç biri nə ona etiraz edə biləcək, nə də ona qarşı dura biləcək*" (21:10-15).

6. **Təqib məsihçi dözümü üçün bir haldır.** Lukada təqib təliminin ilkin məqsədi şagirdlərin təqib zamanı İsaya sadiqliyi saxlamalarıdır. Sınaq zamanı dözən toxum yaxşı torpaqda olan toxumdur (8:15). Təqibin sınağı budur ki, şagirdlər insanlar qarşısında Onu tanıyacaqlar, yoxsa inkar edəcəklər (12:8-10). Yalnız dözən şəx öy həyatını qazanacaq (21:9).

Bu baxımdan Peter, təqib zamanı necə cavab *verməməyin* mənfi bir nümunəsi kimi xidmət edir. O, 22:33-də bəyan etsə də öz Rəbbini inkar edir: *"Ya Rəbb, mən Sənlə zindana da, ölümə də getməyə hazıram*." Amma Luka Müjdəsi həm də

gözəl surətdə qeyd edir ki, Rəbb necə ayrıca Peterə görünür (24:34), Allahın həqiqətən tövbə edənləri bağışladığını və bərpa etdiyini göstərir (22:62).

Yəhya

Yəhyanın Müjdəsi ona görə özünəməxsusdur ki, bizə onun nəyə görə yazıldığı dəqiq deyilib: *"Amma buradakılar onun üçün yazılıb ki, siz İsanın Məsih – Allahın Oğlu olduğuna inanasınız və iman edərək Onun adı ilə həyata malik olasınız*" (Yəhya 20:31). Digərləri belə düşünürlər ki, bu məktub müjdəçilik sənədi kimidir, bu heç də dəqiq deyil. M. M. Tompson qeyd edir ki, "Müjdənin 'sizin inanmağınız' üçün yazılması faktı həm də 'siz də inanmaqda davam edəsiniz' kimi tərcümə edilə bilər və belə görünür ki, Müjdənin çox hissəsi imanlıları öz imanlarında ruhlandırmaq üçün nəzərdə tutulub. Yəhya yazanda fikirləşirdi ki, Onun əlamətlərini heç vaxt görməyən ikinci və üçüncü nəsil imanlılar İsa haqqında bilməlidirlər ki, Ona imanlarında ruhlansınlar və güclənsinlər. İmanda tərəddüd edənlər İsanın Tomasa olan sözlərini eşitməli idilər, *"Görmədən iman edənlər nə bəxtiyardır!*" (20:29). Müqavimət qarşısında inamda tərəddüd edənlərə Yəhya 21-ci fəsildə Peterin bərpa olunması hekayəsini təmin edir. Oxucu görür ki, Peteri axtaran İsadır. Peterin Onunla gözəl ünsiyyət üçün bərpa edən sualları İsa Özü verir və Peteri Allahın məqsədlərinə yenidən qaytarır – bu məqsədlər onu sonda ölümə aparacaqdı (20:18, 19). Yenidən başlamaq istəyən və tövbə edən ürəklə Onun çağırışına, "Ardımca gəl" (20:19) cavab verən şagirdi bərpa etməkdə İsa heç vaxt problemlə qarşılaşmır.

Birinci fəsildə Yəhya qeyd edir ki, İsa dünyaya gəldi, amma dünya Onu rədd etmədi (1:10, 11). Amma Onu qəbul edənlər də var idi (1:12, 13). Bu səbəbdən də Yəhya adətən insanları iki tərəfdə görür: Onu qəbul edən və Onda qalan şagirdlər və Onu rədd edənləri, Ona qarşı duranları və laqeyd olanları daxil edən "dünya".

Amma Yəhya həm də üçüncü qrupu: İsanın ardınca getməyə başlayan, amma imanları çatışmayan qrupu görür. Onlar yalnız möcüzələrə görə iman edirlər və İsa onlara etibar etmir (2:23-25).

Yəhya 6:60-66-da çoxlu sayda şagirdlər arxalarını çevirib gedirlər, belə ki İsa, xüsusilə çətin təlim keçəndə onlar üçün bunu qəbul etmək çox çətin idi. Uilkins qeyd edir:

> Aydın görünür ki, bu şagirdlər İsanın arxasınca gedirlər, çünki O, yeni möcüzə törədən və müəllim idi və Yəhya 2:23-25-də olduğu kimi İsa onların imanlarının çatışmazlığını bildirmişdi. Onların bir qədər Ona həsr olunmaları var idi, amma Onun təlimi onların gözlədikləri şeyləri təsdiqləməyəndə Onu tərk etdilər.

Yəqin ki, çətinlik İsanın tələbinin ətrafında cəmlənmişdi, belə ki şagirdin tapa biləcəyi yeganə həyat mənbəyi Ondadır. Şagird sadəcə İsanı həyatına əlavə edə bilməz; İsa mərkəzdə olmalıdır. O, sadiqliyin tələblərini qoyur, belə ki bu tələbləri yalnız Allah verə bilər, bunun üçün ödəniş isə olduqca yüksək idi. İsa On İki şagirddən Onu tərk edib-etməyəcəklərini soruşanda Peter cavab verdi: *"Ya Rəbb, biz kimin yanına gedək? Əbədi həyatın sözlərini söyləyən Sənsən. Biz də iman etmişik və bilirik ki, Allahın Müqəddəsi Sənsən"* (6:68, 69).

Yəhya Müjdəsində dünyanın Ona olan "nifrəti" (7:7; 15:18, 23-25) müxtəlif yollarla ifadə olunub:

- O Öz ailəsi tərəfindən rədd olunur (7:1-10).
- O həbs olunma ilə hədələndi (7:30-52).
- O daşlanma ilə hədələndi (8:59; 10:31).
- Onun nüfuzu ləkələndi (9:24-29).
- Ona böhtan atıldı (10:19-21).
- O, nəhayət həbs olundu və öldürüldü (18:1-19:37).

İsa həm də bildirir ki, dünyanın Ona olan nifrəti Öz şagirdlərinin də üzərinə töküləcək (15:18-21). Bu artıq Ona etibar edənlərin həyat təcrübəsində əvvəlcədən görünmüşdü, belə ki sağalmış kor kişi İsanı bəyan etməkdən imtina etmədi və nəticədə cəmiyyətdən "qovuldu! (9:34) və Nikodim Onun qanuni hüquqlarını müdafiə etməyə çalışdığı üçün ələ salındı (7:52). İsa bilirdi ki, çiçəklənmə,

güc və ya nüfuz yox, təqib və əzab – Onu qəbul edənlər və Onun adında həyat tapanlar üçün norma olacaq. 16:1-də İsa Öz şagirdlərinə deyir ki, onlar təqibi gözləməlidirlər, *"büdrəməyəsiniz deyə sizə bunları söylədim*." Əgər biz bu faktı dəstəkləməkdə düzgün olsaq, yəni Yəhyanın Müjdəsi imanlıların öz imanlarını qoruyub saxlamaları üçün yazılıb, onda bu xəbərdarlıq yəqin ki uyğundur. Təqib gələn zaman şagirdlər sarsılmamalı və ya məğlub olmamalıdırlar. İsa onlara xəbərdarlıq edir:

> *"Sizi sinaqoqlardan qovacaqlar. Hətta o zaman gəlir ki, sizi öldürən hər kəs Allaha xidmət etdiyini zənn edəcək. Onlar bunları edəcək, çünki nə Atanı, nə də Məni tanıdılar. İndi bu şeyləri sizə bildirdim ki, vaxtı gələndə sizə söylədiyimi yada salasınız*" (16:2-4).

İsanın vaxtından əvvəl onlara xəbərdarlıq etməsi təqib anında imanlılara güc verməkdir. Onlar əmin ola bilərlər ki, kənardan heç bir şey onları İsanın və Atanın (Yəhya 10:28, 29), eləcə də Oğul vasitəsilə Atadan gələn Müqəddəs Ruhun (15:26, 27) əlindən qopara bilməz. İmanlılar dünyanın imansızlığı və nifrəti qarşısında məhəbbət və etibar olan ünsiyyətlərdə qalmalıdırlar. Təqib əqidə, təhsil və ya qanunvericilik ilə dayandırıla bilməz və dayandırılmayacaq. Dünya sadəcə bunu ona görə edir ki, Allahı tanımır. Dünyanın nifrəti tamamilə məsihçilərə nifrətdə kök salmayıb; bu nifrət Allaha doğru ünsiyyətdə kök salıb.

İmanlı üçün müvafiq cavab bəyanat vasitəsilə şəhadətlik etməkdir və düşmən dünyaya nümunə olmaqdır, özlərini qurban verərək məhəbbət və Ruhun gücündə barışma xəbərini çatdırmaqdır (15:27). Məsihçilik dünyadan kənara çəkilmək deyil (17:5), amma İsanın xoş xəbərini düşmən dünyaya çatdırmaq üçün göndərilməkdir. İsa ölümünə qəsdən Öz həyatını quzuları və hələ sürüsündə olmayanlar üçün "vermək" kimi baxır (10:15, 17, 18). O bunu məhəbbətinə görə edir. O, Öz şagirdlərini Öz nümunəsini izləməyə səsləyəndə (15:9-12), bildirir, *"Heç kəsin məhəbbəti dostları uğrunda canını qurban verən adamın məhəbbətindən üstün ola bilməz*" (15:13). İsa gəldi ki, Öz həyatını bizim üçün versin. Onun həyatı bizim üçün

nümunədir. Ona görə də biz də çağırılmışıq ki, Onun sevdiyi insanlar üçün həyatlarımızı verək. Şagirdin çağırışı Məsih kimi özünü qurban verən sevgi ilə həyatı yaşamaqdır – Peter kimi yox, çünki o öz həyatını Məsih üçün "verməyə" hazır olduğunu demişdi (13:37), amma qarşıdurma və əzabla qarşılaşarkən bunu edə bilmədi.

Yəhya 7:4-də İsanın qardaşları Onun ittiham etdilər ki, O özünə izzət axtarır və ələ salaraq Onu ruhlandırdılar ki, Yerusəlimə getsin və Özünü açıq şəkildə dünyaya göstərsin. Həmin vaxt İsa bilirdi ki, Onun "vaxtı hələ gəlməyib" (7:6). 12-ci fəsildə Onun Yerusəlimə getmək "vaxtı" gəlib çatanda İsa bilir ki, dünya Onun yanına əlamətlər və möcüzələr vasitəsilə deyil, Onun "yuxarıya qaldırılması" ilə gələcək (12:32). Amma həmin fikirdən qabaq, Onun qələbə ilə daxil olmasından dərhal sonra Yəhya İsanın bu sözlərini qeyd edir:

> *"İsa cavabında dedi: 'Bəşər Oğlunun izzətlənmək vaxtı gəldi. Doğrusunu, doğrusunu sizə deyirəm: əgər bir buğda dənəsi torpağa düşüb ölmürsə, tək qalır, amma ölürsə, çoxlu məhsul verir. Öz canını sevən kəs onu itirər, bu dünyada canı üçün qayğı çəkməyənsə onu əbədi həyat üçün qoruyar. Kim Mənə xidmət etmək istəsə, ardımca gəlsin. Mən harada olacağamsa, Mənim xidmətçim də orada olacaq. Kim Mənə xidmət etsə, Ata ona hörmət edəcək.'"* (Yəhya 12:23-26)

Yəhyanın qeyd etdiyi bu fikir Matta 10:38; 16:21-28; Mark 8:34-38; Luka 9:23-27; 14:27-yə ekvivalentdir və şəhidliyə aid etmək üçün sadəcə hərfi olaraq başa düşülməlidir. Amma o biri Müjdələr şagirdliyin dəyərini çarmıxı daşımaq kimi təsvir edərkən Yəhya bəhrə gətirmək üçün ölməli olan toxum təsvirindən istifadə edir. İsa Yəhya Müjdəsində şagirdlərini öyrədir ki, "Allahın təsərrüfatında məhsuldarlıq yalnız ölməklə əldə olunur." Əgər İsanın işi yalnız Onun ölümü vasitəsilə əldə oluna bilirsə, onda şagirdlərin bəhrə gətirmək işi də onların ölümləri vasitəsilə əldə oluna bilər. Amma onlar həyatlarını qurban versələr, bir çoxları padşahlığa gələr və onlar özləri də öz sadiqliklərinə görə əbədi mükafatı gözləyə

bilərlər. Oğul Öz ölümü ilə izzətləndiyi kimi Ata da Ona, hətta ölümədək xidmət edən şagirdləri izzətləndirəcək.

Yəhya Müjdəsində həvarilərin rolu iki tərəflidir. Birinci, onlar İsanı gözləri ilə görüblər. Onlar Onun haqqında şəhadətlik edirlər (15:27), Onun həyatına, ölümünə və dirilməsinə şəxsən şahidlik edirlər. İkinci, həvarilər vəkillər kimi düşmən dünyada İsanın tərəfini tuturlar və Onu müdafiə edirlər (15:18-20; 16:1-4). Onların tapşırıqları İsanın rəqiblərini Onun Məsih, Allahın Oğlu olduğuna inandırmaqdır. Bunu etmək onlardan tələb edir ki, həyatlarını barəsində şəhadətlik etdikləri Şəxsə versinlər, amma onların məhəbbət qurbanı başqalarına yaşamağa imkan verəcək. Bu şəhadətlik etməyin ödənişidir. Əgər nifrətlə dolu olan düşmən dünya İsanın həqiqətini eşitməlidirsə, Onun qasidləri dünya uğrunda öz həyatlarına nifrət etməlidirlər.

Bu tapşırıq elə bir tapşırıq deyil ki, onu öz gücləri daxilində edə bilsinlər. İsa demişdi: ***"Mənsiz heç nə edə bilməzsiniz"*** (15:5), burada bu fakta əsaslanır ki, bəhrə gətirmək yalnız o halda mümkündür ki, insan Məsihdə sevən, özünü qurban verən ünsiyyətdə olsun, bu da Oğul və Ata arasında mövcuddur. İsa şagirdlərini Öz iztirablarından əvvəl hazırlayarkən onlara deyir ki, Atanın yanına gedəndə başqa Köməkçi, həqiqət Ruhunu göndərəcək və onlarla əbədi olacaq (14:16, 17). Onlar şahidlər olduğu kimi Müqəddəs Ruh da İsaya şəhadətlik edəcək (15:26, 27). Ruh İsanın dediklərini onlara xatırladacaq (14:26) və günah, salehlik və mühakimə olan dünyanı ittiham edəcək (16:8). O, şagirdlərə yol göstərəcək və Məsihi izzətləndirəcək, Məsihdə olan hər bir şeyi götürüb onlara açacaq (16:13-15).

Yəhyanın Müjdəsində İsa ilk dəfə dirilmədən sonra şagirdlərə görünəndə onları salamlayır və onlara tapşırıq verir: *"Ata Məni göndərdiyi kimi Mən də sizi göndərirəm"* (20:21). Sonra O onların üzərinə üfürür və deyir: *"Müqəddəs Ruhu alın"* (20:22), burada onlara bağışlamaq və mühakimə barədə vəddə verilir (20:23). Şagirdlər əmin edildilər ki, şəhadətlik tapşırığını düşmən dünyaya təklikdə çatdırmayacaqlar. "O onlar vasitəsilə danışacaq və hərəkət edəcək, Allahın məqsədlərini onlarda və onlar vasitəsilə həyata keçirəcək."

Skot Qrant Yəhya 15:18-16:4 barədə olan "*Nifrəti anlamaq*" adlı vəzində faydalı bir qeydi edir:

> Bəs biz hansı həqiqəti danışırıq? İsa deyir ki, şagirdlər Onun haqqında danışmaqda püxtələşiblər, çünki onlar başlanğıcdan bəri Onunla olublar. Onlar sadəcə İsa ilə birlikdə olduqlarına görə püxtələşiblər. Ona görə də onlar İsa barədə danışa bilirdilər. Belə ki biz də İsa ilə olmuşuq və bütün imanlılar İsa ilə olublar, Onun haqqında danışmaqda biz də püxtələşmişik. Bizim Onun haqqında bilməli olduğumuz hər şeyi, bütün çətin suallara doğru cavabları bilməyimiz vacib deyil; bizə sadəcə bildiyimizi, hətta biliyimizin çox az olduğunu düşünsək də onu söyləmək lazımdır. Ruh bizimlə birlikdə şəhadətlik edir və yalnız Ruh ürəyimizi dəyişə bilər.
>
> Biz şəhadətlik edərkən İsanın xəbərinin gücünü azaltmamalıyıq. Şahidlər həqiqəti deməlidirlər, tam həqiqəti və yalnız həqiqəti söyləməlidirlər. İsa haqqında həqiqətlə əlaqədar iki əsas element var. Biri öldürücü diaqnozdur; o birisi isə möcüzəli şəfadır. Dünya itib. Dünya Allaha nifrət edən insanlardan ibarətdir. Biz bunun təsirini azaltmadan edirik. Çünki dünya diaqnozu bilmirsə, onda bilməyəcək ki, ona şəfa lazımdır. Amma dünya Allahı rədd etdiyinə görə günahkar olduğunu bilirsə, onun şəfanı əldə etmək imkanı var: İsa Məsihdə bağışlanma. Əgər biz çarmıxı Müjdədən çıxarsaq, bizim Müjdəmiz olmayacaq. Əgər biz çarmıx ilə dünyanı incitmək istəməsək, onda biz onun xeyri üçün çalışmırıq. Əgər biz dünyanı yaxşı hisslər ilə şirnikləndirməyə çalışsaq və çarmıx barədə danışmasaq, bir az sonra gizlicə xatırlatsaq, biz yalan danışırıq və həqiqətdə yaşamırıq. Bizim şəhadətliyimiz İsanın, Dostumuzun şəxsən bizə necə öldürücü diaqnozu və möcüzəli şəfanı verdyini daxil edə bilər və etməlidir və eləcə də ağrılı olsa da bizi həqiqətlə üzləşdirmək üçün kifayət qədər sevdiyini daxil etməlidir. Onda yəqin ki, dünya İsaya səbəbsiz nifrət etdiyini görər və Onu Dost kimi qəbul edər.

3-CÜ FƏSİL

HƏVARİLƏRİN İŞLƏRİ: BƏYANAT VƏ TƏQİB

HƏVARİLƏRİN İŞLƏRİ KİTABINDA TƏQİB

Həvarilərin İşlərinə ümumi baxış

Həv. İş. 1:3-də Luka Teofilə bildirərək yazır ki, İsanın dirilməsi ilə göylərə qalxması müddətində O, şagirdlərinə əmrlər verdi və "*Ölüm əzabını çəkəndən sonra həvarilərə çoxlu inandırıcı dəlillərlə Özünü diri olaraq göstərdi. O, qırx gün ərzində onlara görünərək Allahın Padşahlığı barədə danışırdı.* (Həv. İş. 1:1-3). Luka 24:13-35-də o, İsanın Öz iki şagirdi ilə Xammaya gedən yolda necə görüşdüyündən yazır, şagirdlər Yerusəlimdən uzaqlaşıb təhlükəsiz yerə gedirdilər. Yerusəlim İsanın davamçıları üçün düşmən əraziyə çevrilmişdi. Onlar öz Rəblərinin çarmıxa çəkilməsinə şahid olmuşdular və İsanın ölülərdən dirilməsi barədə məlumatların olmasına baxmayaraq, onlar aydındır ki, şübhələr ilə dolu idilər. Onlar qərara gəldilər ki, İsanın davamçıları ələ keçirilməzdən əvvəl buradan çıxıb getsinlər.

Onlar Xamma kəndinə gedən yolda Luka yazır ki, bu adları bilinməyən şagirdlər Yerusəlimdə təzəliklə baş vermiş hadisələr və İsanın necə öldürüldüyü barədə yol yoldaşı ilə söhbət edirlər. Onlar eşitdiklərini və gördüklərini izah edərkən yol yoldaşı onlara qulaq asır. Nəhayət, O müdaxilə edir: *"Ey ağılsızlar və peyğəmbərlərin xəbər verdiklərinə inanmaq üçün ürəyində ləngiyənlər! Məsih bu əzabları çəkib Öz izzətinə qovuşmalı deyildimi?*" (Luka 24:25, 26).

Əzabdan sonra izzət gəldi, bu əsas təsvir ilə O Kəlamın bütün hekayəsi boyunca onlarla birlikdə gəzdi (27-ci ayə). Mərkəzində Məsih duran Yerusəlimdəki hadisələr məna verməyə başladı. Allahın qulluqçusu izzətlənmək üçün əzab çəkməli idi.

Şagirdlərə nəhayət, imkan verildi ki, bu şəxsin İsa Məsih olduğunu aşkar etsinlər, onlar geriyə Yerusəlimə qayıtdılar ki, eşitdiklərini başqa şagirdlərə söyləsinlər. Onlar barrikada düzəldilmiş otaqda özlərini gördülər (Yəhya 20:19).


İki şagird İsanın onlarla necə danışdığını nəql edərkən qəfildən İsa onların qarşısında durdu. 45-ci ayədə biz oxuyuruq ki, O onların ağıllarını açdı ki, Kəlamı anlasınlar və onlara dedi: *"Belə yazılıb: Məsih əzab çəkib üçüncü gün ölülər arasından dirilməlidir. Yerusəlimdən başlayaraq bütün millətlərə günahların bağışlanması üçün tövbə Onun adı ilə vəz edilməlidir"* (Luka 24:46, 47).

Məsihin əzabı və ölülərdən dirilməsi deyilmişdi ki, bütün dünya üçündür. Bu bir şəhərdə olan otaqdakı qrup üçün məhdudlaşa bilməz. Müjdənin bütün dünyaya yayılması Yerusəlimdə onlardan başlayacaq, amma orada bitməyəcəkdi.

Növbəti otuz doqquz gün ərzində biz Həvarilərin İşləri 1-ci fəsildə oxuyuruq ki, İsa dəfələrlə Öz şagirdləri ilə Allahın padşahlığı mövzusunda danışmışdı. O, 4-cü ayədə vurğulayır ki, onlar Yerusəlimi tərk etməməlidirlər, amma vəd olunmuş Müqəddəs Ruhu gözləməlidirlər. İnsanlara şəhəri tərk etməməyi söyləmək bütün dünya üçün olan müjdəçilik hərəkatına başlamaq üçün qəribə bir qayda kimi görünə bilərdi.

Həv. İş. 1:8-də oxuyuruq, *"Amma Müqəddəs Ruh üzərinizə enəndə siz qüvvə alacaqsınız və Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək hər yerdə Mənim şahidlərim olacaqsınız."*

Biz həvarilərin İsanın əmrini necə izlədiyini görərkən Həv. İş. 1:8-ci ayə Həvarilərin İşləri kitabının qalan hissələri üçün ümumi icmalı təmin edir:




İlk yeddi fəsil Müjdənin Yerusəlimdə yayılmasından bəhs edir. 8:1-11:18-ci fəsillər İsanın xəbərinin bütün Yəhudeya və Samariya boyunca necə yayılmasından danışır. 11:19-dan başlayaraq, diqqət mərkəzi Müjdənin "dünyanın hər yerinə" yayılmasıdır. Luka 28-ci fəsildə yazını bitirəndə elə qəfil bitirir ki, sanki bununla vurğulayır ki, hekayə tamamlanmayıb; biz oxucular tapşırığı davam etdiririk. Aydındır ki, Lukanın 28-ci fəsildə diqqəti mərkəzi Paulun taleyində deyildi, Müjdənin yayılmasında idi. Kitab Paulun həyatı və ya şəhidliyi ilə bitmir, onun "Allahın padşahlığını bəyan etməsi və İsa Məsih haqqında tam cəsarətlə heç bir maneçilik olmadan öyrətməsi" ilə bitir. Müjdə "dünyanın hər yerinə" yayıldıqca bu son sözlər eyni işi görməkdə Məsihin bütün davamçıları üçün ruhlandırmadır.

Amma Müjdənin yayılması Yerusəlimdən *başlayır*. Bu bizə belə sualı verməyə yönəldir, "Bu nəyə görə vacib idi? Müjdənin bəyanatı Yerusəlimdə başlamalı idi?" Bu suala cavab vermək üçün biz əvvəlcə bəzən təklif olunan üç uyğun olmayan izaha müraciət etməliyik.

Birinci, Müjdə Yerusəlimdə başlamamışdı, çünki bura həvarilərin evi idi və ona görə də onlar daha hazır və qəbul edən auditoriya tapmışdılar. Yerusəlim həvarilərin heç birinin evi deyildi. Onlar Qalileyadan idilər, Yerusəlimdən deyildilər. Həv. İş. 1:11-də mələklər onlara "Qalileyanın adamları" kimi müraciət edir. Yerusəlimin adamları həvariləri, hətta qaranlıqda Qalileya ləhcəsinə görə asanlıqla tanıya bilərdilər (Matta 26:73; Luka 22:59). Ərazidə olan mənfi fikirlər qalileyalıları Yerusəlimin nəzakətli vətəndaşları üçün ən münasib qasidlər etməmişdi, nə də həvarilər özlərini şəhərdə öz

evlərindəki kimi hiss etməmişdilər. Onların evləri kiçik şəhərlərdə və Qalileyanın kəndlərində idi.

Həv. İş. 1:8 Müjdənin irəliləyən uğurunu evdən uzaq yerlərə öyrətmək üçün müjdəçilik səhv tətbiq olunur. Buna oxşar ssenari aşağıdakı kimi olmalıdır:



Bu baxımdan hər bir kəsin doğma kəndi Yerusəlim şəhərinə bənzəyir və "bizim öz Yerusəlimimiz" ifadəsi ilə işarələnir. Əfsus olsun ki, Stiven Hausronun fikrincə yerli müjdəçilik səylərinə belə baxış çox vaxt "indiki günün müjdəçiliyini İsanın vurğulamaq istədiyi çox tarixi açıqlamadan ayırmağa" xidmət edir. Hausron izah edir:

> Gerçəklik budur ki, Müjdənin yalnız bir başlanğıcı var idi. Allahın tarixində heç vaxt başqa növbəti Əllinci günü olmayacaq. Hər bir sonrakı təşəbbüs həmin axının və itaətkarlığın son məhsuludur. Biz indi "sonuncu hissələrik", amma "öz Yerusəlimimizə" çatmaq ssenarisini təkrarlamırıq. Həv. İş. 1:8 tarixi istinad olduğu kimi coğrafi istinaddır.

İkinci, Müjdənin yayılması Yerusəlimdə başlamadı, çünki bu başlamaq üçün ən təhlükəsiz yer olardı və şagirdlər daha çətin və

ya daha çox müqavimət göstərən ərazilərə şəhadətliyə getməzdən əvvəl təcrübə əldə edə bilərdilər. Amma bunun əksi idi. Yer üzündə şagirdlər üçün xidmətə başlamağa ən təhlükəli yer Yerusəlim idi. Hamıya məlum olan düşmənlərin onları zindana atmağa səlahiyyətləri var idi, Getsemani bağında onları həbs etməyə çalışmışdılar (Mark 14:50-52; Yəhya 18:8, 9). Onlar yəqin ki, yenə də bunu etmək istəyərdilər.

Üçüncü, Yerusəlim Müjdənin yayılması üçün başlanğıc yer kimi seçilməmişdi, çünki şəhər şagirdlər üçün oxşar ərazi idi, bu yerdə xidmət onları sonralar daha naməlum olan xidmət üçün hazırlaya bilərdi. Müjdələrə baxarkən görürük ki, İsa və Onun şagirdləri Yerusəlimdə az vaxt keçirdilər. Yerusəlimin şəhər mühiti kəndli qalileyalılar üçün naməlum idi. Bir az əvvəl qeyd edildiyi kimi Yerusəlimdə olanlar ilə Qalileyada olanlar arasında yerli rəqabət var idi. Heç biri bir-birini sevmiridi. Əgər İsa şagirdlərinin daha tanış ərazidən təcrübə toplamalarını istəsəydi, O şübhəsiz ki, Yerusəlimi seçməzdi. Bundan başqa şagirdlər xidmət üçün olduqca təcrübəsiz idilər. Onlar İsa ilə üç ildən artıq bir müddət keçirmişdilər. O artıq onları iki dəfə müjdəçilik səfərinə göndərmişdi. Onlar bir şey olmadan tamlığı ilə hazırlaşmışdılar: onlarda Müqəddəs Ruh yox idi.

İsa onlara nəyə görə demişdi ki, Yerusəlimdə qalsınlar? İki səbəb var idi. Birinci effektli şəhadətlik Müqəddəs Ruhun işindən kənarda baş verə bilməz. Ruh İsanı Öz işi üçün gücləndirdiyi kimi eləcə də şagirdləri də öz xidmətləri üçün gücləndirməli idi. İsa bilirdi ki, Müjdə yayıldıqca şagirdləri də Onun qarşılaşdığı eyni qarşıdurma ilə üzləşəcəklər. O onları şəhidlik üçün hazırlamışdı. O həm də vəd etmişdi ki, təqib zamanı dini və mülki rəhbərlərə ələ verilərkən nə cür danışmağı və cavab verməyi bildiyi kimi Onun şagirdləri də başlarına belə şeylər gələndə nə cavab verəcəklərini biləcəklər. Müqəddəs Ruh həmin vaxtda onlara lazım olan sözləri verəcək (Matta 10:18-20; Mark 13:11; Luka 12:11, 12; 21:14, 15). Ton yazır:

> Bu vəddə (yəni, Həv. İş. 1:8) nəzərdə tutulan şeylər çox nəhəngdir. Hər şeydən öncə bu şagirdlərə deyir ki,

> onlar döyüşdə tənha olmayacaqlar; Müqəddəs Ruh onlarda olacaq və onlarla olacaq. İkinci, bu onları agah edir ki, döyüş əslində onlarınkı deyil; bu Allahın təşəbbüsüdür və Allahın hərəkəti və işidir. Onlar Onun səfirləridir, Onun səlahiyyəti və gücü ilə tamlığı ilə təmin olunublar. Üçüncü, onların əldə edəcəkləri hər bir şey Allahın uğuru olacaq, çünki Allahın Ruhu onlar vasitəsilə hərəkət edir.

Uilyam Ueynriçin Müqəddəs Ruh və təqib arasında əlaqə barədə araşdırmasına əsaslanaraq Tomas Şirmaçer yazır:

> İsa Müqəddəs Ruhun fəaliyyətindən arabir danışır, amma O bunu edəndə tez-tez Onu köməkçi və təqib zamanı təsəlliverici kimi təsvir edirdi (Matta 10:17-20; Mark 13:9-11; Luka 21:12-19). Təəccüblü deyil ki, Paul öz dözümünü Müqəddəs Ruhun adına yazmaqla öz əzabları siyahısında Rəbbin nümunəsini izləyir (2 Kor. 6:6). Filip. 1:19-da o yazır, "çünki bilirəm ki, bunun nəticəsi dualarınızla və İsa Məsihin Ruhunun köməyi ilə mənim xilasım olacaq." O, saloniklilərə xatırladır ki, "siz də böyük əziyyət içində Müqəddəs Ruhun verdiyi sevinclə kəlamı qəbul edib bizdən və Rəbdən nümunə götürdünüz" (1 Salonik. 1:6, 7).

İkinci, Yerusəlim Müjdənin yayılması üçün Allahın təyin etdiyi başlanğıc yer idi, çünki bunun üçün olduqca çoxlu missioloji və teoloji səbəblər var idi. Bəziləri düşünürlər ki, əgər şagirdlərin Yerusəlimi tərk etmək imkanları var idisə, onlar rahat yerlərinə, Qalileyaya gedərdilər. Mən düşünürəm ki, İsanın təlimləri Allahın əbədi planı üçün əsas olan metodologiyanın əks etdirir. Yerusəlim yer kürəsində olan monoteist ibadətin mərkəzi olub. Bu Allahın bəşəriyyət ilə bağladığı əhdin mərkəzi nöqtəsi olub. Məsihçilik Qalileya təriqəti adlanan risk deyil, Allahın planında əvvəllər baş vermiş olanların davamı kimi görünməli idi.

Bu baxışı dəstəkləmək üçün bizim 1 və 2-ci Korinflilər və Həv. İş. 11-ci fəsildən sübutlarımız var, burada biz görürük ki, Paul

qeyri-yəhudi olan imanlılardan ianə yığıb Yerusəlimdəki məbədə təqdim edir. Bu məsələ ilə əlaqədar Paulun yazılarını diqqətlə oxumaq aşkar edir ki, bu ianə yığmaqda məqsəd əsasən həmin məbədin maliyyə ehtiyacı deyildi, bütün dünyanı bürüyən aclıq idi (Həv. İş. 11:28-ə baxın). Bu hərəkət sadəcə xeyriyyə hərəkəti deyildi. Paulun fikrincə bu, qeyri-yəhudi imanlılar tərəfindən yəhudi imanlılara göstərilən məhəbbət və məsihçi birliyi idi, çünki yəhudilər onlara Məsihi tanımağa imkan vermişilər (Roma. 15:27-yə baxın). Amma bunun üçün daha əhəmiyyətli səbəb ola bilər. Kristofer Litl yazır:

> İanə toplamaqda başlıca səbəb bu fakta əsaslanır ki, Paulu peyğəmbərliklər məcburiyyət qarşısında qoymuşdu, bu peyğəmbərliklər xalqların İsrailə, Padşaha ibadətə gəlməsindən danışırdı (Yeşaya 60:4-14; 66:19-24; Məzmur 72:8-11-ə baxın). İmana gəlmiş bütpərəstlərin Yerusəlimə gəldiyini görən (Hə. İş. 20:4 ilə 21:15-19) Paul ümid edirdi ki, İsrail qısqanclıqdan tövbə edib İsanı Məsih kimi qəbul edər (Roma. 10:1; 11:11-24-ə baxın). Buna əsasən Paulun kahinlik ənamı bütpərəstlərin özləridir, (Roma. 15:16) belə ki bununla sübut edir ki, İsrailin Allahı bütpərəstlərin də Allahı olub və indi bütün xalqlardan ibarət olan yalnız bir Allahın xalqı var (Qal. 3:28. 29; Efes. 3:4-6).

Bu səbəbdən də Paul Yerusəlim ilə Allahın keçmişdə necə işləməsi arasında davamı vurğulamaqda diqqətli idi, buraya indiki dövrdə Müjdənin bütün yer üzündə bütpərəstlərə yayılması da aiddir. Bu axırıncı iş Allahın yəhudilər ilə başladığı Məsihdə tamamlanmış və Məbəd vasitəsilə bəyan edilmiş aşkarlanan planının nəticəsidir.

Mən belə düşünürəm ki, şagirdlər buna görə Yerusəlimdə qalmışdılar, çünki onlara tapşırılmışdı ki, orada qalsınlar. Müqəddəs Ruh onların üzərinə gələndə həyatlarını təhlükə altına atsalar da, onlar dərhal camaat qarşısında şəhadətlik etməyə başladılar. Təqib

gələndə onlar dağılışmadılar. Onlar ən strateji və ən təhlükəli yer olan Yerusəlimdə qaldılar.

Onlar həbs olundular, utandırıldılar, döyüldülər, ittiham olundular, amma yenə də davam etdilər. Sonda onlardan biri olan Yaqub öldürüldü (12:2), amma bu halda da onlar qaldılar və qaçıb getmədilər. Onlar özlərini gizlətməyə heç səy də göstərmədilər. Onlar bilirdilər ki, Müjdənin ən effektli yayılması üçün Yerusəlimdə qalmalıdırlar. Yalnız mələk Peteri həbsdən çıxararkən o, nəhayət şəhərdən kənarda təhlükəsiz yer tapdı, amma qalan həvarilərin çıxıb getməsi və ya Peterin lüzumundan artıq qalması barədə heç bir məlumat yoxdur.

Şagirdlər Yerusəlimdə qalmaqla Məsihin tapşırığına itaətsizlik etdilərmi? Mən belə fikirləşmirəm. Məbədin dünyada yayılması ilə onlar katalizator idilər. Onlar yaşadıqları dövrdə dünyanı silkələyəcək hərəkat üçün təməllər qoymaqla məşğul idilər.

Onlar Müjdənin yayılmasına xidmət edən üsullar ilə çalışırdılar (Həv. İş. 6:4). Onlar Müjdənin yayılmasına diqqətlə nəzarət etdilər və Müjdənin yayıldığını eşidəndə dərhal onu təsdiqləməyə, dəstəkləməyə və ona xeyir-dua verməyə başladılar (Həv. İş. 8:14-25; 11:22). Məbədlərin Yəhudeyada, Qalileyada və Samariyada artdığını biləndə Peter özü bütün əraziyə səyahət etdi, Məbədin artmasına yardım etdi (9:31, 32). Bu elə həmin vaxt idi ki, Korneliusun evində olan bütpərəstlərə Müjdəni bölüşmək üçün Allah ondan istifadə edərək, Allahın irqindən asılı olmayaraq bütün insanları Öz ailəsinə qəbul etdiyini nümayiş etdirmişdi. Şagirdlərin Yerusəlimdə qalmaqda sadiq olduqları üçün təhlükələrə baxmayaraq, onlar Allahın bütün xalqlar üçün açdığı qapıdan keçə bilmək imkanına malik idilər.

Həvarilərin İşlərində Təqib

Bütün Həvarilərin İşləri kitabını nəzərdən keçirmək yorucu olar, amma gəlin, təqibin əsas məqamlarından bəzilərinə nəzər salaq:

Həvarilərin İşləri kitabında təqib

Hissə	Təqibin təbiəti	Nəticə
Həv. İş. 4	Hədələr	Dua (24-cü ayə), Ruh ilə dolmaq (31-ci ayə), şəhadətlik etmək (33-cü ayə)
Həv. İş. 5	Döyülmələr	Sevinc (41-ci ayə), şəhadətlik (42-ci ayə)
Həv. İş. 7	İnsanın öldürülməsi	Saul Stefanın ölümünə şahid olur.
Həv. İş. 8	Geniş yayılmış təqib, həbs olunmalar	Müjdənin yayılması (8:1,4), Saulun tövbəsi (9-cu fəsil)
Həv. İş. 9	Paulu öldürmək üçün planlar	Birlik (26,27-ci ayələr), şəhadətlik (28-ci ayə), daha çox təqib (29-cu ayə)
Həv. İş. 12	Yaqub öldürüldü, Peter həbs olundu.	Dua (5-ci ayə), cavab verilmiş dua

Həv. İş. 13	Paula böhtan atdılar (36-cı ayə), izdiham zorakılığa əl atdı, şəhərdən uzaqlaşdırıldı. (50-ci ayə)	Müjdə bütpərəstlərə yayılır.
Həv. İş. 14:1-7	Paula və Barnabaya pislik etmək niyəti (5-ci ayə)	Çıxıb getdilər və Müjdəni vəz etdilər. (7-ci ayə)
Həv. İş. 14:8-22	Paul daşlandı və onun ölü olduğunu düşünüb qoyub getdilər. (19-cu ayə)	İmanlılar gücləndilər və imanda davam etməyi, Allahın padşahlığına bir çox əziyyətlər ilə girməyə öyrəndilər. (22-ci ayə)
Həv. İş. 16	Paul həbs edildi və döyüldü. (23, 24-cü ayələr)	Allaha izzətlər gətirildi (25-ci ayə), zindanın baş mühafizəçisi Məsihi qəbul etdi (32-34-cü ayələr), onlar Roma vətəndaşı hüquqları müdafiə olundu. (35-39-cu ayələr)
Həv. İş. 17:1-12	İzdiham üsyan qaldırır. (5-ci ayə)	Paul Veriyaya göndərilir (10-cu ayə), bir çoxları Müjdəni qəbul edir. (11-ci ayə)
Həv. İş. 17:13-34	Salonikdəki yəhudilər tərəfindən qarşıdurma yarandı. (13-cü ayə)	Paul Afinaya göndərildi (14-cü ayə), bəziləri inandılar. (34-cü ayə)

Həv. İş. 18	Təqibçilər böhtan atmağa başladılar. (6-cı ayə)	Paul Müjdəni bütpərəstlərə çatdırır, bir çoxları iman edirlər. (6-8-ci ayələr)
Həv. İş. 19	İzdiham hərəkət edir. (23, 34-cü ayələr)	Paula məbəd tərəfindən məsləhət görülür ki, izdihamdan uzaqlaşsın; vəziyyət yaxşılaşır, məbəd rəhbərlər tərəfindən müdafiə olunur. (37-ci ayə)
Həv. İş. 21-23	Yəhudilər Paula hücum edirlər və məbəddə romalılar tərəfindən həbs olunur.	Paul Roma vətəndaşı olduğu üçün öz qanuni hüquqlarına görə müraciət edir; Məsih üçün şəhadətlik etməyə görə Romaya göndərilir (23:11); siyasi rəhbərlərə (24-cü fəsil), Festə (25:1-12), Hirod Aqrippaya (25:23-26:32) şəhadətlik edir; Romada vəz edir və təlim keçir. (28:31)

Bu araşdırmadan hansı ümumi mövzular irəli çıxır?

1. Təqib şəhadətlik etmək üçün daha çox imkanlar açır.

2. Şagirdlər dağılışanda onlar "gizlənmədilər". Onlar vəz etməkdə davam etdilər. Həvarilərin İşləri kitabında şəhadətlik həmişə camaat qarşısında olub.

3. Qarşıdurma labüd olaraq Müjdənin vəz edilməsindən sonra yaranırdı. Həvarilərin İşlərində təqib məbədin səpələnməsinə və bununla da Müjdənin yayılmasına səbəb olsa da, təqib və məbədin artması arasında əlaqənin belə təyin edildiyini demək səhv olardı. Həvarilərin İşlərində təqib məbədin artmasına səbəb olmur, amma məbədin artması və Müjdənin yayılması təqibə səbəb olur, baxmayaraq ki, dini və siyasi rəhbərlər qalxıb bu hərəkatı dayandırmağa çalışırdılar, *"dünyaya çaxnaşma salan bu adamlar gəlib buraya da çıxdılar"* (Həv. İş. 17:6).

4. Təqib müxtəlif mənbələrdən və müxtəlif yollar ilə gəlir. Həvarilərin İşləri kitabında imanlıların nəyə görə təqib olunduqları barədə izahat bir səbəbə görə tədqiq oluna bilməz.

MƏSİHÇİLƏR NƏYƏ GÖRƏ TƏQİB OLUNURLAR?

Bütün tarix boyunca məsihçilər öyrəniblər ki, Allahın padşahlığı bu dünyanın padşahlığını işğal etdikcə müxtəlif səviyyələrdə münaqişələrin olması qaçılmazdır:

1. **Dini** (Yəhya 5:18; 16:2; Həv. İş. 8). Məsihçilər üstünlük təşkil edən dini sistem üçün təhlükə hesab olunur, yaxud məsihçi imanı barəsində nəsə var ki, təqibçilər buna heç cür dözə bilmirlər.

2. **Siyasi** (Matta 10:17, 18; Mark 13:9; Həv. İş. 12:1,2; 17:5-7; 18:12ff; Vəhy). Məsihçilər mülki qayda-qanun üçün təhlükə hesab olunurlar, məsihçilər əsasən bir padşaha xidmət edir və dünyəvi hakimiyyətə və millətə hansısa sadiqliyi və ya şərtsiz vətənpərvərliyi göstərə bilməzlər. Ona görə də onlara satqın vətəndaşlar kimi baxırlar.

3. **Sosial** (Matta 10:36; Mark 13:12,13; Yəhya 1:11; 15:18-20; İbranilər; 1 Peter 2:5-8). Məsihi qəbul etmək ictimai və ailə normalarını rədd etmək kimi görünür.

4. **İqtisadi** (Həv. İş. 16:16-24; 19:23-41; Yaqub 2:6). Müjdənin yayılması uğur üçün və ya hətta hansısa xüsusi bir işin davamı üçün təhlükə hesab edilir.

5. **Emosional** (Həv. İş. 5:16-18; 17:5-7). Dini rəhbərlərin qısqanclığı, xüsusilə də məsihçiliyin artan təsiri və məşhurluğuna görə yaranan qısqanclığı Müjdənin təsirini və ya artımını dayandırmaq üçün məsihçilərə qarşı zorakılıq törətməyə səbəb olur.

Biz həm də təqibin nə olduğu barədə düzgün anlayışa malik olmalıyıq. Əfsus olsun ki, sözün qanuni və ya teoloji təyinini dünyada qəbul edilməyib. Qanuni təyini axtararkən Kanadada Şəhidlərin Səsi təşkilatı təqibi belə başa düşməkdə kömək edir, təqib elə bir vəziyyətdir ki, *məsihçi olmaqlarından irəli gələn və təqibçilərin dözə bilmədikləri fərqliliyə görə təkrarən, daimi və sistematik olaraq ağır, ciddi əzab ilə əziyyət və zərər çəkən və əsas insan hüquqlarından məhrum olan (və ya məhrum olunma ilə çox hədələnən) bir vəziyyətdir*. Elə vəziyyətlər var ki, onların təqib və ya ümumi əzab olduğunu təyin etmək çətin olanda belə sual vermək yaxşıdır: "Əgər insanın başqa dini imanları varsa və ya öz dinini ölkənin əsas dininə dəyişərsə, onun üçün daha yaxşı olarmı?" Əgər cavab bəlidirsə, onda belə görünür ki, bu təqibin baş verdiyi vəziyyət ola bilər.

Teoloji təyin asanlıqla meydana çıxmır. Çox vaxt "təqib" kimi tərcümə olunan ibrani sözü (Yeremya 29:18; Məzmur 71:11-13) "arxasınca düşmək və ya izinə düşmək" mənasını daşıyır. Əhdi-Cədiddə istifadə olunan bu söz, ***(dioko)*** və ondan alınan sözlərin (məs, Matta 5:12; Həv. İş. 22:4; 1 Salonik. 2:15) əsasən eyni mənası var, "izinə düşmək və ya çıxarmaq". ***(Qliyi)*** sözü isə digər tərəfdən "sıxışdırmaq və ya kədərləndirmək" mənası verir (Matta 24:9; Həv. İş. 3:14; 2 Kor. 1:5; 4:10). Hər iki söz ciddi zorakılıq,

təcavüz, düşmənçilik və ya təhlükə mənasını daşıyır. Zədələmək niyyəti var və düşmənçilik, barışmaz ruhda həyata keçirilir. Bromili başqalarından daha yaxşı olan təyini təklif edir: "Təqib səlahiyyətli şəxslərin, fərdlərin və ya izdihamların başqalarına göstərdiyi əqli, mənəvi və fiziki əzabı, yaxud təzyiqidir, bunu xüsusilə imandan dönmə, susma və ya son vasitə kimi edam etmə vasitəsilə özlərinə tabe etmək baxışı ilə fikirlərə və ya imanlara görə edirlər."

HƏVARİLƏRİN İŞLƏRİNDƏ TƏQİBİN TEOLOJİ TƏLİMLƏRİ

Luka kitabında olduğu kimi Kanninqam Həvarilərin İşlərində olan eyni teoloji mövzuların çoxunu görür.

1. **Təqib Allahın planının bir hissəsidir.** Şagirdlərin təqibi İsanın əvvəlcədən dediklərini yerinə yetirir. İsa əvvəlcədən dediyi kimi Stefan elə insanlar tərəfindən öldürüldü ki, o insanlar Allaha xidmət etdiklərinə inanırdılar (Luka 21:16; Yəhya 16:2-4). Paul *"İsanın adına görə padşahların və valilərin"* (Luka 21:12; Həv. İş. 26:30) qarşısına çıxır. Paul Efesdə məbəd rəhbərləri ilə danışarkən öz əzabına Allahın planında yer alan bir şey kimi baxır:

   İndi də Ruhun təkidi ilə Yerusəlimə gedirəm və orada başıma nə gələcəyini bilmirəm. Lakin Müqəddəs Ruh hər şəhərdə xəbərdarlıq edirdi ki, məni zəncirlər və əziyyətlər gözləyir. (Həv. İş. 20:22, 23)

   Paulun Allahın planında yaşamaqda davam etməsini qərara alması növbəti ayədə ifadə olunub: *"Öz canıma heç əhəmiyyət*

vermirəm, onu qiymətləndirmirəm. Mənə kifayətdir ki, yolumu – Rəbb İsanın mənə tapşırdığı kimi Allahın lütfünü göstərən Müjdəni şahadətetmə xidmətini başa çatdırım" (Həv. İş. 20:24). O, Romaya gedərkən gəmi qəzasında bu sözlər ilə ətrafındakıları ruhlandırırdı: *"Allaha inandığıma görə bilirəm ki, hər şey mənə deyilən kimi olacaq*" (27:25). Həv. İş. 14:22-də təqibdən sonra şagirdləri gücləndirir, *"şagirdləri ruhən möhkəmləndirdilər və imanda dönməz olsunlar deyə onları həvəsləndirərək dedilər: 'Allahın Padşahlığına çox əziyyətlərdən keçərək girməliyik.'"*

2. **Təqib Allahın vasitəçilərinin rədd olunmasıdır.** Həvarilərin İşlərində çox vaxt ən gərgin təqib Allahın xalqı olan yəhudilərin dini rəhbərlərindən gəlir. Allahın qasidlərinin rədd olunması Stefanın vəzinin əsas məğzidir. İsanı və Stefanı öldürməkdə yəhudilər atalarının ayaq izləri ilə gedirdilər (7:51). Paulun kitabın sonunda yəhudilərə dediyi son sözləri (28:26-28) əsasən Stefanın sözləri ilə eynidir – Allahın xalqı Onun qasidlərinə qarşı getməkdə davam edirdilər.

3. **Təqib olunan insan Allahın peyğəmbərləri ilə birlikdədir.** Təqib sübut edir ki, Müjdəni bəyan edən həvarilər və başqaları Allahın qasidləridir. Stefanı öldürməklə, Ali Şura Stefanın vəzinin əsas məğzini təsdiqləyərək onun İsrailin o biri peyğəmbərləri ilə birlikdə olduğunu bildirir.

4. **Təqib İsanın arxasınca getməyin mövcud nəticəsidir.** Luka özünün yazdığı Müjdədəki kimi şagirdlərin təqibini onların İsanın "mənim adım" ifadəsindən istifadə etməsi ilə əlaqələndirir. Şagirdlər İsanın "adını" bəyan edirlər, "onun adı ilə" vəftiz edirlər və "onun adı ilə" möcüzələr törədirlər və ona görə də yalnız bu düzgündür ki, onların təqiblərinə səbəbi göstərmək üçün bu ifadə istifadə olunmalıdır. Onlar İsa ilə ünsiyyətlərinə görə təqib olunurlar. Kanninqam qeyd edir: "O, münaqişənin əsas məğzidir və Onu təqdim etdikləri dərəcədə təqib olunacaqlar."

Məsihçilər hansısa cinayətdə təqsirkar olduqları üçün təqib olunmurlar. Roma rəhbərləri tərəfindən Paulun dəfələrlə təqsirsiz olduğu elan edilib (23:29; 25:25; 26:31). Şagirdlər iudaizmə dönüklük etmirlər. Əslində sadiq yəhudi olmaq və peyğəmbərlərin öyrətdiyi hər bir şeyə inanmaq dirilmiş İsaya inanmaqdır (24:14,15; 26:22,23). Paulun təqib olunmasına (və o cümlədən başqa bütün şagirdlər) səbəb onun dirilmiş Rəbbi bəyan etməsidir (23:6; 24:21; 26:6,7; 28:20).

5. **Təqib ilahi qələbə üçün şəraitdir.** İlahi paradoksun və aliliyin nümunəsində biz Lukanın Müjdəsində şahid oluruq ki, Məsihin Məbədi təkcə təqibə görə artmır, o hətta ona görə yayılır. Yerusəlimdə məbədin təqibi şagirdlərin səpələnməsi ilə nəticələnir və onlar başqa yerlərə getdikcə Müjdəni bölüşürlər. Paulun Filippidə həbs olunması və qanunsuz döyülməsi zindanın baş mühafizəçisini və onun ailəsini imana gətirir. Paulun təqibi çox vaxt onu hansısa başqa bir yerə aparırdı ki, İsanın xoş xəbərini bəyan etsin. Romaya gedəndə o müjdəçi kimi getmirdi (Roma. 15:23), məhbus kimi gedirdi. Allahın sözü onun "uğurlu uğursuzluğu" ilə yayılırdı.

Allahın qələbəsi həm də şagirdləri çətin sınaqlar zamanı saxlayan gücündə və dəyişilməyən vəziyyətlərdə itaətkar qalıb sevinmək bacarıqlarında görünür.

SON MÜŞAHİDƏLƏR (HƏVARİLƏR NƏYƏ GÖRƏ ƏZAB ÇƏKMƏYƏ VƏ ÖLMƏYƏ HAZIR İDİLƏR?)

Həvarilərin İşləri üzrə tədqiqimizi yekunlaşdırmazdan əvvəl üç son müşahidə həvarilərin Məsih və Onun Müjdəsi üçün əzab çəkməyə və ölməyə nəyə görə hazır olduqları sualına cavab verir:

1. **Onlar ali Allahı yaxşı anlayırdılar** (Həv. İş. 4). Ton qeyd

edir ki, şagirdlər "başa düşürdülər ki, başlarına nə gələcəyini və ya nə vaxt gələcəyini bilmək qasidlərin işi deyil. Onlar nə baş verməsindən asılı olmayaraq sadəcə Onun idarə etdiyi kimi Ruhun gücündə cəsarətlə şəhadətlik edir."

Həv. İş. 4:24-də həvarilərin duasında onlar Əhdi-Cədiddə özünəməxsus olan titul ilə Allaha müraciət edirlər: **Despota** sözünün mənası məhdudiyyətsiz rəhbər və ya "zalım" deməkdir. Bu termindən istifadə etməklə həvarilər əminliklərini etiraf edirdilər ki, Allah tarixin hadisələri üzərində tam idarəçiliyə malikdir və onlar əzablar ilə Onun məqsədlərini həyata keçirirdilər. Allah şəri dəyişdirərək dünya üçün olan xilas planını yerinə yetirir (Həv. İş. 4:27, 28). Allahın aliliyinə arxayın olan həvarilər bu şeylər üçün dua etdilər: a) vəz etmək üçün cəsarət və b) İsanın adının izzətlənməsi üçün əlamətlər və möcüzələr.

2. **Onlar Məsih uğrunda əzaba şərəf və hörmək kimi baxırdılar.** Həv. İş. 5:41-də biz oxuyuruq, *"Həvarilər bu ad uğrunda təhqirə layiq görüldükləri üçün sevinərək Ali Şuranın önündən ayrıldılar.*" Həv. İş. 16:22-25-də həvarilər həbsdə və qandallarda qamçılanmanın ağrılarını hiss edərkən Allahı izzətləndirdilər. Azadlığa buraxılanda hallarına acımaları üçün deyil, *"onları ruhlandırmaq*" üçün məbədə getdilər (16:40).

14:22-də az qala ölənədək daşlanan Paul şəhərə qayıdır ki, imanlıları ruhlandırsın, *"Şagirdləri ruhən möhkəmləndirdilər və imanda dönməz olsunlar deyə onları həvəsləndirərək dedilər: 'Allahın Padşahlığına çox əziyyətlərdən keçərək girməliyik'*."

Həvarilər qəbul etdilər ki, səyahətlərinin son izzətinə-səmavi padşahlığa nəzərlərini tuşladıqca əzab salehin taleyidir (2 Timotey 3:12; Sül. Məs. 29:10). "Çoxlu əziyyətlər" olan yolla Ona doğru getməkdə həmin bu izzətdir ki, yolu asanlaşdırır. Rixard Vurmbrand kommunist ölkəsi Rumıniyada öz on dörd

illik əziyyətləri və həbsi haqqında belə yazır:

> Kommunistlər özünü qoruma instinktinə əsaslanaraq düşünürdülər ki, ölümdən uzaqlaşmaq üçün hər bir şeyi edərlər. Onlar səhv düşünürdülər. Məbəddə nə dediklərinə inanan məsihçilər bilirdilər ki, ölmək həyatın sonu deyil, onun icrasıdır; ölüm deyil, əbədiyyət üçün vəddir.

3. **Onlar şəhidliyin izzətini tam anlayırdılar.** Stefanın şəhidliyi Lukanın Müjdəsində məsihçilərin bütün tarix boyunca təqlid etməsi və mübarizə aparması üçün nümunə kimi təsvir olunub. Ton Lukanın Stefanın şəhidliyi ilə Məsihin ölümü arasında uyğunluğu qəsdən necə göstərdiyini izah edir:

   - İsa "Allahın və bütün xalqın önündə əməldə və sözdə qüdrətli bir peyğəmbər idi." (Luka 24:19). "Lütf və qüvvə ilə dolu olan Stefan xalq arasında böyük xariqə və əlamətlər göstərirdi (Həv. İş. 6:8).

   - İsa Məbədə qarşı danışdığı üçün ittiham olundu. Buna oxşar olaraq, Stefan da "Müqəddəs məkana və Qanuna" qarşı danışdığı üçün ittiham olundu (Həv. İş. 6:13). İsanın vəziyyətində şahidlər ittihamların doğru olduğunu sübut edə bilmədilər, amma İsanın öz sözü ittiham üçün kifayət qədər sübut hesab olundu (Luka 22:67-71). Stefanın nitqi də eyni cür zorakı reaksiyanı yaratdı (Həv. İş. 7:54).

   - İsa baş kahinə dedi ki "bundan sonra isə Bəşər Oğlu qüdrətli Allahın sağında oturacaq" (Luka 22:69). Stefan "göylərin yarıldığını və Bəşər Oğlunun Allahın sağında dayandığını" gördü (Həv. İş. 7:56).

   - Onlar İsanı çarmıxa çəkəndə O onlar üçün dua etdi, "Ata, onları bağışla, çünki nə etdiklərini bilmirlər!" (Luka 23:34). Stefan da onu daşlayanlar üçün dua etdi: "Ya

Rəbb, bunu onlara günah sanma” (Həv. İş. 7:60).

- İsa ölməzdən qabaq dua etdi, “Ey Ata! Ruhumu sənin əlinə verirəm!” (Luka 23:46). Buna oxşar olaraq, Stefan dua etdi, “Ya Rəbb İsa, ruhumu qəbul et” (Həv. İş. 7:59).

Ton davam edir:

> Əzab və şəhidlik barədə keçdiyi təlimin bir hissəsi kimi İsa Öz şagirdlərinə öyrətmişdi ki, “şagird müəllimindən üstün deyil, amma tam təlim alandan sonra hər şagird öz müəllimi kimi olacaq.” (Luka 6:40). Aydındır ki, buna nəzərən Luka Stefanı “tam təlim almış” şagird kimi təqdim etmişdi.

Stefanın şəhidliyində o, təqibi passiv şəkildə qəbul edən biri kimi təsvir olunmayıb. O, axıra qədər təşəbbüs göstərir. O, cəsarətlə bəyan edir, İsanın Allahın sağ tərəfində dayandığına şəhadətlik edir, onu təqib edənləri bağışlayır və öz ruhunu Allaha tapşırır. O, təcavüzkardır, qurban deyil. Yəqin ki, o, şahidlərə uzunsürən təsir bağışlamışdı. Paltarlara nəzarət edən Şaul adlı dindar bir insana bu böyük təsir göstərmişdi.

4-CÜ FƏSİL

HƏVARİLƏRİN TƏLİMİ

PAUL

Biz Həvarilərin İşləri kitabında Paulun tövbədən dərhal sonra təqiblə üzləşdiyini gördüyümüz kimi onun imana gətirdiyi insanlar da üzləşdilər. Təqib sadəcə özünü həsr etmiş, yetkin imanlıların taleyi deyil; o həm də yerli məbədin ən zəif, ən cavan, ən qoca üzvlərinə eləcə də sütunlarına toxuna bilər.

Paulun təqib teologiyası çoxtərəflidir, haqqında danışdığı vəziyyətdən asılı olaraq mövzunun müxtəlif cəhətlərini vurğulayır. Amma onun bütün məktublarında aydın görünən bir xətt izlənir.

1 və 2-ci Saloniklilər


1 Saloniklilər

Saloniklilərə yazılan məktublar ümumiyyətlə, Paulun birinci yazıları hesab olunur. Paul və birinci məsihçilərdən bəziləri Salonikdə təqibdən əzab çəkmişdilər (Həv. İş. 17:1-9), onun buradakı imanlılara yazarkən təqibi xatırlatması təəccüblü deyil.

1 Salonik. 1:6,7-də o yazır ki, saloniklilər *"böyük əziyyət içində Müqəddəs Ruhun verdiyi sevinclə kəlamı qəbul edib bizdən və Rəbdən nümunə götürdünüz. Beləliklə, siz Makedoniya və Axayyadakı bütün imanlılar üçün nümunə oldunuz."*

Paul saloniklilərə özünü və Məsihi təqlid etməyi deyəndə onların əziyyətlərindən danışır. İsa çarmıxda Müjdəni təmin etmək uğrunda, Paul da Müjdəni yaymaq uğrunda əzab çəkdiyi kimi

eləcə də saloniklilər Müjdəni qəbul etmək və başqalarına yaymaq uğrunda əzab çəkdilər (8-ci ayə). Müjdəçilik səyinin bütün cəhətləri təqibin məzmununda həyata keçir:



2-ci fəsildə Paul bu mövzunu saloniklilər üçün təkrarlayır, o yazır ki, onlar Yəhudeyadakı məbədləri təqlid edənlərə çevriliblər, çünki onlar yəhudi məbədləri kimi öz həmvətənlərinin əlində əzab çəkiblər (2:14). Məbədin sadiq şəhadətliyi onu razı salsa da, aydındır ki, Paul onların sadiqliklərinin labüd olduğuna heç də əmin deyildi. Paul onlardan "məhrum olduğunu" yazır (2:17). O, Salonikdəki məbəddən qəfil və vaxtsız ayrılığına görə özünü pis hiss edir. O, məbəddən ayrılarkən onun vəziyyəti haqqında düşünəndə onun həm ümidverici, həm də təcrübəsiz olduğunu gördü. O onların möhkəm dayanacaqlarına arxayın olmazdan qabaq onlardan ayrıldı. Üstündən bir müddət keçdikdən sonra Paula xəbərlər gəlib çatırdı ki, onlar imanlarına görə əzab çəkirlər (2:14), amma onların belə düşmənçilik şəraitində necə yaşadıqları barədə heç nə bilmirdi. O, 2:18-də yazır ki, dəfələrlə onlara baş çəkməyə səy göstərmiş, amma "şeytan ona mane olmuşdu".

U. M. Ramsey qeyd edir ki, bu şeytani fəaliyyət Həv. İş. 17:9-da görünür, şəhərin başçıları Yasondan və başqa imanlılardan tələb edirdilər ki, çaxnaşma salan Paul şəhəri tərk etsin və bir daha geri qayıtmasın. Əgər Paul qayıtsaydı, o, Yason və məbədin qalan üzvləri üçün çoxlu problemlər yaradardı. Bu qadağanı aradan qaldırmaq səylərinin uğursuz olduğu görünür.

> Bu bacarıqlı vasitə Paul və saloniklilər arasında keçilməz bir uçurumu qoydu. Şəhər başçıları belə münasibətdə qaldığına görə o geriyə qayıda bilməzdi: o köməksiz idi və şeytanın gücü var idi. Onun yeganə ümidi şəhər başçılarının

qaydalarının dəyişilməsində idi. Onlar bu səlahiyyətdə çox davam edə bilməzdilər; və yəqin ki, onların xələfləri başqa cür hərəkət edəcəkdi. Rəhbərlikdə olan insanlar sübhəsiz düşünürdülər ki, onlar bu vəziyyəti yüngülcə, amma effektli surətdə yoluna qoydular; onlar heç bir insanı cəzalandırmadan bu məhkəmə işindən azad oldular.

Əgər bu şərh düzgündürsə, bu Əhdi-Cədidin başqa ayələrinə uyğundur. Yəni, Allahın Müjdəsinə qarşı çıxan rəhbərlər şeytan tərəfindən idarə olunub.

Belə çıxılmaz vəziyyətdə Paulun saloniklilər üçün narahatçılığı fikrindən heç cür çıxmırdı. Nəhayət, o artıq dözməyəndə qərara gəldi ki, özü Salonikə gedə bilmədiyi üçün Timotey oraya göndərsin, *"... Timoteyi sizi imanda möhkəmləndirmək və ruhlandırmaq üçün göndərdik. Belə ki qoy bu əziyyətlərdən heç kim sarsılmasın"* (3:2,3). Paul aydındır ki, onun xəbərdarlığına diqqət yetirib-yetirmədiklərini və möhkəm qalıb-qalmadıqlarını bilmək istəyirdi. O onlarla birlikdə olanda dəfələrlə onlara xəbərdarlıq etmişdi ki, imanlarına görə əzab çəkəcəklər. Əslində o onlara demişdi ki, onlar əzab çəkmək üçün "təyin olunublar" (3:3) və bu da onların başlarına gəlmişdi (3:4).

Seçilmə və qabaqcadan təyin edilmə

Bir çox məsihçilər tarixən ziddiyyətli təbiətlərinə görə seçilmə və qabaqcadan təyin edilmə barədə təlimləri müzakirə etməkdən qaçırlar. Mən çox vaxt kobud sözlər, anlaşılmazlıqlar və kədərlidir ki, bəzi hallarda ələ salınmalar ilə bitən bu ziddiyyətdən qaçmağı anlayıram. Amma bu bizi Kəlamdakı təlimlərə baxmaqdan və onları anlamağa çalışmaqdan saxlamamalıdır. Xüsusilə, Allahın qasidinin üzləşdiyi Müjdəyə qarşı müqavimətdən danışarkən bütün başqa təlimlər kimi bu iki mövzunun da imanlının həyatı üçün əhəmiyyətli tətbiqləri var.

Mən bilirəm ki, növbəti səhifələrdə danışacağım fikirlər ilə heç də hamı razılaşmayacaq. Bu təlimləri tamlığı ilə müzakirə etmək bu tədqiqin çevrəsindən kənardır. Bu mövzu barədə kitablar yazılıb.

Məsələn, Karl Barz təkcə seçilmə mövzusu barədə kiçik əlyazma olan 507 səhifədən ibarət kitab yazıb. Amma mən inanıram ki, bu tədqiqdə nəyə görə bu məsələlərə toxunduğum aydın olacaq.

Mənim fikrimcə "seçilmə" və "qabaqcadan təyin edilmə" aşağıdakı kimi təyin edilməlidir:

- *Seçilmə* Allahın *seçimidir,* burada O müəyyən cavabdehliklər və imtiyazlar ilə *kimlərə* etibar edəcəyini Özü təyin edir. Seçilmənin diqqət mərkəzi Allahın seçdiyi *insanlardır*, onlar Onun məqsədlərini həyata keçirmək üçün alətlərdir. Amma seçilmə titul və ya vəzifə deyil. Seçilmə xüsusi məqsəd üçün seçilir. Seçilmə imtiyaz və cavabdehlik üçündür.

- Qabaqcadan təyin edilmə isə digər tərəfdən Allahın *planıdır*, burada O, məqsədlərini yerinə yetirmək üçün övladlarının *hansı* imtiyazlardan və cavabdehliklərdən zövq alacağını və həyata keçirəcəyini və onu *necə* edəcəklərini Özü təyin edir; O onlar üçün nə edəcəyini və onların nə edəcəklərini və nə olacaqlarını O təyin edir. Qabaqcadan təyin edilmənin diqqət mərkəzi Allahın *planında* və *məqsədindədir*. Vurğu qabaqcadan təyin edilmiş insanlar üzərində deyil, seçilmənin nə üçün qabaqcadan təyin edilməsindədir.

Allah dünya yaranmazdan qabaq görmüşdü ki, müəyyən fərdlər Məsihi qəbul edəcəklər (Roma. 8:29). O qərara gəlmişdi (qabaqcadan təyin etmişdi) ki, Onu qəbul edənlər müəyyən cavabdehliklərdən və imtiyazlardan zövq alsınlar; onlar Onun Oğlunun surətinə uyğunlaşsınlar (Roma. 8:29) və Onun məqsədlərini yerinə yetirməkdə Oğlu ilə birləşməyin cavabdehlikləri və imtiyazları verilsin (Efes. 1:3,10). Onlar müqəddəs və nöqsansız olmaq üçün *seçilmişdilər* (Efes. 1:4) və Onun ailəsinin üzvləri olmaq (Efes. 1:5) və irs almaq üçün (Efes. 1:11) *qabaqcadan təyin edilmişdilər*.

Seçilmənin və qabaqcadan təyin edilmənin fərdi xilas olmadığı, *Məsihdə* olanlara aid olduğu fikri mənim öz nöqteyi-nəzərimdir.

İmanlılar yalnız Onda olduqları üçün seçiliblər. Q. MakDonald yazır, "Heç kim öz-özü üçün, yəni Məsihdən kənarda və ya məbədə birləşmədən kənarda seçilməyib". Seçilmə əsasən fərdlər ilə deyil, sinif və ya qrup kimi olan imanlılar ilə işdir. Biz təcrid olunmuş fərdlər kimi seçilməmişik, Onun məqsədlərini dünyada yerinə yetirmək üçün Məsihin Bədəninin üzvü olaraq seçilmişik. Əslində biz hansı tapşırıqlar üçün seçilmişiksə, onları həyata keçirməkdən imtina edə bilərik. Peter həm də öz oxucularından xahiş edir, "ey qardaşlar, çağırıldığınızı və seçildiyinizi təsdiq etmək üçün daha da səy göstərin" (2 Peter 1:10). Onlar Məsihdə olan mövqelərinə uyğun olaraq müqəddəs xasiyyəti nümayiş etdirməlidirlər (1:5-9).

Tarixi nöqteyi-nəzərdən Məbədin seçilməsi əslində İsrailin seçilməsindən qabaq baş verib, Məbəd dünyanın yaranmasından qabaq Məsihdə seçilmişdi. İsrail Allahın məqsədlərini yerinə yetirmək üçün İbrahimdə müvəqqəti seçilmişdi. MakDonald izah edir: "Amma bu Məbədi İsrailə qarşı qoymur, çünki İbrahimin bütün həqiqi övladları bu imana malikdirlər, ona verilən vədi irs alıblar və ona görə də indi Məsihə məxsusdurlar (Qal. 3:29). Buna əsas olaraq, "iman edənlər (kimlər olursa olsun, yəni bütpərəstlər) İbrahimin övladlarıdır" (Qal. 3:7).

Allah dünyanın yaranmasından qabaq "Məsihə bənzər" olanlar üçün Məbəd planlaşdırmışdı və bu plan nə vaxtsa gizli olsa da, artıq sirr deyil, İsa Məsihin Müjdəsində tamlığı ilə aşkar olunub (Efes. 1:9; 3:7-12). İsrailin bütpərəstlərə nur olmaq çağırışı (Yeşaya 49:6; Həv. İş. 13:47) hələ də Məsihin çarmıxa çəkildiyi vaxtdan həyata keçməsini gözləyir. Dünya yaranmazdan qabaq Allah Özünü bəşəriyyətin Xilaskarı olmaq üçün təyin etmişdi və qərara gəlmişdi ki, Onun işini qəbul edənləri seçsin və onlar da öz növbəsində Onun xeyir-duasını hər bir kəsə çatdırsınlar. Onun bütün xalqlar üçün olan planı heç vaxt dəyişməyib (Yaradılış 12:3). Dünyanın yaranmasından əvvəl Allahın planı İsrailin vasitəsilə vaxtında və yerində öz yerini tutdu, Məsihdə aşkarlandı və icra olundu. O, göylərə qalxdıqdan sonra Allahın planına əsasən Müjdə bütün xalqlara yayıldı və Allahın seçilmiş xalqının – Məsihə etibar edənlərin kimlər olduğu aydın oldu. Bu xoş xəbərdir və Allahın bütün xalqlar üçün sirrini aşkar edir, bu sirrə əsasən O bütün

xalqları seçilmiş xalqı etmək istəyir. Seçilmişlərə dünyanın hər bir yerində bu xəbəri bölüşmək tapşırılıb. İsa demişdi ki, O, həvariləri ona görə seçib ki, bəhrə gətirən qasidlər (Yəhya 15:16) olub başqalarının da xilas olması üçün şahidlər olsunlar.

İsa Məsihin ölümü ilə yaranmış bu xeyir-duanı onlar bu xalqlara çatdırdıqca seçilmiş xalq Onun izləri ilə gedir və Onunla birlikdə əzab çəkir. Kəlamda heç bir yerdə heç vaxt Məsih və Onun xalqı arasında ayrılıq olmayıb. Ona görə də Paul deyir ki, Məsih kimi biz də Müjdə uğrunda əzab çəkmək üçün təyin edilmişik (1 Salonik. 3:3,4). Bu, Allahın əvvəlcədən təyin etdiyi planının bir hissəsidir. Allahın insan üçün olan taleyi yalnız Məsihdə həyata keçirilə bilər. Allah bilirdi ki, insanın xilası üçün ödəniş Onun Oğlunun ölümü ilə ola bilər və həm də bilirdi ki, bu xeyir-duanın xalqlara çatdırılması Onun övladlığa götürdüyü oğulların və qızların ölümü ilə ola bilər. Amma Allah öz müdrikliyində bilirdi ki, dünyanın xilas olması və bütün xalqların Onunla barışması üçün bu yeganə yoldur.

Paul saloniklilərə bu həqiqəti onlara ilk təlim keçdiyi vaxtlardan xəbərdarlıq etmişdi. Onlar indi Paulun xəbərdarlıq etdiyi həqiqəti sınaqdan keçirirdilər. İndi Paul onlara bunu daha xəbərdar etməli deyildi. Onlar bilirdilər ki, Məsihə iman edənlər Onun uğrunda Onunla əzab çəkməyə təyin ***(keimpeqa)*** olunublar. Əgər Allah Öz xalqını Hökm günü xilas əldə etmək üçün təyin edibsə ***(eqeto)*** (1 Salonik. 5:9, 1:10), eynilə də indiki fani həyatda əziyyətlərə dözməyə təyin olunublar.

1 Salonik. 3:7,8-də Paul demişdi ki, təqib zamanı saloniklilər tərəfindən nümayiş olunan iman və dözüm əslində onu əziyyətlərinin və təqiblərinin içərisində ruhlandırmışdı. Onların möhkəm qalmaları faktı Paulu və yoldaşlarını inandırmışdı ki, Allah həqiqətən onları Makedoniyaya aparır (Həv. İş. 16:10). 1 Kor. 2:3-də biz öyrənirik ki, Paul əslində Korinfə *"böyük zəiflik, qorxu və lərzə içərisində"* gəlmişdi. Yəqin ki, onun və yoldaşlarının Makedoniya şəhərlərində qarşılaşdığı düşmənçilik onu ruhdan salmışdı. İndi onlar Timoteydən Makedoniyada Müjdənin kök saldığı barədə məlumat əldə edəndə Allahın onlar vasitəsilə və onlarda işləyən gücünə böyük arxayınlıq qazandılar. Onlar bilirdilər ki, saloniklileri gücləndirən Allahı həm də onlarladır.

2 Saloniklilər

Birinci məktubundan bir neçə ay sonra Paul yenidən saloniklilərə yazır. O, başqalarına onların imanları və dözümləri barədə necə danışdığından yazır, o istəyirdi ki, həmin imanlılar da onların şəhadətlikləri ilə ruhlansınlar (Paul özü də bir az əvvəl ruhlanmışdı). 2 Salonik. 1:4-də Paul saloniklilərə görə fəxr etdiyindən yazır, *"tab gətirdiyiniz bütün təqiblərə, əziyyətlər zamanı dözümünüzə və imanınıza görə Allahın cəmiyyətlərində sizinlə özümüz də fəxr edirik*."

5-ci ayədə Paul deyir, *"bu şeylər Allahın ədalətli hökmünün əlamətidir ki, nəticədə uğrunda indi əzab çəkdiyiniz Allahın Padşahlığına layiq sayılasınız*." Paul deyir ki, təqibdən əzab çəkmək imanlarının həqiqiliyinə işarədir. Onların təqib zamanı möhkəm dayanmaqları Allahın padşahlığına layiq olmalarına işarədir. Bu göstərir ki, Allah gələcəkdə onlara daha böyük cavabdehliklər həvalə edə bilər. 11 və 12-ci ayələrdə Paul deyir ki, o həmişə dua edir ki, *"Allahımız sizi Öz çağırışına layiq görsün, hər yaxşı niyyətinizi və imandan asılı hər əməlinizi Öz qüdrəti ilə yerinə yetirsin. Belə ki Allahımızın və Rəbb İsa Məsihin lütfünə görə Rəbbimiz İsanın adı sizdə izzət qazansın və siz də Onda izzət qazanasınız*." Paul dua edir ki, Allah Öz lütfü və qüdrəti vasitəsilə saloniklilərı əziyyətləri vasitəsilə daxildən dəyişdirsin və kömək etsin və onlar da öz imanlarını Allahın izzətinə tətbiq edə bilsinlər ki, Onun çağırışına layiq olsunlar və çağırıldıqları məqsədləri həyata keçirməyə hazır olsunlar.

Göylərdə mükafatlar

Məsihin ikinci gəlişi həm 1, həm də 2-ci Saloniklilərdə əsas mövzudur. Paulun saloniklilər üçün əsas narahatçılığı onların Rəbbin gəlişində hansı vəziyyətdə olmalarıdır. O arxayın olmaq istəyir ki, onlar layiqdirlər və Paul bilir ki, təqibin nəticələrindən biri də budur ki, təqib onların layiq olmalarına imkan verir.

Biz əzablar, sövq olunmalar və sınaqlardan keçdikcə nümayiş etdiririk ki, Allah bizə göylərdə daha böyük vəzifələr və ya

cavabdehliklər həvalə edəcək. Bu bizim nə cür insan olduğumuzu nümayiş etdirir. Bizi layiq görüblər.

Məncə Müqəddəs Kitabın mətni aydın göstərir ki, heç də bütün imanlılar göylərdə eyni izzəti əldə etməyəcək. İsanın və həvarilərin təlimi budur ki, insanın cavabdehlikləri və imtiyazları onun təqiblə, sınaqlarla və onu Allahdan uzaqlaşdırmaq üçün nəzərdə tutulan təzyiqlərlə üzləşdiyi vaxtlarda nümayiş etdirdiyi dözüm və iman ilə təyin olunacaq.

Cozef Ton iki ssenarini təklif edir:

> Problemi başqa cür ifadə etmək üçün gəlin belə güman edək ki, Amerikada iki tərbiyəli cavan məsihçi var. Onlardan biri Amazon cəngəlliklərində yaşayan insanların vəziyyətinə görə narahatdır və qərara gəlir ki, oraya müjdəçi kimi getsin. O bir qəbilə tapır, onlarla şəraitsiz yerlərdə yaşayır, dillərini öyrənir, onların dilinə Kəlamı tərcümə edir, Məsihlə onları tanış edir və onları yeni həyata qovuşdurur. O biri cavan başqaları barədə düşünmür. O, var-dövlətini özü üçün yığır, rahat və asan həyatı yaşayır.
>
> Bəli, o məbədə gedir və ondabirini verir, amma o, məsihçi olmağın əsl mənasında özünü məhdudlaşdırır. Onda sual belədir: Bu insanlar göylərə gedəndə onların əbədi həyatında fərq olacaqmı?
>
> Biz başqa bir vəziyyətə də baxa bilərik: güman edək ki, məsihçiliyin dəhşətli dərəcədə təqib olunduğu ölkədə iki məsihçi qadın var. Onlardan biri məsihçiliyini gizli saxlayır, ona görə də bir neçə insan onun məsihçi olduğunu bilir. O biri qadın isə nur saçır və bir çoxları onun şəhadətliyi ilə imana gəliblər. Nəticədə o təqib olunur, sonra həbs olunur, işgəncələrə məruz qalır və öldürülür. Mənim sualım belədir: Bu iki qadın göylərə gedəndə onların əbədi mükafatlarında fərq olacaqmı?

Ton fərqin olacağını söyləyir. Hər ikisi xilas olacaq, amma biri daha böyük vəzifə və cavabdehlikər əldə edəcək. Bu fikri təsdiqləmək üçün əsas Kəlamın təlimində var, belə ki imanlılar

həqiqətən Məsihin davamçıları kimi yer üzündə etdikləri əməllərin nəticələrini biçəcəklər. Az şeylərdə sadiq olmayanlara gələcəkdə də az veriləcək. Az şeylərdə sadiq olanlara isə daha da çox veriləcək. Məsələ işlərdə deyil; bu, Allahın lütfünə cavab verdiyimizə və Onun həyatlarımızda işləməsinə icazə verdiyimizə görədir.

Amma mirasları üçün Rəbbin gəlişini gözləyən təkcə imanlılar deyillər. Paul saloniklilərə xatırladır ki, onların əzablarına cavabdeh olanlar da mükafat əldə edəcəklər. 2 Salonik. 1:6-10-da yazılır:

> *Çünki Allahın hüzurunda haqq olan işdir ki, sizə əziyyət verənlərə əziyyət, əziyyət çəkən sizlərə isə bunun əvəzində bizimlə birlikdə rahatlıq veriləcək. Bu, Rəbb İsanın qüdrətli mələkləri ilə od-alov içərisində göydən zühur etdiyi zaman olacaq. O zaman Rəbbimiz İsa Allahı tanımayanlardan və Özü barədə olan Müjdəyə itaət etməyənlərdən qisas alacaq. Onlara Rəbbin hüzurundan və qüdrətinin izzətindən məhrum qalıb əbədi olaraq məhv edilmə cəzası veriləcək. Bunlar Rəbbin Öz müqəddəsləri arasında izzət qazanmaq və bütün imanlıları heyrətə gətirmək üçün gəldiyi gün baş verəcək.*

Əziyyətlərlə üzləşənlər üçün rahatlıq vədi ola bilsin ki, burada və indi əldə olunmasın, amma gələcəkdə mütləq əldə olunacaq. Biz bu həyatdakı təqibdən rahatlığı nəzərimizdə saxlaya bilmərik, amma biz əmin ola bilərik ki, əzablarımız mənasız deyil, həqiqətə görə ədalətsiz əzab da cavabsız qalmayacaq. Ədalət tərəzisi əvvəl-axır tarazlaşacaq. Həyat əbədiyyətin bu tərəfində məna verməyəcək, amma bir gün məna verəcək. Biz əbədiyyətin nurunda yaşamalıyıq.

Bu müddət ərzində bizim məsihçi kimi çağırışımız *əgər* və ya *nəyə görə* əzab çəkəcəyimiz barədə deyil, necə əzab çəkəcəyimiz barədə narahat olmaqdır. Biz əzabın Allahın əlində alət olmasına icazə verəcəyikmi ki, bizi əbədiyyət üçün təchiz etsin, yoxsa biz indi əbədiyyətin mükafatlarını tələb edəcəyik və sonda heç nə əldə etməyəcəyik?

Bizim üçün dua edin

Paul 2 Saloniklilərə məktubu onun üçün dua etmək xahişi ilə yekunlaşdırır (3:1-5):

> *Nəhayət, qardaşlar, bizim üçün dua edin ki, Rəbbin kəlamı aranızda olduğu kimi sürətlə yayılıb izzət qazansın, pis və şər adamlardan xilas olaq. Çünki iman hamıya məxsus deyil. Amma Rəbb etibarlıdır. O sizi möhkəmləndirib şər olandan qoruyacaq.*

O, Makedoniyada olan dostlarına deyir, "Mən məktubumu tamamlayıram." "Amma yekunlaşdırmazdan qabaq mən bir şeyi vurğulamaq istəyirəm. Mən sizə Rəbb üçün işinizdə kömək edəcək təlimlər vermişəm, amma indi sizdən kömək istəyirəm. Bizim üçün dua edin."

Paul bilir ki, onun xahişi sadəcə bayağılıq deyil, çünki o ruhani səslənir. O bilir ki, dua böyük şeydir.

Bu məlumdur ki, nə ediriksə edək, əgər Allah onda yoxdursa, bizim zəhmətimiz artıq Onun lütfünə cavab deyil, Onun işini öz gücümüzlə etmək cəhdimizi nümayiş etdirməkdir.

Allahın işi Allahın istədiyi tərzdə Allahın gücü ilə Allahın izzəti üçün edilməlidir. Əgər bizim itaətkarlıq hərəkətlərimiz, yəni vermək, getmək, yazmaq və Rəbbə, eləcə də Onun təqib olunmuş məbədinə başqa hər hansı cür xidmətimiz dua ilə başlanıb dəstəklənmirsə, onda mənə elə gəlir ki, biz özünə güvənmədə təqsirliyik. Biz güman edirik ki, "nəsə etməli" olan bizik, amma başa düşmürük ki, başlanğıcdan sona qədər bu Onun işidir və biz sadəcə Onun həyatını dünyada nümayiş etdirənlərik.

Paul deyir, *"bizim üçün dua edin*." Sonra o iki şeyi xatırladır ki, dostları onlar üçün dua etsinlər. Birinci *"dua edin ki, Rəbbin kəlamı aranızda olduğu kimi sürətlə yayılıb izzət qazansın*." Yəqin ki, bunu yazarkən Paulun fikrində Məzmur 147:15-in sözləri olmuşdu: *"(Rəbb) Kəlamını yer üzünə yollar, Onun sözü tez yayılar*."

Paul çox vaxt öz müjdəçilik fəaliyyətlərinə "hərəkət edən, yayılan" kimi müraciət edir, burada isə hərəkət edən, yayılan

qasid deyil, Müjdədir. Allah əlbəttə, Öz işini həyata keçirmək və Kəlamını yaymaq üçün qadınlardan və kişilərdən istifadə edir, amma Paul burada etiraf edir ki, hər şeyin səbəbkarı Allahdır. Vacib olan qasid deyil, Onun Kəlamı, Müjdəsidir. Ürəkləri əridən, qulaqları açan və həyatları dəyişdirən Onun Kəlamıdır. Ona görə də Paul xahiş edir ki, qasid yox, Müjdə sürətlə yayılsın.

Paulun Saloniklilərə məktubda dua etmək üçün xahiş etdiyi ikinci şey 2-ci ayədədir: *"...dua edin ki, pis və şər adamlardan xilas olaq*." Paul bilir ki, təqib və Allahın Kəlamı əhəmiyyətli dərəcədə bir-biriləri ilə əlaqəlidirlər. O bilir ki, Allahın Kəlamı yayılan yerdə insanlar Müjdəyə və qasidə qarşı durmaq istəyirlər. *"Çünki iman hamıya məxsus deyil*" (3:2).

Hələ də həvari arxayındır ki, Allah sadiqdir (3:3) və O *"sizi möhkəmləndirib şər olandan qoruyacaq*." 1 Salonik. 2:18; 3:5 və 2 Salonik. 2:9-da Paul şeytanın Allahın qasidlərinə qarşı olan hərəkətini xatırladır. Bu ayənin vəd olduğunu demək, təqibdən əzab çəkməyəcəklərinə saloniklilər əmin etmək məktubun qalan hissələrinə zidd ola bilər. Burada belə fikrə gəlmək olar ki, Allahın şeytanın gücündən müdafiəsi təqibdən müdafiəni daxil etməyə bilər. 3-cü ayənin təzyiqi imanlılar günaha və ya itaətsizliyə (yəqin ki, qarşıdurma zamanı) düşməyə sövq olunarkən Allahın onları möhkəmləndirmək və müdafiə etmək anlayışına doğru işarədir. Vəd budur ki, Allah onların ürəklərini İsanın məhəbbətinə və dözümünə doğru idarə edərkən Allah onları müdafiə edəcək (3:5).

1 və 2-ci Korinflilər

Birinci əsrdə Korinf gözəl yer idi. Paytaxt liman şəhəri olan Korinf intellektual cəhətdən ayıq, maddi cəhətdən çiçəklənən, fərqli mədəniyyətlərə və dini müxtəlifliklərə məxsus olan bir şəhər idi. Fərdilik olduqca yüksək qiymətləndirilirdi və güclü tərzdə müdafiə olunurdu. Bu nisbətən yeni şəhər idi, b. e. əvvəl 44-cü ildə Roma müstəmləkəsi kimi tapılmışdı, bir əsr əvvəl köhnə Korinf şəhəri zəlzələdə tamamilə dağılmışdı. Stendalın təsvir etdiyi kimi birinci əsrdə Korinf şəhəri böyük və qarışıq şəhər idi, nə qədər çoxlu

problemləri olsa da, heç vaxt darıxdırıcı deyildi. Bu vəziyyət həm də Məbəddə var idi.

Mənim fikrimcə 1 və 2-ci Korinflilərə məktublar Paulun təqib teologiyasını başa düşmək üçün əsas prinsipdir. Paulun korinflilər ilə ünsiyyəti çətin idi. Onun onlara məktubları çox şəxsi idi. Paul Korinfdə təqribən on səkkiz ay qalmışdı (bu onun bir yerdə qalması üçün olduqca uzun müddət idi). Onun oradakı vaxtı sülhdə və sakitlikdə keçmişdi. Korinfdəki yəhudilər Müjdəni rədd edəndə və Paul diqqətini yenidən bütpərəstlərə yönəldəndə onlar öz soydaşlarının başqa şəhərlərdə etdiyi kimi üsyan qaldırmadılar. Həv. İş. 18:12-18-də olan yeganə təqib halı o biri təqib hallarından çox zəif idi, belə ki Paul hətta başqalarının təhlükəsizliyinə görə çıxıb getməyi hiss etməmişdi. Biz oxuyuruq ki, *"Paul Korinfdə olan imanlı bacı-qardaşların yanında xeyli gün qaldı"* (Həv. İş. 18:19). 2 Kor. 1:6 korinflilərin əzaba səbirlə dözdüklərini söyləsə də, mənə elə gəlir ki, Korinfdəki imanlıların üzləşdiyi təqib o biri yerlərə nisbətdə olduqca az idi. Yəqin ki, bu müxtəlif mədəniyyətli şəhərə görə idi, dindar qəzəbli izdihamların təşkil olunmasına imkan yaratmırdı. Fi həm də qeyd edir ki, korinf cəmiyyətində bəzi yəhudilər olsa da, Paul məbədə yazdığı məktublarında yəhudi kökü haqqında az qeyd edir. Təzə imana gələnlərin əksəriyyətinin bütpərəstlər olduğuna görə yəhudi dini rəhbərləri (bu rəhbərlərin soydaşları başqa şəhərlərdə Paula qarşı durmağa təhrik etmişdilər) düşünmüşdülər ki, Paul onlar üçün az təhlükə daşıyır. Ya da Korinfdə olan yəhudilərin sayı təsirli müqavimət yaratmaq üçün kifayət etmirdi. Səbəb hər nə olsa da, orada məbəd az müqavimət ilə qurulmuşdu.

Çox güman ki, Müjdəyə və onun qasidlərinə qarşı olan müqavimətin azlığına görə korinfli məsihçilər İsanın davamçılarının həyatında əzabın və təqibin rolunu anlamaqda çətinlik çəkirdilər. Saloniklilərdən fərqli olaraq onlar Müjdəyə görə əzab çəkməmişdilər və əksər insanlar kimi onlar da güman edirdilər ki, yaşadıqları vəziyyət hər yerdə bütün məsihçilər üçün normal bir şeydir.

Paul Korinfdən çıxdıqdan sonra Paula hörmət etməyən başqa vəz edənlər və müəllimlər ya şəhərə gəlmişdilər, ya da elə özlərinin içərisindən çıxmışdılar. Başqa şeylərlə yanaşı onlar deyirdilər ki,

Paulun əzabı sübut edir ki, o, Allahın həqiqi həvarisi və ya qasidi deyil. Onların fikrincə Allahın işi zəiflikdə və əzabda deyil, güc və qüdrətdə həyata keçmişdi.

Korinflilər üçün Paul öz əzablarını elə şərh etməli idi ki, onlar başa düşsünlər ki, Allahın çarmıx metodologiyası həm də bizim metodologiyamız olmalıdır. Allah ən böyük qələbələrini güc və qüvvənin nümayişində deyil, zəiflikdə qazanır.

1 Korinflilər

Korinflilərə 1-ci məktubun ilk fəsilləri Paul ilə korinflilər arasında olan gərginliyin çox hissəsini aşkara çıxarır, burada Paul Allahın metodları ilə dünyanın metodları arasında ziddiyyəti göstərir. Korinflilər başa düşmürdülər ki, bu iki şey arasında zidd fərqlər mövcuddur.

Paul 1:17-də öz xidmətini bu sözlər ilə təqdim edir, *"Axı Məsih məni vəftiz etməyə deyil, Müjdəni yaymağa göndərdi. Məsihin çarmıxı boşa çıxmasın deyə Müjdəni müdrik sözlərlə yaymıram*." 1:18-2:16-da uzun təfsilatlardan sonra mənə elə gəlir ki, həm məna, həm də forma baxımından *"müdrik sözlər*" korinflilər üçün vacib idi. Növbəti ayələrdə Paul dünyanın *"insan müdrikliyini*" çarmıxın ilahi müdrikliyi ilə qarşı-qarşıya qoyur. Paulun 2:1-5-də dediyi sözlərdən aydındır ki, o, korinflilərin xoşladıqları yunan fəlsəfi, ritorik ənənəsi ilə səciyyələnən insan müdrikliyinə görə narahatdır. Belə ənənə məna üzərində formanı vurğulayır, dinləyicilərin ürəklərini dəyişmək üçün Ruha arxayın olmağı deyil, insanın qabiliyyətinə arxayınlığı vurğulayır.

Korinflilərə 1-ci məktubda Paul onların yanına müdrik sözlər və ya qeyri-adi hikmətlə gəlmədiyini söyləyir, *"çünki mən aranızda olanda İsa Məsihdən, yəni çarmıxa çəkilmiş Şəxsdən başqa heç bir şey bilməməyi qərara aldım. Yanınıza zəiflik, qorxu və böyük lərzə içində gəldim. Mənim sözüm də, vəzim də müdrikliyin inandırıcı sözlərindən deyil, Ruhun qüdrətini göstərməsindən asılı idi. Belə ki imanınız insan müdrikliyinə yox, Allahın qüdrətinə əsaslansın*" (2:2-5). Bu səbəbdən də parça Paulun 1:18-də dediyi sözlərə yenidən qayıdır, belə ki çarmıxın müdrikliyi

və qüdrəti insanlar üçün (və xüsusilə korinflilər üçün) ağılsızlıq və zəiflik kimi görünür. İsa Allahın planını çarmıxın zəifliyi və ağılsızlığı ilə nümayiş etdirdiyi kimi Paul da Məsihin xidmətçisi kimi zəiflik və ağılsızlıqda Müjdəni və metodologiyanı yayır.

Paul öz dövrünün təsirli və cəlbedici hesab etdiyi metodologiyanı qəbul etməkdən imtina edir. Məna üzərində bəlağətlilik və üslub axtaran, eləcə də inandırmaq üçün emosional baxımdan müvəqətti güc ilə yüklənən yunan müdrikliyinə zidd olaraq, Paul "qalaları dağıdan" (2 Kor. 10:4) və qələbə qazanmaqdansa əzab çəkən və ölən güc ilə fəaliyyət göstərən əsaslı faktın gücü ilə gəlir. Təsir göstərmək və inandırmaq üçün olan sözlərdən və metodlardan istifadə etməyi düşünməyərək Paul Allahın müdrikliyini bəyan edəndə dinləyicilərinin ürəklərini dəyişdirmək üçün Ruhun gücünə arxalanır. Bu o demək deyil ki, Paulun sözləri yaxşı düşünülməmiş, sadələşmiş və ya ağılsız idi. Əksinə! Paulun istənilən məktubunu oxumaq yaxşı düşünülmüş faktları olan və güclü intellektə malik insanı aşkar edir. Paul burada intellektual ilə həqiqətin qeyri-intellektual və ya "sadə" təqdimatını qarşı-qarşıya qoymur.

Paulun demək istədiyi budur ki, əgər qasidin həyatında Ruhun işi nümayiş olunmursa, istənilən vəz iflasa uğrayacaq, bu zəifliklə səciyyənməlidir, danışan şəxs Müjdənin həqiqəti vasitəsilə dinləyicilərin ürəklərini hərəkətə gətirmək üçün Ruha arxalanmalıdır. Təhlükə Müqəddəs Ruhdan ilhama gəlmiş Müjdənin həqiqətində deyil, müstəqillikdə və vasitəçi olan insanın qabiliyyətinə arxalanmaqdadır. Xilas olmamış bəşəriyyətin gözündə bu ağılsızlıq və zəiflikdir, amma bu ilahi surətdə təşkil olunmuş metodologiya vasitəsilə dünya üzərində qələbə çalınır.

İnsan müdrikliyi ilə Allahın müdrikliyi arasında bu ziddiyyət (1:17) 1 Kor. 1:18-2:16-də iki cür görünür: Müjdənin xəbəri və Müjdənin qasidləri. 1:18-25-də Paul korinfliləri Müjdənin xəbəri ilə qarşılaşdırır, o deyir ki, çarmıxın xəbəri bu dünyanın müdrikliyinə ziddir. Əgər kimsə "asan istifadə oluna bilən" xəbəri bəyan etmək istəyirsə, çarmıxa çəkilmiş Xilaskarın xəbərini vəz etməyi çətin ki düşünər. Yeşaya 29:14-dən sitat gətirərək Paul sübut edir ki, Allahın peyğəmbərlər vasitəsilə əvvəlcədən dedikləri indi İsanın

çarmıxa çəkilməsi ilə həyata keçib. Müjdə Allah və ya insanlar tərəfindən uydurulmuş hikmətin və ya fəlsəfənin yeni forması deyil. Bu, çarmıxa çəkilmiş Xilaskar vasitəsilə barışıq gətirmək haqqında heç bir insanın heç vaxt düşünmədiyi ilahi planın bir hissəsidir. Həm yəhudilər, həm də bütpərəstlər üçün bu təsəvvür edilməz ola bilərdi, Allahın həddən artıq alçaldılması ola bilərdi. Yəqin ki, korinfli imanlıları çarmıxın Müjdəsindən kənar "daha yüksək" ruhani həqiqətlərə doğru "getməyə" həvəsləndirən və Müjdənin xəbərini və Allahın çarmıx metodologiyasını əhatə edən elə bu alçaldılma hissi idi.

Maykl Horton aşağıdakı mülahizələri irəli sürmüşdür:

> Korinfli imanlılar öz müasir və qürurlu qonşularını qazanmaq istəmirdilər, onlar daha çox onlara bənzəmək istəyirdilər. Var-dövlət, güc-qüvvət, hikmət və zadəganlıq ideallaşdırılan bir mədəniyyətdə məsihçilik böyük məna kəsb etmirdi. Bütün bunlara nəzərən Paul istəyir ki, korinflilər qonşularına desinlər ki, onların Xilaskarları ölümə öz xalqına, Roma rəhbərlərinə və Ata Allaha görə məhkum edilib. Beləliklə bu planda xilas çarmıxda rüsvayçı ölümlə nəticələnir, romalıların bu cəza forması bizim dövrdə olan elektrik stul ilə eynidir. Bir çox mədəniyyətlərin məsihçiliyin bu əsas xəbərini başa düşə bimədikləri heç də təəccüblü deyil! Bundan başqa məsihçilik asanlılqla başqa düşülməsə də, bu hər şeydən güclüdür.

Yəhudilər üçün büdrəmə daşı, bütpərəstlər üçün sadəcə ağılsızlıq olan çarmıxın bu metodu "Allahın hikməti" və "Allahın gücü" kimi sübut olunmuşdu (1:21-25). Paul korinflilərə deyir ki, bu cür alçaldılma, zəiflik, əzab və özünüqurban vermə üsulu Allahın hərəkət etdiyi üsuldur; bu, Allahın bəşəriyyət ilə birləşməsi və Onun bəşəriyyətin problemlərini həll etməsi üsuludur. Paulun fikrincə çarmıxdan "kənara çıxmaq" tərəqqi və ya kamillik deyil, Məsihi bütünlüklə tərk etmək deməkdir. Çarmıx Müjdənin və Müjdənin metodologiyasının mərkəzidir. Əslində bu həm özünə

arxayınlığa qarşı, həm də istənilən növ qürurlu "super ruhaniliyə" qarşı dayanır.

Paul 1:26-31-də davam edir, dünyanın müdrikliyinə qarşı dayanan təkcə Müjdənin xəbəri və ya mənası deyil, həm də Müjdənin qasidləridir. Paul deyir, "Baxın, Allahın Öz məqsədlərini həyata keçirmək üçün qasid kimi çağırdığı insanlar kimlərdir."

> *Qardaşlar, aldığınız çağırış barəsində düşünün. Bir çoxunuz bəşəri nöqteyi-nəzərdən müdrik, nüfuzlu və yaxud əsilzadə deyildiniz.*
>
> *Allah isə müdrikləri utandırmaq üçün dünyanın ağılsız saydıqları, güclüləri utandırmaq üçün dünyanın zəif saydıqları,dünyanın dəyərli sayılanlarını heç etmək üçün dünyanın xor baxdıqları, əsilsiz və dəyərsiz sayılan kəsləri də seçdi ki, Allahın qarşısında heç bir insan öyünməsin.*
>
> *Amma siz Allahın sayəsində Məsih İsadasınız. O bizim üçün ilahi müdriklik, salehlik, müqəddəslik və satınalınma oldu.*
>
> *Buna görə yazıldığı kimi "öyünən Rəbdə öyünsün."* (1 Kor. 1:26-31)

Əgər Paul dünyanın "müdrik" saydığı Allah qasidi olmaq üçün addım atmışdısa, aydındır ki, o, cəmiyyətin daha nüfuzlu və seçilən üzvlərinə vəz etmişdi. Bu insanlar da öz sosial vəziyyətlərində və daha aşağı sosial vəziyyətlərdə olanlara müraciət edə bilərdilər, çünki onlarda cazibə qüvvəsi var idi və böyük hörmətə malik idilər. Əksinə Allah elələrini seçir ki, o insanların Allahın qasidləri olmaq üçün özlərini tərifləməyə çox şeyləri yoxdur, belə ki bütün izzət Onundur.

Çarmıx metodu təkcə Allahın yolu deyil; bu həm də bütün Allahın xalqının, xüsusilə Allahın qasidlərinin və vasitəçilərinin yolu olmalıdır. 2:1-5-də öz xidmətindən danışan Paul korinflilərə xatırladır:

> *Ey qardaşlar, mən Allah barəsində sirli həqiqəti elan etmək üçün sizə gələndə yüksək natiqlik və müdrikliklə*

gəlmədim. Çünki mən aranızda olanda İsa Məsihdən, yəni çarmıxa çəkilmiş Şəxsdən başqa heç bir şey bilməməyi qərara aldım. Yanınıza zəiflik, qorxu və böyük lərzə içində gəldim. Mənim sözüm də, vəzim də müdrikliyin inandırıcı sözlərindən deyil, Ruhun qüdrətini göstərməsindən asılı idi. Belə ki imanınız insan müdrikliyinə yox, Allahın qüdrətinə əsaslansın.

Paul izzət müjdəsini deyil, zəiflik müjdəsini vəz edir. O, çarmıxa çəkilmiş Məsihdən başqa heç nə istəmir. O, Ruhdan asılı olan Müjdəni vəz edir, çünki xəbərin məğzi elə bir şeydir ki, insanlar Ruhun işi olmadan onu qəbul edə bilməzlər. Bu yolla Allahın gücü görünür. Paul bir ziyalı kimi əhəmiyyətli bacarığına arxalanmır. O, Allahın qabiliyyətinə arxalanır ki, ondan, zəif qabdan istifadə edərək dünyaya ağılsızlıq kimi görünən ilahi şəkildə açıqlanmış xəbəri çatdırsın, amma bu xəbər Allahın dünya yaranmazdan əvvəl nəzərdə tutduğu bərpa planının açıqlamasıdır (2:6-16).

Allahın çarmıx metodu təkcə Müjdənin mənasını təmin etmir, həm də metodologiyanı təmin edir. Çarmıx metodu onun faydalarını qəbul edənlər tərəfindən izlənməlidir, çünki Allahın xalqı Ondan ayrı deyil. Onlarda və onlar vasitəsilə hərəkət edən Allahdır. Bu yolla onlar əməkdaşlıq yaradırlar. 1:9-da həvari deyir, *"Sizi Oğlu Rəbbimiz İsa Məsihlə şərik olmağa çağıran Allah sadiqdir"* (1 Kor. 1:9). 1 Kor. 3:9-da o əlavə edir, *"Çünki biz Allahın əməkdaşlarıyıq. Sizsə Allahın zəmisi, Allahın tikilisisiniz."* Biz Filip. 3:10-da Paulun qeyd etdiyi kimi Onun əzablarına şərik oluruq.

1 Kor. 4:9-13-də Paul yazır:

Çünki mənə elə gəlir ki, Allah biz həvariləri ölümə məhkum olunanlar kimi ən sonda nümayiş etdirdi. Biz də həm dünya, həm mələklər, həm də insanlar üçün bir tamaşa olduq. Biz Məsih naminə ağılsızıq, sizsə Məsihdə ağıllısınız! Biz zəifik, siz güclüsünüz! Siz şərəfli adamsınız, bizsə hörmətsiz! Bu vaxtadək biz ac-susuz və cındır içindəyik. Biz döyülürük, qalmağa yerimiz də

yoxdur. Öz əllərimizlə işləyib zəhmət çəkirik. Bizə böhtan atanda xeyir-dua veririk, təqib olunanda dözürük, təhqir olunanda mülayim cavab veririk. Biz bu anadək dünyanın zibili, hamının tullantısı kimi olmuşuq.

Paul həqiqətən Allaha xidmət edənlərin həyatlarına baxarkən böyük hərbi qələbədən sonra olan Roma nümayişlərini xatırlayır. Qələbə çalmış ordu şəhər boyunca yürüş edir, nümayişin sonunda məğlub olanları sürüyərək gətirirlər ki, onların necə gücsüz olduğunu göstərsinlər. Paul deyir ki, Allahın qasidləri dünyaya belə görünür. Onlar müharibənin əsirləri içərisində ən zəif və gücsüz görünürlər, ictimaiyyət qarşısında ölümə məhkum olunurlar. Onlar Rəbləri kimi gücü, bolluğu, səmərəliliyi və rahatlığı nümayiş etdirmirlər, zəifliyi və ölümü nümayiş etdirirlər. Paulun Kor. 1:27-də xatırlatdığı kimi Allah güclünü utandırmaq üçün zəifləri seçir.

Dünya Allahın qasidlərinə baxanda onlar nə görməlidirlər? Paulun fikrincə onlar onların gücünü deyil, zəifliyini görməlidirlər; onların sağlam bədənlərini, gözəl şkaflarını və rahat evlərini deyil, onların kasıblıqlarını, cır-cındırları və evsizliklərini görməlidirlər; güclünün yaltaq tərifləri deyil, lənətləri, böhtanı və hər bir kəsin əlindən təqibi görməlidirlər. Qısa sözlə desək, Allahın qasidləri "yer kürəsinin tör-töküntüsü, dünyanın zibili"dirlər. Onlar Rəbləri və Xilaskarları kimidirlər.

Conatan Bonk Tapşırıqlar və Pul kitabında yazır ki, məsihçiliyin müjdəçiik strategiyası olan hər bir şey üç şeylə səciyyələnir: təcəssüm etmə (özünə xidmət yox), çarmıx (özünü qoruma yox) və zəiflik, Allahdan asılılıq (sabitlik və güc yox). Biz canavarlar arasında quzular olmalıyıq, quzular və ya "super quzular" arasında canavarlar olmamalıyıq.

Mən mübahisə edərdim ki, bu cəhətlər – təcəssüm etmə, çarmıx və zəiflik Allahın bütün qasidlərinin, onların kimliyindən və harada xidmət etmələrindən asılı olmayaraq, xüsusiyyətləri olmalıdır. Paul 2 Korinflilərə məktubunda vurğunu Allahın metodlarından bizim metodlarımıza keçirəndə göstərdiyi kimi bu sadəcə mədəniyyətlərarası müjdəçilik strayegiyaları üçün məhdudlaşdırılmayıb.

Ölülər uğrunda vəftiz

Kəlamda ən sirli hissələrdən biri Paulun bədənlə dirilmə təlimini dəstəkləyərkən*"ölülər uğrunda vəftiz olunanlar"*dan danışmasıdır (1 Kor. 15:29). Dirilmənin olduğunu inkar edənlərə zidd gedərək Paul iki faktı göstərir: 1) əgər dirilmə yoxdursa, nəyə görə bəzi insanlar ölülər uğrunda vəftiz olunur? və: 2) əgər dirilmə yoxdursa, nəyə görə hər an təhlükələr ilə (30-cu ayə), hər gün ölümlə (31-ci ayə) üzləşir, hətta Efesdə vəhşi heyvanlar ilə mübarizə aparır (31-ci ayə)?

İkinci faktı başa düşmək asandır. Paul deyir ki, əgər dirilmə yoxdursa, onda niyə təqibdən əzab çəkir? Əgər həyat elə bundan ibarətdirsə, onda mərkəzində çarmıx duran Müjdə uğrunda insanın həyatını təhlükə qarşısına qoyması çətin ki dəyərli görünər. Özünü qurban verən həyatı yaşamaqdansa, insan üçün ancaq bu günki gün üçün yaşamaq yaxşı olar: *"Qoy yeyib-içək, çünki sabah öləcəyik"* (15:32).

Con Payper özünün ***Allahın arzusunda*** kitabında yazır ki, bir gün o, Rixard Vurmbrandın rahib haqqında yazısını oxuyur, həmin rahib İtaliya televiziyasında müsahibə verirdi. Aparıcı aydındır ki, rahibin təhna və sükutda yaşama tərzi ilə maraqlanırdı. O, rahibdən soruşdu: "Əgər siz həyatınızın sonunda ateizmin həqiqət olduğunu və Allahın isə olmadığını aşkar etsəniz, nə edərdiniz? Xahiş edirəm, mənə deyəsiniz, əgər bu doğru olsaydı, nə edərdiniz?"

Rahib cavab verdi: "Hətta mükafat vədi olmasa da, müqəddəslik, sükut və qurban özlüyündə gözəldir. Mən yenə də həyatımdan yaxşı istifadə etmiş olardım."

Payper yazır:

> Rahibin cavabının ilk təsiri izzətin romantik, səthi təlatümüdür. Amma sonra nəsə ilişdi. Yaxşı oturmadı. Nəsə səhv idi. Əvvəlcə mən bunu anlaya bilmədim. Sonra mən çoxlu əzab çəkmiş məsihçiyə, həvari Paula baxdım və onunla rahib arasında olan uçurumu görüb heyrətə gəldim.
>
> Paulun aparıcıya olan cavabı rahibin cavabından tamamilə əks olardı. Aparıcı soruşdu, "Əgər sizin həyat tərziniz yalana əsaslanmış olsaydı və Allah olmasaydı, həyatınız necə

olardı?" Rahibin cavabının mənası bu idi, "Onsuz da həyatım yaxşı və gözəl olardı." Paul öz cavabını 1 Kor. 15:19-da verir, "Əgər yalnız bu həyat üçün Məsihə ümid bağlamışıqsa, biz hamıdan yazığıq." Bu cavab tamamilə rahibin cavabının əksidir.

Başqaları uğrunda həyatı qurban verməyin, hətta dirilmə olmasa da dəyərli olduğunu demək ruhani səsləns də səhvdir. Bu boş yerə olardı. Əgər özünü qurban verən həyatı yaşamağa dəyərsə, Ton yazır, "onda bu həyatdan sonra həyat var, bu həyatda biz yer üzündə müntəzəm ölməyimizin mükafatını əldə edəcəyik." Bu, 1 Kor. 15-ci fəsildə Paulun müzakirəsinin əsas məqsədidir: *"Beləliklə, ey sevimli qardaşlarım, Rəbdə çəkdiyiniz zəhmətin boşa çıxmayacağını bilərək möhkəm durun, sarsılmayın, hər zaman Rəbbin işində səylə çalışın"* (15:58).

Amma Paulun ilk faktını başa düşmək üçün olduqca çətindir. Amma kontekst onun şərhi üçün açıqlama verir. Ton qeyd edir ki, Paul 1 Korinflilərə məktubda "vəftiz" sözündən çoxlu üsullar ilə istifadə edir. Əslində yalnız kontekst onun 15:29-da nəzərdə tutduğu mənanı anlamaq üçün açıqlama verə bilər.

Mənim fikrimcə 15:29 faktın başlanğıcıdır, sonra o, 30-32-ci ayələrdə bunu izah edir. Paul burada şəhdiliyin qanlı ölümünü bildirmək üçün "vəftiz" sözündən İsanın Luka 12:50 və Mark 10:38, 39-da istifadə etdiyi mənada istifadə edir. Ona görə də "ölülər uğrunda" sözləri imanlının Məsihin bədəninə qoşulması üçün su ilə vəftiz olunması deyil, şəhidlərin – ölülərin sırasına qoşulması mənasını verir.

Əgər bu şərh düzgündürsə, onda Paulun 1 Kor. 15:29-dakı faktı belə oxunar, "Əgər dirilmə yoxdursa, Məsihin sevgisinə görə öldürülən belə vəftiz olunanlar tərəfindən nə əldə ediləcək?" Bu anlayış ilə növbəti ayə, *"Biz də nə üçün hər an təhlükələrə uğrayırıq?"* təbii və məntiqi olaraq oxuculara göstərir ki, Paulun Məsihə görə uğradığı təhlükələr əgər ölülər dirilmirsə, hamısı heç nədir. Ona görə də 29-cu ayə öyrədərdi ki, əgər dirimə yoxdursa, onda şəhidlər əbəs yerə ölüblər. Onların şəhidliyin vəftizini qəbul etmələri üçün heç bir səbəbləri yox idi.

2 Korinflilər

2 Korinflilərə məktubda təqib ilə əlaqəli altı əsas parça var.

1. Paulun əzabları Məsihin əzabları ilə əlaqəlidir (1:3-11).

1 Korinflilərə məktubda Paulun vurğusu Məsihin çarmıxındadır. 2 Korinflilərə məktubda isə onun vurğusu məsihçinin çarmıxına keçir. Bu onun xidmətinin müdafiəsi üçün vacibdir.

Paulu güclü, təsirli, məqsədli və hündür binalardan bir sıçrayış ilə tullanan insan kimi-bizlərdən heç birimizin yarışmağa belə ümid etmədiyi super məsihçi kimi görmək asan olardı. Biz ona asanlıqla qələbə ilə öyünən bir insan kimi-çoxlu uğura nail olmuş, Allahın imkanlar və yeni izzətlər ilə mükafatlandırdığı biri kimi baxardıq.

Amma bu Əhdi-Cədidin Paulu deyil. Bundan başqa qələbə onun rəqiblərinin əlamətidir, Paulun özünün əlaməti deyil. O, İsa Məsihin davamçısı olduğunu bildirmək istəyəndə göstərdiyi qələbələr onun qələbələri deyil. Paul Allahın qasidi olduğunu sübut etməli olanda yaratdığı çoxlu məbədlərdən və ya imana gətirdiyi insanların vəftizlərindən danışması onun nailiyyətləri deyildi.

Bir az əvvəl qeyd etdiyim kimi Paul Korinfdən gedəndən sonra başqa müəllimlər ya kənardan şəhərə gəlmişdilər, ya da məbədlərin içərisindən çıxmışdılar. Paul onları "böyük həvarilər" adlandırır (2 Kor. 11:5; 12:11). Onlar Paulun metodologiyasını və teologiyasını ələ salır. Onlar öz görüntüləri, üstün bilikləri, inkişafları və insanların onları dinləmək üçün necə yığışdıqları və vəz etdiklərinə görə təqib olunmadıqları ilə fəxr edir. Onlar necə gözəl olduqları barədə başqalarından zəmanət məktubları alaraq gəlirlər (3:1).

Paulun məktubundan aydındır ki, korinflilər onların təsiri altına düşmüşdülər. Onlar inanırlar ki, bu "böyük həvarilər" Allahın həqiqi qasidinin nə cür olduğunu göstərir. Onlar Paulun işini və şəhadətliyini bu kişilər ilə müqayisə edəndə belə qərara gəlirlər ki, Paul ikinci dərəcəli qasiddir, Allahın xeyir-dualarından məhrumdur.

Paul elə bir faktı göstərir ki, az insanlar ona diqqət yetirər. O, xidməti və metodologiyasının müdafiəsi üçün çarmıx ilə başlayır. O, 2 Kor. 1:5-də Rəbbin nümunəsinə müraciət etməklə fikrini cəmləyir: "Çünki Məsihin əzablarını necə böyük həcmdə çəkiriksə,..." 4:10-

da o deyir ki, *"İsanın ölümünü bədənimizdə həmişə daşıyırıq ki, Onun həyatı bədənimizdə aydın görünsün."*

Kolos. 1:24-də Paul bu fikri daha da inkişaf etdirir, amma buradakı fikir budur ki, biz Məsihdə Onun əzablarına şərikik. Rəbb Şaulu Dəməşq yolunda bu sözlərlə dayandırdığı kimi *"Şaul, Şaul, niyə Məni təqib edirsən?"* (Həv. İş. 9:4) Rəbb Öz xalqının Onu tanıdıqlarına görə əzab çəkdikləri üçün əzablarını anlayır. Biz Başımızla əlaqələnmişik, O isə Bədəninin üzvləri ilə əlaqələnib, biz 1 Kor. 12:26-da deyildiyi kimi bir-birimiz ilə əlaqələnmişik: *"Buna görə əgər bir üzv əzab çəkirsə, başqaları da onunla birgə əzab çəkir. Üzvlərdən biri şərəfə çatırsa, başqaları da onunla birgə sevinir."* Biz tarixdə Onun məqsədlərini yerinə yetirərkən Onunla iştirak etdikcə O bizim əzablarımızda iştirak edir. Biz Onun şahidləri və ya şəhidləri olarkən Özünün vəd etdiyi kimi bizi heç vaxt atmır və tərk etmir.

Məsih bizimlə əzab çəkməkdə davam edir. Ona görə də Məsihin əzabları böyük həcmdə bizimdir (2 Kor. 1:5). Bu, iki min il bundan əvvəl çarmıxda baş vermiş həmin əzabla eyni deyil. O bir dəfə hamı üçün olan bir hərəkət – tam, heç vaxt təkrarlanmayan, heç nə əlavə edilməyən hərəkət idi. Amma Onun xalqı Məsihin çarmıxdakı işini yayarkən əzab çəkir, buna görə də O onların əzablarını bölüşür. Başqaları bizim əzablarımızı (və Məsihinkini) dualarla bölüşür (1:11).

Qeyd etmək istədiyim şey budur ki, Paul öz əzablarını (və təqib olunan başqa insanların əzablarını) İsanın əzabları ilə əlaqələndirir. Super həvarilər Müjdəni özünü qurban və əzab olmadan çarmıxsız vəz edirlər və Paul təsdiqləyir ki, bu bizim vəz etdiyimiz Müjdə deyil. "Böyük həvarilərin" müjdəsi başqa bir İsa ilə başqa bir müjdədir (2 Kor. 11:1-4).

2003-cü ilin avqust aydında ***Nyu York Tayms*** qəzetində yazılır ki, Manhattan şəhərindəki Müqəddəs Çarmıx Məbədində keşikçilər bazar günü səhər görmüşdülər ki, oğrular məbədin girişinin yaxınlığında 100 kiloluq Məsihin gipsdən düzəldilmiş təsvirini taxta çarmıxdan çıxarıb aparmışdırlar. Heykəlin oğurlanması faktı onun necə oğurlanması faktından az təəccüblü idi. Heykəlin uzunluğu 1 m, 20 sm-ə yaxın idi, polad gövdəsi var idi və dörd yerdən

çarmıxa bərkidilmişdi. Oğrular məbədə girmişdilər, İsanın heykəlini açıb aparmışdılar və çarmıxı qoyub getmişdilər. Keşikçilərdən biri müsahibə verərək demişdi: "Onlar sadəcə qərara gəlmişdilər ki, çarmıxı qoysunlar İsanı götürsünlər." Biz bilmirik ki, onlar nəyə görə ancaq İsanı götürmüşdülər. Biz düşünürük ki, əgər bütün çarmıxı istəyirsənsə, bütün çarmıxı götürməlisən." Əslində oğrular çarmıxı deyil, İsanı istəmişdilər.

Bəs biz? Biz İsanı çarmıxsız istəyirikmi? Biz şagirdliyi qurbansız istəyirikmi? Biz Allah ilə gündəlik həyatımızı aramsız sülh və sakitlik kimi güman edirik? Biz güman edirikmi ki, Allaha olan xidmətimiz Onu məcbur edir ki, bütün əzabları və maneçilikləri yolumuzdan götürsün? Əgər bu bizim gözlədiyimiz şeydirsə, bizim Pauldan daha çox korinflilər ilə oxşarlığımız var.

2. Paulun əzabları dünya və Allahın xalqı tərəfindən fərqli başa düşülürdü (2:14-17).

2:14-17-də Paul 1 Kor. 4-cü fəsildə təqdim etdiyi romalıların qələbə yürüşünün təsvirinə qayıdır. O deyir, *"Bizi həmişə Məsihin zəfər təntənəsində addımladan, Onu tanımaqdan yaranan ətri bizim vasitəmizlə hər tərəfə yayan Allaha şükür olsun!"* (2 Kor. 2:14).

Paulun burada təsvir etdiyi qələbə çalan sərkərdədir (Məsih), Öz əsirlərini (bizi) çoxlu sayda tamaşaçılar qarşısında aparır. Onun düşməni olan bizlər məğlub olmuşuq və Onun tərəfindən əsir götürülmüşük. Dünya qarşısında hər gün nümayiş olunuruq. Paul bu nümayişdədir.

İzdiham dünyada Allahın şahidləri olanlara baxarkən onların sərkərdə ilə ünsiyyətləri nümayişdə olanlara necə baxmağı təyin edir. Məsih tərəfindən məğlub edilənlər Onun qulları, Allahın qasidləri gözəl və şirin ətirdirlər,*"Allaha xoş olan Məsih ətriyik."* (2 Kor. 2:15). Həlak olanlar üçün (dünya) Allahın qasidləri ölüm qoxusudur (2:16a).

Məbəd nə vaxt Allahın xidmətçisi kimi həqiqətən fəaliyyət göstərirsə, dünya ona nifrət edəcək, sanki meyit iyi verirmiş kimi rədd olunacaq. Məsihçilik əgər düşmən dünyada şahid olmaq çağırışına sadiqdirsə, heç vaxt hamının sevdiyi bir şey ola bilməz.

Onda nəyə görə Allahın xalqının sevgisinə şəhadətlik edən, düşmənləri bağışlayan, sınaq və çətinlik zamanı cəsarət və iman göstərən insanlar Məsihə imana etməyə cəlb olunurlar? Bu əlbəttə, insanları Müqəddəs Ruh vasitəsilə Özünə cəlb edən Allahın lütfünə görədir, Onun xalqı Məsihəbənzər xasiyyət nümayiş etdirərkən Müjdənin həqiqəti üçün imansız insanın gözlərini açırlar. Bu, imanlıların özlərində olan hansısa bir izzətə görə deyil. Bu ona görədir ki, onlar Məsihin ardınca gedirlər və Allah onların həyatlarını dəyişdirir. Allahın sadiq xalqı düşmən dünyada məhəbbət, iman və ümid nümayiş etdirir ki, bu da ən güclü şəhadətlikdir.

3. Paulun əzabları Məsihin həyatını nümayiş etdirmək üçün lazımlıdır (4:5-15).

4:5-7-də Paul yazır, *"Biz özümüzü yox, İsa Məsihi Rəbb olaraq vəz edirik. Özümüzü isə İsa naminə qullarınız olaraq təqdim edirik. Çünki 'zülmətdən işıq parlayacaq' deyən Allah ürəyimizə nur saçdı ki, İsa Məsihin üzündən saçan Öz ehtişamını tanımağımızdan doğan nuru bizə versin. Üstün qüvvənin bizdən yaranmadığı, Allaha aid olduğu bilinsin deyə bu xəzinəni saxsı qablarda saxlayırıq*."

Paul elə təsvirdən istifadə edir ki, həmin təsvirdən super həvarilər heç vaxt özlərini təsvir etmək üçün istifadə etməzdilər. O, qasidlərin deyil, Müjdənin izzətli olduğunu göstərməkdə diqqətli idi. Biz İsanı Rəbb kimi özümüzü isə qulluqçular kimi bəyan edirik. İsa Rəbdir, biz yox. Qasid barədə heç bir izzətli şey yoxdur. Ən yaxşı halda biz qulluqçularıq və bizdə olan nur Yeganə olandan gəlir, *"Qoy nur qaranlıqdan işıq saçsın*."

Paul təsdiq edir ki, bu, Allahın həmişə necə işləməsi ilə uyğunlaşır. İsa yer üzünə insan kimi gəlib əzab çəkərək öləndə Yeşaya deyir ki, Onun bizi cəlb edən gözəlliyi yox idi:

O, Rəbbin önündə bir fidan kimi,
Quru torpaqda bitən kök kimi böyüdü.
Baxanda onun nə görkəmi, nə gözəlliyi var idi,
Gözümüzü oxşayan zahiri siması da yox idi.

(Yeşaya 53:2)

Eləcə də Onun qasidləri özlüyündə böyük bir gözəlliyə malik deyildilər. Bizdə olan xəzinə bizim bölüşdüyümüz xəbərdir. Bundan kənarda biz adi gil qablarıq. Onun gücü öz ifadəsini bizim zəifliyimizdə tapır ki, bütün izzət və şükran Ona getsin.

> *Hər tərəfdən əziyyət çəkirik, amma əzilmirik. Çaşqınlıq içindəyik, lakin çarəsiz deyilik. Təqib olunuruq, amma tərk edilmirik. Yıxıdılırıq, amma yox olmuruq. İsanın ölümünü bədənimizdə həmişə daşıyırıq ki, Onun həyatı bədənimizdə aydın görünsün.* (2 Kor. 4:8-10)

Bir çox şərhçilər 8, 9-cu ayələri yumşaltmağa çalışırlar. Onlar belə düşünürlər ki, Paul inanırdı ki, hətta o əzab çəksə də, Allah onu sağ-salamat saxlayacaqdı. Amma bu Paulun əsas mövzusundan uzaq idi.

Paul deyir ki, onun təqibi (8, 9-cu ayələrdə təsvir olunub) "ölən İsanı" özü ilə daşıması faktını nümayiş etdirir. 10-cu ayədə "ölüm" sözü ölü *vəziyyətinə* deyil, əsl ölüm *prosesinə* aiddir. Paul İsanın həyatı – Onun rədd olunması, əzabı, səhrada sınağa çəkilməsi, bizim kimi keçirdiyi hər cür kədəri barədə düşünəndə aşkar etdi ki, İsanın ölməsi Onun bütün həyatı boyunca davam edirdi. Çarmıx Onun başqa bütün əzablarının göstərdiyi təyinat idi.

"Mən həyatda yaşadıqca görürəm ki, Məsih necə Öz həyatını mənim vasitəmlə yaşamaqda davam edir. Mən daim ölürəm; 'Mən hər gün ölümlə qarşılaşıram' (1 Kor. 15:31). Mən Rəbbim kimi heç vaxt sınaqdan, çaşqınlıqdan və təqibdən-ölən insanın əzabından, ağrılarından və çətin vəziyyətindən qaçmamışam."

Paul yaşadıqca Məsih uğrunda ölmək prosesindədir ki, Məsihin həyatı çarmıx və dirilmə vasitəsilə əldə edilsin və həyatında görünsün. Onun yeganə həyatı Allahdan əldə etdiyi həyatdır.

Paulun fikrincə fiziki ölüb sonra Onunla əbədi yaşamayana qədər Allahın qasidi üçün bu həyatda Məsih uğrunda ölmək prosesindən qaçmaq imkanı yoxdur. Amma Onun çarmıxda bir dəfə hamı üçün

ölümünə görə bizim indiki həyatımız Onun bizə verdiyi həyatın nümayişidir.

Elə bu həyata görə Paul özü ilə İsanın ölümünü daşıyır. Əgər başqaları bu həyatı Allahdan qəbul etməlidirlərsə, Paul üçün bunu etmək vacibdir; Paul gündəlik ölməli idi ki, başqaları yaşaya bilsinlər. Buna super həvarilər heç vaxt hazırlaşmamışdılar.

Paulun əzabı ilə Müjdənin yayılması arasında məntiqi əlaqə var. 10 və 11-ci ayədə Paul deyir ki, Məsihin ölümü onun bədənində nümayiş olunur, *"...Onun həyatı bədənimizdə aydın görünsün."* 15-ci ayədə Paul yazir ki, *"Bütün bunlar sizə görədir. Belə ki Allahın lütfü çoxalıb daha çox insana ehsan olunsun və Onun izzəti üçün daha çox şükür edilsin."*

Qolqofada əldə olunan şey indi bütün dünyadakı insanlara yayılmalı idi və bu Məsih və Onun Müjdəsi uğrunda həyatda əzabı və özünü qurban verməni qəbul edən insanlar tərəfindən həyata keçiriləcəkdi. Siz belə insansınızmı? Siz hazırlaşmısınızmı və ölməyə hazırsınızmı ki, başqaları yaşaya bilsin?

4. Paulun əzabları əbədi ümidi gətirir (4:16-5:10).

Öz əzablarının Allaha izzət gətirdiyini bilmək Paula əziyyətlərin içərisində ümid verir (4:16). Əzab təkcə əzab çəkəni özündən kənara Allaha doğru istiqamətləndirmir, həm də indiki zamanın dəhşətindən gələcəyin ümidinə doğru istiqamətləndirir. Bu bizim ümid əldə etməyimizə səbəb olur, bu həyatın elə bundan ibarət olmadığını aşkar edir, Allahın planının hələ yerinə yetirilməli olan "hələ yox" cəhəti yoxdur. Biz bunu dərk edərək ümidimizi itirmirik. Biz irəliyə, ölümün gücü üzərində Allahın son qələbəsinə baxırıq. Əzab bizə xatırladır ki, döyüş qurtarmayıb və Allahın hələ vəd etmədiyini gözləməkdən bizi saxlayır. Bu bizdə daha çox susuzluq, yanğı hissi yaradır. Təqib bizə xatırladır ki, biz hələ evdə deyilik.

5:1, 2-də Paul yazır, "*Bilirik ki, sığındığımız bu dünyəvi çadır dağılarsa, göylərdə Allahın bizə verdiyi binamız, əllə tikilməyən əbədi bir evimiz var. İndi isə səmavi məskənimiz üstümüzü örtsün deyə həsrət çəkərək inləyirik.*"

Bu dünya bizim evimiz deyil. Biz inildəyirik, yenilənmiş bədənimiz ilə örtülmək istəyirik (5:1, 2). Biz Rəbb ilə olmağa can

atırıq (5:8). Həmin gün üçün hazırlığa görə Paul Rəbbi razı salmaq məqsədilə yaşayır (5:9), bilir ki, sadiqliyinə görə öz mükafatını almaq üçün Məsihin ittiham kürsüsünün qarşısına çıxacaq (5:10).

5. Paulun əzabları onun xidmətinə etibar qazandırır (6:1-13).

Paul Allahın insan ilə barışıq xəbərini vəz edir (5:11-21). İsanın çarmıxına görə Allah və insan barışa bilər. Biz Allahın səfirləri kimi bu barışıq xəbərini çatdırırıq, qadınlar və kişilərdən xahiş edirik ki, Allah ilə barışdırsınlar (5:20).

Belə xəbər ilə Paul vurğulamaq istəyir ki, onun çarmıx xəbəri və xidmətini yerinə yetirmək *qaydası* bir-birinə zidd getmir.

Kanadalı müəllif Marşal MakLuhan çox vaxt qeyd etmişdi ki, "Müjdənin necə yayılması əsas amildir". İsanın bədən alması bu fikrin həqiqiliyi üçün canlı sübutdur. Allah bizim aramızda yaşadı. Hətta İsa heç vaxt bir söz deməsəydi belə metod özlüyündə olduqca güclü xəbəri çatdırmışdı. Əlbəttə, O danışmışdı, Onun dedikləri Onun kimliyi və etdiyi işlər ilə tamamilə uyğunlaşmışdı.

İnsanın xəbəri bəyan etmək üçün istifadə etdiyi metod xəbərin özünə təsir edir. Bu özünün xəbərini çatdırır, bu xəbəri təsdiqləyə, zəiflədə, qaranlıqlaşdıra və ya hətta inkar edə bilər. Məsələn, "İsa səni sevir" xəbəri. Xəbər yaxşı və həqiqidir. İndi təsəvvür edin ki, bir nəfər bu xəbəri ümumi tualetin divarına yazır. Xəbər yenə də yaxşı və həqiqidir, amma xəbəri çatdırmaq üçün olan metod elə edir ki, xəbəri çətin ki kimsə ciddi qəbul etsin. Ən yaxşı halda metod şübhəlidir. Ən pis halda bu xəbəri ədəbsizlik səviyyəsinə gətirib çıxarır və Məsihin qurban verən sevgisinə layiq deyil. Şübhəsiz ki, xəbərə belə vasitələr təsir göstərər.

Paul bunu bilirdi və 6:3-də o bəyan edir ki, xidmətinin heç kimi heç vaxt büdrətmədiyinə və onun metodologiyasının və həyat tərzinin vəz etdiyi xəbər ilə zidd olmadığına görə naharatdır. Paul deyir, "Biz İsanın bizim üçün əzab çəkdiyi və öldüyü xəbərini vəz edirik". "Biz vəz edirik ki, İsa özünü qurban verdiyi üçün biz Allah ilə sülh əldə edə bilərik (5:11-21). Ona görə də mən bu xəbər ilə uyğunlaşan həyatı yaşayıram (bu "super həvarilərdən"

fərqli olaraq) ki, insanların ona qulaq asıb qəbul etmələrinə mane olmayım və beləliklə xidmətimi nüfuzdan salmayım" (6:3).

"Əksinə" 4-cü ayədə o yazır, *"Allahın xidmətçisi olaraq hər şeydə özümüz barədə zəmanət veririk"* və növbəti ayələrdə o necə öyündüyündən danışır:

> *...həddsiz dözümdə, əziyyətlərdə, ehtiyaclarda, sıxıntılarda, döyüləndə, həbslərdə, qarışıqlıqlarda, zəhmətdə, yuxusuz qalanda, aclıqlarda, pak yaşayanda, bilikdə, səbirdə, xeyirxahlıqda, Müqəddəs Ruhda, riyasız məhəbbətdə, həqiqəti elan edəndə, Allahın qüvvəsində, həm sağ, həm də sol əllərimizdə salehlik silahları ilə, gah ucalıb gah alçalaraq təhqir olunanda, tərifləndə özümüz özümüzə zamin dururuq. Bizi yalançı sayırlar, amma biz doğruçuyuq. Sanki naməlumuq, amma tanınırıq. Elə bil ölümün ağzındayıq, amma hələ yaşayırıq. Elə bil cəza çəkirik, amma öldürülmürük. Sanki kədər içindəyik, əslində həmişə sevinirik. Yoxsul sayılırıq, amma çoxlarını varlandırırıq. Elə bil heç nəyimiz yoxdur, amma hər şeyə sahibik.* (2 Kor. 6:4-10)

Paulun xidməti buna görə nüfuzdan düşmür. Paulun əzabı onun xidmətinə etibar qazandırır. Onun ölmək olan həyat tərzi həyat xəbərini çatdırır.

6. Paulun əzabları onun Allahın qasidi olduğuna sübutdur (11:23-12:10).

Paulun Məsih uğrunda keçirdiyi bütün əziyyətlərinin ən geniş təsviri 11:23-12:10-da tapılıb. Bu məqamda Paul Korinfdəkiləri, Allahın həqiqi həvarisi kimi hüquqlarını inkar edənləri öz çağırışlarına baxmağa səsləyir.

O, Allahın çarmıxda zəifliyinin, əzab və özünü qurban vermənin zəifliyinin Allahın gücünə və qüdrətinə necə çevrildiyini göstərdi (1 Korinflilərə məktub). O təsdiqlədi ki, onun əzabları Məsih ilə əlaqəlidir (1 Kor. 1:3-11) və Allahın dünyanı Özü ilə barışdırmaq üçün seçdiyi metodu rədd edən dünyadır və o yalnız rüsvayçılıq

və məğlubiyyət görür. Əksinə xilas olanlar bunu Allaha xoş ətirli təqdim kimi görür (2:14-17). Paul yekunlaşdırır ki, onun əzabları Məsihin həyatını nümayiş etdirmək üçün lazımlıdır (4:5-15) və sübut edir ki, Müjdənin qasidləri Müjdəyə uyğun şəkildə yaşamalıdırlar (6:1-13). Məsih çarmıxda insanın xilası üçün öldü və çarmıxı daşıyan qasidlər bu xəbəri bəşəriyyətə çatdıracaq insanlardır. Allahın metodları Onun xəbərinə uyğunlaşır.

Amma korinflilər xəbəri və metodları Məsihin çarmıxına uyğunlaşmayan müəllimlərə qulaq asmaq istəyirlər. 23-cü ayədə Paul sual verir, *"Onlar Məsihin xidmətçiləridirmi?"* Burada istifadə olunan yunan dili belə məna vermir ki, o, "super həvarilərin" həqiqətən Allahın xidmətçiləri olduğuna inanır. Məna belədir: "Allahın xidmətçilərdir onlar? Yaxşı, əgər elədirsə (və belə demək mənasız olar), onda mən daha çox xidmətçiyəm!"

"Məsihin xidmətçisi" termini Yeşayanın əzab çəkən Qulluqçuya və əzab çəkən Qulluqçunun xidmətçilərinə istinadını xatırladır. Əgər insan Məsih uğrunda qurban vermək və əzab çəkmək ehtiyacını inkar edirsə, insan özünü Allahın qulluqçusu adlandıra bilməz. Əzab Allahın xidmətçisini səciyyələndirir.

23-30-cu ayələrdə Paul hüquqlarını sadalayır ki, Allahın xidmətçisi olduğunu sübut etsin:

> *...çünki zəhmətim daha çox olub, həbsə düşməyim daha çoxdur, döyülməyimin sayı-hesabı yoxdur, dəfələrlə ölümlə üz-üzə gəlmişəm. Beş dəfə Yəhudilərdən otuz doqquz qırmanc yemişəm, üç dəfə dəyənəklə döyülmüşəm, bir dəfə məni daşqalaq etdilər, üç dəfə gəmi qəzasına düşdüm və bir gün gecə-gündüz ucsuz-bucaqsız dənizdə qaldım. Tez-tez səyahətdə olduğum müddətdə çaylarda təhlükəyə, quldurlar arasında təhlükəyə, soydaşlarım arasında təhlükəyə, başqa millətlər arasında təhlükəyə, şəhərdə təhlükəyə, çöldə təhlükəyə, dənizdə təhlükəyə, saxta qardaşlar arasında təhlükəyə məruz qaldım. Zəhmət və əmək çəkdim, dəfələrlə yuxusuz qaldım. Aclığın, susuzluğun dadını gördüm. Çox vaxt yemək, soyuqda paltar tapmadım. Bunlarla yanaşı bütün cəmiyyətlər*

üçün hər gün çəkdiyim qayğının yükü boynumdadır. Kimsə zəif olanda mən də zəif olmadımmı? Kimsə büdrəyəndə mən alışıb-yanmadımmı? ***Öyünməliyəmsə, zəifliyimi göstərən şeylərlə öyünəcəyəm.***

Sonra 31-33-cü ayələrdə Paul öyünməli olduğu şeyləri göstərir:

Rəbb İsanın əbədi alqışlanan Allah və Atasına and olsun ki, yalan demirəm.

Dəməşqdə padşah Aretanın valisi məni tutmaq üçün şəhəri nəzarət altına almışdı.

Amma mən səbət içində şəhər divarlarının pəncərələrinin birindən yerə sallandım və onun əlindən qaçdım.

Biz Həvarilərin İşləri kitabı üzrə tədqiqimizdə qeyd etdiyimiz kimi Paul tövbə etdikdən dərhal sonra Müjdəni təbliğ etməyə başlayır. Nəticədə ona qarşı edilən sui-qəsd aşkarlandı və onu məcbur etdilər ki, divardakı pəncərədən keçib Dəməşqdən qaçsın (Həv. İş. 9:25). Bu həyat təcrübəsi onun heç vaxt unutmayacağı gözəl bir həqiqətlə onu evə qaytardı.

Paul ola bilsin ki, Məsih barədə görüntüsü və öz dramatik tövbəsindən qürurlanmağa sövq olunmuşdu, o, təqibçidən Allahın qasidinə çevrilmişdi. Amma sonra o xatırlayır ki, Müjdəni bölüşmək üçün ilk səyi gecə yarısı səbətdə divarın pəncərəsindən aşağı sallanmaqla nəticələndi, yəqin ki, bu səbət zibili pəncərədən çölə tullamaq üçün istifadə olunurdu. Paul öyrəndi ki, Allahın qasidinin gözləməli olduğu şey elə budur!

Siz ilk dəfə Onun arxasına getməyə başlayanda Məsihin arxasınca getmək barədə nə cür düşünürdünüz?

12:1-də Paul irəliyə gedir. Super həvarilər Allahın onlara verdiyi böyük görüntülərə görə qürrələnirlər. Paul deyir, "Yaxşı, gəlin 14 illik sükutu pozum və sizə Allahdan aldığım görüntülər və vəhylər barəsində danışım."

Mən fikirləşirəm ki, bu məqamda korinflilər Paulun nə yazacağını böyük həvəslə gözləyirdilər. Onlar bu cür fikirləri dinləməyi xoşlayırdılar.

Amma Paul həddən artıq dərinliklərə getməkdən imtina edir. O, 2-5-ci ayələrdə cənnət barədə görüntü əldə etdiyindən danışır, amma Paul qürurlanmaqda çox utanır (1-ci ayə). O özünə "Məsihdə bir adam" (üçüncü şəxsdə) kimi müraciət edir ki, bu görüntünü əldə etməyin onu hansısa xüsusi bir insan etmədiyini vurğulasın.

Paulun öyünməkdə özünü rahat hiss etdiyi şey onun zəifliyi idi (5-ci ayə). Ona görə də o dərhal Allahın ona verdiyi gözəl görüntünü 6-ci ayədə nüfuzdan salır: *"Aldığım vəhylərin üstünlüyü ilə qürurlanmayım deyə cismim üçün bir tikan, yəni mənə əzab vermək üçün Şeytanın bir elçisi göndərildi ki, qürurlanmayım*" (2 Kor. 12:7).

Cisim üçün tikan

Paulun "cismim üçün tikan" ifadəsi üçün fərziyyələr çoxdur. Şərhçilərin əksəriyyəti inanırlar ki, bu fiziki xəstəlik olub. Mən belə düşünürəm ki, biz kontekstin daxilində başa düşməliyik ki, Paul indicə Məsih uğrunda təqib və qarşıdurma barədə danışıb və 10-cu ayədə yenidən bu haqda danışır.

Erkən məbəd teoloqu Krisostom "şeytan" sözünü öz ümumi ibrani mənasında "düşmən" kimi götürür və bunu "şeytanın qasidi" kimi başa düşür. Bu sözlə o "misgər İsgəndəri, Himeneyi və Filetası və Kəlamın bütün düşmənlərini, onunla rəqabət aparan və ona qarşı vuruşanları, onu həbsxanaya atanları, onu döyənləri, ölümə aparanları adlandırmışdı; çünki onlar şeytanın işini görmüşdülər." Avqustin, Mopsuestiyalı Teodor, Teodoret, Fotius və Teofilakt və başqa erkən məbəd ataları bunu belə başa düşürdülər.

Bu yaxınlarda R.V.G. Tasker bu hissə ilə əlaqədar yazıb, "Müjdəçini ruhani həyat təcrübələrindən zövq almaqdan daha çox ruhlandıran bir şey olmadığına görə onların ruhani qürurlarını azaldan elə bir şey də yoxdur, bu, Kəlamı vəz edərkən qarşılaşdıqları qarşıdurma kimi onları izləyə bilər, ona görə də Kirsostomun şərhi həqiqətə başqalarınınkından daha yaxındır."

Amma biz başa düşürük, fakt belədir ki, bu "şeytanın qasidi" Allah tərəfindən göndərilib; şeytan hərəkətlərində məhdud azadlığa məxsusdur. Allah bütünlüklə nəzarəti öz əlində saxlayıb. Heç bir

şey imanlının həyatına birinci Allahın ali əllərindən keçməyincə gələ bilməz.

Bu o demək deyil ki, Paul bu əzabın onun həyatından çıxarılmasını istəmirdi:

> *Bunun məndən uzaq olması üçün üç dəfə Rəbbə yalvardım. Amma O mənə dedi: "Lütfüm sənə kifayətdir, çünki zəiflik olanda qüvvə tam olur*" (12:8,9a).

Allahın Paula bunu dəqiq necə dediyi bizə deyilməyib. Amma burada bitmiş zaman formasından istifadə aydınlaşdırır və bildirir ki, bu, davam edən nəticələr ilə keçmiş hərəkət idi. Başqa sözlə, Allahın Öz lütfünün kifayət etdiyi ilə əlaqədar Paula dedikləri məktubu yazdığı vaxtda onun üçün həqiqi idi. Bu, Paulun duasına Allahın cavabı idi və bu hələ də öz qüvvəsindədir. "Az əlverişlini" qəbul etmək məsələsi deyildi. Paulun fikrincə çətinliyin içərisində Allahın lütfü qurtuluş kimi duasına cavabdır, çünki o belə deyir, *"Məsihin qüvvəsi məndə məskən salsın deyə zəifliklərimlə daha çox sevinə-sevinə öyünəcəyəm. Ona görə də Məsih uğrunda zəifliklərə, təhqirlərə, ehtiyaclara, təqiblərə və sıxıntılara məmnuniyyətlə dözürəm, çünki mən zəifləyəndə qüvvətlənirəm*" (2 Kor. 12:9b,10).

Əlbəttə, əsas söz burada *"Məsih uğrunda*" ifadəsidir. Paul qəsdən təqibi axtarmırdı. Onun yeganə fikri Məsihin işi və Müjdəni yayılmasıdır və bu əzablar Allahın məqsədlərini həyata keçirməyin nəticələri kimi ona gəlmişdi. Əzab uğrunda əzab çəkməkdə heç bir xüsusi şey yoxdur. Əzab və təqib Müjdənin Allaha, Müjdəyə və Onun qasidlərinə düşmən olan dünyada yayılmasının yalnız təbii nəticələridir.

Təqib bizim kimə məxsus olduğumuzu xatırladır və sübut edir ki, biz həqiqətən Allahın qasidləriyik.

MUSA SİE

Musa Sie Çində Cianqsu vilayətində doğulub. O, on dörd yaşında məsihçi olmuşdu. 1950-ci illərdə Şanqayda Çin məsihçi təşkilatının rəhbəri kimi o, kommunistlərin idarə etdiyi üçlük vətənpərvər hərəkatına qoşulmaqdan imtina etmişdir. 1956-cı illərdə mayda o həbs olundu və iyirmi üç il həbsxanada qaldı. İlkin istintaq müddətində o 133 gün əli qandallı qaldı. Qandallar o qədər sıx idi, dərisini kəsib sümüyünə qədər keçmişdi. Mühafizəçilər onun saçlarını dartdılar, çəkmələri ilə onu təpiklədilər və imanından dönməsi üçün daim ona təzyiq göstərdilər. İşgəncə zamanı Sie bəzən Allaha belə dua edərdi: "Rəbbim, Rəbbim, mən Sənin ardınca gedirəm. Bunun mənası nədir?"

Ağrı və müntəzəm işgəncə o qədər güclü idi ki, bir gecə o, ruh düşkünlüyündə özünə qəsd etməyə çalışdı. Əli qandallarda olarkən o öz kamerasında işıq lampasını çıxardı və barmaqlarını patronun içinə saldı, bununla güman edirdi ki, elektrik onu öldürər. Amma öldürmədi. Qandallar cərəyanın istiqamətini dəyişdirdi, amma onun qışqırığı mühafizəçiləri oyatdı və onun nə etməyə çalışdığını anladılar.

O həmin gecə kamerada öz taxta çarpayısında uzanarkən duada için-için ağladı, peşmanlıq və əzab hissi ilə dolu idi. Qəfildən o, çin dilində bu sözləri eşitdiyini söyləyir: "Mənim lütfüm sənə yetər." Üç dəfə bu sözlər aydın şəkildə təkrarlandı. Sie bildi ki, onun kameradakı məhbus yoldaşları yatıblar və başqa bir məhbusun belə ucadan və aydın şəkildə deməsi qeyri-mümkündür, mühafizəçi buna mane olardı. Bu günə qədər o təsdiq edir ki, həmin gecə onunla danışan Allah Özü idi. Sie şəhadətlik edir ki, "bu hadisədən sonra Allahın lütfü həqiqətən güclü oldu. Ondan sonra mən döyüləndə ağrını hiss etmirdim."

Əlbəttə, ağrını hiss etməmək Allahın lütfünün yetərli olduğuna işarə deyil. Bir çox təqib olunmuş məsihçilər düşmənlərin əlində olduqca ağrılı işgəncəni yaşamışdılar. Amma onlar da bu faktı təsdiqləyirlər ki, onların başqa heç nələri olmayanda Allahın lütfü kifayət edir. Əslində onlar aşkar edirlər ki, Allahın lütfü onlara lazım olan yeganə şeydir.

Romalılara məktub

Yəqin ki, Romalılara məktub kimi dəqiq tədqiq olunan heç bir Müqəddəs Kitab mətni yoxdur. Paulun niyə bu məktubu yazması səbəbi alimlərin çevrəsində xüsusilə mübahisəli bir şeydir. Aydındır ki, Paulun hələ baş çəkmədiyi, amma gələcəkdə baş çəkəcəyinə ümid etdiyi şey məbəddir. Əksər insanlar inanırlar ki, bu b.e. 54-58-ci illərində, daha dəqiq desək, b.e. 57-58-ci illərində yazılıb. Romadakı məbəd həmin vaxtlarda hansısa təqiblə üzləşmirdi. Əksinə belə görünür ki, oradakı məbəd Neronun padşahlığının ilkin illərində imperiyanın müdafiəsindən zövq alırdı.

Roma məbədinin mənşəyi qeyir-müəyyəndir. Bu daha çox Həv. İş. 2-ci fəsildəki yeni imana gəlmiş yəhudilərin, səyahət edən tacirlərin və ya başqa şəhərlərdən Romaya köçənlərin təsiri ilə yaranmışdı. Klavdinin əmri ilə b.e. 49-cu ilində qovulmadan əvvəl Romada yəhudilərin sayı təqribən 40-50 min idi. Bu qovulma şübhəsiz ki, Romada məbədin xasiyyətinə olduqca böyük təsir göstərmişdi.

Birinci şübhəsizdir ki, Klavdinin əmri İsa ilə əlaqədar yəhudilərin arasında yaranmış çaxnaşmaya görə verilmişdi. B. e. 41-ci ilində Klavdi yəhudiləri Romadan qovmaq istəyirdi, çünki çoxlu sayda yəhudilər, eləcə də romalılar iudaizmi qəbul edirdilər. Klavdisin fəaliyyətlərini qeydə alan Roma tarixçisi Suetonius yazmışdı: "O, Krestus barədə təhrikçilik edən bütün yəhudiləri Romadan qovdu." Ümumiyyətlə, "Krestus" "Məsih" deməkdir və bizim üçün burada dəlil var ki, Romadakı məbəddə həmin vaxtlarda əsasən yəhudilər idilər, öz yəhudi soydaşlarından böyük müqavimət ilə üzləşmişdilər, Paul və onun məbəd yaradan əksər yoldaşları da öz xidmətləri boyunca bununla qarşılaşmışdılar. Çaxnaşma Klavdiyə imkan vermişdi ki, yəhudiləri açıq şəkildə narahatçılıq yaratmadan Romadan qovsun.

Bu qovulma Roma məbədinin demoqrafiyasının əhəmiyyətli dərəcədə dəyişməsinə təsir etmişdi. Əvvəllər yəhudi məbədi olan indi bütpərəstlərin məbədinə çevrilmişdi. İmana gəlmiş bütpərəstlər öz rəhbərliklərini qurmalı idilər. Onlar da öz növbəsində öz soydaşlarına müjdəçilik etmişdilər, bu da tezliklə öz yəhudi köklərini itirən məbəd ilə nəticələnmişdi, baxmayaraq ki, onlardan

çoxu yəhudi yazılarını bilirdilər, – yəhudilər kimi ibadət edən "Allahdan qorxanlar"-bütpərəstlər heç vaxt sünnət olunmamışdılar. Məbəd illər keçdikcə böyüdükcə və yəhudilər b. e. 54-cü ilində Klavdinin ölümündən sonra tədricən Romaya qayıtdıqca yəhudi və bütpərəst məsihçilərin müxtəlif həyat tərzləri üzərində yəhudilər və bütpərəstlər arasında gərginlik yaranmışdı (14:13-23).

Aydındır ki, Roma məbədi cəmiyyətin daha yüksək səviyyələrinə yerimişdi. Paul onlara məktubunda Narkis adlı insanın adını çəkmişdi (16:11), ola bilsin ki, bu insan Tiberus və Klavdi imperatorlarının səlahiyyəti altında böyük dövlət məmuru olan Tiberius Klavdi Narkis idi. Paul həm də "Aristobulun ev əhlini" salamlayır, bu ad Böyük Hirodun ailəsində adi adlardan biridir.

Roma tarixçisi Tasitus bildirmişdi ki, b. e. 57-ci ilində Britaniyanın istilaçısı Aulus Plautisun arvadı, "tanınmış qadın" Pomponiya Qraesina "bəzi əcnəbi mövhumatçılığını tutub saxlamaqda və ərinin qanuni qərarına təslim etməkdə" ittiham olunurdu. Belə görünür ki, bu "mövhumatçılıq" Məsihə iman idi, çünki ikinci əsrdə Pomponiya Qraesinanın ailəsi məsihçi idi və ailə üzvlərinin bəziləri Romanın erkən məsihçi katakombalarının birində basdırılmışdı. Tasitusun fikrincə keçmiş hadisələrdən sonra Plautius öz ailəsinin hüzurunda arvadının məhkəmə işini dinləmişdi, bu, qadının qanuni vəziyyətini və xasiyyətini daxil etdiyi üçün yekun qərara gəlmişdi ki, o günahsızdır. Növbəti qırx il ərzində Pomponiya izah etmişdi ki, onun ağıllı və təmkinli həyat tərzi "əziz dostu üçün yas tutmaq" kimi idi. Sordi inanır ki, bu, Romadakı erkən məbədin davranışını özündə cəmləşdirir – onlar özlərinin məsihçi olmaları barədə başqalarına deməkdə daha ehtiyatlı olmağa çalışırdılar.

Bunu qeyd etməyə dəyər ki, bir çoxları iudaizmin cəhətlərini cəlbedici görsələr də, orada həm də Roma cəmiyyətinə qarşı olduqca böyük düşmənçilik mövcud idi. Xüsusilə, Roma ziyalı təbəqəsi buna qarşı çox zidd idi və onların inandıqları başqa yadelli "mövhumatları" Romanın öz qədim dinlərinə və dəyərlərinə olan sadiqliyini zəiflədirdi. Xüsusilə, Tasitus romalıların müqəddəs tutduqlarını ləkələdiklərinə və nifrət etdikləri bütün şeylərə yol verdiklərinə görə amansızcasına yəhudiləri ittiham etdi. Birinci əsrin birinci yarısında Romada yəhudilərə qarşı üç ayrı rəsmi

idarəçilik mövcud idi: b. e. 19-cu ilində Tiberusun rəhbərliyi altında yəhudilərin qovulması, b. e. 41-ci ilində Klavdinin rəhbərliyi altında hüquqların ləğv edilməsi və b. e. 49-cu ilində Klavdinin əmri ilə qovulma. Mənşə etibarilə eyni yerə məxsus olduqları və erkən imanlıların çoxusunun yəhudilər olması faktına görə çox vaxt yəhudilər kimi səhv başa düşülərək həmin dövrün məsihçiləri də eyni ittihamların və ictimai mənfi fikirlərin bəzilərinə məruz qalırdılar. Bundan əlavə Paulun Romalılara məktub yazdığı vaxtda dolayı vergi məsələlərinə görə böyük qəzəb var idi və vergiyığanlar çox vaxt yəhudilərin vergidən yayındıqlarından şübhələnirdilər, çünki dini səbəblərə görə onlara xüsusi imtiyazlar verilmişdi. Roma allahlarının məbədlərinə vergi ödəmək əvəzinə yəhudilərə icazə verilmişdi ki, onun əvəzində yəhudi məbədinə vergi ödəsinlər. Məsihçilər tanınmamış dinin bir hissəsi kimi özlərini təhlükəli bir vəziyyətdə görürdülər, heç bir səbəbə görə vergi ödəmək istəmirdilər.

Bu səbəbdən də Paul məbədə məktub yazanda orada yəhudi məsihçilər olsa da, ən azı b. e. 56-cı ilinə qədər yəhudi cəmiyyəti ilə həqiqi ünsiyyətdən qaçırdı. O bu məktubu yazandan bir neçə il sonra Romaya çatanda biz burada məsihçilərin və yəhudilərin arasında çəkişmələrin az olduğu vəziyyəti tapırıq (Həv. İş. 28:22). Bu, Paulun Romadan yazdığı Filiplilərin kitabından görünür, münaqişənin azlığı ona görə ola bilər ki, onlar həm yəhudi, həm də bütpərəst əhaliyə imanı yaymaqdan çəkinirdilər. Paul Filiplilərə çatdırır ki, onun Romada olması imanlıları öz şəhadətliklərində daha cəsarətli olmağa ruhlandırıb (Filip. 1:12-18). Mənim fikrimcə Paul bütün məktub üçün səhnə yaradan güclü bəyanat ilə romalılara yazanda bu problemdən agah deyildi: *"Mən Müjdədən utanmıram, çünki o, iman edən hər kəsin – əvvəlcə Yəhudinin, sonra da Yunanın xilası üçün Allahın qüdrətidir"* (Roma. 1:16). O, Məsihin xəbərini bəyan etməkdən utanmır; romalı imanlılar da utanmalı deyillər. Onlar həm yəhudilərə, həm də bütpərəstlərə bu xəbəri çatdırmaqda daha fəal olmalı idilər.

Əlbəttə, Allaha üsyan edən dünyada Müjdənin bəyanatını vurğulamaqla təəccüblü deyil ki, Paul, xüsusilə də məbədin təqibdən qaçmağa çalışdığı bir vəziyyətdə həm də təqibdən danışır.

5 və 8-ci fəsillərdə Paul, xüsusilə Müjdədən utanmayanların təqiblə üzləşəcəyindən danışır.

1. Təqib bizdə keyfiyyətləri hasil edir ki, bu da bizi izzət üçün hazırlayır (5:3-5).

> *Yalnız bununla deyil, çəkdiyimiz əziyyətlərlə də fəxr edirik, çünki bilirik ki, əziyyətdən dözüm, dözümdən Allaha xoş gəlmə, Allaha xoş gəlmədən ümid yaranır. Ümidimiz də boşa çıxmır, çünki Allah məhəbbəti bizə verilən Müqəddəs Ruh vasitəsilə ürəklərimizə tökülüb* (Roma. 5:3-5).

Bu hissədən əvvəl Paul iman vasitəsilə bizdə olan Allah ilə sülhdən və məsihçilər kimi bizim *"Allahın izzətinə ümid bağlamağımızda"* necə sevindiyimizdən (2-ci ayə) danışırdı. Amma Paul deyir ki, bizim sevincimiz sadəcə əldə etməklə bitmir. Biz əzablarımızda və təqibdə sevinirik, çünki biz bilirik ki, onlar vasitəsilə Allah bizdə keyfiyyətlər yaradır ki, biz də bunun sayəsində izzət üçün hazılaşaq. Biz artıq müzakirə etmişik ki, mirasımız üçün "layiq olduğumuzu" və Allahın bizə vermək istədiyi cavabdehliklərin öhdəsindən gəlmək üçün qabiliyyətimizi təqib vasitəsilə necə sübut edirik. Amma təqib həm də bizim irs alacağımız cavabdehliklər və imtiyazlar üçün bizi hazırlayır ki, biz "utandırılmayaq."

2. Təqib düşmən dünyada "Ruhda yaşamağın" nə olduğunun bir hissəsidir (8:16-39).

Bu hissə təbii olaraq üç bölməyə bölünür:

a) 8:16,17
b) 8:18-30
c) 8:31-39

Roma. 8:16, 17

Paul 16-cı ayədə deyir ki, biz Allahın övladları olanda O bizə Öz Ruhunu verdi. Bu Ruh bizə şəhadətlik edir ki, biz Allahın həqiqi

övladlarıyıq, Onun varisləriyik və Məsihin yoldaşlarıyıq. Amma 17-ci ayədə həvari maraqlı bir vəziyyəti əlavə edir ki, bir çoxları bu parçanın tədqiqində onu görmürlər:

> *Elə Ruh Özü bizim ruhumuzla birgə şəhadət edir ki, biz Allahın övladlarıyıq.*
>
> *Əgər Onun övladlarıyıqsa, deməli, həm də varisləriyik. Əgər Məsihin izzətinə şərik olmaq üçün* ***Onun çəkdiyi əzablara şərik oluruqsa****, Allahın varisləri və Məsihin irs şəriki oluruq.*

Paul deyir ki, bizim mirasımız Məsih ilə əzabımızdan asılıdır. Əgər Onun əzablarına şərik deyiliksə, Məsihin izzətində heç bir şəriklik yoxdur. Əgər Məsih izzətlənmək üçün əzab çəkməyə məsh olunubsa (Luka 24:26; eləcə də Filip. 2:6-11; 1 Peter 1:11), onda bizlər də Onun varisləriyik. Məsihdə olmaq təkcə Onun övladlığını bölüşmək deyil, eləcə də Onun inkar edilməsini və ölümünü bölüşməkdir. Onu Rəbb kimi tanımayan dünyada sadiqliklə Onun arxasınca gedənlər üçün belə əzab qaçılmazdır.

Gələcəkdə mirasımızı qəbul etmək üçün hazırlığımızı nümayiş etdirməklə bizim yer üzündə Onun məqsədlərini yerinə yetirmək üçün işimizdə ölümədək Onun arxasınca getməyə hazırlığımız imanımızın gerçəkliyinə sübutdur. Bizim bu həyatda Onunla həmkarlığımız bizi püxtələşdirir və Onunla əbədiyyatda həmkarlığımız üçün bizi layiq edir.

Bəzi alimlər öz narahatçılıqlarını ifadə edir ki, mükafatlara belə baxış Paulun iman vasitəsilə bəraət qazanma və mükafatlar barədə təlimlərinə zidd gedir. Ümumi meyillik mükafatlar ideyasını əslində heç bir məna daşımayana qədər zəiflətməkdir.

Cozef Tonun izahatı faydalıdır:

> Protestant teoloqlar Paulun bu məsələ ilə əlaqədar teologiyasındakı uyğunsuzluqdan çox şübhələnmişdilər, çünki onlar səmavi mükafatların mənasını aydın başa düşməmişdilər. Mükafatların nə olduğu aşkar ediləndə, yəni onlar Allahın var-dövləti üzərində varisliyi qazandıran mirası

qəbul etməyimiz kimi görünəndə və səmavi padşahlıqda daha yüksək və ya daha alçaq rəhbərlik vəzifələri veriləndə aydın olur ki, Allah Öz övladlarının bu mükafatları *qazanmasını* istəmir!

Allahın Öz övladları üçün saxladığı mükafatlar Onun lütfü *ilə* onlar üçün nəzərdə tutulub. Məsələ əvəzində Allahın bizə nəsə verməsinə görə Onu məcbur etmək üçün bəyənmə əldə etmək deyil. Dünya yaranmazdan əvvəl Allah artıq bu mirası Öz övladlarına verməyi planlaşdırmışdı. O, Öz yaratdıqları üzərində idarəçilər olmaları üçün dünya yaranmazdan əvvəl kişilər və qadınlar yaratdı. Məsələ burasındadır ki, Allah kişilər və qadınlarda Özünə bənzər xasiyyəti yaratmaq istədi, onları Öz surəti ilə bəzədi; bundan başqa O istədi ki, bu xasiyyəti onlarda yerdə yaşayarkən çətin sınaqlar zamanı yaratsın. Prosesin sonunda Allah istəyir ki, Öz övladlarının hər biri ləkəsiz, qərəzsiz, özünü qurban verən, dözümlü, sadiq və itaətkar olsun. Bu, Allahı çox razı salır və bu, kamil insan barədə Onun ideyasıdır, belə insan Onun əbədi padşahlığında böyük və izzətli olan idarəçilik etmək və səlahiyyətə sahib olmaq imkanına məxsusdur.

Biz Məsih ilə birlikdə əzab çəkməyə çağırılmışıq, öz məqsədlərimizi Onun məqsədləri ilə, Onun çarmıx metodunu bizim xidmət metodumuz ilə birləşdirməliyik. Biz Onu və Onun həyatını daxilimizdə nümayiş etdirməliyik, öz rahatlığımızın, hətta öz həyatlarımızın bahasına Onun xilas lütfünü yaymalıyıq.

Roma. 8:18-30

Paul yazır, biz Məsih üçün nə qədər çox əzab çəksək də, bu bizə aşkar ediləcək izzət ilə müqayisə olunmağa dəyməz (18-ci ayə). Biz öz mirasımızı oğullar kimi qəbul edəndə təbiət özü bizi həyəcanla bu günü gözləməyə birləşdirir. O, biz təqibdən keçdikcə və Onun uğrunda əzab çəkdikcə bizimlə birlikdə inildəyir. Bizi irəlidə gözləyən şeylərə görə ümidlə gələcəyə baxırıq.

Amma biz hələ də inildəyirik. Təqib əzabdır. "İndiki" vaxt inildəmək vaxtıdır. Bütün təbiət birlikdə inildəyir (*sunodinei*, 22-ci ayə); məsihçilər oğullar kimi övladlığa götürülməyə görə inildəyir (*stenazomen*, 23-cü ayə), Müqəddəs Ruh iniltilərlə bizim üçün vəsatət edir (*stenaqmoi*, 26-cı ayə). Biz iniltimizdə tək deyilik.

Ruh bizə zəifliklərimizdə vəsatətçilik edir (26-cı ayə). Elə vaxtlar var ki, biz necə dua edəcəyimizi bilmirik. Amma İsa vəd etdiyi kimi Ruh bizə padşahlar və rəhbərlər qarşısında sözlər verəcək ki, deyək (Matta 10:19), belə ki Ruh Özü bizim üçün dua edir, əziyyətlərimizin içində bizim hisslərimiz o qədər ağır olur ki, hətta biz Ata qarşısında söz deməyi bacarmırıq. O, Allahın iradəsinə uyğun şəkildə şəfaət edərək, bizim xeyrimizə vəsatət edir (27-ci ayə).

Biz inanırıq ki, Allah hər şeyin bizim xeyrimizə işləməsi üçün fəaldır. Hər şey deyərkən, mən inanıram ki, burada şərik olmuş varislər kimi Paul təqibdən və Məsih ilə birlikdə əzab çəkməkdən danışır (17-ci ayə).

28-ci ayənin "biz bilirik" ifadəsi 26-cı ayənin "biz bilmirik" ifadəsi ilə ziddiyyət təşkil edir və 27-ci ayənin "O bilir" ifadəsi ilə mümkün olur. Biz ola bilsin ki, təqib zamanı necə dua etməyi bilmirik, amma Ruh bilir və biz bilirik ki, Allahın bizim üçün planları əzab və təqib ilə həmişə uyğunlaşır.

Bu səbəbdən də əgər sual verilsə ki, "Təqib yaxşı şeydir?" onda biz cavab veririk ki, "Xeyr, amma Allah qadirdir ki, o bizim xeyrimiz və Allahın izzəti üçün işləsin. Bu vasitələr ilə biz öz mirasımızı qəbul etməyə hazırlaşacağıq."

Allahın planına heç vaxt təqib və əzab mane olmayıb və heç vaxt olmayacaq. O bunu seçib ki, biz Onun əvvəlcədən təyin etdiyi insanlar kimi ola biləkbelə insanların xasiyyəti Onun Oğlunun xasiyyəti kimidir (29-cu ayə). O bu prosesə bizi Özünə tərəf çağırdığı, bəraət qazandırdığı və izzətləndirdiyi vaxtdan başlayıb. 29, 30-cu ayələrdə istifadə edilən keçmiş zaman formaları diqqətəlayiqdir. Bizim izzətlənməyimiz hələ bizim üçün gerçəklik olmadığına görə çox yəqindir ki, Paulun fikrində bu Allahın fikrində olduğu kimi keçmiş zamanda idi, O əvvəlcədən təyin etmişdi ki, biz təqib vasitəsilə Onun Oğlunun surətinə bənzər dəyişiləkbu

da bizim izzətlənməyimizdə öz zirvəsinə çatacaq. Bu izzətlənmə qabaqcadan qəbul edilmiş qərardır. Bu baş verəcək, çünki bu Allahın iradəsindədir.

Amma Allahın Onu sevənlər üçün hər şeyi (8:28) yaxşılığa çevirməyə qadir olması bu həyatda görünməyə bilər. Bu sözlər Allahın izzəti və məsihçi ümidinin məzmununda var. Bu tarixin böyük planıdır ki, imanlı geriyə baxa biləcək və əminliklə deyəcək ki, Allah həqiqətən, hətta təqibi də Öz övladlarının həyatında Onun məqsədlərini yerinə yetirmək üçün istifadə etməyə qadirdir. Bekerin sözlərinə əsasən desək, bu gün əzab qarşısında imanlı üçün mənasız görünən ümid "Allahın yaxınlaşan qələbəsi ilə möhkəmlənmiş və bəslənmişdir."

Bu həmin təqiblə üzləşənlər üçün böyük ruhlanma olmalıdır. Əgər biz Məsihin əzabında bölüşürüksə, biz Onun izzətində şərikliyə əminik (17-ci ayə). Beləliklə sınaqlar nə qədər ciddi olsa da, bizi sevən Allah vasitəsilə "super qaliblər"ik (37-ci ayə; eləcə də 5:5-10).

Məbədin iki böyük himni bu həqiqətləri heyranedici gözəllik və qüvvət ilə ifadə edir. Birinci himn Reformasiya xoru olan "Gəlin həmişə İsa ilə addımlayaq" ilahisidir, bu 1653-cü ildə yazılıb, həm əzabda, həm də izzətdə bizim Məsihə bənzəməyimizi vurğulayır:

Gəlin İsa ilə əzab çəkək,
Onun surətinə bənzər həmişəlik dəyişiləkk;
Səmavi izzət tezliklə bizi məmnun edəcək,
Qasırganın ardınca günəşin nuru gələcək.
Biz kədər göz yaşları içərisində əksək də,
Səmavi sevinc ilə biçəcəyik;
İndi bizi narahat edən qorxular
Sabah gülüşə çevriləcək.
Məsih, burada Sənlə əzab çəkirəm;
Orada Öz sevincini mənimlə bölüş!

Gəlin İsa ilə birlikdə ölək.
Onun ölümü bizi ikinci ölümdən,
Qəlblərimizin məhvindən azad edir,

Həyatın şən nəfəsi ilə bizi canlandırır.
Gəlin bədən və qanı məhv edək
və günah üçün ölək;
Və bizi örtən qəbir
cənnətin darvazasını aşkar edəcək,
Orada əbədi yaşamaq üçün
İsa, burada Sənin üçün ölürəm.

Gəlin, İsa ilə şən yaşayaq;
Axı O, ölülərdən dirilib,
Ölüm və qəbir tezliklə bizi buraxmalıdır.
İsa, Sən indi Başımızsan,
Biz həqiqətən Sənin üzvlərinik;
Sən yaşadığın yerdə biz də yaşayacağıq.
Sənin əziz qardaşların kimi Sadiq Dost,
Bizi həmişəlik götür və sahiblik et.
İsa Sənlə burada həm də
Orada əbədi yaşayıram.

Klassik ingilis himni "İsa, mən öz çarmıxımı götürmüşəm" Henri Fransiz Lit tərəfindən yazılmışdır. Bu himn Romalılar 8-ci fəsildən bir parçanın sözlərinə çox uyğunlaşır, burada əzabdan sonra izzət vəd olunur və Allahdan asılı olmaq xahiş olunur:

İsa, mən öz çarmıxımı götürmüşəm, hər şeyimi atmışam və Sənin ardınca gedirəm.
Sən tənha idin, Sənə nifrət edildi, rədd olundun, bundan sonra mən Sənin kimi olacağam.
Axtardığım, ümid etdiyim və ya bildiyim bütün arzularım məhv olsun.
Amma mən necə də zənginəm! Əminəm ki, Allah və cənnət mənə məxsusdur.

Qoy dünya mənə nifrət edib tərk etsin, onlar Xilaskarımı da tərk etmişdilər.

İnsan ürəkləri və sifətləri məni aldadır; amma Sən heç vaxt onlar kimi aldatmırsan.
Sən hikmət, məhəbbət və güc Allahısan,
Düşmənlər və dostlar mənə nifrət edə bilər, amma Sən mənim üzümə güləndə Üzünü mənə göstər və bu mənə bəsdir.

Dünyəvi izzət və var-dövlət məndən uzaqlaşın! Fəlakət, nifrət və ağrı qoy gəlsin!
Sənə xidmət edərkən hətta ağrı belə mənə ləzzət edir; Sənin xeyir-duanla, hətta itki qazancdır.
Mən Səni "Abba Ata" çağırıram; Mən ürəyimi Sənə vermişəm:
Qasırğalar vıyıldaya bilər və buludlar toplaşa bilər, bunların hamısı mənim xeyrimə işləməlidir.

İnsanlar mənə əziyyət, sıxıntı verə bilər, amma bunlar məni Sənə yaxınlaşdıracaq.
Həyat öz sınaqları ilə məni əzə bilər; cənnət mənə daha şirin rahatlığı gətirəcək.
Kədər mənə zərər vurmayacaq, çünki məndə Sənin sevgin var;
Əgər sevinc Səndən gəlmirsə, o sevinc uzun sürməz.

Mənim qəlbim tam xilası qəbul et; günah, qorxu və qayğı üzərində qələbə çal;
Çətin olsa da, hər bir vəziyyətdə sevinc tap:
Səndə kimin yaşadığını düşün; Allahın xeyir-duası sənin üzərindədir;
Xilaskarın sənin üçün öldüyünə görə sən Allahın övladısan, səncə kədərlənməyə dəyərmi?

Lütflə yaşayıb izzətə doğru get, iman ilə silahlan və dua ilə möhkəmlən,
Bir gün sən cənnətə çatacaqsan və Allahın öz əli səni oraya aparacaq.

Yerdəki işin tezliklə bitəcək, səyyahın günləri tezliklə keçib gedəcək;
Ümid tezliklə gerçəkləşəcək, iman gözlə görüləcək və dua izzətlənəcək.

Roma. 8:31-39

Bütün bunlara nəzərən (18-30-cu ayələr) Paul 8:31-39-da nida edir,

Bəs bunlar barədə nə deyə bilərik? Əgər Allah bizimlədirsə, kim bizə qarşı dura bilər?
O, Öz Oğlunu belə, əsirgəməyib Onu hamımızın uğrunda ölümə təslim etdisə, Onunla birgə bütün şeyləri də bizə lütf etməyəcəkmi? Allahın seçdiyi adamları kim ittiham edə bilər? Onları saleh sayan Allahdır! Məhkum edən kimdir? Ölmüş, üstəlik dirilmiş Məsih İsa həm Allahın sağındadır, həm də bizim üçün vəsatətçilik edir. Məsihin məhəbbətindən bizi kim ayıra bilər? Əziyyətmi, sıxıntımı, təqibmi, aclıqmı, çılpaqlıqmı, təhlükəmi, qılıncmı? Necə ki yazılıb: "Biz gün boyu Sənin uğrunda öldürülürük, qurbanlıq qoyunlar sayılırıq."
Lakin bizi Sevənin vasitəsilə bütün bunlarda tam qələbə qazanırıq. Çünki əminəm ki, nə ölüm, nə həyat, nə mələklər, nə başçılar, nə indiki, nə də gələcək şeylər, nə qüvvələr, nə ucalıq, nə dərinlik, nə də başqa bir məxluq bizi Rəbbimiz Məsih İsada olan Allah məhəbbətindən ayırmağa qadir olmayacaq.

Bu ayələr əbədi təhlükəsizlik vədi kimi günahda yaşayanlar üçün vəd deyil. Məzmun tələb edir ki, biz bu vədin hər şeyini Ona verənlər və İsa ilə əzab çəkənlər üçün olduğunu anlayaq. Vəd budur ki, onların xaricdən qarşılaşdıqları heç bir şey onların imanlarını dağıda bilməz. Bizi təqib edənlər nə istəyirlərsə, onu deyə bilərlər. Onlar təsəvvür etdikləri hər bir cinayəti bizim başımıza gətirə bilərlər. Onlar bizi öldürə bilər, ac saxlaya bilər və işgəncə verə

bilərlər. Onlar bizim gözlərimiz önündə sevdiyimiz insanları öldürə bilərlər. Onlar bizi həbsxanalarda zəncirlərin içərisində çürümək üçün saxlaya bilərlər və ya ticarət meydanlarında alçalda bilərlər. Amma heç bir şey bizi Allahdan ayıra bilməz. Dünyanın pislik etmək məqsədi ilə etdikləri hər bir şeydən Allah istifadə edəcək ki, bizi izzəti üçün hazırlasın!

Qalatiyalılar

Korinfdə olduğu kimi Qalat. 6:12-də də görünəcək ki, yəhudilər tərəfindən təqib olunmamaq üçün Müjdənin xəbərini təhrif edənlər qalatiyalıların da arasında var:

> *Zahirən və cismən yaxşı təsir buraxmaq istəyənlər yalnız Məsihin çarmıxı üzündən təqib olunmamaq üçün sizi sünnət olunmağa məcbur edirlər.*

Korinfdə olduğu kimi Paul çarmıx istisna olmaqla, qalatiyalılar qarşısında qürrələnməkdən imtina edir: *"Mənsə Rəbbimiz İsa Məsihin çarmıxından başqa şeylə əsla öyünmərəm. Bunun vasitəsilə dünya mənim üçün çarmıxa çəkildi, mən də dünya üçün çarmıxa çəkildim*" (Qalat. 6:14).

O, məktubu Qalat. 6:17-də olan ən maraqlı ifadə ilə yekunlaşdırır: *"Bundan sonra qoy heç kim mənə əziyyət verməsin. Çünki mən İsanın yara izlərini bədənimdə daşıyıram.*"

Paul öz işgəncəsindən və təqibindən olan yaraları Məsihin möhürü hesab edir, bu möhür onu qul kimi işarə edir. Paul deyir ki, onun Məsihə məxsus olduğunu sünnət işarə etmir, təqibin yaralarına İsanın Müjdəsi səbəb olmuşdu.

"Bu Müjdəni dəyişməyə çalışmayın" – deyə Paul qalatiyalılara yalvarır. "Təqibdən qaçmaq istəyənlər çarmıxı aradan qaldırırlar, amma Məsihin çarmıxı Müjdənin mərkəzidir və çarmıxın daşınması ilə zəruriləşmiş Müjdəni sizə çatdırır." Mərkəzində çarmıx olan Müjdəni bölüşmək həmişə çarmıxı daşıyan qasidləri tələb edir.

Efeslilər

Qalatiyalılarda olduğu kimi Efeslilər məktubu təqib barəsində çoxlu təlimlərdən ibarət deyil. Amma təqib güman olunandır və xüsusilə biz Paulun bu məktubu Məsih üçün həbsdə olan biri kimi yazdığını xatırlayarkən bu təəccüblü olmamalıdır (3:1; 4:1). Amma o, özünü yəhudilərin və ya romalıların qurbanı kimi görməkdən imtina edir; o məhbusdur, çünki Məsihin davamçısı olmağı seçmişdir. O Romanın deyil, İsanın məhbusudur. Bu, Paulun Məsihin davamçısı kimi Ona olan oxşarlığının bir hissəsidir.

Efes. 3:1

3:1-də Paul deyir,*"siz başqa millətlərdən olanlar uğrunda Məsih İsanın məhbusuyam*" və 3:13-də onlardan xahiş edir, "*sizin üçün çəkdiyim əziyyətlərdən ötrü ruhdan düşməyin. Bu sizə izzət gətirir.*"

Hər iki ifadələrdə eyni yunan ifadəsindən, ***(uper umon)*** "sizin uğrunuzda" istifadə edir.

İki məqamı yadda saxlamağa dəyər. Birinci, Paulun Həv. İş. 21-ci fəsildə Yerusəlimdəki həbsi yeni imana gəlmiş, efesli Trofimusa görə idi, o, yəqin ki, Paul Yerusəlimə getməzdən qabaq Efesdə ona qoşulmuşdu (Həv. İş. 20). Yəhudilər Paulun Trofimusu məbədə apardığını biləndə Paulu həbs etdilər, çünki məbədi natəmiz etmişdi. Efeslilər şübhəsiz ki Paulun həbsinin səbəblərindən agah idilər.

İkinci, Paul, xüsusilə bütpərəst insana himayədarlıq etdiyinə görə həbs olunmuşdu. Efeslilər bilir ki, Paulun bütpərəstlərə Müjdəni çatdırması və onlarla birləşməsi Paulun azadlığı bahasına başa gəldi, hətta bu onun həyatı bahasına başa gələ bilər. Paul dərk edir ki, bu, Məsihin xidmətini icra etməyin qiymətidir, o, Həv. İş. 20:24-də bunu qeyd edir.

> *Öz canıma heç əhəmiyyət vermirəm, onu qiymətləndirmirəm. Mənə kifayətdir ki, yolumu – Rəbb İsanın mənə tapşırdığı kimi Allahın lütfünü göstərən Müjdəni şəhadətetmə xidmətini başa çatdırım.*

Efeslilərə məktubun əsas mövzusu Məbədin, yəhudilərin və bütpərəstlərin birliyidir. Allahın Padşahlığında yəhudilər və bütpərəstlər arasında ünsiyyət Paulun fikrində ən əsas narahatçılıq idi. Onun Efeslilərə yazdığı məktubunda Paul Ona iman edənlərin hamısını bir yerə gətirməyin Allahın başlanğıcdan planı olduğunu diqqətlə izah edir (2:11-18; 3:6). Allah dünya yaranmazdan əvvəl "Məsihə bənzər"lər üçün Məbədi planlaşdırmışdı və bu plan əvvəlcə gizli olsa da, artıq sirr deyil və Məsihin Müjdəsində tamlığı ilə aşkarlanıb (Efes. 1:9; 3:7-12). Bu yaxşı xəbərdir və Allahın bütün xalqlar (yəhudilər və bütpərəstlər) üçün arzuladığı sirrini, yəni onları Öz seçilmiş xalqı etməsi, hətta səmadakı başçılara və və hakimlərə bunu aşkar etməsidir (3:10). Bu gözəl xəbər elə bir xəbərdir ki, onu hər bir kəsə bölüşmək seçilmişlərə həvalə olunub. Bu aşkar edilmiş sirri sözdə, düşüncədə və əməldə dəstəklədiyi və bəyan etdiyi üçün Paul məhbusa çevrilmişdi.

Paul efeslilərə xatırladır ki, onun həbsi "onların izzəti" üçündür (3:13). Burada biz yenə də görürük ki, Paul əzab və izzəti yan-yana qoyur. Paulun əzabı bütpərəst imanlılara izzətin həyat təcrübəsini gətirir. Başqa sözlə desək, onun həbsinə görə onlar indi azadlığı hiss edirlər. O onlara görə əzab çəkir (3:13).

Efeslilər sonuncu dəfə Paulu görəndə ağladılar və çox kədərləndilər, çünki onlar dedilər ki, onu bir daha görməyəcəklər (Həv. İş. 20:38). O onlara Müjdəyə görə əzab çəkdiyi təqibi xatırlatdı (20:17-21), həm özü (20:22-27), həm də onlar (20:28-31) üçün olan gələcək əziyyətlərdən xəbərdarlıq etdi. O onları Allaha həsr etdi və Yerusəlimə getməzdən qabaq onlar üçün dua etdi (20:32-37). İndi Efes. 3:13-də o onlardan xahiş edir ki, həbsdə olduğu üçün ruhdan düşməsinlər. O həbs olunmazdan əvvəl sahildə onlar üçün dua etdiyi kimi yenə də dua edir (3:13-19). O dua edir ki, onlar Məsihin məhəbbətini tamlığı ilə dərk edərək Onda kök salıb təməl qoysunlar. O dua edirdi ki, heç bir şey Onun məhəbbətində təməl qoymuş insanların imanını kökündən qoparmasın və ya dağıtmasın (Roma. 8:28, 29-a baxın).

Efes. 4:1

Rəbb üçün məhbus olan Paul (4:1) həyat təcrübəsindən danışır və müəyyən səlahiyyətini göstərir, belə ki Efesdə olanlar bu səlahiyyətə diqqət yetirməli idilər. O bilir ki, qarşıdurma ilə üzləşəndə imanlı təqibdən qaçmaq üçün imanından və ya başqa imanlılar ilə ünsiyyətindən utanmağa meyl edir. Əksinə Paul xahiş edir ki, məbədin üzvləri elə həyatı yaşasınlar ki, bu həyat çağırıldıqları çağırışa *"layiq"* olsun (4:1).

"Çağırıldıqları çağırışa layiq tərzdə" yaşamağın mənası nədir?

Biz tədqiq etdiyimiz kimi dünya yaranmazdan əvvəl Allah Ona iman edənlərdən – yəhudilərdən və bütpərəstlərdən, qul və azad insanlardan, kişi və qadınlardan ibarət olan Öz məbədini seçdi ki, məqsədlərini icra etmək üçün Ona qoşulsunlar. Bizlər hamımız bu çağırışla çağırılmışıq. Bu çağırışa layiq tərzdə yaşamaq həmin həyata uyğun tərzdə yaşamaqdır. Paul üçün bu yekdillikdə yaşamaqdır (4:2-16). Biz yəhudi və bütpərəstlərdən ibarət olan bir Məbədik. Bu teoloji həqiqət öz ifadəsini əməli həyatda tapmalıdır.

Paul mübahisə edir ki, imanlılar Bir Bədən olmağa çağırıldıqları bir halda onlar parçalananda bu Müjdəyə zidd gedir. Bu parçalanma Məsihin bizim üçün etdiyi işə və Paulun həbsdə olması səbəbinə qarşı zidd gedir.

Əgər Paul Məbədin birliyini dərk etməkdən imtina etsəydi, o həbs olunmazdı. Paulun Allahın yəhudilərdən və bütpərəstlərdən ibarət bir xalqının olduğunu inadcıllıqla söyləməsi onun dəfələrlə təqib olunmasına və nəhayət Yerusəlimdə həbs olunmasına səbəb olmuşdu. O, efeslilərdən xahiş edir ki, özləri arasında parçalanaraq bu həqiqəti inkar etməsinlər.

Efes. 6:10-20

"Nəhayət, Rəbdə və Onun böyük qüvvəsində möhkəmlənin." 6:10-da Paul Efeslilərə məktubunu düşmən dünyada möhkəm qalmaq üçün lazım olan ruhlandırıcı sözlər ilə yekunlaşdırmağa başlayır. O, 1:19-21-də təqdim etdiyi ilahi güc barədə mövzusuna qayıdır. Məsih bu indiki dövrdə fəaliyyət göstərən qüvvələr üzərində qələbə çaldı (1:21; 2:2; 3:10) və Onun göylərə qalxması

elə bir qüvvəni hasil etdi ki, bu qüvvə imanlılarda və həbsdə olan həvarinin xidmətində fəaliyyət göstərir (3:7).

Paul indi 6:10-20-də auditoriyada emosional cavab yaratmaq məqsədilə məktubun əsas mövzularını yekunlaşdırır. Əgər onun əvvəlki fəsillərdə dedikləri doğru idisə, onda efeslilər qarşıdurma ilə üzləşərkən belə yaşamalıdırlar. Paul tapşırığı böyük məzmunda qoyur ki, onlar daha geniş baxışı əldə etsinlər, döyüş təsvirindən istifadə edərək oxuculardan xahiş edir ki, onlara qarşı olan şər qüvvələrə qarşı möhkəm dursunlar. Bu parça üç hissəyə bölünür:

1. 6:10-13-də Paul oxucuları ruhlandırır ki, güclü olsunlar və onlara xatırladır ki, Rəbdən və Onun gücündən güclərini alsınlar. Təqib qarşısında dayanmaq gücü insanın daxilindən gəlmir. Döyüş məzmunu əslində ruhani bir şeydir – imanlılar şeytana qarşı dayanıb Allahın tərəfindədirlər. Döyüş Allahın baxışına əsasən insan düşmənlərə qarşı deyil, qardaşları ittiham edən düşmən tərəfindən idarə olunan qüvvələrə qarşıdır. Başqa hissələrdə (1:21; 3:10), Paul artıq "başçılara" (***arch***) və "hakimlərə" (***exousia***) müraciət edir. İndi o yeni terminlər ilə siyahını genişləndirir və belə etməklə bu mənanı çatdırır ki, şər qüvvələr dünyaya nüfuz edir. Amma Allahın gücü belə qüvvələrin hər birindən üstündür.

   "*Onun böyük qüvvəsi*" ifadəsi (6:10) Yeşaya 40:26-nın Septuaqint Yunan tərcüməsinə işarə ola bilər, burada Yeşaya kainatı və onun səmavi varlıqlarını yaradan Allahın yaradıcı gücündən danışır. Həmin bu gücdür ki, əslində imanlı üçün "pis gün"də düşmənçiliyin qarşısında ona verilir (13-cü ayə). İmanlı üçün çağırış isə Allahın onun üçün verdiyi bütün mənbələri öz üzərinə götürməkdir. İmanlı üçün möhkəm dayanmaqda uğursuzluq yoxdur; Allah onun ehtiyacı olan hər şeyi ona verib (2 Peter 1:3-ə baxın).

2. 6:14-17-də Paul "durun" əmri ilə başlayır. Paul istəyirdi ki, efeslilər qarşıdurma və düşmənçilik ilə üzləşərkən özlərini belə aparsınlar, bu əmr onun əsas məğzini yekunlaşdırır. Sadiqlik

və mənəvi paklıq (kəmər) dayaq olacaq və imanlını bərkidəcək. Doğru olanı etmək və ədalət göstərmək (zireh) əsas müdafiəni təmin edəcək. Müjdənin hasil etdiyi sülh (ayaqqabılar) ilə yaşamaqla hazır olmaq ayrılıq yaratmaq istəyən qüvvələrə qarşı döyüş üçün ən yaxşı hazırlıqdır. Allahdan və Onun mənbələrindən asılılıq və Ona etibar (qalxan) düşmənin imanlının həyatına etdiyi hər bir hücumundan tam müdafiəni təklif edir.

17-ci ayədə sintaksis imanlının götürməli olduğu şeylərdən onun qəbul etdiyi şeylərə keçir. Həm xilas, həm də Kəlam bizə verilən şeylərdir, bu, imanlının inkişaf etdirməli olduğu keyfiyyətlər deyil. İmanlı qaranlıq hökmdarının hökmranlığından azad olub (xilas dəbilqəsi) və hücuma keçə bilər (qılınc), Müjdə Ruhun nüfuz edən gücü altında vəz edilərkən başqalarını da əsarətdən azad edə bilər.

3. 18-20-ci ayələrdə Paul aydın edir ki, Allahın ilahi zirehlərinin tətbiq olunması və döyüşdə möhmək durmaq duada Allahdan asılı olan həyatı tələb edir. İmanlı dualar ilə ayıq dayanmağa və Müqəddəs Ruh ilə ("Ruhda") idarə olunmağa və ruhlanmağa çağırılıb, təkcə özünün möhkəmlənməsi üçün deyil, həm də başqalarının möhkəmlənməsi üçün dua etməlidir. Xüsusilə, efeslilər Müjdə uğrunda həbsdə olan Paul üçün dua etməlidirlər (19-cu ayə).

Vurğu həbsdə olan həvariyə keçdikcə 13-18-ci ayələrdə qələbə tonu 19, 20-ci ayələr ilə zəifləyir. Paul azadlığa çıxacağını gözləmir. Amma öz həbsini əvvəlki ayədəki qələbə tonuna zidd və ya məğlubiyyət kimi görmürdü. Onun həbsi onu məhbusdan zəncirlərdə olan səfirə çevirdi (20-ci ayə).

Paulun dövründə dəhşətli həbsxana şəraitləri ilə bu bədii təsvir vasitəsi kimi görünə bilər. Diplomatik toxunulmazlığına görə səfir göndərildiyi adamlar tərəfindən həbs edilə bilməz. Amma əzab çəkən Xilaskara görə səfir kimi xidmət edən Paul üçün bu ən münasib olardı. O, zəncirlərdə olanda onu göndərən

hakimiyyəti daha dəqiq əks etdirə bilir. Həbsxana ona imkan verir ki, səfir kimi vəzifələrini həyata keçirmək üçün Padşahın xəbərini bəyan etsin. O, efeslilərdən dua etməyi xahiş edir ki, o bu işi (hər yaxşı səfir kimi) qorxusuz həyata keçirsin. O (və onlar) sövq olunmaya qarşı durmalıdırlar, özlərini təqib olunmuş, qarşıdurma zamanı gizlənməli olan məğlub olmuş kiçik qrup kimi görməli deyillər. Onlar Padşahın səfirləridirlər, bu dünyanın hakimlərinə və onların hakimiyyəti altında olanlara çatdırmaq üçün gözəl xəbərləri var.

Filipililər

Ümumiyyətlə belə təsdiq olunur ki, Filipililərə məktubun əsas mövzusu sevincdir. Ona görə də bəziləri üçün təəccüblüdür ki, bu kitabda Paulun təqib və əzab barədə ən əhəmiyyətli təlimləri də var. Bu, İsanın Onun uğrunda təqib olunarkən "sevinin və şadlanın" əmri ilə əla uyğunlaşır (Matta 5:6).

Filipililərə 1-ci fəsil

Paul öz məktubuna 3-6-cı ayələrdə onlara görə Allaha minnətdarlığını bildirməklə başlayır, o bildirir ki, onlar Məsihi tanıdıqları vaxtdan Müjdədə onunla birlikdə çalışıblar (1:4, 5). Bu həmkarlıq güclü qarşıdurmada *"Müjdəyə əsaslanan imanda canbir olaraq səy göstərirsiniz"* (1:27) deməkdir (1:28). Əslində bu, filipili imanlılar tərəfindən Müjdənin fəal yayılmasıdır ki, onlara verilən imtiyaz (və ya "lütf") ilə nəticələnmişdi, bu o deməkdir ki, onlara təkcə Məsihə iman etmək deyil, Onun uğrunda əzab çəkmək də aiddir (1:29, 30).

29-cu ayədə Paul **(*caris*)** fel formasından istifadə edir, ümumi olaraq "lütf" və ya "hədiyyə" kimi tərcümə olunur. Bu qeyri-adidir. 29-cu ayə hərfi olaraq belə tərcümə edilə bilər. "Sizə Məsih uğrunda təkcə Ona iman etmək deyil, eləcə də Onun uğrunda əzab çəkmək də lütf edilib." Paul deyir ki, əbədi həyat hədiyyəsini əldə edənlər təkcə filipililər deyillər, amma onlar həm də Məsih uğrunda ilahi hədiyyəni və ya lütfü alıblar.

7-ci ayədə Paul deyir, *"Hamınız haqqında belə düşünməkdə haqlıyam, çünki qəlbimdə yeriniz var. İstər həbsdə olsam, istər Müjdəni müdafiə və təsdiq etsəm, hamınız mənimlə bərabər Allahın lütfünə şəriksiniz."* Paulun 7-ci ayədə lütf barədə danışmasında maraqlı nə var? Buradakı fikir 29-cu ayədə olan fikirlə eynidir. Paul deyir ki, filipililər onunla lütfdə şərikdirlər, həm həbsdə, həm də Müjdəni, hətta zəncirlərdə müdafiə etməkdə həmkardırlar. Paulun indiki vəziyyəti Allahın qasidi, Onun qulluqçusu olmağın nəticəsidir. Filipililər oxşar vəziyyətdədirlər; onlar da Müjdəni yaymaqda iştirak etdikləri üçün əzab çəkirlər. Onlar Paul kimi İsa uğrunda əzabın lütfündə iştirakçılardırlar.

Lütf bu mənada təqib vasitəsilə bizi özünü bir-birinə qurban verən xüsusiyyətə dəyişdirən Allahın işidir, O bizi Məsihə və Onun Müjdəsinə görə özünü qurban verən həyat ilə təchiz edir. Paul bu fikri sonra 2-ci fəsildə inkişaf etdirir, o bizim diqqətimizi İsanın nümunəsinə və Onun bizə görə qurban vermək üçün hazırlığına yönəldir.

Bizlərdən çoxu üçün təqib və əzabın Allahdan böyük hədiyyə ola biləcəyi fikri yad bir şeydir. Biz lütfün bizim heç nə ödəmədən aldığımız bir şey olduğunu düşünürük. Biz belə düşünməyə öyrəşməmişik ki, lütf həm də elə bir şeydir ki, o bizi təkcə havayı xilas hədiyyəsini əldə edənlərə çevirmir, həm də həmin Müjdəni başqalarına özünü qurban verən tərzdə çatdıranlara çevirir.

Paulun burada filipililərə çatdırmaq istədiyi şey bu idi ki, onlara başlanğıcdan Məsihə (xilasın lütfü) iman etmək üçün lütf verilib; amma Müjdənin yayılması uğrunda döyüşə daxil olmaları və iştirak etmələri vasitəsilə sonra onlara da bu yeni lütf, Məsih uğrunda əzabın lütfü verilib.

Məsih uğrunda əzab çəkmək xilas hədiyyəsi kimi böyük minnətdarlıq və sevinc ilə qəbul edilməli olan lütf hədiyyəsidir. Biz dünyanı Məsihə gətirməklə Allahın planında iştirak edə bilərik. Biz xilas hədiyyəsini qəbul edərkən təqib hədiyyəsini əldə etmək imtiyazına malik oluruq. Bu iki şey Paulun fikrində həqiqətən ayrılmaz şeylərdir. Erkən məbədin Onun uğrunda əzab çəkməyi imtiyaz hesab etməsi heç də təəccüblü deyil (Həv. İş. 5:41).

Paul istəyir ki, filipililər bunun necə gözəl hədiyyə olduğunu anlasınlar. 12-26-cı ayələrdə o Məsih uğrunda əzabın lütfünü bölüşməyin onun və Romada olan başqaları üçün necə bir neçə faydası olduğunu izah edir:

1. Onun həbsi və əzabı Romadakı qeyri-məsihçilərə təsir göstərdi (1:12,13).

   Paul deyir ki, həbsxanada olduğuna görə bütün dövlət mühafizəçiləri və "qalan bütün adamlar" (bu sözlə nəyisə nəzərdə tutur) bilirlər ki, o, cinayətkar olduğu üçün zəncirlərdə deyil, o Məsihə sadiqliyinə görə zəncirlərdədir.

2. Onun həbsi və əzabı Romada olan məsihçilərə təsir göstərdi (1:14-18a).

   Paulun həbsinə şahid olanlar Rəbbə təkcə bütün işlər yaxşı gedəndə deyil, həm də çətinliklər və rədd olunmalar ilə üzləşəndə yeni qaydada etibar etməyi öyrənmişdilər. Bir çoxları Romada cəsarətli fərdi müjdəçilərə çevirilmişdilər və sevinmək üçün bu yaxşı səbəb idi. Əlbəttə, bəziləri Müjdəni pak məqsədlər ilə bölüşmürdülər, amma bu Paulun ikinci marağı idi. Fakt budur ki, onun zəncirləri Romadakı məsihçiləri effektli şahidlər olmaq üçün ruhlandırmışdı.

3. Onun həbsi və əzabı Paulun üstün bildiyi şeylərə təsir göstərdi (1:18b-26).

   Paul öz həyatında dəfələrlə ölümlə qarşılaşmışdı. 1 Kor. 15:31-də o bəyan edir, "Mən hər gün ölürəm." O bu sözləri yazarkən deyir ki, indi ölməyə və yaşamağa hazırlaşıb. Paul sadəcə onun üçün şəxsən "lap yaxşı" olduğu üçün ölmək istəmir (1:23). Onun həyatı Allahın əlindədir. O, Məsihə görə maksimum effektliliyi əldə etmək üçün hər bir şeyi qəbul etməyə hazırdır. Onun istəyi budur. Onun əsas məqsədi Allahı ya həyatı, ya da ölümü vasitəsilə izzətləndirmək idi.

Əziyyətlərin içində sevinc ilə dolu olan bir kitabda aydındır ki, sevinc insanın vəziyyətindən asılı deyil; bu, insanın üstün qoyduğu şeylərdən asılıdır.

Filipililər 2-ci fəsil

2-ci fəsildə Paul Xilaskarımızın nümunəsinə diqqət yetirərkən özünü başqalarına qurban verən xasiyyətin nə olduğunu inkişaf etdirir. Filipililərə 2-ci fəslin ilk bir neçə ayəsi insanın özünə tuşlanmış həyata birbaşa hücumdur. İnsanın özünə tuşlanmış həyat Məsihin təsvir etdiyi həyatın tam əksidir.

Özünün Allah ilə bərabərliyini xudbincəsinə başa düşməyən İsa anladı ki, ilahiliyin təbiəti özünü qurban verməlidir. O könüllü olaraq Özünü verdi, qulluqçu formasını aldı və Özünü ölümədək alçaltdı (2:5-8). Paul deyir ki, bu, Məsihin hər bir davamçısının xasiyyəti olmalıdır (5-ci ayə).

Paul deyir ki, İsa əzab çəkdiyi üçün Allah Onu ən ucalara yüksəltdi və bütün adlardan üstün adı Ona verdi (2:9). Yenə də biz görürük ki, Paul əzab ilə izzəti bir-biri ilə əlaqələndirir. Məsih üçün Onun əzabı izzət ilə nəticələndi. Paul bu parçada göstərmir ki, bu həm də imanlı üçün doğrudur, oxucuların bunu başa düşdüyü güman edilir, bizim artıq gördüyümüz kimi bu, Paulun tipik təlimidir.

Növbəti ayələrdə (2:12-16) Paul filipililərdən xahiş edir ki, qaranlıq dünyada alov kimi şəfəq saçaraq, Məsihin onlara nümunə göstərdiyi tərzdə, yəni özünü qurban verən tərzdə yaşasınlar (15-ci ayə), *"həyat sözünü təqdim edin. Qoy Məsihin zühur edəcəyi gündə fəxr edə bilim ki, nə boş yerə cəhd etdim, nə də boş yerə zəhmət çəkdim"* (16-cı ayə). Onların Məsihin nümunəsinə sadiqlikləri Paula göstərir ki, onun xidməti uğursuz deyildi.

2:17, 18-də Paul 1-ci fəsildə öz şəhidliyindən danışaraq başladığı müzakirəni yekunlaşdırır (1:21-26), o deyir, "*Lakin sizin imanınızın qurban və xidməti üzərinə içmə təqdimi kimi töküləcəyəmsə də, sevinirəm və hamınızın sevincinə şərikəm. Siz də məhz bunun üçün sevinin və mənim sevincimə şərik olun.*"

Bəziləri etiraz edirlər ki, Paul 2:17,18-də öz şəhidliyindən danışmır, çünki bu ayələrdə sevinc barədə danışılır. Sanki Paul

deyir ki, ölümü yaxınlaşdığı üçün o sevinir və filipililər ilə birgə şadlanır. Amma Moises Silva cavab verir:

> Paulun sevinci və bədbəxtliyi yan-yana qoymasından daha səciyyəvi olan filipililər barədə nəsə varmı? Paulun 1:18-20-dəki sözləri burada xüsusilə münasibdir, çünki bu parçada da təkrar var (18-ci ayə) və bu baxımdan sevincə ölümün mümkünlüyü təsir göstərmir (20-ci ayə).

Əslində burada istifadə edilən özünü qurban vermə anlayışı bildirir ki, Paul öz ölümünə filipililərin qurbanını tamam edən bir şey kimi baxır.

Filipililərə 3-cü fəsil

3-cü fəslin 2-ci ayəsində Paul filipililərə xəbərdarlıq edir ki, lütf Müjdəsindən uzaqlaşdıran xəbər ilə gələnlərdən ehtiyatlı olsunlar. Paul bildirir ki, əgər kimsə əməllər ilə saleh olubsa, bu o özü olub. Paul yəhudi rəqiblərinin dəyərləndirdiyi bütün uğurlara malkik idi. Amma Paul onları dəyərləndirmir; o onları zibil hesab edir. Onun üçün yalnız Məsihi tanımaq böyük dəyərdir. O, Məsih uğrunda hər bir şeyini itirdi, amma itirdiklərini dəyərləndirmir. Onun indi yeganə dəyəri öz uğurları vasitəsilə deyil, Ona iman etməklə yaranan salehliyi qazanaraq (9-cu ayə) Məsihi əldə etmək və Onda olmaqdır.

10 və 11-ci ayələrdə Paul 8-ci ayədə yarımçıq qoyduğu mövzuya, yəni Məsihi tanımaq mövzusuna qayıdır. 10 və 11-ci ayələrin xırdalıqlarını anlamaq üçün biz onların quruluşları haqqında iki şeyi qeyd etməliyik. Birinci, Paul şübhəsiz nəzərdə tutmur ki, biz üç ayrı faktı bilirik: Məsih, Onun dirilmə gücü və Onun əzablarında iştirak etmə. Daha doğrusu, biz dirilmənin gücünü və Onun əzablarına şərikliyi bilərək Məsihi tanıyırıq. Paulun arzusu budur ki, biz Məsihi tanıyaq. Dirilmənin gücü və Onun əzablarına şəriklik bu məqsəd üçün vasitələrdir.

İkinci, Paul qəsdən bu ayələrdə xiazmdan (sözlərin, qrammatik quruluşların və ideyaların tərsinə qaydada təkrarlandığı bədii təsvir

vasitəsi, *tərcüməçinin qeydi*) istifadə edir. 3:10,11-də Paul 10-cu ayədə ilk iki ifadəni 10,11-ci ayələrdə olan növbəti ifadələr ilə davam etdirir, bu da Paulun Məsihin dirilməsində və əzabında iştirak etməklə Məsihi necə tanıyacağını daha da (tərsinə qaydada) gücləndirir və yenidən vurğulayır.

Belə ki Onu dərk edim

A – həm Onun dirilmə qüdrəti

B – həm də Onun əzablarına şəriklik

B' – Onun ölümündə Ona bənzəmək

A' – nə olursa-olsun, ölülər arasından dirilməyə nail olmaq

Məsihin dirilməsi (A bəndi) Paulun Məsih kimi əzab üzərində (B), qələbə çalmasına imkan verən bir vasitədir. İndiki zamanda *Məsihi tanımağın* mənası "Onun ölümündə Ona bənzəmək" (B bəndi), Onun kimi ölmək deməkdir ki, öz Ağasına bənzəyərək ölülərdən dirilməni əldə edə bilsin.

Bu sonuncu ifadə çaşdırıcıdır. Aydındır ki, "ölülərdən dirilmə" ifadəsi ilə Paulun çatdırmaq istədiyi fikirdən asılı olmayaraq, o əmin deyildi ki, o buna nail olacaq. "Nə olursa-olsun" kimi tərcümə edilmiş yunan sözləri qeyri-müəyyənlik mənasını çatdırmaqdan başqa heç cür izah oluna bilməz. Bu "dirilmə"nin nə olduğundan asılı olmayaraq, bu heç cür müəyyənliyi bildirmir.

"Dirilmə" kimi tərcümə edilmiş söz dirilmə üçün normal yunan sözü (***anastasi***) deyil. Əksinə Paul elə bir sözdən istifadə edir ki, yazılarında başqa heç yerdə ondan istifadə etmir. Burada sual yaranır, "Paul burada hansı 'dirilmədən' danışır?"

Öz yazılarında başqa yerlərdə Paul ölülərdən dirililəcəyinə inandığını ifadə edir (məs, Roma. 8:38,39; 1 Kor. 15). Belə görünür ki, Paulun 3:11-də əldə edəcəyinə ümid etdiyi şey bütün imanlıların ölülərdən dirilməsindən fərqli bir şeydir. Bu qazanılmalı olan

mükafatdır, lütf hədiyyəsi olan xilas deyil (3:14). Bu dirilmə Onun dirilmə gücü və hətta ölüm anınadək Onun əzablarına şəriklik vasitəsilə Məsihi tanımaqla əldə olunur.

Paulun 3:11-də nədən danışdığını bilməkdə bizə kömək məqsədilə 3:14-ü də tədqiq etmək faydalı olar, burada Paul deyir ki, o, "Allahın Məsih İsada yuxarıya çağırışına nail olmaq üçün hədəfə doğru qaçır ki, mükafatı alsın." "Mükafat" üçün istifadə edilən söz maraqlı bir sözdür. Bu **(*brabeion*)** sözüdür və Əhdi-Cədiddə yalnız iki dəfə qarşıya çıxıb – burada və 1 Kor. 9:24-də. Axırıncı parçada Paul yazır: "*Qaçışda yarışanların hamısının qaçdığını, amma təkcə bir nəfərin mükafat aldığını bilmirsinizmi? Elə qaçın ki, mükafatı qazanasınız*." Əksər şərhçilər bu fikirlə razılaşırlar ki, 1 Kor. 9:24 əbədi mükafatlara aiddir, imanlılar bu həyatda sadiqliklərinə görə onu əldə edə bilərlər. Ona görə də Filip. 3:14-də istifadə edilən söz eyni mənanı daşıyır.

Bu iki parçanın müqayisəsi sübut edir ki, bu doğru şərhdir. Hər ikisi Paulun bildirdiyi mükafata aiddir, bu mükafatı imanlılar əldə etməyə ümid etməlidirlər, bu imanlı insanın həyatında sadiqliyi vasitəsilə qazanıla bilər (Matta 6:19-21-ə baxın).

Bunu nəzərdə saxlayaraq, biz yekun fikrə gələ bilərik ki, Filip. 3:11-də deyilən "dirilmə" ölülərdən ümumi dirilməyə aid deyil, xüsusi "dirilməyə", yəni hətta ölüm anınadək sadiq qalan imanlıların dirilməsinə aiddir. İbr. 11:35 ibrətamiz bir parçadır, burada elə imanlılardan danışılır ki, onlar "işgəncə çəkəndə qurtulmaqdan imtina etdilər ki, *dirilib daha yaxşı həyata* nail olsunlar." Bütün imanlılar diriləcəklər, amma axıra qədər dözənlər üçün daha yaxşı həyat var. Onlar çox şeylərdə sadiq oldular və xüsusi imtiyazlara və cavabdehliklərə uyğun tərzdə mükafatlanacaqlar. Bu "dirilmə"nin vurğusu əbədi həyat üzərində deyil, mükafatlar və cavabdehliklər üzərindədir.

Paul 12-ci ayədə deyir ki, o, Məsihi bu yolla tamlığı ilə tanımayıb, yaxud bu dirilməni hələ əldə etməyib, amma fikrində sadiqliyi tutaraq (14-cü ayə) mükafata doğru cəhd edir (13-cü ayə). Bu, onun məqsədidir və filipililəri ruhlandırır ki, onlar da belə düşünsünlər (15-ci ayə).

3:16-da görünür ki, Paul onları bu məktubu almazdan qabaq Məsihin ardınca necə gedirdilərsə, eləcə yaşamağa çağırır. Onlar düzgün yolda idilər və o istəyir ki, onlar bu yolda getməkdə davam etsinlər. 15-ci ayədə yazdıqlarını genişləndirərək, Paul filipililərdən xahiş edir ki, *"Qardaşlar, hamınız birlikdə məndən nümunə götürün və sizə göstərdiyimiz nümunəyə uyğun həyat sürənlərə diqqətlə baxın*."

Həvari bilir ki, o, yeni heç bir şey yazmır (3:1), amma o bu həqiqətləri onlara xatırlatmaqda tərəddüd etmir, çünki aydın görünür ki, bu yolla getməyən bəzi insanlar var (3:18,19). O onlar barədə düşünəndə ağlayır, çünki onlar Paulun düşüncə tərzlərindən fərqli olan (3:15) *"düşüncə tərzlərini*" (3:19) nümayiş etdirir. Onlar *"çarmıxın düşmənləri*" kimi gəzirlər (18-ci ayə). Onlar səmavi mükafatı axtarmağı unutmuşdular. Onlar belə fikirlə yaşayırdılar, "Mən bu həyatdan və onun təklif etdiyi hər bir şeydən zövq alacağam." Onlar çarmıxın yolu ilə-qurban yolu ilə getməkdən imtina edirlər ki, başqaları xeyir-dua əldə etsin. Onların düşüncələri "dirilmə" və ya mükafat (3:14) üzərində deyil (3:11), bu dünyanın təklif etdikləri üzərindədir (3:19).

19-cu ayədə birinci ifadənin dili əbədi məhvdən başqa nəyisə bildirmək üçün yumşaldıla bilməz. Həyat əldə edə bildikləri yerdə bu insanlar məhvi seçirlər. Əzaba görə fəxr etmək əvəzinə onlar utanmalı olduqları şeylərə görə fəxr edirlər (3:19). Onlar *"dünyəvi şeylər barədə düşünürlər*." Bu ittiham aktının məğzidir.

18-20-ci ayələrdə olan bu insanlar kimlərdir? Bunu demək çətindir. Onlar təqib zamanı imandan dönənlərdirlər. Onlar ola bilsin ki, Paulu həbsdə və təqibdə olarkən atan və "bu dünyanın" düşüncə tərzini qəbul edənlərdir. Onlar ola bilsin ki, tez-tez Korinfə gələn və Paulun onlara qarşı durmağa məcbur olduğu səyyah xidmətçilər ("super həvarilər") idilər.

3:20,21-də Paul filipililərə xatırladır ki, *"Bizsə səma vətəndaşlarıyıq və oradan Xilaskar olan Rəbb İsa Məsihi həvəslə gözləyirik. O hər şeyi Özünə tabe etməyə qadir olan qüvvəsinin təsiri ilə bizim yazıq bədənimizi dəyişdirib Öz izzətli bədəninə bənzər hala gətirəcək*." Filipililər qeysər Avqust tərəfindən yaradılan Roma müstəmləkəsində olduqlarına görə fəxr

edirdilər, bu müstəmləkə onlara Roma vətəndaşının imtiyazlarını və nüfuzunu gətirmişdi. 1:27-də Paul onlardan xahiş edir ki, Məsihin Müjdəsinə layiq olan vətəndaşlar kimi hərəkət etsinlər. İndi o, Filipidə olan imanlılara xatırladır ki, Roma vətəndaşları olsalar da, onların əsl vətəndaşlıqları göylərdəndir, çünki onlar *"Xilaskarı, Rəbb İsa Məsihi*" gözləyirlər. Roma imperatoru üçün ən əsas titullardan biri "rəbb və xilaskar"dır. Paulun sözləri bu iddiaya birbaşa etiraz idi. Məsihçilər hər şeyi, hətta Allahın Məbədini narahat edənləri və güclü Roma imperatorunu Öz tabeçiliyinə salacaq Xilaskara və Rəbbə sadiq olmalıdırlar!

Kolosselilər

Paulun təqib barədə təlimi üçün əsas parça Kolos. 1:21-29-dadır:

Etdiyiniz pis əməllərə görə bir zamanlar düşüncələrinizdə Allaha yad və düşmən idiniz. İndi isə Məsih cismən ölməklə Öz bədəni vasitəsilə sizi Allahla barışdırdı ki, sizi Onun qarşısında müqəddəs, ləkəsiz və nöqsansız təqdim etsin. Bir şərtlə ki eşitdiyiniz Müjdənin verdiyi ümiddən sarsılmadan, iman əsasında möhkəm və sabit durasınız. Bu Müjdə səma altında olan bütün yaradılışa vəz olundu və mən Paul Müjdənin xidmətçisi oldum.

İndi sizin üçün əzab çəkdiyimə sevinirəm və Məsihin Öz bədəni olan imanlılar cəmiyyəti uğrunda çəkdiyi əziyyətlərin qalanını canıma cəfa verərək tamamlayıram. Allahın sizin üçün mənə verdiyi vəzifəyə görə mən bu cəmiyyətin xidmətçisi oldum ki, Allahın kəlamını, yəni əsrlərdən və nəsillərdən gizlədilən, indi isə Onun müqəddəslərinə açılan sirrini tam bəyan edim. Allah millətlər arasında bu sirrin izzətinin necə zəngin olduğunu müqəddəslərə bildirmək istədi. Bu sirr sizdə olan Məsihdir. O sizə izzətə qovuşmaq ümidini verir. Hər bir insanı Məsihdə kamilləşmiş olaraq Allaha təqdim etmək üçün

hamıya tam müdrikliklə nəsihət və təlim verərək Məsihi bəyan edirik. Bu məqsədlə də zəhmət çəkirəm və Onun məndə qüdrətlə fəaliyyət göstərən qüvvəsi ilə mübarizə aparıram.

Onun bir çox yazılarında tapdığımız kimi Kolos. 1:21-29-da Paul Allah və insan arasında olan barışıq *bəyanatını* bu xəbəri yayan Allah qasidlərinin *əzabının* vacibliyi ilə əlaqələndirir. Paul bu qiymət üçün ödəməyə tamamilə hazır idi ki, başqaları Məsihi tanısınlar. Siz ödəməyə hazırsınızmı?

21-23-cü ayələrdə Paul Kolosselilərə deyir, "Əvvəllər Allahın düşmənləri olan sizlər indi Allah ilə barışmısınız, sona qədər imanda davam etməlisiniz ki, (o güman edir ki, onlar davam etməyə bilərlər), müqəddəs, ləkəsiz və kamil təqdim olunacasınız." Tonun qeyd etdiyi kimi Kolos. 1:21-29 və Efes. 5:25-32 arasında olan maraqlı uyğunluq var. Bu daha aydın Kolos. 1:28,29 və Efes. 5:29-da görünür.

Kolos. 1:28, 29	**Efes. 5:29**
Məsih öldü ki, Kolosselilər Onun qarşısında müqəddəs, ləkəsiz və nöqsansız təqdim oluna bilsinlər.	Məsih Məbəd üçün Özünü verdi ki, onu Özünə ləkəsiz və ya qırışsız əzəmətində təqdim etsin ki, müqəddəs və ləkəsiz ola bilsin.
Paul yazır ki, hər yerdə vəz edir və öyrədir ki, hər bir insanı Məsihdə kamil vəziyyətdə təqdim etmək imtiyazına malik olsun. *Bu məqsədlə də zəhmət çəkirəm və Onun məndə qüdrətlə fəaliyyət göstərən qüvvəsi ilə mübarizə aparıram.*	*Məsih Məbədini qidalandırıb sevdiyinə* görə Özü buna doğru çalışır.

Aydın olaraq Paul çətinlik çəkmədən deyir ki, Məsihin işi onun işidir və onun işi Məsihin işidir. Kolos. 1:22-də Məsihin bu məqsədi, yəni günahkarları barışdırmaq, müqəddəsləşdirmək və kamilləşdirmək vakuumda baş vermir. Amma Məsih bu işi təklikdə etmir. O bunu könüllü surətdə Onun məqsədini götürənlər və özlərininki edənlər vasitəsilə edir. Bu heç də asanlıqla başa gəlmir. Bu ağır zəhmət və əziyyət tələb edir (1:29). Paul 2 Kor. 11:28, 29-da yazdığı kimi: "*Bunlarla yanaşı bütün cəmiyyətlər üçün hər gün çəkdiyim qayğının yükü boynumdadır. Kimsə zəif olanda mən də zəif olmadımmı? Kimsə büdrəyəndə mən alışıb-yanmadımmı?*" Qalat. 4:19-da o oradakı imanlılara belə müraciət edir, "*övladlarım! Məsihin surəti sizdə yaradılana qədər, sizlər üçün yenə doğuş ağrısı çəkirəm.*" Allahın qulluqçusunun işi asan deyil, nə də biz onun asan olacağını düşünməməliyik.

Amma bu sıxıntılı iş deyil. Paul təəccüblüdür ki, Kolos. 1:24-də deyir, "*İndi sizin üçün əzab çəkdiyimə sevinirəm.*" Sonra o nəsə elə bir şey yazır ki ilk baxışda heyrətləndirici görünür: "*və Məsihin Öz bədəni olan imanlılar cəmiyyəti uğrunda çəkdiyi əziyyətlərin qalanını canıma cəfa verərək tamamlayıram.*"

Paul necə deyə bilər ki, Məsihin əziyyətlərində nəsə çatışmır?

Hər şeydən öncə bu vurğulanmalıdır ki, Paul İsanın çarmıxdakı əzabından danışmır. Krister Stendal izah edir, "Əlbəttə, nə Paul, nə də başqa heç kim Qolqofada bir dəfə və həmişəlik tamamlanmış işə nəsə əlavə edə bilməz." Paulun haqqında danışdığı şey günaha görə əzab deyil. O, Məsihin bədəni, Məbəd ilə əlaqəli başqa məqsədlər üçün əzab çəkir.

Bir az əvvəl biz Paulun Filip. 3:10-da "Məsihin əzabı" (***paqhpata tou cristou***) ifadəsindən istifadəsindən danışdıq. Kolos. 1:24-də bizdə azacıq fərqli, amma sinonim ifadə, (***ton qliyon tou cristou***) var. Bunu qeyd etmək vacibdir ki, Paul heç vaxt bu ifadələrdən İsanın çarmıxda xilasedici işinə aid etmək üçün istifadə etməyib. Məsihin xilasedici işindən danışarkən Paul "qan", "çarmıx" və "ölüm" anlayışlarından istifadə edir. O yalnız (***paqhpata tou cristou***) və (***ton qliyon tou cristou***) ifadələrindən istifadə edir. Bu ifadələrdən özünün Məsih uğrunda əzabını və İsanın davamçılarının

Onun və Onun Məbədi uğrunda keçirdikləri əzabını izah etdiyi kontekstlərdə istifadə edir.

Aydındır ki, Paulun fikrində İsanın əzabları Məbədi vasitəsilə və Paulun öz həyatında tam deyil. Paul öz bədənində bu "əzabları" Məbədə, Məsihin bədəninə hiss edir və tamamlayır. Həvarinin başına gələn əziyyətlər Məsihin çəkdiyi əziyyətlərin davamıdır. Stendal qeyd edir:

> Kolos. 1:24-də Paulun xidməti öz zəifliyində, onun şəhidlik əzablarında Məsihin əziyyətləri ilə eyni xüsusiyyətə malik kimi görünür, bu əziyyətlər məbəddə "davam edir" və beləcə tamamlanır (həm də 2 Kor. 13:3,4-ə baxın).

Kontekst aydın göstərdiyi kimi Paulun əzabları tam konkret mənada baş verir, bu kontekstə əsasən bu əzablar Onun Müjdəsini vəz etmək uğrunda idi, burada İsa iştirak edirdi. Artur Glesser bu ayəyə istinad edərək aşağıdakı fikri söyləyir:

> Bu əsas prinsipi göstərir: bu tapşırığı həyata keçirmək üçün "Məsihin əziyyətlərini tamamlayan" (Kolos. 1:24) fərdlər burada və orada olmadan Müjdə vəz oluna bilməz və Allahın xalqı millətlərin içərisində toplantılarda yığışa bilməz (Yəhya 11:52) ... Belə əziyyətlər ilə özünü məqsədlə Məsihin fəal xidmətinə cəlb edənlərin hamısı qarşılaşır. Xüsusilə onlar insanlar qarşısında Müjdəyə şəhadətlik edəndə bu baş verir. Əgər ümumdünya müjdəçilik tapşırığı tamamlanmalıdırsa, Allahın xalqının hər bir uğurlu nəslinin könüllü olaraq əzabları qəbul etməli olduğu mənada onlar "natamamdırlar". Yalnız bundan sonra bu imtiyaz əbədi olaraq tamamlanacaq.

Vəhy 7:14-ə də bu kontekstdə istinad olunmalıdır, burada biz böyük əziyyətlərdən keçmiş, həm də Məsihin əzablar ilə əziyyət çəkən şəhidlərin Allahın taxtı önündə dayandığı barədə oxuyuruq. Bu izdiahm öz günahlarını öz qanlarında deyil, Quzunun qanında yumuş insanlardan ibarətdir. Onlar İsa Məsih uğrunda öz əzablarında Onun Özünün dözdüyü əzablara şəhadətlik ediblər.

Amma biz Vəhy kitabını tədqiq edərkən görəcəyik ki, Məsihin Öz Məbədində əziyyəti sonsuz əzab deyil. Şəhidlərin sayı tamam olanda həmin vaxt gələcək və Məsih yer üzünü mühakimə etməyə gələndə əzab sona yetəcək.

Paul deyir ki, bu müddət ərzində o öz bədənində Məsihin əzablarında çatışmayan şeyləri tamamlayacaq (1:24) və Allahın onun daxilində "güclü surətdə çalışdığı" (1:29) bütün qüvvəsi ilə zəhmət çəkəcək. Növbəti fəsildə (2:12) Paul bildirir ki, bu "güclü çalışma" İsanı ölülərdən dirildən güc ilə eynidir. Paul zəiflikdə xidmət edərkən Allah ona güc verir ki, dözə bilsin və davam etsin. Məsihi ölülərdən dirildən güc Məsihin əzablarını tamamlayanlara zəmanət verilir.

Filimon

Filimona yazılan məktub bizim tədqiqimizə azacıq yeni məlumatlar versə də, bu məlumatları başqa məktublar daha ətraflı açıqlamır, tamlıq üçün vacibdir ki, bu kiçik məktubda hansı təlimlərin olduğunu qeyd edək.

1-ci ayədə Paul öz məktubunu "İsa Məsih üçün məhbus" ifadəsi ilə başlayır. O öz adına "həvari" və ya "Məsihin qulluqçusu" kimi heç bir səlahiyyət titulu əlavə etmir, belə ki bu onun xasiyyəti idi. Filimonda salamlaşma Paulun yazıları üçün özünəməxsusdur.

Bu salamlaşmadan istifadə edərək, Paul vurğulayır ki, o sadəcə məhbus və ya dini dözülməzliyin qurbanı deyil. O, İsa Məsihin məhbusudur. 13-cü ayədə o deyir ki, o, Müjdə uğrunda məhbusdur. Eduard Lohse öz qeydində ifadənin bunu bildirdiyini söyləyir, "Paul öz həbsini Müjdənin qasidi üçün saxlanılmış tale kimi qəbul edir – bu ona verilən tapşırığın əsas hissəsidir. Rəbbin qasidi öz sahibi kimi əzab çəkməlidir, Ona itaət etməlidir.

Bu aydındır ki, bu məktub əziz dosta yazılıb, ona xahiş edir və öz həvari səlahiyyətindən istifadə etmir. O, dostuna əmr etməkdən çox ona yalvarır (8,9-cu ayələr). Yəqin ki, o Məsihə xidmət etmək üçün etdiyi qurbanı vurğulayır və dostundan da həmin qurbanı etməyi xahiş edir. Filimondan xahiş olunur ki, qaçmış qulunu bağışlasın və Onisimlə qul kimi yox, qardaşı kimi rəftar etsin (16-

cı ayə). O, qoca kişi və "İsa Məsih üçün məhbus" kimi Filimona əmr etmək səlahiyyətindən imtina edir (9-cu ayə). O öz yaşına və qurbanına görə ümid edir ki, Filimon Paulun edəcəyi xahişi qəbul etməyə ruhlansın. Filimon dünyanın adamı, ya da Məsihin qulluqçusu kimi cavab verəcəyini qərara gəlməlidir. Amma özünə Məsihin məhbusu kimi müraciət etməklə Paul Filimona çıxardığı qərarları xatırladır. "Əziz dostum əminəm ki, sən də mənim kimi edə bilərsən." Bu yolla Paulun həbsindən Filimonu Məsihəbənzər xasiyyətə ruhlandırmaq üçün istifadə olunur.

Paul göstərir ki, xüsusilə öz həbsinə görə Onisim Məsihin davamçısı və Paulun ruhani övladı olub (10-cu ayə). O qeyd edir ki, Onisimi özü ilə "Müjdə üçün həbs"də saxlamaq istəyərdi (13-cü ayə). Belə vəziyyətdə ona başqaları tərəfindən kömək lazım idi və həvari kimi o bunu tələb edə bilərdi. Amma o, Filimonun səlahiyyətinə qarşı hörmətsizlik etmək istəmədi, çünki o qulun qanuni sahibkarı idi (14-cü ayə). Bundan başqa Paul anlayırdı ki, məcbur etmək Allahın xasiyyəti olmadığı kimi Onun xalqının da xasiyyəti olmamalıdır. Məcburiyyət və güc tətbiq etməyib, Paul inandırmanın və məhəbbətin gücündən istifadə edir.

O ümid edir ki, Filimon Onisimin xeyrinə Paulun xahişini qəbul edəcək və öz qulunu qardaş kimi qəbul edəcək (17-ci ayə). Həvari Filimonun duasına cavab olaraq azad olacağına ümid edir (22-ci ayə), amma bu vaxt ərzində Onisim etibarlı insan kimi xidmət göstərməlidir.

Paul azad olacağı barədə olduqca arxayın görünür, amma anlayır ki, bunun baş verib verməməsi tamamilə Allahın qərarından asılıdır. 22-ci ayənin sözləri aydınlaşdırır ki, Paul azadlığa çıxmasının öz xeyri üçün deyil, cəmiyyətin xeyri üçün olduğunu anlayır, çünki o özünü təqdim edərkən "sizə bəxş olunacağam" deyir.

1 Timotey

Timoteyə yazılan məktublar bizə Pauldan gəlib çıxan sonuncu məktublardır, o, şəhid olmazdan qabaq bu məktubları yazmışdı. Paul bu məktubları öz xələfi kimi baxdığı insana yazmışdı. 1

Timoteydə tədqiqimiz ilə birbaşa əlaqəli olan yalnız bir nəsihət tapırıq:

> *İman uğrunda yaxşı mübarizə apar. Əbədi həyatı bərk tut; bunun üçün çağırıldın və yaxşı əqidəni bir çox şahid qarşısında iqrar etdin. Hər şeyə həyat verən Allahın və Ponti Pilatın önündə öz yaxşı əqidəsinə şəhadət edən Məsih İsanın hüzurunda sənə tapşırıram ki, Rəbbimiz İsa Məsihin zühurunadək Allahın əmrinə ləkəsiz və nöqsansız riayət et.* (6:12-14)

Müjdəyə qarşı müqavimətdə günaha sövq olunma bunlar ola bilər: 1) döyüşdən uzaqlaşmaq, 2) Müjdəni dəyişmək, 3) cəmiyyətə uyğunlaşan həyat tərzi ilə yaşamaq (bununla da qarşıdurmanı zəiflətmək). Paul öyrədir ki, Timotey bu sövqolunmalara müqavimət göstərsin və həyatda *"bir çox şahid qarşısında*" yaxşı əqidədən möhkəm yapışsın.

Paulun burada danışdığı şey haqqında bəzi müzakirələr var. Timotey bu etirafı nə vaxt etmişdi? Əksər şərhçilər bildirir ki, bu onun vəftizində və ya xidmətə təyin edildiyi vaxtda olub. Amma ikinci əsrdən dördüncü əsrədək erkən məbəd ataları tipik olaraq belə başa düşürdülər ki, bu, Timotey imanına görə sınağa çəkiləndə baş vermişdi. Mənim fikrimcə Paulun Timoteyin bir çox şahid qarşısında etirafı ilə (12-ci ayə) İsanın Ponti Pilat qarşısında etirafı arasında (13-cü ayə) göstərdiyi uyğunluq bu fikrin həqiqiliyinə yardım edir.

O, Timoteyin və İsanın etirafını əlaqələndirərək Allaha istinad edir, "*hər şeyə həyat verən Allah*" (1 Timotey 6:13). Ton qeyd edir:

> Əvvəllər Paul Asiyada ölümlə əlaqəli təcrübəsindən korinflilərə yazanda onlara demişdi ki, bu onun başına ona görə gəlmişdi ki, "biz özümüzə deyil, ölüləri dirildən Allaha güvənək." (2 Kor. 1:9). Allahın hər bir şeyə həyat verdiyini və ölüləri diriltdiyini biləndə sən arxayınlıqla öz həyatının bahasına olan xidmətə başlaya bilirsən.

O bu ideyanı 2 Timotey 1:11, 12-də təkrarlayır:

> *Mən bu Müjdə üçün vaiz, həvari və müəllim təyin olundum. Bu əzabları çəkməyimin səbəbi də budur. Amma bundan utanmıram, çünki Kimə iman etdiyimi bilirəm və əminəm ki, mənə verdiyi əmanəti qiyamət gününə qədər saxlamağa qadirdir.*

Paul bu faktı qiymətləndirirdi ki, Timotey artıq Məsih üçün şəhadətlik etmək sınağında möhkəm dayanmışdı. O öz diqqətini bir nümunə kimi İsanın şəhadətliyinə tuşlayır, Paul öz sınaqları zamanı etdiyi etirafı nümunə göstərir ki, Timotey bu sadiqliyi gələcək günlərdə saxlaya bilsin.

2 Timotey

B. e. 62-ci ilinin sonu və 63-cü ilinin başlanğıcı Roma imperiyası ilə İsa Məsihin Məbədi arasındakı əlaqələrin dönüş nöqtəsi kimi qeyd olunur, imperator Nero bu dövrdə başqa dinlərin öz ibadətlərini həyata keçirməsinə icazə verməyə başladı. Rəsmi, qanuni din kimi tanınmayan məsihçiliyə ən azı yol verilirdi və hətta bu vaxta qədər Roma rəhbərləri tərəfindən müdafiə olunurdu. Amma tədricən ictimai rəy, eləcə də hökumət rəhbərləri onlara qarşı durdu. Paul birinci məhkəmə işinə görə imperiya dairəsində artıq yaxşı tanındığı üçün ikinci dəfə qanunsuz dini yaydığına görə ittiham olundu. 2 Timoteyə məktubun yazıldığı vaxt ola bilsin ki, b. e. 63-cü ilinin qışından qabaq, yəni b. e. 64-cü ilinin iyulunda Romanı bürüyən böyük alovdan qabaq baş vermişdi, bu vaxt məsihçilər alovu yandırdıqlarına görə ittiham olunub birlikdə həbs edilirdilər, qısa məhkəmə işi aparılırdı və dərhal edam olunurdular. Paulun məhkəmə işi bir az fərqli görünür, onun Məbədi bürüyən böyük miqyaslı təqibdən bir az əvvəl müddətə təsadüf etdiyi barədə mübahisə olunur.

Bu məktubda Paul zəncirlərdədir və ona qarşı olacaq məhkəməni gözləyir. İkinci Timoteyə məktub Məsih və Onun Müjdəsi uğrunda qısa müddət ərzində şəhid olacağından xəbərdar olan bir insan

tərəfindən yazılıb. O geriyə öz həyatına – Məsihin təqib və əzabla dolu olacağını vəd etdiyi həyata baxır (Həv. İş. 9:16). Onun bəzi fikirləri var ki, öz xələfinə ötürmək istəyir. Məktubdan aydındır ki, Timotey Müjdəyə müqavimətin olduğu və davam etdiyi bir ərazidə xidmət edir (4:14,15). Paul həm də ümid edir ki, bu müqavimət artacaq (3:1-9). Əslində o istəyirdi ki, Timotey Müjdəyə layiq tərzdə bu düşmənçiliyə necə cavab verəcəyini bilsin.

2 Timotey 1

Birinci Paul Timoteyə xatırladır ki, *"Bu səbəbdən sənin üzərinə əl qoymağımla Allahın sənə verdiyi ənamı alovlandırmağını xatırladıram. Çünki Allah bizə qorxaqlıq ruhu deyil, güc, məhəbbət və ağıllı-kamallı olmaq ruhu vermişdir"* (1:6,7). Qarşıdurma zamanı günaha sövq olunma düşmən dünyada qorxu ilə cavab vermək, özünü kənara çəkmək və ya təcrid etməkdir. Paul istəmir ki, Timotey belə cavab versin. Qorxu ilə deyil, Timotey dini zorakılığa Allahın verdiyi güc, məhəbbət və özünü-idarəetmə ilə cavab verməlidir.

Bu üç temin bir-biri ilə yaxından əlaqəlidir:

a) ***Güc.*** Əgər Allahın xidmətçisi çağırıldığı çətin tapşırığı yerinə yetirməlidirsə, o, təkcə dünyanın hücumlarına qarşı dayanmalı deyil, həm də ona qalib gəlmək üçün ilahi qüvvəni tələb etməlidir. Donald Qutri qeyd edir: "Onun daxilindəki Müqəddəs Ruhun gücü təbiətən qorxaq olan bir çox insanlara Allahın adı ilə çətin xidməti yerinə yetirmək üçün çağırılanda cəsarət vermişdi." 1:8-də bu "Allahın gücü" elə bir şeydir ki, Timoteyin Paulun Müjdə uğrunda əzabına qoşulmasında ona yardım edir. Müjdə uğrunda əzab heç vaxt öz gücümüzdə qəbul olunmur. Allahın gücü istənilən əzabdan güclüdür.

b) ***Məhəbbət.*** 1 Yəhya 4:18-də deyilir, "*Məhəbbətdə qorxu yoxdur, əksinə, kamil məhəbbət qorxunu qovar. Çünki qorxu cəzaya aiddir, qorxan insan məhəbbətdə kamil deyil.*" Güc kimi məhəbbət də Allahın hədiyyəsidir, çox vaxt layiq olmayan

insanlara və demək olar ki, həmişə özünü qurban ilə təklif olunur. Pauletta Otis bu ayəni şərh edərkən belə qeyd edir:

> Əgər "məhəbbət" sözü müstəsna isim olsaydı, daha asan olardı. Amma belə deyil. Bu həm də fəal feldir: "Qonşunu özün kimi sev" qıcıqlandırıcı bir anlayışdır. Bu Allahın məhəbbətini götürüb başqa qorxulu vəziyyətlərə tətbiq etməkdir. Allahın məhəbbəti həm də təfriqə salan deyil. Sizinlə razılaşan dostlarınızı, tanışlarınızı, ailənizi və insanları sevmək ümumilikdə çox asandır. Sizinlə razılaşmayan, fərqli cür baxan, hərəkət edən və ya həyatınızı hədələyən insanları sevmək daha çox tələb olunur. Allah belə deməyib, "Xahiş edirəm, əgər bacarırsansa, insanları sev və ya istəyirsənsə, və ya münasib olanda və ya yaxşı səhər yeməyi yeyəndə." Bu sadəcə "bunu etməlisən" ifadəsidir.
>
> Bu yumşaq emosional bir şey deyil. Məhəbbət çətindir. Amma xüsusi hərəkətlər olduqca aydın və sadədir ... Allahın məhəbbətini göstərməyin sınağı ... anlamaq üçün çətin deyil – sadəcə bunu etmək çətindir.

Sizə pislik etmək istəyənlər üçün ən yaxşı şeyləri arzu etmək təkcə ilahi təlimə görə münasib deyil (Matta 5:43-48; Luka 6:27-36; Roma. 12:20, 21 və s.), bu həm də ilahi nümunəyə görə münasibdir (Roma 5:8; 1 Yəhya 3:16). Nifrət hərəkətini məhəbbət hərəkəti ilə qarşılamaqla biz uğrunda əzab çəkdiyimiz Müjdəyə layiq tərzdə cavab veririk.

c) ***Özünü-idarəetmə.*** Paulun dediyinə görə Timoteyə verilən üçüncü ənam (***sofronismo***) barəsində bəzi müzakirələr var. Dəqiq mənanı müəyyən etmək çətindir, çünki bu söz Əhdi-Cədiddə bir dəfə qarşıya çıxmışdır. Paulun (***sofronismo***) sözünün "mülayimlik, özünü tərbiyələndirmə və ya tədbirlilik"

mənasından yoxsa "yaxşı və ya ağıllı ittiham, həssas olmaq, yaxşı qərarları necə çıxarmağı anlamaq qabiliyyəti" mənasından istifadə edib-etmədiyi mübahisəlidir. Qarşıdurma zamanı Müqəddəs Ruhun işi vasitəsilə imanlının həyatında işləyən bütün bu keyfiyyətlər bütünlüklə zəruridir. Xidmət çətinlikləri və düşmənçilik qarşısında – qorxunun idarə etməsinə yol vermək sınağı olanda – yaxşı qərarlar çıxarmaq üçün özünü idarə etmək qabiliyyəti Allahın əmanıdır, yüksək qiymətləndirilir və imanlının sadiq şəhadətliyi üçün vacibdir.

Paul 1:8-də ikinci, amma bir-biri ilə əlaqəli qaydanı təqdim edir, o, Timoteyin qarşıdurmaya belə cavab verməməsini istəyirdi. Qorxuya ikinci yaxın bir şey utanmaqdır. 1:8-də Paul Timoteyə öyüd-nəsihət verir ki, özünün və Timoteyin əzab çəkdiyi Müjdədən utanmasın. O, Timoteyi onun əzabına qoşulmağa dəvət edir: *"Buna görə Rəbbimiz barədə şəhadət etməkdən və Onun uğrunda məhbus olan məndən utanma. Allahın gücü ilə Müjdə uğrunda mənimlə birlikdə əzaba qatlaş"* (1:8).

"*Utanma*" 2 Timotey 1-ci fəsildə yenidən təkrarlanan mövzudur. Bu, 8, 12 və 16-cı ayələrdə qarşıya çıxır. 8-ci ayədə Paul Timoteyə deyir ki, *"Rəbbimiz barədə şəhadət etməkdən və Onun uğrunda məhbus olan məndən utanma*."

Qordon Fi belə mülahizəni irəli sürür:

> Utanma ifadəsi üçün dəqiq mənanı təyin etmək bəzi çətinlikləri aşkara çıxarır. Bu söz tez-tez "layiq olan" alçaldılmaya və ya rüsvayçılığa aiddir, amma çox vaxt bu, xüsusilə Kəlamı yazanlar üçün "layiq olmayan" alçaldılmadır və bu elə bir alçaldılmadır ki, insan alçaldılma zamanı ilahi müdafiəyəyə ümid edir (məs, Məzmur 25:1-3). Başqa vaxtlarda bu biabırçılığa və ya utanmaya aiddir. Bu parçada bu axırıncı iki məna bir-birinə birləşmiş şəkildə görünür. Çarmıxa çəkilmiş Məsih (yəni dövlətin cinayətkar adlandırdığı şəxs) və onun (siyasi) məhbus olması ilə əlaqəli biabırçılıq var. Amma bu "layiq olmayan alçaldılmadır" və ona "qiyamət günü" bəraət qazandırılacaq (12-ci ayəyə baxın). Beləliklə

> Paul istəmir ki, Timotey Məsih ilə (*Rəbbimiz barədə şəhadət etməkdən* və ya daha dəqiq desək, "Rəbbimiz barədə Müjdəyə şəhadətlik etmək" kimi başa düşülməlidir) və özü ilə, yəni *"məhbus olan məndən"* (Məsihə görə həbs olununda Paul öz fikrində imperiyanın məhbusu deyil, Məsihin məhbusu olduğunu düşünürdü) münasibətə görə yaranmış alçaldılmadan uzaqlaşsın.

Paul 8-ci ayədə deyir ki, "Timotey, məndən utanma. Qorxuya görə məni atma və ya məndən uzaqlaşma, çünki mənim vəziyyətim səni utandırma bilər və ya Məsihə olan münasibətimə görə sənin üçün təhlükə yarada bilərəm."

Amma Paul sözünə davam edir, "mənə qoşul! İsa uğrunda əzab çəkmək şərəfdir! Biz bununla tənha qarşılaşmalı deyilik, amma biz Allahın Özü tərəfindən qüvvət almışıq!" 12-ci ayədə o yazır, "Mən utanmıram, çünki Məsih uğrunda məhbusam."

Paulun fikirlərini yekunlaşdıraraq belə deyə bilərik, "Mən nə üçün əzab çəkdiyimi bilirəm və bu utandırıcı bir şey deyil. Onda məni utandıracaq bir şey yoxdur. Mən bilirəm ki, bu, bir çoxlarına həyat verən Müjdənin qasidi olmaq üçün ödənişin bir hissəsidir və mən bilirəm ki, Allah mənim başladığım işi bitirəcək və saxlayacaq. Mənim işim həbsim və ya ölümüm ilə bitməyəcək." Paul öz əzabına faciə və ya uğursuzluq kimi baxmır. Bu onun Rəbb üçün etdiyi xidmətinin birbaşa nəticəsidir; bu qaçılmazdır. Müjdənin işi, ölən dünyaya Allahın xilasını bölüşmək işi əzab çəkənləri tələb edir.

Təqib olunan Məbəd əsasən qurbanlar Məbədi deyil! Əgər Kəlama sadiqdirsə, onlar Allahın gücündə irəliləyirlər və inanırlar ki, əzab onların başlarına gələn ən pis şey deyil.

Belə görünür ki, Onisifor bunu qəbul etmişdi və 16-cı ayədə biz oxuyuruq ki, *"o, Paulun zəncirlənməyindən utanmamışdı."* Əksinə biz oxuyuruq ki, o, Paulu tapana qədər çox axtarmışdı.

Romada çoxlu məhbuslar var idi və xüsusi bir məhbusu tapmaq üçün çoxlu səy dözüm, xərc və risk tələb olunurdu. Buna baxmayaraq, o belə etməklə Rəbbin Matta 25:35-40-dakı əmrinə əməl etdi:

Çünki ac idim, Mənə yemək verdiniz; susamışdım, Mənə su verdiniz; qərib idim, Məni qəbul etdiniz; çılpaq idim, Məni geyindirdiniz; xəstə idim, qayğımı çəkdiniz; zindanda idim, yanıma gəldiniz". Onda salehlər Ona cavab verib deyəcəklər: "Ya Rəbb, biz Səni nə vaxt ac görüb yemək verdik və ya susamış görüb su verdik? Nə vaxt Səni qərib görüb qəbul etdik və ya çılpaq görüb geyindirdik? Nə vaxt Səni xəstə və ya zindanda görüb yanına gəldik?" Padşah da cavab verib onlara deyəcək: "Sizə doğrusunu deyirəm: siz bu ən kiçik qardaşlarımdan birinə etdiyinizi Mənə etmiş oldunuz."

Kasıblara, ehtiyacı olanlara və cinayət törətdiklərinə görə həbsdə olanlara kömək etmək tərifəlayiq olsa da, bu ayələr bu növ xidmətləri dəstəkləmək üçün deyil. Bu, ac, susuz, çılpaq və həbsdə olan Məsihdəki "qardaşlara" aiddir. Mattadakı "qardaşlar" sözündən istifadə zamanı bioloji ailə və ya iman əhlinin üzvləri nəzərdə tutulur. Biz bütün insanlara, xüsusilə iman əhlinə yaxşılıq etməliyik (Qalat. 6:10).

2 Timotey 2-ci fəsil

Paul Müjdəyə görə əzab haqqında təlimi tamlığı ilə ikinci fəsildə inkişaf etdirir.

Məsih İsanın yaxşı əsgəri kimi mənimlə birgə əzaba qatlaş. Əsgərlik edən insan gündəlik həyatla bağlı işlərə sürüklənməz, ona əmr edən zabiti razı salmağa çalışar.

Həmçinin yarışlara qoşulan insan da qaydaya görə yarışmazsa, başına zəfər çələngi qoyulmaz. Zəhmətkeş əkinçinin payına məhsulunun ilk bəhrəsi düşməlidir. Dediklərimə fikir ver. Rəbb söylədiyim hər şeydə sənə anlayış verəcək. Yaydığım Müjdədə açıqlandığı kimi, Davudun nəslindən olub ölülər arasından dirilən İsa Məsihi yadında saxla. Bu Müjdə naminə zəncirə vurulmuş bir cinayətkar kimi əzaba qatlaşıram. Amma Allahın

kəlamı zəncirlənməmişdir. Bu səbəbdən seçilmişlərə görə, onlar da Məsih İsada olan xilasa əbədi izzətlə bərabər nail olsunlar deyə hər şeyə dözürəm.

Bu söz etibarlıdır ki,
"Əgər Onunla öldüksə, Onunla da yaşayacağıq;
Əgər dözəriksə, Onunla da birlikdə padşahlıq edəcəyik.
Əgər Onu inkar etsək, O da bizi inkar edəcək.
Biz sadiq qalmasaq da, O sadiq qalacaq.
Çünki Öz təbiətinə zidd davrana bilməz."
(2 Timotey 2:3-13)

3-6-cı ayələrdə Paul Timoteydən xahiş edir ki, öz xidmətini yerinə yetirərkən, hətta böyük əzabla üzləşərkən bir məqsədə fikrini tuşlasın. O, Timoteyə xatırladır ki, sadiqlik üçün mükafat döyüş, yarış və ya biçin vaxtı gəlmir, sonda gəlir. Biz cəld mükafatlardan diqqətimizi çəkməyə və ya əbədiyyətdən kənarda bu həyatın məna verəcəyini gözləməməyə hazırlaşmalıyıq.

Biz İsanı xatırlayarkən (8-9-cu ayələr), *"yaydığım Müjdədə açıqlandığı kimi, Davudun nəslindən olub ölülər arasından dirilən İsa Məsihi yadında saxla, bu Müjdə naminə zəncirə vurulmuş bir cinayətkar kimi əzaba qatlaşıram,"* biz hələ də davam edirik, bilirik ki, biz zəncirlənsək də, Allahın Kəlamı zəncirlənməyib. Biz əzab çəkməyə hazırlaşmışıq ki, başqaları Məsihə gələ bilsinlər və Allahın ailəsinin üzvü ola bilsinlər, bilirik ki, biz Onunla (və ya Onun uğrunda), ***ölsək,*** biz Onunla ***yaşayacağıq*** (11-ci ayə). Bu necə də heyrətamiz bir vəddir; əgər biz başqalarına həyat gətirməklə ölmüşüksə, biz Məsih ***ilə*** ölmüşük (Onun bizimlə həmrəyliyini vurğulayaraq) və beləliklə Onun ***ilə*** yaşayacağıq. Həyatımızı qurban verərək, biz başqalarına həyat veririk, amma bu baş verəndə biz əslində həyatı qəbul edirik. Bu bizə xatırladır ki, bu həyat onda olan şeylərdən ibarət deyil. Şəhidin ölümü faciəli olsa da, hekayənin sonu deyil; bu yalnız böyük izzətin və əbədi həyatın başlanğıcıdır.

Paul 12-ci ayədə deyir ki, əgər biz dözürüksə, biz Məsih ilə birlikdə hökm sürəcəyik; biz öz mirasımızı alacağıq, Onun bizə tapşırdığı işləri həyata keçirmək bacarığını nümayiş etdirəcəyik.

Digər tərəfdən onu inkar ediriksə, bizi tanıyacağına necə ümid edə bilərik? Matta 10:33-də İsa dediyi kimi, *"kim insanlar qarşısında Məni inkar etsə, Mən də onu göylərdə olan Atamın qarşısında inkar edəcəyəm*." 2 Timotey 2:12 ona görə də dözüm üçün çağırışdır.

13-cü ayədə fikir davam edir, "*Biz sadiq qalmasaq da, O sadiq qalacaq. Çünki Öz təbiətinə zidd davrana bilməz*." İlk baxışda bu fikir Paulun 12-ci ayədə Onu inkar edənləri Allahın da inkar edəcəyi haqqında dediyi fikrə zidd görünə bilər. Amma cavab buna əvvəlki ayəyə ziddiyyətdə baxmaqla yaranır.

Hətta bizim Məsihə sadiq olmadığımız müddətlər olsa da, O bizə sadiq qalır ki, biz Ona qayıda bilək və görək ki, O bizə qarşı münasibətini dəyişməyib. Məsihin inkar edilməsi mümkündür, amma bu vurğulayır ki, Məsih Öz şagirdlərinin qayğısına qalmaqda davam edir və onları geriyə qəbul etməyə hazırdır. O öz təbiətinə sadiq qalmaya bilməz. Beləliklə, 12-ci ayə inkarı xəbərdarlıq edir, 13-cü ayə isə tövbəni təmin eidr.

2 Timotey 3:10-13

Əvvəlki ayələrdə (2:14-3:9), Paul yanlış müəllimləri həqiqi müəllimlər ilə qarşı-qarşıya qoyur və Müjdəyə qarşı düşmənçilik və ətrafda artan düşmənçilik olanda Timoteyə lazım olan xüsusiyyətlər barədə onu öyrədir (3:1-9). O, həqiqətə sözdə və əməldə qarşı duranlardan danışır. Əksinə Timotey Paulu təqlid edir.

> *Sənsə mənim təlimimi, davranışımı, məqsədimi, imanımı, səbrimi, məhəbbətimi, dözümümü, Antakyada, Konyada, Listrada başıma gələn təqibləri, çəkdiyim əzabları diqqətlə izlədin. Nə cür təqiblərə qatlandım! Amma Rəbb məni bunların hamısından xilas etdi* (*2 Timotey 3:10-11*).

Paul Allah adamı kimi Məsih uğrunda əzablarını əhəmiyyətli hesab edir. Onun təlimləri, məqsədləri, imanı və xasiyyəti təqiblərindən və əzablarından ayrılmazdır. 11-ci ayədə Paul Listradan

Timoteyin ana vətənindən danışır (Həv. İş. 16:1). Məktubda bir az əvvəl etdiyi kimi (1:3-5) Paul Timoteyə onların bir-birilərinə olan sadiqliyini xatırlatmaq məqsədilə haradan gəldiyini xatırladır. Sanki Paul deyir, "Mən Listrada az qala ölənədək daşlananda sən orada idin, ilk dəfə səni gördüm və Məsihə gətirdim. Əzab çəkməli olduğum Müjdəni necə gətirməyimi sən yadıma saldın. Sən elə başlanğıcdan Məsihin xidmətçisi olmağın nəyin bahasına olduğunu öyrəndin. İndi sən bunu həyatında və xidmətində təqlid edirsən.

Amma bu Timotey və ya Paul üçün özünəməxsus deyil: "*Məsih İsada möminliyə yaraşan bir həyat sürmək istəyənlərin hamısı təqibə məruz qalacaq*" *(3:12)*. Bu, Paulu təqlid edəcək hər bir kəsin püşküdür. Əgər insan təqib olunmursa, o, ciddi şəkildə "Məsih İsada möminliyə yaraşan bir həyat sürmək" meyarına uyğun gəlib gəlmədiyi barədə özünə sual verməlidir. Möminliyə düşmən dünyada həmişə qarşı duracaq.

Eyni vaxtda Paul 13-cü ayədə deyir ki, yanlış müəllimlər daha da pisləşəcək və bunun vasitəsilə təqibdən qaçacaqlar. Biz Qalat. 6:12-də və 2 Kor. 11-də gördüyümüz kimi bu, yanlış müəllimin əlamətidir, o, Məsihin ardınca getməyin ödənişini ödəməkdən qaçmaq üçün xəbərini və həyat tərzini qəsdən yenidən formalaşdırır.

Paulun öz əzabı üçün yeganə məqsəd dünyanın hər bir yerində insanlara xilas hədiyyəsini çatdırmaqdır. Ton düzgün şəkildə qeyd edir:

> Əzabın özlüyündə dəyəri yoxdur və insan öz xatirinə əzab axtarmamalıdır. Əzabın dəyəri yalnız bu fakta əsasən yaranır ki, insan Məsihin tapşırığını qəbul edir və Müjdənin yayılmasında hər şeyini verir. Bunlar Məsihin əzablarıdır və yalnız Müjdənin işinə görə insan Məsih ilə Onun əzabında şərik olur.

2 Timotey 4:6-18

Paul öz ölümündən danışaraq Timoteyə olan məktubunu tamamlayır:

Çünki qanım artıq içmə təqdimi kimi tökülmək üzrədir. Artıq ayrılma zamanım gəldi. Mən yaxşı mübarizə aparmışam, yolumu sona çatdırdım, imanı saxladım. İndi salehlik tacı mənim üçün hazır durur. Ədalətli Hakim olan Rəbb qiyamət günü onu mənə – yalnız mənə deyil, Onun zühuruna can atanların hamısına verəcək (*2 Timotey 4:6-8*).

"*Qanım artıq içmə təqdimi kimi tökülmək üzrədir*" zəngin təsviri fikirdir. Bu Əhdi-Ətiqin qurban sisteminə aiddir, burada şərab şənbə günü (Saylar 28:9) və ziyafət günləri (28:14) qurbangaha tökülürdü (Saylar 15:5,7,10; 28:7) gündəlik təqdim olunurdu (Çıxış 29:40). Saylar 6:16,17-də biz içmə təqdimini sülhün bir hissəsi kimi və taxıl təqdimini könüllü ibadət hərəkəti kimi görürük, bu, Allaha yaxşılığına görə minnətdarlığını ifadə edir. Eləcə də ibadət edənin günah təqdimini verib günahlarını yuduqdan və yandırma qurbanı ilə Allaha tamamilə özünü həsr etdikdən sonra Allah ilə ünsiyyətindən zövq aldığı münsibətə görə minnətdarlığı bildirir.

Məbədin dağılmasından qabaq yəhudilərdə ibadət edən öz əlini məbədə gətirdiyi qurbanlıq quzunun üstünə qoyub öz günahlarını etiraf edirdi. O, qurbanlıq quzunun kəsilməsinə baxır və qan qurbangahın üstünə və ətrafına səpələnir. Sonra o, quzunun dərisini soyur və onun bədəni hissələrə bölünür, qurbangaha qoyulur və Allahın qəzəbinin alovunda yandırılır. Günahların yuyulması üçün olan bu qurbana cavab olaraq, o, Rəbb tərəfindən qəbul edildiyinə əmin olur (Lev. 1), sonra o taxıl təqdimini təqdim edir (Lev. 2), bu onun günahlarını yumuş və barışmış Allaha bütün həsr olunmasını rəmzi olaraq göstərir. Sonra içmə təqdimində o şərab kasasını qaldırır və quzunun külünün və taxılın üstünə tökür, Rəbb və onun arasında olan bu işlərə iman ilə şəhadətlik edərkən gördüyü və təqdim etdiyi hər bir şey ilə tamamilə razılaşdığını ifadə etmək üçün onun ürəyi Allah qarşısında Onun izzəti, mərhəməti, məhəbbəti və əfvinə görə minnətdarlıqda tökülür.

Paul öz həyatını (və Filip. 2:17,18-də) başa vurarkən biz onda bu sevinc hissini görürük. Allah ondan istifadə etmişdi ki, Allah Onun Oğlunun ölümü vasitəsilə mümkün olan insan və Allah arasında

barışıq xəbərini bəyan etsin. O, İsanın ölümünə cavab olaraq Allah qarşısında öz həyatını qurban hərəkəti olaraq yaşamışdı və indi həyatının sonunda Paul öz şəhidliyinə sonuncu ibadət hərəkəti olaraq tökülən içmə təqdimi kimi baxır. Sonra o, məbəddə ibadət edən insan kimi çıxıb gedir. Onun ibadəti yaxşıca yekunlaşmış olur.

Həyatınızın sonuna yaxınlaşıb Allahın sizə tapşırdığı işi həyata keçirdiyinizi bilmək bütün Allahın qulluqçularının etməli olduğu işdir. Həyatınızı Allaha qurban kimi yaşadığınızı bilmək, bu prosesdə başqalarına həyat vermək – şübhəsiz ki, göylərin mükafatlarını əldə edəcək elə bu cür həyatdır. Bu fikir necə də həyatlarının sonunda bir çoxları tərəfindən deyilən hamı üçün ümumi olan bir fikirə ziddir: "Kaş ki mənim çox vaxtım olaydı. Kaş ki mən Allah üçün daha çox şey edərdim. Kaş ki mənim həyatım daha uzun olaydı. Kaş ki mən həyatımı yenidən yaşayardım, onda mən başqa cür edərdim. Kaş ki..."

Amma Paul 7-ci ayədəki vuruş və yarış metaforlarına keçərkən bu onun fikri deyil. O deyir ki, yaxşı vuruşub və yarışı bitirib. O indi öz mükafatını almağa hazırdır.

Kədərlidir ki, heç də hamı yarışı qaçmır və ya vuruşu tamamlamır. Çətinliklər yaranan kimi bəziləri bu işi dayandırırlar.

> *Yanıma tez gəlməyə çalış. Çünki Dima indiki dövrü sevdiyi üçün məni tərk edib Salonikə getdi. Kreskent Qalatiyaya, Tit isə Dalmatiyaya getdi. Yalnız Luka yanımdadır. Markı da götür özünlə gətir, çünki o etdiyim xidmətdə mənə yardım edir. Tixiki isə Efesə göndərdim. Troasda Karpın yanında qoyduğum yapıncını, kitabları, xüsusən, yazılı dəriləri də gələndə gətir. Misgər İsgəndər mənə çox pislik etdi. Rəbb ona əməllərinin əvəzini verəcək. Sən də ondan özünü gözlə. Çünki söylədiklərimizə ciddi-cəhdlə zidd getdi. Mən ilk dəfə müdafiə olunanda heç kim mənə tərəfdar çıxmadı, hamı məni tərk etdi. Qoy onlara günah sayılmasın. (2 Timotey 4:9-16)*

Paul ilk məhkəməsi zamanı Nero qarşısında aşkar etdi ki, həmkarlarının çoxu onun Timoteyə 1-ci fəsildə öyrətdiyi kimi cavab

vermədilər. Dima onu tərk etdi. O, Kreskent və Titin Qalatiyaya və Dalmatiyaya hansı səbəblərə görə getdiyini izah etmir. Onlar da onu tərk etmişdilər? Biz bunu əminliklə deyə bilmərik. Paul onların hərəkətlərini tənqid və ya ittiham etmədiyi üçün kontekstə əsasən bu hərəkətlərə müsbət baxışdan baxmaq çətindir.

Amma Paul Roma imperatoru ilə təklikdə üzləşmədi. Məsih vəd etdiyi kimi (Matta 10:8-20; Mark 13:11; Luka 21:12-15) o öz imanına görə şəhadətlik edərkən Rəbb onunla idi:

> *Lakin Rəbb köməyimə gəlib mənə güc verdi ki, vəz mənim vasitəmlə tam elan edilsin və onu bütün millətlər eşitsin. Mən aslanın ağzından xilas oldum. Rəbb məni hər cür pis əməldən qurtaracaq və Öz Səmavi Padşahlığı üçün xilas edəcək. Ona əbədi olaraq izzət olsun! Amin* (*2 Timotey 4:17, 18*).

Paul əvvəlki məhkəməsində olan uğura əsasən ehtiyac anında Allahın hüzuruna əmin idi. O inanırdı ki, Allah onu tərk etməyəcək və bu vaxt Allahın onu azad etməyəcəyini bilsə də, əmin idi ki, o Ona hörmətsizlik (*"hər cür pis əməl"*) etməyəcək və öz səyahətinin sonuna sağ-salamat gəlib çıxacaq.

Bundan əlavə hər necə olsa da biz düşünəndə ki, Paul Rəbbə xidmətinə görə mükafat və şərəfə layiqdir, o diqqətlə bunu göstərir ki, etdiyi hər bir şey Rəbb *tərəfindən* həyata keçirilib. Bu *Onun* işidir və bütün izzət yalnız Ona məxsusdur.

2 Timotey 4-cü fəsildə Paul öz iman səyahətinin sonuna çatmışdı və "*imanı saxlamışdı*"; yəni o, Allahın əbədi padşahlığına qəbul olunması üçün yalnız Məsihdən tam asılılıq vəziyyətində qalmışdı. Bu anda Paul tamamilə arxayındır ki, göylərdən qəbul olunacaq.

Amma 8-ci ayədə "*salehlik tacı*" deməklə nəyi nəzərdə tuturdu? Paul yəqin ki, həmin salehlik üçün çalışmamışdı; bu bütünlüklə Məsihin onun üçün etdiyi iş idi. Onda nəyə görə tamamilə başqasının gördüyü iş üçün Paula tac veriləcək? Əslində bu məsələnin əsas məğzidir: Paul Məsihin çarmıxda onun üçün tamamlanmış işindən bütünlüklə asılı olduğu üçün tac əldə edəcək. O "evə qayıdışına" ümidlə baxarkən bilir ki, Allah onu azad edib

və təyin olunduğu yerə təhlükəsiz gəlib çıxacaq (4:17, 18). Ona görə də bütün izzət Onadır (4:19).

İBRANİLƏR

İbranilərə məktubun əsas ayəsi İbr. 12:25-dir:

> *Bunu Deyəni rədd etməyəsiniz deyə diqqətli olun. Çünki əgər yer üzündə xəbərdarlıq edəni rədd edənlər cəzadan qaça bilmədilərsə, biz göylərdən xəbərdarlıq Edəndən üz döndərsək, cəzadan qaça bilməyəcəyimiz daha çox yəqindir.*

İbranilərə məktubun əsas mövzusu Kəlamda və Məsihçi vəzinin işində Allahın səsinə qulaq asmağın vacibliyidir. İbranilərə məktub imanlarına görə müxtəlif cür – sosial rədd olunma, təcrid edilmə və alçaldılma kimi məzəmmətlərə dözmüş bir qrup yəhudi məsihçilərinə yazılmış vəzdir. Vəz Allahın keçmiş vaxtlarda və indi Öz Oğlu vasitəsilə necə danışmasından bəhs edir (1:1,2). O, məktubunu "öyüd-nəsihət sözünü" dözümlə qəbul etməyi deyərək yekunlaşdırır (13:22). Bu ifadənin Kəlamda qarşıya çıxdığı başqa yeganə yer Həv. İş. 13:15-dədir, bu sinaqoqda Qanun və Peyğəmbərlər kitablarını oxuduqdan sonra edilən vəzə aiddir.

Tarixdə bir müddət əvvəl bu qrup imanlıların bəzilərinin əmlakları qarət olunmuşdu və bəziləri həbs olunanda azadlıqda qalanlar zəncirlərdə olan qardaşları ilə həmrəyliklərini göstərməkdə utanmırdılar (10:32-34). Onların bəzi rəhbərləri də keçmiş zamanda öldürülmüşdülər (13:7,8), halbuki həmin vaxtda şəhidlik onların keçirdikləri həyat təcrübəsi deyildi (12:4). Bu, təqib azaldığına görə deyildi, onlar çarmıxdan imtina etməyə başladıqlarına görə idi. Frenz Delitz qeyd edir:

> Əslində uzaqlaşmış həmin məbəd üzvləri əvvəllər şəhidlikdən əziyyət çəkmişdilər; amma hələ də orada

yaşayanlar belə görünür ki, təqiblə üzləşməmişdilər, onlar imansız dünyanın istəklərini yerinə yetirməklə özlərini ölümdən qorumuşdular. Bunları etməklə onlar Allaha dönük çıxaraq yaşamışdılar. Onlar çarmıxın əzabından qaçırdılar və ya imtina edirdilər və belə görünür ki, Allahın öz xalqını məhəbbətlə tərbiyələndirməsini unutmuşdular.

Yəqin ki, bu imanlıların çoxunun qarşılaşdığı müqavimət sinaqoqlardan və ailə üzvlərindən gəlirdi. Ola bilsin ki, müqavimət onları sıxışdıran bütpərəst rəhbərlərdən də gəlirdi, çünki məsihçilik artıq yəhudi təriqəti kimi və həm də onun müdafiəsi altında görünmürdü. Onların bəziləri ya keçmiş ciddi tədbirlərdən ya da həbslərin yeni dalğalarından həbsxanada qalmışdılar (13:3). Belə çətinliklər zamanı bu yəhudi imanlılar şagirdliyin ödənişi ilə mübarizə aparırdılar və İsanın davamçısı olmaq üçün verdikləri qərar üzərində götür-qoy edirdilər. Onlar yəhudi dini imanlarına qayıtmağı düşünürdülər.

Ona görə də ibranilərə məktubun müəllifi bu vəzi toplantıları zamanı onların oxumaqları üçün yazır, o istəyir ki, bu imanlıları imanlarında möhkəmlətsin və bu hərəkəti etməyə qarşı xəbərdarlıq etsin. Yazıçı öz oxucularından xahiş edir ki, keçmişdə Allaha sadiqliyi göstərənlərə baxsınlar (11-ci fəsil), İsanın nümunəsinə nəzər salsınlar və gözlərini "*rüsvayçılığı heç sayıb çarmıxa çəkilmiş*" Ona diksinlər ki, "*yorulub ruhdan düşməsinlər.*"

O onlara xatırladır ki, İsanın çarmıxda həyata keçirdiyi iş təkrarlana bilməz; yalnız bir Müjdə var və siz onun üçün əzab çəkməyə hazır deyilsinizsə və öz köhnə dininizə qayıtmaq istəyirsinizsə, siz özünüzü yeganə olan Allaha yoldan kəsib atırsınız.

Biz imandan dönməmək üçün İbranilərə məktubdakı xəbərdarlığı çox ciddi qəbul eməliyik. Müəllif ikiüzlü insanı ifşa etmək və heç vaxt baş verməyəcək təhlükələrə görə xəbərdarlıq etmək istəmir. Onun faktları və xəbərdarlıqları məsihçiliyin əsas xüsusi həqiqətinə tuşlanır – yəni Allaha yalnız bir yol var. Yəhudiliyə qayıtmaq istəyənlər Allahın xilas üçün yeganə yolundan özlərini ayırırlar.

Amma bu kitabda həm xəbərdarlıq, həm də ruhlanma verilib – xəbərdarlıq insanın Məsihdə imanını tərk etmək təhlükələri

haqqındadır, ruhlanma isə Allahın sadiq olduğu haqqındadır. Burada onların qarşılaşacaqları hər bir sınaqdan və günaha sövq olunmadan İsanın keçdiyi ruhlandırıcı tərzdə xatırlanır və ona görə də İsa onlara çətinliklərində kömək edə bilir (İbr. 2:18; 4:15).

İbranilər 11-ci fəsil

İbr. 11-ci fəsildə müəllif tarixdə yaxşı tanınmış və imanlarına görə sınağa çəkilmiş müxtəlif insanlardan danışır. Gələcək bir çoxları üçün naməlum olsa da, onlar Allaha etibar etməkdə davam edirlər. Məsələn, 8-18-ci ayələrdə İbrahim və Saranın nümunəsi əsl imanın xüsusiyyətini təsvir edir, bu "vəd sözü ilə danışmış Allaha itaət edən etibar ilə özünü ifadə edən gələcəyə açıqlıq" kimidir. Ola bilsin ki, kimsə bunu daha ümumi şəkildə deyə bilər, iman Allahın dediyi şeyləri edə bildiyinə və edəcəyinə, eləcə də ona uyğun hərəkət edəcəyinə möhmək əminlikdir.

Bu iman yalnız Allahın vədində təmin olunur və özünü belə gerçəklikdə ifadə edir ki, bu dünya Allahın planının həyata keçdiyi yer deyil. Əcdadlar öz evlərini axtarıblar, amma heç vaxt bunu öz həyatlarında əldə etməyiblər. Bu şəhadətlikdir, müəllif deyir gerçəkliyi belə təsvir edir, iman insanlarının sonuncu yerləri Allahın hazırladığı ölkə və şəhərdir (11:13-16). Bu, İsa Məsihə həsr olunmalarına görə əzab çəkənlər üçün ümid təmin etməkdir, gerçəklik budur ki, Allahın vədlərinin yalnız bu həyat üçün məhdudlaşdırılmayıb.

Amma bu həyatda iman asan olmayacaq. Onlara əzab verənlərdən soruşanda ki "Sənin Allahın hardadır?" bu əsl iman kişiləri və qadınları cavab vermişdilər: "Mən Rəbbimə iman edəcəyəm." Bəziləri azad olmuşdular (11:33-35a); digərləri isə azad olmamışdılar (11:35b-38). 35-ci ayədə biz yazıçının vurğusunda digər fikrə keçidi görürük, burada o, sadiq anaların övladlarının dirilməsini sadiqliyinə görə əzab çəkmiş və öldürülmüş insanların dirilməsi ilə qarşı qarşıya qoyur. Bu həyatda dirilmə ilə övladlarını geriyə alan anaların böyük sevinci və mükafatları Məsihə imanını inkar etmədiyinə görə işgəncə verilən və öldürülənlərin sevincindən

və əbədi mükafatlarından azdır. Onların mükafatları *"daha yaxşı dirilmədir"* (***kreittoni anastaseuo***).

Allah üçün nə daha çətindir: kimisə ölülərdən diriltmək, yoxsa daimi təqibdən keçərək kiminsə Allahı sevməsində və Ona etibar etməsində davam etməsi? Onun lütfünü və gücünü daha çox nə nümayiş etdirir? Ən böyük möcüzə nədir? Bunun "daha yaxşı" dirilməyə aid olduğu təəccüblüdürmü? Əgər Allah imanlıları sadəcə çətinliklərdən çıxarsaydı, onlar sevincə və mükafata aparan yolda Allahın lütfünü əldə etməzdilər?

Digər tərəfdən imandan dönənlər üçün dirilmə mükafat və sevinci vaxtı olmayacaq. Leon Morrisin qeyd etdiyi kimi, "Dirilmənin sevincli ola bilməsi üçün indi əzaba, hətta işgəncəyə dözmək daha yaxşıdır." Oxucular üçün ruhlanma budur ki, əbədi ümidi əldə etsinlər və bu həyatın elə bunlardan ibarət olmadığını anlasınlar.

Növbəti 11:35-ci ayələrdə müəllif oxucunun diqqətini başqa nümunələrə çəkir, bu nümunələrdə öz imanlarını inkar etmək əvəzinə əzab çəkib qurban verənlərdən danışılır, bu dünyanın onlara layiq olmadığı deyilir (38-ci ayə). Amma onlar qurtulsalar da, qurtulmasalar da, hamısı həqiqi, möhkəm imanlarına görə Allahın mükafatını almışdılar (11:39). Amma müəllif deyir ki, onlara vəd olunan şeyləri onlar almadılar. İbr. 11:6 göstərir ki, Allaha yaxınlaşanlar inanmalıdırlar ki, O mövcuddur və Onu axtaranlara mükafat verir. Amma 39-cu ayə göstərir ki, mükafat bu həyatda gəlməyə bilər. Bunun üçün səbəb belə verilib "*Çünki Allah bizim üçün daha yaxşı şey hazırlamışdır ki, onlar bizsiz kamilliyə çatmasın* (11:40).

Keçmiş dinlərinə qayıtmağı düşünən yəhudi mənşəli imanlılara bu vəzin edildiyini yadda saxlamaq bizə kömək edir ki, 11:40-ın sirli mənasını anlayaq. 11-ci fəsildə verilmiş iman nümunələrinin hamısı Məsihin gəlişinə qədər baş vermişdi. Bu nümunələr ilə oxucular uşaqlıqdan tanış idilər. Bu fəsildən əvvəlki fəsildə müəllif sübut edir ki, Məsihin qurbanı Allahın bəşəriyyəti Özü ilə barışdırmaq məqsədini əldə etmək üçün yeganə yoldur. Başqa yol yoxdur. Bundan əvvəl olan hər bir şey sadəcə Məsihin tamamladığı işi göstərirdi. İndi Məsihin ölümünə və dirilməsinə görə O, Allahın hüzuruna yol açır. "Bizsiz" (Məsihdə yeni həyata şəhadətlik

edənlər) Əhdi-Ətiq imanlıları heç vaxt Allahın vədinin tamlığını əldə edə bilməzdilər. Bunu atmaq və yəhudiliyə qayıtmaq Allahın vədinin həyata keçməsindən zövq almağımızdan özümüzü ayırmaq olardı. Allahın etdiyi "daha yaxşı" plan daha yaxşı ümidi (7:19), daha yaxşı əhdi (7:22), daha yaxşı vədi (8:6), daha yaxşı qurbanları (9:23), daha yaxşı əmlakları (10:34) və daha yaxşı dirilməni (11:35) qəbul edir. Bütün bunlar indi Allahın xalqı üçün yararlıdır, amma insan yalnız Allahın xalqının bir hissəsi olduğu halda, bunları əldə edə bilər. İnsan bu şeyləri əks hərəkət etməklə və müvəqqəti və hazırlıq üçün olana qayıtmaqla əldə edə bilməz.

11-ci fəsil öz imanlarında tərəddüd edənləri ruhlandırmaq üçün diqqətlə yazılıb, onlara məlum olan etibarlı, həqiqi nümunələrdən istifadə olunur ki, irəliyə doğru getsinlər və vəd olunan mükafatın irəlidə olduğunu bilsinlər.

İbranilər 12-ci fəsil

İbr. 12:1-də müəllif oxucuya tərəf çevrilib deyir, "Əgər bu insanlar Allaha sadiq qaldılarsa (və onlar siz də olan bütün xeyir-dualardan zövq almadılar), onda sizə də sadiq qala bilərsiniz."

> *Buna görə bu qədər böyük şahidlər buludu ilə əhatə olunduğumuz üçün biz hər bir yükü və bizi asanlıqla çaşdıran günahı tərk edib qarşımızdakı yarışda dözümlə qaçaq. Gözümüzü imanımızın Banisi və Kamilləşdiricisi olan İsaya dikək. O, qarşısına qoyulan sevincə görə rüsvayçılığı heç sayıb çarmıxa çəkilməyə tab gətirdi və Allahın taxtının sağında oturdu.*
>
> *Günahkarlardan Ona qarşı olan bu qədər düşmənçiliyə dözən Şəxs barəsində düşünün ki, yorulub ruhdan düşməyəsiniz (İbr. 12:1-3).*

Bir az əvvəl qeyd edildiyi kimi 4-cü ayə göstərir ki, oxucular İsa kimi hələ ölüm anınadək müqavimət aparmayıblar. Leyn deyir ki, *"hələ qan töküləcək qədər möhkəm durmamısınız"* ifadəsi təsviri olaraq "Siz hələ əlinizdən gələn hər şeyi etməmisiniz" kimi

başa düşülə bilər. Amma o inanır ki, bu ifadəni qanlı təqibə aid edilən bir şey kimi şərh etmək olar, oxucuların hələ mübarizədə əsl şəhidliyi yaşamadıqlarını bildirir. Buna görə də 12:4-ün şərhi oxucuları utandırmaq üçün nəzərdə tutulub ki, onların əzabı İsanın çəkdiyi əzablar ilə müqayisədə əhəmiyyətsizdir. Amma onlar Ona olan imanlarını tərk etmək və unutmaq istəyirlər.

Mənim fikrimcə Delitz şərh etdiyi kimi bu iki mənanı götürmək lazımdır. Belə başa düşülür ki, 12:4 belə şərh oluna bilər ki, oxucular şəhidliyi yaşamayıblar, çünki onlar Onu tanımaqlarında ən yaxşı olanı etməyiblər. Həm də müəllif 12:5-də davam edir, amma onlar unudublar ki, əzab Allahın əlində sevgi dolu tərbiyələndirmə aləti ola bilər.

Bizim bir az əvvəl Əhdi-Ətiqin tədqiqində qeyd etdiyimiz kimi bir çox insanlar tərbiyələndirməni və cəzanı qarışdırırlar. Siz Qan. Tək. 8-ci fəslin tədqiqindən xatırladığınız kimi israillilərin səhrada əzabı insanların ürəyində olanı aşkar etmək üçün "*tərbiyələndirmə*" kimi qeyd olunur (8:2). Bununla onlar öyrənməli idilər ki, insan yalnız çörəklə yaşamaz, amma Rəbbin ağzından çıxan hər bir şeylə yaşayar (8:3). Bunda onlar bilməli idilər ki, Allah onları ata oğlunu tərbiyələndirdiyi kimi tərbiyələndirir (8:5).

İbranilərə məktubun 12-ci fəslində müəllifin fikrində bu var idi. Təqib, Məsih uğrunda əzab bizim padşahlıq üçün layiq olduğumuzu təsdiqləyən Atanın yolu kimi görünür, bunlar Atamızın bizim üçün saxladığı cavabdehlikləri üzərimizə götürməyə imkan verir. Bunun vasitəsilə O bizdə "*salehliyin dinclik səmərəsini*" (12:11) verir.

2:10-da müəllif İmanımızın Müəllifinin əzablarını müzakirə etmişdi və Allah bunu Onun Oğlunun əzab çəkməsini "münasib" hesab etmişdi. Ata əzabı münasib metod hesab etmişdi, bu metodu O, Öz yeganə Oğlu vasitəsilə kamilləşdirmişdi.

Əlbəttə, bu sual doğurur, "Bu necə ola bilər ki, İsa, Allah olmaqla kamilləşməyə ehtiyacı olsun?" Cavab İbranilərə məktubun əvvəlki hissələrində istifadə edilmiş dini təsvirdədir, "*kamilləşmə*" sözü "xüsusi tapşırıq üçün ayrılmış və ya hazırlaşmış" mənasında başa düşülməlidir. Əzab vasitəsilə İsa Baş Kahinimiz kimi Allah qarşısında tamlığı ilə Onun işi üçün təchiz edilmişdir; Onun xilasedici tapşırığını həyata keçirmək üçün Onun ölümədək əzabı

lazım idi. Bu metodologiya Allahın xasiyyətinə uyğundur, insanın Onun ilə barışması üçün bir vasitədir. Qurban və əzab həmişə Allahın Öz məqsədlərini həyata keçirmək üçün vasitələrdir.

İsanın əzabı həm də Onu Öz sıxıntılarında xalqının halına tamlığı ilə acımaq üçün hazırlamışdı (2:17, 18). Onun ölümü bizim qulu olduğumuz ölüm qorxusundan azad edir (2:15). Ton yazır: "Şəhidlər ölümlərini qorxu ilə qarşılayarkən şeytanın sonuncu aləti gücsüzləşir və o əzilib məğlub olur."

5:8,9-da biz oxuyuruq ki, İsa əzab vasitəsilə itaətkar olmağı öyrəndi. Leyn göstərir ki, İbranilərə məktubda ***(pascein)*** əzab sadəcə İsanın əzabına Onun işgəncələri kimi baxır (2:9, 10; 9:26; 13:12) və "ölmək" çalarını daşıyır. İsa Ataya, hətta əzab və ölüm anınadək itaət etmək üçün iradəsini nümayiş etdirdi, baxmayaraq ki, O bu işi Öz bədənində həyata keçirmək istəmirdi (5:7). Yenə də O itaət etdi və beləliklə "*kamil*" olaraq Allahın məqsədlərini həyata keçirdi (5:9). Bu cür itaətkar xasiyyəti Allah istəyir ki, Öz övladlığa götürdüyü uşaqlarında yaratsın.

Bu səbəbdən də əzab, təqib və şəhidlik yer üzündəki miskin mövcudluğun təyin olunmuş faciələri deyil; onlar aydın göstərirlər ki, insan Allahın "məktəbindədir", burada Allah övladını Öz müqəddəslik və salehlik surətinə formalaşdırır (12:10). Allah beləcə Oğlunu Öz xidməti üçün hazırlamışdı; bizləri də öz xidmətlərimiz üçün beləcə hazırlayır. Bu Allahın "münasib" və ya əlverişli metodudur (2:10).

Biz bu təlimə təəccüblənməməliyik. İsa bunu şagirdlərinə səmadakı Ataları kimi kamil olmağı öyrədəndə demişdi (Matta 5:48). Bunu qeyd etmək mühümdür ki, İsa bu əmri təqibdən əziyyət çəkənlərə təlim keçdiyi məzmunda vermişdi: *"Mənsə sizə deyirəm ki, düşmənlərinizi sevin, sizi təqib edənlər üçün dua edin. Belə ki siz göylərdə olan Atanızın övladları olasınız. Çünki O, günəşini həm pislərin, həm yaxşıların üzərinə doğurur, yağışını da həm salehlərin, həm də saleh olmayanların üzərinə yağdırır" (Matta 5:44, 45)*.

Belə görünür ki, yalnız belə müqavimət və əzab şəraitində mömin xasiyyət inkişaf edə bilər. İbrani mənşəli imanlılar üçün bu kitabı oxuyarkən çağırış keçmişdəki əzab mənzərəsinə baxıb

onun nəticələrinə nəzər salmaq idi. Təqibi iman üçün təhlükə kimi görməkdənsə, ona imanın kamilləşdiyi sınaq meydanı kimi baxmaq lazımdır.

İbranilər 13-cü fəsil

Məsih ilə təqib olunanlar arasında həmrəyliyin bu tədqiqdə yaxşı təşkil olunduğu üçün İbr. 13:3 həm də göstərir ki, Məsihin bədəninin üzvləri ilə arasında həmrəylik elə dərəcədə olmalıdır ki, Onun uğrunda həbs olunmuş və əzab çəkmiş insanlar əmin ola bilsinlər ki, belə sınaqlardan keçməyənlər onların zəncirlərini və ağrılarını hiss etmək üçün kifayət qədər qayğı çəkəcəklər. Bu müəllifin 10:32-34-dəki şərhi ilə uyğunlaşır, yəni onların ilk sevgilərinin əlaməti insanın dünyəvi var-dövlətinin müvəqqəti xüsusiyyətini dərk edərək, əzab çəkənlər ilə şərik olmağa hazır olaraq, həbsdə olanların halına acıyaraq, təqib zamanı dözüm idi.

13:7-də bir az əvvəl qeyd edildiyi kimi müəllif bu vəzin oxucularına tapşırır ki, əvvəllər Allah Kəlamını onlara öyrədən rəhbərləri yada salsın. Bu rəhbərlər artıq danışmırlar. Onların sözləri unudulub. Onların vəzləri Məbədin keçmiş dövrünə məxsusdur və onlar artıq yoxdurlar.

Mənə və bir çox şərhçilərə belə görünür ki, bu ayə imanı şəhidliklə nəticələnmiş insanlardan danışır. Onların tərəddüd edən imanlarını gücləndirmək üçün yazıçı bu imanlılardan xahiş edir ki, həmişə "imanlarının nəticəsinə" (dəfələrlə) baxsınlar və onlara əmr edir ki, imanlarını təqlid etsinlər. Təqiblə uğurla qarşılaşmış və qalib gəlmiş insanların şəhadətliyi və nümunəsi tərəddüd edənləri ruhlandırmalı və onlara ümid verməlidir, çünki bu onlara Allahın sadiqliyini xatırladır. Müəllif bunu növbəti ayədə vurğulayır, *"İsa Məsih dünən, bu gün və əbədi olaraq eynidir"* (13:8). Bunu fikirdə saxlayaraq, onlar keçmiş rəhbərlərindən aldıqları təlimlər ilə uyğunlaşmayan təlimlər tərəfindən uzaqlaşmamalıdırlar, bu rəhbərlər imandan dönmək əvəzinə ölümə hazır idilər.

13:12,13-də biz həm xilasedici, həm də nümunəvi kimi təsvir edilmiş İsanın əzabları haqqında sonuncu istinadı görürük. 11-ci ayədə yazıçı onlara xatırladır ki, yəhudi qurban sistemində qurban

üçün təqdim edilən heyvan cəsədləri düşərgədən kənara aparılıb yandırılırdı, insanların günahlarını və utandırıcı vəziyyətlərini rəmzi olaraq göstərirdi. Eyni cür İsa da qurban kimi düşərgədən kənarda öldü. O, rüsvayçılıq və məzəmmət rəmzi kimi bizim uğrumuzda günah oldu. Oxuculardan xahiş olunur ki, *"düşərgənin kənarına çıxıb Onun yanına getsinlər"* və İsaya qoşulsunlar. İsa təhqir olunub, alçaldığı və rədd olunduğu kimi oxucular da özlərini İsanın əzabları ilə eyniləşdirməlidirlər. Onlar cəmiyyətdən təcrid olunmanı və İsanı tanımaqlarından yaranmış utandırıcı nəticələri qəbul etməlidirlər. İbr. 13:13-də yazıçı öz məqsədlərinə görə İsanın çarmıxı götürüb Onun ardınca getmək olan yaxşı tanınmış çağırışına uyğunlaşır. Bu yəhudi imanlılar üçün çətin bir çağırışdır. Düşərgənin içərisində bu təhlükəsiz görünə bilər, amma yazıçı onlara xatırladır ki, "təhlükəsiz" yer onların məxsus olduqları yer deyil. Onların yeri düşərgədən kənarda İsa ilədir. Vəhy 14:4 təsvir etdiyi kimi Allaha sadiq insanlar Quzu hara getsə, Onun ardınca gedənlərdir.

YAQUB

1:2-18-də Yaqub imanlıların qarşılaşdıqları "*müxtəlif sınaqlar*"dan danışır ***(peirasmoi peripeshte)***. Burada "*sınaqlar*" üçün istifadə olunan sözün ***(peirasmoi)*** Əhdi-Cədiddə müxtəlif mənaları var. Bu günaha daxili şirniklənmə ola bilər (1 Timotey 6:9), suallar verməklə nəyisə və ya kimisə sınağa çəkmək (Matta 16:1), tələ qurmaq (Luka 10:25), düşmənçilik mövqeyində olan xarici vəziyyətlər və ya insanın imanına görə təqib (1 Peter 4:12) ola bilər. Mu göstərdiyi kimi, "müxtəlif" sözündən istifadə ***(peripeshte)*** bizi inandırmalıdır ki, Yaqub həm bütün insanların qarşılaşdıqları çətinliklərdən (məs, xəstəlik -5:14; maliyyə uğursuzluqları -1:9), həm də məsihçilərin imanlarına görə üzləşdikləri sosial və iqtisadi təqibdən (2:6-ya baxın) danışır.

Bu parçadan növbəti prinsiplər tədqiqimizə uyğundur:

1. Allah sınaqlardan istifadə edir ki, möhkəmliyi və ruhani yetkinliyi hasil etsin (1:2-4).

2. İnsan belə sınaqlardan keçərkən bunu sevinc hesab etməlidir (1:2).

3. Saleh insan sınaqlardan keçərkən hikmət üçün – Allahın baxışı ilə hər şeyi görmək qabiliyyəti üçün dua etməlidir və buna uyğun yaşamalıdır (1:5). İmanlılar əmin olmalıdırlar ki, Allah bu duaya şübhəsiz ki, cavab verəcək, çünki:

   a. Allah Onu çağıran bütün insanlara yaxşıdır.

   b. Allah əsirgəmədən əliaçıqlıqla verir.

   c. Allahın verməsi heç vaxt belə başa düşülməli deyil ki, Ondan xahiş edən insan hiss etməlidir ki, Allah bunu bəyənmir və bizim xeyrimiz üçün şeyləri vermək istəmir.

4. Təqibdən keçən insanın imanı olmalıdır ki, Allahın yaxşılığı etibarlıdır. Çağırış Ona etibar etmək və çaşqınlıqdan uzaqlaşmaqdır ki, bu da insanın öz resurslarına etibar etməsindən və ya Allaha etibar edib-etməməyi götür-qoy etməsindən irəli gəlir (1:6-8).

Yaqub 1:9-12 elə bir mövzunu, yəni varlı və kasıb arasında gərginliyi təqdim edir ki, bu az sonra Yaqub 2-ci fəsildə inkişaf etdirilir. 2:6,7-də Yaqub bu faktı xatırladır ki, bu məktubun oxucularını "sıxışdıran" varlılardır. Varlılar onları məhkəməyə aparır və çağırıldıqları şərəfli ada küfr edirlər. Yaqub Paulun fərziyyəsini bölüşür, yəni o kimlərə ki, yazırdı, həmin məsihçilərin əksəriyyəti kasıb insanlar idilər. Amma Yaqubun məktubu daha çox varlıları ittiham etmək haqqında deyil, onları sıxışdırmaq hərəkətləri barəsindədir. Həvarilərin İşləri kitabında təqib çox vaxt məsihçiliyin yayılması ilə gəlir mənbələrinin təhlükə altına düşdüyünü zənn edən varlılar tərəfindən yaranırdı. Onların nüfuz dairələri və mənbələrdən

istifadələri onlara imkan verir ki, imanlıları gizlicə sıxışdırsınlar və onlara qarşı qanun məhkəmələrini qaldırsınlar (2:6).

Bu kontekstdə Yaqub təəccüblənir ki, onun oxucuları əslində varlılara üstünlük verirlər (2:1-5). Bu yalnız parçalayıcı, təhqiredici deyil və məhəbbət qanununa zidd deyil (2:4,6,8-13), həm də sağlam düşüncəyə uyğun deyil. Oxucuların üstünlük vermək istədikləri bu zəngin insanlar təkcə onları sıxışdırıb mühakimə etmir, həm də onlar "*məxsus olduğunuz Şəxsin şərəfli adına küfr edirlər*" (2:7). "Şərəfli ad" kimi tərcümə edilmiş ifadə bəzi tərcümələrdə "heyranedici" kimi verilib. Yaqub Amos peyğəmbərdən sitat gətirərkən bu ifadədən Həv. İş. 15:17-də istifadə edir. Bu idiom tez-tez Əhdi-Cədiddə qarşıya çıxır və Yahve ilə Onun xalqı arasında olan yaxın ünsiyyətə aiddir. Məbədin həyatında İsa indi öz rolunu əlinə alır və ona görə də bu başa düşüləndir ki, Yaqub öz oxucularının hərəkətlərinə təəccüblənir. Mu belə şərh edir: "Necə də yersizdir ki, həmin 'şərəfli ada' küfr edənlərə məbəddə üstünlük verilsin!"

1:9-11-də Yaqub istəyir ki, imanlılar Məsihdə olan kimliklərinə görə sevinsinlər, onları sıxışdıranlara həsəd aparmasınlar. Digər tərəfdən zəngin olan imanlılar *"həqirliyi"* ilə fəxr etsin (1:10). Həqarətlə baxılan azlıqlar olmaqla ələ salınaraq əzab çəkəcəklər, Məsihin davamçıları əvvəllər də bundan çox əziyyət çəkiblər. Zəngin məsihçi əvvəllər inkişaf etdirdiyi sosial və biznes əlaqələrindən və əgər imanlı olmasaydı, əldə edə biləcəyi biznes imkanlarından məhrum olacaq. Yəqin ki, o əsl təqiblə qarşılaşacaq və əmlakı məhv ediləcək və dünyəvi var-dövlətin həqiqətən necə də müvəqqəti olduğu ona xatırlanacaq. Bu öyrənmək üçün dəyərli dərsdir. Bu, qürrələnmək üçün səbəbdir.

1:12-də həvari istər zəngin, istərsə də kasıb olan bütün imanlılara xatırladır ki, sınaq zamanı möhkəm dayanıb imanından dönməyənləri mükafat gözləyir. Onlar *"həyat tacını"* alacaqlar. Bu, Onu sevənlərə və həmin sevgini sadiqliklə nümayiş etdirənlərə Allah tərəfindən verilib.

1:13-18-də Yaqub sınaqlar zamanı sadiq qala bilməyənlərin bəzilərinə etiraz cavabları verir. Onlar mübahisə edirlər ki, sınaq Allahdan gəldiyi üçün imandan dönürlər. Yaqub göstərir ki, onlar səhv edirlər. İnsanın imandan dönməyi zahiri sınağa görə deyil,

daxili sövq olunmaya görədir. Bundan əlavə Allah bizim imanımızın həqiqi olmasını göstərmək üçün onun sınaqdan keçməsinə yol versə də, O bizi sınağa çəkmir ki, biz Ona itaətsizlik edək. Biz günaha sövq olunduğumuz üçün itaətsizlik edirik, öz ehtiraslarımız ilə yoldan çıxarılırıq və tələ bizim həyatımızda Allahdan başqa yeganə gerçəklik olanda biz tələyə düşürük və günah işlədirik. Dietrix Bonhoeffer bu prosesi belə təsvir edir:

> Bu anda Allah bizim üçün tamamilə qeyri-real olur, O, bütün gerçəkliyini itirir və yaradılış üçün yeganə arzu gerçək olur... şeytan burada bizim ürəyimizi Allaha nifrət hissi ilə doldurmur, Allaha qarşı unutqanlıqla doldurur. Və indi onun yanlışlığı bunu sübut edir. Beləliklə yaranmış ehtiras ağlı və ən dərin qaranlıqda olan insan iradəsini pərdələyir. Aydın ayırdetmə və qərar çıxarma gücü bizdən götürülür....Məhz burada hər bir şey mənim daxilimdə Allahın Kəlamına qarşı qalxır.

Ona görə də Yaqub deyir ki, aldanmayın (1:16). Allah həmişə bizim üçün yaxşı olanı arzu edib (1:16, 17) ki, biz Onun yaratdıqlarının bir növ nübarı olaq (1:18) – Onun xüsusi mülkiyyyəti və Öz surəti ilə bəşəriyyəti yeniləşdirməyinin sübutu olaq. Rik Uorren aydın, amma çox vaxt unudulan bir fikri irəli sürür, bir çox məsihçilər sövqedici düşüncələrdən qorxub gücdən düşürlər, sövq olunmadan "qaça" bilmədikləri üçün özlərini təqsirkar hiss edirlər, sadəcə sövq olunduqlarına görə utanırlar. Uorren deyir ki, "Siz heç vaxt sövq olunmadan azad olmayacaqsınız." "Bir sözlə, siz sövq olunmaya kompliment kimi baxa bilərsiniz. Şeytan artıq onun iradəsini yerinə yetirənləri günaha sövq etdirmir. Sövq olunma zəiflik və ya dünyəvilik əlaməti deyil, şeytanın sizə nifrət etdiyinə bir əlamətdir.

PETER

1 Peter

Birinci Peter, xüsusilə məsihçiləri ruhlandırmaq üçün yazılıb, bu məsihçilər indi Türkiyə olan ərazidə yaşayan məsihçilər idilər və yaşadıqları cəmiyyət onlara böhtan atırdı və təqib edirdi. Peterin məqsədi oradakı imanlıları öyrətmək idi ki, nəinki məsihçiliyin xəbərindən hirslənən, hətta məsihçilərin hüzuruna belə dözməyən bir cəmiyyətdə imanlarında möhkəm dayansınlar.

B. e. 63-64-cü illərində yazılmış Peterin məktubu bu faktı əks etdirir ki, Məbəd uçurumun kənarında dayanıb. Məsihçilərə hər tərəfdən böhtan atılırdı (2:12,15; 3:16) və Peter görürdü ki, onlara qarşı zorakılıq partlayışı gəlirdi (4:12). Məbəd bu vaxta qədər hansısa dərəcədə dini azadlıqdan zövq alırdı və hətta Roma rəhbərləri tərəfindən müdafiə olunurdu. Amma bütün bunlara baxmayaraq, hər şey dəyişmək üzrə idi. Peter öz oxucularına xəbərdarlıq edir ki, onları bürüyəcək "alovlu sınaq"dan təəccüblənməsinlər və xahiş edir ki, onunla üzləşməyə hazır olsunlar. 4:15, 16-da o yazır, "*Amma heç biriniz qatil, oğru ya başqa cür cinayətkar kimi yaxud başqalarının işinə qarışan şəxs kimi əzab çəkməsin. Lakin əgər bir insan məsihçi kimi əzab çəkirsə, qoy bundan utanmasın, bu adı daşıyaraq Allahı izzətləndirsin.*"

Peterin bu sözləri yazdığı kontekstə nəzər salaraq, Marta Sordi qeyd edir:

> İnsanlar məsihçilərə nifrət edirdilər və onları cinayətkarlar adlandırırdılar, məs, Tasitus "*flagitia*", Suetonius "*superstitio malefica*" sözlərindən istifadə etmişdi. Peter məsihçilərə qarşı olan böhtanlardan yazarkən eyni sözlərdən istifadə edir: "*sizi pislik edən adamlar kimi təqsirləndirib böhtan atsalar da*" (1 Peter 2:12). Biz ikinci əsrin yazıçılarından bu "*pislik edən*" ifadəsinin nə olduğunu bilirik. Ən mühum olan uşaq öldürmək (bütpərəstlərin Rəbbin Süfrəsi barədə şərhi) və yaxın qohumlar arasında cinsi əlaqə (bütpərəstlərin məsihçilərin bir-birilərini Qardaş və Bacı adlandırması barədə şərhi) idi. Bu iyrənc və əcayib ittihamlardan başqa daha

ümumi, hamının qəbul etdiyi "bəşəriyyətə nifrət edənlər" olmaq idi, bu ittiham keçmişdə yəhudilərə də ünvanlanırdı. Bunu qeyd etmək maraqlıdır ki, Neronun hakimiyyəti dövründə bu ittiham stoik fəlsəfənin davamçılarına (idarə edən siniflər) da tuşlanırdı.

Stoiklər kimi məsihçilər də əxlaq qaydalarını və dini tərki-dünyalığı vəz edir və həyatda tətbiq edirdilər, Roma cəmiyyəti buna heç cür dözə bilmirdi. Peter xüsusilə qeyd edir ki, norma kimi qəbul edilmiş bir çox mədəniyyət adətlərində məsihçiliyi qəbul edənlər artıq iştirak etmədikləri üçün cəmiyyət inciməyə başlamışdı. Bu məsihçilər qəribə və yaşadıqları mədəniyyətə zidd görünürdülər. Onların tənqidçiləri yəqin ki, onlara cəmiyyətə yararsız, bir az sirli və qəribə adamlar kimi baxırdılar və ona görə də onları alçaldırdılar və ictimaiyyət qarşısında ələ salırdılar. Peter öz oxucularını ruhlandırmaq istəyir ki, onları cəmiyyət qarşısında utandırmaq səyinə şərəflə cavab versinlər.

Bu anlayışın, yəni məsihçilərin cəmiyyətdən kənar olmaları bütünlüklə yanlış deyil, nə də bütünlüklə qaçılmazdır. Məsihçilər İsanın təlimlərinə itaət edəndə cəmiyyət onlara düşmənçiliklə olmasa da, ən azı imansız səviyyədə baxırdı. 1970-ci illərdə daha çox məşhur olan ifadədən istifadə etməklə demək olar ki, məsihçilik öz xüsusiyyətinə görə cəmiyyətin standartlarına uyğunlaşmır.

Bu, xüsusilə Peterin oxucularının yaşadıqları dövrdə baş vermişdi. Birinci əsrdə qnostisizm kimi tanınacaq cərəyanın toxumları artıq ümumi əhalinin düşüncəsinə səpilmişdi. Bədənin və ruhun ayrılığı bu iman sistemi üçün əsas idi. Bədən yalnız keçib gedən bir şey kimi görünür, qabıq tullanır, onun ruha az təsiri var və ya heç bir təsiri yoxdur. Bir çoxları belə şərh edirlər ki, yalnız ruh həqiqətən vacib olduğu üçün insan bədən ilə nə istəyirsə, onu da edə bilər. Ruh və bədən o qədər bir-birindən ayrıdır ki, insanın bədənlə etdiyi şey onun Allah və ya allahlar ilə ünsiyyətinə təsir edə bilməz. Beləliklə, məsihçiliyin əxlaq və cinsi paklıq barədə inadkarlığı erkən yunan və Roma mədəniyyətində imansızlıq baxışları ilə qarşılanırdı. Paklığın din ilə nə əlaqəsi var?

Yunan və Roma mədəniyyətində dini bayramlar və sosial yığıncaqlar çox vaxt çoxlu içki içmək və hər növ cinsi əxlaqsızlıq ilə xarakterizə olunurdu. İştirak etməmək çox qəribə görünürdü. Bir çoxları bunu dini inkar, məsihçiləri isə mühakimə edən insanlar hesab edirdi.

Ona görə də Peter 4:4-də yazır, "*İmanlı olmayanlar onlarla birlikdə eyni cür pozğunluğa uymadığınıza görə təəccüb edir, sizə şər atırlar.*" Biz bu cəmiyyətdə Məsihə iman edənlərin qəfildən ətrafdakı cəmiyyətə əks mövqedə dayanmağa çağrıldığını görəndə heyrətlənirik, onlar cəmiyyətin standartları ilə razılaşmadıqlarına görə ittiham olunurlar. "Ay insanlar, sizə nə olub?" sualı qeyri-adi sual olmazdı.

Amma bu sadəcə belə deyildi. İmansızlıq tezliklə sosial inkara, təhqirlərə və yəqin ki, izdihamın hərəkətlərinə, vəhşilik və zorakılıq hərəkətlərinə çevrildi. Peter bilir ki, məktubu kimlərə yazıbsa, həmin adamlar İsa kimi cavab verməməyə sövq olunurlar. Daşlar tullananda onlar istəyirlər ki, daşları geriyə atsınlar və təhqirlər uçanda onlar eyni cür rəngli metafor ilə cavab qaytarmağa sövq olunurlar.

Bunu fikirdə saxlayaraq və bilərək ki, daha çətin günlər üfüqdədir, Peter öz oxucularından xahiş edir ki, İsanın nümunəsinə baxsınlar və onu davam etdirsinlər. Peterin təlimatlarını başa düşmək üçün kitabın sonundan, onun yazmaqda məqsədinin qısaca bildirildiyi yerdən başlamaq faydalıdır.

1 Peter 5:12

1 Peter 5:12-də müəllif deyir, "*Bu qısa məktubu etibarlı saydığım qardaşımız Sila vasitəsilə sizə yazıram. Sizi həvəsləndirərək şəhadət etdim ki, Allahın həqiqi lütfü budur. Ona bağlı qalın.*"

Başqa sözlə, "Mən sizə bu qısa məktubu yazmışam ki, Allahın həqiqi lütfünün nə olduğunu izah edim. İndi onda möhkəm dayanın." Bu ayə Peterin nəyə görə bu kitabı təqib olunmuş qardaş və bacılara yazdığını izah edir – Allahın həqiqi lütfünü anlamağa kömək etmək məqsədilə yazır, əgər onlar Onun lütfündə möhkəm qalsalar, qalib gələ bilər, sosial inkar və artan düşmənçilik

qarşısında sadiq qalarlar. Bəs Peterin haqqında danışdığı *"Allahın həqiqi lütfü"* nədir?

1 Peter 2:19-23

Lütf Peterin birinci məktubunda əsas mövzudur. Əsas hissə 1 Peter 2:19,20-də var:

> *Əgər biri Allah qarşısındakı vicdan naminə, haqsız yerə əzab çəkib kədərə tab gətirirsə, bu, tərifə layiqdir. Axı etdiyiniz günahlara görə döyülsəniz və buna dözsəniz, bu sizə nə şərəf gətirər? Amma siz yaxşılıq etdiyiniz üçün əzab çəkib dözsəniz, bu Allah qarşısında tərifə layiqdir.*

19 və 20-ci ayələrdə olan "tərifə layiqdir" ifadələri eynidir ***(touto cari)***. ***(Touto cari)*** ifadəsinin hərfi tərcüməsi "bu lütfdür." 19-cu ayədə ifadə təkdir, amma 20-ci ayədə isə bu ***(touto cari para qew)***, yəni "Bu *Allaha doğru* lütfdür" kimi verilib. 20-ci ayənin axırıncı hissəsinin hərfi tərcüməsi belədir, "Düzgün olanı etdiyinizə görə əzab çəkib dözəndə bu, Allahın gözündə lütfdür." Başqa sözlə, Peter insanın Allaha sadiqliyinə və dözümünə görə lütfü əzab kimi təyin edir.

Lütfə belə baxmaq Əhdi-Cədiddə tamamilə özünəməxsus deyil. Filip. 1:19-da Paul deyir ki, imanlılar təkcə Allahın lütfünü, yəni Məsihə iman etməyi qəbul etmirlər, həm də Onun uğrunda əzab lütfünü qəbul edirlər. 2 Korinflilərdə həvari başqalarını zənginləşdirmək üçün kasıb olmağın lütfünü qəbul etməkdən danışır (2 Kor. 8:1-9).

1 Peter 2:19, 20 Peterin təqib teologiyasını və Məsih uğrunda əzabı anlamaq üçün çox yerlərdə əsasdır. Bu diqqətəlayiqdir ki, Peter dünyanın hansısa bir şeyə necə baxması ilə Allahın ona necə baxması arasında müqayisəni göstərəndə istifadə etdiyi dil tipikdir. O, 2:4-də eyni ifadədən ***(para qew)*** "Allaha doğru" istifadə edir, o burada deyir ki, dünyanın baxışına görə Məsih rədd olunub, amma Allahın baxışına görə isə ***(para qew)*** O seçilmiş və əzizdir.

Əgər biz 2:19-cu ayəni 2:4-ə linqvistik baxımdan uyğun şəkildə tərcümə etməli olsaq, belə oxuyarıq, "dünyanın nöqteyi-nəzərindən ədalətsiz yerə əzab çəkmək və ona dözmək faciə hesab olunur, amma Allahın nöqteyi-nəzərindən isə bu lütfdür." Biz belə də desək düzgün olar ki, dünyanın nöqteyi-nəzərindən təqibə dözənlər qəhrəmandırlar, amma Allahın nöqteyi-nəzərindən onlar lütfü qəbul edənlərdir.

Peter deyir ki, əzaba dözmək Allahın insan həyatında iş gördüyünə sübutdur. Əzab çəkən üçün izzət yoxdur. Qəhrəmana ibadət yoxdur. Çətinliyə dözə bilənlərə şərəf göstərilmir, insan nailiyyətlərinə görə qürrələnmə yoxdur. Bu, Allahın lütfünün əlamətidir. Bütün bunlar başlanğıcdan sona qədər Allahın işidir. İnsanlar dəhşətli təqibdən əzab çəkib dözəndə bu sübut edir ki, Allah iş başındadır.

Ton qeyd edir:

> Biz Peterin əzab, onun məqsədi və nailiyyətləri haqqında yazılarını oxuyanda fikrimizdə saxlamalıyıq ki, bütün bunlar lütfün işidir və Allah bunlar vasitəsilə iş görür. Nəticə etibarı ilə çətinliyə və əzaba dözən insan üçün heç bir şərəf yoxdur və əzabın uğurlarına görə heç bir qürrələnmə yoxdur.

Mən dünyanın hər yerində məsihçilərin təqibi barəsində danışanda insanlar çox vaxt mənə yaxınlaşıb belə deyirlər, "Mən əmin deyiləm ki, imanıma görə təqib və əzabdan keçə bilərəm." Gözəl həqiqət budur ki, siz sanki öz gücünüzdən və ya cəsarətinizdən asılısınızmış kimi kifayət qədər güclü olmalı deyilsiniz. Amma burada bir fikir var: siz məsihçi həyatınızı artıq necə yaşayırsınızsa, ona uyğun tərzdə təqibə cavab verməlisiniz. İmanda addımlayan və Allahın lütfünə cavab verən imanlılar Məsih uğrunda əzab çəkməyə çağırılanda indi Allahın hüzuruna və lütfünə əmin ola bilərlər.

Luka 21:10-15-də İsa demişdi:

> *"Millət millətə, padşahlıq padşahlığa qarşı çıxacaq. Güclü zəlzələlər, yerbəyer aclıq və vəba, dəhşətli hadisələr*

və göydən böyük əlamətlər olacaq. Amma bütün bu hadisələrdən əvvəl Mənim adıma görə sizi yaxalayacaqlar, təqib edəcəklər, sinaqoqlara və zindanlara təslim edəcəklər, padşahların və valilərin qarşısına aparacaqlar. Bu işlər şəhadət etdiyiniz vaxt olacaq. Buna görə də ürəyinizdə qərara alın ki, özünüzü necə müdafiə edəcəyiniz barədə əvvəlcədən düşünməyəsiniz. Çünki Mən sizə elə danışıq qabiliyyəti və hikmət verəcəyəm ki, sizə qarşı çıxanların heç biri nə ona etiraz edə biləcək, nə də ona qarşı dura biləcək."

İsanın vədi təqib zamanı Onun hüzuruna əminliyi təmin edir. Matta 10:18-20 və Mark 13:9-11-də paralel hissələr Müqəddəs Ruhun hüzurunu vəd edir. Məna eynidir. Çağırış budur ki, imanlı özünü belə vəziyyətdə görəndə narahat olmamalıdır. O rahatlanmalıdır və bilməlidir ki, Allah ona lazım olan lütfü verəcək və lazımi vaxtda bir dəqiqə əvvəl yox, təqibçilərinin qarşısında şəhadətliyini sadiq şəkildə saxlayacaq!

Bu məqamda bizim özümüzə verməli olduğumuz sual bu olmalıdır, "Mənim indi Məsih ilə həyatım necədir?" Erkən məbəd atası olan Tertullian bir dəfə belə bir mülahizə irəli sürmüşdü:

> "Mən bilmirəm biləyim bilərzik ilə örtüləcək, yoxsa zəncirlə! Mən bilmirəm topuğum ayaq bilərziyi ilə bəzənəcək, yoxsa ayaq qandalları ilə sıxılacaq! Mən qorxuram ki, mirvari və zümrüdlər ilə bəzənən boynum xəncəri istəməz!"

Tertullianın söylədiyi fikir bu idi ki, biz imanlılar kimi *indi* Məsih ilə ünsiyyətdə yaşamalıyıq. Biz itaətkarlıqda və etibarda Onun lütfündə dayanmağa çağırılmışıq, Məsih və Onun padşahlığı uğrunda *indi* özünü qurban verərək yaşamalıyıq. Biz Onun uğrunda əzab çəkməyə çağırılanda biz artıq itaətkarlığı öyrənmişik. Terullianın sözləri ilə desək, "Gəlin hər cür zorakılığa dözmək üçün hazır olaq, qorxduğumuz hər bir şeyi arxada qoyaq. Məhz bu şeylər bizim ümidimizi zəiflədən bağlardır."

İbr. 5:7,8-də biz oxuyuruq ki, İsa Bagda olarkən Atanın iradəsinə itaətkarlığı öyrənməklə çarmıx üçün hazırlaşmışdı, O burada Atanın iradəsini həyata keçirib keçirməmək qərarı ilə üzləşmişdi.

Hər gün biz bu qərarla üzləşirik, Allahın lütfündə qalacağıq yoxsa yox. Biz "Bəli, Rəbb" deməklə itaətkarlığı öyrənirik. Bunu etməklə, əgər bizdən böyük qurban vermək tələb olunursa, biz nümunə yaratmış oluruq.

Rəbb Yeremya peyğəmbərə xəbərdarlıq etmişdi, *"Ey Yeremya, əgər sən piyadalarla qaçanda yoruldunsa, atlarla necə yarışa bilərsən? Əgər əmin-amanlıq olan torpaqda büdrəsən, İordan çayının kənarındakı sıx meşədə nə edəcəksən?"* (Yeremya 12:5). Əgər biz həyatda İsanın ardınca getməyin qurbanlarını qəbul etməyə hazır olmasaq, ölümdə Onun ardınca gedəcəyimiz şübhəlidir. Əgər biz bu gün gündəlik həyatın gərginliklərini qarşılamaq üçün Allaha arxalanmasaq, gələcək sınaqların öhdəsindən necə gələrik, adi vəziyyətdən bizi naməlum və düşmən mühitə aparan vəziyyətdə Onun ardınca getməliyikmi? Əgər biz indi gündəlik həyatımızda Allahın lütfünə arxalanmırıqsa, necə düşünə bilərik ki, sınaq vaxtı gələndə bunu edəcəyik?

Dözüm təlim üzərində qurulan, həyatın bütün sahələrində Allaha "Bəli" demək praktikası üzərində qurulan bir prosesdir, Allahın bizim möhkəm dayanmağımız üçün verdiyi resursları tələb edir. Bu o deməkdir ki, bəziləri Məsihi təqib zamanı inkar edir? Bəli, bəziləri inkar edir, amma bu ona görə deyil ki, Məsih dözmək üçün lazımi lütfü təmin etməyib. 2 Peter 1:3-də Peter yazdığı kimi O bizə həyat və möminlik üçün lazım olan hər bir şeyi verib.

1 Peter 2:21-23-də Peterin yazdığı kimi bizim çağırışımız Rəbbimizin nümunəsini izləyərək, Allahın təmin etdiyi lütfün daxilində qalmaqdır: "*Siz məhz bunun üçün çağırıldınız. Çünki Məsih də sizin üçün əzab çəkdi və sizə nümunə oldu ki, siz də Onun izi ilə gedəsiniz. O heç bir günah etmədi, Ağzından hiylə sözü çıxmadı. Onu söydülər, O isə cavabında söymürdü, əzab çəkərək heç kimi hədələmirdi, əksinə, ədalətli Hakimə Özünü təslim etdi.*"

Bu özünü 4:19-da əks etdirir, Peter belə deyir: "*Bunun üçün qoy Allahın iradəsinə görə əzab çəkənlər yaxşılıq edərək həyatlarını*

sadiq olan Yaradana həvalə etsinlər." Biz düzgün olanı etməklə özümüzü sadiq Yaradanımıza etibar edirik.

Lİ DESİAN

2000-2001-ci illər ərzində Çindəki ev toplantısının rəhbəri Li DeSian tez-tez həbs olunurdu, buna səbəb onun Quanqdonq əyalətindəki Huadu yaxınlığında gizli toplaşan məbəddəki fəaliyyəti idi. Bu vaxt ərzində o, məbədə gedərkən çantasına ədyal və əlavə paltar götürərdi. Hər dəfə məbədə gedəndə həbs ediləcəyini gözləyirdi.

Pastor Li dəfələrlə həbs olunmuşdu. İki dəfə polis onu elə döymüşdü ki, o, qan qusmuşdu. Bir dəfə Linin üzünə öz Müqəddəs Kitabı ilə vurmuşdular. Onu məcbur etmişdilər ki, ABŞ və Kanadaya ixrac üçün Milad işıqları düzəldən fabriklərdə işləsin. Az işıqlandırılan şəraitlərdə maaş ödənilmədən işləyirdi və normanı işləməsə döyülürdü.

Amma o bu günə qədər cavabdehlik daşıdığı müxtəlif toplantılarda xidmət etməkdə davam edir, bilir ki, rəsmi məhkəmə olmadan əmək düşərgələrinə üç ilə qədər göndərilə bilər.

Risklər böyükdür, amma Linin çantası dolub. Çantasının dolmasından başqa əsas onun ağlı və ürəyi hazırdır. O, Allahın lütfü ilə yaşayıb və həmin lütf vasitəsilə ölmək üçün hazırlaşıb. O, Müjdəni vəz etmək üçün hər şeyi ödəməyə hazırdır. O əmindir ki, Allah onun, hətta zindanda belə qayğısına qalacaq və onu sadiq saxlayacaq.

1 Peter 3:8-17

3:8-17-də Peter 2:21-də təqdim etdiyi İsanın nümunəsini izləmək mövzusuna toxunur. Peter deyir ki, bizim çağırışımız (3:9; 2:21) Məsih kimi düşmən cəmiyyətdə sülhdə yaşamaqdır, incikliyə incikliklə, zərbəyə zərbə ilə cavab verməməlidir (3:10-12). Əgər biz əzab çəkməliyiksə, bu doğru olanı etdiyimizə görə olmalıdır (3:13) və belə etdiyimizə görə xeyir-dua alacağımızı gözləməliyik (3:14a).

1 Peter 14,15-ci ayələrdə olan bizi təqib edənlərdən qorxmamaq çağırışı Yeşaya 8:12b,13-ün sözlərinə əsaslanmışdı: *"Onların qorxduqlarından qorxmayın, lərzəyə gəlməyin. Ordular Rəbbini müqəddəs sayın!*"

Rəbb peyğəmbərə söyləyir ki, İsraildə olan mömin insanlara desin ki, qəddar Assuriya ordusunun təhlükəli işğalından qorxmasınlar. Düşmənin təhlükəsi qarşısında həm Yeşayada, həm də 1 Peterdə mömin insanın cavabı qorxuda deyil, Rəbbə ehtiramda olmalıdır. "İmanlılar onları təhqir edənlərin təhlükəsindən qorxanda, narahat olanda və ya əziyyət çəkəndə (3:14b) bu pis insanlara imkan verirlər ki, onların üzərində ağalıq etsinlər, əslində bu insanları onlar həyat tərzlərini və həyata baxışlarını təyin edən insanlar kimi qəbul edirlər."

Rəbbin Yeşaya 8-ci fəsildə peyğəmbərə dediyi "*qorxu*" assuriyalılardan qorxu idi ki, insanları bürümüşdü. Mömin insan üçün təhlükə insanların qorxduqları şey (yəni assuriyalılar) deyildi, insanları əsr edən qorxu özü idi.

Peter deyir ki, məsihçi onu təqib edənlər ilə qarşılaşarkən həmin qorxu onun həyatını idarə etməməlidir. Əksinə Məsih onun həyatını idarə etməli, möhkəm daxili arxayınlıqla dolduraraq bildirməlidir ki, insanın həyatını onun insan rəqibləri deyil, tamamilə Allah idarə edir.

> Əgər siz bu günahkarların hədələrinin həyata keçməsindən qorxursunuzsa və onlara sizi narahat etməyə imkan verirsinizsə, siz əvəz çıxmaq istəyəcəksiniz. Siz bunu edən kimi göstərirsiniz ki, həmin təqibçilərə həyatınızın "ağaları" olmağa, eləcə də həyat tərzinizi və baxışınızı təyin etməyə imkan vermisiniz. Ona görə də yalnız Məsihə Rəbbiniz

kimi hörmət edin və təmiz vicdanı saxlamaqla ümidinizə şəhadətlik etməyə hazır olun.

"***1 Peter 3:13-17-də Yeşaya***" maraqlı məqaləsində Fika van Rensburq və Stiv Moyise qeyd edir:

> 1 Peter 3:13-17-də Yeşayanın istifadəsi həm birbaşa, həm də mürəkkəbdir. 1 Peterin quruluş üzrə təhlilindən müəllifin nə demək istədiyi olduqca aydın görünür: Qorxuya imkan verməyin ki, sizin davranışınızı idarə etsin, Məsihə Rəbb kimi hörmət edin. Sitat gətirilən mətn də eyni şeyi bildirir: Onların qorxduğu şeylərdən qorxmayın, Allahınız Rəbbə hörmət edin.

Məsihçilərin həyatlarında Məsih Rəbb olaraq "Onun adı uğrunda əzab çəkərkən möhkəm durmaq üçün lütfə və gücə" əmin olmalıdırlar.

3:15-də Peter fikrini təsdiq edərək deyir ki, qorxuya təslim olmasınlar, amma elə yaşasınlar ki, həyatlarının mərkəzində Məsihə etibar olsun, təqib olunan insanlar onların həyatlarında hökmranlıq edən ümidi düşmənləri qarşısında şəhadətlik etməyə hazır olmalıdırlar. 15-ci ayədə istifadə olunan "cavab" sözü, ***(apologia)*** tez-tez rəsmi istintaqa aid edilmək üçün istifadə olunur (Həv. İş. 25:16; 25; 2 Timotey 4:16-ya baxın). Amma bu həm də qeyri-rəsmi isintaq mənası da verə bilər. 3:15-də hansı mənanın nəzərdə tutulduğu kontekstdən aydın deyil.

Buna baxmayaraq, təqibçilər məsihçilərdən soruşandakı nəyə görə qorxu onların həyatlarını idarə etmir, imanlıların baxışı bizə belə ümidi verən şəxsin baxışı ilə eyni olmalıdır. Bu, qürurla, hörmətsizliklə və ya əvəzini çıxmaqla deyil, həlimlik, hörmət, təmiz vicdan ilə qeyd olunmalıdır.

17-ci ayədə Peter onların yaxşı davranışlarının cəmiyyətləri tərəfindən necə təhqir olunduğundan danışır. Bir az əvvəl qeyd olunduğu kimi belə görünə bilər ki, Peterin oxucuları üçün təqibçilərin nifrəti əsasən imanlıların yaşayış tərzi ilə yaranmışdı (4:4). Bu belə də olmalıdır. Peter İsanın davamçılarının Məsih

kimi hərəkət etməmələrinə görə təqib olunduğunu deyir. Ola bilsin ki, bəziləri yuxarıda deyilən Məsihəbənzər cavabı nümayiş etdirmədiklərinə görə əzab çəkmişdilər, ona görə də Peter bunu belə vurğulayır. Belə tərzdə hərəkət etmək utandırıcıdır və Məsihə layiq deyil.

Amma onlar düzgün olanı etdiklərinə görə əzab çəkirlərsə, bu qəribə olsa da, onda utanacaq insanlar təqibçilər olacaq (4:14,17). Bundan başqa onlar əzab çəkməlidirlər, çünki Allah bunu istəmişdi (3:17). Onun xalqının əzab çəkməsi heç də həmişə Allahın iradəsi deyil, amma bəzən Onun iradəsidir. Bu və "*çağırılmaq*" ifadələrinin istifadəsi (2:21; 3:9) Peterin əminliyini vurğulayır ki, İsanın ardınca getmək çağırışı əzab çəkmək çağırışıdır və imanlının həyatına heç bir şey birinci Allahın ali əllərindən keçmədən gəlmir.

3:18-də həvari bizim diqqətimizi bir dəfə hamı üçün olan Məsihin ölümünə və ondan gələn faydaya yönəldir. Onun bizim günahlarımız uğrunda çəkdiyi əzaba görə biz Allah ilə barışmışıq, bizə yeni həyat verilib və ümidsiz vəziyyətimizdən xilas olmuşuq. Bunu fikirdə saxlayaraq, imanlının Allahın hüzuruna girmək üçün imanı və əzab zamanı dözmək üçün lütfü var, o bilir ki, Onun uğrunda etdiyimiz qurban vasitəsilə Allah böyük yaxşılığını həyata keçirir.

1 Peter 4:12-19

3-cü fəslin həm 14, həm də 17-ci ayələrində Peter qeyri-adi fel formasından (arzu olunan) istifadə edir, o, mümkün olan, amma qeyri-adi və inanılmaz olan bu faktı bildirir ki, insanlar düzgün olanı etdiklərinə görə əzab çəkməlidirlər. Amma o dərhal öz fikrinə hər iki halda düzəliş verir, nəyin baş verməli olmadığını yaxşı bilsə də, əslində həmin şey baş verir. 4:12-19-da o öz oxucularına belə deməklə fikrində irəliləyir, "*Sevimlilər, sizi sınamaq üçün aranızda baş verən odlu imtahana sanki başınıza gələn qəribə bir iş kimi təəccüb etməyin*" (4:12).

4:3-10-da Peter öz oxucularından xahiş edir ki, "*Allahın çox cəhətli lütfünün*" sadiq idarəçiləri olsunlar, bunu cəmiyyət və Allaha sadiqlik arasında böyük fərqin olduğu dünyada başqaları

uğrunda özünü qurban verərək yaşamaq kontekstində söyləyir. Bu lütf həmin lütfdür ki, onlara imkan verir ki, cəmiyyət məsihçilərin yeni sadiqliklərinə (4:4) və sonra düşmənçiliyə (4:12-19) ilk təəccübünü ifadə edəndə onlar Allah uğrunda özünü qurban verərək yaşasınlar.

Peter 4:12-də onların əzablarına "odlu imtahan" kimi baxır. 1:6, 7-də Peter artıq onların imanı haqqında danışmışdı, "*cürbəcür sınaqlarda kədərə düşməyə məcbur olsanız da, hədsiz sevinirsiniz; belə ki imanınızın sınaqdan keçməsi İsa Məsihin zühurunda sizə tərif, izzət və şərəf gətirsin. Bu imanınız odla təmizlənsə belə, fani qızıldan daha çox dəyərlidir.*" Əritmə prosesi qızılı yaratmasa da, onu sadəcə səthə çıxarır, beləcə də əzab həqiqi imanı yaratmır; bu sadəcə onun həqiqətən orada olduğunu göstərir.

Peter sonra oxuculara xatırladır ki, onların sadiqlikləri bu həyatda mükafatlanmaya bilər, amma onlar əmin olmalıdırlar ki, bu yaddan çıxan bir şey deyil. Onların Allaha imanları İsanın zühurunda mükafatlanacaq, qiymətli və böyük dəyərə malik bir şey kimi nümayiş olunacaq və sevinclə qarşılanacaq.

Bu vaxt ərzində Peter 4:13-də əzabın yeni və lazımlı bir cəhətini təqdim edir: məsihçilər düzgün səbəbə, yəni Məsihə görə əzab çəkəndə onlar *"Məsihin əzablarını bölüşürlər.*" Ton qeyd edir:

> Bu doğrudur ki, Peter nə vaxt Məsihin əzabları haqqında danışırsa, o həmişə Məsihin tarixi əzablarından danışır; amma bu yerdə o dəqiq bildirmir ki, hansı əzabdan, tarixi, yoxsa indiki əzabdan danışır. Bundan başqa Peterin öz teologiyasında həm İsanın, həm də Paulun təliminə çox yaxın olduğuna görə biz güman edə bilərik ki, Məsih Müqəddəs Ruh vasitəsilə onlardadır və Məsih onlarda elə tərzdə əzab çəkir ki, *onların* əzabları *Onun* əzablarına şərik olur.

Buna əsasən əzabımızı anlamaqla bizim sevinməyə səbəbimiz var, bilirik ki, gələcəkdə, O Öz izzətində zühur edəndə (4:13) bizim sevinməyə daha böyük səbəbimiz var. Məsih uğrunda təhqirlərlə üzləşən imanlı təbrik edilməlidir, çünki onun əzabı sübut edir ki,

Allahın izzətli Ruhu onun üzərindədir (4:14). Bu sözlər Yeşaya 11:2-də özünü əks etdirir, burada deyilir ki, Rəbbin Ruhu Yesseyin budağı üzərindədir. Rəbbin əzab çəkən Qulunun üzərində olan həmin Ruh Onun qulluqçuları əzab çəkərkən onların da üzərindədir.

Peterin 4:15-də məsihçilərin nəyə görə əzab çəkməməli olduğu üçün verdiyi səbəblər siyahısı daha çox təəccüblüdür. Sadalanan günahlar məsihçi həyat tərzini deyil, bütpərəst dünyanı təsvir edir. Amma 3-cü fəsildə verilən müzakirədən görünür ki, Peter qorxur ki, oxucuları belə həyat tərzinə düşərlər, onlar Rəbbin deyil, qorxunun onların həyatını idarə etməsinə imkan verməməlidirlər. 15-ci ayənin çağırışı dözmək və Allahın lütfünün onların həyatlarında tam idarəçilik etməsinə imkan verməkdir.

O onlara xatırladır ki, Məsihin davamçısı olmağa görə əzab çəkərkən utanmaq lazım deyil (4:16). Yəqin ki, oxucu Peterin özünün Məsihi inkar etdiyini xatırlayır, o, İsanın davamçısı olduğunu etiraf etməmişdi. Peter imanlıları ruhlandırır ki, onun əvvəlki nümunəsini təkrarlamasınlar. Əksinə İsa ittiham edilərkən onun kimi İsanın adını inkar etməkdənsə oxucu *"bu adı daşıyaraq Allahı izzətləndirməlidir."*

Həv. İş. 14:22-də Paul demişdi ki, *"Allahın padşahlığına çox əziyyətlərdən keçərək girməliyik."* 4:17, 18-də Peter buna iman ailəsindən başlayan Allahın "mühakiməsi" kimi baxır. Əhdi-Ətiq peyğəmbərləri də saleh olmayan insanlardan qabaq Allahın xalqının üzərinə gələn mühakimədən danışır. Matta 24:9-14-də biz həm də qeyd edirik ki, Allahın məhkəməsi "sıxıntıların saflaşdırıcı alovunda..." məsihçilərdən başlayır və "Məsihin gəlişində imansız dünyada bəyan edilən məhkəmə hökmündə tamamlanır."

4:17-də deyilən "*mühakimə*" sözü son mühakimənin axırıncı həlledici hərəkətində deyil, onun tədricən inkişafındadır. Məbədin təqib olunmasında Allahın mühakiməsi dünyanın mühakiməsində öz kulminasiyasına doğru gedərək artıq fəaliyyətdə olduğu kimi görünə bilər. Allahın mühakiməsinin bu mərhələsində məqsəd cəza deyil, Allahın xalqının imtiyazlar və cavabdehliklər ilə cənnət üçün hazırlığıdır, təqib onların həqiqətən nə cür insan olduqlarını aşkar edir.

Bunu diqqətdə saxlayaraq, *"Allahın iradəsinə görə əzab çəkən"* imanlılar *"yaxşılıq edərək həyatlarını sadiq olan Yaradana həvalə etməlidirlər"* (4:19). Onlar Allahın lütfündən istifadə etməli və yaxşılıq etməlidirlər. Peter növbəti fəsildə bildirir ki, qürurlu insan öz gücü ilə dayana bildiyini düşünür (5:5). Allah lütfü həlimliklə özlərinin Allahdan asılı olduğunu dərk edən insanlara verir – bu, doğru olanı etmək uğrunda əzab çəkmək və dözmək bacarığıdır.

1 Peter 5:5-11

Peter bu əziz imanlıları ruhlandırmaqla öz məktubunu 6-cı ayədə yekunlaşdırmağa başlayır:

> *Allahın qüdrətli əli altında özünüzü aşağı tutun, onda Allah sizi vaxtı çatanda ucaldacaq. Bütün qayğı yükünüzü Ona ötürün, çünki O sizin qayğınıza qalır.*

Sizi qorumaq üçün Allahın lütfünə etibar etdikcə siz aşkar edirsiniz ki, sizi sıxışdıranlardan qorxmağa heç bir səbəb yoxdur, çünki Allah sizin qayğınıza qalır. Bizim müstəqil olmaq istədiyimiz vaxtlar necə də faciəlidir, biz öz qorxularımız tərəfindən idarə olunuruq. Belə vəziyyətdə təqibin təzyiqlərinə dözmək qeyri-mümkündür. Yalnız Məsihə etibar etməklə, Ondan asılı olmaqla biz qorxunun zülmündən və əziyyət çəkən ağıldan azad ola bilərik (3:14).

> *Ayıq durun, oyaq olun. Çünki düşməniniz olan iblis nərildəyən və kimisə aşırmaq istəyən aslan kimi dolaşır. Möhkəm imanla ona qarşı durun. Bilin ki, bütün dünyada bacı-qardaşlarınız da eyni cür əzab çəkirlər* (5:8, 9).

Təqib olunan Məbədin nümunəsinin cürbəcür sınaqlardan və imtahanlardan, təqib də daxil olmaqla (müstəsna olmamaqla) keçən insanlar üçün böyük dəyəri var. Başqalarının həyatlarında Allahın lütfünə şəhadətlik etmək bizə xatırladır ki, Allah bizi unutmayıb.

Bizə xatırlanır ki, əgər O bizim qardaş və bacılarımıza ən dəhşətli vəziyyətlərdə kömək edə bilirsə və onları Özünə sadiq saxlaya bilirsə, O bizə də kömək edə bilər. Biz dünyada təqib olunmuş Məbədə şəhadətlik edərkən bizə həm də xatırlanır ki, imanlılar Məsihi və onları rədd edən "dünyada" nə qədər yaşayırlarsa, Məsih uğrunda əzab həyatın ayrılmaz bir hissəsidir. Dünyanın çox vaxt təkcə Məsihin Müjdəsindən deyil, hətta Onun davamçılarının hüzurundan da xoşları gəlmir.

Bizim çağırışımız budur ki, düşmənimizin kim olduğunu yadda saxlayaq və tapşırığımızın şeytanla vuruşmaq yox – Məsih artıq onu məğlub edib – amma ona qarşı durmaq olduğunu bilək. Biz ondan və onun nəriltisindən qorxmaqdan imtina etməliyik və Allaha etibar etməkdə möhkəm durmalıyıq, bilməliyik ki, O dünyanın hər bir yerində başqalarına da yardım edir.

10-cu ayədə Peter yazır, "*Siz qısa bir müddət əzab çəkdikdən sonra sizi İsa Məsihdə Özünün əbədi izzətinə çağırmış, hər cür lütf verən Allah Özü sizi bərpa edəcək, möhkəmlədəcək, qüvvətləndirəcək və sarsılmaz təmələ oturdacaq*." Əhdi-Cədiddə bu yeganə yerdir ki, Allah "hər cür lütf verən" Allah adlanır. O, hər cür lütfü verən mənbədir; Onun bütün ilahi gücü böyük müxtəliflikdə bizə bağışlanıb, hər bir ehtiyacda və şəraitdə yardım göstərir. O Öz məqsədlərini həyata keçirmək üçün bizim üçün və bizdə işləyir, belə ki biz bunu özümüz üçün edə bilmirik. Bizi günahdan və onun cəzasından xilas etməkdə Özünü lütfdə zəngin göstərməklə biz indiki bütün ehtiyaclarımızı təmin etmək üçün Ona etibar edə bilərik və Məsihdə Onun əbədi izzətinin izzətli gələcəyi üçün ümid əldə edə bilərik.

Allahın xalqı indi az bir müddət əzab çəksə də, biz bilirik ki, bizim izzətli gələcəyimiz var. Bu bizim "çağırışımızdır." Bu bizim indiki əzablarımızın gerçəkliyini azaltmamalıdır; Allah bunun içərisində ruhlanmanı təklif edir. Bizə xatılanır ki, bu dünya yalnız burada olanlardan ibarət deyil.

Bu müddət ərzində Allahın Öz xalqının həyatlarında başladığı lütf işi onların dözməli olduqları əzaba baxmayaraq gücünü itirməyəcək. Peter deyir ki, Allah aşağıdakıları edəcək:

- Zəiflədikləri və uğursuzluqla üzləşdikləri yerlərdə onları *bərpa edir*.

- Onları *dəstəkləyir*, onlara möhkəmlik verir, Onu inkar etməyə sövq olunarkən imanda yıxılmadan davam gətirmək üçün yardım edir.

- Onları *gücləndirir* ki, şeytana qarşı dursunlar və imanda yıxılmadan ölüm anınadək dözsünlər.

- Onlara möhkəm təməl verməklə *hazırlayır* ki, sarsılmasınlar. Öz köməksiz gücləri ilə qalsalar, onlar yıxılarlar.

Onların əzabları vasitəsilə Allah Öz xalqında tamlığı ilə bərpa edilmiş və möhkəmlənmiş şəxsi xasiyyət yaradır. Şeytan məhv etməyə çalışsa da, Allah hərəkət edir və onları elə vasitələrə çevirir ki, bunlarla Öz xasiyyətini Öz xalqının həyatında inkişaf etdirir. Məsihin əzabı olmadan izzəti olmadığı kimi Onun övladlarının da izzəti yoxdur. Əzab heç vaxt Allahın məqsədlərini pozmur. Əslində Allah özünü qurbandan başqa heç bir formula tanımır. Bu, üsyankar və günaha batmış dünyada Onun lütf vasitələridir.

Bütün bunlara cavab olaraq, Peter yekunlaşdırır, *"Qüdrət əbədi olaraq Onun olsun! Amin*." Dünyanın hər bir yerində Onun təqib olunmuş xalqının xeyrinə hərəkət edən *Ona, yalnız Ona* bütün izzət olmalıdır. Qoy biz heç vaxt təqib olunmuş məsihçilərə izzəti verməyək, bu izzət onların sadiqliklərinə və cəsarət şəhadətliklərinə görə yalnız Allaha məxsusdur. Biz Məsihin surətini həyatlarımızda əks etdirdikcə bu həqiqətən "Allahın həqiqi lütfüdür", biz bunda sona qədər möhkəm dayanmalıyıq. *"Qüdrət əbədi olaraq Onun olsun! Amin*."

2 Peter

2 Peterdə təqibə yeganə istinad yalnız 1:12-15-dədir, burada Peter deyir, "*Ona görə də bunları bilsəniz və sahib olduğunuz*

həqiqətlə möhkəm dursanız da, daima bunları sizə xatırladıram. Bu bədəndə yaşadığım müddətdə xatırlatmaqla sizi oyandırmağı doğru hesab edirəm. Çünki Rəbbimiz İsa Məsihin mənə bildirdiyi kimi, bu bədəndən ayrılmağımın yaxın olduğunu bilirəm. Buna görə də çalışıram ki, mən bu dünyadan köçdükdən sonra da siz bunları həmişə yada salasınız."

Keçmiş ayələrdə Peter oxucularına bu faktı xatırlatmışdı ki, "*Bizi Öz izzəti və alicənablığına Çağıranın ilahi gücü Onu tanımağımız vasitəsilə yaşamağımız və mömin olmağımız üçün lazım gələn hər şeyi bizə bəxş etdi.*" (1:3). Peter bizə xatırladır ki, biz Onun mərhəmətli çağırışına cavab olaraq İsa Məsihi şəxsi tanıyanda (1:3), Allah Öz böyük gücü ilə sadiq qalmağımız üçün lazım olan hər bir şeyi vermişdi (1:3,4). Bizə lazım olan hər şey Məsihdə bizə verilmişdir. Çağırış, Allahın artıq gündəlik həyatda bizə verdiklərini mənimsəməkdir (1:5-9). Peter deyir ki, əgər biz bunu etsək, biz heç vaxt yıxılmayacağıq (1:10) və Rəbbimiz, eləcə də Xilaskarımız İsa Məsihin əbədi padşahlığında zəngin mükafatlandırılacağıq (1:11).

1:12-15-də aydındır ki, Peter tezliklə şəhid olacağını gözləyir (14-cü ayə), amma o istəyir ki, oxucuları o gedəndən sonra möhkəm dayana bilsinlər və ona görə də onlara bu həqiqətləri xatırlatmaqda tərəddüd etmir.

YƏHYA

1 Yəhya

1 Yəhyanın məqsədi 5:13-də qeyd edilib: "*Bunları sizə – Allahın Oğlunun adına iman edənlərə yazdım ki, əbədi həyata malik olduğunuzu biləsiniz.*" Yəhya məktubunda bir qrup imanlılara müraciət edir, bu qrup imanlıları bəziləri narahat edirdilər və deyirdilər ki, Allahı tanımaq üçün İsanı Allah Oğlu kimi qəbul etmək vacib deyil. Onların ümumi qəbul olunmayan təlimləri arasında belə bir iman var idi, günah etməmək mümkündür və

beləcə İsanın ölümü vasitəsilə günahların bağışlanmasına ehtiyac yoxdur. Bu fikir ayrılıqlarına əsasən iddia olunurdu ki, Əhdi-Ətiq yazılarının və həvarilərin aydın təlimlərinə zidd gedən və Allahın övladları adlandıranlar arasında məhəbbətə ehtiyacı vurğulamayan xüsusi vəhylər var. Onlar Marşal qeyd etdiyi kimi vəz edirlər, "Göz yaşları olmadan məsihçilik." Yəhya bu çaşmış imanlıları əmin etmək üçün yazır ki, eşitdiklərinə əks olaraq, onlar həqiqətən əbədi həyatı qəbul edənlərdir və bu fikir ayrılıqlarının təlimlərinin, yəni qaranlıq, yalanlar, Allahın və insanın nifrəti, Allaha qarşı üsyankarlıq, dünyəvi və özünüaldatmanın nə olduğunu aşkar edir.

3:12-də Yəhya əməlləri saleh olan Habilin, əməlləri şər olan qardaşı Qabil tərəfindən öldürməsindən danışır. Qabil gördü ki, Habilin hərəkətləri Allahın xoşuna gəldi – Yaradılış 4:5-də Allah onun qurbanını qəbul edir – amma onunku qəbul olunmur və buna görə o qəzəblənir. Bu şəhidlik hadisəsi Yəhyanın 3:13-də dediyi növbəti fikir üçün əsasdır, "*Beləliklə, qardaşlar, dünya sizə nifrət edirsə, heyrət etməyin*."

Dünyanın hərəkətləri şərdir, həm də yanlış təlimləri ilə məbəddə parçalanma yaradanlarda görünür və pislik edənlər həmişə düzgün olanı edənlərə nifrət edirlər. "Yəhya fikrində aydın şəkildə (bu ayədə) sadəcə məsihçiləri təqib edən məbəddən kənarda olan insanları tutmayıb, həm də məbədin daxilində olan insanları tutub, bu insanlarda məhəbbət çatışmadığına görə onlar həqiqi imanlılar deyil."

1 Yəhya 3:12 öz kontekstində məhdudiyyətlər olan ölkələrdə və ya məsihçi Müjdəsinə və hüzuruna düşmən olan cəmiyyətlərdə yaşamayanlar üçün faydalıdır. Həqiqətə və onu yayanlara nifrət, hətta özlərini "məsihçilər" adlandıran cəmiyyətdə ola bilər. Həqiqətdən möhkəm yapışan İsanın davamçısı qarşıdurma ilə üzləşərkən təəccüblənməməlidir. Əslində Kəlamın şəhadətliyi öz təsdiqində tamamilə ümumidir ki, bu da ümid ediləndir. 1 Yəhya 4:15; 5:12-də məsihçilərin aydın şəkildə imanı etiraf olunur, bunun nəticəsində məsihçilərə məhdudiyyətlər qoyulmuş dünyada olduqca nifrət edilir. Bu, erkən məbədin ittihamlarından bütünlüklə fərqli deyil, onlar çox vaxt romalılar tərəfindən "bəşəriyyətə nifrət edənlər" olmaqla, ittiham olunurdurlar, çünki onlar roma allahlarını rədd edirdilər.

2 Yəhya

Yəhyaya qarşı duran yanlış müəllimlər də 2 Yəhya 7-11-də görünür. Yəhyanın yazdığı "seçilmiş qadın"a öyrədilir ki, belə müəllimləri evinə qəbul etməsin və ya məsihçi yoldaşları kimi salamlamasın. Əgər biz bu təlimi 1 Yəhya ilə birlikdə qəbul etsək, görərik ki, bizi təqib edənləri sevməli, onlar üçün dua etməli və onları bağışlamalı olduğumuz halda biz elə hərəkət etməli deyilik ki, sanki aramızda olan fərqlər əhəmiyyətli deyil.

3 Yəhya

3 Yəhyada biz 2 Yəhyada olan vəziyyətdən fərqli bir vəziyyət görürük. Burada biz Yəhyanın səlahiyyətini tanımayan Dimitri adlı bir kişi haqqında oxuyuruq. O, Yəhyaya qarşı pis sözlər deyir (10-cu ayə) və onun həmkarlarını məbədinə qəbul etməkdən imtina edir.

Dimitrinin imanında hansısa küfr barədə bir şey qeyd edilməsə də, o küfrlü əməllər etdiyinə görə təqsirli idi. Onun Yəhyanın nüfüzuna və rəhbərliyinə etibarsızlıq etməsinə və buna can atmasına görə o, fəal surətdə Allahın işinə qarşı gedirdi. 1 Yəhyada olduğu kimi bunu qeyd etmək yaxşı olar ki, Allahın Müjdəsinə və qasidlərinə qarşı müqavimət özlərini məsihçilər adlandıran insanlardan gələ bilər.

Həqiqəti sadəcə imanda deyil, həm də əməldə saxlamağı özümə xatırlatmaq üçün bir neçə il mən Evanqelina Paterson tərəfindən yazılmış şerin nüsxəsini öz pul kisəmdə saxlamışdım və ofisimdə divara yapışdırmışdım.

Mərsiyə

Rəbbin işini qürurlu ürəklə və baxışla edənlər
üçün ağlayın, ağlayın.
Onların səsləri küçələrdə ucalır
və nalələri eşidilir.
Onlar öz böyük qüvvələri ilə əzilmiş qamışı qırırlar
və tüstülənən piltəni tapdalayırlar.

Tapdalananlar üçün yox
(çünki onların Allahı nalələrini eşidəcək və Rəbb onları xilas edəcək), tapdalayanlar üçün ağlayın.

Rəbbin Günü gələndə,
vadilər oxuyanda,
təpələr əl çalanda və nur işıq saçanda

Onların gözləri səhrada açılacaq,
tüstülənən piltənin tüstüsü onların burunları üçün acı olacaq,
onların ayaqları qırılmış qamışlardan... odun, saman və küləşdən deşiləcək...
Burada heç bir ot bitmir. Bütün quşlar da uçub gedib.

Rəbbin adı ilə səhra edənlər
üçün ağlayın, ağlayın.

Vəhy

Bizim tədqiqimiz üçün Yəhyanın ən əhəmiyyətli yardımını təqdim edən Vəhy kitabıdır. Aşağıdakı üç mülahizə verilib:

1. **Vəhy bütövlük kimi oxunmaq üçün nəzərdə tutulub.** Vəhy 1:3-də biz oxuyuruq: "*Nə bəxtiyardır bu peyğəmbərlik sözlərini oxuyan, eşidənlər və orada yazılanlara riayət edənlər! Çünki vaxt yaxındır.*" Çox vaxt Vəhy kitabını oxumaqda etinasız prinsip budur ki, bu, fərdi şəkildə deyil, ictimai şəkildə ucadan oxunmaq üçün yazılıb. Gərgin təqib vaxtlarında yazılmış bu kitab bir vaxtda oxunaraq bütün toplantı tərəfindən eşidilmək üçün nəzərdə tutulub. Hər kiçik hissəni təklikdə təhlil etmək və şərh etməkdənsə, bu, bütöv kimi qəbul edilmək üçün nəzərdə tutulub, halbuki bunu bir çoxları neçə əsrlər hissə-hissə şərh etməyə çalışmışdılar. Vəhyin təsiri onun bütövlüyündədir, onun xırdalığında deyil. Ucadan oxumaqla,

dinləyici öz ağlında görüntüləri canlandırır və xırda-xırda oxunarkən itirilən böyük mənzərəni əldə edir. Rəmzi dil onun nəzərdə tutulduğu kimi oxunanda mənasını azaltmır, kitabın bütöv şəkildə başa düşülməsini genişləndirir.

2. **Vəhy fikirdə məqsəd ilə tarixi auditoriya üçün yazılıb.** Vəhy xüsusi quruluşda xüsusi məqsədlə məbədin xüsusi qrupları üçün (Vəhy 1-3) yazılıb: birinci əsrin sonlarında İsa Məsihin vəhyi ilə təqib və sıxıntılardan keçənləri ruhlandırmaq üçün yazılmışdır (Vəhy 1:1).

   Kitab yazılan vaxt Roma imperatorlar tərəfindən idarə olunurdu, onlar iddia edirdilər ki, (*Dominus et Deus noster)*-dirlər (bizim Rəbbimiz və Allahımız). Amma Yəhya göylərdəki taxt-taca baxır, o deyir ki, ağsaqqallar taxt-tacın qarşısında diz çöküb 4:11-də bu ifadələri söyləyirlər:

   "Ey bizim Rəbbimiz və Allahımız!
   Sən izzət, şərəf və qüdrət almağa layiqsən.
   Çünki hər şeyi Sən yaratdın,
   Hər şey Sənin iradənlə var olub yarandı."

   Bu kitab yazılan vaxt Roma dünyasında bu satqın bir ifadə idi və imperiyanın xüsusi iddialarına birbaşa etiraz idi. Məsihçi üçün insan irqinin birliyi imperator ilə deyil, Məsihin təcəssümü ilə rəmzləşdirilir. Onlar heç vaxt imperatorların "dahiliyi" qarşısında diz çökməzdilər, Neronun dövründən bəri ilahi günəş əcdadlarının əlaməti olaraq bu imperatorların başları qızılı şüalar ilə bəzədilirdi. Onların qarşısında diz çökmək göylərdəki Allahı incitmək olardı. Amma belə etməmək siyasi məsələ idi ki, bu da rəhbərlər tərəfindən cəzalandırılmamış buraxılmazdı.

   Bu səbəbdən də bu vaxta qədər təqibin çox hissəsi dini rəhbərlər tərəfindən təhrik edilən izdihamların əlində olduğundan Neronun hakimiyyətinin sonuna yaxın Məbəd imperiyanın siyasi qüvvələri

ilə münaqişədə idi, belə ki, imperiya məsihçiliyin qeyri-qanuni mövhumat olması ilə ittiham edilməsi üçün qərar çıxarmışdı və dövlət məhkəməsinə vermişdi. Bu, məsihçilik təkcə qeyri-qanuni din deyil, həm də ateism hesab ediləndə Domitianın hökmranlığı ilə daha da dərinləşmişdi.

Yəhyanın kitabında onun dəqiq yazıldığı vaxtı göstərən heç bir dəlil yoxdur. Buna görə də kitabın Neronun hökmranlığı dövründə (b.e. 54-68) və ya Domitianın (b.e. 81-96) hökmranlığı dövründə yazılıb-yazılmadığı haqda bəzi müzakirələr var. Hər iki tarix üçün mübahisələr demək olar ki, eyni dərəcədə inandırıcıdır, amma əksər alimlər sonuncu tarixi dəstəkləyirlər.

Yəhya İsanın bu vəhyini qəbul edəndə dini və siyasi üsyançı olmaqla cəzalandırıldı. O, "*Allahın kəlamından ötrü və İsa barədə şəhadət etdiyinə görə*" Patmos adasına sürgün edildi (1:9) və bildi ki, onun nəzarət etdiyi kiçik Asiyadakı məbədlər də böyük sınaqlardan keçirlər.

Aydındır ki, Vəhy məbədləri ən çox ehtiyacları olan şeylərlə təmin etmək üçün yazılmışdı. Biz bu tədqiqdə müəyyən etdiyimiz kimi Allahın əsas işi Öz xalqının nəyə görə təqib olunduqları barədə verdikləri suallara cavab vermək deyil, Özü barədə vəhy verməkdir. Biz bu cavabı Yəhyanın görüntüsündə də görürük. Yəhyanın məbədləri "*İsa Məsihin vəhyindən*" ibarət olan xəbəri göndərməli idilər (1:9-20). Bu ümid məktubu kimi yazılmışdır, bu məktubda bəyan edilir ki, "Quzunun qurbanı ilə artıq qələbə çalınsa da, döyüş hələ bitməyib. O dirilib və sizin daxilinizdədir. Sadiq şəhadətliyinizi davam etdirin. Allahın məqsədləri sizin həyatınız və ölümünüz vasitəsilə həyata keçir. O vəd etdiyi kimi sizinlədir. Ümidinizi qırmayın. Hər şey yeniləşəcək. Göz yaşlarının vaxtı tezliklə bitəcək."

Əlbəttə, bu kitab istənilən yaş dövründə olan təqibdən keçən məsihçilərə böyük yardım edir, amma bunu yadda saxlamaq vacibdir ki, orada əsl auditoriya var idi. Yəhyanın 2-3-cü

fəsillərdə yazdığı yeddi məbədin hər biri belə bir məsələ ilə üzləşirdilər, baxmayaraq ki, bütün məbədlər üçün bu adi bir şey idi, imanına və İsa Məsihi tanımalarına görə müqavimət ilə üzləşən toplantılar üçün bu xüsusilə vacib idi. Onun kiçik Asiyaya yazdığı sözlərində İsa bu məbədlərin belə vəziyyətdə problemləri həll etməsini söyləyir. Təqiblə üzləşərkən başqa məbədlər Efesdəki məbəd kimi imanlarını qorumaq üçün cəhdlərində ciddi ənənələrin istehkamlarına çevrilmişdilər (2:1-7). Başqaları Smirna məbədi kimi əzab zamanı qorxuya düşməmək üçün ruhlanmalı idilər (2:8-11). Kənardan gizlincə gələn yanlış təlimin fəlakəti Berqamadakı məbəd kimi bəzi sadiq məbədləri təhlükə altına salır (2:12-17). Amma başqaları Tiatiradakı məbəd kimi əxlaqi və mənəvi paklığı saxlamaqda, xüsusilə mədəniyyət məbədin pul qazanması üçün onun güzəştə getməsini tələb edəndə mübarizə aparırdılar (2:18-29). Sarddakı məbəd təsvir edir ki, təqib olunmuş məsihçilər ruhani ölülükdən azad deyillər (3:1-6), amma Filadelfiyadakı kimi bəzi məbədlərin ruhlanmağa ehtiyacları var idi ki, öz ehtiyaclarından kənara Allahın onların qarşılarına qoyduğu imkanlara baxsınlar. Laodikeya məbədi Korinfdəki məbəd kimi təqdim oluna bilər, o unudur ki, bu dünya burada olan bütün şeylərdən ibarət deyil. Belə məbədlər mədəniyyətə uyğunlaşmaqla qarşıdurma ilə üzləşir və uğurun zahiri əlamətlərini qəbul edir. Onlar unudurlar ki, taxt-taclarda oturmaq vaxtı bu gün deyil, gələcəkdədir (3:21). Məsihin məbədinin tapşırığı Allahın padşahlığının məqsədlərinin həyata keçirilməsində çarmıxı daşımaqdır. Bu dünyanın məqsədlərini həyata keçirməklə laodikeyalılar çarmıxın əzabından yayınmışdılar, amma Məsih Özü isə onların bu hərəkətlərinə görə incimişdi.

Böyük və gözəl vədlər Məsihin sözlərinə qulaq asan və qalib gələnlərə verilir: yenilənmiş yaradılışda həyat ağacından yemək imtiyazı (2:7); həyat tacı (2:11); səyahəti bitirmək üçün dəstək və səmavi padşahlığa girmək üçün əminlik (2:17); miras olaraq gecə olmayan yerdə xalqlar üzərində hökmranlıq etmək səlahiyyəti (2:26-28); Onu insanlar qarşısında sevən, etiraf edən

və Ona xidmət edən izdiham ilə birlikdə Allahın hüzurunda görünmək üçün ağ libaslar, Məsihin onları Atanın qarşısında tanıyacağı vəd ilə (3:4,5); yeni sahibkarlıq, vətəndaşlıq və Məsihdə kimlik ilə (3:12) Allahın padşahlığında (məbədində) təmin edilmiş yer; və Onun padşahlığında Onunla hökmranlıq etmək hüququ (3:21).

3. **Allahın qələbəsi və bərpa etməsi Vəhydə böyük mübarizədə verilib.** Allahın yaradılışının bərpası gələcək, amma bu ağrı və mübarizə məzmununda gələcək. Quzu qələbə çalır, amma belə tələb olunur ki, O bu prosesdə ölümcül yaralansın (5:6). Beləcə Onun qasidləri də qalib gəlir, amma buraya onların əzabları və ölümləri də daxildir (6:9-11; 12:10,11; 20:4). Vəhydə əsas mövzulardan biri İsanın davamçılarına "şəhadətlik" edənlər kimi müraciət etməkdir. Vəhydə bu şəhadətlik həmişə əzab və ölümü daxil edir: "İsanın şəhadətliyi" (1:9; 12:17; 19:10; 20:4); "onların şəhadətlikləri" (6:9; 11:7; 12:11).

Hurtado belə qeyd edir, "Vəhydə 'şəhadət etmək' və 'şəhadətlik' yunan sözlərindən istifadə sonrakı 'şəhidlər' 'şəhidlik' sözlərinin xüsusi məsihçi istifadəsini gözləyir (və ola bilsin ki, formalaşmasında kömək edib). Bütün bunların arxasında "sadiq şahid" İsa (1:5) durur, O, "ölüm qarşısında Allahın kəlamı üçün möhkəmliyi göstərir, belə ki bunu İsanın davamçıları da göstərməlidirlər." Ton qeyd edir:

> Vəhy Kitabının əsas fikri Allahın İsa Məsihin şəhadətliyi vasitəsilə xalqları Özünə gətirmək üçün istifadə etdiyi yeganə metodlardır, bu şəhadətlik Onun sadiq şahidləri tərəfindən yayılan, şəhidlikdə qanları ilə möhürlənən və onlarin dirilmələri ilə Allah tərəfindən təsdiqlənən şəhadətlikdir. Allahın strategiyasında gücdən istifadə etmək effektli deyil. Bu doğrudur ki, kimsə insanları güc ilə əyə və sındıra bilər, amma nəticə daha da çox nifrətlə qarşılanacaq və sonra

üsyana səbəb olacaq. Əksinə Allah dünyanı Məsihin çarmıxının ağılsızlığı və Onun seçdiyi və məhz bu məqsədlə çağırdığı övladlarının ağılsızlığı ilə xilas etməyi qərara gəlmişdi. O Öz sonuncu məqsədinə nail olanadək bu özünəməxsus metoddan istifadə etməkdə davam edəcək. Ona görə də Allah Onun başqa oğullarının qurbanları ilə davam edən Öz Oğlunun qurbanı ilə xalqları Özünə gətirəcək.

Qadın ilə ilanın toxumu arasında mübarizə (Yaradılış 3:15) 12-ci fəsildə əks olunur. Allah Öz planını həyata keçirməyə başlayarkən, yəni 4-cü fəsildə ümid və ümidsizlik, qələbə və zülm arasında görüntülər bir-birini əvəz edərkən kitabın əsas quruluşu bu mübarizəni əks etdirir:

Qələbə / Ümid	Zülm / Ümidsizlik
4:1-5:14: Taxt-tac və Quzu	6:1-7: ilk altı möhür
7:1-8:4: sadiqlərdən ibarət izdiham və yeddinci möhür	8:5-9:21: ilk altı şeypur
10:1-11:1: səmada dramatik musiqi	11:2-14: "vəhşi heyvanların" hücümü
11:15-19: yeddinci şeypur	12:1-17: əjdaha qadına hücum edir
14:1-7: Sina dağı və Quzu	13:1-18: buynuzları olan vəhşi heyvan
15:2-8: şəhidlər Allaha ibadət edir	14:8-15:1: məvh edilmə və ittiham

19:1-16: səmada ibadət	16:1-20: qəzəbin yeddi kasası
21:1-22:5: yeni səma, yeni yer, yeni Yerusəlim	17:1-18:24: Babilin yıxılması 19:17-20:15: sonuncu mühakimə

Allahın yenidən qarşıya çıxan qələbə mövzusu aşağıdakı ardıcıllıqda təsvir olunur:

VƏHY KİTABININ QISA XÜLASƏSİ

Giriş
Proloq (1:1-8)
Məsih yeddi çıraqdanın arasında dayanıb (1:9-3:22)

Əsas bölmə
1-Cİ XRONOLOJİ ARDICILLIQ: YEDDİ MÖHÜR (4:1-8:1)

1. Səma görüntüsü (4:1-5:14)
2. 1-ci möhür: ağ atın üzərindəki döyüşçü (6:1,2)
3. 2-ci möhür: od rəngli atın üzərindəki döyüşçü (6:3,4)
4. 3-cü möhür: qara atın üzərindəki atlı (6:5,6)
5. 4-cü möhür: qara atın belində oturan ölüm (6:7,8)
6. 5-ci möhür: səmada şəhidlər (6:9-11)
7. 6-cı möhür: zəlzələlər, səma çaxnaşmada (6:12-17)
8. Möhürlənmə: (7:1-17)
   a. Allahın xalqının möhürlənməsi (7:1-8)
   b. Allahın qələbəsinin qeyd edilməsi (7:9-17)
9. 7-ci möhür: Sonun gəlməsi (8:1)

2-Cİ XRONOLOJİ ARDICILLIQ: YEDDİ ŞEYPUR (8:2-11:19)

1. Səma görüntüsü (8:2-6)
2. 1-ci şeypur: yer üzərində cəza (8:7)
3. 2-ci şeypur: dəniz üzərində cəza (8:8, 9)
4. 3-cü şeypur: su qaynaqlarının üzərində cəza (8:10, 11)
5. 4-cü şeypur: göylər üzərində cəza (8:12)
6. 5-ci şeypur: quyudan çəyirtkələr (8:13-9:12)
7. 6-cı şeypur: atlı qoşunlar (9:13-20)
8. Şeypur çalınması: (10:1-11:14)
    a. tumarın yeyilməsi (10:1-11)
    b. iki şahid (11:1-14)
9. 7-ci şeypur: Allah qələbə çaldı! (11:15-19)

3-CÜ XRONOLOJİ ARDICILLIQ: YEDDİ RƏMZİ TARİX (12:1-14:20)

1. Əjdahanın Oğula, qadına və qadının nəslinə qarşı müharibəsi (12:1-6)
2. Əjdaha yerə atıldı (12:7-17)
3. Dənizdən çıxan vəhşi heyvan (13:1-10)
4. Yerdən çıxan vəhşi heyvan (13:11-18)
5. Sina dağında Quzu (14:1-5)
6. Mələklərin mühakimə barədə bəyanatları (14:6-13)
7. Biçin (İsa qayıdır) (14:14-20)

4-CÜ XRONOLOJİ ARDICILLIQ: YEDDİ NİMÇƏ (15:1-16:21)

1. Səma görüntüsü (15:1-16:1)
2. 1-ci nimçə: ağrılı yaralar (16:2)
3. 2-ci nimçə: dəniz qana dönür (16:3)
4. 3-cü nimçə: çaylar qana dönür (16:4-7)
5. 4-cü nimçə: qızmar günəş (16:8, 9)
6. 5-ci nimçə: qaranlıq (16:10,11)
7. 6-cı nimçə: sonuncu döyüş üçün səfərbərlik (Har-Magedon) (16:12-14)
8. Fasilə (16:15)
    a. “Mən gəlirəm”
    b. “Oyaq qalın”
9. 7-ci nimçə: Şərə qarşı sonuncu hökm (16:16-21)

5-Cİ XRONOLOJİ ARDICILLIQ: BABİLƏ QARŞI YEDDİ BƏYANAT (17:1-19:10)

1. Babilin mühakimə olunmasının təsviri və bəyanatı (17:1-18:24)
2. Allahın qələbəsinin qeyd olunması (19:1-10)

6-CI XRONOLOJİ ARDICILLIQ: AĞ ATIN HÖKMLƏRİ (19:11-21)

1. İsa şəri məğlub etmək üçün qayıdır (19:11-21)

7-Cİ XRONOLOJİ ARDICILLIQ: AĞ TAXTIN HÖKMLƏRİ (20:1-21:8)

1. *Şeytanın zəncirlənməsi (20:1-3)*
2. Dirilmə (20:4-6)
3. Şeytan üçün sonuncu cəza (20:7-10)
4. Saleh olmayanların sonuncu dəfə ittiham olunması (20:11-15)
5. Yeni səma, yeni yer, yeni Yerusəlim (21:1-22:5)

YEKUN

Sonuncu təlimatlar və nəsihətlər (22:6-21)

Amma pis şeylər Allahın xalqının üzərinə gələ bilər, Vəhy kitabı bizə kömək edir ki, həmişə ümidin olduğunu görək. Məğlubiyyət çox yaxın görünə bilər, amma qələbə də yaxındır. Qələbə bəzilərinin güman etdiyi kimi şərin cəzalanması və məhv olması deyil; qələbə Məbədin bəraət qazanmasıdır. Məbəd bu qələbədə Gəlin və Bəy kimi Məsih ilə birlikdə iştirak edir, o satın alınıb, qələbə çalıb və Quzu ilə əbədi olaraq təhlükəsizdir. Məsih ölümü ilə həm Özü, həm də Məbəd üçün qələbə çalıb. Şəhidlər Ona sadiqliklərindən dönməyərək və dünyanın təklif etdiyi bütpərəst iddiaları qəbul etməyərək (13:15; 14:9), hətta ölümədək dözərək, Allahın dünyanın və şərin bütün qüvvələri üzərində qələbəsini bölüşürlər.

Biz vəhyi oxuduqca, Yaradılış 3-cü fəsildə Allahın şeytan üçün etdiyi peyğəmbərliyin necə həyata keçdiyinə heyran oluruq. Hər şeydən öncə dünya Allahın şahidlərinin, hətta ölümədək Müjdəsini və şəhadətiliklərini görəndə şeytan məğlub olur. Allahın həqiqəti nur saçır, insanlar Allaha izzət gətirir və şeytanın yalanından xilas olurlar (11:13).

Şeytanın təqib vasitəsilə məğlub edildiyi başqa iki yol Vəhydə 12:10,11-də görünür:

Mən göydə uca bir səsin belə dediyini eşitdim: "İndi Allahımızın xilası, gücü, Padşahlığı və Onun Məsihinin hakimiyyəti həyata keçdi. Çünki bacı-qardaşlarımızı Allahımızın önündə gecə-gündüz təqsirləndirən ittihamçı kənara atıldı. Onlar Quzunun qanı və öz şəhadət sözləri vasitəsilə ona qalib gəldilər. Hətta ölümlə üzbəüz olanda da öz canlarını sevmədilər.

Təqib olunan insan şeytanı ikinci dəfə Quzunun qanı ilə məğlub edir (12:11). Onlar şeytanın sahibkarlığından qurtularaq, Məsihə məxsus olduqlarını nümayiş etdirirlər. Şeytan onları Allah qarşısında ittiham edərək (Əyyub ilə etdiyi kimi), yəni Allahın xalqı saf niyyətlər ilə deyil, sadəcə Ondan əldə etdikləri şeylərə görə Allahı sevib etibar etdiklərini iddiaq edəndə təqib göstərir ki, onların Allaha sadiqlikləri əldə etdikləri şeylərdən qat-qat böyükdür.

Üçüncü, Allahın xalqı ölməkdən qorxmadıqlarını göstərməklə şeytanı məğlub edir (12:11). *"Onlar...öz şəhadət sözləri vasitəsilə ona qalib gəldilər, hətta ölümlə üzbəüz olanda da öz canlarını sevmədilər."*

Ton sual verir: "Nəyə görə Məsihin qurbanı və Onun əsgər yoldaşlarının qurbanı olmalıdır?"

Cavab budur ki, Allah insanları Özünə geriyə qaytarmaq üçün vuruşmur; O, güc tətbiq etməyəcək. Başlanğıcdan şeytan aldatmadan istifadə etmişdi ki, insanları özü üçün qazansın və bütün tarix boyunca insanları əsarətdə və köləlikdə saxlamaq üçün o, yalanlara, nifrətə, zorakılığa, işgəncəyə və ölümə əsaslanıb. Amma Allah eyni metodlardan istifadə edə bilməz. O *Öz xasiyyətinə uyğun olan* metodlardan istifadə etməlidir. O Öz yolunu zorla dünyanın xalqlarına məcbur edə bilərdi, amma bu Onun öz təbiətinə və xasiyyətinə zidd olardı.

Vəhy Allahın bərpa planını yekunlaşdırır (21:5). Yaradılışda başlanan, sonra isə Qanunda, peyğəmbərlərdə və Əhdi-Ətiqin şerlərində təqdim olunan şey İsanın həyatında, ölümündə və

dirilməsində öz kulminasiyasına çatdı və Allahın özünü qurban verən xidmətçiləri, yəni "*hətta ölümlə üzbəüz olanda da öz canlarını sevməyənlər*" (12:11) tərəfindən dünyaya verildi. Bu, Allahın seçilmiş yoludur. Əgər O Öz xasiyyətinə əks getməməli idisə, əslində bu Onun Öz məqsədlərini həyata keçirməsi üçün yeganə yolu idi. Bu günə qədər bu, Allahın yolu olmaqda davam edir və Onun qayıdacağı günədək, yəni Onun günahı və şeytanı tamamilə məğlub edəcəyi zamanadək bu belə olacaq (20:10).

Bunlara şəhadət edən deyir: "Bəli, tezliklə gəlirəm!" Amin. Gəl, ya Rəbb İsa! (22:20)

İsa nəyə görə hələ qayıtmayıb?

İsa Məsihin ikinci gəlişi barədə bütün müzakirələrdə, mübahisələrdə bir sual demək olar ki, heç vaxt ciddi şəkildə soruşulmur: "İsa nəyə görə hələ qayıtmayıb?" İkinci gəliş barədə bütün cavab verilməmiş suallar və Onun necə və nə vaxt gələcəyi barədə müxtəlif şərhlər üçün Kəlam bu bir sual barədə olduqca aydındır.

Birinci səbəbi aşkar etmək üçün biz Həv. İş. 1:1,2-dən başlayırıq, Luka burada izah edir:

> *Ey Teofil, birinci yazılarım İsanın göyə qaldırıldığı günədək başladığı işlər və öyrətməyə başladığı tam təlim barəsindədir. Göyə qaldırılmazdan əvvəl İsa seçdiyi həvarilərə Müqəddəs Ruh vasitəsilə əmrlər verdi.*

İsanın əzabından sonra O Özünü bu insanlara göstərdi və sağ olduğunu təsdiqləyən çoxlu sübutlar verdi. O, qırx gün ərzində onlara göründü və Allahın padşahlığı haqqında danışdı. Sonra növbəti ayələrdə Luka İsanın danışdığı bəzi şeyləri qeyd edir:

> *İsa onlarla duz-çörək kəsəndə bu əmri verdi: "Yerusəlimdən kənara çıxmayın, Atanın verdiyi, Məndən eşitdiyiniz vədin həyata keçməsini gözləyin. Belə ki Yəhya su ilə vəftiz edirdi, amma siz bir neçə gündən sonra Müqəddəs Ruhla vəftiz olacaqsınız*" (1:4, 5).

Sonra 6-11-ci ayələrdə Luka Allahın padşahlığı barəsində İsanın sonuncu təlimindən danışır:

> *Həvarilər bir yerə toplaşanda İsadan soruşdular: "Ya Rəbb, İsraildə Padşahlığı indimi bərpa edəcəksən?"*

İndi bu suala aparan hadisələr barəsində düşünün. İsa həbs olundu, ittiham olundu, çarmıxa çəkildi, dəfn olundu. Onun ölümü ilə şagirdlərin İsanın Allahın yer üzündə padşahlığını qurması barədə olan bütün arzuları sona yetmişdi. Şagirdlər üçün çarmıx məğlubiyyət idi.

Amma sonra aşkar etdilər ki, O ölülərdən dirilib! Onların arzuları dirilməli idi. Onlar şübhəsiz ki, təəccüb etmişdilər, bəlkə indi İsa Allahın padşahlığını qurar! (1:6). İndi O necə cavab verir?

> *İsa cavab verdi: "Atanın hökmü ilə təyin olunan vaxtları və tarixləri bilmək sizin işiniz deyil. Amma Müqəddəs Ruh üzərinizə enəndə siz qüvvə alacaqsınız və Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək hər yerdə Mənim şahidlərim olacaqsınız"* (1:7, 8).

Başqa sözlə İsa deyir, bu sizin işiniz deyil. Allah bilir. Siz bilmirsiniz. O bunu demir.

Padşahlığın nə vaxt bərpa olacağı fikirləri ilə dolmaqdansa, şagirdlərin başqa tapşırığı var idi ki, onu birinci həyata keçirməli idilər. Onlara vəd edilmişdi ki, onlar bunu etmək üçün Allahın gücünü qəbul edəcəklər. Onların tapşırığı padşahlığın nə vaxt gələcəyi barədə narahat olmamaqdır; onların tapşırığı Onun şahidləri olmaq idi. Onlar nə vaxtsa baş verə bilən ən gözəl hadisəyə şahid olmuşdular və onlara həvalə olunmuşdu ki, Allahın onlar üçün etdiklərini başqalarına da danışsınlar.

> *"Siz... Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək hər yerdə Mənim şahidlərim olacaqsınız"* (1:9).

Bütün dünya üçün edilmiş iş dünyaya deyilməli idi ki, başqaları da şagirdlərin nəyi təcrübədən keçirdiklərini təcrübədən keçirsinlər. Allahın padşahlığı dirilməyə şahid olan bəzi insanlar ilə məhdudlaşa bilməz. Qələbə bütün dünya üçün çalınıb! Allahın qələbəsinə şəhadətlik etməklə, onların tapşırığı başqalarının da günahın gücündən azad olmasını görməkdir.

Onun şagirdləri İsaya baxarkən O onlara tapşırıq verib sonra gözlərindən itənədək göylərə qalxdı. Biz oxuyuruq ki, O onların gözlərindən itənədək diqqətlə göylərə baxırdılar, birdən ağ libaslı iki kişi onların yanında dayandı.

Sonra Müqəddəs Kitabda ən qəribə suallar gəlir: *"Ey qalileyalılar, niyə səmaya baxa-baxa qalmısınız?*"

Təsəvvür edin ki, siz orada olmusunuz. Siz indicə kiminsə göylərə qalxdığını gördünüz. Hətta İsa üçün bu heyranedici idi! Sizə deyilir: "Nəyə görə göylərə baxırsınız?" İlk baxışda mələyin sualı demək olar ki, gülməli görünür.

Amma mən düşünürəm ki, burada gizli eyham var. Şagirdlərə sual verildi: "Qalileyalılar, sizin göylərə baxmaqdan başqa bir işiniz yoxdurmu? İsa qayıdacaq, amma əvvəlcə nəsə baş verməlidir. Siz Müqəddəs Ruhu alanadək Yerusəlimdə gözləməlisiniz və Onun şahidləri olmalısınız, Müqəddəs Ruh bunu həyata keçirməyi mümkün edəcək."

> *"Aranızdan götürülüb göyə qaldırılan İsanın aparıldığını necə gördünüzsə, elə də qayıdacaq*" (Həv. İş. 1:11).

Bunu eşidərkən 12-ci ayə bizə deyir ki, onlar Yerusəlimə qayıtdılar, on gündən sonra Ruhu qəbul etdilər və bundan sonrakı illərdə dünyanın hər bir yerinə Məsih barədə şəhadətlik etdilər. Yazılardan bizə gəlib çatır ki, sonda Allahın planını həyata keçirmək işində Yəhyadan başqa hamı imanlarına görə öləcək. Mələklərin dediyi kimi onları ruhlandırmaq İsanın qayıtmasına ümid idi.

Əhdi-Cədid boyunca Müjdənin bəyanatı və İsanın ikinci gəlişi bir-birilə bağlıdır. Matta 28-ci fəslin Böyük Tapşırığında biz oxuyuruq

ki, İsa Öz şagirdlərinə demişdi ki, gedib bütün xalqları şagirdlər etsinlər, vəd etmişdi ki, dünyanın sonuna qədər

onlar hara getsələr, onlarla olacaq. Müjdənin vəz edilməsi ilə son arasında əlaqə diqqətəlayiqdir.

Matta 24-cü fəsildə İsa son günlərdə baş verəcək dəhşətli şeylər haqqında danışır və O danışarkən belə deyir: *"Səmavi Padşahlığın bu Müjdəsi bütün millətlərə şəhadət olmaq üçün bütün dünyada vəz ediləcək.* ***O zaman hər şeyin axırı gələcək***" (24:14). Sadəcə Müjdə bütün dünyaya vəz ediləndə İsa qayıdacaq və padşahlıq tamlığı ilə gələcək.

Həv. İş. 2-ci fəsildə Müqəddəs Ruh barədə vəd həyata keçdikdən sonra biz 20 və 21-ci ayələrdə Peterin İsanın ikinci gəlişi ilə insanların tövbəsini əlaqələndirdiyini görürük. 3-cü fəsildə 19-21-ci ayələrdə o bunu yenidən təkrarlayır:

> *Beləliklə, günahlarınız silinsin deyə tövbə edib Allaha tərəf dönün ki, Rəbbin hüzurunda rahatlıq vaxtı tapasınız və O da sizin üçün əvvəlcədən təyin olunan* ***Məsihi, yəni İsanı göndərsin.***

İnsanların tövbə etməsi və Məsihin gəlişi bir-biri ilə əlaqəlidir.

Neçə illər sonra Peter qoca kişi olanda bu faktı dəstəkləyir ki, İsa hələ qayıtmayıb. İnsanlar məsihçiləri ələ salmağa başlayırlar və deyirlər ki, İsa qayıdır. "O qayıtmır", onlar rişxənd edirlər. Bəzi məsihçilər, xüsusilə indi imanlarına görə həddən artıq əzab çəkərkən bunu eşidib təəccüblənməyə başlayırlar. İsanın geriyə qayıdacağını vəd etdiyi vaxtdan çox keçib. Ola bilsin ki, skeptiklər doğrudurlar.

Peter 2 Peter 3:9-da cavab verir: *"Bəziləri bunu gecikmə sayar, amma Rəbbin vədini yerinə yetirməkdə gecikməz, lakin sizə görə səbir edir. Çünki O heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir.*"

Peterə əsasən nəyə görə İsa qayıtmadı? O daha çox insanın tövbə etməsini gözləyir. Şəhadətlik etmək tapşırığı hələ bitməyib. Məsihin işi tamamlanıb. Bizim işimiz tamamlanmayıb. Allah lütfkardır və O gözləyir ki, daha çox insan Məsihə gəlsin.

Amma İsanın nəyə görə hələ qayıtmadığına səbəb var və bu birinci ilə əlaqəlidir. Allahın xalqı Məsih üçün şəhadətlik etməkdə sadiqdirsə, onlar təqib olunacaqlar, hətta Müjdə uğrunda öldürüləcəklər. Vəhy 6:9, 10-da biz bu sözləri oxuyuruq: *"Quzu beşinci möhürü açanda qurbangahın altında Allahın kəlamına və etdikləri şəhadətə görə kəsilən canları gördüm. Onlar uca səslə fəryad edirdi: 'Ey müqəddəs və haqq olan Pərvərdigar, nə vaxta kimi mühakimə etməyib yer üzündə yaşayanlardan qanımızın qisasını almayacaqsan?'"*

Ya Rəbb, Sən qayıdıb mühakimə edənə qədər onlar nə qədər fəryad edəcəklər? Onlara 11-ci ayədə cavab verilir:

> *Onda hər birinə ağ xalat verilib deyildi ki, özləri ilə birgə qulluq edən, onlar kimi öldürüləcək bacı-qardaşlarının sayı tamam olana qədər bir az vaxt da rahat olsunlar.*

Bu parçaya əsasən "İsa nə vaxt qayıdacaq?" sualına cavab sadədir. Sonuncu şəhid, sonuncu şahid şəhadətliyinə görə öldürüləndə bu olacaq. Allah deyəcək: "Tamamlandı!" (16:17). Darvazalar bağlanacaq, göylər möhürlənəcək və Məsih dünyanı ittiham etməyə gələcək. Allahın yaradılışının bərpası tamam olacaq.

Şəhidliyin bu planetdə fiziki ölümün həm başlanğıcını, həm də sonunu qeyd etdiyi mənə əhəmiyyətli bir şey kimi görünür. Birinci və sonuncu öldürülməli olan insanlar şəhidlərdir. Bizim özümüzə verməli olduğumuz sual budur: "Mən İsa üçün sonuncu şəhid olmağa hazırammı?"

Mərkəzində çarmıx olan Müjdə çarmıxı daşıyan qasidləri tələb edir.

MÜNDƏRİCAT

ÖN SÖZ *3*

ƏHDİ-ƏTİQƏ NƏZƏRƏN BAXIŞ *8*

BAŞLANĞICDA TÖVRATDAN ANLAYIŞLAR 8

İnsan hüquqları və dini azadlıq üçün Kəlama nəzərən əsas 8

Təqib üçün Kəlama nəzərən əsas 24

Qabil və Habil. 31

Nuh. 34

Lut 35

İbrahim 35

İshaq 37

İsrailin Misirdəki əsarəti. 37

Qanunun Təkrarında Xeyir-dua və Lənət. 38

TARİXİN NÜMUNƏSİ: TARİXİ KİTABLARDAN ANLAYIŞLAR 40

Tarixə əhdi-ətiqə nəzərən baxış. 40

Əzab bir tərbiyələnmə kimi 46

Tərbiyələnmə bir cəza kimi 47

Tərbiyələnmə ruhani yetkinlik üçün vasitə kimi . . 48

Xüsusilə Allah uğrunda əzab 49

ŞAİRLƏR VƏ FİLOSOFLAR: HİKMƏT ƏDƏBİYYATINDAN ANLAYIŞLAR. 50

Əyyub 50

Məzmurlar 57

Təqiblə əlaqədar əhdi-Cədiddə istifadə olunan məzmurlar 58
22-ci Məzmur 59
31-ci Məzmur 61
Məzmur 34 62
35-ci Məzmur 63
41-ci Məzmur 64
42, 43-cü Məzmurlar 64
44-cü Məzmur 64
69-cu Məzmur 65
91-ci Məzmur 65
116-cı Məzmur 66
118-ci Məzmur 67
Erkən məbəd Təqib və Şagirdliyi müzakirə edərkən Məzmurlardan necə istifadə etmişdir 68
Qarğış (Lənət) Məzmurları 91
Vaiz 93
Süleymanın Məsəlləri 94

RƏBB BELƏ DEYİR: PEYĞƏMBƏRLƏRDƏN ANLAYIŞLAR 99
Yeşaya 99
Yeremya 102
Daniel 106

ALLAHIN MƏSİHDƏ VƏHYİ *112*

ALLAH ƏZAB ÇƏKƏN BİRİ KİMİ 112
Hissiyyatsızlıq təlimi 115
Antropomorfik metaforalar 118
Bədənlə əzab 120
Ünsiyyətlə əzab 128
Şəfqətlə əzab 130

ALLAH ÖZÜNÜ VERƏN BİRİ KİMİ 131

MƏSİH BARƏDƏ ÜMİDLƏR 137

Məsihin təyinatı 137
Birinci əsrin iudaizminin gözlədikləri 138
Şagirdlərin gözlədikləri 140
Peter (Matta 16) 140
Vəftizçi Yəhya (Yəhya 1; Matta 11) 142
Görkəmin dəyişilməsi (Matta 17; Mark 9; Luka 9) 146
Göylərə qalxma (Həv. İş 1; Matta 28) 150
İsanın strategeiyası 151

ŞAGIRDLIYƏ ÇAĞIRIŞ, ÇARMIXA ÇAĞIRIŞ 153

Matta 154
Matta 5:10-12 154
Matta 10:16-42 157
Matta 16:21-28 182
Mark 190
Luka 195
Lukada təqib mövzuları 196
Lukada təqibin teoloji təlimləri 197
Yəhya 202

HƏVARİLƏRİN İŞLƏRİ: BƏYANAT VƏ TƏQİB 208

HƏVARİLƏRİN İŞLƏRİ KİTABINDA TƏQİB 208
Həvarilərin İşlərinə ümumi baxış 208

HƏVARİLƏRİN İŞLƏRİNDƏ TƏQİBİN TEOLOJİ TƏLİMLƏRİ 221

SON MÜŞAHİDƏLƏR (HƏVARİLƏR NƏYƏ GÖRƏ ƏZAB ÇƏKMƏYƏ VƏ ÖLMƏYƏ HAZIR İDİLƏR?) 223

HƏVARİLƏRİN TƏLİMİ *227*

PAUL 227

1 və 2-ci Saloniklilər 227
1 Saloniklilər 227
2 Saloniklilər 233
1 və 2-ci Korinflilər 237
1 Korinflilər 239
2 Korinflilər 247
Romalılara məktub. 260
Qalatiyalılar 271
Efeslilər 272
Efes. 3:1 272
Efes. 4:1 274
Efes. 6:10-20 274
Filipililər 277
Filipililərə 1-ci fəsil 277
Filipililər 2-ci fəsil 280
Filipililərə 3-cü fəsil 281
Kolosselilər 285
Filimon 289
1 Timotey 290
2 Timotey 292
2 Timotey 1 293
2 Timotey 2-ci fəsil 297
2 Timotey 3:10-13 299
2 Timotey 4:6-18 300

İBRANİLƏR 304

İbranilər 11-ci fəsil 306
İbranilər 12-ci fəsil 308
İbranilər 13-cü fəsil. 311

YAQUB 312

PETER 316
1 Peter 316
2 Peter 331
YƏHYA 332
1 Yəhya 332
2 Yəhya 334
3 Yəhya 334
Vəhy 335

www.kitabi-knigi.com

İstənilən cihaza öz dilinizdə yükləyin və oxuyun,
Bütün ailə üçün pulsuz elektron Kitablar



ÇARMIXIN KÖLGƏSİNDƏ

Kəlamın hər bir yerində (Əhdi-Ətiq və Əhdi-Cədiddə) Allaha məqbul həyatı yaşamağı seçənlərin sınaqları və təqibləri aşkar olunur. Habildən peyğəmbərlərə, vəftizçi Yəhyadan həvarilərə qədər dünya həmişə Həqiqəti rədd etmişdir.

Qlenn Penner, Müqəddəs Kəlamda Yaradılışdan Vəhyə qədər əzab və təqib mövzusunu araşdırdığı bir zamanda siz 'Çarmıxın Kölgəsində' ona qoşula bilərsiniz.

Buraya 200-ə yaxın qədim və müasir məsihçi ailmlərinin müşahidələri və təlimləri daxil edilib. Əvvəllər heç vaxt Kəlamdakı təqib barəsində belə geniş təlim toplanmayıb.

Müqəddəs Kəlamı tədqiq edən bu heyrətamiz vəsait hər bir tələbəyə gərəkdir!

AZ